**MANAF SÜLEYMANOV**

# EŞİTDİKLƏRİM
# OXUTDUQLARIM
# GÖRDÜKLƏRİM

**AZƏRBAYCAN DÖVLƏT NƏŞRİYYATI**
**BAKI - 1987**

S (AZ) 2
S 97

İxtisas redaktoru
tarix elmləri namizədi
***Məsid Katibli***

Süleymanov M. F.
S 97 Eşitdiklərim, oxuduqlarım, gördüklərim:
B.: Azərnəşr, 1987. - 320 səh.

Azərbaycan Sovet yazıçısı M. Süleymanovun «Eşitdiklərim, oxuduqlarım, gördüklərim» kitabı Bakının qədim keçmişindən, inqilab dövründə «neft səltənətində» baş verən hadisələrdən, Bakının keşməkeşli günlərindən bəhs edir.

S 4202060200-23 / M-651- 87 179-86

S (Az) 2

© Azərnəşr, 1987

## BİR NEÇƏ SÖZ

Elə yazıçılar var ki, bütün ömürləri boyu ancaq bir mövzuya müraciət edirlər. Manaf Süleymanovun da qələminə ən çox yatan mövzu fəhlə həyatıdır, qurub-yaradan əmək adamlarının ömür-günüdür.

Bu mövzu qocaman yazıçının bütün yaradıcılığının əriş-arğasını, mayasını təşkil edir. O, ədəbiyyata əllinci illərdə neft kəşfiyyatçılarının həyatından bəhs edən «Yerin sirri» romanı ilə gəldi. Bir az sonra dəniz neftçilərinin qəhrəmanlıq mübarizəsindən, fədakarlığından bəhs edən «Dalğalar qoynunda», «Fırtına», Daşkəsən filizçilərinin həyatını işıqlandıran «Zirvələr» romanlarının müəllifi kimi tanındı. Bu əsərlərlə Ümumittifaq oxucuları da tanış oldular - «Yerin sirri» romanı alınan, çex, slavak, rumın və dünyanın bir çox başqa dillərinə tərcümə olundu. Manaf Süleymanovun oxucuların ixtiyarına verilən bu növbəti kitabı da Bakının qədim keçmişindən, inqilab dövründə «neft səltənətində» baş verən hadisələrdən, neft böhranından, XIX əsrin sonu, XX əsrin başlanğıcında Bakının son dərəcə mürəkkəb, ziddiyyətli, keşməkeşli günlərindən bəhs edir.

Əsərdə təsvir olunan hadisələrin əksəri müasir oxucu üçün xüsusi maraq təşkil edir; o, bir tərəfdən gəmisi əlindən çıxdığı üçün havalanmış kapitalistlə, digər tərəfdən güllə yağışı altında Bakıdan Həştərxana qayıqla neft daşıyan inqilabçılarla, beynəlxalq neft inhisarçılarına «yarınan», fəhlələrin beynəlmiləl birliyini zəiflətməkçün milli qırğın törədən ikiüzlü millətçilərin çürük mənəviyyatları ilə qarşılaşır.

Manaf Süleymanovun əsərində kapitalizmə xas olan mənəvi eybəcərliklər, o cümlədən neft qatlarının vəhşicəsinə istismarı özünün dolğun əksini tapmışdır. Burada sinfi təbəqələşmənin incəliyi də obrazlı şəkildə təqdim edilmişdir. Onun əsəri nə tarixi oçerkdir, nə də publisistik esse. Bu, hər şeydən əvvəl, həyat həqiqətidir. Bakıda kapitalizmin yaranmasından başlamış, onun süqutuna qədər bədii salnamə şəklində verilmiş bu əsərdə biz o dövrün əlamətdar hadisələri, müxtəlif taleli adamları ilə görüşürük. Çoxdan həyatdan köçmüş bu adamlarla biz əsərin köməyi ilə yenidən qarşılaşırıq. Kitabı oxuyarkən bu adamların talələri səni təkrar-təkrar düşündürür, adama elə gəlir ki, onların hamısı - atadan miras qalmış mülkü qumarda uduzub «işlər şuluqdur, gərək özümü yığışdıram» deyək vecsiz övlad da, «imzasını qoymuş miləl övraqi-həyat, yox millətimin xətti bu imzalar içində» deyən böyük şair də, faciəvi şəkildə öldürülmüş görkəmli aktyor da səninlə həmsöhbətdir. O dövrün möhtəşəm sarayları, imarətlər, qumarxanalar, gecə klubları, neft fontanları, havayı yerə axıb tökülən «qara qızıl» çayları, bazarlar, karvansaralar, yanğınlar, tətillər, nümayişlər, qanlı toqquşmalar - əsrin təzadlı hökmü, zəmanənin siması idi.

Kitab «Eşitdiklərim, oxuduqlarım, gördüklərim» adlanır.

Əsərin jurnal variantı («Azərbaycan», 1984-cü il, № 3-4) rəğbətlə qarşılanmışdı. səbəbi aydındır. Bugünkü böyük sosial tərəqqinin qaydaları qədim və ulu keçmişimizdən axıb gəlir. Gələcək nəsillər istiqbala dünənin və bu günün maddi və mənəvi körpüsü üstündən keçib gedəcəklər, bunların hamısı birlikdə böyük vətəndaşlıq məktəbidir.

***BAYRAM TAHİRBƏYOV,***
***professor***

# BAKININ KÖHNƏ MƏHƏLLƏLƏRİ VƏ TİCARƏT MƏRKƏZLƏRİ

İmzasını qoymuş miləl övraqi-həyatə,
Yox millətimin xətti bu imzalar içində.

***Məhəmməd hadi***

Var millətimin xətti bu imzalar içində.

***M. S.***

Bakı şəhərinin tarixi çox qədimdir, onun adına hələ miladdan qabaq yazılmış əsərlərdə rast gəlinir, burda əl quyuları vasitəsilə neft çıxarmaq, şoranlıqlardan duz istehsal etmək, zəfəran becərmək barədə qədim sənədlərdə də qeydlər var. Yunan, ərəb, fars, rus və Avropa səyyahları və alimləri Bakıdan dəvə karvanları ilə tuluqlarda başqa ölkələrə neft daşınmasını öz əsərlərində göstərirlər. Şəhəri araya alan qala hasarları istilahlar vaxtı dəfələrlə dağıdılmış, sonralar yenidən bərpa edilmişdir. Bakının gah bir-birindən aralı üç, gah iki, ən axırda XIV əsrdən indiyə qalan hissəsini hasara alıblar. Bəzən qalanın iç tərəfində enli, dərin xəndəklər qazılar və dənizlə birləşdirilərdi, gündüzlər gediş-gəliş asma körpülərlə olardı. Axşam qaranlıq düşəndə körpünü qaldırardılar. Qala divarları üstündə gözətçilər gəzərdi. Dəniz tərəfdə də, eynilə hündür hasar ucalardı. Bir sözlə, şəhər üzük qaşı kimi araya alınmışdı.

Bakı əsrlər boyu şərq, cənub və şimal qonşuları ilə ticarət etmişdir. Bu əlaqə həm karvan yolları, həm də dəniz vasitəsilə olmuşdur. Bizim dövrümüzə qədər İçərişəhərdə qalmış «Buxaralılar karvansarası» və «Hindistanlılar karvansarası» sübut edir ki, Bakı XIV-XVI əsrlərdə Orta Asiya və Hindistanla geniş ticarət etmişdir. Bakının hərtərəfli inkişafı, onun adının bütün dünyada məşhur olması, əlbəttə, XIX əsrin ikinci yarısından, 70-ci illərdən başlayır. Bu da neft sənayesinin inkişafı ilə bağlıdır.

Bakı quberniya mərkəzinə (1859) çevriləndə əhalisi təxminən yeddi minə yaxın idi. Şəhər Qala divarları içərisindəydi. Küçələr darısqal, əyri, evlər bir-iki mərtəbəli... Diqqəti cəlb edəcək üç böyük bina vardı. Təpədə «Şirvanşalılar sarayı», «Qoşa qala» qapısı, yaxud «Şamaxı darvazaları» yanında Bakı xanlığının sarayı, bir də əfsanəvi Qız qalası. Onun tikilməsi barədə müxtəlif rəvayət və ehtimallar var. Deyilənlərə görə, Qız qalası çox qədim zamanlarda ulu babalarımız tərəfindən tikilib. İlk adı «Gözətçi qülləsi» imiş, damda gecə-gündüz növbətçilər dənizə baxır, düşmən gəmilərinin hərəkətini izləyirmişlər. Pis havalarda ticarət və sərnişin gəmilərinə istiqamət vermək üçün damda tonqal qalayarmışlar. Get-gedə adını qısaldıb eləyirlər

«Göz qüllə», sonra da gah amansız düşmənə qarşı sarsılmaz, qorxunc müdafiə bürcünə, nəhayət, bütün maneələrə qələbə çalan sevgi, məhəbbət abidəsinə - «Qız qalası»na çevirirlər. Deyilənlərə görə, Qız qalasından yerin altı ilə üç istiqamətə - Ramana qalasına, Bibiheybət məscidinə, Yasamal dərəsinə - Qurt qapıya yol gedirmiş.

Bakı öz odu, öz alovu ilə atəşpərəstlərin ən müqəddəs ziyarətgahına çevrilir. Dünyanın hər yerindən öz-özünə alışan, yanan ocağa ziyarətə gəlirdilər. Şübhəsiz, bütün bunlar, Bakının o dövrdə mədəniyyət ocağı olduğunu sübut edir. Bakıda üç atəşgahın olması təsadüfi deyil. Atəşgahlardan biri Suraxanıda, digəri «Pirallahı»da (indiki Artyom adası), üçüncüsü isə Şubanı dağında idi.

Şubanı dağındakı Atəşgah məbədi atəşpərəstlərin ən böyük, ən müqəddəs ziyarətgahı hesab edilirmiş. O aradakı torpaqlar Abdal dərviş adlı bir şəxsin imiş. Abdal dərviş dayaz quyular qazdırar, oradan çıxardığı nefti satıb ehtiyac içində olan kasıblara, xəstələrə, yiyəsiz uşaqlara və dul arvadlara kömək edərmiş. Şubanı Atəşgahını ötən əsrin axırlarında dağıdırlar.

On doqquzuncu əsrin əllinci illərinin axırında Bakıya səyahətə gələn məşhur fransız yazıçısı Aleksandr Düma (rəssam Mone ilə bərabər) «Qafqaz səfəri» adlı əsərində Suraxanıdakı Atəşgahı gördüyünü belə təsvir edir:

«...Bakıdan atəşpərəstlərin müqəddəs məbədi Atəşgaha gedəndə yolun yarıdan çoxu dəniz qırağı ilə uzanır. Sola burulub alçaq çökəklik və təpələrdən keçir. Mənzil başına çatmağımız iki saat çəkdi. Təpəliyə qalxdıqda qarşıda təsəvvürə gəlməyən qəribə bir mənzərə açıldı. Atəşgah dövrəsindəki binalar, tüstü və alov sovuran yüzlərlə irili-xırdalı ocaqlar ovuc içi kimi görünürdü. Onlar bir kvadrat liyalu* sahədə yerləşirdi. Külək əsdikcə alov zolaqları, dilləri sanki qəribə rəqslər edir, gah bulaq təki qaynayır, gah dalğa təki yan-yörəyə hücum edib şahə qalxır, gah da gözlənilmədən ucalırdı. Elə bir təsəvvür oyanırdı ki, külək alovla oynayır, onlar bir-birinə sarılır, sonra qəfildən «əlbəyaxa» olurlar. Külək nə qədər cəhd edirdisə odu, alovu söndürə bilmirdi. Havaya qalxan alov əhənglənmiş binanı, onun divarlarını işıqlandırır, daha da nəzərə çarpdırırdı. Elə təsəvvür oyanırdı ki, bina özü də tərpənir. Binanın içəri tərəfində dövrələmə düzəldilmiş ocaqlardan şölələnən qaz iri məşələ oxşayırdı. Bu ocaqların hər birisinin yan tərəfində dördkünc günbəz vardı. Hər küncdə də alov püskürürdü. Binanın sağ tərəfindəki ocaq daha gur yanırdı, daha çox alov sovururdu. Günbəzlərin künclərindəki ocaqların alovu nisbətən zəif idi.

Atəşgaha günbatan tərəfdən yaxınlaşdıq. Qapı gün-çıxana açıldığından binanın dövrəsində hərlənməli olduq.

* Liyalu - fransızlarda məsafə ölçüsü - 4,5 kilometr.

Birdən gözlərimiz qarşısında qeyri-adi, olduqca gözəl bir mənzərə canlandı, ətraf çıraqban oldu.

Dedilər ki, bu aralar yalnız bayram günlərində, bir də müqəddəs ayinlar vaxtı belə çıraqban olur. M. Piqulevski bizim xatirimizə əvvəldən kahinlərə xəbər göndərib mərasim hazırlatdırıb.

Atəşpərəstlər iki min ildən çoxdur ki, təqib edilirlər. Onların bu axırıncı yazıq, müti nümayəndələri (mərasimi bizə göstərmək üçün) əllərindən gələni əsirgəməyib, indi də əmrə müntəzir durmuşdular.

Bu mənzərəni görmək istəyən həmvətənlərim bir qədər tələsməlidirlər. Çünki atəşpərəstlərin ibadətgahında var-yox üç nəfər adam qalmışdır, onların da biri qoca, ikisi isə otuz-otuz beş yaşındadır.

Biz yan-yörəsindən alov sovurulan qapıdan dördkünc həyətə girdik. Ortadakı günbəzli səcdəgah və onun hər dörd küncündən əbədi alov ucalırdı. Səcdəgah hündürdədir, beş-altı pillə qalxmaq lazım gəlir. Səcdəgahın dövrəsində, bayır divarlar boyu iyirmiyə qədər hücrə var, qapıları içəriyə tərəf açılır. Bu hücrələrdə vaxtilə Zərdüştməzhəb tələbələr yaşayırmış. hücrələrdən birində taxçada iki büt durur.

Atəşpərəstin biri kahin paltarını geydi, digəri əyninə köynək sayağı bir şəlpə keçirtdi. Başladılar ibadət etməyə. İbadət dedikdə, bu səslərin qeyri-adi dəyişməsindən ibarət dörd-beş xromatik qamma notasından başqa bir şey deyildi. Sol və mi arasında təkrarlanır, tez-tez də Brahmanın adı çəkilən nəğmədir. Kahin arabir əyilib səcdəyə getdikdə o birisi əlindəki cinsləri bir-birinə vururdu. Cins cingilti ilə bərkdən səslənirdi.

Mərasim tamam olandan sonra kahin hərəmizə bir parça nabat uzatdı, biz də ona bir manat pul verdik.

Neft quyularına baxmağa getdik. Ən dərini 18 metr idi. Su quyusu imiş; birdən quruyur. Dibinə baxmaq üçün cındır parçasını alışdırıb quyuya atırlar. Birdən alov ucalır; o vaxtdan yanmaqdadır. Yaxınlaşıb quyuya baxmaq qorxuludur. Qaz iyindən baş gicəllənə bilər. Vay gicəllənmiş başın halına, daha ayaqlar sözə qulaq asmayıb yerdən üzüləcək, düşəcək alov püskürən quyuya.

Hər ehtimala qarşı quyunu çəpərə alıblar. Başqa quyuları dəmir şəbəkə ilə örtüb üstünə də daş qoyublar. İstinin nəticəsində daşlar on-on iki saatda dönüb olur gips. Daşın alovdan gipsə çevrilməsinə tamaşa edirdik ki, Atəşgahın bir kilometrliyindəki Suraxanı kəndinin böyüyü yanımıza gəlib bizi çaya dəvət etdi.

Dəvəti qəbul etdik, faytona minib yola düşdük.

Əcəb çaydır. Belə təmtəraqlı məclisi təkcə çay mərasimi adlandırmaq ən azı insafsızlıqdır.

Səliqəylə döşənib bəzədilmiş otaqda bizi ləzzətli Azərbaycan xörəklərinə qonaq etdilər. Burada dincəlib yatmaq da olardı.

Ev sahibi gecələməyimizi xahiş etdi. Mən məmnuniyyətlə qalardım, amma M. Piqulevski səhər tezdən şəhərdə olmalı idi, vacib qulluq işi vardı. O, Bakıya tək qayıtmaq istəsə də vicdanım qəbul etmədi. Ev sahibinə təşəkkür edib gecə saat 11 -də yola düşdük.

Neapol solfatorundan da üstün olan Bakı solfatoru Atəşgahının yanından keçib Bakıya qayıdırdıq.»

Bakı quberniya mərkəzinə çevriləndən sonra əhalinin sayı gündən-günə artır, kənarda, qalanın ətrafında, pərakəndə halda olan xırda məhəllələrin arasına yeni məhəllələr, Fortştat salınır. Qalanın dənizə baxan hasarını dağıdıb daşlarını isə salınmaqda olan sahil küçəsinə döşəyirlər. Hasarın qalan hissəsini dağıtmaq istəyəndə bundan Tiflisdə Qafqaz canişini xəbər tutur, qədim şəhərin daş zirehi alayarımçıq qalır.

Bakının ilk memarlarından biri - Qasımbəy Hacıbababəyov olub. O, şəhəri böyük ustalıqla planlaşdırıb, məhəllələri elə layihələşdirib ki, rus və Avropa şəhər salan memarları heyran qalıblar. Relyefi, yerin topoqrafiyasını, dərə-təpə olmasını nəzərə alıb, küçələri pilləvari şəkildə planlaşdırıb. Məşədi Mirzə Qafar adında başqa bir memar da binaları ilhamla, ustalıqla layihələşdiribdir. O, ömrünün otuz ilini bu nəcib sənətə həsr edib.

Qara qızıl diyarı Bakının şöhrəti bütün dünyaya yayılır. Varlanmaq üçün dünyanın bir çox sənət, peşə sahibləri buraya axışırlar. Məşhur mühəndislər, memarlar, alimlər, kimyagərlər, texnoloqlar, inşaatçılar Bakıda mənsəb və dövlət sahibi olurlar.

Bakı nefti təkcə Azərbaycanın yox, bütün Qafqazın dirçəlməsinə güclü təkan verir. Neftlə əlaqədar əyalətin siması dəyişir, iqtisadiyyatı yüksəlir. Uzunluğu 520 kilometr olan Tiflis-Bakı dəmir yolu az bir müddətdə çəkilir və 1883-cü ildə işə salınır. Şəhərdən Sabunçu və Suraxanı mədənlərinə 26 kilometr uzunluğunda dəmir yolu il yarıma (1878-ci ilin axırı 1880-ci ilin əvvəli) çəkilib qurtarır.

1870-ci ildən başlayaraq şəhərdə inzibati və ictimai müəssisələrin sayı artır. Quberniya və münsiflər məhkəməsi təsis edilir.

İyirminci əsrin ilk illərindən başlayaraq Bakıya varlılar və ziyalılar gələrdilər, məşhur vəkillərin çıxışlarına, sual-cavablarına qulaq asardılar. Tez-tez Peterburqdan, Moskvadan, Tiflisdən, Kiyevdən məşhur vəkillər, böyük qazanc məqsədilə Bakıya köçərdilər. Vəkillərdən Makinski, Bek, Qarabəy, Şatunovski, Əlimərdanbəy Topçıbaşev, Fətəli xan Xoyski, Maklakov, Zamaslovski və bu kimi vəkillərin çıxış etdikləri salona girmək mümkün deyildi.

Ən maraqlı məhkəmə prosesi vəkil Qarabəyin iştirak etdiyi mühakimələr olurmuş. Bakılılar ona «Ayını ağladan Qarabəy» ləqəbi qoymuşdu. O, arıq, ucaboydu, geyimi də adi idi: şalvar, arxalıq, üstündən nazik toqqa -təkbənd, çuxa, başında karton üstə mahud çəkilmiş drabi, ya da ki, adi

buxara dərisindən papaq olardı. Qıvrım saçları üz-gözünə tökülərdi. Ağıllı gözləri vardı. Olduqca sakit, xoşrəftar... Yumorla danışardı. Tiflisin və Bakının vəkilləri biləndə ki, tərəf müqabilləri Qarabəy olacaq, həmin işdən boyun qaçırardılar. Bütün dövlət qanunlarını, maddələrini bir-bir, senat qərarlarını, nazirlər sovetinin, ədliyyə nazirliyinin, prokurorluğun, müqəddəs senod prokurorluğunun hökm, təklif və sərəncamlarının il və ayını, nömrələrini əzbərdən bilirdi.

Adlı-sanlı vəkillərin hərarətli, emosional, patetik, insani hisslərə güclü təsir edən gurultulu çıxışlarından sonra Qarabəy xitabət kürsüsünə qalxar, çuxasının yaxalığını düzəldər, papağını götürüb sağ əlinin arıq, uzun barmaqları ilə kürsünün kənarına vurub sözə başlarmış: «Cənablar, dediklərinizin hamısını eşitdik, nitq atəşin idi, soşğun idi, lakin mülki kodeksin filan maddəsi, ona əlavə senatın filan tarixli (ayı, ili və hətta gününü qeyd etməklə) qərarına, ədliyyə nazirliyinin filan tarixli sərəncamına əsasən bu iş belə həll edilməlidir.

Qarabəy danışdıqca müqabil tərəfin vəkili, vəzifə sahibləri kodeksləri, sərəncam, qərar, tapşırıq və göstərişləri axtarıb tapmaq üçün tələsə-tələsə cildləri vərəqləyirdilər.

Salonda olanlar bu sadəgeyimli, təvazökar vəkilə hörmət dolu nəzərlərlə baxar, məsələnin necə həll ediləcəyini maraqla gözləyərdilər; hamı onun hafizəsinə, məntiqinə heyran qalardı; xeyirxahlar da, bədxahlar da.

Qarabəyin, Qafqaz canişini Voronsov-Daşkovun Balaxanıda öz mədəni ilə qonşuluqdakı Yetim Hacı Yusifin «Baba bostanı» sahəsini zəbt edib hasara alandan sonra, yeri necə məharətlə dala almağını, yağlı tikəni sərdarın boğazından bağırda-bağırda çıxarmağını uzun-uzadı tərifləyib öyünürdülər: «Zarafat deyil, Qarabəy ayını ağladan mığmığdır».

Əhvalat belə olmuşdu: «Baba bostanı»nı hasara alandan sonra yerin sahibi Yetim Hacı Yusif vəkil tutub işi məhkəməyə verməyi qərara alır və şəhərdə vəkil qalmır ki, müraciət etməsin. Elə ki, vəkil müqabil tərəfin Qafqaz sərdarı olduğunu eşidirdi, o saat bu işdən boyun qaçırırdı; hələ bəziləri eyhamla, zarafatla deyirmiş ki, bu ayı ilə bir çuvala girmək kimi bir şeydir, adamın üz-gözünü cırmaqlayar, qarnını yırtar, boğar, çətin işdir, arxası Nikolay padşaha bağlıdır.

Axırda mülk sahibi Yetim Hacı Yusif gedir Qarabəyin yanına, yalvarır ki, əl mənim, ətək sənin, əlimi kəs, amma ətəyini üzmə.

Qarabəy razılaşır, birbaşa Peterburqa (indiki Leninqrad) yollanır, üç-dörd ay əlləşəndən sonra Bakıya senat komissiyası ilə qayıdır. Komissiya üzvlərini mindirir iki faytona, aparır düz Balaxanıya - hasara alınmış yerin qabağına. Komissiya üzvləri yoldan ötən müsəlman, rus, erməni və yəhudilərdən soruşurlar ki, bu yerin adı nədir? hamı cavab verir ki, Yetim Hacı

Yusifin «Baba bostanı». Həmin adamların adını kağıza yazıb qol çəkdirirlər, savadsızlar isə barmaq basırlar.

Oradan da komissiya üzvlərini aparır məscidə, orucluğa görə adamlar müqabilədə imiş, Quran oxuyurlarmış. Müqabilə qurtaranda, komissiya üzvləri başlayır sorğu-suala, yüzdən çox ağzı oruclu adam qəsəm edib Qurana əl basaraq şəhadət verirlər ki, o yerin adı Yetim Hacı Yusifin «Baba bostanı»dır, ulu babalarından qalma yurdudur, nə satıb, nə də bir kəsə bağışlayıb.

Komissiya deyilənləri qeyd edir, savadlılara qol çəkdirir, qalanları isə barmaqlarını basır.

Qarabəy sabahı gün komissiyanı aparır Sabunçuya, sonra da ətraf kəndlərə və bu qayda ilə arayış yazdırıb imza atdırır və komissiya ilə bərabər dönür Peterburqa, Voronsov-Daşkov işi uduzur. Qarabəy Peterburqdan Bakıya «Baba bostanı»nın sahibinə qaytarılması barədə qərarla qayıdır və qanunsuz çəkilmiş hasarı Voronsov-Daşkovun öz işlər rəisinə də sökdürtdürür.

Bu hadisədən sonra Qarabəyin hörməti, nüfuzu birə min artır, hər yerdə deyirlər ki, Qarabəy Qafqaz sərdarına qalib gəlib, zarafat deyil, Fitilbörkdə də hörməti var.

İki ildən sonra Yetim Hacı Yusifin «Baba bostanı» yerində qazılan quyu elə gurultulu fontan vurur ki, səsi Bakıda eşidilir, sədası Tiflisə və Peterburqa çatır.

Yaşı doxsanı aşmış və bu əhvalatdan xəbərdar, qocaman bir mühəndisdən xəbər aldım ki, bəs «Ayını ağladan» ləqəbi hardan çıxıb; cavab verdi ki, bir dəfə mığmığ görür ki, ayı özünü günə verir, uçub ona yaxınlaşır. Ayı ona acıqlanır: Rədd ol burdan, başımı ağrıtma. Mığmığ deyir: Ağladaram səni ha, yalvararsan mənə. Rədd ol! - deyə ayı ona təpinir - sən nə zibilsən ki, məni ağlada biləsən? Mığmığ qəzəblənir, soxulur ayının burnuna. Ayı ha asqırır, ha fınxırır ki, mığmığı burnundan çıxarsın, mümkün olmur, əksinə, mığmığ daha da yuxarılara dırmaşır... Ayı elə əziyyət çəkir ki, bağırtısı meşəni, dağı-daşı başına alır, başını daşdan-daşa, qayadan-qayaya döyür. Mığmığ isə başlayır ayının beynini gəmirməyə.

Heyvanlar tamaşaya gəlir. Tülkü əhvalatdan agah olanda ayıya deyir ki, işin şuluqdur, yalvar mığmığa, başqa çarə yoxdur. Yalvar, diz çök! Yoxsa ölərsən...

Ayı diz çökür, başlayır mığmığa yalvarıb-yaxarmağa. Mığmığ bayıra çıxıb qürurla öyünür: Ayı mənə yalvardı, ayını ağlatdım, ayı mənə yalvardı.

Şəhər böyüyür, idarələr artır. Bakı dövlət palatası qurulur. Duma nəzdində «Şəhər qərardad idarəsi» - «uprava» yaradılır. Həsənbəy Zərdabi bələdiyyə seçkiləri barədə 1878-ci ildə «Əkinçi» qəzetində camaata belə bir məsləhət verir: «Siz allah, intixab edən zaman, intixab elədiyiniz adamların uzun saqqalına, böyük qurşağına, dəmir sandığının doluluğuna baxmayın. Şəhər divanxanalarında danışıq və yazı-pozu rus dilində olacaq. Ona binaən

gərək rus dili bilən, doğru adamlar intixab edəsiniz ki, xaçpərəstlər intixab edən calislərin (onlar üçdən iki hissə intixab edəcəklər) arasında bizim adımızı dəxi ziyadə batırmasınlar. Güman etməyin ki, bu məsləhəti biz özümüzdən ötrü deyirik. Xeyr, biz buğda yeyib cənnətdan çıxmışıq. Bizi intixab edilənlərin siyahısına yazmayıblar. Ona binaən ki...

«Nə bə şütür səvarəm,
Nə çü xər, bəziri barəm,
Nə xudavəndi-rəiyyət,
Nə qulam şəhriyarəm.»

Gündən-günə böyüyən şəhərdə ufunətdən nəfəs almaq olmurdu. Evlərdə saxlanan mal-qara, qoşqu atlarının çoxalması, bir yandan havanı korlayır, digər tərəfdən isə yoluxucu xəstəliklərin yayılmasına səbəb olurdu. Bunları nəzərə alıb 1878-ci ildə ümumi kanalizasiyanı çəkməyə başlayırlar.

Şəhərdə polis şöbələrinin sayı artırılır.

Biri baş dəllal, doqquzu adi dəllal olmaqla Bakı pul birjası qurulur. Dəllallar xaçpərəst, özləri də rus rəiyyəti olmalı idi. Şəhər ünvanlar stolu təşkil edilir. Bələdiyyə idarəsi küçə fanarlarının sayını artırmaq və keyfiyyətini yaxşılaşdırmaq barədə qərar çıxardır; bu boyda şəhərin küçələrində vur-tut 86 fanar varmış, onların da 72-si əyri-üyrü dirək, 14-ü köhnə çuqun sütun üstündə dururmuş. Çuqun sütunları zavod sahibi Kokorev Bakı qubernatoruna bəxşiş vermişdi. Fanarların hamısı ağ nöyütlə yanırdı. Bələdiyyə idarəsinin təzə qərarına görə fanarların sayı 698-ə çatdırılır: 35 qəndil, 162 çuqun sütun, 241 dirək, 232 çuqun və 28 divar kronşteyni olmalı idi.

Dərə-təpəlikdən ibarət olan şəhər küçələrini tarazlamağa, səki və küçələri düzəltməyə icazə verilir. Məhəllələrdə süpürgəçilər qoyulur. 1886-cı ildə Hacı Zeynalabdin Tağıyev öz xərci ilə şəhərdə yanğın deposu düzəltdirir.

Yarmarka meydanında axşam bazarı salınır. 1886-1887-ci illərdə telefon stansiyası tikilir. «Həftə bazarı» 1884-cü ilə qədər keçmiş müsəlman qəbiristanı ətrafında yerləşirdi, onun yerində «Qızıllı» kilsəsini tikməyə hazırlıq görüldüyündən, həftə bazarını Bolşoy Morskoyla (Kirov prospekti) Telefonnı (28 Aprel) küçəsinin kəsişdiyi Səfərəlinin torpağı deyilən yerə köçürürlər. Malağan bağı (9 Yanvar) ilə Birja (26 Bakı komissarı) meydanı arasında da bir həftə bazarı vardı; konka, fayton və arabaların hərəkətinə mane olduğundan, bir də bu tərəflərin mənzərəsini korladığına görə başqa yerə köçürdürlər. Küçələrə daş döşəməyə başlayırlar. Biləcəri kəndi yaxınlığındakı daş karxanasından qənbər, Krasnovodskdan porfrit daşı gətirtdirirlər.

Şəhərdə çoxlu bank yaradılır: «İctimai bank», «Volqa-Kama bankı», «Rus-Asiya bankı», «Tiflis zadəgan torpağı bankı», «Tiflis ticarət bankı»,

«Şimal bankı», «İran bankı», «Rus sənaye ticarəti bankı», «Dövlət bankı», «Tacirlər bankı» və s. çoxlu maliyyə-kredit şirkətləri qurulur.

Maliyyə, iqtisadi və ticarətlə əlaqədar olan və təbəələri Bakıda işləyən dövlətlər - İngiltərə, Almaniya, Fransa, İran, Türkiyə, İsveç, Norveç və başqaları şəhərdə konsulxana açırlar.

1884-cü ildə neft sənayeçiləri «Sovet siezd» təsis edirlər. Bu, Rusiyada iri burjuaziyanın ilk təşkilatlarından biri idi. Bu təşkilat sahibkarın haqqını hökumət qarşısında qoruyur, müdafiə edir və hökumətlə bir yerdə fəhlələrə, əməkçilərə divan tuturdu. «Sovet siezd» neftə aid bütün məsələləri müzakirə edib qərarlar çıxardır, «Neftyanoe delo» jurnalını nəşr edir, öz xoşuna yox, fəhlələrin tələbi ilə çox məhdud miqdarda kitabxana, məktəb və xəstəxana, şəfaxana açırdı. «Sovet siezd» nəhəng şirkətlərin, inhisarçıların əlində güclü təzyiq aləti idi. «Sovet siezd»ə altı il Nobel, ondan sonra 1890-cı ildən 1916-cı ilə qədər, 26 il «Kaspiyskoe tovarişestvo» şirkətinin sədri Kukasov qardaşları başçılıq edir.

Hacı Zeynalabdin Tağıyev beş nəfər kənardan gələn sərmayədarla 1887-ci ildə şirkət yaradır, şəhərdə konka yolu çəkməyə başlayırlar.

Bu yol 1892-ci ildə işə düşür, nəqliyyat aləminə böyük yenilik gətirir. Səhmdarlar şirkəti konkanı işlətmək üçün Hacı Mustafa Rəsulova icarəyə verir. Konkaya adətən, iki at, yoxuş olan küçələrdə isə üçüncü atı da qoşurdular. Konkanın şəhər içindəki marşrutu bu qayda ilə: Seyid Mirbabayev (Azneft) meydanından başlayıb sahil (Neftçilər) küçəsilə, İran tacirlərinin dükanları qabağından ötüb, Mixaylovskiyə (Zevin), oradan da Merkuri (Şaumyan) küçəsinə dönərdi. Əzəmətli, çoxmərtəbəli binalar, təmtəraqlı adlar daşıyan bəzəkli mağazalar, pasajlar, restoran, lokanta və mehmanxanalar yerləşən kübar məhəllələrinin dad tərəfindən keçib Marinski (Karqanov) küçəsinə burulur, Malağan (Xaqani) küçəsinə qədər gedib həmin küçə ilə Bolşoy Morskoya (Kirov prospekti) keçir. İki məhəllə ötüb Telefonnı (28 Aprel) küçəsinə girib, Vağzal (Puşkin) küçəsilə davam edib, sonra da Balaxanı (Basin) küçəsilə Quba (Füzuli) meydanına çatır, Bazar (Hüsü Hacıyev) küçəsilə davam edib Qəssabbazarla (Yefimov Saratovtsev küçəsi ilə) üzüaşağı enir, Voronsov (Əzizbəyov) küçəsinə dönür, coğrafiyaşünas, «Məktəb» jurnalının sahibi və redaktoru Qafur Rəşad Mirzəzadənin mətbəəsi qarşısından ötüb Qurubağ qabağından Vrankel (Əliheydər Qarayev) küçəsinə, oradan da Olkinski (Caparidze) küçəsinə keçib, Mixaylovski (Zevin) küçəsi, oradan sahil (Neftçilər) küçəsilə gedib Mirbabayev (Azneft) meydanına çatır və dövrəni tamamlayırdı.

Vağzaldan əks istiqamətə konka yolu yenə Telefonnı (28 Aprel), Bolşoy Morskoy (Kirov prospekti) və Malağan küçələrilə uzanır. Sonra sağ tərəfə burulub Marinski (Karqanov) küçəsilə Qəssabbazara dönür, Bazar (Hüsü Hacıyev) küçəsinə qədər gedir (o aradakı dik yoxuşda konkaya üçüncü at

qoşardılar), ordan da Quba (Füzuli) meydanı, sonra da Balaxanı (Basin) küçəsilə vağzala, Puşkin küçəsinə çatıb dairəni tamamlayırdı.

İki cür - həm yay konkası, həm də qış konkası vardı. Qış konkası şüşələrlə bağlı, yayınkı isə açıq olardı.

Konkanı icarə edən Hacı Mustafa Rəsulovun şəhərdə bir neçə karvansaray, mülk, mehmanxana və ticarət kontoru vardı. Karantini (Həzi Aslanov) küçəsindəki dağılmaqda olan Qasımbəy məscidini o, təzədən tikdirib bərpa etdirmişdi.

Qara şəhər və Ağ şəhərə, bir də Bayıla da konka işləyirdi.

Bakıda konka ilə bərabər digər nəqliyyat vasitələri vardı. Minlərlə at, araba, qazalaq, fayton, kübarların karetaları, bir də tək-tək avtomobil...

...Bakı təzadlar şəhəri idi, bir yandan qızıl sel kimi axıb varlı adamların seyflərinə, sandıqlarına, banklara dolur, xaricə göndərilir, digər tərəfdən də bir loxma çörək üçün özünü oda, gözə atan adamlar gündə on-on dörd saat işləyirdilər.

Şəhərdə sənətkarlar ordusu yaranırdı: quyuqazanlar, dartayçılar, neft təmizləyənlər, arabaçılar, qırçılar, tuluqçular, neft daşıyanlar, nöyüt mədənlərindəki çalalarda yığılmış nefti və dəniz qırağında su üstündəki nefti şəlpəynən yığanlar - cındırçılar, gəmiqayıranlar, kapitanlar, mexaniklər, çəlləkqayıranlar, bənnalar, şamtökənlər... Fanar və şamdan qayıranlar, suvaqçı, xarrat, faytonçu, furqonçu, dəmirçi, çilingər, rəngsaz, dülgər, tornaçı, daşkəsən, daşyonan, dəmiryolçu və onlarsa digər sənət sahibləri...

Əvvəllər nefti mədənlərdən çəlləklərdə daşıyırdılar, eyni zamanda tuluqlara doldurub, dəvələrə yükləyib, qəzalara, kəndlərə və hətta uzaq ölkələrə də yollayırdılar.

Arabaçılar gecə-gündüz mədənlərdən zavodlara, şəhərə neft daşıyırdı. Bakı dönüb olmuşdu çəllək emalatxanası. Məhəllələrdə, döngələrdə, küçələrdə, həyətlərdə minlərlə çəlləkqayıran emalatxana, çirkli su çalaları vardı. Üfunət aləmi bürüyürdü. Mığmığ və qara milçək əlindən tərpənmək olmurdu. Sabunçu vağzalının qabağından başlayıb Quba (Füzuli) meydanına qədər Bondarnı (Dmitrov) küçəsi uzanırdı. Küçənin o tay-bu tayı emalatxana və çirkli su çalaları ilə dolu idi. İş axırda o yerə çatdı ki, bələdiyyə idarəsi çəlləkxanaları şəhərdən çıxarmaq barədə qərar qəbul etdi. Həmin qərara əsasən, on beş gün ərzində şəhərdə bir dənə də olsun çəlləkçi emalatxanası qalmamalı idi.

XIX əsrin axırında Hacı Zeynalabdin Tağıyevin məsləhətilə neft daşıyan gəmilərin sahibləri birləşib şirkət yaratdılar. Tağıyevin özünün də ticarət, yük və sərnişin gəmiləri vardı.

1900-1902-ci illərdə Mərkəzi Rusiyada quraqlıq üzündən aclıq düşür, minlərlə acyalavac Bakıya axışır; işsizlər ordusu yaranır, cinayət, macəraçılıq həddini aşır, hökumət orqanları 15.000 ac sərgərdanı zorla gəmilərə doldurub geri qaytarır.

Zülm gündən-günə artır, ehtiyac, yarıtox, yarıac güzəran, sahibkarların, məmurların özbaşınalığı, hüquqsuzluq fəhlələri zara gətirirdi, onların səbr kasaları aşıb-daşırdı.

1903-cü ilin iyul ayında Bakı proletariatının məşhur, əzəmətli tətili başlayır. 50 minə yaxın tətilçi «Məhv olsun mütləqiyyət», «Yaşasın sosializm», «Yaşasın hürriyyət», «8 saatlıq iş günü», «Məvaciblər artırılsın», «həbsə salınmış nümayişçilər azad edilsin!» şüarları ilə küçələrə çıxıb çarizmə və kapitala qarşı çıxış edir. İzdihamdan küçə və mədənlər titrəyirdi.

Fəhlələrin bu əzəmətli çıxışına RSDFP-nin Bakı Komitəsi rəhbərlik edirdi.

Mədənlərin anbarlarında, zavodlardakı çənlərdə neft aşıb-daşır, heç kim neft daşımır, dənizçilər gəmilərə neft doldurmurdu.

Şəhər bağına toplaşan tətilçi dənizçiləri polis qovur. Onlar da gedib şəhər kənarında, sallaqxanada yığışırlar. Üstlərinə atlı kazak göndərib oradan da qovurlar. Hərbi gəmilərdə çalışan fəhlə, matros, kapitan və mexanikləri gəmilərə yük vurmağa vadar edirlər. Tətil üç həftəyə qədər sürür. Bu tətilin təsiri nəticəsində bütün Zaqafqaziyada və Rusiyanın cənub şəhərlərində fəhlə çıxışları başlayır.

Bakı şəhəri tətil hərəkatında fəal iştirakına görə başqa yerlərdən fərqlənir, hərbi düşərgəyə oxşayır. Hökumət ağır cəza tədbirləri görüb tətillərə son qoymaq istəyir. Fəhlə hərəkatı getdikcə genişlənir.

Çar hökuməti, əksinqilabi ünsürlər 1905-ci ildə erməni-müsəlman qırğını salmaqla inqilabi hərəkatın səmtini dəyişdirməyə cəhd edirlər. Qardaş qırğınını törədən qubernator Nakaşidzeni öldürürlər. Vəziyyət daha da gərginləşir. Peterburqdan daxili işlər nazirinin müavini, məşhur cəllad Fon Vanı təcili Bakıya göndərirlər. O, stansiyada vaqondan düşəndə platformalar, meydan və küçələr jandarm və atlı kazaklar tərəfindən tutulmuşdu. Addımbaşı mühafizə dəstəsi dayanmışdı. Kənar adamları yaxına qoymurdular. Binaların damlarında belə soldatlar növbə çəkirdi. O ətrafda və Fon Vanın keçəcəyi küçələrdə gediş-gəliş və bütün nəqliyyatın hərəkəti dayandırılmışdı.

Fon Vanı mühafizə dəstəsi araya alıb karetaya qədər müşayiət edir. Atlar küçələrdən dördnala çapırdı, daş döşəmədən yan-yörəyə qığılcım sıçrayırdı, Voronsov (Əzizbəyov) küçəsindəki 4 nömrəli mülkün qabağında dayanırlar, Fon Van karetadan cəld düşüb binaya girir. Onu qubernator və bələdiyyə rəisi müşayiət edirlər.

Evin dövrəsindəki küçələr polis və jandarmlar tərəfindən tutulmuşdu, O həndəvərdə də gediş-gəliş qadağan edilmişdi.

Fon Vanın Bakıya gəlməyilə kütləvi həbslər başlanır.

Tətilçilər zora zorla cavab verirlər. Elektrik stansiyasının fəhlələri və qulluqçuları işə çıxmırlar. Şəhərə işıq verilmir. Səhəri gün su daşıyanlar su daşımırlar, süpürgəçilər küçələri süpürmürlər. Faytonçular, arabaçılar, konka

sürənlər, konduktorlar işə çıxmırlar, ağ neft, şam satanlar dükanları açmırlar, alver eləmirlər. Dalandarlar tətilə qoşulur, küçələri zibil basır.

Soldatları səfərbər edib konkanı işə salırlarsa da sərnişin tapılmır.

Fon Van hər gün səhər saat 9-da karetada güclü kazak və jandarmların mühafizəsilə qubernatorluğa gəlir, axşama qədər tətilləri dayandırmağa sərəncam verir. Nəhayət, silah və şallaq, zorakılıq, zülm, həbs və sürgün gücünə tətilləri qismən boğurlar.

İnqilab hərəkatını boğmaq üçün, tətillər bir daha təkrar olunmasın deyə 1906-cı ildə Nikolayın fərmanı ilə bir neçə şəhərdə - Peterburqda, Moskvada, Kiyevdə, Tiflisdə və Bakıda şəhər rəisliyi (qradonaçalstvo) yaranır.

Martınov adında bir cəllad (qradonaçalnik) Bakı rəisi təyin edilir. Bu qəvi cüssəli, zəhmli, əzazil adamın rəngsiz, bozumtul, xırda gözlərindən qəzəb yağırdı. seyrək, kürən saçları vardı. Polkovnik libası geyər, çiynindən asılmış enli baftadan sallanan şaşkanın ucu yerlə sürünər, tez-tez çəkmələrinə məhmiz taxardı. Boynundan asdığı zağlı polad xaç par-par parıldayardı, polad xaçın çox böyük imtiyazları vardı. Martınov özü üçün xüsusi fayton düzəltdirmişdi. Bu fayton iri və içi dərin idi. Arxa tərəfdə üç nəfər otura bilirdi. Çox vaxt faytonla yanaşı, piyada yeriyirdi. Qoçular Martınovun adı gələndə zağ-zağ əsər, uzaqdan görəndə gizlənərdilər. Küçədə təsadüfən rast gələndə isə yerə qədər əyilib təzim edər, sonra da qabağında quruyub, dirək kimi dik dayanardılar. Qoçular buxara dərisindən hündür papaq qoyardılar. Martınov başladı qoçu papaqlarını qısaltmağa. Hündür papaqlı qoçunu görəndə yavərə him edərdi; o da, qoçunun papağını götürüb qəmə ilə ikiyə bölər, aşağı hissəsini qoçunun başına keçirdər, üst hissəsini isə üstünə tullayar, ya da ki, yerə atardı. Qradonaçalnik qubernatora yox, birbaşa Peterburqa tabe idi. Böyük səlahiyyəti vardı. Martınov «tətil» və «tətilçi» sözünü eşidəndə qəzəblənib özündən çıxar, dövlətə və hökumətə ağ olanları huşunu itirənə qədər şallaqladar, al-qan içində əl-ayağına buxov taxıb elə itirdərdi ki, nə yerini bilən, nə də sorağını verən olardı.

Tez-tez faytonda ayaq üstə dayanar və atları dördnala çapdırardı. Adamlar bir-birini Martınovla qorxudardılar. Şəhər rəisliyinin idarəsi Mixaylov - sahil (Neftçilər) küçəsi ilə Bağ (Çkalov) küçəsinin tinində (həkimlər evi) idi. Bir eyvanı qubernator bağına, ikincisi isə dənizə baxırdı. Özü də o binada yaşayırdı. Gecə-gündüz qapısında gözətçi qaradovoy dururdu. Baş qapının üstündə, bir də tində iri qaz fanarı asılmışdı, axşamlar məhəllə elə çıraqban olurdu ki, göz qamaşırdı...

Tətilə yol verməmək, «özbaşınalığın» qabağını almaq üçün iri neft sahibkarlarının «Sovet siezd»i polis xərcləri üçün ildə 535 min manat pul verərdi.

Şəhər rəisliyi inqilab və tətil sözü eşidəndə bütün məsələlərə qarışır və tez də tədbir görürdü. Hətta İrandakı Səttarxan hərəkatı ilə əlaqədar Tiflisdən

1908-ci ilin sentyabr ayında Bakı şəhər rəisliyinə aşağıdakı məzmunda məktub gəlir: «Qafqaz canişinliyinin aldığı məlumatlara görə, Bakı sakini Hacı Zeynalabdin Tağıyev İrandakı inqilab hərəkatına maddi yardım göndərir. Yardımı kəsmək üçün müvafiq tədbirlər görülsün».

Həmin ilin oktyabr ayında Bakı şəhər rəisliyinə bir sərəncam da gəlir: «Qafqazda inqilaba hüsn-rəğbət bəsləyən bir sıra müsəlmanlar İran inqilabçılarına pul və silahla kömək edirlər. Böyük vəsait sahibləri olan Bakı sakinləri Muxtarov və Tağıyev də həmin şəxslərdəndirlər. Canişinin tapşırığını nəzərinizə çatdırmağı özümə şərəf hesab edib, bu şəxslərin fəaliyyətinə gizli nəzarət təyin edilməsini xahiş edirəm».

Qalabəyi yuxarıdakı tapşırıqlar əsasında Tağıyev və Muxtarovla danışıb onları başa salır ki, Rusiya çar hökuməti İran şah hökuməti ilə dostdur. Belə hərəkət dost İran hökumətini narazı salar və aradakı münasibət pozula bilər. İrana yardım göstərməyi kəsmək lazımdır.

Hacı Zeynalabdin Tağıyev qalabəyinə cavab verir ki, biz inqilabçılara heç bir kömək etmirik. İranda qarışıqlıq nəticəsində qırılanların çoxlu yetim uşaqları, dul arvadları, qoca ata-anaları qalıb. Acından ölürlər. Xəstəlik gündən-günə artır. Biz əlsiz-ayaqsızlara kömək edirik. İslam şəriətinə görə o zəlillərə maddi yardım göstəririk. Etməsək kafir olarıq.

Bakı böyüyür, inkişaf edirdi. 1906-cı ildə ağ neft fanarlarını elektrik çıraqları ilə əvəz edirlər. Hacıbaba Aşurov Kaspi (leytenant Şmidt) küçəsində elektrik stansiyası tikdirib, küçələrə dirəklər basdırmaq üçün bələdiyyə idarəsi ilə müqavilə bağlayır. 1907-ci ildə şəhərdə avtomobil hərəkatı haqda bələdiyyə idarəsi qərar çıxardır.

...Bakı əzəmətli inşaat meydanlarına oxşayırdı, hər yerdə bina, mülk tikilir, vışka qurulur və bunların hamısına da çoxlu tir, dirək, taxta, şalban tələb edilirdi. Gəmilər Rusiyadan ardı-arası kəsilmədən ağac daşıyırdı.

Şəhərdə bir neçə taxta-şalban şirkəti vardı: Adamov qardaşları, Ələsgər Hacıyevin kompaniyası, Mirzəyev firması, Makarov və Sərkisov şirkəti və s. 1900-cü ildə şəhərdə 14 nəhəng odun anbarı, 106 neft şirkəti, 16 neft kəməri, 56 mexaniki emalatxana vardı.

Əsrin əvvəlində Hacı Zeynalabdin Tağıyevin toxuculuq fabriki işə düşür. O burada fəhlələr üçün məscid və onların uşaqları üçün xüsusi məktəb tikdirir və iki növbədə dərs deməyə öz xərcinə müxtəlif yerlərdən müəllimlər dəvət edir, eyni vaxtda fəhlələrin savadlanması üçün axşam kursları, dərmanxana və tibb məntəqəsi açır. Dəyirman tikdirir.

Fabriki işə salmaq o qədər də asan başa gəlməmişdi. Altı il ağır əmək sərf edilmişdi, 5.000.000 manat qızıl pul... Təkcə fabriki tikdirməyə icazə almaq üçün ətək-ətək pul xərclənmişdi. Rus toxuculuq sənayesinin kralı hesab edilən Morozov başda olmaqla nəhəng fabrikantla üz-üzə gəlib mübarizə aparılmışdı. Onlar pambıq tarlalarının Bakıya yaxın olmasını nəzərə alıb

məhsulun ucuz tamam olmasından, İran, Türkiyə, Türküstan bazarının əldən çıxmasından qorxur, rəqabətdən narahat idilər. Qafqazın özündə bezin qiyməti birdən-birə neçə dəfə ucuzlaşırdı. Bu hesabdan Yaxın Şərq və Orta Şərq, müsəlman aləmi bazarlarında da eyni vəziyyət təkrar olacaqdı. Fabrikin dəzgahları İngiltərədən gətirilmişdi.

Buxara əmiri əhvalatdan xəbərdar olanda Tağıyevə təklif etmişdi ki, gəl fabriki Buxarada, ya da Səmərqənddə, Xivədə tik, nə qədər pambıq lazım olsa təmin edərəm. Hacı Zeynalabdin onun təklifini rədd edib demişdi ki, bizə fabrikin məhz Bakıda olması sərfəlidir. Peterburqda Yermolov adında ali rütbəli bir əyan fabrikin tikilməsinə icazə verilməsinə çox kömək etmişdi. Fabrik işə düşəndən sonra təxribatçılar gecə vaxtı yanğın törətmişdilər. Fəhlələr əl-ələ verib çox çətinliklə yanğını söndürə bilmişdilər, mal və avadanlıq xəsarəti olmuşdu. Bu fabrik Rusiyada dövrünün ən müasir texnikası ilə təchiz edilmiş müəssisələrdən biri idi. Buraya Avropadan 2.500 maşın və dəzgah gətirilmişdi. Fabrik ildə otuz milyon arşın bez buraxacaqdı. Bu əmtəəni o zamankı pula çevirdikdə qızılla 1.700.000 manata bərabər idi. Fabrikin inşasına 1.600.000 manat xərc qoyulmuşdu. Bu fabrik o zaman Rusiyada mövcud olan 29 toxuculuq fabrikindən biri, Azərbaycan sənayesi üçün isə yeni sahə idi. Təkcə Bakıda yox, o, ümumiyyətlə Qafqazda yeganə və ilk parça toxuculuq fabriki idi. Çox təəssüf ki, bu fabrikə yalnız bez buraxmağa icazə verilmişdi. Mərkəzi Rusiyadakı toxuculuq fabrikasının sahibləri qoymamışdılar ki, çit və digər parçalar buraxılsın. İstehsal olunan parça ilk illərdə Qafqazda, Türküstan da və İranda satılırdı. Lakin üç-dörd il keçəndən sonra müsəlman məmləkətlərində ölülərin dəfni üçün, Ərəfə libası üçün Məkkəyə, həcc ziyarətinə gedən zəvvarlar, Kərbəla və Xorasan ziyarətinə yollananlar Tağıyev fabrikinin bezini alırdılar ki, onu müsəlman fəhlə və ustaları toxuyur, pakdır.

XX əsrin əvvəlində Bakıda 200-dən çox irili-xırdalı zavod və fabrik vardı.

Çox dövlətli olmasına baxmayaraq bu şəhərin küçələrində hələ də, neft fanarları yandırılırdı. Bir neçə mərkəz küçəsində elektrik işığı vardı: Nikolayev (Kommunist)*; Velikoknyaz (Zevin), Olkinski (Caparidze), Torqovıy (Nizami), Telefonnı (28 Aprel)... Bir də bulvarda.

Elektrik stansiyası fəhlələri, küçə fanarlarını alışdıranlar tətilə qoşulanda şamqayıranların, şam satanların bir də ağ neft satan dükançıların bazarı gur olurdu, yaman pul qazanırdılar.

Bakı bələdiyyə idarəsinin keçmiş baş memarlarından Zivərbəy Əhmədbəyov deyirmiş ki, Bakı öz inkişaf sürətinə görə dünyada yeganə şəhərdir.

* Mötərizələrdə küçələrin indiki adı göstərilir. (Red.)

Bu illərdə Dövlət senatı Bakı üçün gerb təsdiq edir. 1900-cü ilin may ayında Bakı bələdiyyə idarəsinin yeni binasının (indiki Bakı şəhər İcraiyyə Komitəsinin binası) bünövrəsi qoyulur. Bu bina öz əzəməti və gözəlliyinə görə şəhəri bir daha məşhurlaşdırmalı idi. Memar Qoslavski layihə üzərində sənətkarlığını, ilhamını əsirgəmədiyi kimi, şəhər bələdiyyə idarəsi də pul əsirgəməmişdi. Qafqaz canişini layihəni təsdiq etmişdi. Bina 400.000 manata başa gəlmişdi. Binanın fasadını bəzəmək üçün İtaliyadan qırmızı kərpic, əlvan, güllü-çiçəkli mərmər və digər əşya gətirmişdilər. 1870-ci ildə təsis edilmiş Şəhər İdarəsi «Qoşa qala» qapısının yanındakı iki-mərtəbəli mülkdən 1904-cü ildə Şirvan darvazası yanındakı təzə əzəmətli binaya köçdü.

Qoslavskinin vəfatı (1904-cü ildə) münasibətilə yazılan nekroloqda deyilirdi ki, şəhərin bələdiyyə idarəsi nəhəng memarın tükənməz ilhamının, parlaq istedadının məhsuludur. Bakı müsəlman qız məktəbinin və bir neçə gözədəyimli mülkün, binanın da layihəsini o işləmişdi.

Bakı bələdiyyə idarəsi Rusiyada ən dövlətli bələdiyyə idarəsi idi. Qafqaz canişini oturan Tiflis şəhərinin bələdiyyə rəisi ildə 4.000 manat maaş aldığı halda, Bakı milyonçuları lovğalıqla Kursk şəhərindən ildə 20.000 manat maaşla Rayevi bələdiyyə rəisliyinə dəvət etmişdilər. Halbuki Rusiya imperiyasının nazirləri ildə 15.000 manat maaş alırdılar. Bakı milyonçularının bu avam «Səxavəti» dəfələrlə qəzet felyetonlarında lağa qoyulmuşdu.

Rayev də öz həmyerlilərini Kurskdan Bakıya gətirib yüksək maaşla işlədirdi. Şəhərə lazım olan bütün mayəhtac və avadanlığı Kursk zavodlarına sifariş verirdi. Bir dəfə Dumanın iclasında, Bakıdakı ictimai ayaq yollarında aftafa qoymağı qərara aldıqda kimə və hara sifariş verməyi müzakirə edəndə, bələdiyyə üzvlərindən Əngüştər Kərbəla İsrafil Hacıyev söz alıb deyir ki, «Cənab Rayev, aftafaları, yaxşı olardı, Kursk zavoduna sifariş verəsiz. Bir də, dörd aydır müsəlmanların Şeyxülislamı vəfat edib, yeri boşdur, mümkünsə Kurskdan bir Şeyxülislam da gətizdirəsiz...» Kərbəla İsrafilin Şamaxı yolunda (C. Cabbarlı küçəsindəki) mülkü (Oktyabr Rayon Xalq Deputatları Soveti yerləşən bina) şəhərin ən gözəl memarlıq nümunələrindəndir. Binanın xarici görünüşü lakonik ve fövqəladə olduğu qədər daxili bəzəkləri də diqqətə layiqdir. Əsl modern memarlıq üslubunda tikilib.

Əngüştar ləqəbini Kərbəla İsrafilə qubernatorun arvadına brilyant üzük bağışladığına görə vermişdilər... Bakı Duma seçkiləri barədə yazılmış felyetonda da adı çəkilmişdi:

Fəryad o zamandan ki,
Dum seçkisi başlandı,
Kim oldu şahid əvvəl,
İsrafil Ənküştər...

Bələdiyyə idarəsi ilə üzbəüz mülkdə, müqəddəs Nina rus qız məktəbi yerləşirdi. Qubernator bağının qabağındakı Mirzəbəyovun yeddimərtəbəli evi dörd-beş ilə tikilmişdi. Bu mülkün yerində əvvəllər xırda daxmalar vardı. sahibkar camaatın hamısına pul verib başqa yerə köçürtdürür. Tək bircə nəfər Hacı Qarabala uşaqlarından Hacı Zülfüqar Manafov yerin dəyərindən neçə qat artıq təklif edilən pulu rədd edir, mülkünü satmır. Mirzəbəyov nə qədər fənd işlədir, minnətçi salır, çoxlu pulla şirnikdirirsə səyləri boşa çıxır. Yurd yiyəsi deyir ki, kişi olan kəs ata-baba mülkünü yad adama, yersiz-yurdsuz biganəyə satmaz. Pul əl çirkidir. Hacı Zülfüqar Manafov deyir ki, o yerdə elə bina tikdirəcəyəm ki, yeddimərtəbə gözdən düşsün. Üçmərtəbə bir mülk tikdirir, O balaca mülk yeddi mərtəbədən daha çox diqqəti cəlb edir. Küçə tərəfdən xırda görünsə də həyət tərəfdən çox iridir. İndi həyət olan yerdə Hacı Zülfüqarın hamamı vardı.

Küçəyə baxan balaca mülkün birinci mərtəbəsindəki kiçik dükanda alma, armud, cərco qovunu, üzüm, limon, portağal, narıngi satırdılar.

Yeddimərtəbəli mülk renesans - təsəddüd üslubunda olmaqla, klassik elementlərdən geniş istifadə edilmişdir, özülü 1911-ci ildə qoyulmuşdu və 1915-ci ildə tikilib qurtarmışdı. Mirzəbəyov birinci dünya müharibəsinin uzandığını, işlərin get-gedə qarışdığını görüb mülkü Musa Nağıyevə 1.200.000 manat qızıl pula satıb, pulları köçürdür Amerika banklarına. Özü də çıxıb gedir Nyu-Yorka.

Dalanın o tayındakı ev bir ilə (1893-1894) tikilib. İran şahı Müzəffərəddin Avropa səyahəti zamanı Bakıya gələndə bu binada qalmışdı. Bu bina klassik memarlıq üslubunda olmaqla müəyyən dərəcədə müasirlikdən də istifadə edilib. Sadovıy (Çkalov) küçəsindən dəniz sahilinə enən yerdə, keçmiş qəbiristanlığın qabağında Sadıqovun dillər əzbəri olan mülkü durur, xarici bəzəyinə, naxışlarına görə o, memarlıq nümunəsidir. Deyilənə görə camaat Sadıqova zarafatla deyib ki, ay Kərbəlayı, bu qədər pulu havaya sovurdun, bura nə yerdi ki, mülk tikdirmisən. Sadıqov da cavab verib ki, «avam danışmayın, görün bura nə qədər yaxşı yerdir ki, goburnat mənim üçün evimin qabağındaca bağ-bağça saldırıb». Bu mülkdə Şərq və Azərbaycan milli memarlığından istifadə edilib.

Qazıyev bir az yuxarıda, Çəmbərəkəndindəki qayalıqda, gəmiyə oxşayan üçmərtəbəli imarət tikdirdi. Binaya köçən günün sabahı, nökər xəbər verir ki, gecə darvazanı açıb, faytonun təkərlərini çıxarıb aparıblar. Qazıyev bunu eşidən kimi birbaş birjaya yollanır, dəllal tapıb mülkü satdırır. Külfətini elə o günü başqa mülkə köçürtdürür... Soruşurlar ki, o həvəslə imarəti tikdirdin, bəs niyə satdın. Cavab verir ki, fikirləşdim ki, o tərəfləri abadlaşdırarıq, pəyələrin, tövlələrin yerində əməlli-başlı bazar-dükan düzəldərik. Qonum-qonşuya əl tutaram, əlləri işə-gücə çatar. Elə bir dəyəri olmayan fayton təkərini oğurlayan məhəllədə yaşamaq düzgün deyil.

«Səfa» məktəbinin mərtəbəyarımlıq, səkili mülkü Çəmbərə kəndində Qazıyev mülki yaxınlığında tikilmişdi.

Şəhərdə mal daşıyan qoşaçarx arabaların, yalak olmasın, otuz faizi Çəmbərəkənddə idi. Məhəllənin o həyəti yox idi ki, iki, üç, hətta beş qoşaçarx araba olmasın. Axşam düşəndə küçələrdə qoşaçarx arabalar yan-yana düzülərdi. Aləm peyin içərisində olardı. Çoxlu mal-qara, qoyun-quzu da saxlanardı. Məhəllədən kənarda buğda, arpa zəmiləri vardı.

Böyük Çəmbərəkənd (Lermontov) küçəsinin başlanğıcında Ağa Qədirovun üçmərtəbəli mülkü və hamamı yerləşir. Binanın birinci mərtəbəsində doktor Məhəmməd Rza Vəkilovun müalicəxanası yerləşir. Cümə axşamları kasıblara havayı baxır, dərman da verirdi. O mülkə bitişik ikimərtəbəli binada «Səadət» məktəbini açmışdılar; sonra başqa yerə köçürtdülər. Bu məhəllədə və bütün şəhər üçün böyük əhəmiyyəti olai iki küçə - Vodovoznaya (Şirşov) və Kolodezna (Ağamalıoğlu) küçələri vardı. Çoxlu su quyusu qazmışdılar, arabaçılar su daşıyıb əhalini içməli su ilə təmin edirdilər. Bu iki küçənin yaxınlığında iki məşhur mülk diqqəti uzaqdan cəlb edirdi: biri doktor Əbdülxalıq Axundovun sərdar Bünyadov küçəsilə Mehdi Hüseyn küçəsinin kəsişdiyi tində ucalan mülkü, ikincisi Mirzə Fətəli bağına baxan Mironovun əzəmətli imarəti. Hər biri gözəl memarlıq nümunəsidir.

Əylənmək üçün Şirvan darvazası qabağında ağac və taxtadan bina tikdirmişdilər, üstdən də suvaqlatdırıb ağartmışdılar, adını da qoymuşdular «Ağ klub». Güclü xəzri əsən gecələrin birində yanğın düşür, bina yanır. Güman edirdilər ki, qərəzlə, qəsdən yandırıblar. «Ağ klub»da yaman qumar oynayırdılar. Dövlətli adamlar, qoçular kələkbazlar burda yığılıb səhərə kimi əylənərdilər, tez-tez dava-dalaş düşərdi.

«Ağ klub» yanandan sonra sərvət sahibləri bələdiyyə idarəsini vadar edirlər ki, şəhər bağından bir parça ayırıb yay klubuna versin. Binanın layihəsini mahir arxitektor Ter-Mikelova tapşırırlar. O, Monte-Karlo şəhərinə ezam edilir ki, oradakı filarmoniyaya baxsın, onun layihəsi ilə tanış olsun. Bakı üçün də eynilə belə bir imarətin layihəsini işləsin. Deyilənlərə görə, Monte-Karlo filarmoniyasının binası gözəllikdə Avropada birinci yerlərdən birini tutur. Binanın meydanından dəniz sahilinə doqquz terras -meydan enir. Ter-Mikelov səfərdən qayıdandan sonra filarmoniyanın layihəsini hazırlamağa başlayır və bu işin öhdəsindən bacarıqla gəlir.

Sadovıy (Çkalov) küçəsinin Nikolayev (Kommunist) küçəsilə kəsişdiyi yerdə dörd mülk - Yay klubu (filarmoniya), Sadıqovun evi, Hacı Zeynalabdin Tağıyevin tikdirdiyi Marinski rus qız gimnaziyasının binası, bir də ondan azca aşağıda Rotşildin işlər rəisi Deburinin order memarlıq üslubunda tikdirdiyi, sonra da «Kavkazskoe tovarişestvo» şirkətinə satdığı bina (R. Mustafayev adına İncəsənət muzeyi) gözəllikdə, lakoniklikdə bir-birilə bəhs edir.

Deyilənlərə görə, «Kavkazskoe tovarişestvo» neft şirkətinin başçısı filarmoniyanın layihəsini işləyən memardan xahiş edib ki, yay səhnəsini onun yaşadığı mülk ilə üzbəüz tikdirsin ki, balkonda oturub çalıb-çağıranlara tamaşa edə bilsin. Bir də istəmirmiş ki, evin qabağında lal divar ucalsın. Memarlıq qanununa görə səhnə həmişə giriş qapısı ilə üzbəüz olmalıdır, yay klubunda (filarmoniyada) isə əksinədir.

Bakı proletariatının izdihamlı və uzun sürən tətillərindən biri qələbə çalanda, neft sənayeçiləri fəhlələrlə kollektiv müqavilə bağlamağa, onların tələblərinin çoxunu qəbul etməyə məcbur olmuşdular.

Milyonçular bir-birinin bəhsinə çoxlu möhtəşəm binalar tikdirirdilər. Bu mülklər bir-birinə oxşamadığı kimi, hər birinin özünə xas gözəlliyi var.

Az müddətdə Bakıda bir neçə əzəmətli məbəd-məscid və kilsə tikilmişdi: «Qızıllı», yaxud «Aleksandro-Nevski» kilsəsi, «Təzəpir məscidi», «Əjdər-bəy» və yaxud «Göy məscid», «Budaqov» kilsəsi, iki «Kirx» və s.

«Qızıllı» yaxud «Aleksandro-Nevski» kilsəsi şəhərin mərkəzində ucaldılmışdı. Onun qızıl rənginə çalan, par-par parıldayan qübbələri on kilometrlərlə uzaqdan görünür, səfərdən qayıdan gəmilərin kapitanları səmti o qübbələrlə müəyyənləşdirirdilər. III Aleksandr Bakıda möhtəşəm kilsə tikmək üçün pul buraxır və şərt qoyur ki, əzəmətli və yaraşıqlı olmalıdır. Memarlar məsləhətləşib qərara gəlirlər ki, Novı Afon kilsəsinə oxşar, lakin ondan daha üstük bir məbəd tiksinlər. Akademik Marfeld baş memar təyin edilir. Novı Afondan çertyojların surətini gətizdirirlər. Layihə tamam olanda görürlər ki, buraxılan məbləğ azdır. Başlayırlar «ianə» toplamağa. Bakıda toplanan 200.000 manat ianənin 150.000 manatını əhalinin əksəriyyətini təşkil edən müsəlmanlar ödəyir.

1888-ci ilin payızında, oktyabr ayının əvvəllərində imperator III Aleksandr Tiflisdən ailəsiylə - arvadı, iki oğlu, bir də böyük məiyyəti ilə Bakıya gəlir. Vağzal başdan-başa təntənəli mərasim üçün xalı-xalça, bayraqlarla bəzədilmiş, hasarların üstündə və birmərtəbəli binaların kəlləbəndlərində bir-birindən bir arşın aralı qoyulmuş qara çıraqlar yanırdı. Milyonçular, tacir və əyanlar bir tərəfdə, yüksək rütbəli mülki və hərbi məmurlar digər tərəfdə, silahlı soldatlar divar kimi amadə durmuşdular. Şahanə qatar stansiyaya girir. Az sonra çar III Aleksandr şahanə vaqonundan hərbi libasda düşür. Hamı papağını götürür, Tağıyevdən başqa, Qubernator təkid edirsə, o qulaq ardına vurur. Hacı Zeynalabdin Tağıyev ortada, qubernator bir tərəfində, şəhər bələdiyyə rəisi digər tərəfində III Aleksandra yaxınlaşırlar. Hacı xoşamədi deyir. Çar ona papağını çıxarmadığı üçün tünd-tünd baxır və soruşur: «Çey vı podannıy?» (sən kimin rəiyyətisən?). Qubernator Hacıya pıçıldayır de ki: «ya podannıy vaşeqo veliçestva» (siz əlahəzrətin təbəəsiyəm).

Hacı Zeynalabdin öz bildiyini deyir: «Ya podannıy Russkoy imperii».

III Aleksandr vağzaldan keçib meydana enir və şahanə karetaya oturur.

III Aleksandrın şəhərdən keçmə mərasimini şəxsən görmüş bakılı dülgər Mütəllib kişi maraqla nəql edirdi:

Padşahın gəlməyinə üç gün qalmış carçılar küçələrə düşüb car çəkə-çəkə şəhər əhlinə xəbər verdilər ki, əlahəzrət şəhərimizə varid olacaq.

Vaxt çatanda, camaat səhər tezdən çarın keçəcəyi Balaxanı (Basin) küçəsinə, Quba (Füzuli) meydanına və Bazar (Hüsü Hacıyev) küçəsinə gəlir. O vaxt həmin küçələr birmərtəbəli binalarla əhatə olunmuşdu. Vağzaldan, ta keçmiş müsəlman qəbiristanına qədər yolboyu küçələrə, meydana xalı-xalçalar döşəmişdilər. O tay, bu taydakı alçaq binaların damlarında qara çıraqlar qoymuşdular, hamısı da yanırdı. Hər iki tərəfdə səkilərin qırağında soldatlar durmuşdular; tüfəngləri hazır saxlamışdılar. Camaat isə soldatların arxasında, qabaqda ruslar, dal tərəfdə başqa millətlər dayanıb həyəcanla, maraqla çarın gəlməyini gözləyirdilər. Bir də gördük ki, uzaqdan padşahın qızıl-gümüş bəzəkli karetası gəlir. Quba meydanına səmt götürmüşdü; karetanı daldan atlı kazaklar, yanlardan jandarmlar müşayiət edirdilər. Camaat da arxada yeriyirdi Birdən bir nəfər qoca müsəlman kişi, əlində də məşəl, mühafizə dəstələrinə baxmayaraq, karetanın qabağına atılıb başladı meydana tərəf qaçmağa, İmperatoru müşayiət edən kazaklar atlarını məhmizləyib, bir anda məşəlli qoca müsəlmanı araya alıb tutdular.

Bu mənzərəni karetadan görən imperator, atları saxlatdırdı, əmr etdi ki, məşəlli qosanı yanına gətirsinlər.

Qoca diz çöküb təzim edir, əlindəki ərzi-halı çar uzadır. O da kağızı dilmanca verib nə yazıldığını xəbər alır. Mətləbdən hali olanda, çarın dodaqları qaçır, gülümsəyir, yavərinə nə isə tapşırır. Qocanı buraxırlar. Sonra məlum olur ki, qocanın oğlu sözünə baxmır, onu incidir, xərclik vermir. Oğlan şəhər dumasında qulluq sahibi idi. Rəvayətə görə çar əmr edir ki, kişiyə oğlunun rütbəsindən bir pillə yüksək çin - ad verilsin ki, oğlan onun sözünə qulaq assın, üzünə qayıda bilməsin, sözündən çıxanda atası qanunla onu cəzalandıra bilsin.

Kareta köhnə qəbiristan tərəfə yönəldi.

Qəbiristanı təmizləyib, kilsə binası üçün özül qazmışdılar. Ətrafdakı alçaq binaların üstü tamaşaçılarla dolu idi.

Kareta yaxınlaşanda əhali əl çaldı. III Aleksandr qabaqda, dalınca iki keşiş karetadan düşüb özülə endilər. Keşişlərin hər biri çara qızıldan balaca bir kərpic verdi. Eyni zamanda başladılar mərasim duası oxumağa, Çar qızıl kərpicləri şahanə sincab mantosunun ətəyilə silib öz əlilə özülə qoydu. Bakı milyonçuları da, hərə öz adına layiq qızıl doldurulmuş mücrünü, qapaqlı mis qabı və taxta qutunu imperatora verdilər ki, özül dəfinəsinə qoysun. III

Aleksandr verilən hədiyyələri  və inşaat tarixi yazılmış sicili də bünövrəyə qoydu. Keşişlər avazla ucadan dua oxudular. Bənnalar özül divarını hörməyə başladılar.

Səhəri gün carçılar bəziləri piyada, bəziləri dəvə üstündə, küçə və bazarlarda gəzib car çəkdilər ki, camaat, eşidin və agah olun, eşitməyənlərə də xəbər verin, padşah dustaqlara mərhəmət edib, bağışlayıb. Özü Kömürçü meydanı ilə Quba meydanı arasındakı mərkəzi həbsxanaya gedib dustaqları azad edəcək. Tamaşa etmək istəyənlər dustaqxana qabağına gələ bilərlər.

Camaat səhər tezdən qazamat qabağında idi. Mən də getmişdim. Cavan vaxtım idi, kənarda dayanıb tamaşa edirdik. Atlı kazakların araya aldıqları çarın karetası gəlib qazamatın dəmir darvazası qabağında dayandı. Padşah düşdü, zəhmli, yekəpər və kürən adam idi. Pişik gözü kimi parıldayan gözlərindən  od yağırdı. Yanındakılara əlilə nə isə işarə etdi. Nəhəng dəmir darvazanı  açdılar. Dustaqları  bir-bir Qanlı təpə (I Sverdlov) küçəsinə buraxmağa  başladılar. Qorxa-qorxa yeriyən  dustaqlar ikiqat əyilib özlərini mümkün qədər  divar tərəfə  verirdilər. Görünür,  padşahın qəzəbli görkəmi, zəhmi onları lərzəyə salmışdı.

O gün mollalar böyük mərhəmətinə görə camaatı məscidlərə yığıb dua oxuya-oxuya çara təşəkkür edir, özünə və ailəsinə cansağlığı, taxt-tacının yüz illərlə bərqərar olmasını diləyirdilər. Bu əhvalatdan bir ay keçməmiş, jandarmlar evbəev düşüb çar tərəfindən buraxılmış dustaqları asi adlandıraraq təzədən tutub qazamata saldılar.

Üçüncü gün çar ailəsiylə neft mədənlərinə tamaşaya gedir. Milyonçular çarı Sabunçu stansiyasında duz-çörəklə qarşılayırlar. Bir neçə yerdə bəzəkli, tağlı darvazalar qurulmuşdu. Darvazalardan birini mədən avadanlıqlarından qayırmışdılar. Möhtərəm qonaqlar Nobel qardaşlarının neft anbarlarına, sonra Şəmsi Əsədullayevin neft vuran stansiyasına və güclü neft verən üç buruğa tamaşa edirlər. Bir buruğun qabağında fontan zamanı quyudan çıxan daşları üst-üstə qalamışdılar. Daşların yer altından qaz gücünə çıxmasına adam inana bilmirdi. Əlahəzrət kanat üsulu ilə qazılan bir quyuya da baxır.

Camaat və fəhlələr qonaqların qabağına çıxır.

Neft milyonçuları imperatoru və onun ailəsini qəbul etmək üçün iki yerdə xüsusi çadır - pavilyon qurmuşdular.

İmperator onu müşayiət edənlərlə əvvəldən iki yerdə - Avropa və Şərq üslubunda düzəldilmiş çadırların birincisinə girir. Oturandan sonra çadırın ətəklərini qaldırıb, fontan vuran quyunu nümayiş etdirirlər. Çay içib, şirniyyat yeyə-yeyə fontana maraqla tamaşa edirlər. Sonra da İransayağı bəzədilmiş ikinci çadıra gedirlər. Qiymətli xalı və xalçalardan tağlı girəcək qurulmuşdu. Darvazadan çadıra qədər yerə bahalı, nadir xalı, kəbə və xalça döşəmişdilər. Çadırın içərisi ipək zər-ziba parçaları ilə bəzədilmişdi.

Şəhərə qayıdandan sonra çarın şərəfinə ziyafət verilir. III Aleksandr razılığını bildirib «Qızıllı» kilsəni ləyaqətlə başa çatdırmağı xüsusi tapşırır. Sabahı gün Bakını tərk edirlər.

Kilsənin iş icraçısı arxitektor Qoslavski gecə-gündüz çalışır, bu işdə bacarıq və istedadını əsirgəmir. Bina on ildən sonra, çar III Aleksandr öləndən sonra hazır oldu.

***Maraqlı bir qeyd:*** Kilsə zənglərinin səsi-sədası gurultulu və möhtəşəm, daha xoş, daha məlahətli çıxmaq üçün tuncun tərkibinə qızıl və gümüş qarışdırmaq lazım olur. Bu məqsədlə əhalidən qızıl-gümüş toplamağa başlayırlar. Qadınlar kəmər, qolbaq, sırğa, üzük, həmayil, bilərzik, kişilər isə təkbənd, qılınc və xəncər qınları, gümüş qab-qacaq «ianə» gətirirlər.

Nəticədə «ianə»nin əsas hissəsini müsəlmanlar ödəyir, birinci yeri tuturlar. Zəngləri Ural zavodlarında tökdürüb hazırlatmışdılar. Ən iri zəng neçə top ağırlığında idi. Onu çox çətinliklə və bir neçə aya gətirib Bakıya çıxarmışdılar. Zəngin üstündə qədim Slavyan hərflərilə müqəddəs ayələr, bir kənarında isə əllərində xaç, incil, məşəl və bu kimi dini şeylər olan kahinlərin - apostolların qorelyefləri həkk edilmişdi. İçərisi güzgü tək par-par parıldayır, bərq zurur, göz qamaşdırırdı. Orta və xırda zənglər də çox gözəl və ağırdı. Böyüyündən tutmuş ta kiçiyinə qədər bütün zəngləri həndəsi tənasüblə turmuşdular.

İsanın dara çəkilmə mərasimlərində zənglər səs-səsə verib elə «fəryad» qoparırdılar ki, adam vahiməyə düşürdü. Şəhərin başqa məhəllələrindəki irili-xırdalı kilsələrində zəngləri eyni tərzdə «fəryad» qoparır, bu səslər bir-birinə qarışaraq mərasimi daha da təntənəli eləyirdi. Xaçpərəstlər qışqırırdılar: «həzrət Məsih sağdır!..», «İsa qalib gəlir!..»; :Onun padşahlığı əbədidir!..»

Pasxa münasibətilə «Qızıllı» kilsənin böyük qübbəsinin çıraqban edilməsi: Bu mərasim vaxtı kilsənin ətrafında adam əlindən tərpənmək olmurdu. Küçə hərəkəti dayanırdı, səkilər və küçələr tamaşaçılarla dolurdu.

Birdən irili-xırdalı bütün zənglər səs-səsə verərdilər, müqəddəs dua havası çalmağa başlayanda, xaçpərəstlər diz çöküb xaç vura-vura dua oxuyardılar, ancaq dodaqları tərpənərdi. Zəng çalan ipləri dartmaq və buraxmaqla musiqini tənzim edər, zənglər həzin, ahəngdar, ürəkləri oxşayan, insanı dərin düşüncələrə dalmağa məcbur edirdi. Adamlar bu mənalı musiqiyə qulaq asmaqdan doymurdular.

Bütün şəhərdə bircə nəfər adam qalxıb əzəmətli, böyük qübbəni təmizləyib elektrik çıraqları ilə bəzəyə bilirdi; ondan başqa bu çətin, ağır işi heç kəs bacarmazdı. O, əvvəldən, bina tikildiyi vaxtdan divara möhkəm bərkidilmiş dəmir pillələrlə yavaş-yavaş qalxırdı. Böyük qübbənin altına çatana qədər tələsmədən, fasilə ilə tərpənirdi.

Böyük qübbənin altına yetişəndə, aşağıda toplanmış izdiham təlatümə gəlirdi. Elə bil matəmdi, zənglər tamamilə susurdu. Heç kəs cınqırını belə çıxartmır, ətrafa məzar sükutu çökürdü.

Pilləkəndəki adam ağılagəlməyən çətinliklə, həm də böyük məharətlə özünü qübbə ilə pillələr arasına salar və içəri tərəfdən tərsinə dırmaşmağa başlardı.

Adam qübbənin altından, içəridən bayıra, qübbənin üstünə dırmaşanda izdiham qorxudan dəhşətə gələrdi. Arvadlar, kişilər, oğlanlar, qızlar diz üstə çöküb, qollarını geniş açardılar, gözlərini göyə dikərdilər, xaç vura-vura tez-tez, astadan dua oxuyardılar, allaha yalvarardılar.

Elə ki, adam qübbənin üstünə qalxardı, yerdəkilər rahat nəfəs alardılar, dua oxuyub, xaç vurmaqda davam edərdilər. Zənglər də təzədən astadan səslənər, ahəngdar, həzin, ilahi musiqi sədaları ətrafə yayılardı.

Qübbənin tozunu silib təmizləyəndən sonra həmin adam yuxarıdan aşağı və eninə, dövrələmə rəngarəng elektrik çıraqları taxardı.

Qayıdanbaş qübbənin altındakı məsafəni aşmaq daha çətin, daha qorxulu olardı.

Yenidən intizarlı mərasim təkrar olunardı.

Elə ki, həmin adam yerə düşərdi, hamı sevinərdi. Üzlər gülər, gözlərdən qeyri-ixtiyari sevinc yaşları axardı. Möcüzə olubmuş kimi, heç kəs gözlərilə gördüyünə, o hündürlüyə çıraq taxıldığına və o çıraq taxanın təzədən qübbənin altına aşaraq yerə düşməsinə inana bilmirdi. Bu, həzrət İsanın dar ağacına, çarmıxa çəkiləndən sonra, təzədən dirilib göylərdə qeyb olmasına oxşayırdı.

Göylərdən yerə enmiş müqəddəs adamın əlini tutmağa, ətəklərini öpməyə can atırdılar, Üstünə nəzir, ianə yağdırırdılar.

Müqəddəs günlərdə dini ayinləri keçirmək üçün baş keşiş ruhanilərlə bərabər kilsəyə gələrdi, Onlar kilsənin yaxınlığında yaşayırdılar. O binaların darvazasından kilsə girəcəyinə, əzəmətli darvazayadək yola asfalt salınmışdı. Bu asfalt yola xalça döşənərdi. O zaman Bakıda iki yerdə belə asfalt döşəmə vardı - biri «Qızıllı» kilsənin, biri də Qalabəyi (Qradokaçalstvo) idarəsinin qabağında, hərəsinin də Uzunluğu 500 metr idi.

Kilsənin tabut qayıran emalatxanası, dükanları vardı. Arvadlar və kişilər üçün cənazə libası, ikonalar, lampaslar, ikonaüstü örtük, lampas cövhəri, ağac yağı, fitil, şam və s. satılardı.

Kilsənin içərisində çoxlu, irili-xırdalı qızıl və gümüş ikonalar vardı. Həzrət İsa və kahinlərin şəkilləri salınmış çərçivələr də qızıldan, gümüşdən idi. Minbərə açılan qoşa qapı da qızıldan idi.

Dini mərasim zamanı, axşamlar elə ki, böyük qübbədəki çıraqları alışdırardılar, göydə qeyri-adi, rəngarəng, möcüzəyə oxşayan nur peyda olardı. Əzəmətli qübbənin şəfəqə qərq olan xaçları, əngin qaranlıqlara əfsanəvi ziyalar

saçardı. Göylərdə, əlçatmaz hündürlükdə şairanə, həqiqətdən çox xəyala oxşayan əsrarəngiz bir mənzərə canlanardı.

Qübbələrin çıraqları alışanda şəhərdə yaşayan bütün xristianlar heyrətlənərdilər: zənglər bərkdən çalınardı.

Elə bir təsəvvür oyanardı ki, Məsihin özü, Məryəm oğlu İsa şəfəqlərə bürünüb ucsuz-bucaqsız boşluqlardan yeri seyr edir.

Kilsədə qızlar və oğlanlar xor oxuyardılar. Çıraqların ziyası pəncərələrdən qaranlıqlara süzülərdi.

Mənzərə son dərəcə əzəmətli və gözəl olardı.

Kilsənin ətrafında arxitektura cəhətdən diqqəti cəlb eləyən binalar tikməyə icazə verilərdi. Lakin «Qızıllı» kilsədən hündür, ondan görkəmli bina ucaltmaq olmazdı.

***Kiçik bir haşiyə:*** Bələdiyyə idarəsi ötən əsrin səksəninci illərinin əvvəlində müsəlmanlara təklif etmişdi ki, şəhərin mərkəzində olan köhnə müsəlman qəbiristanlığında bir məscid tiksinlər; qərar da çıxarmışdı. İşi o qədər uzadırlar ki, axırda yer əldən çıxıb kilsəyə qismət olur.

Nabat xanım Xocabəy qızı ərindən və atasından aldığı miras hesabına qoşa minarəli Təzəpir məscidini tikdirir.

Nabat xanımın qəbiri həmin məscidin eyvanında, baş qapının sağ tərəfindədir. Nabat xanım xeyriyyə işlərinə kömək edirdi. Bakı su kəmərini çəkməyə də xeyli ianə vermişdi.

Krasnovodsk (Səməd Vurğun) küçəsindəki Göy məscidi Əjdər bəy tikdirmişdi. Arxitektoru Zivərbəy Əhmədbəyov idi.

Persidski (Poluxin) küçəsi ilə birinci Qanlı təpə (1-ci Sverdlov) küçəsinin tinində, Şah döngəsindən bir dalan o tərəfdə, hamamla üzbəüz minarəsiz Axund məscidi durur.

***Bakı şəhərinin mövqeyi:*** Limanın sahili Şərqdə Zığ burnundan başlayıb, qərbdə Şıx burnuna qədər 24 kilometr uzanır; bu arada onlarla körpü, bir neçə gəmi tərsanəsi və təmir zavodu vardı. Sahilin orta hissəsində şəhərdəki körpülərdən gəmilərə cürbəcür mallar - manufaktura, dən, un, taxıl, duz, çay, qənd, kişmiş, qaysı, səbzə, qoz, fındıq, təzə meyvələr, tərəvəz, taxta, odun, ağac, dəmir, mis, kömür yükləyirdilər. Gömrükxana və sərnişin körpüləri də limanın bu hissəsində idi. Dadaşov qardaşları və «Qafqaz-Merkuri» şirkətinin gəmi tərsanələri, digər təmir emalatxanaları, gömrükxana, onun anbarları və dəniz qırağındakı dükanlar da bu hissədə yerləşirdi.

Merkuri (Şaumyan) küçəsində Tağıyev teatrının arxasında sahil boyu iyirmiyə qədər ağac-taxta, odun anbarı vardı; neçə ildən qalma taxta, dirək, şəlban, tir, qapı-pəncərə çərçivələri, odun satılırdı. Körpülər sahiblərinin, ya da şirkətin adını daşıyırdı. İmamverdi körpüsü, Adamov körpüsü və s.

Limanın ikinci hissəsi Qara şəhərdən başlayır, Ağ şəhəri əhatə etməklə soltan burnuna, Zığa qədər uzanır. Bu arada 43 körpü vardı... Hamısı

da şəxsi adamlara və şirkətlərə məxsus idi; bu körpülərdən duru yanacaq - mazut, neft, benzin, maşın yağları daşınırdı. Neft emal edən, təmizləyən zavodlar, çoxlu neft anbarları, benzin çənləri, kükürd turşusu, mis, çuqun əridən və digər zavodlar, bir gəmi təmiri tərsanəsi də bu ərazidə idi. Bu arada gecə-gündüz göydən his-pas yağar, qara tüstü, boz-sarı buxar göy üzünü örtərdi; hətta buradakı qağayılar, sərçələr, it-pişik belə qapqara olardı. Damlar, divarlar da ürək sıxan qaramat rəngdə idi. Hər addımda gecə-gündüz, aramsız tüstü qaynayan göylərə baş qaldırar, yoğun, hündür, nəhəng bacalar yerə kölgə salar, dəhşətli mənzərəni daha da vahiməli edərdi. Hara baxardın yoğun, xırda ölçülü borular nəzərə çarpardı; bu borular yerdən, göydən, hasarların üstündən, divarlar boyu uzanar, göydə tağlar əmələ gətirər, bir-birilə çarpazlaşar, üst-üstə qalanardı. İlk günlərdə gümüşü rəngə çalan iri, xırda, nəhəng dəyirmi çənlər bozarıb qaralardı. Limanın üçüncü, Şərq hissəsi Bayıl burnundan başlayıb Naftalan-Bibiheybətə qədər davam edərdi; o aradakı on bir körpüdən gəmilərə qara nöyüt, ağac-taxta, sement və mazut yüklənər, qış aylarında gəmilər təmirə dayanardı. Bu körpülərdə hər növ gəmiyə rast gəlmək olardı: buxar gəmiləri, yelkən gəmisi, tanker, minik gəmiləri, barkazlar, irili-xırdalı qayıqlar...

Bakı limanında çoxlu gəmi vardı. Gəmiçilik o dərəcədə inkişaf etmişdi ki, Xəzər dənizi ilə daşınan yükün illik miqdarı üç-dörd milyon puda çatırdı, Bakı dənizlə yükdaşımaqda Rusiyada birincilər sırasındaydı.

Şəhərdə məişətin bütün sahələrində böyük bir canlanma vardı. Mərkəzi məhəllələrdə Asiya ilə Avropa üz-üzə gəlib bərabər yaşayırdı. Şəhərdə təmtəraqlı imarət və mehmanxana adları vardı: «Metropol», «Köhnə Avropa», «Madrid», «Yeni Avropa», «Leon», «Təbriz», «Dvorsovıe nomera», «Marsel» və s.

Bir cəhəti də qeyd etmək oxucular üçün maraqlı olardı: tətillər elan ediləndən sonra, fəhlə nümayəndələri neft sənayeçiləri və «Sovet siyezd» rəhbərləri ilə əsasən «Metropol»da, ya da başqa mehmanxanalarda müzakirə aparardılar, Səməd Vurğun küçəsindəki 43 nömrəli binaya yapışdırılmış bir lövhədə oxuyuruq: «Bu mülkdə (sabiq «Dvortsovıe nomera» mehmanxanasında) 1917-ci ildə oktyabrın 15 (2)-də proletariat sentyabr ayında başladığı tətildə qələbə çalandan sonra Bakı neft sahibkarları fəhlələrlə kollektiv müqavilə bağlamışdı».

«Şəms», «Mübarək», «İstambul», «İslamiyyə», «Novıy svet», «Çikaqo», «Çanaxqala», «Tehran», «Novbahar», «Anadolu», «Qretsiya», «Dardanel» və sairə qəşəng, təmtəraqlı adlarda restoranlar, aşxanalar vardı.

Hamam adları da qəribə idi: «Ermitaj», «Fantaziya»,«Ağa», «Sarxan», «Mironov», «Axund», «Qədir», «Malağan», «Toyuq yeyən».

Mağazalara «Cəvahir», «Şəşəə», «Fərş», «Əbrişim», «Yaqut», «Naznazı», «Hacı, bəri bax», «Zərxara» kimi adlar qoymuşdular.

Rəngarəng klub adları zardı: «Edison», «Ermitaj», «Ermans».

Bazar (Hüsü Hacıyev) küçəsi adından göründüyü kimi şəhərin ən gur ticarət mərkəzi, o tay-bu tay dükanlar və karvansaray idi. Sərrac, baqqal, bəzzaz, çəkməçi, boyaqçı, papaqçı, şamqayıran, kababçı, cızbızçı, pitiçi, çayçı, çörəkçi, lavaşçı, kəlləpaç dükanları gecə yarısınadək açıq olardı.

Ləziz xörəklərin ətri adamı uzaqdan vururdu; dükançılar və xörəkpaylayanlar müştərilərinə xoş sözlər deyərdilər: «Ağa, buyur», «Ağa, xoş gəldiz», «Ağa, qulluq», «Ağa, nuşsan»... «hər gün buyurun», «Təşrif gətirin»... «Qulluğunuzda olaq»...

Bir neçə yerdə, xüsusən Bazar küçəsində səkiyə həsir, palaz döşəyib, döşəkçə salmış küçə mirzələri oturub fəhlələr üçün İrana məktub yazırdılar.

Quba meydanından Sabunçu vağzalına qədər uzanan Balaxanı (Basin) küçəsində çoxlu sənətkar, xırda alverçilər, baqqal, bəzzaz, şirniyyatçı və çörəkçi dükanları vardı.

Doxsanıncı ildən sonra Balaxanı küçəsində bir neçə gözəçarpan mülk tikilmişdi: Aslanovun böyük mülkü, Marinski (Karqanov) küçəsilə Balaxanı küçəsinin tinində İsabəy Hacınskinin evi, ondan bir qədər aralı Rzayevin nəhəng mülkü. O zamanlar Türkiyə konsulxanası bu binada idi. Balaxanı və Krasnovodsk küçələrinin tinində, indiki Lenin sarayı ilə üzbəüz olan sabiq gimnaziyanın (indiki Fuad Əfəndiyev adına 4 №-li şəhər klinik xəstəxanasının) əzəmətli binası (1911-1912-ci illər)...

Şəhərdə neçə dənə pasaj vardı: Meyvə-tərəvəz pasajı, Ərzaq pasajı, Balıq pasajı, Parça-paltar pasajı, Tağıyev pasajı, Bəzzaz pasajı, Kələntərov pasajı və sairə.

Şəhərin mərkəzindən kənardakı məhəllələrin də öz adları vardı: Çəmbərəkəndi (Bu məhəllədə maldarlar yaşayırdı), Dağlı məhəlləsi, Həmşəri palanı, Sonbala açıqlığı, Məhəmmədəli məhəlləsi, Qanlı təpə, Vağzal dalı, Malağan Slobodkası, Müsəlman Keşləsi və sairə.

Torpağın hər qarışını bir ovuc qızıla satırdılar. Tez-tez yer üstündə dava, qan düşürdü. Məhkəmələrdə torpaq və mülk üstündə yüzlərlə şikayətə baxırdılar.

Torpaq sahibləri torpaqlarını bankda girov qoyur, faizlə pul alır, başlayırdılar mülk tikdirməyə. Elə ki, birinci mərtəbə hazır olurdu, onu da yenə girova qoyurdular, möhlətlə yenə məbləğ götürür, əvvəlki kreditin faizini ödəyir, eyni zamanda üst mərtəbələri də tikdirir, bu qayda ilə binanı başa çatdırır, olurdular ev sahibi. Mənzilləri, dükanları kirayə verirdilər.

Dövlətlilər binalarının damında əzəmətli qübbə qoydururdular. Bununla da sərvətlərinin tükənməzliyini nəzərə çarpdırmaq istəyirdilər. Bir kaşanədə, bəzən hər küncdə və baş fəsadlarda birər qübbə ucaldırdılar; hər qübbə, guya bir milyon tanxa sayılırdı, Qübbələrin ortasındakı milə ştandart qaldırıb tanış adamlara, qohum-əqrəbaya o gün hansı salonda ailə yığıncağı,

ziyəfət, ad günü olduğunu xəbər verirdilər, hər dövlətlinin öz bayrağı vardı. Əzəmətli binalardakı altı-yeddi otaqlı mənzillərdə xüsusi orkestr bucağı vardı ki, orada musiqiçilər çalar, xanəndələr oxuyar, məclisdəkiləri öyləndirərdilər.

Qəfildən varlanan neftxudalar allaha bəndəlik etmirdilər, pulu necə gəldi o cür xərcləyirdilər.

Balaxanı camaatı (Bakı kəndləri arasında və şəhərin özündə) dövlətli hesab edilirdi; o həyət, o zəmi, o bostan yox idi ki, orda bir neçə nöyüt quyusu olmasın.

Məclislərdə, xüsusən toylarda bərbəzəkli, zəngin geyinərdilər. Arvadları, gəlinləri, hətta azyaşlı qızları qızıl, mirvari, ləl-cəvahirat içində olar, uzaqdan diqqəti cəlb edərdilər. Nabələd adamlar onları görəndə heyrətə gələrdilər. Kişilər zəvvar dəstəsinin qabağında yeriyən çavuş qatırı sayaq bəzək -«zınqırov» içində olardılar. Qiymətli xəncər, beybut, tapança gəzdirər, buxara papaqlar yarım arşın hündürlükdə... Həddindən artıq bədxərc, mənəm-mənəm deyən, davanı pulla satın alan idilər. Meyxanaya girib keflənər, durub gedəndə gözləri ayaqlarının altını görməz, birdən dayanardı; deyərdilər ki, qapı o tərəfdədir, gedən ora. Harınlığına salıb ayağını dirəyərdi yerə, inad edərdi ki, mən burdan çıxacağam, sökün divarı, yol açılsın, əskinası səpələyərdi yerə. Bənna-fəhlə gətirdib divarı sökər, yol açardılar.

Belə harın dövlətlilərdən biri haqqında balaxanılı Cəlilov belə danışırdı: Şəhərdə «kef» edəndən sonra küçələrdə veyllənə-veyllənə gəlir çıxır «Qoşa-qala» qapısı olan yerə, Haşımov meydanına. Görür ki, Hacı Zeynalabdin Tağıyevin maşını ordadır. (Bakıya ilk dəfə avtomobili Tağıyev gətirtmişdi, ondan sonra Rotşildlər). Şoferə yaxınlaşıb deyir ki, məni apar kəndə. Şofer cavab verir ki, gücün çatmaz, çox bahadır. Hərif hökmlə soruşur: «Axı, nə qədərdir?»

Şofer yaxasını qurtarmaq üçün deyir: «iyirmi beş manat». (İyirmi beş manata bir əla fayton və iki köhlən at almaq olardı). «Verrəm iyirmi beş manatı!» deyə oturur maşına. «Sür görüm!»

Şofer yola düşür, tünlük olan mərkəzi küçələrdə dalbadal fit verir, adamları xəbərdar edir; elə ki, seyrək küçələrə çıxır, daha fit vermir. Hərif dilxor olub xəbər alır ki, «Ayə, niyə onun zurnasını çalmırsan?». Şofer onu başa salır ki, o zurnanı çox çalmaq olmaz, ona da pul verməlisən.

«Eybi yoxdur, verrəm, çal!» deyə hərif harda iki-üç adam, qəşəng, kök arvadlar görür fiti dalbadal çaldırır.

Balaxanıya çatanda kənd əhli tökülür maşının qabağına. Hərif şoferdən soruşur: «Nə qədər verəcəyəm?» Şofer deyir: «iyirmi beş manat maşın haqqı, otuz beş manat da zurna üçün».

Hərif şoferin pulunu verib yola salır. Hərə bir tərəfdən xəbər alır ki, necə gəldin, nə qədər xərcim çıxdı! hərif deyir: «Maşının qiyməti ucuzdur, amma zurnası çox bahadır».

O vaxt ləqəb qoymaq adət idi: Ağşalvarlar, Kosalar, hoppanaram ha, Bozbaşyeyənlər, Əliçomaxlılar, Bic Zeynəlbadin, Spasibo Zeynalabdin və sairə...

Spasibo ləqəbinin maraqlı tarixi var. Padşahın ona-buna medal verdiyini gördükdə içərişəhərli Zeynaləbdin də medal almaq xəyalına düşür. Bakı qubernatorunun yanına gedib, xahiş edir ki, İçərişəhərdə olan karvansarayımı padşahın uşaqlarına bağışlayıram. Qubernator ona acıqlanır ki, padşahın uşaqları o günə qalmayıblar ki, sənin xəraba karvansarana göz diksinlər. Zeynalabdin təzim edib deyir ki, cənab, mən padşahın uşaqları dedikdə, soldatları nəzərdə tuturam. Onlar da əlahəzrətin balalarıdır.

Qubernator mətləbdən agah olduqda Zeynalabdindən ərzi-hal alıb göndərir Peterburqa... Zeynalabdin Karaulnaya döngəsi ilə Starıy poçtovoy (Ostrovski) küçəsinin tinində, Təzəpir məscidinin yüz otuz-yüz qırx addımlığında yerləşən qubernatorluğa tez-tez baş çəkib, cavab gəlib-gəlmədiyini soruşur.

Günlərin birində qubernator Zeynalabdini çağırıb, xəbər verir ki, əlahəzrət sənin xahişini qəbul edib; get karvansaranı boşalt, təmizlə, qaydaya sal, bir-iki günə soldatları ora köçürəcəyik. Zeynalabdin sevinə-sevinə soruşur ki, bəs əlahəzrət mənə nə lütf edibdir, Qubernator kağıza nəzər salıb deyir: «Sənə də spasibo yazıbdır». O gündən kişinin adı qalır «Spasibo Zeynalabdin».

Bir nəfər də çox tədbirli, diribaş olduğuna görə Bic Zeynalabdin, Qatır Zeynalabdin deyirdilər. İndiki Sabir bağının altındakı dalanda, Hacı Hacağanın «Təbriz» mehmanxanası və karvansarasından azca yuxarıda Bic Zeynalabdinin bir neçə dükanı vardı. Yer xəfə, gediş-gəliş az olduğuna görə dükanları kirayəyə götürən yox idi. Bic Zeynalabdin bələdiyyə idarəsində mənsəbli şəxslərə yol tapıb «Qoşa qala» qapısından yuxarıda bələdiyyə idarəsi hesabına bir qala qapısı da açdırır, beləliklə dükanlarını kirayəyə verir.

Məşhur şirniyyatçı Eynimin Rusiyanın bütün böyük şəhərlərində olduğu kimi Bakıda da topdan - satış kontoru vardı. Əsasən iris satardılar, Bir dəfə bir neçə vaqon şirin qalet də gətirirlər, müştəri tapılmır. Eynimin müvəkkili başını itirir. Axırda Bic Zeynalabdindən məsləhət istəyir. O də bir qutu qalet götürüb kirir «Təbriz» mehmanxanasının birinci mərtəbəsində olan kababçı Hacı Aslan Məcidovun «Şəms» aşxanasına, çay gətirtdirib başlayır qalet yeməyə, birdən qutudan bir beş manatlıq qızıl sikkə çıxarır, qışqırır: «Ada, qalet qutusuna beşlik qızıl qoyub-par». Aşxanadə olanlar cumur qalet almağa. Bic Zeynalabdin çayı içib, düşür küçəbəküçə kababçı dükanlarına, çayxanalara, aşxanalara, karvansaralara, pasajlara beş manatlıq qızılı

göstərə-göstərə car çəkir. Axşama şəhərdə dərman üçün axtarılsaydı, qalet tapılmazdı.

Konfet qutularında, papiros, tütün paçkalarında beş manatlıq, üç manatlıq, qızıl üzük qoymaq müştəriləri şirnikləndirmək üçün xüsusi hiylə idi.

Şəhər küçələrinin rəsmi adları ilə yanaşı yerli adları da vardı; «Toyuqçu bazarı» - Qarayev küçəsi «Qəssab bazarı» - Yefimov Saratovtsev küçəsi, «Balıqçı bazarı» - Nizami küçəsi, (bir hissəsi), «Xarrat bazarı» - Ostrovski küçəsi, «Misgər palanı» - Həzi Aslanov küçəsi, «Həmşəri palanı» - Şors küçəsi, «Güzgüçülər palanı» - Petra Montin küçəsi, «Gön satan - dabbaq palanı» - Bir may küçəsi, «Zərgər palanı» - Qasım İsmayılov küçəsi, «Başmaqçı palanı» - Vidadi küçəsi, «Səbzə bazar» və sairə.

Bakıda çoxlu karvansara vardı, sahibinin adı ilə adlanırdı: Hacı Hacağa karvansarası, Hacı Mustafa karvansarası, Köhnə karvansara, Zaxar karvansarası, Çuxur karvansara, Dağıstanlılar karvansarası, Xanım karvansarası və s. Tiryəkçilər karvansarası isə Quba meydanı həndəvərində idi; qabaq tərəfində bir restoran vardı. Bu karvansara səs-küydən «uzaq» hesab edilirdi. Hücrələr məqsədəuyğun döşənib qaydaya salınmışdı; manqal, tiryək hoqqası, maşa, kömür və digər ləvazimat; xaricilər üçün isə taxt, stol və stul qoyulmuşdu. Müştərilər tiryək alıb hücrə haqqını verəndən sonra - başlardılar tiryək çəkməyə; qonşudakı restoranda yerləşən çayxanadan çaypaylayanlar tünd çay, bufetçi isə şirniyyat, halva, xuşgəbər, səbzi, ləbləbi, qaysı, xurma, şəkərbura, paxlava, şəkərçörəyi, miyanpur, qoz-badam ləpəsi gətirərdi. Tiryək iyi adamı vurardı.

Tiryəkçilər karvansarasından savayı, kömür meydanında da bir karvansara vardı, tiryək çəkərdilər, bura çox vaxt kübar adamlar gələrdilər, hətta zənən xeylağı müştəriləri də vardı. Otaqlar təmiz, tiryək dəstgahı xudmani idi; xırda manqallar, farfor hoqqalar, əntiqə, xırda, bəzəkli bürünc maşalar... hoqqaların başı - tiryəkban əla növlü çinidən, müştükləri səndəl ağacından, şirmayıdan, sədəfdəndi; tiryəkbanı gözəl miniatür nəqşlərlə bəzəyərdilər; ingilis malı bu tiryəkbanları İngiltərədə qayırar, İrana göndərərdilər, ordan da Bakıya və başqa ölkələrə yollayardılar. Nazik qurğuşun vərəqəyə bükülmüş tiryək lülələri nəfis qutularda olardı; dördkünc, uzunsov tiryəklər də vardı, onları da qurğuşun kağızlara səliqə ilə bükərdilər, üstlərini də bəzəyərdilər.

Məhəllə çayxanalarının da bəzilərini arakəsmə ilə bölər, bayır tərəfdə samovar qoyub çay satardılar, dal tərəfi isə tiryəkxana edərdilər.

Tiryəkxana ətrafı sakitlik olmalı idi. Tiryəki hoqqaya qoyar, xırda maşa ilə manqaldan göz çarçasını götürüb piləyə-piləyə üstünə basar, qüllab vura-vura tüstünü döşünə çəkib, dərindən nəfəs alar, sonra da üfürərdilər, başlardılar şirin məzə yeməyə. Şirniyyat məstliyi, nəşənin müddətini artırardı.

Vay ondan ki, qab düşəydi, bərkdən asqıraydılar, qəhqəhə çəkib güləydilər, o dəqiqə tiryəki ayılar, xumarlıq aləmi yox olar, nəşəsi pozular,

xərc-xuracatı puça çıxardı. Tiryəkilər axırda var-yoxdan çıxar, dilənçiyə çevrilər, cır-cındır içində qalardılar; tiryək səmi gələndə əsim-əsim əsərdilər. Taqətdən düşər, iş qabiliyyətini və bütün iqtidarlarını itirərdilər. Bu, dəhşətli faciə idi.

İçərişəhərdə Şişəli karvansara vardı ki, hücrələrinin bəzilərində pəncərə əvəzinə damda şişə fanarlar düzəltmişdilər. Ona görə də «Şişəli» ad qoymuşdular. İçərişəhərdə başqa bir əyləncə evi də vardı - «Pilləkanlı meyxana» deyərdilər. Girəcəyin üstündə hüsnxətlə iri ərəb hərflərilə: «Yüknən girən taynan çıxar, taynan girən haynan çıxar» yazmışdılar.

Bu növ əyləncə evlərini nəzərə çarpdırmaq üçün damlarında uzunu-eni bir metr, metr yarım, hündürlüyü də bir metr olan xüsusi fanarlar düzəldib əlvan şüşələr salar və gur lampalarla işıqlandırardılar.

Meydanlara nə vaxt gəlsəydilər bir neçə yerdə yığıncaq görə bilərdilər. Falçılar, sehrkarlar, ilan ya da meymun oynadanlar, qəsidə oxuyan dərvişlər camaatı başlarına yığıb məşğul edər, sonra da pul yığardılar. Çoxlu müsəlman aşxanası, pitiçi, kababçı, kəlləpaz vardı. Aşpaz Ələkbər yalnız plov bişərərdi; səkidə dayanıb qışqırardı: «Ay camaat, plov hazırdır!.. Gəlin isti-isti yeyin! Zəfəranlıdır, ləzzətlidir!.. Bu gün plov yeməsəz, sabah onu sizə çilov, biri gün dovğa yedizdirəcəyəm».

Meydanlarda tez-tez it boğuşdurur, qoç döyüşdürür, xoruz vuruşdururdular. Belə vaxtlarda mərəkə qopardı.

Milyonçuların, qoluzorbaların arasında itbaz, qol döyüşdürən, quşbaz, xoruzbaz vardı. Bekar, harın, tüfeyli adamlar əyləncə axtarırdılar. İtlər boğuşanda, xoruzlar, qoçlar döyüşəndə tez-tez dava düşərdi, mərəkə qopar, savaşardılar, adam tələf olardı. Çox vaxt əvvəlcədən münsiflərə pul basırdılar ki, yalan rəy versinlər. Kasıbın iti, ya qoçu, varlı adamınkına üstün gələndə, tapançanı çıxarıb yazığın itini, qoçunu elə yerindəcə gəbərdirdilər. Xoruzu, qoçu, iti uduzan məhəllə o gecə zülmətə qərq olar, çıraq yandırmazdılar. Udan məhəllədə isə əksinə, çıraqban, şənlik, şadyanalıq olardı, çalıb oxuyardılar.

Buxara dəriləri alverçisi bir papaqçıya Türküstandan dostu və müştərisi qəşəng bir buxara quzusu hədiyyə gətirir. O da şüşəbənddə bu quzu üçün xüsusi yer düzəldir və orda saxlayır; amma otaqlara, salona buraxmır. Harın bəslənən quzu böyüyür, nəhəng bir qoç olur, adı şəhərdə dillər əzbərinə çevrilir. Günlərin birində salonun qapısı açıq qalır, qoç girir salona, birdən tavana qədər ucalan bədənnüma daş güzgüdə əksini görür, başqa qoç hesab edib qabağa keçir, güzgüdəki qoç da ona yaxınlaşır. Qoç qəzəblənib geri çəkilir və hücuma keçib var qüvvəsilə güzgüyə elə bir kəllə vurur ki, bədənnüma güzgü tikə-tikə olub cingiltiylə döşəməyə tökülür, ətrafa səpələnir. Ev sahibləri dəhşətə gəlib hadisə yerinə, salona qaçırlar, görürlər ki, qoçun kəlləsi al qan içindədir.

Arvad hesabına yaşayan kişilər. Belələri bir-iki dəst yaxşı paltar, papaq, çəkmə, palto, çox vaxt çuxa, arxalıq, qurşaq düzəldib dövlətli əri ölmüş dul arvadı alar və onun hesabına firavan dolanardı. Arvad da camaatın ağzını yummaq üçün deyərdi ki, evdə başı papaqlı olmalıdır, böhtançı dedi-qoduçuların ağzını yummaq üçün dul arvadın üstündə bir mötəbər kişinin adı lazımdır. Elə ki, kef çəkib sərvətin axırına daş atardı, pul qurtarardı, kişi xırda bir şeyi bəhanə tutub küsər və evdən gedərdi, pusquda duran tülkü təki digər ölən varlı kişinin arvadına müştəri düşür, evlənərdi.

***Toy və kef məclisləri.*** O həftə olmazdı ki, Məhərrəm mərasimi və orucluq ayı istisna olmaqla, bu və ya digər məhəllədə və ya da bir neçə yerdə belə məclislər qurulmasın. Çuvallar dolusu düyü arıtlanar, qoçlar, toğlular, toyuq-xoruzlar kəsilərdi. Bir neçə yerdə ocaqlar qalanar, irili-xırdalı qazanlar asılardı. Xörəklərin, ədviyyatın ətri yeddi məhəlləyə yayılardı.

Xalılar-xalçalar döşənər, stullar qoyular, hərə öz mövqeyinə görə yer tutardı. Qarabağdan, bəzən Şirazdan xanəndələr, sazəndələr dəvət edilərdi. Oynayan oğlan (mütrüb) və qızlar (çəngi) çağrılardı. Mütrübləri İraqdan, çəngiləri isə Tiflisdən gətirərdilər.

Mütrüblərin əla növlü ipək və yundan xüsusi libasları vardı: dar şalvar, dar köynək, onun aşağısında bir qarış enliyində zərli-zibalı qırçın, qızılı baftadan kəmər, qismən dikdaban ayaqqabı.

Çəngilər başdan-ayağa ipək tül və ya da qazdan rəqqasə libası geyinər, yarımüryan olardılar, güləbətin, xara, ya da baftadan dikdaban ayaqqabıda, geyimləri zərli-zibalı parçalarla bəzədilərdi. Başlarında daş-qaşlı çutqular, üzləri ənnik-kirşanlı, gözləri sürməli-vəsməli, saçlar hörük-hörük, qulac-qulac. Rəqs zamanı çəngini «ağpapaq» adlanan kişi müşayiət edərdi. Ağpapaqların əynində gümüş vəznəli ağ çuxa, başlarında təpəsində qırmızı məxmərli iri ağpapaq, məxmərin üstündə güləbətin xaç, ayaqlarında məs, bellərində təkbənddən sallanan gümüş xəncər olardı.

Belə məclislər əksərən dava-dalaşla qurtarardı; adətən dava da mütrüb və ya zənginin oynamağı üstə düşərdi: biri deyərdi mənim qabağımda oyna, digəri tələb edərdi yox, gərək mənim qabağımda oynayasan; iş atışmaya, ölüb-öldürməyə çıxardı.

Qoluzorbalar tez-tez acıqdan mütrübün saçlarını qırxdırıb tökərdilər yerə. Mütrüb dörd-beş yumurta sarısını mis qabda yandırıb şirəsini çıxardar, on-on beş gün tez-tez başına sürtərdi; saç tez, həm də daha gur gələrdi.

***Qoçular.*** Çəmbərəkəndli Kərbəlayı Gülü qoçular barəsində ətraflı danışardı: «Qobustan tərəfdən, Qoçu adında iyirmi - iyirmi beş yaşlarında bir gədə gəlmişdi Bakıya. Arabaçı idi. Bərkə-boşa düşüb, özünü göstərirdi. Çox güclü, həm də ötkəm idi. Söz tərs gələn kimi tərəf müqabili şapalaqlayırdı. Kürəyini yerə qoyan yox idi. Deyirdilər ki, həzrəti Əli əleyhisalam onu yuxuda kəmərbənd edib, kürəyində İmam Əlinin pəncəsinin, beş barmağının izi var.

Kimə şillə ilişdirərdi, hərif o dəqiqə yıxılardı. Bazulu gədə idi, qabağına heç kəs çıxmağa sürət etmirdi. Səsi zəhmli, gur idi, Deyirlər bir dəfə ram olmayan xam bir at gətirirlər. Haradan yanaşsan dişdiyirmiş, arxadan hənirti duyanda şıllaq atır, şahə qalxırmış. Hadisə yerinə Qoçu gəlir çıxır, qabağa keçib bərkdən bağırır, ata zərblə elə bir tutarlı şillə ilişdirir ki, heyvan başlayır əsim-əsim əsməyə... Hoppanır minir atın belinə, başlayır onu məhmizləməyə. At götürülür.

Hamı deyir ki, at Qoçunu aparıb daşa, qayaya çaxıb öldürəcək. Dörd-beş saatdan sonra Qoçu qayıdır, altındakı at da köpük içində.

Qoçu özü ortaboy, arıq amma enlikürək gədə idi. Tapançaya, tüfəngə öyrənəndən sonra fəğan elədi...

Ondan sonra kim ki, bir az xoruzlanırdı, deyirdilər ki, «adə, qoçusan?» «Zalım oğlu, qoçu deyilsən ki,» «Mənim üçün qoçu olmayacaqsan ki!» O xislət adamlara «Qoçu» adı qoydular...

Qoçuların sayının artmasına səbəb Bakının dövləti, şöhrəti idi. Gürcülər gəlirdi Bakıya, pul alıb dövlətli adamın müddəisini, düşmənini öldürürdülər. Bu minvalla daraşmışdılar Bakı varlılarının, tacirlərin, neft xozeyinlərinin canına, hədə-hərbə gəlib deyirdilər ki, filan qədər verməsən vurub öldürəcəyəm.

Bakı xozeyinləri də təpərli, ötkəm cavanları yığıb hərəsinə bir-iki gözəl libas, papaq, çəkmə, tapança, patron, xəncər, beybut alırlar, həftə başı da ciblərinə filan qədər xərclik qoyurlar, deyirlər ki, Tiflisdən gələn lotu kintoların ayağını kəsin... Doğrudan da onlar gürcü kintolarının əl-ayağını yığdılar; az-az gəlirdilər, özləri də qorxa-qorxa. Sonra da ki, qoçular özləri harınlaşdılar, hər məhəllənin bir neçə qoçusu vardı. Bazar-dükanı aralarında paylayıb xərac yığırdılar. Varlıların hər birisinin öz qoçu dəstəsi vardı; qoçuların özlərinin də gözətçiləri olardı. Xüsusi geyimləri, bellərində xəncər, beybut, «afserski» tapança, mauzer, nağan bağlayardılar.

Qoçular bir-birilə yola getmir tez-tez savaşırdılar. Elə ki, başlayırdılar atışmağa, küçədə qaça-qaç düşürdü, konduktor, konkasürən atları qoyurdular başlı başına, qaçıb gizlənirdilər... Atlar hürkürdü, konka yoldan çıxırdı... Atışmada təsadüfən ölənlər də olurdu.

Bir qoçunun başına Qurubağda qəribə əhvalat gəlir. Şəhərdə tanınmış Kürən qoçu Qurubağda oturub ötüb-keçənlərə əziyyət verir, sataşır, kefi istəyəndə döyür, tapança ilə təhdid edirdi; camaat da onu görəndə yolunu dəyişdirib xatadan qaçırdı. Kürən qoçu salam verib ötən adamı söyüb incidirmiş ki, sən kimsən ki, mənə salam verirsən, salam verməyənləri döyürmüş ki, məni aya salmırsan. Harınlıqdan lap qudurmuşdu. Özü də çox yekəpər, həm də çox güclü imiş, yaxşı da nişan alırmış. Qoçubaşılar belə vaxtda ona baş qoşmaz, ötüb keçərdilər.

Realni məktəbin son sinif şagirdlərindən biri Qurubağdan keçəndə Kürən qoçu onun qabağını kəsib çənəsinin altını əlləyir; o zamanlar bu, çox böyük təhqir hesab edilirdi. Şagird pərt olur və evə gəlib əhvalatı anası Fatmaya danışır. Ana tapançanı doldurub verir oğluna və deyir ki, «bu saat get, onu öldür, - və qəzəblə əlavə edir, - öldürməsən, mən səni öldürəcəyəm».

Oğlan əlində tapança qayıdır Qurubağa və Kürən qoçuya deyir ki, sən nə sürətlə mənim çənəmi əllədin, öldürəcəyəm səni.

Kürən qoçu hırıldayıb oğlanı ələ salır, nataraz arxasını ona sarı çevirib əyilir və deyir: «Hünərin zar vur görüm... Sən yox, gərək dədən gələydi».

Oğlan tətiyi basıb tapançadakı güllələrin altısını da qoçunun bədəninə boşaldır... Kürən qoçu elə oradaca ölür...

***Zəngin məhəllələr.*** Bir məhəlləni tutan, dörd fasadı, dörd əsas küçəyə baxan, yiyələrinin milyonlar sahibi olduğunu uzaqdan xəbər verən, qübbələri gümüş kimi parıldayan, çoxmərtəbəli, bərli-bəzəkli, insanı heyran edən şahanə imarətlər, gündə milyonlarla gəlirin haqq-hesabını vuran maliyyə, ticarət, nəqliyyat, eynilə inzibati, hərbi və mülkü idarələrinin bir əfsanəvi ad daşıyan mehmanxana, restoran, lokanta, kino, teatr, sirk, dəbdəbəli alış-veriş kantorları, doğrama qapılı mağazalar, ikimərtəbəli pasajlar və bunlar təki müəssisələr şəhərin mərkəzində yerləşirdi. Buradakı döngə və küçələrin - Nikolayevski, Olginski, Velikoknyazski, Qarçakovski, Sadovi, Naberejni, II Aleksandr, Mixaylovski, Krivoy, Torqovi, Telefonnı - Romanovski prospekt, Vrangelski, Qubernski və başqa bu kimi adlar da uzaqdan bu araların kübar məhəllələri olduğunu xəbər verirdi.

Bu küçələrdə adamlar qarışqa təki qaynaşırdı. Dünyanın bütün ölkələrindən gətirilmiş nəfis ipək, yun, kətan, pambıq parçalar, rəngarəng libaslar, ətriyyat, sabun, min bir çeşidli nəqşlərlə bəzədilmiş saxsı, çini, büllur, şüşə, gümüş, farfor qab-qacaq, şirmayı, kəhrəba, qızıl, mərcan qutuları və digər əşyaları nə təsvir və nə də sayıb qurtarmaq mümkün idi. Darçın, zəfəran, mixək, kakao, hil, kofe və digər ədviyyatın ətri adamı uzaqdan vururdu.

Avropa ölkələrindən gətirilmiş mebellər, Rusiya xəzləri, İran və Azərbaycan xalı və xalçaları, tirmə şallar, Türküstan parçaları, buxara dəriləri, yemiş meyvələri, Səmərqənd, Xivə, Xarəzm malları, Fransadan - Liondan və İrandan – Həmədandan gətirilmiş xrom, şavro, gön, tumac və lak ayaqqabılar, çin və alman farforları, çin, seylon, hind çayı və digər ölkələrin malları müştərini uzaqdan valeh edirdi. Məşhur apteklər, fotoqraf dükanları, dərzi emalatxanaları, arvad bəzəkxanaları, kişi bərbərxanaları mərkəzdə, varlılar yaşayan məhəllələrdə idi. Meyvə-tərəvəz satılan dükanlarda ilin bütün fəsillərində növbənöv təravətli meyvələr almaq mümkün idi; vitrinlərə büllur bəzəkli çini, saxsı vazalarda qoyulmuş lətif, əla növlü hulu, şaftalı, üzüm, qovun, xiyar, alma, armud, heyva, nar, narınki, min bir bağ-bağçadan, iqlimdən

xəbər verir, insanı məftun edirdi... Əlbəttə, təbiətin bütün bu nemətləri kübar şəxslərin, yüksək rütbəli məmurların nəsibi idi.

Olkinski küçəsində bir neçə zərgər mağazası vardı, brilyant, mirvari, yaqut və zümrüdü yalvara-yalvara satırdılar. Xüsusi dükanlar vardı ki, dünyanın hər yerindən gətirilmiş saatlar vardı.

Dəbdəbəli dəllək dükanlarının divarlarındakı daş güzgülər, səkkiz-on qəndilli çilçıraqlar göz qamaşdırır, məxmər, xara, atlas pərdələr, rəngarəng ağamlardan qayrılmış mebellər müştərini heyran edirdi.

Adı dillər əzbəri, beş-altı iri vitrinli, bütün Avropa və Asiya dərmanları və məlhəmləri tapılan əczəxanalar da bu arada idi. Buraya dünyanın hər yerindən dava-dərman, ot-çiçək dərmanları gətirilirdi.

Məşhur məlhəmçi Ağa Ərzumanın tək qapılı «Məlhəm» dükanında qəribə müalicə üsulu vardı - yaraya özü baxıb, məsləhət bildiyi məlhəmi qoyar, sarıyar və pulunu alardı.

Bazar (Hüsü Hacıyev) küçəsində Həkimov qardaşlarının məşhur şərq davaxanası «Əttar» da dillər əzbəri idi; burada ağac, kök və hər növ digər təbii dərmanlar satılırdı. Gül və ədviyyat ətri adamı uzaqdan vururdu.

Haşımov (Gənclər) meydanından başlamış Velikoknyaz (Zevin) küçəsinədən üzüaşağı düşən əyri döngədə ona qədər sərraf dükanı vardı. Dünyanın çuval, kisə və qutular dolusu bütün valyutalarının, əskinas və sikkələrinin qızğın alış-verişi kedirdi.

Bir sərraf Hacı var-yoxunu qızıl pula verib seyfdə gizlədir. Birdən qızılın məzənnəsi düşür, kişi qorxudan dərd tapır. Cavanlar növbə ilə yaxınlaşıb təsəlli verirmiş kimi: «Hacı, darıxma, qalxar» deyə kişini iki mənalı, eyhamlı sözlərlə daha da dilxor edirdilər.

Bir neçə mağaza barədə xüsusi danışmağa dəyər. Fərhadzadələrin «Hacı, bəri bax» bəzzaz mağazası «Metropol» mehmanxanasının (Nizami muzeyi) altında idi; dünyanın ən zərif ipək, yun və pambıq parçaları satılırdı. Bostaqanovun mebel dükanı «Qrand Otel» mehmanxanasının (Caparidze küçəsindəki Nizami muzeyi ilə üzbəüz iki mərtəbəli böyük bina) altında idi; o, əla növlü rus, fransız, macar, ingilis və digər ölkələrin ən yaxşı yumşaq mebelini satan tacir hesab edilirdi.

Olkinski (Caparidze) küçəsinin ortasında fransız taciri «Obon Marşe»nin mağazası bütün məhəlləni tuturdu; burada yalnız fransız malları satılırdı: misli olmayan hər növdə və hər rəngdən üst köynəyi, qalstuk, qadın xalatları, gecə köynəkləri, alt paltarlar, arvad və kişi corabları, bəzək əşyası, ənnik, kirşan, min cür başqa ətriyyat, qutuların naxışları, büllur şüşələrin formaları, rəngi, şəffaflığı insanı valeh edirdi.

«Obon Marşe» firması ilə rəqabət aparan «Bəradəran Ağasıyev» küçənin o tayında rəqibinin dükanı ilə üz-üzə, üç qapılı mağaza açmışdı; Moskvaya, İstambula Peterburqa, Tehrana, İzmirə, Parisə, Varşavaya, Nijni

Novqoroda tez-tez səfər edib əla növlü köynək, qalstuk, alt paltarı gətirib satılırdı; özü də malın keyfiyyətini nümayiş etdirmək üçün, reklam məqsədilə parçanı qıfvari düzəldib, yuxarıdan enli, aşağı tərəfdən nazik edər, iplə bağlar və içinə su doldurardı, altına da tas qoyurdular ki, müştərilər görsün ki, parça necə saf, necə möhkəmdir, su buraxmır.

Tağıyev pasajında (Köhnə univermaq) Dorojnov hər növ hazır paltar satırdı; kişi, arvad, uşaq libasları, yun, ipək, kətan paltarlar,..

Satıcıların hər fəsil üçün paltarları vardı; özləri də çox şey alan müştəriyə kömək edər, küçəyə qədər yola salar, hətta faytona da mindirərdilər. Onunla üzbəüz üçmərtəbəli binanın altında qoşa qapılı şirniyyat dükanı dururdu, qəribə orası idi ki, nə vaxt alınsaydı - pirojna, tort, paxlava, pəşməy və s. isti olardı.

Bu dükanın qonşuluğunda «Koloniya malları» mağazası vardı; Yava adasından tutmuş Trabzona qədər dünyanın bütün tütün, papiros, siqar, siqaret, qəlyənlar üçün Şiraz tənbəkəsi, kakao, qəhvə, bütün ədviyyat və s. mallar satılırdı; bunların ətri bütün məhəlləyə yayılırdı.

Şəhərdə çoxlu fotoqraf vardı. Kuliyev, Kakavixin və David Rostamyan dillər əzbəri idi. Bu üç fotoqrafın müştəriləri neftxudalar, mülkədarlar, zəngin təsirlər, yüksək rütbəli məmurlar, gəmi sahibləri, bir sözlə seçilmiş adamlar idi.

Kuliyevin foto emalatxanası Nikolayevski (Kommunist) küçəsində, Kakavixininki isə Krivoy küçədə (indi o məhəllə yoxdur), David Rostamyanın emalatxanası Marinsk (Karqanov) küçəsilə Torqovi (Nizami) küçənin tinində, ikimərtəbəli binada idi. Bu emalatxanalarda əlaltılar işləyər, sifariş qəbul edərdilər. İri portretlər, ailə şəkilləri, venetkalar hazırlayardılar. Qiymətləri də baha idi. Üst mərtəbədəki altıotaqlı mənzildə David yaşayırdı və çox hörmət etdiyi dövlətliləri, yüksək mənsəb sahiblərini özü qəbul edər, sifariş götürər və hazırlayardı. Gödəkboy, çənəsində balaca saqqalı, burma bığı vardı, başı yekə, qarnı şişman. Evlənməmişdi. Hər barədə usta, püxtə adam idi. İran təbəəsi olduğundan, konsulla bərk dostluğu vardı; üst mərtəbədə əli altında yeddi-səkkiz qız işləyirdi, hamısı da bir-birindən gözəl, göyçək, məlahətli...

Bir dəfə qızlar Davidin başına oyun açmışdılar. Həmişə şərabı gümüşə tutulmuş bəzəkli buynuzda içərdi. Qızlar onun buynuzuna oxşar buynuz qayıtdırıb, ucuna yivli düymə saldırırlar. Məclislərin birində qocanı içirdib kefləndirir, girəvəyə salıb buynuzun ucundakı yivli düyməni boşaldırlar, şərab axıb Davidin şalvarını isladır. Haramzada qızlar əl-ayağa düşüb, cəld kişini soyundurub paltarını dəyişdirmək bəhanəsilə onun yarımçılpaq, şalvarsız şəklini çəkirlər.

Elə ki, o özündən çıxıb qızlara acıqlanardı, darabara salıb işdən çıxarmaqla təhdid edərdi, qızlar da, bir dəstə qızın arasındakı yarımüryan fotonu İran konsuluna və şəhərin mənsəb sahiblərinə, nüfuzlu dövlətlilərə

göndərməklə onu hədələyərdilər, David o saat susmağa vadar olardı. O zaman belə bir şəklin faş olması David üçün ölümə bərabər idi, ya gərək Bakıdan köçüb gedəydi, ya da ki, intihar edəydi, başqa çarə yox idi. Keçmiş «Krizoyda» məşhur saatsaz yəhudi Fuks dükanı vardı. Fuks müştərilərlə dəmir barmaqlıqlı balaca pəncərədən danışar, sövdələşər, saatları alıb-verərdi, heç kəsi içəriyə buraxmazdı, pilləkənlə dükanın içindən bir başa ikinci mərtəbəyə qalxardı; elə bil qəfəsdə yaşayırdı; küçəyə gediş-gəlişi həyət tərəfdən idi. O da, əksərən zənginlərə xidmət edərdi.

Bakıda Torqovi küçəsində şamaxılı tacir Tağıyevin əzəmətli mülkünün altında, Hacı Rəcəblinin bir məhəlləni tutan nəhəng mülkü («Vətən» kinoteatrı) ilə üzbəüz dükanda, şəhərdə ən məşhur şirniyyatçılardan olan bir alman hör növ şirniyyat satardı. Moskvadan, Peterburqdan, Varşavadan, Parisdən mal alardı. İrili-xırdalı metal və karton konfet qutularının bəzəyi, görkəmi insanı cəlb edərdi, xoş ətir verərdi. Tort və pirojna üçün krem hazırlamaqdan ötrü Abşeron adalarından səbət dolusu qağayı yumurtası gətizdirərdi. Müştəri əlindən dükanda tərpənmək olmurdu. Evlərə gündə yüzlərlə sifariş yollayardı. Satıcı qızlar gözəllikdə, xoş rəftarda bir-birilə bəhs edərdilər. Qızların al dodaqları, sədəf dişlərinin parıltısı adamı ovsunlayardı, müştəri heç vaxt əliboş bayıra çıxmaz, mütləq bir şey alardı. Hələ o qızların libasları... Saçlarının bəzəyi, bağladıqları rəngarəng ipək lentlər heyrətamiz idi. Duruşları, yerişləri can alırdı, yerimir, elə bil pərvanə təkin uçurdular... Sahildə II Aleksandr, yaxud Naberejnı küçədə (Neftçilər prospektində) «Qafqaz-Merkuri» körpüsündən tutmuş (indi bu körpü yoxdur, yeraltı keçidin qabağında idi) Sadovı (Çkalov) küçəsinə qədər iki-üç mərtəbəli binaların altındakı dükanların çoxusu İran tacirlərinə məxsus idi. Topdan-satış xuşgəbər, qaysı, kişmiş, səbzə, xurma, ədviyyat, badam, ləpə, düyü və digər mallar alış-verişi edirdilər. Alt mərtəbələrdə dükan və anbarlar, üst mərtəbələrdə isə mənzilləri yerləşirdi.

Bu arada hambal əlindən tərpənmək olmurdu. İki nəfər məşhur hambalı - Arşakı və Dadaşı şəhərdə tanımayan yox idi. Hamballar dallarında palan səhərdən axşamacan şələ daşıyardılar. Səhərlər və şam vaxtı şirin çayla pendir-çörək yeyərdilər, günorta isə bir kasa piti ilə nahar edərdilər. Bir kərə nahər edəndə bir hambal yoldaşına deyir ki, «Gedə, Məmiş, goburnat istəsə gündə iki piti yeyər».

Bu prospekt atlı kazaklarla dolu olardı.

«Kələntərov» (Gənclər meydanı) pasajı üç səmtə baxırdı, burda gözəl şeylər satılırdı: qədim qəmələr, qılınclar, kəşkül, rəhil, sədəf və şirmayı qutular, bəzəkli qablar, üsür, mərcan və kəhrəba həmaillər, boyunbağı və təsbehlər, «Fərhad və Şirin», «Əsli və Kərəm», «Rüstəm və Söhrab», «Leyli və Məcnun» dastan və poemaları motivi əsasında toxunulmuş xalı və xalçalar, cecimlər, tirmə şallar olardı.

Velikoknyaz (Zevin) küçəsi ilə Haşımov döngəsinin tinində Hüseynov qardaşları çini qablar, vazalar, qənddanlar, çay dəstgahı, qəhvə fincanları, güldanlar, küpələr satırdılar; soğan qabığı nazikliyində rus, yapon, çin, alman, fransız, İran, Hindistan malları; gecəçıraqları, yumru lampalar... Hamısı göz oxşayır, ürək sevindirirdi. Zərif barelyeflər, qorelyeflər, miniatür rəsmlər, əlvan çiçək hörükləri, məleykə şəkilləri qabları bəzəyirdi. Vitrinlərdəki çıraqları yandıranda əfsanəvi bir mənzərə yaranırdı. Vitrinlərin birində metaldan balaca bir mayak qoyulmuşdu. hündürlüyü yarım metr olardı; mayakın eyvanında saat vardı; mayakdan azca aralı bir ağac dururdu, koğuşunda «ayı» quraşdırmışdılar; mexanizmi quranda ayı başlayırdı oynamağa.

Benderin Olginski (Caparidze) küçəsindəki bəzzaz dükanı məşhur idi.

«Aslanov qardaşları» da Benderin qonşuluğunda manufaktur satıb onunla rəqabət aparırdılar.

***«Cəvahir» mağazası;*** Haşımovun Olkinski küçəsindəki özəmətli binasının altında bir neçə qapılı mağazada «Əliyev qardaşları» dünyada nə cür qızıl, platin, gümüş, cəvahirat, bəzək əşyası var idisə satırdılar: üzük, sırğa, qolbaq, cütqabağı, medalyon, həmail, belbağı, kəmər və başqa şeylər. Hamısı da əla növ, başdan-başa cəvahiratla - yaqut, ləl, zümrüd, zəbərcəd, mirvari, sədəflə bəzədilmiş, qravyuralı qızıl gümüş papiros qutuları, təkbənd, bir sözlə hər şey...

Bu dükanla bağlı iki hadisənin baş verdiyini söyləyirlər. Nikolay istibdadının qızğın vaxtında birdən Olginski küçəsi tərəfdən şübhəli adamları jandarmalar və polislər mühasirəyə alıb başlayırlar tutmağa. Məqsədləri də guya izinə düşdükləri, məşhur ixtilaçını yaxalamaq imiş. O da özünü itirmir, keçir «Cəvahir» mağazasına, tələb edir ki, məni gizlədin. Cəvahirfüruş da onu tanıyırmış, haqqında çox şey eşidibmiş. Belə ixtilalçılardan hamı qorxardı. Neçə gün əvvəl Haşımov (Gənclik) meydanından Velikoknyaz (Zevin) küçəsinə düşən döngədə, Qala divarı ilə üzbəüz sərraf dükanlarından birinə iki nəfər girib stol üstündəki neçə min manat qızıl pulu torbaya tökmək istədikdə, sərraf malını qorumaq məqsədilə özünü qızılın üstünə atır, onu elə yerindəcə tapança ilə öldürüb, qızılları torbaya doldurub dükandan çıxırlar, güllə səsinə gələn polislə atışa-atışa özlərini İçərişəhərə verib, aradan çıxdıqlarını yaxşı bilirdi. Həmin adam o dəstənin başçısı idi. Cəvahirfüruş qorxudan, tez divardakı iri, gizli seyfin qapısını açıb onu gizlədir, qapını da tez qıfıllayır.

Jandarmlar doluşur dükana, başlayırlar axtarışa, lakin heç nə tapa bilmirlər, çıxıb getməyə məcbur olurlar. Əlbəttə, pusquda adam qoyurlar. Axşam düşür. Cəvahirfüruş mağazanı bağlayır, gedir evinə, bir də sabahı gün səhər tezdən gəlir, yan-yörəni əməlli yoxlayıb, pusquda heç kəsin olmadığına əmin olandan sonra mağazanı açır və adamı seyfdən azad edir. İkinci hadisə

1916-cı ildə baş verir. Payız günlərinin birində bir general iki polkovnikin müşayiəti ilə gəlib girir «Cəvahir» mağazasına. Bakıda generala çox az rast gəldiyindən adamlar heyrət edirdi. Cəvahirfüruş bərk sevinir ki, yağlı müştəri düşüb tora. Hörmətlə yer göstərir, başlayır dil-ağıza. Polkovnikin biri deyir ki, bizim general xanımı üçün bir qədər bər-bəzək əşyası almaq istəyir, ona layiq bir şey varsa göstərin, yoxsa, başqa mağazaya gedək.

Cəvahirfüruş brilyant, zümrüd, yaqut, zəbərcəd, mirvari dolu qutuları düzür stolun üstünə və tərifləyə-tərifləyə bir-bir nişan verir.

Polkovniklər ən qiymətli zinət-bəzək əşyası ilə dolu bir neçə qutu ayırıb, generalla astadan danışırlar, o da başı ilə razılığını bildirir; polkovniklər cəvahirfüruşa deyirlər ki, general qalır burda, biz ikimiz bu qutuları aparıb göstərək onun xanımına, nəyi bəyənsə götürər, qalanını qaytarıb gətirərik, haqq-hesabı da çürüdərik. Cəvahirfüruş o saat yoldan ötən faytonu çağırıb onları oturdur, faytonçunun haqqını da verib, yola salır. Bir saat keçir, iki saat keçir həriflərdən xəbər çıxmır... Cəvahirfüruş səbrini itirir, nə edəcəyini bilmir; generaldan da qorxur ki, danışsa qəzəblənər. Axırda dözə bilmir; cəsarətini yığıb generala yaxınlaşır və soruşur ki, cəvahiratı aparanlar harda qaldı, niyə gəlib çıxmırlar? General dinmir. Çək-çevirdən sonra məlum olur ki, hərif laldır. Polisi çağırırlar... İstintaq vaxtı Rostov macəraçılarının, lal bir adama general libası geyindirib gətirib girov qoyub cəvahir qutularını götürərək aradan çıxdıqları aydınlaşır.

***Şəşəə mağazası:*** «Cəvahir»in qonuşuluğundakı bu dükan da şəhərdə məşhur idi; uzun, çilçil qranit pilləkanında iri, qara hərflərlə «Blestyaşi maqazin» həkk edilmişdi; dükanın üstündə isə daş güzgüdən düzəldilmiş hərflərdə eyni sözlər yapışdırılmışdı... Bakıda «Şəşəə» təki təmtəraqlı ikinci mağaza yox idi. Gözlər qamaşır, baxan məftun olur, çaşırdı... Vitrinin tavanı və divarları daş güzgüdəndi, yerinə qara mərmər döşənmişdi; tavandan asılmış səkkiz qəndilli büllur çıraq yana-yana fırlanırdı; güzgülər isə min bir əlvan ziya saçır, ətrafa əfsanəvi şəfəq yayırdı. Vitrində qoyulmuş çini qab-qacağın gözəlliyk mənzərənin təsirini birə min artırırdı. Min bir diyardan gətirilmiş qab-qacaq rəngarəng şəfəqlər altında sanki bir-birilə bəhs edir, rəqabətə girir. Hər biri özünün daha qiymətli olduğunu gözə çarpdırmaq çalışırdı. Bu mənzərənin hər iki tərəfdəki vitrin güzgülərində əks olması həm əşyaların saylarını, həm də təsir qüvvəsini qat-qat artırırdı. «Şəşəə»də bütün ölkələrin: rus, yapon, fransız, alman, çin, ingilis, italyanların çini qabları tapılırdı. Qabların haşiyələrini, nəqşlərini, şəkillərini, bəzəklərini, ürək açan rənglərini nə təsvir, nə də təsəvvür etmək mümkündür. İri nimçələrin içində imperatorların, şahların, kral və hökmdarların, sərkərdələrin, onların arvadlarının şəkilləri, dövrədə xoş rəngli abı, qızılı, gümüşü, yaşıl, al, sumağı, sarı, bənövşəyi, qırmızı, sürməyi və ağ naxışlar, zolaqlar və haşiyələr olardı.

Xörək dəstgahı hər biri əlli-altmış adamlıq, xırdadan tutmuş lap irilərə qədər hər cür nimçə, dayaz və dərin boşqab və sairə... qəhvə-çay dəstgahı, meyvə-şirniyyat dəstgahları... İnanmaq olmurdu ki, bunları insan yaradıb... Əl vurmağa, toxunmağa adamın heyfi gəlirdi... Vitrinin tavanından sallanan səkkiz qəndilli büllur çilçıraq işıq saça-saça fırlandıqca əfsanəvi bir mənzərə canlanırdı.

Torqovı (Nizami) və Telefonnı (28 Aprel) küçələrində o tay, bu tay hərəsi bir memarlıq incisi, sənət nümunəsi, bir-birindən fərqli, eyni dərəcədə diqqəti cəlb edən, gözləri oxşayan, qürur hissi doğuran əzəmətli binaların birinci mərtəbələrində təmtəraqlı mağazalar vardı.

Şəhərdə hər məhəllədə əyləncə evləri vardı. Onlardan ikisi - «Çanaxqala» lokantası və «Qış klubu» - «Kazino» barədə xüsusi qeyd etmək maraqlı olardı, «Çanaxqala» Olkinski (Caparidze) küçəsindəki üçmərtəbəli binada yerləşirdi; fasadlardakı yarım dairə, xudmani eyvanlara paslanmayan poladdan qayrılmış çiçəklərlə bəzədilmiş gözəl metal şəbəkələr vurulmuşdu. Girəcəyin üstündə iri hərflərlə, hüsnxətlə yazılmış lövhə uzaqdan müştəri çağırırdı. Birinci mərtəbənin yarısında eyni adlı kafe vardı; bura dövlətli möhtəkirlərin, maliyyəçi, sənayeçi və tacirlərin məskəni idi. Yığışıb paxlava, şəkər çörəyi, şor qoğalı yeyə-yeyə, kofe, mineral suları, limonad, kakao içə-içə söhbət edər, müxtəlif sərgüzəştlər danışar, sevdalaşardılar.

Binanın üstündə - «Çanaxqala» lokantasında kübarlar bütün keçəni kefdə, ziyafətdə, əyləncədə olardılar.

Lokanta axşam saat onda işləməyə başlardı; bir neçə iri və xırda salonu vardı. Musiqi çalınırdı, xanımlar qəhqəhə ilə gülürdülər. Ləziz xörəklərin ətri bütün məhəlləni bürüyərdi. Musiqi sədaları, xanəndələrin avazı səhərə qədər susmaq bilməz, rəqs davam edərdi. Bu lokantanın rəqqasələri gözəllikdə, məlahət, naz-qəmzədə dillər əzbəri idi. Milyonçulardan çoxları buradan məşuqə və aşna tapardı. Buradakı qızlara vurulub evlənənlər də olurdu. Yeri gəlmişkən belə bir «aşiqanə» macəradan danışmaq yerinə düşər. Onu altıncı ildən maliyyə və iqtisadiyyatın qeyri-sabitliyindən valyuta alış-verişi daha da rəvac tapmağa başladı. On doqquzuncu ildə lap kəlləçarxa qalxdı. Valyuta alverçiləri arasında Çəpgöz Kazım ad çıxarmışdı. Vücudca cılız, gözə çarpmayan, görkəmi kifir bir adam idi.

Məktəbi yarımçıq qoyub atasının əli altında sərraflığa başlayır, sonralar valyuta alıb-satmağa qurşanır, tez-tez Tiflisə, Batuma, Türkiyəyə - İstambula gedib qayıdır, ingilis, italyan, türk lirələri gətirir, birə iki baha qiymətə satır, axırda Çəpgöz Kazım dönüb olur milyonçu. Gündüzlər küçələrdə, bulvarda veyllənib, keçələr kazino və lokantalarda əylənir. Çox vaxt «Çanaxqalada» ilişib qalır.

«Çanax qala» lokantasında iyirmi-iyirmi iki yaşlarında bir yəhudi qızı vardı. Çoxları onun aludəsi və məftunu idi. Ona görə hər gecə lokantada

olurdular. Hətta gündüzlər belə, bir yerə yığışanda onun təbəssümündən, yerişindən, oynamağından, söhbətindən ağız dolusu danışardılar. Yana isə hər adama məhəl qoymaz, meyl göstərməzdi. Sərraf yəhudilər kimi öz qədr-qiymətini bilər, çoxlarını quru ümidlə yaşadar, hər kəsə yerini göstərməyi bacarardı. Birdən xəbər yayıldı ki, Çəpgöz Kazım rəqqasə yəhudi qızı Yanaya evlənir. Doğrudan da bir neçə gecə rəqqasə artıq oyun meydanına çıxmadı. Məşuqi ilə xüsusi süfrə salınmış stolun arxasında, ən görkəmli yerdə oturub şam edir, əylənir, şabaş göndərir, xörəkpaylayanlara xərclik verirdi. Çox keçmədi təzə xəbər çıxdı ki, Çəpgöz Kazım Yanayə qoşulub Amerikaya, qızın ata-anasının yanına gediblər. Sərrafa, möhtəkirə nə var ki, harda pul var, ora da onun vətənidir.

Lokantalara və əyləncə evlərinə növündən və dərəcəsindən asılı olaraq təkcə içəri girmək haqqı qızıl pulla beş manatdan iyirmi beş manata qədər idi. Ən ləziz xörəklər, əla növlü meyvələr, şirniyyat, içkilər lokantalarda baha qiymətə satılırdı. Çini qab-qacaq, gümüş, çəngəl-bıçaqlar, büllur qədəhlər cingildəyər, qəndil və çilçıraqlar ətrafa şölə saçar, ahəngdar musiqi adamları əyləncəyə çağırardı.

Krasnovodski (indiki Səməd Vurğun) küçəsindəki «Qış klubu» - «Kazino» da öz dəbdəbəsi ilə məşhur idi. (Binanın sahibi Musa Nağıyev idi). Burada restoran, tamaşa və rəqs salonları və qumar oyunu üçün irili, xırdalı otaqlar vardı.

Neft mühəndisi Qriqori Aleksandroviç Qazarbəyov nəql edirdi ki, mədən və zavodların sahibləri, yüksək mövqeli çinovniklər, adlı-sanlı varlı mühəndislər, milyonçular və tacirlərin bəziləri axşamdan gecə yarısına, hətta səhər açılana qədər kazinoda, ya da yay klubunda (Filarmoniya) olardılar. Peşələri yeyib-içmək, rəqs etmək, bir də tumar oynamaq idi. Mən kluba nadir hallarda gedərdim. Bir dəfə «Qış klubu»nda qərara gəldim ki, bəsdir mühəndislərlə oynadım, qoy bir dəfə də neftxudalarla oynayım.

Girdim iri oyun otağına, yaşıl mahuddan süfrə salınmış uzunsov stolun arxasında oturdum. Adamlar bir-bir gəlir, stullar tutulurdu. Milyonçu Aramyan içəri girdi, məni gördükdə təəccüb etdi. Yaxınlaşıb soruşdu: «Qrişa, burda niyə oturmusan? Dur ayağa, oyunçular gəlir...». Dedim ki: «Minas dayı, mən də oynamaq istəyirəm». Xəbər aldı: «Nə qədər pulun var, Qrişa?». Qoltuğumdan pul bükümünü çıxardıb açа-açа dedim: «Min manat». Minas bığaltı gülümsədi, məxmər pərdəni aralayıb balaca bir torba götürdü, mənə uzatdı: «Bunu tut!» dedi. O qədər ağır olacağını gözləmirdim, az qaldım torbanı qucağımdan salım. Qızıl olduğunu başa düşdüm. Özümü itirdim və utandım. Minas dayı xoş bir əda ilə güldü: «Bala, Qrişa, - dedi: - burda on min manatlardan oynayırlar, sənin min manatın kara gəlməz, heç bir dövrəyə çatmaz, çolpanın pərqusunu didən təki səni ütərlər. Dur ayağa!» Onda başa düşdüm ki, neftxudaların, milyonçuların qumarı nədir.

Bir professor nəql edirdi ki, Suraxanıda mədən müdiri idim. Gündüz saat üçdə çıxıb gəlirdim şəhərə. Çox vaxt klubda əylənərdim, arabir qumar da oynayardım. Bir dəfə üstümdə olan pulu uduzdum, çıxıb mindim faytona, getdim mədənə, seyfdən pul götürüm. Kontora çatanda axşam düşmüşdü. Qaranlıq idi. Pulu götürdüm. Telefon zəng çaldı. Dəstəyi qaldırdım, danışan xozeyin idi. Təəccüblə xəbər aldı ki, axşam vaxtı orda neynirsən? Deyə bilməzdim ki, qumar oynamağa pul üçün gəlmişəm; cavab verdim ki, güclü neft verən bir quyu şıltaqlıq edirdi, onu sahmana salırdım, işi qurtarıb şəhərə qayıdıram. Sabahı gün bütün qəzetlərdə xəbər yazılmışdı ki, işgüzar, namuslu mühəndis axşama qədər mədəndə qalıb, aldığı əmək haqqını doğruldur. Xozeyin də mənə bir aylıq əlavə maaş verdi.

Kazinonun restoranında olanlar nəql edirdi ki, stolların üstündə dünyanın bütün nazi-neməti, ləziz təamları, şirniyyat, meyvə və içkiləri qoyulardı. Stolüstü ipək lampalar, tavandakı billur çilçıraqlar, bəzəkli taxta və ipək çin fanarları ətrafa rəngarəng, əlvan şəfəqlər saçardı... Müştərilər yeyib-içdikləri vaxt musiqi çalınar, qəndil və fanarların işığı tədricən azaldılardı... Məxmər pərdə qalxar, pərdə arxasında, səhnədə üryan qızlar rəqs edərdilər.

Küçələrdə isə minlərlə ac-susuz, sərgərdan, işsiz insanlar gecələmək üçün yer axtarırdılar.

Qumar oynanılan otaqlarda, rəqs salonunda tez-tez dava düşər və hətta atışma başlardı.

Dövlətli kişilərin əksərinin xarici qadınlardan aşnaları vardı. Onlara matişkə deyirdilər, hamısı üçün mənzil tutar, bəzən mülk alar, naz-nemət içində saxlayardılar. Bunu çoxları, hətta öz qanunu arvadları da bilərdi. Dövlətlilərin arvadları da tez-tez növbə ilə bir-birinin evinə yığışıb ziyafət məclisləri qurardılar, tez-tez də kimin ərinin xarici arvad aşnasının daha gözəl olduğu üstündə mübahisə qopardı. Hər kəs iddia edərdi ki, ərinin matişkəsi daha gözəldir və axırda saç davasına çıxardılar.

***Şəhər bağı.*** Bakıda bağ-bağça, yaşıllıq yox dərəcəsində idi.

Şəhər üçün əsas plan layihəsi vaxtaşırı, dəfələrlə təshih edilib təkmilləşdirilmişdi. Şəhərin memarı Qasımbəy Hacıbababəyovun qurduğu layihələrdə, gələcəkdə meydanlar, bağ-park və bulvar da nəzərdə tutulmuş, eyni zamanda yaşıl örtük üçün yerlər ayrılmışdı.

Bakı bitki aləmi cəhətindən ən geridə qalmış şəhər hesab edilirdi. Bunun əsas səbəbi suyun az, daha doğrusu olmaması idi.

Bakının ən köhnə bağı qubernator (sağlamlıq zonası) bağı hesab edilir, sahəsi dörd hektar yarımdır. Bu bağ 1830-cu illərdə, keçmişdə iki qala divarı arasında yerləşən şəxsi bağ-bağça və bostanların yerində salınıb. Şəhərdə uzun müddət yeganə bağ idi. Bakı şəhər komendantı Lənkəran və İrandan Bakıya gələn bütün gəmilərin yiyələrini və kapitanları bir neçə çuval qara torpaq gətirməyə vadar edərdi; əmri yerinə yetirməyənlərdən cərimə alınardı. İlk

növbədə tut, zeytun, qarağac, şam, akasiya ağacları əkilmişdi. Bir neçə yerdə güllük-çiçəklik də salınmışdı. Məhəlli ağac cinslərindən başqa, kənardan, bu yerlərə ağac növləri də gətirilirdi.

Ötən əsrin altmışıncı - yetmişinci illərində bağın ərazisini xeyli genişləndirirlər, altı-yeddi ildən sonra bəzək ağacları və kol-koslar əkilir, rəqs və istirahət meydanları düzəldilir. Bağın bədii görkəmini ildən-ilə gözəlləşdirirdilər.

Neft sənayesinin inkişafı ilə əlaqədar bağın da görkəmi get-gedə dəyişir, hovuzlar, köşklər, terraslar salınır. Doxsanıncı illərin ortalarında əsaslı binalar tikilir.

Əhalini bağa həftədə bir dəfə buraxırdılar. Amma bağın darvazaları yüksək rütbəli məmurların, milyonçu neftxudaların üzünə hər zaman açıq idi.

***Quru bağ*** - Burada kol-kosdan əlamət yox idi. Yarım xaraba hovuz heç vaxt su görməzdi, zir-zibillə dolu olardı... Yağış vaxtı sel yuxarı məhəllələrdən gətirdiyi zir-zibili, çirkabı bura tökərdi.

Yığıncaqların çoxu burada keçirilərdi. Qocaman müəllim Ağabala Qasımov nəql edərdi ki, 1905-ci ildə minarələrdən azan səsi ucalanda, kilsələrin zəngləri səda qoparanda Parapetdə qırmızı parçanın üzərində iri, ağ hərflərlə yazılmış iki şüar asdılar: «Rədd olsun mütləqiyyət!», «Yaşasın sosializm!» Ətraf küçələrdəki adamlar meydana tələsdilər, havaya da bir neçə şar buraxdılar. Şarların üstündə bu sözlər yazılmışdı: «Məhv olsun monarxiya!» «satqınlara, casuslara ölüm!».

Qaradovoylar, pristavlar, bütün polis məmurları əl-ayağa düşmüşdülər, şüarlara yaxın düşmək olmurdu. Şarları partlatmaq üçün güllə də ata bilmirdilər ki, çaxnaşma düşər, qırğın başlaya bilər. Get-gedə adamların sayı artırdı... Müxtəlif yerlərdə kürsü qoyub natiqlər Azərbaycan və rus dilində nitq söyləyir, istibdadı lənətləyir, hürriyyəti alqışlayırdılar.

Birdən polismeyster silahlı qaradovoy dəstəsilə Bazar (Hüsü Hacıyev) küçəsindən Vrankel (Qarayev) küçəsilə üzü aşağı hücuma keçdi. Starı Politseysk (Məmmədəliyev) küçəsindən gələn at nallarının səsləri eşidildi və atlı kazaklar camaatın başının üstünü aldılar, şallax və tatarını işə saldılar.

Kim hara yaxın idi o səmtdə - Voronsov (Əzizbəyov), Qəssabbazar, Tatarski (Krupskaya) küçələrinə üz tutub qaçırdı.

***«Malağan» (9 Yanvar) bağı:*** Onun hər tərəfi karvansara idi; qəzalardan yük gətirən malağanlar tövlələrdə, həyətdə atlarını bağlayar, furqonları qoyardılar. Bu aradakı küçələrdə, həyətlərdə, döngə və dükanlarda, evlərdə, dəhlizlərdə, zirzəmilərdə çoxlu çəlləkçi emalatxanası vardı. Çirkablı su və dizə qalxan palçıq xəstəlik və natəmizlik mənbəyi idi. Hələ 1870-ci illərdən burada bağça salmağa çalışırdılarsa, yeraltı suyun keyfiyyətinin pisliyi, torpağın gildən ibarət olması, tullantılar ağacların inkişafına imkan vermirdi.

Neft milyonçusu Şibayevin şahanə mülkü, Rusiyanın çay ticarəti maqnatı, dünyanın çay ticarəti inhisarçısı vısotskinin öz arxitekturasına görə digər binalardan seçilən və uzaqdan nəzərə çarpan mülkü, Hacı Haşımın oğlu Əli Heydərin Çin və Yaponiya səfərindən qayıtdıqdan sonra yapon memarlığı üslubunda tikdirdiyi Mikado (Səməd Vurğun) teatrı, bir də Hacı Ələkbər Dadaşovun qoşa əzəmətli gəlir evlərinin ucaldılması «Malağan» (9 yanvar) bağı ətrafının simasını dəyişdirdi.

Mülkədar Ələkbər Dadaşov barədə maraqlı bir əhvalat danışırdılar. Beş oğlu var imiş, balacası çox cüvəllağı imiş, fürsət tapan kimi evdən şey-şüy çırpışdırıb, aparıb satırmış, tuta bilmirlərmiş. Axırda atası təngə gəlib deyir ki, ay bala, bu şeyləri hey aparıb ucuz qiymətə satıb zay edirsən, tullayırsan çölə, heç olmasa mənə sat. Oğlan deyir ki, dədə, səninlə sövdam tutmaz. «Niyə, ay qoduq, birdən ikiyə mənimlə sövdələşibsən? Bəs əminlə niyə tutur?» «O ayrı, sən ayrı. Bilirəm ki, səninlə tutmaz» - deyə oğlan boyun qaçırır. Atası təkid etdikdə oğlan deyir: «Yaxşı, indi ki, üz vurursan, de görüm o altındakı xalçaya nə qədər verərsən?». Kişi özünü itirir, qəzəblə qışqırır: «Küçüyün biri küçük, altımdakı malımı mənə satırsan? Qoduq!» Oğlan gülür: «Gördün dədə, - deyir, - dedim tutmaz, təkid edirsən. Əmim şeyə baxmamış pulu çıxardıb hesabı çürüdür».

Birja (26 Bakı komissarı) meydanı bomboş idi, xəzri, ya da gilavar əsəndə tozdan göz açmaq olmurdu. Yaxınlıqdakı kazarmada yaşayan soldatlar bu meydanda məşq edirdilər.

Axşam bazarı - Veçerna (S. Vurğun bağı) meydanı da bomboş idi, ətrafında taxta budkalar vardı; axşamüstü tünlük olardı. Cürbəcür şey alıb satırdılar.

Bakıda ağac, kol-kos, gül-çiçəklik salınmasına Hacı Zeynalabdin Tağıyevin 1895-ci ildə Mərdəkanda açdığı bağbanlar məktəbi, daşlıq və qumsallıqda saldığı təcrübə pöhrəliyi ixtisaslı bağbanlar dəstəsinin yaranmasına böyük təkan verdi.

Dəniz kənarında bulvar salmaq məsələsi Bələdiyyə idarəsində dəfələrlə müzakirə edilmişdisə də, əsl əməli işə yalnız 1909-cu ildə, istedadlı mühəndis, yorulmaz təşkilatçı və patriot Məhəmməd Həsən Hacınskinin rəhbərliyi altında başlanır. Bələdiyyə idarəsi bulvar salmaq üçün 60.000 manat pul buraxmağı qərara alır. Bakı varlıları da xeyli kömək edir. Layihə işlərində və təşkilat məsələlərində şəhərdəki bir neçə əzəmətli binanın və iki Kirx binasının layihə müəllifi Adolf Eyxler ürəkdən iştirak edir.

Bulvar şəhərin dəniz fasadı olduğunu nəzərə alaraq müsabiqə elan edilir və tanınmış, adlı-sanlı memar və inşaatçı mühəndislər işə qoşulur. 30 memar-mühəndis müsabiqədə iştirak etməyə dəvət olunur. Fərdi sifarişlərin yerinə yetirilməsinə baxmayaraq bu müsabiqədə Zivərbəy Əhmədbəyov,

Ploşko, Termikelov, Edel və tanınmış başqa istedadlı mütəxəssislər ürəkdən çalışırlar.

İlk mərhələdə bulvar «Qafqaz-Merkuri» körpüsündən (Kukla teatrının binasından) Seyid Mirbabayevin (Azneft) binasınadək uzanacaqdı. Bu arada sahildə sınıq-sökük qayıqlar, köhnə yelkənli gəmilər vardı, çirkab sular axıb dənizə tökülürdü.

1910-cu ildə bulvarda əkilmiş ağaclar, kol-kos və çiçəklər artıq göz oxşayırdı.

Quba meydanı şəhərin ən qələbəli yerlərindən biri idi. Parapetlə bərabər əsas meydan hesab edilirdi. Buradakı karvansaralarda, mehmanxanalarda bütün Azərbaycan qəza və kəndlərindən gəlmiş müsafirlərə, alverçilərə, tacirlərə, sənətkarlara təsadüf edilərdi. Qoçuların əsas məskən və yığıncağı Quba meydanı idi, bütün şər əməllər, fitva vermək, adam öldürmək, qız qaçırtmaq, mağaza, anbar yarmaq, dövlətlilərdən rüsum almaq, ev yarmaq və digər şər əməllərin tədbiri Quba meydanında tökülər, qət edilərdi. Burada Balaxanı, Bondarnı, Çadrovı, Sisyaanov, Bazar və Şamaxı küçələri çarpazlaşırdı. Binaların birinci mərtəbələrində baqqal, bəzzaz, xırdavatçı, çarıqçı, (iki cür çarıq tikərdilər: əyan, ruhani və varlılar üçün xüsusi Şiraz çarığı, qara camaat üçün isə xam göndən), qəssab dükanları, aşxana, cızbızçı, çayxana, kababçı dükanları, sərrac və sənətkar emalatxanaları yerləşirdi.

Binaların üst mərtəbələri isə mehmanxana və mənzillər idi. Meydanın bir tərəfində taxta budkalarda yəhudilər min bir əşya alış-verişi edirdilər. Xüsusi emalatxanalarda dəmirdən, misdən, hətta gümüşdən cürbəcür formalarda təkbaşlı, qoşabaşlı, üç, dörd və hətta beş-altı başlı, bərli-bəzəkli, naxışlı şamdanlar, eynilə fanarlar qayırardılar.

Quba meydanından haçan keçilsəydi, çayxana və aşxanalardan qramafon və şarmanka səsi eşidilərdi.

Payız və qış aylarında sələbçilər iri sələbdanlarda sələb satar və qışqırardılar: «Sələb var», «Məlhəm var», «Sinə dərmanı», «Döş davası», «Məcundur», «Cana xeyirdir». Bitki kökündən hazırlanan sələb süd rəngində olar, ətri, dadı adama ləzzət verərdi.

Quba meydanındakı yeməkxanalardan biri də Həsən Pervoyun adı dillər əzbəri «İslam» restoranı idi. O zaman ev, dükan, restoran, mağaza yiyəsinin adı ilə tanınardı. Həsənə də xörəklərin ləzizliyinə görə «Pervoy» ləqəb qoymuşdular. Səkili mərtəbədəki bu restoran səhərdən gecə yarısına qədər müştərilə dolu olardı. Burdakı xörəklər kimi dadlı xörək heç yerdə yox idi; şəhərdəki müştərilərdən başqa ətraf qəsəbə və hətta mədənlərdən, kəndlərdən - Sabunçu, Suraxanı, Ramana, Bibiheybət, Keşlə, Ağşəhər, Qaraşəhərdən faytonda, qazalaqda bu restorana nahara gələr, yeyib-içib qəlyan çəkər, söhbət edər, sövdələşər, mal alıb satardılar. Handa bir dövlətli, tanınmış

qoluzorba sövdəgər, tacir, çodar və digər adamlara burda rast gəlmək olardı. Fayton, qazalaq küçəboyu bir-birinin dalınca düzülərdi.

Bir gün nahara gələn müştərilər görür ki, «İslam» restoranı bağlıdır; səs-küy salırlar, başlayırlar Həsən Pervoyu axtarmağa. Əlaltılarından birini tapıb soruşurlar, bu nə əhvalatdır... Deyir ki, xəbərim yoxdur, işə gəldim gördüm ki, lələ köçüb yurdu qalıb... Müştərilər dilxor olurlar. Xörəklərin belə ləzzətli olmasının səbəbini Həsən Pervoyun əlaltısı nəql edir: biz hər şeyi hazırlayırdıq, Həsən Pervoy sirrini öyrənməsinlər deyə hamını mətbəxdən çıxardıb əti qazanlara, küpələrə, tavalara özü təklikdə töküb yerbəyer edər, ocağa asandan sonra bizi mətbəxə buraxardı. Deməyinən Həsən Pervoy bütün qablara ölçüsünə, Həcminə görə müəyyən miqdarda tiryək sürtüb sonra ət tökərmiş, ədviyyat da əlavə edərmiş; bu qayda ilə az doza ilə müştəriləri tədrislə tiryəki etmişdi. Yaxşı da pul qazanıb dövlətlənmişdi.

Həsən Pervoy özü İranın Zəncan şəhərindən idi. Bakıdakı zəncanlıların çoxusu şatır-çörəkçi idilər; onlar da xeyli pul qazanandan sonra gözlənmədən yoxa çıxardılar.

Yarım kilometr aralı Kömürçü meydanında əvvəllər kömür basdırıb satardılar, sonralar döndərmişdilər oranı bazara, əksərən köhnə pal-paltar və ev müxəlləfatı satılardı. Bələdiyyə idarəsi ora Voronsov meydanı adı qoydusa, camaat tərəfindən qəbul edilmədi, köhnə adı Kömürçü meydanı qaldı üstündə. Burda da qramafon və şarmanka çalınardı. Kömür meydanında da xoruz və qoç döyüşdürərdilər, qoçlar kəllə-kəlləyə gələndə zərbin səsindən, şaqqıltıdan adam diksinir, elə bir təsəvvür oyanırdı ki, hər iki qoçun başı tikə-tikə olub ətrafa səpələndi; xoruzlar al qan içində olar, tez-tez gözləri deşilər, döşlər yırtılardı, amma ən maraqlı oyun-tamaşa dəvələrin döyüşməsi olardı; elə ki, küçəbəküçə carçılar hərlənib xəbəri yayardılar, səbrsizliklə oyun gününü gözləyərdilər. Dəvələrin döyüşməsini heç bir heyvan döyüşməsi ilə müqayisə etmək olmaz. Bu eyni cinsli heyvanın bir-birinə tutduqları divandan insan dəhşətə gəlirdi. Quduz itlərin, canavarların vəhşiliyi qızışmış dəvələrin qəzəbi yanında oyuncaq hesab oluna bilər. Heyvanda nə qədər dərin kin, qəzəb, rəhmsizlik olarmış. Ağızlarından köpük püskürərdi; gözləri elə dumanlanardı ki, sanki heç nəyi görmür. Ayaqları ilə təpikləyir, bir-birini çeynəyir, parça-parça, tikə-tikə etmək istəyirdilər. Qızmış gözlər qan çəkib az qalırdı hədəqəsindən çıxsın. Hikkədən əsim-əsim titrəyirdilər. Canlı aləmə müvafiq necə də ad tapıblar: vəhşi, yırtıcı. Üstün gəlmək, xudpəsəndlik görünür ibtidadan canlıların xilqətindədir ki, ondan ötəri ölümə gedir, məhv olurlar.

Kömür meydanında tez-tez pəhləvanlar da güləşər, güclərini göstərərdilər. Kəndirbazlar məharətlərini nümayiş etdirmək üçün kəndirin üstündə qəribə oyunlar çıxarardılar.

Bütün bu növ əyləncə və mərəkələr bir zamanlar bürc divarları qabağında, o aralar hələ boş olanda, realnı məktəb, qız məktəbi tikiləndən əvvəl, Qapan dibindən yuxarıda olardı.

Starıveş - köhnə şeylər və işlənmiş müxtəlif şeylər satanlarla Kömürçü meydanı dolu olardı. Kəlləpazlar vardı ki, ancaq qoyun baş-ayağından kəlləpaça bişirərdilər, müştərilər səhər tezdən özlərini verərdilər bu dükanlara.

Həlimaşıçılar, qışda buğda və yağlı qoyun ətindən həlim aşı hazırlardılar. Müştərilər axşamdan gətirib qab qoyar, pulunu da qabaqcadan verərdilər; səhər tezdən gəlib aparardılar.

***Su kəməri.*** Bakı əhalisi su sarıdan çox əziyyət çəkirdi. Bələdiyyə idarəsi bunu aradan qaldırmaq üçün hələ 1880-ci ildən tədbirlər görməyə başlamışdı. (Bu məsələdə Hacı Zeynalabdin çox fəal çalışır və çox da pul xərcləyir). Əvvəl Bakı ətrafında su mənbəyi axtarılır, sonra Şamaxı qəzasında kəşfiyyat işləri aparılır. Bütün səylər boşa çıxır. 1892-1898-ci illərdə Kür çayından Bakıya su kəməri çəkmək layihəsi hazırlanır, lakin bu layihədə göstərilən kəmər çox baha başa gəldiyinə görə, bələdiyyə idarəsi bunu təsdiq etmir... Əlacsız qalıb 1893-cü ildə sahildə dəniz suyunu təmizləyən qurğu düzəldirlər. Gündə 30.000 vedrə su təmizlənirdi. Bu da əhalinin ehtiyacını ödəyə bilmirdi. Beş ildən sonra ikinci su təmizləyən qurğu işə düşür. Bununla yanaşı Kür çayından barjlarda su daşıyıb vedrəsini yarım qəpiyə satırdılar. Sonralar Volqa çayından barjlarla su daşımağa başladılar. Bu su, daha baha idi, vedrəsi iki qəpiyə. Kasıblar suya olan əsas ehtiyaclarını yalnız həyətlərdəki quyulardan ödəməyə məcbur idilər. Bu da tez-tez cürbəcür xəstəliyə səbəb olurdu. Hökumət vaxtaşırı bu quyulara dərman tökürdü, bəzən torpaqla doldururdu. 1899-cu ildə şəhərdə suya olan tələbin daha da artdığını görüb Hacı Zeynalabdin Tağıyev xarici şirkətlə 25.000 manata müqavilə bağlayır. Avropanın bir neçə şəhərinə su kəməri çəkmiş mühəndis Vilyam Lindleyi Frankfurt Mayndan gətizdirir və ona çeşmə axtarmağı tapşırır. Bələdiyyə idarəsinə isə deyir ki, su tapılandan sonra pulumu versəniz yaxşı, verməsəniz də eybi yoxdur. Lindley Qubanın yaxınlığında, Bakıdan 190 kilometr uzaqda quyu qazdırıb Şollar suyunun mənbəyini kəşf edir. Bələdiyyə idarəsində Quba ətrafında tapılmış su mənbəyinə şübhə ilə baxırlar, inanmırlar; kəmər çəkməyi rədd etməyə çalışırlar. Tağıyev şübhə edənlərə deyir ki, Şahdağ öz qarı və buzlaqları ilə əbədi olduğu kimi, Şollar çeşməsinin suyu da əbədidir.

Bu söhbətlə əlaqədar maraqlı bir əhvalatı xatırlatmaq vacibdir. Bələdiyyə idarəsinin xüsusi işlər üzrə bir məmuru nəql edirmiş ki, məni Parisə göndərmişdilər. Bir axşam eşitdim ki, Hacı Zeynalabdin Tağıyev gəlib, «Luvr» mehmanxanasına düşüb. Səhər getdim «Luvr»a. Gördüm ki, Parisin bələdiyyə rəisi Hacının yanındadır, söhbət edirlər. Dilmanc da yanlarında. Hacı məni

görəndə dedi ki, bu şəhərin su kəmərinə və qurğulara gedib baxacağam, sən də qoşul mənə. Razılaşdım. Bütün günü Parisi hərləndik.

Bələdiyyə rəisi Raevski də su məsələsində hacının tərəfini saxlayır və var qüvvəsilə çalışırdı. Layihə və hazırlıq işləri ləng gedirdi. Qubernatorluq və şəhər bələdiyyə idarəsi Peterburqdan, hökumətdən kömək istəyir. H. Z. Tağıyev işi sürətləndirmək üçün Quş Məmməd Həsəni Rayevski ilə bərabər paytaxta, dövlət palatasına yollayır ki, Bakı şəhəri üçün 5 faizli istiqraz buraxılışını sürətləndirsin. Çox keçmir ki, 1909-cu ilin axırlarında qərar çıxır ki, su kəməri inşası üçün şəhər bələdiyyə idarəsinə 27 milyon manat beş faizli istiqraz buraxmağa icazə verilsin. Bundan sonra layihə təsdiq edildi və su kəməri çəkmək sürətləndi. Hesaba görə kəmər şəhərə gündə üç milyon vedrə su verəcəkdi. Neftxudalar su kəmərinin çəkilməsi üçün çox pul vermişdilər.

Nəhayət, 1916-cı ilin axırlarında Bakı -Şollar su kəməri hazır oldu və 1917-ci ilin yanvarında bu iş sona çatdı. Şəhər camaatının o günkü sevincini təsəvvür etmək çətin idi. Həmin gün çoxlu qoyun, dəvə, öküz qurban kəsildi, məhəllələrdə ehsan məclisləri açıldı. Su fontanları işə düşdü, əhaliyə gündə üç dəfə - səhər, günorta və axşamüstü su verildi.

## NEFT SƏNAYESİNİN İNKİŞAFI

1825-ci ildə Abşeron yarımadasında beş yerdə - Balaxanı, Sabunçu, Binəqədi, Bibiheybət və Şubanıda əl quyularından neft çıxarılırdı. Az miqdarda Pirallahı (Artyom) adasında əl ilə işləyən dayaz neft quyuları qazmağa başladılar.

1848-ci ildə rus mühəndisi Semyonov Azərbaycan torpağında dünyada ilk neft quyusu qazmışdı (ABŞ-dan 11 il əvvəl). 1863-cü ildə isə Pirallahı adasında mexaniki üsulla quyu qazmağa cəhd edirlərsə də, nəticəsiz qalır. 1869-cu ildə usta Allahyar Balaxanıda təzə üsulla quyu qazanda on-on beş metr dərinlikdə yerin altında şiddətli gurultu, səs-küy qopduğundan, usta və fəhlələr bərk qorxuya düşüb cəld quyunu doldururlar. Yalnız üç ildən sonra 1871-ci ildə Balaxanıda texniki üsulla quyu qaza bilirlər. Bu quyu gündə 45.000 pud (700 ton) neft verir.

1863-cü ildə Cavad adlı sahibkar Suraxanıda ağ neft zavodu tikdirib istismara verir.

Kokorev və Qubanin 1859-cu ildə Suraxanıda Atəşgah məbədi yaxınlığında ağ neft zavodu tikdirib işlədirlər. Neçə il sonra məşhur rus alimi Mendeleyevin məsləhəti ilə bu zavodu təkmilləşdirirlər. 1870-ci ildə Bakıda 47 zavod ağ neft emal edirdi.

1871-ci ildən əl qazması vurğu qazma üsulu ilə əvəz edilir. Bununla da get-gedə qazılan quyuların sayı və dərinliyi xeyli artır.

1872-ci ildə neft sənayesinin inkişafında çox ciddi maneə olan mövcud iltizam sistemi ləğv edilir və dövlət xəzinəsi mədənləri uzun müddətə icarəyə verməyə başlayır. İcarə pulunu əvvəldən alır. İcarəçilər birinci növbədə mayasını çıxarmağa və mümkün qədər artıq qazanmağa səy edirlər.

Beləliklə, nöyütlü ərazi keçir şəxsi əllərə, neft hasilatı da ildən-ilə sürətlə artır. Bakı neft sənayesi kapitalizm inkişafı yoluna qədəm qoyur.

1872-ci ildə Bakı 1,5 milyon pud neft verdiyi halda, 1900-cü ildə 661 milyon pud neft verir, bu da ölkədə çıxarılan neftin 95 faizi, bütün dünyada hasil olunan neftin yarısından çox idi.

Ağ neft emalı 1873-cü ildə 15.000 ton idisə, 1901-ci ildə bu rəqəm 2.500.000 tona çatdı.

Bakıda yaranmış neft şirkətlərinin sayı aydan-aya artır, perspektivli, ümid verən torpaqların əsas hissəsi icarəçilərin əlinə keçirdi.

Yadelli kapitalistlər sərvət dalınca Bakıya axışırdılar. Nobel qardaşlarının 1879-cu ildə yaratdıqları şirkət neft quyuları qazmaq və istismar etməklə bərabər, axtarış-kəşfiyyat, neft emalı, ticarəti, elmi-tədqiqat işləri ilə də məşğul olurdu.

1883-cü ildə Rotşildin nümayəndəsi Parisdən Bakıya gəlib «Xəzər-Qara dəniz» səhmdarlar şirkətini yaradır, tez bir zamanda rus neft sənayeçisi Peşkovskinin mədən, zavod və digər müəssisələrini ələ keçirir. «Xəzər-Qara dəniz» şirkətinin planı çox geniş idi: neft məmulatı almaq, emal və ixrac etmək; əgər Nobel xırda neft sahibkarlarını neft kəmərlərilə sarımışdısa, fransızlaşmış yəhudi sərmayədarı Rotşild neft emal edən zavod sahiblərinə pul tələləri qurub, iki milyon manat avans verməklə bir neçə il əl-qollarını elə bağlamışdı ki, heç kəsə mal sata bilmirdilər. Rotşild eyni zamanda «Mazut» ticarət komissiyası yaratmışdı. Ona borclu olan zavod sahibləri ağ nefti yalnız «Mazut»a təhvil verməli idilər. Bir çoxları bu komissiyanın «fəaliyyətindən» iflas olmuşdu.

Rotşildin birinci müvəkkili Debur özünə o zaman asudə guşə hesabedilən, dənizə yaxın, Bağ küçəsində xüsusi, təmtəraqlı imarət (R. Mustafayev adına İncəsənət muzeyi), idarə üçün isə şəhərin mərkəzində Persidski (Poluxin) küçəsində yaraşıqlı bina tikdirmişdi. Debur Bakıdan gedəndə Sadovı küçədəki imarətini «Kavkazskoe tovarişestvo» şirkətinə satdı. Deburun vəzifəsinə Feqel Arnold Mixayloviç adlı bir adam təyin edilir; onun kiçik qardaşı Rotşildin Peterburqdakı müvəkkili idi.

1890-cı ildə ingilis Seyms Vişau Bibiheybətdə neft mədənləri və Qaraşəhərdə «Şibayev şirkətinin» zavodlarını alır. Belçika, Almaniya və Amerika Birləşmiş Ştatlarının nümayəndələri də Bakıda şirkətlər, maliyyə-kredit-ticarət müəssisələri yaradırlar.

Sənaye, ticarət, nəqliyyat, gəmiçilik idarələri xeyli çoxalır.

Həsənbəy Zərdabi «Əkinçi» qəzetinin 1877-ci il 1 yanvar nömrəsində çəlləklə neft daşıyanlar barədə yazırdı: «Balaxanıdan zavodlara arabaçılar, 7-8 verst yoldur, pudu bir şahıdan - beş köpükdən neft daşıyıb bol pul qazanırlar. Deyirlər keçən il arabaçılar zavod sahiblərindən yarım milyon manat kirayə alıblar. İndi iki kompaniya düzəldiblər, birisi neft mədənlərdən zavodlara dəmir novalçalarla axıtmaq istəyir, o birisi dəmir yol çəkmək istəyir. Yerüstü novalçalarda neft axıtmaq istəyən kompaniyaya dövlət izn verib və bu bahar onu başlayacaqlar. Yüz min manata qədər xərc olacaq. Dəmir yolu çəkmək üçün yüz min manat cəm edilib, yüz min manat da lazımdır,

Neft cövhəri (ağ neft) satanlar keçən il ziyada nəf ediblər. Əvvəllər cövhərin pudu Moskva və başqa şəhərlərdə manat yarım, iki manata satılırdı. Ötən il 3-4 manata satılıb. Amerikadan bu il cövhər gətirilmədiyindən Bakı neftinin pudu qalxıb 6 manat 50 qəpiyə».

«Əkinçi» başqa bir nömrəsində yazırdı: «Neçə il bundan əqdəm Badkubənin nefti Mirzəyevin icarəsində idi. Elə ki, bu icarə bərhəm oldu, neft quyularını bir neçə hissə edib, tək-tək icarəyə verib, hər bir xahiş edənə ixtiyar veriblər ki, təzədən quyu qazsın. O zaman Balaxanı və Sabunçu kəndlərinin yerləri çox bahalandı. Elə ki, quyular çoxaldı və onların bəzisindən neft fəvvarə vurub bulaq kimi axdı, neft qiymətdən düşdü. Keçmişdə xalvarı, yəni 20 pudu 9 manata satılan neft bir manata. Hətta 3 abbasıya satıldı. Bir tərəfdən neftin belə artmağı, bir tərəfdən xəzinənin neftdən aldığı aksız xərci və bir tərəfdən Amerikanın neft cövhərinin Rusiyada ucuz satılması, neft cövhəri çəkmək üçün zavod saxlayanların işini pərişan elədi. Axırdə neft sahiblərinin dad-fəryadı yerinə yetişdiyinə, keçən il hökm olundu ki, Amerika cövhərindən 50 qəpik artıq tamojna xərci alsınlar. Ona binaən zavodçuları keçən il Rusiyaya neft cövhəri gətirmədiyinə, Rusiyada Badkubənin neft cövhəri 3-4 manata, hətta 4 manat yarıma satıldı. Halbuki, irəli manat yarıma güclə satılırdı. Bu səbəbə neft sahiblərinin işi yenə yaxşı oldu, neft yerlərinin qiyməti artdı.

Elə ki, bu ildən tamojna xərci qızıl pulla alınır və məlum olub ki, gələn ildən neftdən aksız xərci alınmayacaq. Neft yerlərinin qiyməti həddən çıxıb. Məsələn, bir şəxs keçən il 5 desyatin yeri 2 min 5 yüz manata almışdı. 2 ay bundan əqdəm ol şəxs zikr olan yeri 8 adama, 8 min manata satıb. İndi deyirlər ki, o 8 adamın birisi öz hissəsini, yəni səkkizdən birini 18 min manata satıb və yenə deyirlər ki, bir kəs bir desyatinin dörddən bir hissəsini belə icarəyə verib: icarəçi yer sahibinə 2 min manat verib ki, o yeri 12 il ona versin, bəşərti ki, bu ilin müddətində o yerdən nə qədər neft çıxsa onun nisfi yeri alanın olsun və 12 ildən sonra o yer, orada olan avadanlıqlar yer sahibinə qalsın.

Xülasə, yer alan, yer satan həddən çıxıb. Küçə və bazarlarda məhz neft və cövhər sözü danışılır. Natariusxanalarda neft yeri aldı-satdı kağızlarını yazmağa növbət çatmır. Badkubədə sakin olanlar keşişdən tutmuş qulluq

əhlinin ədna bəsərinəcən, tacirdən tutmuş ədna papaqçıya və şam tökənəcən öz işlərini tullayıb, bir neçə adam şirakət edib, Molla Nəsrəddin torba götürüb Sarı qayaya bostan oğurluğuna gedən kimi, olan-olmazlarını yığıb Sabunçu bəylərinin yanına yer almağa və Qaraşəhərdə (şəhərdən kənar zavodlar olan yerdir) zavod tikdirməyə gedir ki, bir ya iki ilə sahibi milyon olsun».

Bakı mədənlərində gözlənilmədən elə fontanlar olurdu ki, gündə min tonlarla neft çıxırdı, heç yerdə və heç kəsin tanımadığı adi bir adam birdən-birə dönüb olurdu milyonlar sahibi. Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Şəmsi Əsədullayev, Murtuz Muxtarov, Səlimov, Seyid Mirbabayev, Mantaşov, Mirzəyev, Şibayev. Leonozov və başqaları belə varlananlardan idilər. Elə ki, fontan vururdu, qonşuluqdakı torpağın qiyməti birə min artırdı.

Güclü fontandan neft nəhr kimi axıb yaxınlıqdakı kənd və qəsəbə evlərini, tövlələri basır, uçurdur, qonşu mədənlərdəki emalatxanalar, buruqlar qalırdı neft selinin altında; binalar, idarələr dağılırdı. Fəlakətə düşən adamlar tez-tələsik başqa yerə köçürdülər. Sonra da fontan sahibini məhkəməyə verib çəkdikləri zərərin əvəzini tələb edirdilər. Ölən və yaralananlar üçün qan bahası, şikəstləri sağaltmağa müavinət istəyirdilər. Belə vaxtlarda neftin qiyməti bazarda çox aşağı düşürdü. Fontan sahibi və xırda mədənçilər iflas olurdular. sahibkar bəzən dözə bilməyib özünü asır, intihar edirdi.

Neftin bütün üstünlüklərini və gələcəkdəki əhəmiyyətini yaxşı bilən imperialist dövlətlərin rəhbərləri bu misilsiz yanacağa yiyələnmək üçün planetin bütün guşələrində olan neft yataqlarını ələ keçirməyə can atırdılar. Amerikalı Son Rokfellerin «Standart oyl», İngiltərədən Henri Deterdinqin rəhbərliyi altındakı «Royal Döyçe Şell»; fransızlardan yəhudi Rotşildin «Xəzər -Qara dəniz» və «Mazut», isveçli «Nobel qardaşları»nın sindikatları Bakıya can atırdılar.

Əcnəbi kapitalistlər neft sərvətinin gələcəyini, geoloji əsaslar üzrə öyrənərək neft çıxarma qaydalarını pis bilən bakılılardan torpaqlarını «baha» qiymətə alırdılar. Bununla da Abşeron yarımadasının tükənməz sərvətinə yiyələnirdilər.

Xarici kapitalistlər müsəlmanların min illərlə ata-baba yurdu olan neftli torpaqlarını əllərindən almaq məqsədilə o yerləri də hərraca qoymaq barədə qərar çıxartdırırdılar. Əhməd bəy Ağayev Peterburqa, sonra da Tiflisə camaat tərəfindən nümayəndə gedib Bakı müsəlmanlarının ata-baba yurdu olan neft-mədən yerlərini əllərində saxlamağa nail olur.

Təzə kəşf edilmiş zəngin neft yataqlarındakı torpaqları müzaidəyə qoyub hasil olacaq gəliri xəzinəyə vermək əvəzinə tez-tez çarın fərmanı ilə, bu və ya digər yüksək rütbəli məmurlara, taxt-taca yaxın qraf, knyaz və sair adamlara bağışlanırdı, onlar da bu torpaqları pullu neftxudalara, şirkətlərə ya satır, ya da şərikli istismar etdirirdilər. Suraxanıdakı neftli torpağın çoxusu belə talan edilmişdi.

Balaxanı, Sabunçu, Ramana, Bibiheybət, Binəqədi kəndlərində yer üstündə böyük davalar düşürdü; bir-birini məhkəməyə verirdilər. Çar hökuməti belə hadisələri bəhanə eləyir, çox yeri dövlətin ixtiyarına verir, ya hərracda satdırır, ya da çara yaxın adamların adına keçirtdirirdi. Bunun nəticəsində Qəfqaz canişini qraf Voronsov-Daşkov Balaxanı kəndinin ortasında zəngin mədən sahibi olmuşdu.

1905-ci ildə baş vermiş hadisələrlə əlaqədar, Qafqaz canişini Bakıya gəlir. Güman edirlər ki, yerlərdə vəziyyəti öyrənəcək, xeyirxah bir iş görəcək. Lakin belə olmur, o, nə fəhlələrin ağır vəziyyətinə, nə onların iş şəraitinə, nə də şikayətçilərə əhəmiyyət verir, birbaşa Balaxanıya, öz şəxsi mədəninə gedir, vəziyyəti, nə qədər ziyan çəkdiyini öyrənib qayıdır, Tiflisə yola düşür.

Bakıda iki cür neft sənayeçisi vardı: biri mədən və zavod yiyələri - «neftxudalar», digəri isə «dirəkçilər». Birincilər hər yerdə məşhur idilər. «Dirəkçilər» isə neftli güman edilən torpaqları zəbt edir, alır, yə da icarəyə götürüb ortasına dirək basdırır, üstünə adını və həmin yerə nə vaxt yiyələndiyi tarixi yazırdı. «Dirəkçilər» çox zirək, işgüzar adamlar idi.

Onlar axtarış-kəşfiyyat aparmırdılar, quyu qazdırmırdılar. Ortasında dirək basdırılan yerin sahəsi kvadrat şəklində olardı. «Dirəkçilər» birdən əlli-altmış, bəzən daha çox torpaq sahəsi zəbt etməyə nail olurdular. Ortasında dirək basdırılmış sahələrdən tək bircəsində neft əldə ediləndə, fontan vuranda, ətrafdakı torpaqların qiyməti birə yüz artardı. «Dirəkçilər» qərbi Abşeronda, Qobustan otlaqlarında, Kür ovalığında, Xəzəryanı düzənlikdə, Siyəzəndə, Şamaxıda, Gəncə quberniyasında - Naftalanda çoxlu torpaq tutub, dirək basdırmışdılar. Mərkəzi və Şərqi Abşeronda dirəkçilərin işi o qədər də yaxşı getmirdi. Çünki neftxudalar yerlərə çoxdan yiyələnmişdilər.

Camaat arasında bir də belə bir inam vardı ki, neft olan yerlərdə ot, ağac, kol-kos bitməz. Buna görə dirəkçilər, adətən, şoranlıq, gölməçə, daşlıq, qayalıq yerləri tuturdular. Amma təbiəti gözəl olan Şimali Qafqazda, Maykopda zəngin neft-qaz yataqları kəşf ediləndən sonra bu cür mülahizələr yoxa çıxdı.

Neftli torpaqlar üstündə tez-tez dava düşür, adam öldürülürdü.

Məhkəmələrdə yalançı şahidlər olurdu. hakim iddiaçıları, üstündə dava düşmüş əraziyə aparır, adamları dindirirdi. Molla əlindəki Qurana şahidlərə əl basdırıb and içdirirdi. Yalançı şahid Qurana əl basıb belə qəsəm edirdi: «And olsun bu Qurana, ayaqlarımın altında olan torpaq iddiaçının ata-baba torpağıdır». Doğrudan də ayağının altındakı, əvvəlcədən ayaqqabının içinə tökdüyü torpaq iddiaçının ata-baba mülkündən götürülmüş torpaq olardı. Üstündə dava açdığı torpağın, yerin isə iddiaçıya heç bir dəxli yox idi.

Kasıb adam yerini satanda müştəriyə deyirdi ki, xozeyin, əgər məni salacağın mədəndə gözətçi götürəcəksənsə sövdamız baş tutacaq. Sahibkar razılaşırdı, amma bir neçə aydan sonra üstünə şər atıb onu mədəndən

uzaqlaşdırırdı. Gözətçilər gecələr oğurluq neft alış-verişi edənlərin arabalarını anbardan doldurub, pulunu alaraq yola salırdılar, ya da lülələrin krantını açıb, nefti qonşunun anbarına axıdar, haqqını alardı.

Sərmayəsi az, fəhləsi az olan adam quyunu qazdırıb neft təbəqəsinə çatdıra bilmir, yeri satmağa vadar olurdu. Bəzən də gecə vaxtı neft daşıtdırıb quyuya doldurur və sabahı gün xəbər yayırdı ki, neftə çatıb, bu yolla «baha» qiymətə satırdı. Neft maqnatları bu gələkləri çox yaxşı başa düşürdülər, onu da əvvəldən çox yaxşı bilirdilər ki, neft daha dərində yatır, özü də tükənməzdir; torpaq yiyəsinə guya mərhəmət göstərir, tula payı verib mülkə sahib olurdular.

Sahibkarlar qonşuluqdakı qazma ustalarını pulla alıb sahə barədə məlumat toplayırdılar, ya da quyuda qəza törətdirirdilər ki, özləri daha tez neft layına çatsınlar.

Xırda mədənlərin sahibləri quyuları istismar edir, neft çıxardır, amma quyu qazdırmağa qüvvələri çatmırdı, lazımi avadanlıq, dəzgah, usta, fəhlə saxlamağa imkanları olmadığından quyunu podratçılara qazdırırdılar. Tez-tez podratçılar qonşuluqdakı Dövlətli neftxudadan pul alıb, qazmanı uzadır, ya də su təbəqəsini bağlamır, əngələ salıb işi yubandırırdılar... Və xırda mədənçini qorxudurdular ki, neft verən quyuları da su basa bilər... O da, əvvəl inad göstərib deyirdi: «bu nağılı gedin, körpələrə danışın. Mədənimi satan deyiləm...».

Axırda təntidirdilər...

Mədənlərdə neft təbəqələrini su basması dəhşətli fəlakətdi; su mədəni döndərirdi gölə, «dəryaçaya», sahibkar təşvişə düşüb zara gəlir, sahəni dəyər-dəyməzinə satırdı... Neftxuda bu sahəni, qonşu mədəni adətən başqa adamın adına alır, sonra keçirirdi öz adına və qatırdı mədəninə...

Varisləri dilə tutub, tez-tez saxta vəsiyyətnamələr düzəltdirir, işi elə dolaşıq salırdılar ki, torpaq yiyələri tələsib yeri tez satmağa vadar olurdular.

Şəhərdə çoxlu notarius kontoru vardı. Onlar neft işində vasitəçi rolu oynayırdılar.

Balaxanıda sahibkar Mirzəyevin qonşuluqda aldığı mədənində qazdığı dayaz bir quyu elə fontan vurmuşdu ki, üç gün ərzində yer-yurd neft kölünə dönmüşdü.

Fontan vuranda qaz ağır alətləri, hər biri yüz, yüz əlli kiloqram ağırlığında daşları kənara tullayırdı. Ramanada, Sabunçuda dərələrdən neft çay kimi axır, qurşaqdan yuxarı qalxır, adamlar bu taydan o taya keçə bilmirdi. Göydən neft yağırdı. Anbarları çox da böyük olmayanda aşıb-daşır, çənlər tez dolur, neft başlayırdı axmağa. Fəhlələr torpaqdan nə qədər sədlər düzəldir, daşdan və palçıqdan bəndlər çəkirdilərsə yenə öhdəsindən gələ bilmirdilər. Belə vaxtlarda fontanları bağlamaq, neft selinin qabağını kəsmək bəzən üç-dörd həftə çəkirdi.

Bu cür vəhşicəsinə istismardan geoloqlar çox narahat olurdular, çünki neft təbəqəsi hədər yerə gücünü, sərvətini itirib, zay olur, çıxan neftin çoxu torpağa hopur, dörddə üçü təbəqədə qalıb «ölürdü».

Kim idi geoloqlara qulaq asan, sözlərinə fikir verən.

Sahibkarlar isə sevinir, onlarca faytonda, qazalaqda, şəhərdən, qonşu kəndlərdən adamlar tamaşaya gəlir, təzə milyonçunu müjdələyir, pul təklif edirdilər. Halbuki, həmin şəxsə bir gün əvvəl etibar edib bir manat da vermirdilər. Suraxanıda, Ramanada, Bibiheybətdəki güclü fontanların gurultusundan ətraf kəndlərdə yatmaq olmurdu; qaz aləmi bürüyürdü. Fontan bəzən üç-dörd həftə davam eləyirdi. Belə vaxtlarda qonşu mədənlərdə neft verən bütün quyuları, ocaqxanaları bağlayırdılar, qazmanı saxlayır, emalatxanalarda işi dayandırırdılar ki, yanğın düşməsin. Sonra da fontan sahibindən ya xoşluqla, çox vaxt isə məhkəmə gücünə itki pulu, ziyan xərci alırdılar.

Milyardlarla kubmetr qaz havaya uçub zay olurdu. Məşhur rus kimyagəri D. İ. Mendeleyev 1885-ci ildə Bakıda olanda havaya sovrulan qazı gələcəyin yanacağı adlandırır.

Keçmiş fontanlardan söhbət düşəndə qocaman mühəndis Şulqin Serkey Vasilyeviç qəlyanını tüstülədib, nəql edirdi ki, «yatmışdım, böyrümə vurulan bərk dürtmədən ayıldım, kim isə qulağımın lap dibində qışqırdı: «Dur, quyu fontan vurur...» Tələsik geyindim. Bayırdan şiddətli uğultu eşidilirdi. Binanın divarları titrəyir, dam cırıldayırdı. Bayırda yer-yerdən: «Fontan vuran quyu kimindir?» soruşurdular, lakin cavab verən yox idi. Otaqdan çıxdım.

Səhər idi. Göy üzü ayazdı, üfüq qızarırdı. Kazarmalardan çıxanlar dayanır, elə bil yerə mıxlanırdılar.

Neft sütunu göylərə baş qaldırırdı. Vışkanın yarısı yox idi, neft seli qabağına çıxan tir, dirək, taxta, maşın, truba, dəmir parçalarını süpürləyib aparırdı. Quyudan tullanan daş parçaları uzaqlara səpələnirdi. Heç nə eşitmək olmurdu. Dəhşətli uğultu yəqin ki, ətraf kəndlərin sakinlərini də oyatmışdı. Göydən neft yağırdı, adamların üst-başı neftdən islanır, üz-gözləri qapqara qaralırdı. Xəzri güclənirdi. Neft sütunu gah azalır, gah da hündürlərə qalxırdı. Sütun azalanda adamlar qabağa keçməyə can atırdılar və istəyirdilər ki, əvvəldən hazırlanmış çuqun təbəqəsini quyunun ağzına qoysunlar, halbuki, belə çuqun lövhələrlə xırda əl quyularının ağzını bağlayırdılar. Haraya əl vurulurdu, yapışqan təki yapışırdı. Neft adamların topuğuna qalxırdı.

Neftxuda hələ uzaqdan neft sütununun hündürlüyünü görəndə dəhşətə gəlmişdi. Neft seli baş götürüb ətrafa axırdı. Yaxınlıqda yaşayan adamların çoxusu bayırda idilər.

Fontan anbaan güclənir, neft seli zirzəmiləri, daxmaları, evlərin birinci mərtəbələrini basırdı, ətraf neft gölünə dönür, adamların apara bilmədikləri

palaz, həsir, cır-cındır, yorğan-döşək neft gölündə üzürdü. Kişilər şalvarlarını çırmalayıb, dallarında şələ, ayaqyalın neft içində qaçırdılar.

Əhlikeflər əhvalatı kazinoda eşidib fayton və qazalaqlarda fontana tamaşa eləməyə gəlirdilər.

Qara dam və daxmaların çoxunu neft seli basıb zay etmişdi.

Quyu birinci həftədə gündə 20 min tondan çox neft püskürmüşdü.

Ziyan çəkmiş yüzlərlə adam məhkəməyə müraciət edib neftxudadan zərər pulu iddia edirdilər. Əgər məhkəmə onların tələb etdikləri məbləğin onda birini ödəməyi qərara alıb, hökm çıxarsaydı, sahibkar müflis olardı. Neftxudanın tutduğu üç vəkil yuxularına haram qatıb əldən-ayaqdan düşmüşdülər, iddiaçılardan əşyayi-dəlil və rəsmi sənəd tələb edirdilər.

İş axırda gedib mahal məhkəməsinə çıxdı, məsələ daha da qarışıq düşdü. Camaata dəyən zərər o qədər böyük idi ki, heç kəs var-yoxu əlindən çıxıb quru yurdda qalmış, dilənçi gününə düşmüş fəqir-füqəranın haqqını tapdalamağa sürət edə bilmirdi; lakin divan-dərə xəsarət məbləğini azaltmağa cəhd edirdi, zərərdidələr də öz növbəsində iddianın məbləğini artırırdılar.

Neftxuda mühasirəyə düşmüş ayı kimi vurnuxurdu, sudan quru çıxmağa cəhd edirdi... Mədən çox zəngin idi, amma kimə əl açırdı, heç kəs borc vermirdi...

Bir səhər süpürgəçi kontora gələndə sahibkarın özünü tavandan asdığını gördü.

Bu fontan nəticəsində neftin qiyməti birə dörd azalmışdısa, pudu 50 qəpikdən 12 qəpiyə düşmüşdüsə də, müştəri tapılmırdı. Xırda mədənçilərin çoxu müflis olmuşdu. Nəhəng firmalar qəsdən nöyüt çıxarmır, xırda sahibkarların mədənlərinə yiyələnmək istəyirlər.

Fontan sahibi özünü asandan sonra zərər çəkmiş camaat başını itirmişdi, ölünü, cənazəni mühakimə etmək mümkün deyildi...

Nobel qardaşları zərər çəkənlərdən, özü də həqiqi zərərin, onda bir hissəsini ödəmək şərtilə mədəni almağa razı oldular.

O zaman ən ağır, ən çətin, ən qorxulu iş quyu qazmaq, neft çıxarmaq, bir də neft təmizləmək idi. Ölüm, həmişə bu peşə sahiblərinin başları üstündə hərlənirdi. Qabaqlar dayaz quyuları külüng və bel ilə qazırdılar; quyuların dərinliyi az idi, zaman keçdikcə artdı, əlli, altmış, daha çox... Zəhərli qaz, yeraltı sular, palçıq qazmaçıları bərk incidir, adamları əldən, taqətdən salırdı. Dərinə getdikcə hava azalır, zəhərli qaz artır, iş ağırlaşır, yeraltı su təbəqələri açılır, su basqını başlayır, quyu divarları uçub tökülür, tez-tez bədbəxt hadisələr baş verirdi. Qəfildən fontan vuranda qazmaçının heç cəsədi də tapılmırdı. Sevimli yazıçımız Abdulla Şaiq «Məktub yetişmədi» hekayəsində qazmaçıların acınacaqlı, başdan-başa əziyyət, məşəqqətli həyatını, facianə ölümünü mahir, realist qələmlə təsvir etmişdir.

400-600 metr dərinlikdəki neft təbəqəsini texniki üsulla iki ilə, üç ilə qazıb başa çatdırırdılar. Qəza baş verdikdə, iş günü podratçıya çox baha tamam olurdu, quyuya düşmüş baltanı, ilişib qalmış avadanlığı çıxarmaq o qədər də asan deyildi; aylarla əlləşirdilər; başqa dəstədən dəvət edilən təcrübəli ustaların belə, çox vaxt əllərindən heç nə gəlmirdi; hər şey yerin altında, dərin quyuda - göz görmür, əl çatmır; bütün cəhdlər hədər gedirdi. Belə günlərdə usta və fəhlələrə podratçı maaşın ancaq yarısını ödəyirdi. Avadanlıq və cihazlar ibtidai idi, Ustaların müşahidə qabiliyyəti və sənətkarlığı, duyğuları yeganə həlledici vasitə idi. Təcrübəli qazmaçının qulaqları alətin səsindən, tərpənməsindən süxurlar, təbəqələr barədə nəticə çıxarırdı.

Podratçılar texnikanı, yeniliyi sevmirdilər. Onların fikrincə ölçü cihazları boş şeydir, yer haqqındakı geologiya elmi nağıldır, guya hər şey ustadan asılıdır; vərdiş, sayıqlıq lazımdır. Xurafata da inam çox idi: düşənbə günü yeni əməliyyata başlamırdılar, usta və fəhlələrin ayağı düşüb-düşməməyi, xoş, ya da bəd qədəm olmasına yaman fikir verirdilər. Tək səbr gətirəni döyürdülər...

Neft çıxardanların - dartayçıların işi qazmaçılarınkından heç də asan deyildi. On iki saat ərzində bir saniyə belə dincəlmir, ağır jelonkanı qaldırıb nefti boşaldır, təzədən quyuya sallayırdı. Səs-küydən qulaq kar olur, beyin kütləşirdi. Dartayçı jelonkanın üst şkvaldan çıxmasına yol verməməli idi, əks təqdirdə quyu iki-üç saat dayanırdı. Gecə növbəsində dartayçıların işi daha ağır olurdu. Bir balaca ehtiyatsızlıq eləcə, fikrə getsə, mürgüləsə qəza baş verərdi. Fikir və qorxudan dartayçılar tez qocalır, kar olur, əldən düşürdülər.

- Hər iki sənət sahibi çox vaxt qoldan, qabırğadan, beldən, qıçdan şikəst olurdu. Dartayçıların və qazmaçıların çoxu iranlılar idi. Bu peşə güc, dözüm və səbr tələb edirdi. Ehtiyac isə insanı ən çətin işlərə vadar edir. İranlı fəhlələr ağzını açan kimi «həmşəri» deyib elə kötəkləyirdilər ki, bir də sürət edib dinə bilmirdilər. Boğaza yığılıb rəhm və haqqını tələb edəndə, başını qaldıranda quyuya atırdılar. Balaxanıda dörd nəfər fəhlə əl ilə qazılan ayrı-ayrı quyuda uçan torpağın altında qalıb həlak olmuşdu. Pristava 100, okolodoçniyə 50 manat, konsul katibinə 25 manat xərclik verib, cinayəti ört-basdır eləmişdilər. Belə hadisələr tez-tez baş verirdi.

Mədənlərin mənzərəsi acınacaqlı idi. Dərə-təpə, torpaq küçələr üfunətli, çalalar peyinlə, mazutla dolmuşdu, göydən his yağırdı. Yağışda palçıq dizə qalxır, qışda şaxta olur, yayda od yağır, içməli su yox... Xəzri qopanda tozdan göz-gözü görmür, şəhər və mədən əhalisinin çoxu xəstələnirdi. Xırda, rütubətli zirzəmilər, daxmalar, birmərtəbəli kazarmalar, qara damlar... Bu acı həyatı, cəhənnəm mühitini, ağır fəhlə məişətinin mənzərəsini ilk dəfə Hüseyn Cavid «Bakı» şerində böyük ustalıqla, eyni zamanda ürək ağrısı ilə, həzin bir kədərlə təsvir etmiş və ümidini gələcəyə bağlamışdı.

Böyük humanist şair axırda bütün ümidini gələcəyə bağlayır ki, fəhlə, füqəra yalnız gələcəkdə nicat tapıb, ağ günə çıxacaq.

Neft emal edən zavodlardakı fəhlələrin işi qazmaçı və dartayçılarınkından heç də asan deyildi. Tez-tez yanğınlar baş verir, çənlər partlayır, fəhlələr şikəst olur, ölürdülər...

Mədən və zavodlarda tez-tez baş verən yanğınlar çoxlu tələfata səbəb olurdu. Neftə bulanmış ağac vışkalar, buruq ətrafındakı anbarlar və gölməçələr, Üfunətli çalalar ətrafda cəhənnəm mənzərəsi əmələ gətirirdi. Yanğınlar uzun sürürdü. Çünki qarşısını almaq üçün əməlli vasitə yox idi. Xəzri taxta parçalarını ətrafa səpələyirdi, yanğın düşür, alov buruqlara keçir və hər tərəfə yayılırdı. 1903-cü ildə Sabunçuda, cənub mədənində baş vermiş yanğından 130 buruq yanıb külə dönür. Belə vaxtlarda mədənlər qatı tüstü arxasında görünməz olurdu.

Bibiheybətdə 1903-cü ildə güclü fontan vuran bir buruqda yanğın baş verir və bir neçə həftə uzanır. Bunun da səbəbi qonşu buruqlardan birində jelonkanın düşüb yanması olur. Alov ətrafdakı buruq və anbarlara yayılır, od-alov sel təki axıb, qabağına çıxan hər şeyi alışdırıb külə döndərir. Bu yanğın nəticəsində onlarca buruq, bir neçə kontor binası yanır. Sentyabrın doqquzunda başlayan yanğını oktyabrın 10-da zorla söndürə bilirlər.

O vaxtlar «Neftyanoe delo» jurnalında yazmışdılar ki, 1900-1910-cu on il ərzində Bakı mədənlərində 314 yanğın baş verib. 1503 buruq və çoxlu bina yanıbdır. Orta hesabla ildə 31, ayda 3 yanğın baş verib...

Bibiheybətdə başqa bir yanğın o qədər güclü imiş ki, alovun şəfəqləri 90 kilometr uzaqlıqda yerləşək Mərəzə kəndindən görünürmüş. Deyilənə görə, Şaban adında bir usta külli miqdarda pulla işi podrate götürür, tonlarla zəncir alır, əlaltıları ilə furqonlara yükləyib, yanğın olan buruğa daşıtdırır; zəncirləri tədricən quyuya doldurur və yavaş-yavaş od-alovu söndürür.

Neft təmizləyən və emal edən zavodlar, kükürd turşusu, mis əridən, çuqun istehsal edən və digər (yüzdən çox) zavodlar Qaraşəhər və Ağşəhərdə yerləşirdi. Küçələr boyu borular uzanırdı. Gecə-gündüz göydən his yağırdı, hər şey qara rəngə boyanmışdı. Hava da zəhərli idi. hər şey, hətta quşlar, itlər, pişiklər belə qapqara olardı. Bu arada tez-tez yanğınlar baş verər, iri çənlər partlar, evlər, kazarma, barak, emalatxana zə zavodlar külə dönərdi. Fəhlələrin əksəriyyəti vərəm və təngnəfəslik azarına tutular, tez qocalardılar. Çoxları həmişəlik əlil olardı.

Mədənlərdə tez-tez baş verən güclü fontan zamanı bekar fəhlələri işə cəlb edən xüsusi podratçılar dəstəsi vardı. Fəhlə aldığı halal əmək haqqının iyirmi faizini podratçıya verməli idi, əks təqdirdə onu işə yaxın qoymurdular. Podratçı öz növbəsində sahibkarı aldadıb işə cəlb edilən fəhlələrin sayını çoxaldır, artıq pul alır və tez bir zamanda dövlətlənirdi. Podratçı tikdirdiyi kazarmaları fəhlələrinə kirayə verirdi; onları vadar edirdi ki,

ərzağı onun dükanından alsınlar. Çox vaxt malları nisyə verir fəhlənin maaşından sələm də tuturdu.

Fontan baş verəndə, iş o qədər gərgin, ağır və çətin olurdu ki, bir neçə fəhlə ölür, şikəst olurdu. Yuxarıda qeyd edildiyi kimi belə qorxulu işə girişən, özünü ölümün pəncəsinə atanların əksəriyyəti iranlılar olardı; Vətəndəki xəstə ata-analarına, çılpaq, ac-yalavac qardaş-bacılarına, arvad-uşaqlarına bir loxma çörək qazanmaq üçün onlar işgəncəyə, təhqirə dözürdülər.

Fəhlələr heç bir rahatlığı olmayan darısqal baraklarda yaşayırdılar. Barakın hündürlüyü iki arşındı, qalxanda başın tavana dəyirdi, qapısı, xırda bir «pəncərə»si vardı. Uzunluğu beş, eni isə iki arşın olan torpaq döşəməli, rütubətli daxmada yeddi adam yaşayırdı; yonulmamış taxtadan düzəldilmiş taxtlar torpaqdan yarım arşın hündür olardı.

Fəhlələrin yaşadıqları kazarmalar dustaqxana kimi bir yer idi; damlar dəlik-deşik, yağış içəri damırdı; çox vaxt balaca pəncərələrin şüşəsi olmazdı, olanları da yarımsınıq; bina sahibi icarə pulunu alan kimi yoxa çıxar, iki-üç ildən sonra yeni müqavilə bağlamaq üçün gələrdi. Podratçı isə binanı təmir etməyə borclu deyildi, «otaqlara» mümkün qədər çox fəhlə yerləşdirərdilər. Yüz adam yerləşə biləcək kazarmaya yüz əlli nəfəri salardı, daha çox kirayə alardı, söz düşəndə misal gətirərdilər ki, darısqallığın eybi yoxdur. Təki bir-birinizlə mehriban olun. Divarlardan asılan paltarlardan, patava və ayaqqabılardan, ümumiyyətlə bütün binadan ürək bulandıran üfunət qalxırdı. Buna yaşamaq demək olmazdı.

«Otaqlarda» balaca çıraq yanardı, tüstüsü işığından çox olardı, göz-gözü görmürdü. Ağ neft nəhr kimi axıb daşan, bütün aləmə işıq və istilik verən belə bir şəhərdə toranlıq, zülmət, acınacaqlı güzəran hökm sürürdü. Rotşildin əzəmətli binası qarşısında axşam düşməmişdən səhər açılana qədər yanan qaz fanarının bir gecədə ətrafa saçdığı işığı on kazarmadakı bütün qaraçıraqlar bir ildə saçmırdı.

Meyxanaları, adətən, kazarmalara yaxın yerdə açırdılar: ac, yorğun, canından bezar fəhlələr axşamlar dərdi-səri unutmaq üçün özlərini verirdilər meyxanaya, çox keçmirdi ki, yumruq davası başlayırdı. Ayrı-ayrı millətlərdən olan fəhlələrin arasında qəsdən ögey-doğmalıq yaradıb, nifaq salırdılar.

Sahibkarlar, mədən müdirləri, baş mühəndis və sıravi mühəndislərin əksəriyyəti fəhlələrlə kobud rəftar edər, söyər, şallağı, qırmancı, çox vaxt yumruqlarını işə salardılar; zülm ərşə qalxırdı. Xüsusi qoçu saxlayırdılar ki, fəhlələrə divan tutsun, başlarını qaldırmasınlar.

İnqilabi mübarizənin qızğın çağlarında, fəhlələr zalım müdir və mühəndisləri mədəndən qovurdular; onlar özləri də əvvəlki havadan düşmüşdülər, səslərini qorxudan ucalda, əl-qol aça bilmirdilər, tək hərlənməyə sürət etmirdilər. Fəhlələrin səbr kasası dolub-daşırdı. Azca yolundan azan müdiri, mühəndisi, qulluqçunu xərəyə qoyub əl-qolunu sarıyır, üstünə qara neft

töküb zibilliyə tullayırdılar. Həmin adam bir daha o həndəvərdə görünmürdü. Hətta bir neçə zalım müdir və mühəndisin qollarını bağlayıb, üstünə mazut töküb, beş-altı saat şalbandan asmışdılar, heç kəs, nə polis, nə jandarm ona yaxınlaşmağa cürət etməmişdi.

Fəhlələr demokratik fikirli, vicdanlı, xeyirxah, bilikli, bacarıqlı, xoşrəftar mühəndislərdən komitələrdə sədr seçər və konfranslara nümayəndə göndərərdilər.

Mədən müdirləri, mühəndislər, inzibat-təsərrüfat qulluqçuları, podratçılar Sabunçu və Suraxanıya kukuşkada gedib-qayıdırdılar. Yollarda maraqlı söhbətlər olurdu. Birjada pul məzənnəsinin artıb-azalması, kimlərin iflas olması, bankı kimin yardığı, şəhərə təzə rəqqasə və müğənni gəlməsi, padşahlıqdan təzə fərmanlar, fontan və yanğınlar, mədən alıb-satmaqdan, istiqrazdan, mülk alıb-satmaqdan, hərracdan, quyularda qəza baş verəndə neçə-neçə fəhlələrin ölməyindən, ya şikəst olmağından, arvad almağından, qumarda uduzub-udmaqdan, intihar edənlərdən, qoçuların atışmasından, alim və mühəndislərdən, yeni texnikadan, quyuları su basıb neftin yoxa çıxmasından, quşbazlıqdan, it boğuşdurmaqdan, qoç və xoruz döyüşündən, qəflətən iflasa uğrayanların özünü öldürməyindən...

Birdən quyular neft əvəzinə su verməyə başladıqda buruq ustaları suyun qabağını kəsib, çarə edə bilmirdilər. Sahibkarlar başlarını itirirdi, başlayırdılar belə mədənləri satmağa, özü də ucuz qiymətə, avadanlıqları ilə bir yerdə.

Məşhur geoloq Qolubyatnikov bu dərdə çarə tapdı. O, 1903-cü ildən Abşeron yarımadasının və neft mədənlərinin geologiyasını, neft saxlayan təbəqələrin xüsusiyyətini, neftin kimyəvi tərkibini, fiziki xassəsini, təbəqələrin şıltaqlığını dərindən öyrənmiş və xüsusi neft yataqları geologiyası elmi yaratmışdı. Yeraltı təbəqələr üçün xüsusi xəritələr və profillər tərtib eləmişdi. Həkim xəstəliyi təyin edib, diaqnoz qoyduğu kimi, Qolubyatnikov da neft yatağında baş verən dəyişiklikləri müəyyən edir, qazma, istismar və kəşfiyyat üçün proqnoz verirdi. O, quyuların neft əvəzinə su verməyinin səbəblərini müəyyənləşdirib tədbir görmüşdü. Səbəblər bunlar idi: «quyuların konstruksiyasının etibarsızlığı, güclü su təbəqələrinin yaxşı sementlənməməsi, bağlanmaması, istismar borularının bərkidilməməsi və bunun da su basqını üçün sərbəst şərait yaratması...». Onun göstərişi əsasında yeraltı su mənbələri müəyyən edilib, sementlə bərkidildi; bununla da quyular təzədən neft verməyə başladı. Mədənini satanlar peşman oldular. Mədən və neftli yerlərin qiyməti təzədən qalxdı.

Acınacaqlı hal o idi ki, yerlilər xarici mütəxəssislərin qarşısında, xaric adı çəkiləndə səcdə edirdilər. Bu da böyük bir faciə idi.

Xarici kapital Bakı nefti ilə o qədər bərk maraqlanırdı ki, əllərinə düşən geoloji, elmi, texniki məlumatı o saat dərc edirdilər; nəticədə paradoksal

vəziyyət yaranırdı. Abşeron yarımadasının və Bibiheybət yatağının Qolubyatnikov tərəfindən tərtib edilmiş ilk geoloji xəritələri birinci dəfə Rusiyada yox, Almaniyada çap edildi.

Gəlir verən və avamların çox olduğu yerlərdə fırıldaqçılar həmişə özlərini qabağa verirdilər. Çoxlu yalançı alim, neftin harada gizləndiyini müəyyən edən «sehrkarlar» kontorlara, mədənlərə soxulur və öz «kömək» əllərini sahibkarlara uzatmağa can atırdılar. Onları dilə tutur, min bir əfsanə deyirdilər. Bunlardan biri də Montvij-Montvil adında bir «alim» idi. O, Bakıya gəlib, özünü faydalı filiz axtaran alim kimi qələmə vermişdi. Bu «mütəxəssis» çox mötəbər, görkəmli, iri gövdəli, gözəl geyimli, gözlərində sümük sağanaqlı eynək, əlində sehrli əsa gəzdirən bir qoca idi. Bu adamın nə diplomu, nə də alim olması barədə heç bir sənəd yox idi. Özünün dediyinə görə əlindəki sehrli əsa yer altında olan neft, su, dəmir və sair faydalı qazıntılardan xəbər verirdi.

Montvij-Montvilə təklif edirlər ki, kabinetdə olan on beş qapalı qutudakı maddələri təyin etsə, ona mühazirə oxumağa icazə verərlər; qoyulan şərt ilə razılaşır.

Qutuları salona gətirirlər. Onların on ikisində başqa-başqa süxur parçaları, dörd butulkada isə neft və su varmış; iki qutu isə bomboş imiş.

Montvij-Montvil sehrli əsasını xeyli oynadandan sonra butulkalardakı neft, su və süxurların qızıl, boş qutuda isə ağır maddə, çox güman ki, dəmir olduğunu söyləyir. Cəmiyyətin sədri qutuları açıb içərisindəki şeyləri «alim»ə göstərib deyir: «elm şüma məlum şüd» - «Elminiz məlum oldu».

Amma buna baxmayaraq Montvij-Montvil bəzi adamların «qulaqlarını kəsib» xeyli pul ala bilmişdi.

Müxtəlif millətlərdən olan var sahibləri bu şəhərə gəlib çoxlu müəssisə və kontor açmışdılar. Özləri də diqqəti cəlb etmək, adamları şirnikdirmək məqsədilə kontorları təmtəraqlı düzəldər, bahalı mebellər qoyar, pəncərələrdən və qapılardan güllü xara, məxmər, yun pərdələr, tavandan çilçıraqlar asar, döşəməyə gözəl xalçalar salardılar. Sarışın saçlı qızları, cavan qadınları katibə, makinaçı və kargüzar təyin edərdilər.

İşgüzar adamlar pulu təkcə mədən salmaq, zavod tikməklə qazanmırdılar. Onlar çox vaxt ziyan da gətirə bilərdi, mədəni, zavodu düşmənçilikdən, paxıllıqdan yandırar, avadanlığı korlaya bilərdilər...

Başqalarının çıxardığı nefti ucuz alıb baha satmaq, birja oyunlarında iştirak etmək, torpaq və sairə şeylərin ticarətilə daha asan varlanmaq olardı. Min bir yolla pul qazanmaq adətə keçmişdi. Şirkət düzəldib payçıların pulları ilə milyona sahib olanlar da vardı. Çoxları - Mantaşevlər, Dadaşovlar və sairləri nüfuzları ilə alış-veriş edirdi; onların familiyası, adı siyahıda olanda iş yağ kimi gedirdi.

Xırda kontorlarda da iki cür haqq-hesab aparırdılar: qondarma və həqiqi. Çox vaxt müəssisənin maliyyə qüvvəsini, əşya və avadanlıqların qiymətini qat-qat artırmaqla şişirdirdilər ki, banklardan daha çox vəsait ala bilsinlər. Sonra da müflis olduqlarını elan etməklə sərvət qazanırdılar. Əksər hallarda xırda aksiya sahiblərinin var-yoxu öllərindən çıxırdı.

İşgüzarlar iri brilyant, yaqut, zümrüd qaşlı üzük taxmadıqda, qızıl təkbənd bağlamadıqda maliyyə və ticarət aləmində şübhəyə səbəb olurdu, o adam etibarını itirirdi; bu hal veksellə aldığı borcu vaxtında qaytarmamağa, iflasa uğramamağa bərabər hesab oluna bilərdi.

***Milyonçular.*** Bakıdə milyonçu çox idi, bəzilərinin adı və sədası bütün dünyaya yayılmışdı.

Müsəlman milyonçularını iki dəstəyə bölmək olardı: birinci «neft milyonçuları» - «neftxudalar»; ikincilər isə «Sandıq milyonçuları», yəni pulu sandıqda üst-üstə yığıb, yüksək faizlə sələm almaq, malı ucuz alıb baha satmaqla varlananlar.

Əlbəttə, burada əsas söhbət neft milyonçularından - neftxudalardan gedəcək.

***Hacı Zeynalabdin Tağıyev.*** Bütün müsəlman aləmində tanınmış milyonçu -neftxudanı Bakıdakı müsəlman, rus, erməni və yəhudi cəmiyyəti xeyriyyələrinin hamısı özlərinə fəxri sədr seçmişdilər.

Atası İçərişəhərli başmaqçı Tağı, anası Bilgəhli Anaxanım olub. Zeynalabdin uşaq ikən anası vəfat edib. Atası ikinci dəfə evlənir, təzə arvaddan beş qızı olur. Tağı çox kasıb imiş, Zeynalabdin hələ kiçik ikən atası deyir ki, bala, görürsən də, güzəranımız necə ağır keçir, gəl əlimin altında işlə, mənə həyan ol, birtəhər gündəlik çörək pulu qazanaq. Zeynalabdin cavab verir ki, mən başmaqçı yox, bənna olacağam. Kişi arvadına tapşırır ki, apar bunu qoy bənnanın əli altında işləsin. O vaxtdan başında çanaxda palçıq daşıyır, 6 qəpik günəmuzd alır.

Yaşı az olduğundan palçıq çanağını çətinliklə daşıyırmış; yoldaşları ona kömək edirdilər, tez-tez ağır çanağı qaldırıb başına qoyurdular. O da canla-başla çalışırmış; bütün günü bir an belə bekar qalmaz, hamıdan tez gələr, gec gedərmiş, 15 yaşında daşyonan, 18 yaşında bənna, sonra da memar-podratçı olur.

1873-cü ildə iki nəfərlə şərik olub Bibiheybətdə icarəyə yer götürür. Avadanlıq alır, usta və əmələlər tutur, buruq qurdurub başlayır quyu qazdırmağa. Günbəgün xərc artır, neft isə görünmür. Qışda soyuq, yayda cəhənnəm istisi, xəzri-gilavarın qaldırdığı toz göz çıxardır. İlantək qabıq qoyurlar, neft isə çıxmır. Düşmənlər Hacıya gah tamahkar, gah kələfin ucunu itirən adam kimi baxırlar. Şəriklər ümidlərini itirir - öz paylarını satmağa müştəri axtarırlar, axırda Hacı özü onların pulunu verib buruğa və

yerə yiyələnir. İş daha da ağır gedir. Hacı darıxmır, tək-tənha məşəqqətə dözür. Fəhlələrin muzdunu vaxtında verir.

Nəhayət, quyu gözlənilmədən fontan vurur. Başmaqçı Tağının oğlu palçıqçı Zeynalabdin dönür olur milyonçu Tağıyev.

Üç ilə şəhərin mərkəzində (1895-1897-ci illər) böyük bir saray tikdirir. Bu kaşanənin hər dörd fasadı və damdakı nəhəng qübbələr diqqəti uzaqdan cəlb edir. Bir üzü Bariyatinski (Fioletov), digəri Starıy politseyski (Məmmədəliyev), üçüncüsü Merkuri (Şaumyan), dördüncüsü isə Qarçakov (Malıgin) küçələrinə baxır; hər cəhətdən, həm xarici arxitekturasına, həm də daxili bər-bəzəyinə görə şəhərin ən yaraşıqlı binalarından biridir. Layihənin müəllifi Qoslavski əsasən Avropa order memarlıq üslubundan istifadə edib, fərdi kompozisiya yaradıb (Azərbaycan tarixi muzeyi). Binanın hər dörd tinində və baş girəcəyinin qabağında nəhəng qaz fanarı yanardı, gecələr bu aralar işığa qərq olar, yerə iynə düşsəydi tapılardı.

Tağıyev həm neftxuda, həm dəyirman sahibi, həm fabrikant, həm böyük balıq sənayeçisi (bütün Kür ətrafı və Xəzər qırağı vətəgələr onun ixtiyarında idi), həm də ticarət və yük gəmilərinin sahibi idi. Quba tərəfdə Atlıxanda, Yevlax ətrafında böyük meşələri vardı. Ənzəli və Rəşt ərazisində də Hacının meşələri, böyük malikanəsi, binaları və nümayəndəliyi, başqa şəhərlərdə, o cümlədən Moskvada 4 mərtəbəli iri sarayı, İranda karvansaraları vardı.

İmperator II Nikolayın qardaşı böyük knyaz Mixail Aleksandroviç polyak qızına evlənib, taxt-tacından əl götürəndən sonra Tağıyevdən xahiş edir ki, Yevlax ətrafı meşələrdə ov edib dincəlməyə ona icazə versin. O, Hacıya cəvahiratla bəzədilmiş bir qızıl çarke (peymanə) bəxşiş göndərmişdi.

Xəzərin Azərbaycan sahillərindən tutmuş Dağıstanın sahillərinə, Dərbənd, Port-Petrovsk (indiki Ma-Haç-Qala) daxil olmaqla uzunluğu 300 kilometr olan torpaq sahəsi alıb vətəgə salmışdı. Kür qırağındakı vətəgələri dövlətdən icarəyə götürmüşdü.

O zamanlar dustaqları Nargin adasında saxlayırdılar. Camaat ora gedib-gələndə yaman əziyyət çəkirdi. Axırda Hacı Zeynalabdinə müraciət edirlər ki, bu işdə bizə kömək elə, dərdimizə çarə qıl. O da, o zaman şəhərin ucqar yeri hesab edilən Quba (Füzuli) meydanı ilə Kömürçü meydanı arasında tikdirdiyi beşmərtəbəli dəyirmanı (indiki şirniyyat fabrikini) dustaqxana üçün verir. Bu barədə digər bir rəvayət də var. Bakıya yüksək rütbəli təzə məmur təyin edilir. Hacı onun görüşünə gedir və deyir ki, sizə nə kömək lazımsa, utanmayın, söyləyin, mən padşahlıqdan heç nə müzayiqə edən deyiləm. Yüksək rütbəli şəxs izah edir ki, «dustaqları Nargin adasında saxlayırıq, işçilər gedib-qayıtmağa çox vaxt sərf edirlər, həm də əziyyət çəkirlər; mümkünsə bu işdə bizə kömək edin». Hacı Zeynalabdin tikilib qurtarmış dəyirman binasını dustaqxana üçün hökumətə verir. Xaricdən gətirdiyi dəyirman avadanlığını

toxuculuq fabriki yerləşən əraziyə daşıtdırıb, orda dəyirman tikdirir. Özü və ailəsi yaşamaq üçün fabrikin yaxınlığında xüsusi mülk tikdirmişdi və vaxtaşırı orda qalırdılar.

«Mazut» şirkətinin yaranması ilə əlaqədar, yerli varlılardan Çolaq Ağabala Quliyevin başçılığı ilə «Bakı - Batum» neft kəməri aksioner şirkətini yaradırlar. Bu neft kəmərinin əleyhinə həm açıq, həm də gizlin çıxış edənlər az deyildi, əlaltından iş görənlər vardı, çünki bəziləri çox qazansın əllərindən çıxmasından qorxurdular, paxıllar da az deyildi. O zaman üçün nəhəng inşaat hesab edilən bu neft kəməri Bakıdan başlayaraq Kür düzənliyindən keçib, Qafqaz dağlarının ətəyini və Suram qalasının yamacını aşıb, Reon düzənliyindən ötərək 800 kilometr məsafədə uzanıb Xəzər sahilini Qara dəniz sahiliylə birləşdirəcəkdi. Bakı nefti okeanlara, uzaq-uzaq ölkələrə, beynəlxalq bazarlara yol açacaqdı.

Kəməri uzatmağa 1897-ci ildə başlayıb, 1907-ci ildə (10 ilə) tamamlamışdılar.

Professor Hadi Əliyev deyirdi ki, mühəndis dayım İbad Əliyev Tağıyevin Bibiheybətdəki mədənində müdir olmuşdu, onunla yaxın idi; Şollar su kəmərini çəkəndə avadanlığı gətirmək üçün İbadı yolladı Rusiyaya. 120 vaqon maşın, nasos və digər avadanlıq gətirdi və işi tamamlayıb başa çatdırdılar. Hadinin dediyinə görə, dayısı İbad nəql edirmiş ki, imperator III Aleksandr sağ olanda Tağıyev ona ərz-hal yazıb, müsəlman qızlarının öz ana dillərində oxumaları üçün Bakıda məktəb açmağa icazə istəyir. III Aleksandr bu xahişi rədd edir. O, öləndən sonra II Nikolay taxta çıxır. Tacgüzarlıq mərasimi münasibətilə Hacı bir senatorun vasitəçiliyi ilə Nikolayın arvadı Aleksandra Fyodorovnaya çox bahalı hədiyyə çatdırır və eyni zamanda Bakıda qız məktəbi açmaq barədə təkrar xahişnamə göndərir və rica edir ki, rus-müsəlman qız məktəbinə Tsaritsa Aleksandra Fyodorovnanın adı verilsin. Eyni zamanda qız məktəbinin xərcini ödəmək üçün banka 150.000 manat qoyur, bu da beş faizdən ildə 7.500 manat gəlir gətirəcəkdi və bununla da məktəbin xərc-xərasatı artıqlamasilə ödəniləcəkdi. İki ildən sonra 1896-cı ildə qız məktəbi açmağa icazə verilir. Tağıyev məktəb binasının layihəsini mahir memar Qoslavskiyə tapşırır. Binanı 1898-ci ildə tikməyə başlayırlar. 1900-cu ildə hazır olur, 184.000 manata başa gəlir. Bu məktəb Nikolayevski (Kommunist) küçəsində (Azərbaycan SSR Elmlər Akademiyasının Əlyazmaları fondunun binası) yerləşir. Tağıyev, müsəlman qaragüruhçuları işə mane olmasın deyə, onların bəhanələrini kəsmək, ağızlarını yummaq üçün iki nəfərə məktub, pul və qiymətli hədiyyələr verib, müqəddəs hesab edilən yerlərə - Məkkəyə, Mədinəyə, Kərbəlaya, Xorasana, Qahirəyə, İstambula, Tehrana və sair yerlərə göndərir və tapşırır ki, oradakı mötəbər, rəsmi din xadimlərindən, müctəhidlərdən imza və möhürlə təsdiq edilmiş rəsmi sənədlər

alsınlar ki, müsəlman qızları da oğlanlar kimi şəriət məktəblərindən başqa müasir məktəblərdə təhsil ala bilərlər, burada heç bir xilaf şey yoxdur.

Lakin müsəlman qızları üçün müasir məktəbin açılacağı xəbəri şəhərə vəlvələ salır, məclislərdə, bazarlarda, dükanlarda, toyda, yasda bu barədə söhbət gedir. Məhəllələrin başçıları, şəhərin ağsaqqalları iki dəfə Təzəpir məscidində toplaşıb qız məktəbi haqqında danışmaq istəmişdilərsə, nəticəsiz qalmışdı, dava-mərəkə düşür, məclis baş tutmur.

Qaragüruhçu iri əmmaməli, qara əbalı ruhanilər, yekəqarın, enliqurşaq, saqqalı hənalı hacılar, tapançalı-xəncərli qoçular ortaya çıxıb isməti-nisvandan danışa-danışa, Qurandan ayələr, peyğəmbər, xəlifə və imamlardan hədislər və sübutlar gətirərək bu işi küfr adlandırıb, Hacı Zeynalabdin Tağıyevi dindən kənar əməllərdə günahlandırırlar.

Hacı Zeynalabdin Tağıyev müsəlmanların müqəddəs ziyarətgahlarındakı müstəhid və din xadimlərinin imzaladıqları, möhürlə təsdiq etdikləri sənəd və şəhadətnamələri oxutdurub camaatı başa salmağa cəhd edirdi ki, qızların elm oxumalarında heç bir xilaf iş yoxdur, əksinə bu, çox vacib və lazımdır, bundan sonra qaragüruhçular təzədən soşurlar.

Tağıyev məclisdə iştirak edən ən mötəbər iki din xadiminə: Bakı quberniya qazisi Mir Məhəmməd Kərimə və Mirzə Abutürab Axunda Quran ayələri oxutdurub tərcümə etdirir ki, müslüm (müsəlman kişiləri) kimi müslümələr də bütün biliklərə yiyələnməyə borcludur.

Yenə etiraz səsləri ucalır.

Bu dəfə Hacı Zeynalabdin özü danışmağa başlayır: «Camaat, qızlarımızın zəmanə dərsi oxumaları vacibdir; gözləri açılar, külfətdə rəftarları xoş olar... İngilistana, Germaniyaya, Firəngistana gedib oxuyan cavanlarımızın, hərəsi oralardan qollarına bir arvad keçirib gətirir, çünki qızlarımıznan məcazları tutmur, dolana bilmirlər; əcnəbi arvadlardan doğulan uşaqlar öz-özünə olurlar mürtəd və bütün varidatımıza vərəsə çıxırlar. İşlər belə getsə ata-baba ocaqları qalacaq Quransız, namazsız, şəriətsiz. Təzə məktəbdə qızlara ehkami-şəriyyə, paltar tikmək, toxuculuq, mətbəx işləri, müsəlman və rus dilində oxuyub-yazmaq, elmi-hesab, tifillərə tərbiyə vermək öyrədiləcək. Burda pis şey var?! Molla Əli Hacı Xəlil oğlu! Qulaq as! Mən, qızları ismətsiz etmək istəmirəm, naməhrəmlə üzü açıq olmağa çağırmıram. Srağa gecə, iyirmi yaşlı ortancıl qızın sancılanmışdı, az qalmışdı ölsün. Lopabığ Ambarsum həkimi gətizdirdin qızı yoxladı, dava-dərman elədi, qızı ölümdən qurtardı. İndi də görüm, lopabığ Ambarsumun əvəzinə müsəlman arvad həkimi olsaydı, şəriətə hansı daha düzgün gələrdi? Arvad həkimlərinə, müəllimlərinə ehtiyacımız çoxdur.

Sabahı gün şəhərdə abır-həya pərdəsi altında qeylü-qal qopur, qoçular küçələrə tökülüşüb dikdaban ayaqqabı geymiş müsəlman qadın və qızlarının tufli və çəkmələrini çıxardıb, zorla nəleyin geyindirirdilər; azca üzü açıq

olanların başlarına iri, qara çadra örtürdülər; mane olmaq istəyənləri, danışanları döyür, ölümlə hədələyirdilər. Qızlarını təzə məktəbə göndərənlərin evlərinə soxulub öldürürdülər; o cümlədən, içərişəhərli Axund molla Ruhullanın evinə zorla girib namaz üstündə kişini qətl etmişdilər ki, birdən-birə iki qızını «şkola» yollayıb.

Hökumət məmurları belə biabırçılığa kənardan tamaşa edirdilər və deyirdilər ki, biz din-məzhəb məsələlərinə qarışmırıq.

Qızlara belə məsləhət görürlər ki, çarın arvadı Aleksandra Fyodorovnaya bir teleqram göndərin, minnətdarlığınızı bildirin ki, sizə məktəb açmağa icazə verib və razı olub ki, məktəbinizə onun adı verilsin. İki gündən sonra Aleksandra Fyodorovna qızlara teleqramla cavab yollayır, yeni açılmış məktəbdə əla oxuyub Vətənə və cəmiyyətə faydalı olmalarını, həyatda xoşbəxt yaşamalarını arzu edir.

Bu teleqramla bütün mübahisələr və müsəlman qız məktəbinin taleyi bir dəfəlik həll edilir.

...Məktəbə 58 qız qəbul edilmişdi; onlardan 35 nəfəri kasıb ailələrdən idi, təhsil haqqından azad edilmişdilər, geyim və yemək-içməklərinin xərcini Tağıyev ödəyəcəkdi (Əvvəldən 20 nəfər kasıb qızın pulsuz götürülməsi nəzərdə tutulmuşdu, sonra Hacı bu siyahıya 15 nəfər də əlavə edir). Bu məktəb pansion və qapalı idi; qızlara həftədə bir dəfə, cümə günləri səhər saat 10-dan 17-yə qədər evlərinə getməyə icazə verilirdi.

Məktəbdə dərslər 1901-ci il sentyabrın 7-də başlanmışdı. Sentyabrın 9-da dərsin açılışını bayram edirlər. Krımdan, Özbəkistandan, Peterburq və başqa yerlərdən çoxlu təbrik teleqramı gəlir.

Bu şənlik münasibətilə öz sevincini bildirənlərdən biri Həsənbəy Zərdabi idi.

Bakı müsəlman qız məktəbinin şagirdləri üçün Dağıstan qızlarının geyimi rəsmi libas kimi qəbul edilmişdi. Həmin geyim 1909-cu ildən rus qız məktəblərinin rəsmi paltarı ilə əvəz edildi - abı rəngli parçadan don, ağ önlük, bir də pelerina; gündəlik geyimdən başqa bayram və mərasim libası da vardı; imtahan vaxtı, bayram günləri, teatr və gəzməyə gedəndə mərasim libasını geyirdilər. 4 illik məktəb iki ildən sonra oldu 5 illik, sonra 6 illik, axırda da seminariya. Hacı banka 100.000 manat 5 faizli qızıl pul verib məktəbi seminariyaya çevirtdirmişdi. Onu da qeyd etmək vacibdir ki, təkcə məktəb binası tarixi sənədlərə görə 183.533 manat qızıl pula tamam olmuşdu, tədris avadanlığına əlavə qızıl pulla 29.000 manat xərclənmişdi. Bankda da 125.000 manat toxunulmaz kapital 5 fəiz gəlirlə saxlanılırdı ki, məktəbin xərclərini təmin etsin. Məktəb seminariyaya çevriləndən sonra vəsait 225.000 manat olmuşdu.

Binanın zirzəmisi Orucov qardaşlarına mətbəə üçün kirayəyə verilmişdi ki, buradan da əldə edilən neçə min manat pul yenə qız məktəbinin

ehtiyacına sərf edilirdi. Həmin məktəbin nəzdində qadın müəllimlər üçün ikiillik hazırlıq kursu açılmışdı.

Qız məktəbinin binası memarlıq baxımından Azərbaycan memarlığının milli-romantik üslubundadır. Əsas fasaddakı divar bir cərgə ağ, digər cərgə isə qızılı daşdan hörülüb.

Məktəbi ilk dəfə qurtaran qızlara Azərbaycan dilinə tərcümə edilmiş Quran, Lev Tolstoyun, Puşkinin, Qoqolun, Lermontovun əsərlərindən nüsxələr, təzə libas və başqa hədiyyələr verilir və bundan sonra hədiyyə vermək ənənəyə, adətə dönür.

Qız məktəbinin birinci müdirəsi Hənifə xanım Məlikova (Həsənbəy Zərdabinin arvadı) idi.

İran şahı yolüstü Bakıda olanda, arvadı qız məktəbinə gəlir və hər şagirdə qızıl zəncirdən asılmış bir onluq qızıl bağışlayır; qızlar da bu bəxşişi həmayil kimi boyunlarından asırlar.

Hacı Zeynalabdin öz qızları - Sara və Leylanı Peterburqa, Smolnı qız institutuna oxumağa göndərmək qərarına gəlir və sənədləri ora yollayır. Çox keçmir Smolkıdan rədd cavabı gəlir ki, nə bəy, nə xan və nə də zadəgan olmadığınız üçün qızlarınızı qəbul edə bilmərik; bu instituta yalnız qraf, knyaz, xan, bəy, əmir qızları qəbul edilir. Hacının arvadı Sona xanım rəsmi sənəd təqdim edir ki, atası general Ərəblinski müharibədə rəşadət göstərib və Rusiyaya sədaqətinə görə çar tərəfindən qızıl silahla təltif olunmuşdur; bu qızlar da onun nəvələridir, bütün imtiyazlardan istifadə etməyə hüquqları var.

Tağıyevin qızları ana babalarına - general Ərəblinskiyə gərə Smolnı institutuna qəbul edilirlər. Tağıyev Moskvanın mərkəzində Lenin kitabxanasının yaxınlığında dəbdəbəli, dörd mərtəbəli bir imarət tikdirib, yolu düşəndə həmin mülkündə qalırdı. Hacı Zeynalabdin haqqında çoxlu əhvalatlar danışırlar.

Təzə tədris üsulunun banilərindən biri, Bakı quberniyası maarif inspektoru, qocaman müəllim, yazıçı Soltan Məcid Qənizadə deyirdi ki, III Aleksandr taxta çıxıb tacgüzarlıq etdikdə Zaqafqaziya müsəlmanları tərəfindən Hacı Zeynalabdin Tağıyev Peterburqa nümayəndə göndərilmişdi. Mərasim zamanı nazirlər soveti sədri çarın sağ tərəfində dayanıb, gələnləri bir-bir ona təqdim edirmiş. Hacı Zeynalabdin müsəlman libasında, əynində arxalıq, üstündən çuxa, ayağında Şirazi çarıq, əlində dəsmal, duz, çörək çara yaxınlaşanda nazirlər soveti sədri, elə güman edir ki, Tağıyev başa düşmür, deyir: «Ваше величество, его представител дикого народа (vəhşi xalq nümayəndəsidir)».

Tağıyev deyir: «Мы не дикие, мой народ не дикий, он имеет богатую, многовековую свою историю». (Biz vəhşi deyilik, mənim xalqım vəhşi deyil, o, çoxəsrlik zəngin tarixə malikdir»).

Bir nəfər Hacının yanına dəfələrlə gəlib onun iş müdirlərinin birindən çuğulluq edir: «Əli əyridir, sənin hesabına ikimərtəbəli mülk tikdirib, qardaşına dükan açıb, fayton alıb, onu işdən qov». Hacı gülümsəyib deyir: «Qalmağı məsləhətdir. O, nə lazımdır hamısını eləyib, alıb, tikdirib, bundan sonra işləyəcək, onu çıxardıb, başqa adam götürsəm, o da köhnənin elədiklərini təzədən başlayacaq. Qalmağı məsləhətdir».

Bir gün Bakı varlıları Hacıya şikayət edirlər ki, şəhərin aşağı məhəllələrində ermənilər mülk tikdirirlər, tədbir görün, qabağını alın. Hacı deyir: «Qoy tiksinlər, qabağını almaq lazım deyil, yeri düşəndə, mən özüm də onları şirnikdirirəm ki, tikdirsinlər. Mülk yerdə qalacaq; heç kəs gedəndə binaları dalına şələləyib apara bilməyəcək. Aramyanı görmədüz, şahanə saray tikdirdi, özü getdi, mülk qaldı, xanəndə Seyidə qismət oldu». Su gedər, qum qalar.

...Bir neçə adam küçədə Hacıya rast gəlir. Hacı soruşur: «Nə var, nə yox?». Deyirlər ki, «Hacı, neçə gündür şəhərdə bir dənə də olsun təzə balıq tapılmır. Kömək eləyin». Hacı deyir: «Arxayın olun, bu günlərdə şəhərə balıq gətirərlər». Sabahı günü faytona minib gedir vətəgələrindən birinə. Balıqçılar Hacını görəndə əl-ayağa düşür, torlarını yığır, canla-başla çalışırlar. Hacı təzə tutulmuş, çapalayan bir balığı gətizdirir, barmağındakı brilyant üzüyü çıxardıb məftillə balığın quyruğuna bənd etdirib dənizə buraxdırır.

Bu xəbər bütün vətəgələrə yayılır. Balıqçılar quyruğunda brilyant üzük olan balığı tutmağa cəhd edirlər. İki gündən sonra şəhər bazarlarına o qədər şamayı, kütüm, som, sazan, çapağ, leş, osetrin, sevryuqa, qızıl və ağ balıq gətirirlər ki, tərpənmək olmur.

Hacı pula güvənib yolundan azmamaq üçün bənnalıq etdiyi baltanı imarətindəki iki otaq seyflərdən birinin divarından qapı ilə üzbəüz asıbmış ki, hər açanda görsün və o günlərini yadından çıxarmasın...

Xalq artisti Sidqi Ruhulla deyirdi ki, «Hacı palçıq daşıyan zamanlarda yaşca ondan böyük Murad adında usta köməkçisi ona çox mehribanlıq göstərir, tez-tez palçıq dolu çanaxı götürüb onun başına qoyurmuş, nərdivana qalxanda qolundan yapışıb həyan olurmuş; dostlaşırlar. Murad elə sonralar da bənna olaraq qalır, Hacı olur milyonçu.

Bir dəfə rast gələndə Murad söhbətarası deyir ki, Hacı, camaat danışır ki, Tağıyev birdən-birə alış-verişdə 50.000 manat qazanıb; axı bu necə olur?

Hacı deyir: «Usta Murad, on gündən sonra Parisə yola düşürəm, get hazırlaş, səni özümlə ora aparacağam».

Vaxt çatanda gedirlər Parisə. «Luvr» mehmanxanasına düşürlər. Usta Murad məəttəl qalır. Yeni aləm ona əfsanə, xəyal kimi görünür. Restoranda nahar edəndə Hacı sifariş verir ki, ən əla növ kürü gətirin. Bir azdan abı rəngli dəmir qutunu gətirib açırlar. Bu beş girvənkə (2 kiloqram) kürü olan qutunun

üstündə iri hərflərlə Q. Z. A. Tağıyev yazılmışdı. Murad məəttal qalır ki, Hacının burada da adı-sanı var.

Bir axşam, üç nəfər mehmanxanaya gəlib Tağıyevdən xahiş edir ki, Hacı, biri gün olacaq hərraca gəlməyin, Parisdən çıxın gedin, sabah 100.000 manat pulu sizin şəxsi hesabınıza keçirib, sənədləri sizə təqdim edərik. Sizin təkcə adınız müzayidədə bizim işləri alt-üst edə bilər.

Hacı razılaşır, sabahı gün banka keçirilən 100.000 manatın sənədlərini alıb, usta Muradla bərabər yollanır Romaya və söhbətarası deyir: «Usta Murad, gördün, birdən-birə yüz min manatı necə qazanıram? Atalar boş yerə deməyib ki, pulu pul qazanar, igid oğul palçıq tapdalayar...».

Usta Murad bir neçə ildən sonra dilənçi gününə düşür. Onu tanıyanlar məsləhət görür ki, get Hacıya de, sənə kömək eləsin. Utanır. Axırda naəlac qalıb yanına gedir. İçəri buraxmırlar. Ha dil tökür, yalvarır, nəticə hasil olmur; nəhayət, təhdid edir ki, gedib teleqram vuracağam, onda sizi tənbeh edər. Qapıdakı gözətçilər, qoçular onu qabaqlayıb Hacıya xəbər verirlər ki, bənna Murad adlı bir nəfər gəlib...

Hacı deyir: «Usta Murad? Buraxın gəlsin!». Başa salırlar ki, içəri buraxılası deyil, cır-cındır içindədir....

Hacı tapşırır ki, onda göndərin hamama, alt və üst libasını dəyişdirin, gətirin yanıma. Elə də eləyirlər. Köhnə dostlar görüşür. Ordan-burdan söhbət edirlər. Murad dərdini Hacıya deyir, ondan kömək istəyir.

«Usta Murad, səni bəzzaz dükanına qoyacağam, göz-qulaq olarsan».

Bənna Murad boyun qaçırdır ki, bacarmaram...

«Bacararsan, - deyə Hacı onun sözünü kəsir, - əlaltılar işləyəcək, sən də baxacaqsan».

Rəssam Əmir Hacıyev nəql edirdi ki, Tağıyev Qərbi Avropadan bir neçə məşhur rəssamın əsərini baha qiymətə gətizdirmişdi. Ayvazovski onun sifarişilə bir neçə tablo çəkmişdi, onlardan biri «Bosfor» adlı kompozisiya idi. Başqa bir dəniz mənzərəsi də «Tufana düşmüş gəmi», indi Bakıda R. Mustafayev adına İncəsənət muzeyindədir.

Müəllim Əliməmməd Mustafayev deyirdi ki, Oru-sov qardaşları Nikolayevski (Kommunist) küçəsindəki mağazalarının vitrinində iki şəkil qoymuşdular satmağa. Biri «Bibiheybət məscidi», o birisi «Çeşmə başında» idi. Birincisinə beş yüz manat, ikincisinə üç yüz manat qiymət qoymuşdular. Hər ikisini də Əlibəy Hüseynzadə rəsm etmişdi. Müəllimlərin yığıncağında Həbibbəy Mahmudbəyov deyir ki, Əlibəyin, görünür, əli aşağıdır, öz çəkdiyi əsərləri satır, gəlin adambaşı on manat qoyaq «Çeşmə başında»kı şəkli alaq, püşk atarıq, kimə düşdü, olar onun malı. Elə də elədilər. «Çeşmə başında»kı şökildə meşənin içində, bulaq başında yaşlı bir adamın namaz qılması təsvir edilmişdi. «Bibiheybət məscidi»ni isə Bakıdakı ingilis konsulu Mak Donnel alıb Londona göndərmək istəyirdi. Dükana girib sifariş verir ki, şəkili sabah

gətirin İçərişəhərə - ingilis konsulxanasına. Bu söhbəti «Bəradərən Orusovlar»ın böyük qardaşı o axşam Bakı milyonçularından birinin evində olanda danışır. Milyonçu beş yüz manat verib deyir ki, həmin əsəri sabah göndər bizə. Bibiheybət məscidinin şəkli qoy Bakıda qalsın, gedib Londona düşməsin. Buxara əmiri padşahdan icazə alıb Peterburqun göbəyində məscid tikdirir, biz Bakı müsəlman dövlətliləri də ona kömək edirik. Qədim məscidimizin şəkli öz şəhərimizdə qalmalıdır.

Bakı milyonçularından biri də Ağa Musa Nağıyev idi. O da başqa milyonçular kimi, amansız, istismarçı, üstəlik, həddindən ziyadə xəsis, malını yeməyən idi. Var-dövlətdə o, Hacıdan heç də geri qalmırdı. Hətta üstün idi. Axır vaxtlarda Tağıyevin tanxası beş-altı milyon, o da əmlak və əşyadan ibarət olduğu halda, Musa Nağıyevin varı-dövləti yetmiş milyon manat qızıl pula çatmışdı. Ağa Musanın adı gələndə Balzakın təsvir etdiyi Qobsek xatırlanır. Ağa Musa Avropa kapitalist tamahkarlığının və xəsisliyinin Şərq variantıdır. Milyonçu Ağa Musa «əfsanəvi» bir şəxsiyyətə dönmüşdü. «Cəmiyyəti xeyriyyə» üçün şəhərin mərkəzində əzəmətli «İsmailiyyə» binasını ucaltmağına, bu mülkdən bir qədər yuxarıda Realnı məktəbinin inşasını öhdəsinə alıb yarımçıq qalmış üçüncü mərtəbəsinin xərcini ödəməyinə, şəhər kənarında (indiki Semaşko) xəstəxananı tikdirdiyinə və Bakı su kəməri üçün xeyli pul verməyinə baxmayaraq camaat tərəfindən xəsis sözü ilə damğalanmışdı.

Ağa Musa cavanlıqda adi hambal imiş, dalında palan biri üç qəpiyə, beş qəpiyə ona-buna şələ daşıyarmış; neft hesabına milyonçu olmuş neftxuda idi. Şəhərdə həm çoxlu mülk tikdirdi və həm də yenisini aldı; yüzə qədər əzəmətli bina və neçə-neçə gəmi sahibi idi, (Bakıda evi çox olanlara mülkədar deyirdilər).

O, uzun müddət Bayır şəhərdə, Qasım bəy məscidinin arxasında, Spaski (Qasım İsmayılov) küçəsi ilə Kimnazist (L. Tolstoy) küçəsinin tinində ikimərtəbəli binada yaşayırdı. Evin tinindəki daş fanara - «Səng fanar» deyirdilər. Daş fanara qırmızı, yaşıl, abı, firuzəyi şüşələr salmışdılar; axşamlar ətrafa əlvan şəfəqlər saçardı. Uşaqlar toplaşıb «Sənk fanar»a heyran-heyran, maraqla tamaşa edərdilər. Təmtərağı sevən deyildi, şan-şöhrətdən məst olmazdı, artıq xərcdən, israfçılıqdan boyun qaçırardı.

Deyirlər İshak Qaraxanov adında bir dəllək hər həftə evə gəlib Musanın saqqalını qırxar, başını düzəldərdi. Dəllək bir dəfə yerə döşənmiş xalını göstərib deyir ki, xozeyin, dövlətli adamsan, bu xalını bağışla mənə. Ağa Musadan görünməyən səxavət, işlər müdirinə tapşırır ki, bir belə xalı al ver ustaya. Bir dəfə dənizdə bərk tufan olur, çoxlu gəmi batır, Ağa Musanın gəmilərindən birinin kapitanı gəlib xəbər verir ki, yükü və gəmini zorla xilas etmişəm, (bir qoyun) qurban kəsməyi nəzir demişəm, icazə ver... Ağa Musa bərk dilxor olur, kapitanı başlayır məzəmmət eləməyə: «Çox nahaq yerə, atam,

atam, mənim hesabıma niyə qurban nəzir edirsən. Belə vaxtlarda əhd elə ki, bir həftə oruc tutaram, gəmidə xozeyin hesabına yox, öz hesabıma yeyərəm».

Gəmilərin komandası, səfər zamanı sahibkarın hesabına yeyib-içir, məvacib də alırdılar.

Bir nəfər neftli torpaq ələ keçirdib, quyu qazdırır. Neft isə çıxmır ki, çıxmır. Əlindəki var-yox qurtarır. Qohum-əqrəbadan borc alır, yenə neft çıxmır. Usta və fəhlələr işi yarımçıq qoyub gedir. Kimə ağız açır, pul verən olmur. Axırda məcbur olub gedir Ağa Musanın yanına, vəziyyəti ona danışıb, borc istəyir. Ağa Musa onun xahişini rədd edir. Əlacsız qalıb tanınmış ağsaqqallardan, sözü keçən ruhanilərdən bir neçə nəfər götürüb təzədən Ağa Musanın yanına xahişə gedir. Xeyli söhbətdən sonra gəlirlər mətləb üstə, Ağa Musa deyir: «Atam, atam, zəhmət çəkib gəlmisiz, bu cəncəl adama mən pul etibar edə bilmərəm... Desəm ki, yoxumdur, yalan olar. Varımdır. Amma vermirəm».

Axund söhbətə qarışır, üz vurur: «Ağa Musa, əl tutmaq Əlidən qalıb. Kömək elə, yazıq dara düşüb, müsəlman qardaşdır, əsirgəmə, bir-iki min manat borc ver, sözümüzü yerə salma».

Ağa Musa azca fikirləşib deyir: «Atam, atam, yaxşı, üz vurursunuz, sözünüzü yerə salmıram... Amma bir şərtim var. O şeyi ki, borcu istəyəndə pulumun əvəzinə mənə göstərəcək, qoy onu elə indidən göstərsin ki, sora mənə ağır gəlməsin».

Adamlar gülür. Axund danışmaq istəyəndə Ağa Musa onun sözünü kəsir: «Atam, atam, dedim qurtardı. Bir də deyirəm, indi görsəm sonra məni o qədər də ağrıtmaz...».

Şəhərin mərkəzində tikdirdiyi binalar hazır olanda Ağa Musa müsəlman arvadını və uşaqlarını Tarqovı (Nizami) küçə ilə Marinski (Karqanov) küçəsindəki əzəmətli binaya köçürdür. Özü isə milliyyətcə gürcü olan ikinci arvadı ilə Telefonnı (28 Aprel) küçəsində yerləşən binanın ikinci mərtəbəsini tutur. Məclislərdə gürcü qızını camaata təqdim edəndə rus dilində kələ-kötür deyərdi: «Наш жена...». Zarafatcıllar daldada onu ələ salırdılar: «Nə olar, II Nikolay həmişə «я» əvəzinə «мы», bir də: «Я и Россия». «Мы и Россия» deyirdi Ağa Musa da «наш жена» deyir. Özünü çar Nikolaya oxşadır». Ağa Musa arvadını мая Амалия çağırırdı.

Mantaşev bir dəfə söhbət əsnasında öyünür ki, Parisdən yola düşməmiş Puankare mənim şərəfimə təntənəli raut düzəltmişdi.

Ağa Musa soruşur: «O Raut Puankaranın neçə buruğu var? Nə qədər neft çıxardır gündə!».

«Raut adam adı deyil, qonaqlıqdır, məclisdir. Puankara neft çıxarmır. - Mantaşev izah edir. - O, Fransanın prizidenti, upravlyaşisidir».

«Əh! Nə böyük matah imiş pravlyaşi... Mənim hər mədən başı bir pravlyaşim var, - deyə Ağa Musa ağzını əyib, eyhamla gülür. - Gözləri elə

əlimdədir; ömrümdə, dünyasında onlara qonaq getmərəm. Pravlyaşi nədir ki, ona qonaq da gedəsən?!».

Ağa Musadan xoşu gəlməyən adam soruşanda ki, işlərin nesədir, qəsdən heç bir mənası olmayan: «işlərim Nobelinki kimi - baca enli, güdəy, nə qədər istəsək qara tüstü, göz çıxardır...» cavab verərmiş. Heç kim bilməzdi ki, mədənlərdən nə qədər neft hasil edir, bağlı fontan var ya yox. Çənlərdə, anbarlarda nə qədər neft var, haçan satacaq. Əşyanı alanda qəpik təklif edərdi, satanda isə eyni şey üçün manat istərdi. Saçını rəngləmək üçün həna ilə basma qaranın girvənkəsinə (400 qram) bir şahıdan (5 qəpik) artıq verməzdi; deyərdi ki, 1870-ci ildə o qiymətə alırmış, Baqqallar da ona satdıqları hənaya, rəngi çox, hənanı lap az qatardılar.

Ağa Musa mədənə gəlir, görür ki, kontorun yanında divar hörən bənna və fəhlələr nahar fasiləsinə çıxıb, işə yaramayan taxtalardan ocaq qalayıb qızınır, çörək yeyir, söhbət edirlər. İş icraçısı papiros bükür, kibriti alışdırıb yandırır. Ağa Musa deyir: «Bala, sabahdan işə çıxma, get kontora haq-hesabıvı al». İş icraçısı çaşır: «Niyə, Ağa Musa?..». Ağa Musa: «Ona görə ki, qabağında o boyda ocaq - papirosu yandırmırsan, nahaq yerə kibriti zay edirsən, öz maluvun qədrini bilmədiyin halda, mənim malımın qədrini heç bilməzsən».

Bir dəfə milyonçuların arvadları Cəmiyyəti-xeyriyyədə «İsmailiyyə» binasında ziyafət düzəldirlər, bir-birinin bəhsinə geyinib, bəzənib gəlirlər... Deyilənə görə, həmin ziyafəti təsvir etmək mümkün deyilmiş, ləl-cəvahirat, platin-qızıl içində üzən qadınların gülüş və qəhqəhələri binanın möhtəşəm salonlarında əks-səda yaradırmış. Ağa Musanın gürcü arvadı, bəzəkdə, geyimdə, cəvahiratda birinci yeri tutur. O, başdan-başa zümrüd içində imiş, hamısı da güllər-çiçəklər, quşlar, pərvanələr şəklində; ayaqqabıları bərk vururmuş. Gürcü qızı foyeyə girəndə hamı heyrətdən içini çəkir, donub qalır. Bu əhvalat şəhərdə uzun müddət söhbət mövzusu olur.

Neftxuda Mantaşovun işlər müdiri Qriqori Aleksandroviç Qazarbekov deyirdi ki, birdən xəbər yayıldı ki, bəs Ağa Musa şəhərdə səkkiz əzəmətli bina tikdirir. Dördünü Telefonnı (28 Aprel) küçəsində, birini Kaspi (L. Şmidt) küçəsində. Bir mülk də Tarqovı (Nizami) küçəsi ilə Marinski (Karqanov) küçəsinin tinində, biri opera teatrının yanında, yeddi mərtəbəli «Novaya Avropa» (Göy-göl) mehmanxanası, Qarçakov (Malıkin) küçəsində, biri də şəhərin qırağında, indiki Semaşko adına xəstəxananı...

Bu binaları tikməyi ev podratçısı Hacı Qasımova tapşırmışdı. Azərbaycanlı milyonçular evlərini tikməyi ona podrata verirdilər. Hacı Qasımovun özünün də şəhərdə bir neçə iri binası vardı.

Bədxahlardan biri, aranı vurmaq, işi pozmaq üçün gedib Ağa Musaya xəbər verir ki, Hacı Qasımov sənin evlərinin hesabına özünə də Stanislav (Lenin prospekti) küçəsində Bakı texniki məktəbi ilə üzbəüz dörd mərtəbəli, böyük imarət tikdirir. Sənin səkkiz mülkünün hesabına doqquzuncunu özünə

tikdirir. Ağa Musa gülüb deyir: «Atam, atam, məndən heç kəs, heç nə oğurlaya bilməz... Hacı Qasım o mülkü material aldığı adamların hesabına tikdirir; məndən səkkiz bina üçün aldığı pula, doqquz binanın materialını alır, hər səkkiz daşa bir daş, səkkiz dirəyə bir dirək, səkkiz mismara bir mismar... Bənna və əmələlərlə də eynilə. Mən mülklərimə sərf edilən şeyləri, hətta yivləri, mismarı əlimlə bir-bir yoxlamamış təhvil götürmürəm. Bunu podratçılar, mənimlə alver edənlər çox yaxşı bilir...».

Hacı Qasımovun podratla bina tikmək kontoru ilə yanaşı böyük ticarət mağazaları vardı, hər növ inşaat materialı satırdı. Dünyanın hər yerindən mal gətirtdirirdi. Böyük mağazalarından birisi texniki məktəblə üzbəüz olan mülkün altında idi; cənuba baxan divarda böyük hərflərlə yazılmışdı; "Parket - Döşəmə".

Qriqori Aleksandroviç Qazarbəyov danışırdı ki, Mantaşov mənə tapşırmışdı ki, müsəlmanların, Hacı Zeynalabdin Tağıyevin adı ilə bağlı bütün xeyir-şər mərasimlərinə gedərsən və o məclislərdə pul əsirgəməzsən. Bir dəfə dəvətnamə aldım ki, müsəlman Cəmiyyəti-xeyriyyəsində mərasim olacaq. Qoltuq ciblərimdən birinə yüz manat, o birisinə isə 800 manat pul qoydum getdim «İsmailiyyə»də. Foyeyə girəndə mənə sarı gələn xanımın gözəlliyinə, üst-başındakı ləl-cəvahirata valeh oldum. Durduğum yerdən tərpənə bilmədim, elə bil məni ovsunlamışdılar. Bu, Hacı Zeynalabdinin arvadı Sona xanım idi; gözəllikdə və səxavətdə məşhur idi, xeyriyyə işlərinə çox kömək edərdi. Onu müşayiət edən iki qızın əlində məcməi vardı; birisində ipək lent parçaları, o birisində isə pul... Ləl-cəvahirat içində üzən Sona xanım məcməidən bir ipək lent nişanı götürüb döşümə taxdı; mən qeyri-ixtiyari qoltuq cibimdəki pulu çıxarıb, dəvətnamənin arasına qoydum və məcməiyə saldım. Bu vaxt Ağa Musa Nağıyev göründü. Sona xanım onun da döşünə bir nişan taxdı. Ağa Musa cibindən bir göy üç manatlıq çıxardıb əli əsə-əsə məcməiyə atdı. Sona xanım gülümsəyib dedi: «Ağa Musa, bir az əvvəl oğlun Ağa İsmayıl məcməiyə bir yüzlük qoydu, sən isə...» Ağa Musa xanımı sözünü tamamlamağa qoymadı: «Atam, atam, o verər, ona nə var, o mənim oğlumdur, milyonçu Ağa Musanın oğlu... Sona xanım, mən kimin oğluyam? Saman satan biləcərili Nağının...». Qazarbəyov deyirdi ki, bayırda qoltuğumu yoxlayanda baxıb gördüm ki, xanımın gözəlliyinə, üst-başındakı cəvahirata valeh olub, çaşdığımdan 100 manat əəzinə, məcməiyə 800 manat salmışam.

Rusiyada oxuyan azərbaycanlı tələbələr üçün pul yığanlar Ağa Musanın yanına gedirlər; o da çıxardıb üç manat verir. Deyəndə ki, Tağıyev 200 manat verdi, Ağa Musa cavab verir: «Hacı dövlətli adamdır, o, əlbəttə verər. O, beş yüz də verə bilər... Atam, atam, mən kasıb babayam, məndə o qədər tanxa hardan!».

«Qış klubu» adlanan əzəmətli bina və ona bitişik «Astoriya» mehmanxanası da Musa Nağıyevinki idi, çoxlu mənfəət götürür, kirə alırdı.

Ağa Musanın qardaşı oğlu Nağı Nağıyev bir gecə «Qış klubu»nu bağlatdırıb ziyafət vermişdi. Əliaçıq adammış; əmisi də xatirini çox istərdi. Ağa Musa bəzən qumar otağında həmişə oturduğu kresloda əyləşər, qumar oynayanlara baxar, arabir mürgüləyərdi; var-yoxunu uduzanlar, dəryada batan saman çöpündən yapışan kimi Ağa Musa oturan kresloya tərəf qaçar, ətəyindən tutub yalvarmağa başlardı. O isə, halını pozmadan bircə kəlmə ilə qərarını deyərdi. Hamı bilərdi ki, qoyduğu şərti göy yerə ensə də dəyişdirə bilməz. Bu yolla on minlərlə manat pul, iri imarətlər, neftli torpaq, mədən və zavodlar, gəmilər onda bir, iyirmidə bir qiymətinə dəyər-dəyməzinə Ağa Musanın polad caynağına, amansız pəncəsinə keçərdi. Qumar ayağında doğma qardaş belə dada çata bilmirdi.

...Banket və məclislərdə hər kəs varına və nüfuzuna görə ayrılan yerdə, göstərilən stulda otururdu. Künclərdə dəllallar və iş düzəldənlər, yan tərəflərdə zavod sahibləri, ortada isə bankirlər, maliyyə nəhəngləri, neftxudalar əyləşərdilər. Hər stolun arxasına qoyulan stulların qoyuluşunda bir məna vardı. Salon özlüyündə iqtisadi xəritəyə oxşayırdı. Sərvətin artması və azalması ilə ildən-ilə bu xəritəyə əl gəzdirilərdi; birdən küncdəki, heç kəsin vaxtilə saymadığı nəzəri cəlb etməyən dəllal gözlənilmədən mərkəzə köçərdi və əksinə, mərkəzdə ən mötəbər yerdə əyləşənlər yoxa çıxardı, Bəzən xəritə hər an təshih olunar və yerlər dəyişərdi. Öz yerində daimi oturanlar on-on beş nəfər idi; mövqeləri heç vaxt dəyişməzdi.

Güzgülü salondakı girdə ziyafət stolunun dövrəsində ancaq nəhəng neftxudalar və bankirlər oturardılar.

Qab-qacaq gümüşdən, billurdan və farfordan olurdu.

Ziyafət zamanı bir-birinin sirrini, planını, maliyyə gücünü və buraxılacaq aksiyanın miqdarını min bir yolla öyrənməyə cəhd edərdilər.

Əli aşağı olan adamlar Ağa Musaya dövlət bankına veriləcək vekselə (zəmanət kağızına) qol çəkdirmək üçün əvvəldən bir balaca qumar məclisi düzəldər və Musaya beş-altı manat qəsdən uduzub kefini kökəldəndən sonra zəmanət kağızını imzaladardılar. Bəzən onu restorana qonaq aparırlarmış. Bir kənarda oturub, bir tikə çörək üstünə kotlet qoydurub yeyərmiş ki, atam, atam, mən toxam, iştahım küsüb. Heç bir dilənçi ona əl açmazdı, bilirdilər ki, faydasızdır.

Borc istəyənlərə deyirmiş ki, pul işinə mən baxmıram... Pravlyaşim Fətulla bəy baxır... Beləliklə, yaxasını qurtarırmış...

1914-cü ilin maliyyə hesabına görə Musa Nağıyevin qızılla yetmiş milyon manata yaxın tanxası varmış. Mirasın ümumi dəyəri bundan qat-qat çox imiş. 1919-cu ildə varislər Musa Nağıyevin mirasını bölüşdürmək üçün məhkəməyə ərizə verirlər. Məhkəmə üç dəfə işə baxır. Ruhani cəmiyyəti də tələb edirdi ki, Ağa Musa şiə məzhəb olduğuna görə, sərvətin ondan biri məscidə verilməlidir, rəsmi iddia təqdim etmişdilər. Bu əhvalatdan varislər

yaman narahat olmuşdular; ruhani idarəsinin iddiasını rədd etmək üçün, sübut elədilər ki, vaxtı ilə Ağa Musa məhkəmədə şahid sifətilə çıxış edəndə Qurana and içməkdən boyun qaçırdıb, Bəhayi kitabına əl basıb, qəsəm edib. Elə buna görə də o, vəfat edəndə məsciddən cənazəni müşayiət etməyə az adam gəlmişdi.

Yeri gəlmişkən qeyd edək ki, Bakıda Bəhayi məzhəblilər də vardı, onlar xüsusi məscid tikdirmişdilər. Bu minarəsiz məscid Çadrovı (Mirzağa Əliyev) küçəsindəki mülkdür, qapısı və iri pəncərələri mavi boya ilə rənglənmişdir. Bəhayi məzhəbi bu rəngi və rəngləri hesab edir. Məscidin həyət tərəfindəki şüşəbənd eyvanı da mavi rənglə boyadılıb. Küçədəki baş qapının üstündə pirani bir qocanın qorelyefi də var.

Təəccüblü orasıdır ki, bəhayilər Musa Nağıyev kimi ayıq, ehtiyatlı, hiyləgər bir adama məharətlə təlqin etmişdilər ki, bu məzhəbi qəbul eləcə ölməyəcək. İnanırdı da. Bir dəfə Tağıyevin evində eyvana çıxır və Hacını da çağırır yanına, tikdirdiyi yeddi mərtəbəli «Yeni Avropa» (Göy-göl) mehmanxanasını (o zaman Şəhərdə yeganə yeddi mərtəbəli mehmanxana idi) göstərib deyir: «Zeynalabdin, əyər ölsəydim, mən o mülkü tikdirməzdim, o qədər xərc tökməzdim, mən ölməyəcəyəm».

Maraqlı orasıdır ki, İranda camaat arasında ölməyəcəyi elan edilmiş bəhayiləri İran Şahı tutdurub, meydanlarda, camaatın gözü qabağında dar ağacından asdırırdı və sübut edirdi ki, ölürlər.

Bəhayi qanununa görə sərvət ölənin arvadı, uşağı və nəvələri, qohumları və iyirmidən bir hissəsi maarif işləri üçün paylanmalıdır. Məhkəmə qabaqca çox çətinlik çəkir, axırıncı iclasda iki nəfəri - müsəlman və gürcü arvadlarını vərəsə təsdiq edir.

Ona işləyənlərə maaş vermək üçün Ağa Musanın öz üsulu vardı. Kontorda divarda hər mədən, gəmi və mülk üçün iki torba asmışdı: gəlir torbası, çıxar torbası. Pul üçün gələnlər çıxar torbasına qoyulmuş pulu götürüb aparırdılar. Elə ki, mədən müdiri, kapitan, mülk müvəkkili, Ağa Musaya deyirdi ki, torbada pul yoxdur...

- Atam, atam, - deyə Ağa Musa onu qoymazdı ki, sözünü qurtarsın, - gəlir torbasına pul salmısız ki, çıxar torbasından götürə biləsiz? Məndə havayı pul hardan?! Qazanc verin, atam, atam, xərclik alın.

Bir nəfər gəlib Musa Nağıyevə deyir ki, bir mis mədəni satırlar Zəngəzurda, onu alsan yaman qazanarsan. Ağa Musa soruşur: «Mis də, neft kimi fontan vurur?». Adam təəccüblə deyir: «Mis də fontan vurar?! Əlbəttə yox!». Ağa Musa: «Elə isə o mədən mənə lazım deyil. Mənimki fontandır. Atam, atam, qaranlıq yerin altında iynə ilə kor qaza-qaza mis axtarmaq karıma gəlməz» - deyə cavab verir.

Qoçular iki dəfə Ağa Musanı oğurlayıb öldürməklə hədələmişdilərsə də xeyri olmamışdı. Bir dəfə faytona basaraq gözlərini bağlayıb, aradan

çıxardırlar, gizli mənzilə gətirib on min manat tələb edirlər. Ağa Musa özünü itirməyib deyir: «Min manat verə bilərəm, bir qəpik də artıq yox». Ölümlə təhdid edəndə halını pozmadan deyir: «Atam, atam, öldürün. Bir mini də ala bilməzsiz, o da əlinizdən çıxar». Nə qədər soyuqqanlı, səbrli, təmkinli olmaq lazımdır ki, belə dar ayaqda qorxub təşvişə düşməyəsən. Üç gün girov saxlayıb, yedirdib-içirdib, kart oynamışdılarsa da min manatdan artıq boynuna qoya bilməmişdilər.

Bibiheybətdəki mədənində bir quyu güclü fontan vurur; fəhlələrə yalvarıb deyirmiş ki, «başınıza dönüm, qoymayın neft hədər yerə axsın, zay olsun; sizə xələt verəcəyəm. Yanğın baş versə hamımız dilənçi olarıq. Qonşular nasos qurub neftimizi anbarlarına vurarlar... Axı, bu sizin cibinizdən gedir».

Fəhlələr birtəhər fontanı bağlayırlar. İki gündən sonra Musadan vəd etdiyi xələti istəyəndə, o, boyun qaçırıb deyir: «Atam... Atam, hardan?! Hardan verim xələti?! Bir az neft çıxdı, onu da qonşular gözünüzün qabağında talan elədilər...». Sabahı gün Musanın oğlu Ağa İsmayıl mədənə gəlir. Fəhlələr şikayət eləyirlər ki, atan verdiyi vədə əməl etməyir. Ağa İsmayıl iki araba kəllə qənd gətizdirir və hər fəhləyə bir kəllə qənd, beş manat pul paylatdırır. Bu vaxt Ağa Musa da gəlib çıxır. Əhvalatdan xəbər tutduqda, yüyürüb deyir: «Atam, atam, mənim də payımı verin. Fontanı bağlayanda məndən çox can yandıran olmayıb. Az qalmışdı canım ağzımdan çıxsın. Gedib o dünyanı görüb qayıtmışam».

Ağa Musanın adı camaat arasında xəsis çıxsa da, yuxarıda qeyd edildiyi kimi, o, birinci realnı məktəbin hamiliyini boynuna almışdı, ildə hazırlıq sinfinə iyirmi beş müsəlman uşağını əlavə qəbul etdirməyə nail olmuşdu. Bunun nəticəsində az bir zamanda məktəbdə müsəlman şagirdlərinin sayı əlli faizə çatmışdı.

Bibiheybətdə Ağa Musanın mədənində qazılan quyuların hamısı güclü fontan vururdu; bu da onu göstərirdi ki, zəngin neft təbəqələri, körfəz suları altına da uzanır. Elə ki, bələdiyyə idarəsi su altındakı neftli torpaqları hərraca qoydu, milyonçular ağla gəlməyən qiymət təklif edirdilər. Neftin pudu bir abbası (20 qəpik) olduğu halda, 100.000 pud neft üçün ildə xəzinəyə 300.000 manat verməyə zəmanət kağızına qol çəkirdilər. Neftin hər pudu üç manata düşürdü, bu qədər böyük xərci ödəməyə onları vadar edən zəngin, milyonlarla ton neft saxlayan təbəqələrə yiyələnmək idi, onlar əmin idilər ki, bu sərvət xərcini çıxardacaqdı. Heç kəs qonşuluqda başqa sahibkarların olmasını istəmirdi. Mədən sahibləri quyuları qonşunun sərhəddində qazdırırdılar ki, mümkün qədər nefti tez çıxarsınlar... Özləri də quyunu qazmağa bərk tələsirdilər. Buruq ustalarına rüşvət verirdilər ki, qonşu sahədə qazmanı yubandırsınlar; qonşuda quyu hansı balta ilə qazılır, gil məhlulunun xüsusiyyətlərini, təbəqələrin özünü necə «aparmasını», neft təbəqəsinə rast

gəldikləri dərinliyi, bir sözlə bütün texnologiyanı pul gücünə öyrənirdilər... Sahibkarlar neftli torpağı əldən çıxarmamaq üçün tez-tez xəzinəyə cərimə verməyə razı olurdular.

Bibiheybətdə Naftalan körfəzi başdan-başa neft idi, sudan hər addımbaşı qaz qaynayırdı. Adamlar qayıqda hərlənib vedrəyə neft yığır, çəlləklərə doldurub satırdılar. Bəzən nadinc cavanlar kağız və ya cındır parçalarını alışdırıb atardılar körfəzə, qaz qaynayan yerlərdə dənizdən alov qalxardı. Novruz qabağı, çərşənbə axşamları, bir də kənardan gələn adlı-sanlı qonaqların şərəfinə belə atəşfəşanlıq düzəldirdilər. Məşhur fransız yazıçısı Düma Bakıda olanda belə bir atəşfəşanlığa tamaşa etmişdi...

«Dənizçi əllərinə bir ovuc çəpitgə götürüb, yoldaşının tutduğu fanarda alışdırıb dənizə tulladı. Bir anda gəmimizin ətrafını alov bürüdü. Dəniz alışıb yanırdı. Nabələd adam göyərtədə papirosunu alışdırıb yanan kağız parçasını dənizə tullasa şübhəsiz ki, hər yanda suyun yandığını gördükdə dəhşətə gələr. Onun o anda nələr çəkdiyini yaxşı təsəvvür edirəm.

Gəmimiz od-alov içində üzürdü. Xoşbəxtlikdən alov o qədər də güclü deyildi. Zəif idi. Güclə duyulurdu. İlk təəssüratımız azalandan sonra, ətrafımızdakı qəribə mənzərəyə tamaşaya başladıq, Dənizdən elə bil ləkələr şəklində ala-tala alov ucalır, yan-yörəyə sirayət edirdi. Alov ləkələri on iki adam otura biləcək stol boyda idi; bəziləri daha iri idi, nohuru xatırladırdı. Biz bu alov adacıqlarının yanından ötürdük. Kapitan arabir avar çəkənlərə gəmini alov nohurlarının ortasından sürməyi əmr edirdi, Belə qeyri-adi, əcayib, sehranə mənzərəyə dünyada heç yerdə rast gəlmək mümkün deyil. Külək get-gedə güclənir, ləpələr şahə qalxmağa başlayırdı. Xəzri qopmasaydı, çox güman ki, səhəri burda açardıq. Elə ki, külək bərkidi, əvvəl xırda alovlar, sonra da iriləri sönməyə başladı.

- Vaxtında Bakıya qayıtmaq lazımdır, - deyə kapitan Freyqan zarafatla əlavə etdi, - yoxsa gördüklərimiz əcayib mənzərənin sirrini öyrənmək üçün dənizin dibini axtarmalı olarıq.

Sirlər aləmindən uzaqlaşdıq. Külək gəmimizi Bibiheybətdə Fatimə məscidi olan yerə sürükləyirdi. Avar çəkən səkkiz nəfər dənizçi alovu söndürən küləyə üstün gəlir, istənilən səmtə irəliləyirdilər. Külək son alovları da söndürdü.

Biz onların necə yoxa çıxmasını izləyirdik. Onlar tez-tez dalğaların altında gizlənir, gah da ləpələrin zirvəsinə dırmanırdı, bir də yox olurdu.

Limana çatanda bir dənizçi fitili yandırdı. Bu şərti işarə imiş. Əvvəl Freykel gəmisi, onun dalınca Bakı limanında lövbər salmış başqa hərb gəmiləri çıraqlarını alışdırdılar. Çıraqban gəmilərin arasından keçib sahilə yan aldıq.

Belə dəbdəbə, təmtəraqla yalnız imperatorları qarşılayırlar. Mənlə Moyne isə adi sənətkarlar idik. II Aleksandr istisna olmaqla heç bir hökmdar

ölkəsində, bizim kimi adi, sadə sənətkarlar üçün belə maraqlı mərasim düzəldə bilməzdi. Bu incəsənətin təntənəsidir. Belə çıxır ki, incəsənət hamıdan üstündür.

Bakı - «küləkli diyar». Avropada Bakıya bərabər şəhər yoxdur».

Birdən şəhərə xəbər yayıldı ki, neftxudalar Naftalan körfəzini qurudub mədən salmaq niyyətindədirlər. Peterburqa - çarın özünə ərizə yazıblar. Ərizəyə rədd cavabı gəlib. Neftxudalar senata şikayət edib istədiklərinə nail olurlar, şirkət düzəldirlər. Pay sahiblərindən biri də Ağa Musa idi.

Körfəzi qurutmaq üçün beynəlxalq müsabiqə elan edilir. Müxtəlif ölkələrdən otuza qədər layihə göndərilibmiş. Sədd çəkib Naftalan körfəzini Xəzərdən ayırmaq və çuxurda qalan suyu nasoslarla dənizə axıdıb, yerinə torpaq doldurmaqla mədən salmağı qət edirlər. Əsrin əvvəllərində işə başladılar. Gəmilər bir milyon kubmetr daş-kəsək daşıyacaqdı. Əməliyyat 1917-ci ilə qədər davam etdi. Sonrakı illərdə burada qurutma işləri dayandırıldı. Bu işə bir də 1921-ci ildə başlandı. İyirmi üçüncü ildə qazılan quyulardan biri güclü fontan vurdu. Qurulan sahə neft seli altında qaldı... Qəfildən yanğın qopdu. Şəhər əhalisi neftçilərə köməyə gedib, yanğını söndürdülər.

Ağa Musanın özünə oxşayan Manuçar Xristoforoviç Avakov adında xəsis bir erməni dostu vardı. Professor Apresov deyirdi ki, Manuçar Qarabağdan Bakıya əlində dəyənək, ayağında cırıq çarıq, əynində yırtıq çuxa, başında şeytan papaq, cibləri boş gəlmişdi. Sabunçuda bir qədər arabaçı olur, sonra meyxana açır, neftli torpaq ələ keçirir, «bəxti» gətirir, dayaz bir quyu fontan vurur, milyonçu-neftxuda olur. Apresov söyləyirdi ki, bir dəfə Avakovun quyusu fontan vurur, mühəndis fəhləni göndərir ki, anbardan tez on arşın kanat gətirsin, Manuçar həmişə cibində gəzdirdiyi dəmir arşını çıxardıb başlayır əlləri əsə-əsə kanatı ölçməyə. Fontan daha da güclənir, buruq az qalır uçsun. İşin belə məqama çatdığını görən mühəndis özü qaçır anbara, Manuçarı yana itələyir, baltanı qapıb, qəzəblə kanatın kələfini fırladıb kanatı kəsir, fəhlə ilə bərabər buruğa tərəf sürütləyir.

***Nobel qardaşları.*** Bir çox xarici şirkət Rusiyada dirçəlməkdə olan neft sərvətini istismar etməyə çalışırdı, əsas diqqət mərkəzində, əlbəttə Bakı idi; 8 ingilis, 3 fransız, 2 isveç, 2 alman, 2 belçikalı, 1 Danimarka və başqa şirkətlər Azərbaycanın qara qızılını xaricə daşıyıb aparırdılar. İş o yerə çatmışdı ki, 1898-ci ildə neft mədəni və zavodu ələ keçirməkdən ötrü Bakıya 30-a qədər ingilis kapitalisti gəlmişdi. Amerikanın Rusiyadakı səfirinin arvadı da onlara qoşulmuşdu, özü ilə güclü pul və iki nəfər meft mütəxəssisi gətirmişdi. «Standart oyl» şirkətinin sahibi Rokfeller özünün xüsusi nümayəndəsi Tvidilini hələ 1878-ci ildə Bakıya yollamışdı.

Bakıda ilk xarici şirkəti Nobel qardaşları yaratmışdı, Emanuel Nobel 1843-cü ildə İsveçdən Rusiyaya gəlib, zavod açıb silah istehsalına başlayır və

sualtı mərmilər hazırlayır. Krım müharibəsi zamanı Peterburq və Kronştatda ingilis hərbi gəmilərinə qarşı bu mərmilərdən istifadə edirlər. Nobellər hərbi qayıqlar üçün buxar maşınları da qayırıb satırdılar.

Krım müharibəsi qurtarandan sonra dövlət sifarişləri kəsilir, Nobel iflasa uğramaq təhlükəsi qarşısında qalır; borclarını manat yarım əvəzinə bir manat vermək şərtilə müflis olmaqdan birtəhər yaxasını qurtarır. Arvadı və iki oğlu Alfred və Elmar ilə Peterburqdan vətənə qayıdır; kimya laboratoriyası açır. Laboratoriyada partlayış baş verir və Elmar həlak olur. Alfred o dövr üçün ən dəhşətli və dağıdıcı maddə hesab edilən dinamiti kəşf edir, Dünyanın ən zəngin adamlarından biri olur; öləndə 50 milyon frank miras qoyur. Ölümündən qabaq həmin pulun müəyyən faizindən Nobel mükafatını təsis edir.

Lyüdviq və Robert Peterburqda qalıb Nobel qardaşlarının şirkətini yaradırlar. Zavodlara maşın və cihazlar satırlar, yenə hərbi nazirliklə əlaqə yaradırlar. İjev şəhərindəki silah zavodunu da icarəyə götürüb 7 il müddətində rus ordusuna 200.000 tüfəng verməyi boyunlarına götürürlər. Almaniyadan tüfəng qundağı üçün baha qiymətə gətirilən qoz ağacı Nobel qardaşlarına o qədər də sərfəli deyildi, Peterburq ətrafında isə qoz ağacı bitmədiyindən bunu ölkənin müxtəlif zonalarında axtarırlar. Mütəxəssislər xəbər verirlər ki, belə ağac Qafqazda, Lənkəran meşələrində çoxdur. Lyüdviq balaca qardaşı - Robert Nobeli Lənkərana göndərir. O da bələdçilərlə meşələri gəzib qoz ağacı massivi axtarır. Lənkəranda belə massiv tapa bilmir, kor-peşmən geriyə qayıdır. Yolüstü Bakıda qalır. Qaraşəhər və Ağşəhəri, neft mədənlərini gəzir. Maliyyə, sənaye, iqtisadi vəziyyəti öyrənir, əsl sərvət mənbəyinin Bakıda olduğunu kəşf edir. Peterburqa məktub -göndərib qardaşı Lyüdviqə xəbər verir ki, perspektiv cəhətdən tükənməz dövlət burda - Bakıdadır. Buruqlardan gecə-gündüz qızıl axır burada. Şirkət yaratmağı ondan israrla təkid edir.

Lyüdviq yaxın maliyyə dostlarından baron P. A. Bilderlinq, F. A. Blyümberq, A. S. Suldqeren, B. F. Vunderlinq, İ. Y. Vabelski, M. Y. Belyamini toplayıb «Nobel qardaşları» şirkəti düzəldir (diqqət yetirin, şirkətdə bir nəfər də olsa nə rus və nə də rus təbəəsi var). Robertə Bakıya lazımi vəkalət və pul göndərilir ki, mədən və zavod alsın.

Robert bütün gecəni səksəkəli yağmışdı; qorxurdu ki, yatıb qalar, yerli sənayeçilər ona kələk gələ bilər, müzaidədən əli çıxar. Ayağa qalxanda pəncərədən bayıra baxır. Hava tutqun idi. Səs-küy, fayton, araba çarxlarının sırıltısı, piyada gedən adamların ayaq tappıltısı eşidilirdi. Ona elə gəlir ki, hamı bir səmtə müzaidə yerinə tələsir.

Cəld yuyunub geyinir, bufetdə ayaqüstü qəlyanaltı edib, mehmanxanadan çıxır. Hərrac yerinə çatanda əməliyyatın başlandığını görür. Adam əlindən tərpənmək olmurdu; elə bil burada Asiya və Avropa libaslarının sərgisi keçirilirdi: əba, çuxa, hərbi şinel, dənizçi gödəkçisi, arxalıq, ləbbadə, kostyum, papaqlar, qotazlı osmanlı fəsi, girdə iranlı papağı... Hər sinifdən

nümayəndə: tacir, neftxuda, zavod sahibi, hərbi, mülki məmurlar, axund, dəllal, molla, keşiş, kəndli, sənətkar, avara, fırıldaqçı, dirəkçi, vəkil, həkim, mühəndis... bir sözlə burada nə cür sənət sahibi desən tapa bilərdin. Səsdən qulaq batır, baş çatlayırdı...

Meydançada dayanmış saqqallı kişi: «Altı yüz manat, bir...» deyə qışqırdı və çəkisi mis lövhəyə endirdi.

Kənardan kim isə: «Altı yüz əlli!..» təklif etdi. səs-küy qopdu. Qiymət get-gedə min üç yüz manata qalxdı.

Aleksey adlı mədən sahibi qardaşı ilə çənə döyürdü. Birdən xəbər yayıldı ki, satılan torpağın qonşuluğunda gecə fontan vurub... Səs-küy qopdu...

...Qiymət 2.800 manata qalxmışdı. Müzaidəçinin sözü ağzında yarımçıq qaldı, çəkici mis lövhəyə vurmağa macal tapmırdı. Üç min bir deyəndə araya sükut çökdü... Çəkicin cingiltisi aydın eşidildi.., Üç min iki!..

Birdən kim isə astadan yığılanların başa düşmədiyi bir lisanda dedi: «Fyunf tauzend... Fyunf tau-zend...».

Buradakılar deyilən sözlərin mənasını anlamağa çalışdılar. Birdən dilmanc qışqırdı: «Beş min manat təklif edir cənab Nobel...».

Camaatın elə bil üstünə su ələndi. Hərracçının çəkici havada bir anlığa dayandı, sonra lövhəyə tərəf endi. Mis lövhə elə cingildədi ki, elə bil zarıdı...

Şaşqınlıqdan sükut daha da artdı. Birdən mədən sahibi Aleksey tacirlərin arasından özünə yol açıb meydançaya yaxınlaşaraq bağırdı: «Üçüncünü, üçüncü çəkici vurma! Bu nə cənabdır?! Bu nə cənabbazlıqdır? Bakı kimindir? Urusların! Biz sözə inanmırıq. Qoy pulunu çıxartsın ortaya qoysun! O yer, mənim mədənimə paz kimi soxulub. Mən almaq istəyirəm. Qoy pulu çıxarsın. Pulu verəndən sonra çəkici vurarsan! Bəlkə öz dilində bizi ələ salır».

Dilmanc deyilənləri tərcümə etdi. Hamı maraqla işin necə qurtaracağını gözləyirdi. Robert halını pozmadan ala-bula qalstukunu düzəldib, tələsmədən gümüş papiros qutusundan siqar götürdü, alışdırdı, heç kəsə məhəl qoymadan qoltuğundan çıxardığı çek kitabçasına xırda, səliqəli hərflər və rəqəmlər yazdı: «L. və R. Nobel qardaşlarının vəkalətilə Robert Nobel»... Çeki dilmanc vasitəsilə hərracçıya ötürdü...

Sonra Robert Qaraşəhərdə neft təmizləyən zavod da aldı.

Onlar az bir müddətdə Suraxanı, Balaxanı və Bibiheybətdə mədən sahibi oldular. Ağşəhərlə Qaraşəhər birləşən yerdə geniş bir yeri icarəyə götürüb neft təmizləyən, kükürd turşusu, mis, çuqun əridən zavodlar və körpülər tikdirdilər. «Nobel qardaşları» öz firmalarının 5 illiyini bayram edəndə onların ümumi kapitalı 3.000.000 manata yaxın idi. Ümumi məbləğ şəriklər arasında belə bölünmüşdü: Nobellər - 1.610.000 manat, Baron P. A. Bilderlinq - 930.000 manat, F. A. Blyumberq - 25.000 manat, A. S. Suldqeren -

5.000 manat, B. F. Vunderlinq - 5.000 manat, İ. Y. Vabelski - 135.000 manat, M. Y. Belyamin - 25.000 manat.

Ağşəhərdə 1882-83-cü illərdə firmanın qulluqçuları üçün xüsusi «Villa Petrolea» («Neft bağı») saldılar. Zavodlardan qalxan tüstülərin, irili-xırdalı, gümüşü rəngə çalan dəyirmi rezervuarların, gecə-gündüz ətrafa buxar sovuran qurğuların arasından görünən bu «Gülüstan» bağı qəribə bir aləm idi. Onu salmaq üçün Varşavadan məşhur mütəxəssis E. Beklini dəvət etmişdilər. Məlum oldu ki, bu yerlər neft və tullantı ilə korlanıb. Buraya torpaq gətirmək lazım idi. Çox keçmədi ki, Lənkəranın qara torpağı ilə yüklənmiş gəmilər Qaraşəhərdəki körpülərə yan aldı. Qara torpağı arabalarda bağa daşıdılar. Əkilən ağacları, kolları və çiçəkləri sulamaq üçün Həştərxandan su gətirdilər. Bağda Beklinin təklifilə Lənkəran, Tiflis, Batum, Rusiya və Avropanın müxtəlif yerlərindən gətirilmiş 80.000 ağac və bəzək kolları əkmişdilər. Bağbanlar onları səliqə ilə qayçılayıb, buralarda o zamana qədər görünməmiş geometrik, konusvari, kubaoxşar, piramidavari, çadır və alaçığa bənzər formalarda bəzəyirdilər. Fəvvarə vuran çarhovuzlar eyni zamanda şirin su saxlamaq üçün istifadə edilirdi.

Bünövrəsi daş, birinci və ikinci mərtəbələri ağacdan olan binalar tikdirdilər; ən böyük binanın alt mərtəbəsində kontor, üst mərtəbədə isə klub və əyləncə otaqları, kitabxana yerləşirdi. İsveçli mühəndis və qulluqçular kottejlərdə firavan yaşayırdılar. Buraya Peterburqdan heykəl, rəsm əsərləri, büst, çoxlu kitab gətirtmişdilər.

Mənzillərini və otaqlarını bəzəyən Azərbaycan və İran xalı-xalçaları əsl mədəni, aristokrat həyat tərzindən xəbər verirdi.

Nobellər yüksək maaşla ən bilikli, ən bacarıqlı mühəndisləri, iqtisadçıları, alimləri şirkətlərinə cəlb etmişdilər. Mütəxəssis və qulluqçular isveçli idilər: ruslara, xüsusilə də müsəlmanlara yuxarıdan baxırdılar: rus təbəələrini məsul işə yaxın qoymurdular: yalnız ağır və çirkli işləri onlara tapşırırdılar. Yüz milyon manatlar talan edib apardıqları halda Bakıda bir dənə də olsa gözə dəyən mülk tikmədilər.

O yerlərdə ki, neft güman edilirdi, Kür düzənliyində, Qobustan ovalığında, Xəzəryanı düzənlikdə, Xəzər akvatoriyasında sahə icarəyə götürüb ehtiyatda saxlayır, lazımi yerlərdə quyular qazdırır, axtarış-kəşfiyyat aparırdılar.

Son vaxtlar Abşeron adaları neft milyonçularının və vətəgə sahiblərinin diqqətini özünə cəlb etmişdi. Nobel qardaşları vaxt itirmədən «Pirallahı» adasını icarəyə götürüb buruq salırlar və 1904-cü ildə zəngin neft yatağı kəşf edib mədən qurdular və yatağı istismara başladılar. Kiçik bir balıqçı kəndi qısa müddət ərzində sənaye qəsəbəsinə çevrildi.

«Pirallahı» adasında çalalardan, əl ilə qazılan dayaz quyulardan hələ qədim zamanlardan neft götürülürdü. Burada «Atəşgah» və «Pir» varmış ona

görə də Pirallahı deyirdilər, buraya hər tərəfdən - şəhər və kəndlərdən ziyarətə gəlirdilər.

Camaat kinayə ilə Pirallahıya «Nobel Saxalini»adını vermişdi.

Nobellərin Bakıda bir baş idarəçisi və müxtəlif sahə üzrə müavinləri vardı.

Mədənlərdə hasil edilən neftin hamısını zavodlar təmizləyə bilmirdi. Saxlamağa da yer yox idi. Ağ nefti istehsal edəndən sonra yerdə qalanları dənizə axıdırdılar. Məşhur rus kimyagəri Mendeleyev Bakıda olanda bu mənzərədən dəhşətə gəlir və deyir ki, bu, gündə milyon manatlarla qızılı yandırıb kül etməyə bərabərdir, bu, milli sərvətə qarşı vəhşilikdir, hətta bu barədə hökumətə xüsusi etiraz məktubu da yazır.

Nobellər isə ağ nefti hasil edəndən sonra, qalan yanacağı iri həcmli, dəyirmi çənlərdə saxlayır, ondan milyonlar qazanırdılar. Tez-tez Qaraşəhər və Ağşəhərdəki digər zavodları icarəyə götürür, öz məhsullarını təmizləyirdilər.

Bayaq dediyimiz kimi, güclü fontanlar zamanı neftin dəyəri birdən-birə aşağı düşür, maliyyə çətinliyi törənir, xırda mədənçilər torpağını satmağa vadar olurdular. Nobellər onlara «mərhəmət» əlini uzadıb, ədəni dəyər-dəyməzinə alır, şikəst düşənləri çıxılmaz, ağır vəziyyətdən «xilas» edirdilər.

Kapitalistlər bu tükənməz sərvəti at-araba ilə daşıyıb qurtarmağın mümkün olmadığını dərk eləyəndə başladılar (1878-ci ildə) Balaxanıdan Qaraşəhərə neft kəməri uzatmağa. Bu yolla neftin zavodlara daşınması 7 dəfə ucuz başa gəlirdi.

Şəhərdən Balaxanıya gedən yol boyu at qoşulmuş arabalar Amerikadan gətirilmiş boruları daşıyır, onlar yoxuşu qalxdıqda, enişə düşdükdə aşmasın deyə, dəstə ilə fəhlələr səs sala-sala arabalara «dayaq» olurdular. Layihə əsasında minlərlə fəhlə xəndək qazır, kərpic divarlar ucaldırdılar. Podratçılar, iş icraçıları at üstündə işlərə nəzarət edir, fəhlələri tələsdirir, söyür, tez-tez atdan düşüb yumruq, şallaq-tatarını işə salırdılar.

Bu kəmər şəhər və mədənlərdə böyük iğtişaşa, dava-dalaşa səbəb oldu. Beş mindən çox neft daşıyan arabaçı, minlərlə çəlləkçi, tuluqçu tətil edib, işi saxladılar və tələb etdilər ki, kəmər sökülsün... Hətta kəməri neçə yerdən zədələdilər, sındırdılar, nasos stansiyasını xarab etdilər... Hökumət işə qarışdı, tətilçilərin üstünə atlı kazaklar göndərdi... Adamları tutub dustaqxanaya saldı. Atlı kazaklar kəməri gecə-gündüz qoruyurdular. Başqa sahibkarlar da kəməri uzatmağa başladılar və altı-yeddi ildən sonra mədənlərdən zavodlara, körpülərə neft vurulurdu. Gəmilərdə Rusiyaya, İrana, Türküstana, Batuma, Rostova vaqonlar çəlləklərdə neft daşıyırdılar.

Çəlləklərdə, tuluqlarda dəvə karvanı ilə ucsuz-bucaqsız Rusiyanı neftlə təmin etməyin, onu dünya bazarına çıxarmağın çətin olduğunu nəzərə alan kapitalistlər dəniz və okeanlar üçün tankerlər, dəmir yolu üçün sisternlər

düzəltdirməyə, bu yolla neft daşınmasının sürətini artırmağa çalışırdılar. 3.000 ton neft daşıyan bir tanker 9.000 çəlləyi əvəz edirdi.

Nobellər bilirdilər ki, texnikanın təkmilləşdirilməsi, iqtisadi cəhətdən üstünlük qazanmaq, nəqliyyat sürətini artırmaq üçün var-dövlət rəqabətində qələbənin əsas rəhnidir. Bütün layihə işləri, təcrübə zavodları, emalatxana və konstruktor bürolarındakı işləri, tədqiqat və nəticələri son dərəcə məxfi saxlayırdılar, sifarişləri gizli yerinə yetirirdilər.

Volqaətrafı şəhərlərdə tacirlər Nobellərə körpü tikib çən qurmağa, kontor açmağa mane olurdular. Nobellər müxtəlif hiylələrə əl atıb onları da pay sahibi edir, öz tərəfinə çəkir, tələyə salırdı.

Qaz fanarları və lampalarının icadı ilə ağ neftə ehtiyac və tələb qat-qat artdı. Yol olmayan yerlərdə isə Nobellər xırda çay gəmiləri və barkazlarla neft daşıyıb satırdılar. Şəhərlərdə, qəsəbə və stansiyalarda, yolayrıclarında, qayalarda qəribə-qəribə şüarlara rast gəlmək olardı: «Ağ neft qaranlıtlara ziya saçır», «Ağ neft ən şiddətli şaxta, soyuq və qarda insanların dadına çatır», «Əsrimiz ağ neft əsridir» və s.

Nobellər mazutdan yanacaq kimi istifadə etməyə başladıqdan sonra odun, kömür, torf və başqa yanacaqların qiyməti xeyli aşağı düşdü.

Təkcə Bakıda yox, Şimali Qafqazda - Qroznıda, Maykopda da mədənlər ələ keçirib «qara qızıl» əldə edirdilər. 1909-cu ildə Maykop neft mədənlərində qızğın iş gedirdi. Dünyanın hər yerindən buraya gəlirdilər. Neftə yiyələnmək məqsədilə milyonlarla xərc çəkilir, kapital qoyulurdu. Nobellərin tamahı hüdudsuz idi. Kazan şəhərindən tutmuş Quryevə qədər uzanan ərazidə çoxlu torpaq icarəyə götürüb ehtiyatda saxlayırdılar.

Birinci dünya müharibəsi ərəfəsində Nobellər Qroznıda neftdən emal edilən «Toulol» partlayıcı maddə zavodu tikdirdilər. Rusiyanın dəniz donanmasının çoxu onlarınkı idi, təkcə Rusiyada yox, Avropa, Hindistan, Çin, İran və digər ölkələrə də neft məmulatı satırdılar.

Nobel qardaşlarını başqa sahibkarlardan fərqləndirən o idi ki, onlar işçilər üçün «yaxşı» şərait yaratmışdılar. «On saatlıq iş günü» elan edib, əslində isə fəhlələri on bir saat işlədirdilər. Fəhlələrin məişəti başqalarınkından guya fərqli idi. Müsəlman fəhlələri üçün namaz qılmağa, dini ayinləri keçirməyə otaq da ayırmışdılar. İşçilərinə ev tikməyə möhlətə borc verirdilər, dərmanxana və müalicəxana açmışdılar.

Onu da qeyd etmək lazımdır ki, Nobellər yerli hökumətlə, idarələrlə o qədər də hesablaşmırdılar, Geoloji komitənin Bakıda xüsusi nümayəndəsi Dmitri Vasilyeviç Qolubyatnikov proqnoz vermək üçün Abşeron yarımadasının geoloji xüsusiyyətini öyrənib, geoloji və yeraltı təbəqələr üçün struktur xəritələri, profil və kəsilişlər qurduqda mədənlərin sahibləri ona lazımi material, sənəd və məlumat verdikləri halda Nobellər heç bir alimi yaxına

buraxmırdılar. Qolubyatnikov əlacsız qalıb Bibiheybətdə xüsusi quyu qazdırdıqdan sonra istənilən elmi nəticəni aldı.

Nobellərin əsas iqamətgahı Peterburqda tikdirdikləri imarət idi; birinci mərtəbə kontor, üst mərtəbə mənzil idi; pəncərələri I Aleksandrın öldürüldüyü yerdə alabəzək mozaikalı qranitdən tikilmiş xatirə-məbədə, kilsəyə baxırdı.

Lyüdviq Nobel söhbətlərindən birində demişdi ki, dövrümüzdə əsl kral və hökmdar neft mədəni və zavodların sahibləridir.

1905-ci ildə Bakıda baş vermiş inqilab hərəkatı günlərində Peterburqda yaşayan Nobellərdən biri gileylənib şikayətlənmişdi ki, biz nə türkük, nə də rus, amma elə gün olmur ki, mədən və zavodlarımızda fəhlələr iğtişaş salıb maşın, avadanlıq sındırmasınlar.

Ürəyimiz Bakıdadır, bizi iflis vursa ordan vuracaq.

Murtuz Muxtarov da neft hesabınız varlananlardan biri idi, kontor açıb, mədən sahibləri üçün sifarişlə quyu qazırdı. Yüzə qədər dəzgahı, çoxlu avadanlığı və mühərrikləri, maşınları, yüzdən çox yük atı, arabaları, furqonları vardı. Mədən sahibi olmaq üçün Ağcaqabulda torpaq alıb quyu qazır, neft axtarırdı. Birinci dünya müharibəsi onun arzusunu ürəyində qoydu. Özü ixtiraçı idi, düzəltdiyi «Muxtarov» adlı qazma dəzgahı bütün dünyada məşhur idi; bu dəzgah çox ölkələrə ixrac edilirdi.

Cavanlıqda arabaçı olub mədənlərdən çəlləkdə şəhərə qara neft daşıyıb satırmış. Deyilənə görə, aldığı ağ atın ayağı ona «düşür» və get-gedə varlanıb dövlət sahibi olur. O ağ atı da sərtövlədə saxlayıb, kişmişlə, ləbləbilə bəsləyirmiş, arabaya qoşmazmış.

O, Əmircan kəndində doğulubmuş, nəsilliklə rəncbər və arabaçı imişlər. Dəmir yolu olmayanda, payızda, qışda araba karvanı ilə Bakıdan Tiflisə kirayə ilə yük daşıyarmışlar. Özü 1870-ci ildə arabanı satıb Balaxanı-Zabrat kəndləri ətrafında salınan mədənlərdən birində fəhləliyə başlayır; sonralar dolla dayaz quyulardan neft çıxardır. Güclü və dözümlü, sərt və qorxmaz adam imiş.

Maraqlı orasıdır ki, Bakıda olduğu kimi, Amerikada da (Rokfeller və s.) ilk neft milyonçularının çoxusu əvvəlcə buruqlarda fəhləlik, sonra usta köməkçisi, usta və nəhayət milyonçu olmuşdular.

Quyuları mexaniki üsulla qazmağa başlayanda Muxtarov buruqda adi fəhlə işləyir. Səhər alaqaranlıqda kiçik qardaşı Bala Əhmədlə bərabər Əmircandan Zabrata piyada gedib axşam, çıraqlar yananda dala qayıdardılar. O zamanlar mədənlərdə pul qazanmaq insanın dözümü, iradəsiylə bağlı idi.

Martov adlı bir sahibkar Muxtarovdakı dözümü, iradəni nəzərə alıb ona mexaniki alət və cihazların sirrini öyrədir, onu tezliklə usta təyin edir, mədən emalatxanasını da ona tapşırır. O vaxtlar neft mədənlərində quyuları ağac və taxtadan quraşdırılmış Kanada dəzgahları ilə qazırdılar. Dərinə getdikcə bu dəzgahlar tez-tez xarab olurdu. Murtuz yarım mexanikləşdirilmiş

«Molot» dəzgahında bir neçə dəyişiklik eləyir. Sahibkar qocaldığından Zabratdakı qazma avadanlığı emalatxanasını ona satır. Murtuz artıq qazma zamanı quyularda tutulan alət və cihazları xilasetmə ustası kimi ad çıxartmışdı.

Məşhur Azərbaycan neftçisi, usta Piri (Quliyev) deyirdi ki, Ağa Murtuz bir dəfə faytonda bağa gedəndə qəflətən atları saxlatdırıb, yaxınlıqda qazılan buruğun ustasını yanına çağırtdırır və deyir ki, qazmanı saxla, qəza baş verə bilər, borular boş-boşuna fırlanır. Usta soruşur: «Nədən bilirsən?» Murtuz deyir ki, alətlərin səsindən. Qazmanı dayandırıb yoxlayanda görürlər ki, doğrudan da borular Murtuz deyən kimi hədər yerə fırlanırmış.

Maşınların səsindən, balta və boruların ahəngindən, avadanlığın gurultusundan, quyunun dərin qatlarında vəziyyəti müəyyənləşdirmək insandan peşəkarlıq, fərasət və vərdiş tələb edir.

Mühəndislərə maaş verib öz savadını və texniki biliyini əsrin tələbinə uyğun artırır. Çertyoj çəkməyi, sxem qurmağı öyrənir. Mürəkkəb cihaz, dəzgah, avadanlıq və maşınları mühəndislərdən heç də pis bilmirdi.

Sahibkar olandan sonra dövləti daha da artır. Şəxsi qazma kontorunu hələ 1890-cı ildə açmış və get-gedə böyütmüşdü.

Murtuz Muxtarov podrat götürüb, 1.100 metr dərinlikdə quyu qazır. O zamanlar kövrək, yağlı və sairə süxurlarda quyu qazmağı möcüzə hesab edirdilər. 1895-ci ildə dünyada ilk dəfə metal ştanqlarla zərbə qazma dəzgahını quraşdırır və bunun üçün dövlət patenti alır. O bu ixtirasına «Bakı qazma sistemi» adı verir. Həmin dəzgahın əvvəlkilərdən üstünlüyü çox idi. Onun bir sıra digər ixtirası da vardı. Muxtarov on doqquzuncu əsrin axırlarında Bibiheybətdə qazma avadanlığı zavodunu işə salır. Bu, Rusiyada ilk neft avadanlığı müəssisəsi idi. Zavodun yaxınlığında fəhlə və qulluqçular üçün üçmərtəbəli yaşayış binaları tikdirir; bununla da həm işçi qüvvəsini ətrafına toplayır, həm də əlavə gəlir əldə edirdi.

Muxtarov zavodun buraxdığı dəzgah və avadanlığı Rusiyaya və xarici ölkələrə satırdı. Özü də xaricdən, xüsusilə Amerikadan çoxlu maşın, cihaz, alət və avadanlıq alırdı. Hətta inqilabdan sonra da onun adına avadanlıq göndərirdilər.

Təkcə Bakıda yox, Maykop və Qroznı neft mədən sahiblərilə də müqavilə bağlayıb quyu qazırdı; zavod və mədənlərlə, konstruktor büroları ilə texniki və işgüzar əlaqələri vardı; tez-tez Şimali Qafqaza gedirdi.

Bir dəfə dəmir yolu stansiyasında görür ki, perronda çərkəzi libasda iki leytenant yerə xalça sərdi, canamaz açdılar. Pirani bir general, o da çərkəzi libasda başladı namaz qılmağa. Murtuz Muxtarov onun kim olduğu ilə maraqlanır və öyrənir ki, vladiqafqazlı tanınmış general Tuqanovdur. Tanış olur, dəvətini qəbul edib Vladiqafqaza, evlərinə qonaq gedir. Nəhayət, generalın ortancıl qızı Liza xanımla evlənib, qohum olurlar. Bakıya qayıdanbaş həmin stansiyanın restoran sahibinə deyir ki, bu gün burada nahar edənlərin

hamısının xərcini mən verəcəm. Mən onları qonaq edirəm. Vladiqafqazda qoşa minarəli, qoşa eyvanlı, əzəmətli bir məscid tikdirir. Əmircanın qocaları bir dəfə ona rast gələndə deyirlər ki, «Ağa Murtuz, çox sağ ol, uşaqlara məktəb tikdirdin, biz yaşlılar üçün də aduva layiq bir məscid tikdir, allaha xoş gedər, cavab olar. Ata-ananın ərvahına dua oxuyarıq, həm də səndən bu kəndə yadigar qalar. «Baş üstə!» deyib Ağa Murtuz əlini aparır gözlərinin üstünə. Vladiqafqazda tikdirdiyi məscid kimi Əmircanda da qoşa minarəli, hər minarəsi qoşa balkonlu bir məscid tikdirir.

Sənədləri imzalayanda nadir hallarda, familiyasını bütöv şəkildə yazardı, adətən üç hərfdən ibarət «Mux...» cızardı. Adamlar deyərdi ki, yüz min manatlar onun üçün milçək kimi bir şeydir.

Liza xanımla Avropa səyahətinə gedirlər. Venetsiyadakı binaların arxitekturası neftxudanı valeh edir. Və onlara oxşar bir sarayı Bakıda bir il ərzində (1911-1912) tikdirir. Sarayın hər sütunu, tağları, buta və gülləri, pəncərə və qapıları, bəzəklərinin hamısı təkrarolunmaz sənət əsəri, memarlıq incisidir. Neftxuda pul əsirgəmədiyi kimi memar da ilham, ustalar də səy və əməklərini əsirgəməyiblər. Sarayı arxitektor Ploşko fransız kotik üslubunda layihələşdirib.

Murtuz Muxtarovun bu mülkünü ev podratçısı Hacı Qasımov icarəyə götürüb başa çatdırır.

Bir dəfə yenə də Beslanda, restoranda oturub nahar edir və qatarı gözləyirmiş. Birdən qaçhaqaç düşür: «Zəlim xan gəlir...», «Zəlim xanın süvari dəstəsi stansiyaya basqın edir...» sözləri ağızdan-ağıza keçir.

Neftxudanın yanındakı adam deyir ki, «ağa, at da var, kareta da, hazırdır, dur qaçaq!».

«Heç yerə gedən deyiləm!» deyə o cavab verir. «Sən də otur».

Çox çəkmir, salon boşalır, atlılar stansiyanı araya alırlar. Salonda oturmuş iki adamın geyimi və görkəmi Zəlim xanın diqqətini cəlb edir; adam göndərib onu yanına çağırtdırır. Neftxuda təklifi rədd edir. Süvarilər onu öldürməyə Zəlim xandan icazə istəyirlər. O razılaşmır, özü neftxudaya yaxınlaşır. Muxtarov stulu çəkib ona yer təklif edir: «Əyləş, qonağım ol!» deyir. Qonaq sözü Zəlim xanın xoşuna gəlir, oturur. Dostlaşırlar. Sonralar bir-birinə hədiyyələr göndərirlər. Zəlim xan mərdlik əlaməti kimi ona bir gümüş xəncər və zər qotazlı bir başlıq da yollayır.

Çar hökuməti Zəlim xanı öldürəndən sonra, neftxuda adam göndərib onun oğlunu və qızını Bakıya gətizdirir, xeyli qonaq saxlayır; hər ikisini Peterburqa, öz xərcinə oxumağa göndərir. Oğlan aqronom, qız isə həkim olur.

Həyətlərdə gəzib mahnı oxuyan Fatma adlı bir qız Muxtarovun diqqətini cəlb edir, onu qızlığa götürür, ona öz familiyasını verir, musiqi təhsili almağına kömək göstərir. Sonralar Fatma Muxtarova respublikanın adlı-sanlı sənətkarı olur.

Üç nəfər cavan oğlan kasıb tələbələr üçün pul toplayanda Murtuza da müraciət edirlər. Neftxuda deyir ki, bilirsiniz nə var, mən ömrümdə heç kəsə boş yerə pul verməmişəm. Sizə bir şey öyrədim. Mənə veksel verin, borc alın, şəhərdə bir bəzzaz dükanı açın, başlayın alış-verişə; dükanı da özünüz idarə edin. Belə bir tələbələr dükanı mən Peterburqda görmüşəm. Yaxşı mənfəət götürürlər. Peterburq və Moskva manufakturaçılarının üstünə məktub yazaram, güzəştlə, ucuz qiymətlə kreditə, möhlətə sizə mal buraxarlar. Elə ki, mayalandınız, pulumu qaytararsız.

Tələbələr razılaşmır, əliboş çıxıb gedirlər. On yeddinci ilin əvvəllərində çar taxtdan salınır. Azadlıq tərəfdarları Nəriman Nərimanovun yanına gəlib şikayət edirlər ki, ay doktur, bəs bu bərabərlik harda qaldı, nə vaxt olacaq? Odur Şəmsi Əsədullayev təzə quyular qazdırıb gündə milyon putlarla nöyüt götürür. Nərimanov cavab verir ki, qoy qazsın, hamısı bizə qalacaq. İkinci dəfə Musa Nağıyevin təzə mülk aldığını xəbər verirlər. Doktur yenə deyir: «Fikir eləməyin, qoy alsın, bizə qalacaq». Üçüncü dəfə Hacı Zeynalabdin Tağıyevin fabrikdə təzə sex açdığını söyləyirlər, yenə də həmin cavabı verir.

1919-cu ildə bir neçə nəfər gəlib Səmədağa Ağamalı oğluna şikayət edir ki, Mailov təzə vətəgələr düzəldir, Dadaşov qardaşları gəmi tərsanəsini böyüdür, daha bu nə hürriyyət oldu? Ağamalı oğlu da cavab verib ki: «Fikir eləməyin, doktor Nəriman doğru deyib, qoy eləsinlər, bizə qalacaq».

Şəmsi Əsədullayev də Bakı neftxudalarından biri idi. Əmircan kəndindəndir; ata-babadan onlar da rəncbər və arabaçı olublar. Suraxanıda buğda və arpa əkirlərmiş; biçindən sonra arabaçılıq edər, yük daşıyıb kirə alarlarmış. Dəmir yolu olmayanda, onlar da araba karvanı ilə Tiflisə, oradan da Bakıya kirayə mal daşıyarlarmış.

Neftin ecazkar qüdrətindən milyonçu olur, həm neft mədəni, həm də neft daşıyan dəniz və çay donanması düzəldir. Şəhərin mərkəzində əsas fasadı Qoqol küçəsinə, digər iki yan fasadların biri Gimnaziya (Tolstoy) küçəsinə, digəri Karantin (həzi Aslanov) küçəsinə baxan əzəmətli bina tikdirir. Başqa binaları da vardı. Xəzər dənizi sahillərinə və Volqaboyu şəhərlərə öz gəmilərində neft daşıtdırıb satdırardı. Camaat arasında Şəmsi Əsədullayevə Nobellərin qənimi deyirdilər. Çünki bütün Rusiyada, Türküstanda, İranda, hətta Finlandiyada belə Nobellərin dükanı və kontorları ilə üzbəüz, ya da ki, yanaşı kontor və dükan açıb Nobellərdən ucuz qiymətə neft satar və ona mane olardı.

Oktyabr ayının axırlarında Volqada naviqasiya bağlananda Bakıda neftin qiyməti xeyli aşağı düşürdü; böyük neftxudalar, o cümlədən Şəmsi də, xırda mədən sahiblərindən nefti ucuz alıb anbarlara vurar, yazda naviqasiya açılanda daşıtdırardı Rusiyaya.

Şəmsinin Bakıda bir müsəlman, Moskvada isə Mariya Pavlovna adlı rus arvadı, birinci arvaddan iki oğlu və qızları vardı. Mariyanın atası çar

ailəsinə yaxın senator idi. Bakı neftinin tükənməz qızılı, bir də qohum senatorun köməyi ilə bağlı qapılar Şəmsinin üzünə taybatay açılırdı. Bütün bunların hesabına Peterburqda Neva çayı sahilində, Qış sarayı yaxınlığındakı məhəllədə əzəmətli bina ucalda bilmişdi. Moskvada Mariya üçün içərisində çarhovuz və oranjereya olan təmtəraqlı mülk almışdı. Hər il Avropa şəhərlərinə, yaylaqlarına istirahətə, səyahətə gedirdilər.

Böyük oğlu və müsəlman arvadı Mariyaya görə dava-şava salır, yola getmirdilər,

Şəmsi qış aylarını, adətən, çox vaxt Moskva və Peterburqda yaşayar, tacirlərlə müqavilələr bağlayar, Novruz qabağı Bakıya qayıdar, satdığı nefti müştərilərə yola salardı; Mərdəkandakı yaraşıqlı malikanəsində yaşayar, qohum-əqraba, dost-aşna ilə gününü eyş-işrətdə keçirdərdi; o gün olmazdı ki, əzəmətli binanın orta günbəzi üstündəki mildə ştandart yellənib dörd bir tərəfə ziyafət məclisinin davam etdiyi xəbərini verməsin.

Qocaman buruq ustası, əmək veteranı Mövsüm kişi nəql edirdi ki, yazın əvvəli idi. Novruz bayramından bir az keçmişdi, qohumum Murtuz Muxtarovun bağında idim; əlimdə bel bağçada gülləri sulayırdım, qəfəslərdəki min bir avazla oxuyan quşlara dən, ceyran və marallara yem verirdim. Quşlar da, heyvanlar da, çiçəklər də elə bil baharı salamlayırdı. Nökər yaxınlaşıb dedi ki, Murtuz ağa sizi çağırır. Getdim. Murtuz şüşəbənd eyvanda oturmuşdu; məni görəndə dedi: «Oğul, Ağa Şəmsi Məskodan qayıdıb, bağdadır. Get malakeş usta Məsməliyə xəbər ver, axşamüstü gəlsin, gedək Ağa Şəmsiyə baş çəkək. Usta Məsməli söhbətcil kişidir, xoşməcazdır. Şirin danışır».

Axşamüstü getdik Şəmsinin bağına. Nərd oynayırdı. Mehriban-mehriban görüşdük. Başladı təzədən nərd atmağa. Qaşqabağı yerlə gedirdi. Gödək-boy, gombul, tüklü bir kişi idi. Bizə çay gətirdilər. Birdən uzaqda paroxod fit verdi. Malakeş Məsməli dedi: «Ağa Şəmsi, paraxodundur a, fit verir, elə bil səni haylayır. Fiti min gəminin fitinin içindən seçilir. Böyük oğlun, bala xozeynin adınadur a...».

Kiçik bir haşiyə: deyilənlərə görə, Şəmsi gəmilərin fitinə yaman aşıq imiş, bütün gəmi və barkazlarındakı sirenaları xüsusi sifarişlə qayıtdırarmış. Bir dəfə köhnə gəmisini satırmış. Müştəri deyir ki, gəmi çox köhnədir. Şəmsi cavab verir ki, köhnəliyinə nə baxırsan, sən onun fitinə qulaq as, yeddi diyarda eşidilir.

Malakeş Məsməlinin sözündən Şəmsinin rəngi qaçdı, papağını peysərinə itələyib, yerindən sıçrayıb qalxdı. Hirsli-hirsli qışqırdı: «O paroxod, indi mənimki döyül, borclu olduğum adamlarınkıdır. Pul yeyələrininkidir», - papağını götürüb, zərblə yerə çırpdı, başladı böyük oğlunu söyməyə, qarğışlamağa - «Ay oğul, səni görüm zəlil olasan, ananla bir gora basdırım, məni xəcil elədüz, müflis elədüz!».

Boğazı tutuldu, su verdik, oturdub başladıq təsəlli verməyə. Şəmsi sakit olmurdu, Muxtarova baxıb dedi: «Ağa Murtuz, bax gör, böyük oğlum, dəyyus, başıma nə mərəkə açıb. Hər il payızın axırlarında müştəri tacirlərlə daqavor bağlayıb, neft satıram. Bakıya pravlyaşiyə tel vururam ki, bu qədər ucuz qiymətə neft al xırda sahibkarlardan, vur anbarlara; yazda yollayım müştərilərə. Bu il vurduğum tel gəlir bura cümə günü çatır, pravlyaşi olmur kontorda. Aparıb verirlər Mirzə başıbatmışa. O da teli oxuyur, anasınnan söz bir olub gizlədirlər. Allah canını almış, mənim gəlməyimdən bir həftə qabaq anasını götürüb, Xorasan ziyarətinə aparıb ki, üz-üzə gəlməyək. Gəlib pravlyaşiyə tapşırıram ki, aldığım nefti yavaş-yavaş paraxodlara vur, yerit Urusiyyətə, müştərilər intizardadır. Deyir ki, siz payızda sərəncam vermədiniz, mən də icazəsiz sürət edib, neft almadım. Soruşuram, necə yəni, tel vurmamışam? Deyir mən almamışam. Çatmayıb mənə. Poçtu yoxladıq, məlum oldu ki, başı batmış Mirzənin əlinə düşüb. O da arvadımla müxənnət çıxıblar, əlbir olublar, Moskvadakı arvad üstündə, Mariyaya görə ana-bala başıma belə oyun açıb, məni xar elədilər». - Birdən başladı hirsindən ağlamağa. - «İndi yaz gəlib, neft bahalanıb, gərək özüm iki-üç dəfə baha qiymətə Bakıdan aldığım nefti öz xərcimlə daşıtdırım Urusiyyətin uzaq şəhərlərinə, Alla Əkbərin qurtaran yerinə, qəbalə bağladığım tacirlərə ucuz satım. Yol pulu da məndən. Gəmilərin çoxunu satmışam, zavodu satmışam, Ramanadakı mədəni satmışam... Müflisəm, müflis... Əlimdə qalan bu bağdı, şəhərdəki mülklərimdir, bir də ki, Suraxanıdakı xırman yeri... Bunlar da tezliklə satılar, əlimdən çıxar. Canım çıxsa yaxşıdır», Qəzəblə özünü yerə çırpdı, ürəyi getdi. Otaqda olanlar birtəhər onu ayıldıb, təsəlli verdilər: «Allah kərimdir, əl-amanda qoymaz səni...».

Musa Nağıyevin qızı Ümülbəni Şəmsinin gəlini böyük oğlunun arvadı idi. Musa dar gündə qudasının dadına çatıb, iflas olmaqdan xilas edir. Rusiyadakı müştərilərə neft göndərir, qoymur şəhərdəki mülkü, bağı və Suraxanıdakı Xırman yerini satsın. Fətulla bəy Rüstəmovun məsləhətilə Suraxanıda Xırman yerində Musanın puluna buruq qurdurub, quyu qazdırır. Çox keçmir quyu elə bir fontan vurur ki, ətraf neft dənizinə dönür; özü də xalis Suraxanı nefti, benzinə bərabər. Müştərilər göydə götürürdülər. Gündəlik hasilat on min tondan çox idi. O quyu, məşhur fontan vuran quyularla bərabər Bakı neft-qazma tarixinə daxil edilib, olduğu yerdə xatirə daşı basdırılıb, xüsusi nişana qoyulubdur.

Bəxt ulduzu birdən parlayan neftxudalardan biri də Seyid Mirbabayev idi. Çox məlahətli səsi varmış, musiqi duyumu yaxşı imiş. Dövlətlilər bir-birinin bəhsinə onu toya dəvət edər, güclü pul, qiymətli hədiyyələr verərdilər. Varşavada səsini qramofon vallarına yazdırıb, çox baha qiymətə satırdı; çox vaxt birə-iki, birə-üç qiymətə.

Bir dəfə Bakı kəndlərindən birinə toya gedir, məclisi çox şənləndirir. Bəyi tərifləyəndə cuşə gəlir, dəfi atıb-tutur, ilhamla oxuyur: «Gəlsin görüm bəyin igid əmisi, görüm a bəy, toyun mübarək olsun, qohumun-qardaşın bizə borc olsun».

Bəyin əmisi qavala iki dənə beşyüzlük salır... Əl salırlar, hərə bir söz deyir, məclis daha da qızışır. -Seyid tərif etməkdə olur:

«Gəlsin görüm bəyin varlı dayısı, gəlsin görüm bəyin comərd dayısı, a bəy, sənin toyun mübarək olsun, olasan sən on iki oğul atası, igid dayın bizə borc olsun».

Oğlanın dayısı gözəl libasda, belində qızıl kəmər, qızıl xəncər, tapança, boynundakı qızıl zəncirdən sallanan brilyant, yaqut medalyonlar bərq vurur, yerindən qışqırır: «Seyid, ana babamdan mənə miras qalmış «Bala şoranlıq»da qazdırdığım quyunu sənə xələt verirəm... Nə çıxsa sənin bəxtinə, quyu başa çatana qədər xərci mənim boynuma. Cəddinə qurban olum, bir «Segah» oxu.

Belə töhfədən sonra Seyid sağ əlini qoyur qulağı qənşərinə, adsız barmağındakı üzüyün iri brilyant qaşı min bir rəngdə şəfəq saçır, elə bir «segah» oxuyur ki, məclisdəkilər heyran qalır. Şabaş xanəndənin dəfinə xəzəl kimi tökülür... Seyid brilyant sərrafı və aşiqi imiş, yığırmış.

Birdən «Bala şoranlıq»dakı quyu fontan vurur, yeri-yurdu qızıl seli bürüyür, xanəndə Seyid bir anda dönür olur milyonçu Seyid... Neftxuda, Varşavada səsi salınmış valları bir-bir baha qiymətə alır sındırır ki, guya əsl sənəti olan xanəndəliyi indiki milyonçuluğuna əskiklik gətirər, şan-şöhrətini azaldar, keçmişinə arxa çevirir.

Yeri gəlmişkən, xoş avazlı, məlahətli səsin Varşavada qramofon valına yazılması ilə və Seyid adı ilə əlaqədar bir əhvalatı oxuculara çatdırmaq elə zənn edirəm ki, maraqlı olar.

Seyid Mirbabayevdən sonra Qarabağlı xanəndə Seyidi səsini yazmaq üçün Varşavaya dəvət edirlər. Gedir oxuyur və səsi vala düşür; adını soruşanda deyir ki, Seyid. Məəttəl qalırlar və deyirlər ki, Seyid adlı adanın səsi bizdə var. Necə olar, o da Seyid, sən də Seyid? Xeyli götür-qoydan sonra iki Seyidi bir-birindən ayırd etmək üçün qərara gəlirlər ki, ikinci Seyidə" Şuşinski adını əlavə etsinlər.

Seyid Mirbabayev başlayır başqa milyonçular kimi cah-cəlal qurmağa. Aramyanın dəniz sahilindəki mülkünü alır.

Aramyan həmin mülkü bir dəfə qumarda uduzmuşdu. Hadisə belə olub. Klubda oyunda başı necə qızışırsa var-yoxu əldən gedir, axırda mülkü də qoyur banka, o də əlindən gedir. Xəbər evlərinə çatır. Klubda birdən görürlər ki, qapı açıldı, Aramyanın arvadı girdi qumar oynanan otağa, uzaqdan başladı sözə: «Əzizim, eşitdik ki, pulları, üstəlik mülkü də uduzmusan. Əcəb eləmisən.

Heç kefini pozma. - Əlindəki balaca çamadanı uzadır ərinə. - Al, bunun içindəkiləri də uduz, amma qəm yemə». - Çamadanı qoyub gedir.

Çamadanın qapağını açanda görürlər ki, bütün qiymət qızıl-cəvahirat, bəzək əşyalarını ərinə təsəlli, ürək vermək üçün gətirib.

Oyun təzədən qızışır. Aramyan uduzduğu pulların da, mülkü də geri qaytarır...

Yay və qış klublarında hər axşam qızğın oyun gedərdi. Qumarda min manatlarla pulu, mülkü udan kim, uduzan kim... Bəzən varlı müflis, hoqqabaz bir adam isə dövlət, var, mülk, zavod sahibi olardı.

Şəhərin məşhur qumarbazlarından biri də xəsislikdə ad çıxarmış Hacı Hacağa oğlu Yusifağa idi. Qarınqulu, kəmağıl bu adam bir gecədə çoxlu pul və bir neçə mülkü qumarda uduzandan sonra deyir ki, «adə, iş bərkiyir, gərək özümü yığışdıram». Sonra da əzəmətli mülkü, içərisindəki avadanlıqla birlikdə on dəqiqənin içində qumarda uduzur.

Arvadı, qohum-əqrabanın, xeyirxah adamların məsləhətilə vəkil tutub Naberejnı (Neftçilər) prospektindəki dörd mərtəbəli görkəmli binanı öz adına keçirtdirir ki, əri qumarda uduza bilməsin.

Dağlı Abbasla, Malbaş Yusif də məşhur qumarbaz, qoçu idilər; onlar Hacağa oğlu Yusifağanı Novxanıya, Pirşağıya dəvə ətindən qutaba, cız-bıza qonaq aparıb» qumarda lat-lüt eləyib yola salırdılar. Yusifağa axır da yaman günə qalır. Atasının dostlarından biri Yusifağanı çağırıb deyir ki, atan öləndə mənə vəsiyyət etmişdi ki, sənə çatdırım, yaman günə qalanda özünü böyük otaqda, çilçıraq sallanan qırmaqdan əsasən, biabırçılıqdan canını qurtarasan. «Atam deyib özümü asım!». «Bəli». Gedib özünü asmaq istəyəndə çıraq sallanan qırmaq yerindən çıxır, qızılla dolu iki kisə yerə düşür. Yusifağanın kefi kökəlir. Lakin çox keçmir ki, hariflər onları da əlindən alırlar. Düşür dilənçi gününə.

Danışıb gülmək, vaxt keçirmək üçün içərişəhərli məzhəkəçi Şönü oğlu Abdullanı da tez-tez məclisə çağırardılar. Şəhərdə Şönü oğlu ilə əlaqədar maraqlı bir əhvalat danışırdılar. Bir nəfər dövlətli Kərbəla ziyarətinə gedəndə Şönü oğlunu özünə həyan aparır, at alır, xərcini boynuna götürür. Dolu bir kisə verir Şönü oğluna ki, bunu gizlət yəhərin altında, mənzil başında, Kərbəlaya çatanda verərsən mənə.

Dövlətli Kərbəlaya çatanda kisəni istəyir. Şönü oğlu cavab verir ki, kisədəkini qovut bilib yol boyu yemişəm. «Necə yəni yemişəm?!» - təəccüblə kişi soruşur. Şönü oğlu deyir: «Nəinki yemişəm, bayıra da getmişəm». Düşür dava, kişi deyir: «Adə, o mənim atamın sümükləri idi, həvəngdə döyüb toza döndərib, kisədə gizlədib gətirirdim ki, burda, Kərbəlada basdırıb, üstündə qəbir tikdirim». Şönü oğlu deyir: «Əvvəldən xəbər eləyəydin də, mən nə biləydim».

Milyonçu olandan sonra Seyid Mirbabayev gedir Hacı Zeynalabdin Tağıyevin yanına, xahiş edir ki, siz şəhərdə olan bütün imarətləri tanıyırsız, yanınıza məsləhətə gəlmişəm, mülk almaq istəyirəm. O da deyir ki, şəhərdə çoxlu mülküm var, oturduğum, bir də doğulduğum evlərdən savayı, hansını istəyirsən qurbandır səddinə. Seyid razılıq edir və deyir ki, Hacı, sizin mülklərdə mənim gözüm yoxdur... Hacı deyir: «Onda məktub verim get Tiflisə. Aramyan dəniz qırağındakı imarəti satır, bəlkə ala bildin. Çox yaxşı mülkdür, heç mənim imarətimdən əskik deyil. Çox da şükümlü binadır. Özüm o binada neçə il yaşadım, evim hazır olanda ordan köçdüm. Sonra Ağa Musa neçə il yaşadı, elə mən olan otaqlarda». Hesabdarı Mirhəbibi qoşur Seyidə, göndərir Tiflisə, Aramyanın üstünə. Bir məktub da verir və deyir ki, bunu əvvəl aparıb verərsən canişin idarəsinə, deyərsən ki, Qori seminariyasının hamiliyini götürürəm boynuma. İldə bir neçə min xərcin çıxsa da, padşahlıq qabağında üzün ağ olar, sözün keçər, gələcəkdə artıq müsəlman uşağı göndərə bilərik ora. Mən də elə buna görə Bakı texniki məktəbinin hamiliyini götürdüm üstümə. Gəlmişdilər ki, bina üç ildir qalıb yarımçıq, otuz min manat çatışmır. Dedim otuz beş min manat verirəm, özüm də o məktəbin hamisi oldum... Ağa Musa da realnı şkolun hamisi oldu, indi orda oxuyanların yarıya qədəri müsəlman balalarıdır.

Seyid, Hacı deyən kimi eləyir, gedir canişinliyə Qori seminariyasının hamiliyini götürür boynuna. Tiflisdə bu xəbər dönür böyük bir hadisəyə, hamı, hər yerdə bu barədə danışır.

Aramyan da Bakıdan gələn qonaqları çox hörmətlə qarşılayıb qəbul edir, nökəri göndərib çamadanlarını mehmanxanadan apartdırır öz evinə, qonaqlara deyir, «Hacının adamlarının Tiflisdə mehmanxanada qalması mənim üçün ayıbdır, təhqirdir. Nəinki sizin kimi hörmətli şəxslərin, hətta Hacının nökərinin da mənim evimin baş tərəfində yeri var».

Onları neçə gün qonaq saxlayır, o ki var hörmət edir, şərəflərinə ziyafət düzəldir. Tiflisin görməli yerlərinə aparır, mehribanlıq göstərir, axırda deyir ki, bir vaxt mən o mülkü satmaq istəyirdim, sonra fikrimdən daşındım. İndi ki, Hacı üstümə adam göndərib, məsləhət görür, satıram. Üç yüz min manat qiymət qoymuşdum. Hacının xatirinə əlli min manat güzəştə gedirəm.

Seyid Mirbabayev bir sözü iki eləmir, cibindən bank kitabçasını çıxardıb, dörddə bir milyon manata çek yazıb qol çəkir, Aramyana uzadır.

Yola düşəndə Aramyan iki zərf verir Mirhəbibə və deyir: «Bu zərfi Hacıya çatdırarsan. Bu birisi isə sənindir».

Mirhəbib deyirdi: «Yaman təşvişə düşdüm, görən mənə nə verib». Vaqonda zərfi cırdım, gördüm ki, içində beş dənə yüzlük var... Seyid xəbər aldı: «Aramyan xozeyin sənə nə qədər bəxş edib». Cavab verdim ki, beş yüz manat; zərfi ona uzatdım. Beş yüz manat da o bağışladı. Mirhəbib də Mərdəkanda bağ saldırıb, gözəl bir mülk tikdirir.

Birdən-birə milyonçu - neftxuda olanlardan biri də Binəqədili Səlimov idi. Ata-baba yurdunda quyusu fontan vurmuşdu. Nəql edirdi ki, var-yoxu xərclədim, qohum-əqrəbaya əl açdım, bir qədər borc verdilər, quyu döndü əjdahaya hamısını uddu... Nöyüt görünmədi. Hər cümə axşamı fəhlələrə pul vermək lazım idi, kasıb adamlar, yarıtox, yarıac, gündə on iki saat ağır dəmirləri qaldırır, daşıyır, zığ-palçıq içində vurnuxurlar..,. Mədən qonşularımın gözü mülkümdə idi; allahdan istəyirdilər ki, iflas olum, ucuz qiymətə yeri alıb, məni aldatsınlar... Bir neçə nəfər borc vermək istəyirdi, amma ağır şərt qoyurdular. Axırda qərara gəldim ki, gedim Peterburqa padşaha yol tapım, düşüm ayağına, əhvalatı nəql edim, kömək istəyim. Nöyüt çıxanda borcu qaytarım. Kənddə bir dükanımız vardı, onu girov qoydum, pul götürdüm... Usta ilə fəhlələrə ay yarımlıq maaş qoydum. Çörək bişirtdirib məfrəşlərə doldurdum ki, gedib qayıdana qədər mənə bəs eləsin. O zaman müsəlman dindarları səfərə çıxanda məfrəşlərə qurumuş lavaş doldurub aparırdılar, üstünə su çiləyib yeyirdilər.

Biləcəriyə gəlib bilet alıb qalxdım vaqona. Fikir götürmüşdü məni, az qalırdı ürəyim partlasın, qabaqdan qış gəlir, qürbət, yad el, görəsən sözümə qulaq asan olacaqmı? Yaxşı bir xəzim vardı, pəncərənin yanında asmışdım. Sərnişin az idi. Birdən platformada buruq ustası gözümə dəydi, üst-başı nöyüt içində. «Allah şeytana lənət eləsin» deyib gözlərimi sildim, fikirləşdim ki, yəqin başıma hava gəlib. Bir də baxdım usta yoxa çıxdı. Mənə elə gəldi ki, məni çağırırlar. Pəncərədən boylandım, usta məni gördükdə qışqırdı: «Muştuluğumu ver, xozeyin, quyu fontan vurur». Elə götürüldüm ki, bir də fontan vuran quyunun qabağında ayaq saxladım. Göydən nöyüt yağır, yeri-yurdu başına alıb sel kimi axır... Biləcəridən Binəqədiyədək birnəfəsə yüyürmüşdüm... Bahalı xəz, çamadan, çörək dolu məfrəşlər qalmışdı vaqonda... Buruq ustası məndən xeyli sonra gəlib çıxdı... Buruğun dövrəsində, yalan olmasın, onlarsa fayton, qazalaq vardı... Adam əlindən tərpənmək olmurdu... Hamı məni təbrik etməyə tələsir, bir-birinə macal vermirdilər... Mənə pul uzadan kim, çek təklif edən kim, xoş söz deyən kim; bığımın altından keçmək istəyənlərin sayı-hesabı yox idi...

Səlimov şəhərdə Starıy politseyski (Məmmədəliyev) küçəsində bir möhtəşəm imarət, Krasnovodski (Səməd Vurğun) və Kamenisti (Şors) küçələrinin kəsişdiyi yerdə isə ikinci böyük imarət tikdirmişdi. Başqa küçələrdə də... Hamısı əzəmətli, arxitektura cəhətdən zəngin binalar idi.

Bakı milyonçularından biri də Tumanyan idi. Qubernator (sağlamlıq zonası) bağı ilə üzbəüz dördmərtəbəli, hündür binanı (1893-1894) o tikdirmişdi. Özü İran təbəəsi olsa da, Rusiyanın çox yerində ticarət kontoru vardı. Müzəffərəddin şah Avropaya səfər zamanı yolüstü Bakıya gələndə onun evinə düşmüşdü. İran şahı öz səyahətnaməsində Bakıya gəlməyini və burada iki gün qalmağını belə təsvir edir: «Qatar dayandı, biz vaqondan düşdük,

stansiyada bizi çoxlu müsəlman camaatı - təbrizlilər, dağıstanlılar qarşıladı. Hərbi təşrifat qaroulu hazır dayanmışdı, musiqi çalınırdı. Bu qaraulun qarşısından keçdik, sonra əvvəldən hazırlanmış otağa girdik; burada üləma, seyidlər və tacirlər, Tumanyanın adamları dayanmışdılar. Qafqaz işlərinə baxan Tiflisdə oturan baş konsulumuz Nazimülmülk öz məiyyətilə hüzura müntəzir idi. Bir neçə dəqiqə keçdi, xəbər verdilər ki, kareta hazırdır. Binadan çıxdıq. Şiddətli xəzri əsirdi; küçələrdə şərəfimizə asılmış bayraqları, çıraqları və fəxri darvazanı xəzri xarab eləyirdi. Hiss olunurdu ki, mənim şərəfimə xüsusi şadyanalıq hazırlayıblar. Küçələrdə və səkilərdə, şiddətli küləyə baxmayaraq, çoxlu müsəlman və digər millətlərdən şəxslər vardı.

Stansiyadan mənzilə - iqamətgaha iyirmi dəqiqəyə çatdıq. Tumanyanın möhtəşəm imarətinin qabağında çoxlu xalı-xalça döşənmişdi, bina bayraqlarla və çıraqlarla bəzədilmişdi. Ətraf çırağbanla işıqlandırılmışdı. Karetadan düşüb imarətdəki çoxlu pillələrlə qalxdıq. İmarət dördmərtəbəlidir. Biz üçüncü mərtəbədə yerləşdik. Otaqlar avropasayağı, çox zəngin və əla döşənib bəzədilmişdi. Tumanyanın adamları məni qarşıladılar, onlarla görüşəndən sonra mənim üçün hazırlanmış otaqlara keçdim. Mənimlə gələnlərin çoxusu da bu mülkdə yerləşdirildilər.

Ertəsi gün sədr əzəm (baş nazir - M.S.) xəbər verdi ki, rus imperatorunun əmri ilə Qafqaz canişini Tiflisdən mənimlə görüşmək üçün Bakıya gəlib, hüzura müntəzirdir.

Canişin içəri girdi; görüşdük. Cüssəli, xoş sima, fərasətli və aqil bir şəxs idi. Qısa söhbətdən sonra o getdi.

Bakının bütün əyanları və şəhər hakimləri hüzuruma gəldilər, imperatorlara layiq mənə üç məcməidə duz-çörək gətirdilər. Fərəcbəy də hüzuruma çatdı. Ona da izhar iltifat etdim. Rus imperatorunun hədiyyə göndərdiyi altı dənə əla tüfəngi mənə təqdim etdilər. Həddindən çox yaxşı tüfənglər idi. (Müzəffərəddin şah mahir ovçu imiş - M.S).

Olduğumuz imarətin böyük bir eyvanı vardı. Buradan dəniz görünürdü. Eyvandan ətrafa tamaşa etdik. İmarətin qabağında çoxlu adam yığılmışdı. İran təbəələri də çox idi; dalbadal salavat çəkir və uca səslə hurra deyirdilər.

Eyvandan şəhər və dəniz yaxşı görünür; şirin su olmadığı üçün, bir də torpağın pisliyindən və neftin çoxluğundan bu aralarda ağac yoxdur; azca ağac var ki, onu da çox böyük zəhmətlə yetişdirib saxlayırlar.

Bakının havası o qədər də tərifəlayiq deyil; çünki dəniz kənarıdır, rütubət çoxdur, həm də neft mədəni yaxındadır. Hər yerdən - divarlardan, yerdən, qapı və pəncərələrdən neft iyi gəlir, aləm qapqaradır.

Xəzər sahilindəki bütün şəhərlərə buradan neft gedir. Bakıda çoxlu abad imarət var.

Avropaya təhsilə göndərəcəyimiz tələbələr gəlmişdi. Sədr əzəm hüzuruma gətirdi. Onları müxtəlif dövlətlərin paytaxtlarına yolladım.

Mən, Sədr əzəm, bir də admiral Arsenyev karetada neft mədəninə tamaşaya yollandıq. Qabaqlar neft çeşməsi yerlə axarmış, indi bu çeşmələr dərindədir, quyu qazıb çıxardırlar, xüsusi tulumbalar var; ətrafda iri anbarlar düzəldiblər, quyudan çıxarılan neft arxla o anbarlara axır, çəlləklərə doldurub daşıyırlar. Neft ticarətindən çoxlu mənfəət əldə edirlər; mədən sahibləri, tacirlər və rus dövləti bu mənfəəti bölüşdürürlər.

Kareta Fərəcbəyin neft mədəninə çatdı; bura iri, sanballı mədən olduğundan tamaşa etməyinə dəyərdi. Neftin necə çıxmasına, arxla anbara axmağına baxdıq; birdən neft yağış kimi yağıb üstümüzə töküldü, o üfunətli və pis iy verirdi. Burada çox dayanmadıq, geriyə qayıtdıq. Dincəlmək üçün hər şey hazır idi.

O axşam bakılılar şərəfimizə ziyafət - təşrifat məclisi düzəltdi. Bütün şəhər çırağban edilmişdi.

Sabahı gün imarətin eyvanında oturdum. Sədr əzəm də hüzurumda idi; bütün məktəblərin şagirdləri təzə, gözəl libasda, əllərində bayraqlar, nəğmələr oxuya-oxuya dəstələrlə, (imperatorlar üçün edildiyi kimi) mənim iqamətgahımın qabağından keçirdilər. Şəhər əhalisi qarşımda dayanmışdı».

Neft mədənlərində fəhləlik eləyən Molla Əhəd nəql edirdi ki, «şəhəri bəzəmişdilər. Qartal nişanı olan rus və Şiri-Xurşid nişanlı İran bayraqlarını hər yerə sancmışdılar; eyvanlar xalı və xalçalarla bəzədilmişdi. Qala bürcünün üstündə qara çıraqlar, «Qız qalası»nın və «Qoşa qala qapısı»nın üstündə iri məşəllər yanırdı. Haşımov (Gənclər) meydanında zurna-balaban çalınır, kəndirbazlar oynayırdı. Rəngarəng fanarlar yanırdı.

Axşam dənizdə əlvan çıraqlarla - şamlarla bəzədilmiş gəmilər, qayıqlar seyrə çıxmışdı; musiqi çalınırdı; şahın şərəfinə toplardan yaylım atəşi açdılar.

Spaski (Qasım İsmayılov) küçəsində yerləşən İran konsulxanasının böyük həyətində qurban kəsib, şənlik düzəltmişdilər. Küçələrdə adam əlindən tərpənmək olmurdu. Şahın düşdüyü binanın qabağında iki gün böyük izdiham oldu. Adam əlindən tərpənmək mümkün deyildi.

Neft mədənində və zavodlarda, şose yollarında, inşaatda ən ağır işlərdə çalışan fəhlələrin əksəriyyəti iranlılar idi, hamısı yığıncağa gəlmişdi. Şah küçə eyvanına çıxanda bir fəhlə özünə od vurub yandırdı. Alovu söndürmək üçün fəhlənin üstünə pal-paltar atdılar.»

O vaxtlar ümumiyyətlə, fəhlələrin, xüsusilə də iranlıların güzəranı çox ağır keçirdi. İranın özündə şah istibdadı, mülkədar, xan zülmü, məmurların cəza tədbiri, ölkədə iqtisadiyyatın tənəzzülü, işsizlik, hərc-mərclik aclıq onları vətəni tərk etməyə vadar edirdi. Ayağı yer tutan iş dalınca Rusiyaya qaçırdı: Bakıya, Həştərxana, Samaraya, Gürcüstana, Şimali Qafqaza... Qürbətdə onlar

kapitalistlərin, güclülərin, qolu zorbaların zülmü altında əzilirdilər. Qoçu aldığı tapançanı yoxlamaq üçün yoldan keçən yazıq iranlını nişan alıb öldürürdü, sorğu-sual edən də olmurdu. Bakının «həmşəri palanı» (Şors küçəsinin yuxarı başı) adlanan məhəlləsində ancaq kasıb iranlılar yaşayırdı. Oradan o yana zibillik, çöl-biyaban idi. Taxtadan, ağac parçalarından, paslı dəmirdən quraşdırılmış alçaq, rütubətli daxmalar, qaranlıq zirzəmilər məskənləri idi; beş-altı adam bir daxmada, bir zirzəmidə yaşayırdı. Ətraf çirkab, üfunətli. Axşam düşəndə Kamenisti (Şors) küçəsi ilə üzüyuxarı hambalların, fəhlələrin axını başlayırdı, özləri də mazutlu, palçıqlı, cır-cındır içində. Gündə on iki saat ağır iş... Yarıtox, yarıac... Qürbətdə qaldıqları müddəti yırtdıqları mitilin sayı ilə hesablayırdılar: üç mitil, beş mitil, yeddi mitil...

Elə ki, xəzri başlayırdı, «həmşəri palanı»nda toz əlindən göz-gözü görmürdü; yağışda daxmaları, zirzəmiləri su basırdı... Yoxsullar yaşayan küçələrdə, həyət-bacada palçıq dizə çıxırdı.

Yağışlar zamanı sel dağlıq məhəllələrindəki zir-zibil və palçığı gətirib tökürdü şəhərin bazar küçəsinə, Quba (indiki Füzuli) meydanına...

İranlı fəhlə özünü yandıran günün axşamı (onsuz da gündə bir neçə fəhlə mədəndə, quyularda, zavodda tələf olur, ya da qoçu gülləsilə ölürdü) Hacı Zeynalabdin Tağıyev şahın şərəfinə verdiyi böyük ziyafətdə giley-güzar edir ki, mən müsəlman olduğum halda bəs niyə mənim yox, gedib erməni Tumanyanın evinə düşdünüz. Şah cavab verir ki, sən müsəlman olsan da, rus təbəəsisən, Tumanyan isə mənim rəiyyətimdir. İran təbəəsidir, onun evi mənim evimdir.

Milyonçulardan biri də Hacı Hacağa idi. Sandıq milyonçusu. Şəhərdə çoxlu mehmanxanası, karvansarası, sərnişin və yük daşıyan gəmiləri vardı. Deyirlər ki, Hacı bir dəfə gəmiyə qalxanda matros onu tanımır, biletsiz olduğunu güman edir, itələyir, Hacı yıxılır. Hacağanın oğlu və kürəkəni matrosu döymək istəyəndə, Hacı cəld ayağa qalxıb onları qoymur: «Lazım deyil! Gərək deyil! İş düşər polisə, bizi cərimə edərlər. Mənə heç nə olmayıb, bir balaca toza batdım, onu da çırpdım, qurtardı getdi».

Hacı Peterburqa gedir, çoxlu mal alır. Ancaq limanda deyirlər ki, daha yük qəbul etmirik, malları ancaq yazda, altı aydan sonra götürəcəyik. Əzü nəql edirmiş ki, o qədər yükün yarım il anbardaqalma xərci neçə min manat edəcəyini fikirləşəndə az qaldım dəli olam, baş soxmadığım idarə qalmadı, heç nə eləyə bilmədim. Əlim hər yerdən üzüldü, başladım Fitilbörk küçələrində hərlənməyə. İri bir kilsənin qabağına çatanda yorulub oturdum. Bir qoca mənə yaxınlaşıb dedi ki, arxanı çarın sarayına tərəf çevirib oturma, buraya tez-tez durbinlə baxırlar, acıqlarına gələr.

Ehtiyatsızlıq edirsən, gəlib səni tutarlar, məni də qulluqdan qovarlar, bir tikə çörəyim var, o da əlimdən çıxar. Durdum ayağa, başladım mərmər qəbirlərin arasında hərlənməyə; qoca kişidən xəbər aldım ki, bu qəbirlər kimindir. Cavab verdi ki, imperatorların, onların arvadlarının, böyük

knyazların, generalların qəbirləridir. Bir qəbrin yanında oturub başladım ağlamağa. Ürəyim dolu idi, az qalırdı partlasın. Heç yarım saat keçməmişdi ki, bir də gördüm iki əfsər mənə yaxınlaşıb dedilər ki, dur düş qabağımıza gedək bizimlə. Düşdüm qabaqlarına. Məni gətirdilər padşahın evinə. Mərmər pillələrlə qaldırdılar, bir neçə bəzəkli otaq keçdim. Orta yaşlı hərbçi bir arvadla pəncərədən bayıra baxırdılar. Ayaq səsinə döndülər, kişi əlindəki durbini arvada verdi, mənə tərəf gəldi. O saat tanıdım ki, Nikolay padşahdır. Təzim etdim. Soruşdu ki, kimsən, nə üçün gəlmisən. Arvad da gəldi yanımıza. Dedim ki, Bakıdan gəlmişəm. Tacir babayam. Xəbər aldı ki, o qəbirlərin yanında niyə oturmuşdun, niyə ağlayırdın. Birtəhər başa saldım ki, bizim dinimizdə padşah yer üzünün allahıdır. Onlara ağlamaq, ruhlarına dua eləmək savabdır, bizim borcumuzdur. Dediklərimi arvada firəng dilində başa saldı. Üz-gözündən anladım ki, sözlərim onun da, padşahın da xoşuna gəlib. Xəbər aldı ki, indi burda neyləyirsən. Dedim çoxlu mal almışam, amma limanda yük götürmürlər. O, qapıdakı zabitə nə tapşırdısa, zabit dəftərçəsini çıxardıb yazdı; sonra məni qaldığım mehmanxanaya apardı və tapşırdı ki, səhər saat doqquzda hazır ol, gəlib səni aparacağam. Sübh tezdən qalxıb namaz qıldım, bir stəkan qəhvə içib, başladım gözləməyə. Zabit gəlib çıxdı, məni faytona mindirib böyük bir imarətə apardı. Qapıda qılınclı-tapançalı zabitlər o saat təzim elədilər, qapını taybatay açdılar. Yenə böyük bir otağa girdik. Haçasaqqal, uzunbığ, ahıl bir hərbçi ayağa qalxıb mənə sarı gəldi, aparıb yumşaq stulda yer göstərib, oturtdu. Dilmancı çağırdılar. Hər şeyi dedim, yazdılar. Mənə iki zabit qoşub göndərdilər limana. O saat kağızları yazıb verdilər, malları götürdülər. Bakıya çatanda, gördüm ki, yüklər məndən tez gəlib, daşıyıblar anbarlara...

Neçə il sonra Hacı Hacağanı Peterburqa dəvət edirlər. Vağzala düşəndə iki zabit gəlib onu qarşılayır, kareta dayanan yerə aparırlar. Hacı Hacağa xəbər alır ki, bu araba kimindir. Başa salırlar ki, bu karetanı çar sənə özü göndərib ki, oturasan. Hacı Hacağa Xorasan kürgünü çiyninə salır və deyir: «Gedək, rəiyyət padşah arabasına oturmaz, padşahın arabası qabaqda gedər, rəiyyət də onun dalınca piyada... Bunun özü böyük şərəf, böyük fərəhdir...».

Bakıdakı «Metropol» mehmanxanasını hərraca qoyurdular. Hərracın Tiflisdə olacağı xəbər verilirdi, Hacı Hacağa gedir ora. Bədxahlar onu ələ salıb soruşurlar ki, Hacı, burda nə gəzirsən? Sən yumşaq rezin çarxlı faytona bir abbası verib minmirsən ki, bahadır, üç şahılıq dəmir təkərli, köhnə faytonda gedirsən. Hərracda əlli-altmış min manat söhbəti olacaq. «Tamaşaya gəlmişəm» deyir. Hərracda mehmanxanaya əlli min manat qiymət elan edilir və yavaş-yavaş qalxır altmış min manata: Hacı Hacağa qışqırır: «Yetmiş min!». Ehtiraslar təzədən soşur. Qiymət qalxır doxsan min manata. İkinci zəng çalınanda Hacı Hacağa qışqırır: «Doxsan doqquz min manat!» Çaxnaşma düşür. Mehmanxananı Hacı alır. Küçədə bədxahlar soruşur ki: «Hacı, bu qədər pul hardan?» Cavab verir ki, «Faytonlara vermədiyim şahılardan!» Başqası

xəbər alır: «Hacı, bəs niyə yüz min manat demədin!» «Axı min manatla beş min dəfə faytonda getmək olar».

Hacı Hacağanın evinə təzə qulluqçu götürürlər. Qaş qaralanda qulluqçuya deyirlər ki, çıraqları yandır. O da pəncərədəki çıraqların şüşəsini bir-bir çıxardır, kibriti alışdırıb yandırır. Hacı bunu görəndə cəld qulluqçunun başının üstünü alır: «Dayan! Dayan! Əvvəlcə çıraqların şüşəsini çıxar, düz yan-yana». Qulluqçu onun dediyinə əməl eləyir. Hacı bir kibrit alışdırıb çırağın beşini yandırır, sonra da bir parça kağız götürüb alışdırır, çıraqların o birilərini də yandırır və qulluqçuya deyir: «İndi şüşələrini tax, hər gün bax, belə edərsən. Yoxsa hər çırağa bir kibrit çöpü yandırsan məni müflis edərsən...»

Hacı Hacağanın qəribə bir xasiyyəti də varmış. Xoşu gəlməyən adam ona salam verəndə «Xudahafiz» deyə uzaqlaşarmış.

Professor memar Sərkisov deyirdi ki, milyoner Adamov qardaşlarının da maraqlı tarixçələri var...

Bu qardaşlar Bakıya əliboş gəlib, zirzəmidə emalatxana açıb, başlayırlar xarratlığa. Səhər alaqaranlıqda işə başlayar, bir də axşam çıraqlar yananda zirzəmidən çıxardılar. Külli ixtiyar böyük qardaşın əlində idi. O, bazar günləri hər qardaşa bir abbası xərclik, iki şahı da dəllək və hamam pulu verərdi. Hamıya pal-paltarı o alar, təsərrüfata özü baxardı... Beş ildən sonra, bazar günlərinin birində, səhər çayından sonra böyük qardaş fərəhlə deyir ki, sabahdan emalatxanada iki nəfər işləyəcək. Bankda bir milyon manat pulumuz var, körpü almışam, taxta-şalban alış-verişi edəcəyik. Müqavilə bağlamışam, Rusiyadan, bir də Lənkərandan, Ənzəlidən tir, ağac, taxta göndərəcəklər.

Bakıda başqa milyonçular da vardı: Şibayev, Leonozov, Rotşild, Zubatov, Bakendorf və s.

Mantaşev Bakı neftindən yüz milyonlarla fayda götürürdü, şəhərdə bircə dənə fərli bina tikdirib. Amma mədənlərdə, dustaqxanadan da pis kazarmalar inşa etdirdi. Xaricə qaçdı və 1920-ci illərin əvvəlində əli hər yerdən, ümidi Bakıya qayıtmaqdan üzüləndən sonra Suraxanı, Sabunçu və Bibiheybət mədənlərini, Parisdə dünya neft inhisarçısı Deterdinqə 7 milyon franka satdı.

İsabəy Hacınski də neftxuda idi. Bibiheybətdə zəngin mədəni vardı, onun şəhərdə bərli-bəzəkli mülkü hamının diqqətini cəlb edir. Bu tərəflərə yolu düşənlər qeyri-ixtiyari ayaq saxlayıb bu gözəl binaya tamaşa edir. Əvvəl Balaxanı (Basin) küçəsilə Marinski (Karqanov) küçəsinin tinində imarət tikdirir və xeyli vaxt orada yaşayır, sahildə təzə evi hazır olandan sonra ora köçür, əvvəlkini verir qardaşına.

Bakı bulvarının salınmasında İsabəy Hacınski çoxlu pul xərcləmişdi. İki oğlu, bir qızı vardı. Böyük oğlu Sadıq bəy gözəl geyinirdi. Hər gününün öz libası vardı. Geydiyi paltarın rəngindən adamlar həftənin hansı günü olduğunu təyin edərdilər. Hər gün səhər düz on tamamda evdən çıxıb karetaya, ya da

faytona oturanda ətrafdakı dükançılar saatını yoxlar, artıq-əskikliyini düzəldərdilər. Gimnaziyada oxuduğu sinfin kasıb şagirdlərinin məktəb pulunu verər, onlara paltar və kitab-dəftər alardı.

Bakıda memarlıq baxımından bir-birilə bəhsə girən yüzlərlə bina var. Bu binalar heç bir cəhətdən bir-birinə oxşamadığı kimi, bir-birini təkrar da etmir. Lakin İsabəyin roma, kotik və modern üslublarda tikilmiş mülkü diqqəti cəlb edir. Dəniz kənarında tutduğu mövqe, əsrlərin yadigarı, əfsanəvi «Qız qalası» ilə yanaşı durması, onlardakı təzad insanı valeh etməyə bilmir. İmarətin xarici gözəlliyi, lakonikliyi, ondakı plastika daxili bəzəyilə tam vəhdət əmələ gətirir, görünür istedadlı memar ilhamının ən coşğun çağlarında onu layihələşdirib, var qüvvəsini, canını, qəlbini ona sərf edib.

İmarətin girəcəyində, iki tərəfdə mərmərdən yonulmuş aslan heykəlləri binaya əzəmətli görkəm verirdi. Təəssüf ki, 1918-ci il mart hadisələri zamanı bu aslan heykəlləri atılan qumbaralardan parça-parça oldu.

***Ziyarətgah.*** Bibiheybət ziyarətgahı da orta əsrlərdə tikilmiş məscid gözəlliyinə görə hamını heyran edərdi. Abşeronda ən məşhur və ən möhtəşəm məbəd idi. Çox təəssüf ki, belə memarlıq incisini, mədəniyyət abidəsini uçurub məhv etdilər. Cümə günləri adamlar şəhər və kəndlərdən piyada, atla, eşşəklə, qazalaqda, faytonda, varlılar isə karetada və maşında Bibiheybətə ziyarətə gəlirdilər. Yazda və payızın ilk aylarında burada zəvvar və dindarlar əlindən tərpənmək olmurdu. Sübh tezdən şəhər küçələrinin qənbər döşəmələrinə dəyən at nallarının səsləri adamları yuxudan oyadıb, agah edərdi ki, ziyarətə getmək vaxtıdır.

Zəvvarlar məscidin ətrafında palaz, həsir döşəyərdilər, arvadlar imam halvası və xörək bişirir, sacda lavaş salırdılar. Çarşablı arvadlar, çuxalı, arxalıqlı, papaqlı kişilər məscidin qabağında toplaşırdılar. Nəzir gətirilmiş qoyunlar bir kənarda mələşir, xoruzlar banlayırdı. Dana, hətta dəvə nəzir gətirənlərə də rast gəlmək olurdu. Atlar fınxırırdı. Səs-küydən qulaq tutulurdu. Zəvvarlara halva, lavaş paylayır, mis camlara şərbət töküb verirdilər. Ayaqyalın, başıaçıq, kasıb geyimli, azyaşlı uşaqlar arada hərlənirdilər. Dilənçilər dilənirdilər.

Varlılar süfrə açıb Əliaşı verirdilər. Müəzzinlər minacat çəkir, dərvişlər qəsidə oxuyurdular. Zəvvarlar dərvişi araya alıb quldq asır, tamaşa edirdilər.

Məscid həyətində, eyvanlarda zəvvarlər qarışqa kimi qaynayırdılar. Min bir libasda adama rast gəlmək olardı. Başı əmmaməli, əynində ləbbadə və əba olan şeyxlər uzaqdan görünürdülər, onlar savadsız, avam zəvvarlar üçün ziyarətnamə oxuyurdular.

Məscidin içərisi qaranlıq, rütubət idi. Pəncərələrdən zəif, dumanlı işıq süzülürdü. Abı rəngli uca tavan göy qübbəsini andırırdı. Baş tərəfdə, mehrabın yanında minbər dururdu, yerə həsir, palaz, köhnə xalça-palaz

döşənirdi. Burada həmişə namaz qılanlara rast gəlinirdi. Ortadakı qəbri zəvvarlar araya alır, uşağı olmayan gəlinlər, ərə getmək istəyən qızlar, zürüyyətsiz kişilər, dilitutulanlar, karlar, lallar, korlar, bir sözlə min bir dərd-bəlaya düçar olanlar özlərini qəbir daşının üstünə atır, dua edə-edə, ağlaya-ağlaya Bibidən, daş məqbərədən dərdlərinə çarə, azarlarına şəfa diləyirdilər. Mollanümalar arada hərlənib, dua oxuyur, haqq alırdılar.

Orucluq və qurban bayramında, Məhəmməd peyğəmbərin ad günündə məsciddə tərpənmək olmurdu. Qış aylarında, yağışda, qarda məscidə gələnlərin sayı azalırdı. Məhərrəmlikdə isə bu aralar məhşər ayağına dönərdi. Baş yaranlar və sinəzənlər, nöhə oxuya-oxuya zəncir vuranlar, canlarına qəsd edənlər...

***Məktəblər.*** 1850-ci ildə hökumət müsəlman uşaqları üçün ibtidai məktəb açır, üç müəllim təyin olunur, əlli şagird qəbul edilir. Rus dili müəlliminə dövlət xəzinəsindən maaş verilirdi, iki müsəlman müəllimini isə camaat özü dolandırırdı. Yerli camaat təhsilə fikir vermir, hər kəs övladına öz sənətini öyrədirdi.

1872-ci ildə altıillik şəhər məktəbləri təsis edilir. Təhsil haqqını maarif müfəttişi valideynlərin maddi vəziyyətinə görə təyin edirdi. Dörd sinfi əla qurtaranlara gimnaziya və ya da realnı məktəblərinin birinci sinfinə daxil olmaq hüququ verilirdi.

Neft sənayesi inkişaf etdikcə, şəhər böyüdükcə təhsilə diqqət artırdı. Artıq 1890-cı illərdə Bakıda məktəblərin sayı 40-dan çox, şagirdlərin miqdarı isə xeyli çoxalmışdı.

Xaçpərəst qızları üçün «Marinski» gimnaziyasını və «Müqəddəs Nina» məktəbini təsis edirlər. 1891-ci ildə iki rus-tatar məktəbi, bir ildən sonra isə üçüncüsünü açırlar.

1892-ci ildə bələdiyyə idarəsi qərar çıxarır ki, şərabxanalar, çaxır satan dükanlar məbədlərdən - kilsə, məscid və məktəb binalarından - 130 metr uzaqlıqda olmalıdır.

Şəhərdə cəmiyyəti-xeyriyyənin bir neçə məktəbi vardı. Bələdiyyə idarəsi ilə üzbəüz binada yerləşək «Müqəddəs Nina» qız məktəbini rus cəmiyyəti-xeyriyyəsi açmışdı. Bu məktəbdə qızlara orta təhsillə yanaşı müasir elm və mədəniyyətdən də məlumat verirdilər.

Qocaman yazıçı Əbülqasım Hüseynzadə nəql edir ki, o zaman hökumət məktəblərində şagird qəbulu məhdud idi. Buna görə də «Cəmiyyəti-xeyriyyə» oğlanlar üçün birinci dəfə «Səadət» məktəbini açdı. İrandan Mirzə Ələkbər xan adında bir şəxs müdir dəvət edildi. O, Fransada Sorbon universitetini bitirmişdi. Fransız, fars, ərəb və türk dillərini mükəmməl bilirdi. Müasir elm və mədəniyyətdən xəbərdar idi.

İki-üç ildən sonra «Səadət» məktəbini başqa yerə köçməyə vadar etdilər.

Yeni binada alt-üst mərtəbələrdə iyirmiyə qədər otaq vardı. İldə səkkiz yüz manat kirayə verirdilər. Buraya savadlı müəllimləri dəvət etmişdilər: Əlibəy Hüseynzadə, qarabağlı Fərhad Ağazadə, Terequlov qardaşları, Əli və Hənifə, Hacıbəyov qardaşları, Üzeyir və Ceyhun, qubalı Musa Rza Əsgərli, Mikayıl Müşfiqin atası Mirzə Qədir İsmayılzadə. Bəhrambəy Axundov isə məktəbin həkimi idi.

Nəğmə dərslərini Üzeyir Hacıbəyov aparırdı.

Cəhalət nəticəsində xalqın əsrdən geri qaldığını ifadə edən şərqilər, qəmgin musiqi təranələri ətrafa yayılırdı:

Millətin halı nə yaman olmuş,
Hamının qəlbi qəmilə dolmuş,
Bir belə cəhalət olmaz, olmaz...
Bir belə cəfalət olmaz, olmaz...

Yoldan ötənlər ayaq saxlayıb nəğmələri dinləyirdilər.

«Səadət»in şagirdləri birinci sinifdən kitel geyərdilər. Düymələri sarı, hər qolda bir düymə, bir də mavi zolaq, papağın ortasında nişan, üstündə isə məktəbin adı yazılardı.

«Səadət»dən sonra Çəmbərə kəndində «Səfa» məktəbi üçün bina tikdilər. Burada kiçik yaşlı uşaqlar səs-səsə verib sabirin məktəb şərqisini oxuyurdular:

Məktəb, məktəb, nə dilguşəsən.
Cənnət, cənnət desəm cəzasan.
Şadam, şadam təfəründən
Əlan, əlan gözəl binasan.

İranlılar Sabunçuda «Təməddün», şəhərdə «İttihad» məktəblərini təsis etdilər. «İttihad» məktəbi Çəmbərə kəndində idi. Burada şagirdlərin xoş avazla oxuduğu:

Ey taci sərim, xoşbəxt pədərim,
Həsrət oduna yanır ciyərim.
Saç bir dəm atəşə ab,
Elmdən eylə bizi sirab.
Qandır ki, məktəb darilamandır,
Təhsili elm, cism üçün candır.
Bizə imdad et, məktəb abad et,
Bizi bir dəm şad et...

şərqisini tez-tez eşitmək olardı.

«İttihad»da şagirdlər dik, yaşıl boyunluqlu, qollarında yaşıl zolaq olan mahud kitel və eyni parçadan şalvar geyərdilər; qışda dəri papaq, başqa vaxtlarda isə drabi* papaq qoyardılar; papaqlarının qabaq tərəfində günəş və şir nişanı, bir də «mədrəseyi ittihad» sözləri həkk edilmiş metal gerb olardı.

Gimnaziya şagirdləri dördüncü sinfə qədər boz rəngdə mahuddan şalvar, kitel geyərdilər, düymələri gümüşü idi. Beşinci sinifdən isə yaxalı pencək, iri gümüşü düymələr, qollarında iki balaca düymə, ağ zolaqlı mahud şapka, qabağında gümüşü gerb. Axırıncı sinifdə qara kostyum, ağ köynək geyməyə və qara qalstuk bağlamağa icazə verilirdi. Gimnaziyada humanitar elmlərə - tarix, latın, yunan və fransız dili dərslərinə xüsusi fikir verirdilər. Tələbələr universitetə qəbul olmağa hazırlaşırdılar.

«Realnı» məktəbin geyim forması: dördüncü sinfə qədər qara mahuddan şalvar və gimnastyorka, düymələri qızılı, beşinci sinifdən mahuddan qara şalvar, qara kitel, qollarında iki qızılı rəngli düymə, sarı zolaqlı qara şapka, qabaq tərəfdə gerb...

Realnı məktəblərdə riyaziyyat, fizika, mexanika, ümumiyyətlə dəqiq elmlərə çox fikir verirdilər, ali texniki, texnoloji institutlara tələbə hazırlanırdı.

«Kamerçeski» məktəbinin şagirdləri isə qara diaqanaldan düymələri qızılı rəngdə olan forma geyirdilər. Burada ticarət, maliyyə, iqtisadi ali məktəblər üçün tələbə hazırlanırdı.

1881-ci ildə Bakıda dənizçilik məktəbi təsis edilir; bu da gündən-günə dənizçiliyə artan ehtiyacdan irəli gəlirdi.

Rus-tatar məktəblərinin geyim forması daha sadə idi.

Şagirdlər bellərinə enli toqqa bağlayırdılar, qabaq tərəfdə üç barmaq enliyində metal bağlayıcı, üstündə müvafiq məktəbin nişanı və yazısı həkk edilirdi. Ayaqqabısı tərtəmiz olmayanı məktəbə buraxmırdılar.

«Səadət» məktəbinin mühasibi nəql edirdi ki, bir dəfə Novruz qabağı kirayə pulunu vermək üçün mülk sahibinin evinə getdik. Bizi hörmətlə, mehribanlıqla qarşıladı. Qoca kişi idi. Çay gətizdirdi. Təsərrüfat müdiri 800 manatı ona təqdim etdi. Pulu alıb qoydu divanın üstünə. Bir az ordan-burdan söhbət etdik, getməyə hazırlaşanda təsərrüfat müdiri Novruz bayramı münasibətilə məktəbdə konsert veriləcəyini və şənlik məclisi keçiriləcəyini qocaya xəbər verdi. Və onu bu məclisə dəvət etdi. Qoca kişi üç dəfə əllərini bir-birinə vurdu. Qəşəng, bir qız gəldi. Qoca kişi ona nə isə dedi, qız gedib, tez də qayıtdı və kişiyə bir beş-yüzlük əskinas verdi. Qoca pulu təsərrüfat müdirinə uzatdı və dedi: «Bu pulla şagirdlərə Novruz bayramı hədiyyəsi, pal-paltar, dəftər-kitab alarsız. Pis çıxmamaq üçün siz gətirən puldan vermədim,

* Karton üstünə parça çəkilmiş papaq.

ürəyinizə gələrdi ki, kirayəni qəsdən qaytarıram. Mənim sinnim doxsanı aşıb. Ora gələ bilmərəm. Uşaqların dərsinin qeydinə qalın. Bayramlarını mənim dilimdən təbrik edin».

Deyilənlərə görə, o qəşəng qız vərəm azarına tutulubmuş. Ona görə də babası evin qabağında bağça saldırıb, həyət-bacanı döndərmişdi təbiətin gözəl bir guşəsinə. Həmişəyaşıl ağaclar, sarmaşıqlı bal çiçəyi, çoxlu qızıl gül əkdirmişdi. O zamankı Bakıda belə təmtəraqlı bağça çox böyük xərc tələb edirdi. Bağçada ağaclardan qəfəslər asmışdılar, minbir avazla quşlar oxuyurdu. Tovuzquşu saxlayırdılar. Qız tez-tez pianoda çalır, bağçaya düşdükdə gah talvarda, gah hovuzun yaxınlığındakı qamış kresloda dincəlir, jurnal, kitab mütaliə edirdi. Əlibəy Hüseynzadə skripka çalanda, qız ipək libasda düşüb bağçada gəzişirdi. Skripka təranələrindən qəfəsdəki bülbüllər ilhama gəlib, cəh-cəh vurardılar. Üzeyir Hacıbəyov uşaqlara pianonun təranələri altında nəğmə oxutdurardı.

«Səadət»də oxuyan şagirdlərin sayı get-gedə artır, bina darısqallıq edirdi. Mirzə Ələkbər xanı Tehrana çağırıb İsveçrəyə səfir yollayırlar, Əlibəy Hüseynzadəni onun yerinə müdir təyin edirlər. Binanın darısqal olduğunu «Cəmiyyəti-xeyriyyə»yə bildirirlər. Yığıncaqda təzə bina tikmək qərara alınır, Bir nəfər bənna ayağa durub deyir ki, mənim şəhərdə iki mülküm var. Onların birini, təzə bina hazır olana qədər, xırda balalara verirəm. Mən, bir də arvadım iki otaqda yaşayarıq, uşaqlara da göz-qulaq olarıq. Məclisdə böyük mülkləri olan dövlətlilər də vardı, lakin onların heç biri maarif yolunda adi bənna qədər fədakarlıq göstərmədi.

İndiki göz xəstəxanasının yeri qəbiristanlıq idi. «Səadət» məktəbi üçün binanı orada tikməyi qət etdilər. Zivərbəy Əhmədbəyov layihə hazırladı. Cümə günlərinin birində camaat qəbiristana gəldi. Axund dua oxudu. Köhnə qəbirləri söküb, sümükləri qutulara dolduraraq aparıb yuxarıdakı qəbiristanda basdırdılar. Binanın bünövrəsini qoydular və tikməyə başladılar; iki mərtəbəsi hazır olmuşdu ki, birinci dünya müharibəsi başladı. Tez-tələsik üstünü örtərək binanı çevirdilər yaralı soldatlar üçün xəstəxanaya.

Məktəblərdə təhsil pullu idi; valideynlər oxumaq haqqının yarısını tədris ilinin əvvəlində ödəməli idilər, əks təqdirdə uşağı məktəbə buraxmırdılar; az miqdarda kasıb və yetim uşaqlardan pul almırdılar.

Şagirdləri yaşlı adamlar məktəbə gətirib aparırdı, küçəyə tək çıxmağa qoymazdılar, cürət də etməzdilər. Min bir xata vardı. Qoçular dövlətli şəxşlərin uşaqlarını oğurlayıb, güclü pul alandan sonra buraxırdılar; odur ki, dövlətlilər uşaqlarını qorumaq üçün silahlı mühafizlər saxlayırdılar.

Binaların darvazaları gecə-gündüz bağlı olardı, arxadan möhkəmcə bərkidilərdi, iri qıfıllar vurulardı; dalandarlar darvaza üstündə yaşadıqları otağın pəncərəsindən gələnlərə baxar, yad, kənar adamı həyətə buraxmazdılar.

Darvazaların ortasında «bala qapı» vardı, gediş-gəliş ordan olardı; tez də arxadan bağlayardılar.

Bütün məhəllələrdə şəriət məktəbi - mollaxana vardı ki, uşaqlara əvvəl çərəkə, sonra da Quran oxumağı, ərəb hürufatını öyrədir, yazmağı da təlim edirdilər.

Mollanın amansız, qəddar cəza üsulları vardı: qısa, orta və uzun çubuq, fallağa, noxudun üstündə diz-üstə oturmaq. Mollaxananın avadanlığı: manqal, həsir, üstündə oturmağa şəlpə. Bunlar mollaxanaların «bəzəyi» idi. Adətən dərs keçilən otaq zirzəmidə, ya da birinci mərtəbədə yerləşərdi. Dərs otaqları torpaq-qır döşəmədən, palçıq suvaqlı divarlardan, tavanları çürük tir, köhnə taxtadan ibarət idi. Bütün bunlar vərəm, yel azarı və digər xəstəliklər mənbəyi idi. Xırda pəncərələr məktəbi dustaqxanaya oxşadırdı, içəri nəmli, ürək sıxan, qaranlıq və havasız idi...

Qızlar da mollaxanalarda mollabacıdan «təlim», «dərs» alırdılar; adətən Quranı alayarımçıq öyrənər, əsasən mollabacıya qaravaşlıq edər, onun uşaqlarına baxar, toyuq-cücəyə dən tökər, su qoyar, həyət-bacanı süpürər, quyudan su çəkərdilər. Tez-tez də mollabacının çubuğunun zərbəsini dadardılar.

## QAFQAZ MÜSƏLMAN MÜƏLLİMLƏRİNİN 1-Cİ QURULTAYI

Bəzi kitab və sənədlərdə Azərbaycan müsəlman müəllimlərinin qurultayı adlandırılır. 1906-cı ilin may ayında «Nicat» maarif cəmiyyətinin qiraətxanasındakı yığıncaqda müəllimlərin avqust ayında qurultayının çağırılması qərara alınır və aşağıdakı tərkibdən ibarət komissiya təşkil edilir: H. B. Zərdabi (Məlikov), F. Ağayev, N. Nərimanov, Ə. Cəfərzadə, A. Əfəndiyev, H. Mahmudbəyov, H. M. Hacıbababəyov, M. Y. Əfəndiyev, Ciddi hazırlığa başlanır. H. B. Zərdabi «Kaspi», N. Nərimanov «Həyat», F. Ağayev «İrşad» qəzetlərinə məktub yazır, qurultayın məqsəd və təkliflərini aydınlaşdırırlar.

Təsis komissiyasının sədri N. Nərimanov var qüvvəsilə çalışır, qurultayın açılmasına az qalmış dərs, təlim və müəllimlər barədə bir neçə məqalə yazır, onun açılış günü isə «Bu gün» adlı məqaləsini dərc etdirir.

1906-cı ildə, avqust ayının 15-də, səhər saat 10-da şəhər məktəbinin salonunda qurultay işə başlayır. Təsis komissiyasının sədri N. Nərimanov qısa giriş sözü ilə qurultayı açır. H. B. Zərdabi sədr, N. Nərimanov onun müavini, Fərhad Ağayev isə katib seçilir.

Qurultay Azərbaycanda xalq maarifinin bir sıra, mühüm məsələlərini: ibtidai və orta rus-tatar məktəblərində ana dilinin icbari bir fənn kimi təlimi, yeni dərs proqramının tərtibi, vahid dərs metodunun hazırlanması, kənd müəllimlərinin həyat şəraitinin yaxşılaşdırılması, Qori müəllimlər

seminariyasının (Azərbaycan şöbəsinin) Azərbaycanın şəhərlərindən birinə köçürülməsi və qadın təhsilinin inkişafı məsələsini müzakirə edir.

Qocaman müəllim Səmədbəy Acalov qurultayda baş verən ixtilafı belə izah edirdi: Bakıda məktəblər üzrə Livitski adlı bir inspektor vardı. Qatı irticaçı idi, hərəkət və rəftarında ayrı-seçkiliyə, yol verirdi. O, məktəblərdə bir gəlmə olsun belə azərbaycanca danışmağı qadağan edirdi: «Məbadə dərs zamanı bir gəlmə də olsa tatarca (Azərbaycanca) danışasız. Kim bu əmri pozsa müəllimlikdən qovulacaq». Müəllimlər dəhşətə gəlib nə edəcəklərini bilmirdilər. Onlar deyirdilər ki, «rus dilində ifadə etdiyimiz sözləri balaca uşaqlara nə sayaq başa salaq. «sabaka» sözünü it kimi hürüb «hamham», «pişik» sözünü «miyo... miyo»... edib əyan edək?! Tutaq ki, heyvanları, nəbatatın bəzilərini şəkillərlə izah etdik... Bəs başqa minlərlə cisimləri başa salmaq üçün hansı üsuldan, hansı vəsaitdən istifadə edək, nə tədbir görək!?» - Qurultay nümayəndələri qərara aldılar ki, belə yaramazlığa qarşı Livitskidən Qafqaz canişininə şikayət etsinlər və ana dilini sərbəst dərs kimi keçmək barədə sərəncam verilsin.

Teleqramı tərtib etmək qurultayın sədrinə tapşırıldı, H. B. Zərdabi tapşırığı yerinə yetirdi, teleqram mətnini nümayəndələrin nəzərinə çatdırmaq üçük oxudu, sonuncu cümlə belə qurtarırdı: «Qurultay ədalətli sərəncam verməniz xahiş edir». Nəriman Nərimanov bu cümləyə etiraz etdi: «Qurultay tələb edir! Xahiş yox».

Zərdabi həlim bir tərzdə izah elədi ki, «tələb» sözü canişinlikdə oturmuş çinovniklərin qəzəbinə səbəb olar, teleqramı cırıb atarlar, sərdara heç verməzlər, deyərlər siz nəsiz, kimsiz ki, tələbiniz də nə ola. Burada evimizin içində bir Livitskilə bacarmırıq, bizi saya salmır. Teleqramı sərdara versələr, hiddətlənər, təhsil işlərimizə əngəl törədər, Livitskiyə əhsən deyər, hələ üstəlik səlahiyyətini bir az da artırar. Xahiş daha müvafiqdir, nəzakətlidir...

Münaqişə başlandı. Hər kəs dediyinin üstündə dururdu. Nümayəndələr iki dəstəyə bölündü; təklifləri səsə qoydular. Nərimanovun «qurultay tələb edir» təklifi keçdi. Bu qələbədən qanadlanmış cavan bir müəllim bərkdən qışqırdı: «Əqil yaşda deyil, başdadır».

Qurultayda olan bu əhvalatı Hacı Zeynalabdin Tağıyevə xəbər verirlər. Əhvalat avqustun 21-də baş vermişdi.

Səhəri - avqustun 22-də Zeynalabdin Tağıyev qurultaya gəldi və Qafqaz canişininə göndəriləcək teleqram üstündə N. Nərimanovla toqquşması, ixtilafı oldu. Vəziyyət çox gərgin, adamlar əsəbi idi. Tağıyev müəllimlərə müraciətlə dedi: «Sizin dünənki qərarınız göstərir ki, qurultaya N. Nərimanov kimi uzağı görməyən adamlar rəhbərlik edir. Bilirsinizmi Nərimanov kimdir? Onun cibində bir qəpiyi yoxdur, mənim pulumla oxuyur. İndi gəlib burada inqilabi danışıq aparır, sizi də ağıldan-başdan çıxarmaq istəyir... Xahiş edirəm

dünənki qərarınızı dəyişin, çünki hökumət yanında bütün millətimizə ayıb gətirən işdir».*

Məclisdə dərin sükut var idi.

«Yoldaşlar! - deyə Nərimanov kürsüyə qalxıb asta bir tərzdə sözə başladı. - Mən də cənab Tağıyevdən təqaüd alanlardanam. Lakin mən bilmirdim ki, cənab Tağıyev yoxsul müəllimlərə kömək etmək istəyir ki, onların müstəqil fikirləri olmasın, hərgah indiyə qədər cənab Tağıyev tələbələrə ona görə kömək etmiş ki, onlar yalnız Tağıyevin dediyini desinlər; belə olduqda mən özümün keçmişimi və hal-hazırımı heç zaman ləkələyə, fəryad etmək lazım gələn yerdə susa bilmərəm. Başqalarının nəinki açıq danışdığı, hətta çar istibdadına qarşı azadlıq yolunda öz qanlarını tökdükləri bir zamanda, mən heç kəsə ixtiyar verməmişəm və imkan vermərəm ki, mənfur qızılın gücü ilə məni susdursun. Mən zəmanəmizin zalımlarından xilas olmaq üçün, gələcək nəsillərin özünü mənfur qızıla satmamaları üçün bütün qurultay qarşısında cənab Tağıyevin təqaüdündən məmnuniyyətlə imtina edirəm».**

Bu hadisə illər uzunu təkcə müəllimlərin arasında deyil, başqa sənət sahibləri içində də geniş söhbət mövzusu oldu.

Müsəlman müəllimlərinin 1-ci qurultayının faydalı, insani tədbirlərindən biri də erməni müəllimlərinə müraciəti idi. Bu müraciətdə deyilirdi: «İki qonşu xalq arasında çoxdan bəri əmin-amanlıq arzusunda olan biz sizin, avam kütlələrə əlbir təsir göstərmək çağırışınızı yekdilliklə qəbul edərək, böyük sevinclə öz əlimizi sizə uzadırıq. Müsəlmanlarla ermənilər arasında möhkəm sülhün faydasını xalqa başa salmaq kimi müqəddəs vəzifəni sizinlə birlikdə yerinə yetirəcəyik».*

***Mətbuat.*** Dövri mətbuat son iki yüz ildə xüsusi vüsət tapmışdır. Əsrlər uzunu isə xəbərlər ağızdan-ağıza yayılardı. Əyalətlərə xüsusi qasidlər göndərib hökumətin qanun, qərar və sərəncamlərını hakimlərə və xalqa çatdırardılar. Dövlətlər arasındakı əlaqələr də elçilər və diplomatlar vasitəsilə yaranırdı. Şəhərlərdə sarçılar küçəbəküçə gəzib car çəkərdilər. Böyük şəhərlərdə hər məhəllənin öz carçısı vardı. Mədəniyyət, elm-texnikanın inkişafı nəticəsində maşınlar meydana gəldi, kitab, qəzet, jurnal çap edilməyə başladı, bununla da mətbuat yarandı. Ölkələrin inkişaf səviyyəsindən və ədəbiyyata ehtiyacdan asılı olaraq çap edilən əsərlərin, qəzet, jurnalın miqdarı artdı.

Azərbaycanda milli mətbuatın tarixi 1875-ci ildən «Əkinçi» qəzetinin nəşri tarixindən başlayır. Həsənbəy Zərdabinin o qəzeti nəşr etmək üçün çəkdiyi əzab-əziyyət hamıya məlumdur. Azərbaycan dilində çıxan qəzeti nəşr etməyə icazə almaq üçün o üç il çalışmışdı. Qəzet çıxan müddətdə o,

---

* Н. Нариманов. Собранные сочинение, т. 1, М-, 1926, стр. 6.
** Yenə orada.
* Azərbaycan tarixi, 1964, səh. 883.

dəfələrlə jandarm idarəsinə çağırılıb, sorğu-suala tutulmuşdu... Qaragüruhçular da onu çox incidib, təhqir və ölümlə təhdid etmişdilər. Qəzalara, kəndlərə qəzeti bəzən pulsuz yollayardı ki, qaranlıq mühitə azsa da olsa ziya, işıq saçsın. Çox vaxt qəzet maddi ziyan gətirirdi. «Əkinçi» ayda iki dəfə balaca vərəqədə çıxırdı. Bütün işləri: məqalə yazmaq, material toplamaq, çap etməyi Həsən bəy tək özü görürdü. Dünyada baş verən bütün hadisələrdən, daxili və xarici xəbərlərdən, ölkələrin vəziyyətindən, elmdən və ədəbiyyatdan, maarifdən və mədəniyyətdən, iqtisadiyyatdan, xüsusən kənd təsərrüfatından, tibbdən, texnikadan yazırdı... Toxunmadığı sahə qalmırdı. Həsən bəy eyni zamanda Bakı realnı məktəbində dərs deyir, rus qəzet və jurnallarında da elmi, siyasi-ictimai, ədəbi-tənqidi məqalələr dərc etdirirdi. Xurafat, mövhumat və bəy-xan-dövlətli zülmünün amansız düşməni idi. «Əkinçi» qəzeti hər nömrəsində zülmkarları ifşa edirdi. Qadın azadlığının alovlu carçısı idi... Lakin «Əkinçi» uzun yaşaya bilmədi, iki ildən sonra bağlandı... Həsən bəy Zərdabini realnı məktəbdən, müəllimlikdən də xaric etdilər və Bakıdan sürgün olundu... Lakin onun yandırdığı məşəl sönmədi, gündən-günə daha da alovlandı.

Bakıda neft sənayesinin inkişafı ilə əlaqədar nəşr edilən qəzet və jurnalların da sayı get-gedə artırdı. Onlardan bir neçəsinin adını çəkmək olar: «İttifaq!», «Tərəqqi», «Səda», «Sədayi-haqq», «Həyat», «Taza həyat», «Hümmət», «Bakinski raboçi», «Dəvət-Qoç», «Təkamül», «Yoldaş» və sairə bolşevik qəzetləri, Burjuaziya qəzetləri «İrşad», «Kaspi», Jurnallardan: «Fyüzat», «Yeni Fyüzat», «Arı», «Babayi-Əmir», «Zənbur», «Tuti», «Məzəli», «Şəlalə», «Kəlniyyət», Tiflisdə çıxan «Molla Nəsrəddin». O zamana qədər ədəbiyyatımızda olmayan ədəbi janrlar: «hekayə», «poema», «oçerk», «povest», «roman» meydana gəldi; əsrlər uzunu ədəbi mühitdə hökm sürən «mərsiyə», «qəsidə», «həcv», «mədh»in mövqeyi get-gedə sarsılmağa başladı.

Rusiyadan və Avropadan gələn demokratik ədəbi, siyasi cərəyanlar xalqın mənəviyyatına nüfuz edir, yeni məfkurələr aşılayırdı, camaatın gözünü açır, şərq ətalətindən, qəflət yuxusundan oyadırdı. Yeni üslubda yazan şairlər, ədiblər, jurnalist və tənqidçilər əsrlə səsləşməyə, ayaqlaşmağa çağırırdılar.

***Rəssamlıq.*** Müəllimimiz rəssam Əmir Əfəndi Hacıyev nəql edirdi ki, rus və Avropa mədəni-ictimai təsiri nəticəsində Bakıda yeni dövr rəssamlıq sənəti, realist rəsmlər yarandı. Əlibəy Hüseynzadənin «Bibi-heybət məscidi» və «Çeşmə başında»kı əsərləri bu cəhətdən xüsusi yer tutur. Əzim Əzimzadə isə o zamanlar deyildiyi kimi, Azərbaycanın yeganə, peşəkar rəssamı idi, Azərbaycanda karikatura şarj məktəbinin banisi idi.

Əzim Əzimzadə hələ rus-tatar məktəbinin şagirdi ikən şəkil çəkməyə böyük meyl göstərir. Milyonçu Ağa bala Quliyevin dəyirmanında kuryer işləyəndə, tale üzünə gülür, sahibkarın Persidski (Poluxin), Karantini (Həzi

Aslanov) və Gimnazist (L. Tolstoy) küçəsində tikdirdiyi təmtəraqlı mülkün interyerini bəzəyən rəssam Durovla tanış olur.

Durov sahibkarın istəyinə, zövqünə uyğun divarları İstambul mənzərələri, Ərəbistan səhnələri, qədim memarlıq ornamentləri ilə bəzəyirdi. Əzim ilk dəfə idi ki, yağlı boya ilə işləyən rəssama rast gəlirdi. Durov eşidəndə ki, Əzim az-çox akvarellə işləməyi bilir, başlayır ondakı rəssamlıq həvəsini artırmağa, hərtərəfli kömək etməyə. Əzim də öz növbəsində Azərbaycan, şərq və müsəlman xalqlarının bir sıra etnoqrafiyasına, adət-ənənələrinə xas olan cəhətləri rəssama başa salır, rəsmlərin realist səpkidə yaranmasına köməklik göstərir.

Əzim yorulmadan sevimli sənətini davam etdirir: «Molla Nəsrəddin» jurnalına şəkillər göndərir və karikatura janrına xüsusi fikir verir. Mətbuatda ardıcıl çıxış edir, əsərləri «Zənbur» jurnalında dərc olunur. Məktəblərdə rəsmdən dərs deyir; eyni zamanda tarixi mövzularda rəsmlər çəkməkdə davam edir, portretlər yaradır. Bakıda çıxan «Kəlniyyət», «Baraban», «Məzəli», «Babayi-Əmir», «Tuti» jurnallarında fəaliyyət göstərir. Bəzən həftədə 10-15 rəsm əsəri işləməyə məcbur olur. Rəsm etdiyi karikaturaları bəzən özgə adla imzalayır. O, bütün mənfi cəhətləri satira qamçısı ilə döyür, yumor gülüşü ilə lağa qoyurdu.

Şerimizin, ədəbiyyatımızın seçilmiş əsəri «hop-hopnamə» kitabının ilk rəsmləri Əzimzadənindir. O, jurnal, məcmuə və kitablara da illüstrasiyalar çəkmişdir.

1919-cu ildən 1926-cı ilə qədər təşviqat-təbliğat məqsədilə konsert və teatr tamaşalarına karikatura və şarjlar çəkirdi.

* * *

Cahana gəlmədən məqsəd nədir insana, bilməm ki?
Həqiqətmi bu xilqət, yoxsa bir əfsanə, bilməm ki?
Mən idrak etmədim dünyaya gəlməkdən nədir hikmət,
Yaratmaqdan nədir məqsəd bizi sübhanə, bilməm ki?

***M. Hadi***

***Romantik şairimizin faciəsi.*** Böyük söz ustadı Məhəmməd Hadinin həyatı əvvəldən axıra qədər təlatümlü dəniz təki dalğalanmışdı. Qırx illik ömrü əzab və əziyyətlərlə sona çatmışdı. Yaradıcılığının ən coşqun dövrü Bakıda keçdiyindən bu şairi xatırlamamaq mümkün deyil. Kitablarına, şerlərinə verdiyi adlar, sərlövhələr: «Firdovsülhamat», «Eşq möhtəşəm», «Şükufeyi-hikmət», «Təraneyi qəmpərvəranə», «Dünya səhneyi qəmdür», «Cins lətif», «Zavallı könlüm», «Ulduzlara doğru» və sairə onun nə qədər xəyalpərvər olduğunu göstərir.

Hadi şairlər məskəni Şamaxıda anadan olmuş, uşaq ikən atasını itirmişdir. Uşaqlıq və gənclik illəri ehtiyac içərisində, ağır keçmişdir. Dərd-

qəmini dağıtmaq üçün tez-tez ətraf dağlarda, meşələrdə gəzir, güllərdən, çiçəklərdən, quşların təranələrindən təsəlli tapmağa çalışır... Aylı gecələrdə sükuta dalmış aləmi, asimanə səpələnmiş saysız-hesabsız səyyarələri, göy üzünü bəzəyən ayın hüsnünü seyr edə-edə xoşbəxt, asudə, kədərsiz aləm axtarır. Çox güman ki, təbiətlə bu bağlılıq Hadinin gələcək şerlərinə zəmin yaradır, insan həyatını öyrənməyə, müəmmalı aləmin, kainatın sirrini anlamağa çalışır. Şamaxıda yaşadığı vaxtlarda qiraətxanada Azərbaycan, ərəb, fars, rus dillərində olan qəzetləri, jurnalları, kitabları mütaliə edir. İlk təhsilini Abbas Səhhətin atası Molla Əliabbasın məktəbində alır. Sonra Sarı torpaq məhəlləsində, məscid hücrəsində, şair Suxtə təxəllüslü Əhməd Əfəndinin şagirdi olur. Hadi sonralar bu müəllimindən tez-tez söhbət salarmış. Mütaliə etdiyi məcmuə, kitab və qəzetlərin təsiri altında da hürriyyət aşiqi olur, istibdad və mütləqiyyətə nifrət edir, düşmən kəsilir. Tanınmış müəllimlərdən Əliməmməd Mustafayev nəql edirdi ki, Şamaxıda bir dəfə adamlar usta Sarinin dükanına yığışıb Hadinin söhbətinə maraqla qulaq asırdı. Çox şirin danışırdı. Türkiyə soltanı Əbdülhəmidi başladı pisləməyə ki, cəlladdır, zalımdır, qan içəndir. Qəssab Hacı Nemət çapacağı götürüb Hadiyə hücum edir; Hadi çapacağı onun əlindən alıb, tullayır dama. Hadi olan yerdə ruhani və alimlar danışmağa çox da cəsarət etmirdilər. Quranı əzbərdən bilirdi və oxuya-oxuya mənasını deyirdi, tərcümə edirdi. «Şahnamə»dən çoxlu şer bilirdi. Firdovsi, Nizami, Xəyyam, Hafiz, Sədi və başqa dahi şairlərin şerlərindən bəzilərini tərcümə etmişdi. Fransa şair və alimlərindən Valter, Russo, Hüqo və başqa sənətkarların əsərlərindən xəbərdar idi. Rus demokratik ədəbi cərəyanını izləyirdi. Hadi şerlə yanaşı ədəbi, ictimai, siyasi və elmi məqalələr də yazırdı. Cəhalətdən xilas yolunu maariflənməkdə, savadlanmaqda görürdü. Bu mövzuya xeyli şer və məqalə həsr etmişdi. Mülkədar zülmündən və aclıqdan şəhərə qaçmış ac-yalavac, kasıb kəndlilərin bir loxma çörək üçün küçələrdə sərgərdan gəzdiklərindən, gecələr meydanlarda, soyuqda, küləkdə, yağışda qalmalarından, qarda-şaxtada üşümələrindən ürək ağrısı ilə yazırdı. Gənc yaşlarında gözəl bir qızla sevişir, qızı varlı bir tacirə ərə verirlər. Şair isə məhəbbətinə ömrünün axırına qədər sadiq qalır, evlənmir.

Dövlətli qohumlarına yalvarır ki, məni İstambula, ya da Tehrana oxumağa göndərin. Xahişini rədd edirlər, arzusu da, eşqi kimi puç olur. Məyus şair dərdini şerlə belə ifadə edir:

Varmı bundan yuxarı uçmağa istedadım,
Qabiliyyət pərimə zəxm vurub ustadım.
Oxumaqçün nə qədər dadü-fəğan etdimsə,
Olmadı zərrə əsərbəxş şu istimdadım,
Dağa dersən, eşidir, sonra verir əksi-səda,
Daşa dönmüşlərə kar eyləmədi fəryadım.

Olmadan naili didar əməl qəbrə girər,
Eşqi-şirini-ümid ilə yazıq Fərhadın.
Acizəm tərcümeyi-halimi təhrirə, səbəb
Doludur təlxi-həqiqətlə dili-naşadım.

Bu şer Hadinin qanlı göz yaşları ilə yazılmış tərcümeyi-halıdır.

1902-ci ildə, şaxtalı bir qış günündə, Şamaxı zəlzələdən dağılır.

Xarkov şəhərində texnoloji institutu bitirmiş ilk Azərbaycanlı mühəndislərdən və texniki təhsil müəllimlərindən biri dosent Hacıbaba Əliyev nəql edirdi ki, zəlzələ olanda on bir-on iki yaşım vardı. Yer titrəyəndə nənəm məni qamarlayıb keçdi eyvana. Zəlzələdən dağılan evlərin gurultusu, yerdən qalxan toz dumanı, azca ara sakitləşəndə adamların qışqırıq, ağlaşma səslərindən, ah və fəryadlarından az qalırdı adamın bağrı yarılsın. Məhəllələr yerlə yeksan idi. Torpaq altında çoxlu adam qalmışdı, ölən və yaralanan da çox idi. Salamat qalanlar canını götürüb şəhərin kənarına qaçırdı. Çox çətinliklə çadır, alaçıq qurdular. Tonqal qalayıb azyaşlı uşaqları dövrələmə oturtdular. Adamlar əllərində bel, külüng torpaq altında qalanları xilas edirdi. Ətraf kəndlərdən keməyə xeyli adam gəlmişdi... Üçüncü gün bir nəfəri zirzəmidən çıxardanda qardaşına deyirdi ki, «Sən yuxarıdan qışqırıb məni çağırırsan, eşidirəm, hay verirəm, səsim sənə çatmırdı». Dördüncü gün Bakı kömək əlini uzadır: ərzaq, çadır, yorğan-döşək, pal-paltar gəlib çıxdı. Karvanda yüzdən çox dəvə vardı. Səksənə qədər furqon da şey-şüy gətirmişdi. Bütün Bakıda zəlzələdən xəsarət çəkənlərə 5 manatdan 500 manata qədər kömək yığmaq elan edilib.

Hökumət dairələri isə yalnız doqquzuncu gün hərəkətə gəldi.

Qarlı, şaxtalı havada adamlar çöllərə düşür, doğma yurdunu tərk etməyə vadar olurlar... Hadi də bu sərgərdan adamlarla Kürdəmirə gəlir, balaca bir məktəb açır. Yazdığı şerləri qəzetlərə göndərir. Sonra Bakıya köçür. Hindistandan «Həblül mətin», Krımdan, Baxçasaraydan «Tərcüman», İstambuldan «Sabah», Daşkənddən, Tehran və Təbrizdən qəzet, jurnal və kitablar gətizdirir.

1903-cü ildə ölkədə inqilabi hərəkat genişlənir. Rusiyanın bütün sənaye şəhərlərində olduğu kimi Bakıda da izdihamlı tətil və nümayişlər şəhəri lərzəyə salır. Mədən, zavod, gəmi tərsanələrinin fəhlələri, nəqliyyat işçiləri əllərində Qızıl bayraqlar küçələri dolaşır, mütləqiyyəti lənətləyir, hürriyyət tələb edirlər.

Meydanlarda natiqlər çıxış edir: «Hürriyyəti-kəlam», «Hürriyyəti-əməl», «Hürriyyəti-nisvan» istəyirlər.

Azərbaycan fəhlə sinfinin genişlənən inqilabi mübarizəsi azadlıq aşiqi Məhəmməd Hadinin yaradıcılığına böyük təsir edir. Birinci Rusiya inqilabı

illərində Hadi mətbuatda, bolşevik qəzetlərində çıxış edir. O, bolşevik «Təkamül» qəzetində hürriyyətə şerlər həsr edir:

Azadə gərək şəxs, süxən, fikr ilə xamə,
Hər kəs gələ hürriyyət ilə şövqə, xuramə.
Ta kim ola insan qədəməndaz məramə...

«Yoldaş» qəzetində çap edilmiş başqa bir şerində deyir:

Minlərlə binəva quru yerlərdə can verir,
Beş-on ləin naili dəryayi nemətin....
Hər kəs gərək bərabər ola, hər hüquqda,
Ehsanidir bu örz bizə dəst-qüdrətin...

Digər şerində isə:

Qaldıq əlində bir sürü ərbabı vəhşətin,
Olduq əsiri pencəyi-qəhri-müsibətin,
Hər səmtdən atılmadadır tiri-cangüdaz,
Yoxdur önün alan bu xədənki-fəlakətin.

Hadi köçüb Həştərxana gedir, orda qəzet mühərriri olur, ümidləri orada da boşa çıxır, yenə Bakıya qayıdır.

Türkiyədə Soltan Əbdülhəmidi taxtdan salırlar. «Gənc türklər» hakimiyyət başına keçir. Çarizmin irticasından xilas olmaq arzusilə Məhəmməd Hadi 1910-cu ilin əvvəlində İstambula gedir. «Tənin» qəzetində şərq dilləri tərcüməçisi işləməyə başlayır. «Rübab», «Şahübal», «Mahitab» və «Hilal» qəzetlərində əsərlərini dərc etdirir. O zaman İstambulda belə bir vəzifədə çalışmaq və o cür qəzetlərdə əsər dərc etdirmək o qədər də asan deyildi. Müəllifdən dərin məlumat, kamil bilik, mükəmməl savad və iti qələm tələb olunurdu. Xəyalpərvər şair Türkiyədə gördüklərindən dəhşətə gəlir. Axtardığı mücərrəd həqiqəti, utopik hürriyyəti burada da tapa bilmir... Onun məqalələri qaragüruhçuları duyuq salır. Qadın hüququ, qadın azadlığı barədə yazdığı şerlər səs-küyə səbəb olur.

Böyük ümidlərlə getdiyi İstambulda başına olmazın müsibətlər gəlir. Yüksək rütbə sahibini təhqir etmək üstündə onu həbsə alırlar və Salonik şəhərinə sürgün edirlər. Yunanlar Hadinin əlinin incə və ağ olmasından, nəzakət və rəftarından onu türk casusu hesab edir, öldürmək istəyirlər. Bir yunan keşişi onu himayəsinə alıb, xilas edir. Salonikdə, sürgündə olanda çox ağır və acı həyat keçirir. Günlərlə ac qalır. Sürgündən qayıdandan sonra İstambulda qalmır, vətənə - Bakıya dönür. Məğrur şair sarsılır, ağır iztirab, cismani zəiflik, ehtiyac onu üzür, axırda ruhi xəstəliyə tutulur. Ruhi

xəstəxanada yatır. Müalicə olunub xəstəxanadan çıxdığı vaxt Birinci dünya müharibəsi başlayır. Məhəmməd Hadi Səlib Əhmər (qırmızı xaç) dəstəsilə cənub-qərb cəbhəsinə (könüllü) gedir.

İmperialist müharibəsinin dəhşətlərinin canlı şahidi olur. Viran qalan mülkləri, tar-mar olan kənd və şəhərləri, doğma ev-eşiyindən sərgərdan düşmüş yüz minlərlə fəqir-füqəranın, qoca, uşaq və qadınların fəlakətini, min bir xəstəliyə mübtəla olanları, insanların bir-birini qırmasını görür. Müharibəni lənətləyir. «Meydani hərb xatirələrindən» sərlövhəsi altında Bakıya şerlər göndərir. Şair «Karpat lövhələri» silsiləsindən Lehistanın kənd və şəhərlərində gördüyü şairanə mənzərələri, sadə insanların səmimiyyətini ustalıqla qələmə alır. «Hərb müsəlləs» şerində müharibə törədənləri qəzəblə ifşa edir:

Dəryada hərb, yerdə də hərb, asimanda hərb,
Ey aləmin ilahi, nədir bunca hərbü zərb.
Dünyada hərb al yazılı bir kitabdır,
Son bayrağında son sözü: «hökmi-limən qələb».
Həp dalğalı dənizlərə bənzər həyatımız,
Başdan-ayağa qan yeridir kainatımız.

Böyük şair müharibə dəhşətlərini təsvir edərkən axırda heyrətlə yazır:

Yağmırmı? Xeyr! Göyün odlar saçır yerə,
Mövtün üqabi balü pər açmış səmalara.
Buldum bir ad bu torpağa-səyyarə məqbərə,
Səyyarə məqbərin dönüyor indi məhşərə...

Məhəmməd Hadi 1918-ci ildə cəbhədən Gəncəyə qayıdır, baş verən dəyişiklikləri görür, əsrdən geri, hadisələrdən kənarda qaldığımızı kədərlə yazır:

İmzasını qoymuş miləl evraqi-həyatə,
Yox millətimin xətti bu imzalar içində.

O, müsəlman alayına imam təyin edilir. Görənlər nəql edirdi ki, Hadi əynində çərkəzi çuxa, belində şəmşir, papağının dövrəsində nazik sarğı, yəhərli atın üstündə uzaqdan nəzərə çarpırdı.

...Həmin ilin payızında Hadi Bakıya gəlir, ədəbi fəaliyyətə başlayır, qəzet və məcmuələrdə məqalə və şerlər dərc etdirir. Şerlərində Vətəndən ayrı düşəndən sonra sanki Azərbaycanı bağrına basıb, oxşayır, əzizləyir:

Ey Vətən, ey beşik həyatım üçün.

Yenə sən aç qucaq məmatım üçün.
Mədfənim səndə, məqbərim səndə,
Ölməyim səndə, son yerim səndə.
Səndə pək çox təbii sərvət var,
Bizdə də bilik yox, cəhalət var.
Cəhlimiz çox, kəmalimiz yoxdur.
Uçmağa şahbalımız yoxdur.
Seyr üçün asimani ürfani
Görməyə kainat rəhmani,
Pərubalu kəmal lazımdır...

Məhəmməd Hadi get-gedə bədbinləşir, mühit ona daha da yadlaşır. Ümidini hər şeydən üzür. Şerlərini gah Səməd Mənsurun «Turan», gah Hacı Zeynalabdin Tağıyevin «Kaspi», arabir Qafur Rəşadın «Məktəb», ya da ki, Orucov qardaşlarının «Elektrik» mətbəələrində mürəttib və fəhlələrin köməyilə uzun vərəqələrdə dərc edib, küçələrə düşüb biri iki şahıdan, bir abbasıdan satıb ruzu pulu qazanır, heç kəsə boyun əymir.

Müəllim Əliməmməd Mustafayev nəql edirdi ki, Hadi artıq taqətdən düşmüşdü, əynində nimdaş çuxa, qara şalvar, ayaqlarında köhnə çəkmə gəzərdi. On doqquzuncu ildə Nikolayevski (Kommunist) küçəsində durmuşduq. Bu vaxt bizdən aralı bir maşın dayandı. Avtomobildən Müsavat hökumətinin baş naziri düşdü, şairə yaxınlaşıb salam verdi və dedi: «Hadi əfəndi, xahiş edirəm, buyurun maşına, bərabər gedək. Siz bizə lazımsız». Şair onu dərin, mənalı tərzdə süzüb, məğrur bir səslə dedi: «Gedin! Şairinki nazirlə tutmaz!»

Əliməmməd Mustafayev başqa bir əhvalat da danışırdı: «On doqquzuncu ildə, Novruz bayramı münasibətilə qadınları təbrik etmək üçün təntənəli, böyük bir yığıncaq düzəldirlər. Bütün ziyalılar - müəllimlər, artistlər, musiqiçilər, şair və yazıçılar iştirak edəcəkdi. Qocaman maarif xadimi Əlicabbar Orucəliyevlə mən «İsmailiyyə»nin qabağında Məhəmməd Hadiyə rast gəldik. Əlicabbar şairi məclisə dəvət etdi: «Hadi əfəndi, sabah, qadınlara həsr ediləcək yığıncağımız olacaq. Bədəlbəy məktəbində. Xahiş edirik təşrif gətirin». Hadi soruşdu: «Üstünüzdə kağız-qələm varmı?» Əlicabbar kağız-qələm verdi. Kağıza bir beyt yazıb Orucəliyevə qaytardı: «Əlicabbar, bu şeri, qadınlar məclisində mənim adımdan oxuyarsan» dedi. Beyt belə idi:

Üzünə, haqqına çəkir pərdə
Olmuş ikən südünlə pərvərdə.

Təkid etdikdə ki, gəl məclisə, məyus bir tərzdə dedi: «Əlicabbar əfəndi, bu üst-başla, bu libasda, bu qiyafətdə mən ora gələ bilərəmmi?! Dəvət üçün çox sağ olun. Şeri oxuyarsız, elə o bəsdir».

Saç-saqqalı ağarmışdı. İldırım vurmuş, qol-budaqları vaxtsız qırılmış, şaxələri sınmış, yarpaqları tökülmüş palıd ağacına oxşayırdı. Hərəkətləri ağır, özü yorğun, üzüntülü bir görkəmi vardı... Amma gözlərindən hələ də zəka və qürur yağırdı. Polad kimi sınmağa razı idi, əyilmək niyyətində deyildi».

Şerlərindən birində bir loxma çörək üçün heç kimə baş əyməməyi məsləhət görürdü:

Kimsəyə qılmaz təməllüq haqpərəstan nan üçün,
Caki-ismat eyləməz alicənaban naç üçün,
Ab-neyabi-əfvani tökməz insan, nan üçün,
Tərk məslək eyləməz ərbab ürfan, nan üçün.

Əliməmməd Mustafayev nəql edirdi ki, iyirminci il may ayının ilk günlərində «Çanax Qala» kafesində oturub, Hadi ilə bərabər qayğanaq yedik, kofe içdik. Birlikdə çıxıb Nikolaysk küçəsinə tərəf gedəndə xalq ədliyyə komissarı Əliheydər Qarayevə rast gəldik. Ayaq saxlayıb bizimlə görüşdü, Hadidən hal-əhval xəbər aldı. Hadi: «Belə inqilabi kəbirdən sonra mən də hamı kimi xoşbəxt, azad dünyaya qədəm qoymuşam, - dedi. – Ağakərim oğlu Əliheydər, tarix bəşərdə baş vermiş bütün qovğa, məğlubiyyət və qələbələrdə heç bir zaman, heç kəs şərabı qadağan etməmişdi. Siz bolşeviklər qadağan etdiniz. Bəşəriyyəti bu bəladan da, bu faciədən də xilas edə bilsəniz, alqış sizə. - Azca fikirləşib əlavə etdi. - Heç yerdə şərab tapılmır. Amma - əlini qoltuğuna salıb araqla dolu balaca bir şüşə çıxartdı, - amma mən tapmışam. Mənzilə gedib içəcəyəm, hər şeyi unudacağam. Mənzil dedikdə, güman etmə ki, sizin burjuylardan müsadirə etdiyiniz təm-təraqlı kaşanalardandır. Xeyr! Quba meydanında, karvansaranın bir küncündəki «qapıdan» zorla yanakı keçə bildiyim kahadır».

Qarayevdən ayrıldıq. Məhəmməd Hadi nə fikirləşdisə, astadan şer oxumağa başladı:

Ey ol vəqti görən məsud, unutma, bizləri yad et,
Bu yolda həsrət ilə can verən əhbabi tədad et,
Məzarım üzrə gəl, dur, qəmli-qəmli ağla, fəryad et.
Oxu bu şeri qəbrimdə ələttəkrar övrad et,
Dur, ey zindani-nisyanda yatan, azad olub aləm,
Sürurabad - hürriyyət gəlib, dilşad olub aləm.

***Memarlıq abidələri.*** Bakının inkişafı ilə yanaşı şəhərdə teatr binaları, kino salonları, əyləncə evləri də artırdı. Azərbaycanda ilk milli teatrın binasını Hacı Zeynalabdin Tağıyev 1883-cü ildə tikdirir. Layihənin müəllifi memar Koqnovitski idi. Qadınları teatra buraxmazdılar, kişilər başlarında papaq otururdular. Sonralar qadınlar üçün lojaların bir neçəsində cunayi pərdələr çəkdilər ki, üzləri görünməsin; pərdə arxasından səhnəyə tamaşa edirdilər.

Bu binada ən fövqəladə tamaşa 1908-ci il yanvarın 25-də «Leyli və Məcnun» operası olub. Üzeyir Hacıbəyovun bu əsəri təkcə Azərbaycanda yox, bütün Şərqdə, bütün müsəlman aləmində ilk opera idi. Bu, mədəniyyət tariximizə qızıl hərflərlə yazılmış şanlı, fərəhli bir səhifə idi.

«Leyli və Məcnun» tamaşasının rejissoru Hüseyn Ərəblinski, Məcnunun rolunu məşhur sənətkar, xanəndə Hüseynqulu Sarabski ifa edirdi.

Müsəlman teatrı binasında erməni truppası da həftədə bir dəfə öz dillərində tamaşa verirdi. Tağıyev özü icazə vermişdi və heç bir kirə haqqı almırdı.

Opera teatrı üçün tikilən binanın tarixi çox maraqlıdır. 1910-cu ildə Bakıya məşhur bir xanəndə qadın gəlir, səsinin ahəngi, özünün gözəlliyi, qəşəngliyi ilə Bakı milyonçularının diqqətini cəlb edir, başlarını gicəllədir. Milyonçu Mailov qardaşlarından böyüyü bu xanıma bərk vurulur, ona əlindən gələn «hörməti» edir. Brilyant üzüklər, sırğalar, zərli-zibalı parçalar, libaslar, boyunbağılar, bilərziklər, qolbaqlar bağışlayır.

Mailov qardaşları balıq-kürü taciri idilər. Kür qırağında vətəgə icarəyə götürmüşdülər. Balıq-kürü hazırlayan sexləri vardı.

Professor S. M. Apresov deyirdi ki, müğənni xanıma vurulan Mailov yekəpər, cüssəli bir kişi idi.

Xanəndə xanım gah Birja (Üzeyir Hacıbəyov) küçəsində, gah da ağac və taxtadan tikilmiş «Sirk» binasında, gah da «Qış» klubunda konsert verirdi. Böyük də müvəffəqiyyət qazanırdı. Qastrol başa çatanda xanəndə xanımın şərəfinə «Kazino»da təntənəli vida ziyafəti düzəldirlər.

Söhbət zamanı xanımdan soruşurlar ki, «bizim şəhərə bir də nə vaxt gələcəksiniz?»

Xanım başını bulayıb cavab verir ki, «yəqin ki, heç haçan. Çünki mən sirk və kazino salonlarında oxumağa adət etməmişəm. Sizin bu gözəl, zəngin Bakıda, səxavətli cəngavərlər yaşayan dövlətli şəhərdə münasib bir opera binası yoxdur ki, müğənni istedadını, məharətini nümayiş etdirə bilsin»

Mailov xəbər alır: «Xanım, indi hara gedirsiz, nə qədər müddətə?»

Müğənni xanım Yaponiyaya qastrola getdiyini və bir ildən sonra qayıdacağını bildirir.

Mailov deyir ki, bir ildən sonra bizim şəhərə gəlin, münasib bina hazır olacaq və onu siz açacaqsınız.

Razılaşırlar.

Mailov opera binasını layihələşdirməyi arxitektor Bayeva tapşırır və deyir ki, bu, Tiflisdəki opera binasına oxşamaqla yanaşı ondan daha gözəl, daha üstün olmalıdır.

Hacı Zeynalabdin Tağıyev həmin əhvalatı eşidir və Mailova rast gələndə, söhbət əsnasında teatr binasının tikilməsini xəbər alır. Mailov cavab verir ki, memar Bayev Tiflisdəki opera teatrının çertyojları ilə tanış olub qayıdıb, indi gecə-gündüz bizim layihə üzərində işləyir. Hacı Zeynalabdin deyir ki, ağlım kəsmir, o boyda binanı bir ilə tikib başa çatdırmaq olsun! Mən özüm bənna, sonra da podratçı olmuşam, çox da ev tikmişəm. Hər şeyi bilirəm. Çətin işdi.

Mailov gülümsəyib deyir: «Hacı, gəl mərcləşək. Əgər bina bir ilə hazır olmasa, mən onu başa çatdırıb verərəm sənə, olar səninki, xərci məndən. Yox, əgər başa çatdırsam, çəkdiyim xərci sən ödəyərsən, bina qalar mənə».

Razılaşırlar. Mailov binanı bir il əvəzinə səkkiz aya tamamlatdırır.

Səs bayıra yayılmasın, içəridə qalsın deyə tavana başdan-başa ikiqat qalın məxmər, onun üstündən də keçə döşəyiblər...

Mailov xanəndə xanıma teleqram vurur; o da Bakıya gəlir və operanın açılışında iştirak edir və birinci mahnını oxuyur. Şəhərin varlı adamları, musiqi və teatr ustaları açılışda iştirak edirlər. Xanəndə xanım ariyanı qurtaranda başına pul yağır. Səhnə başdan-başa gül-çiçək içində idi.

Mailov xanıma çiçəklər və güllər şəklində pullardan - beş yüz manatlıq, yüz manatlıq, əlli manatlıq və iyirmi beş manatlıqdan düzəldilmiş böyük bir çələng göndərir. Bu barədə şəhərdə uzun-uzadı söhbət gedir.

«Cəmiyyəti-xeyriyyə» üçün «İsmailiyyə» binasının tikilməyinin də maraqlı tarixi var.

Musa Nağıyevin oğlu Ağa İsmayıl vərəm azarına tutulmuşdu. Şəhərdə məşhur bir həkim Bakı milyonçularının ailələrini müalicə edirdi. Ağa İsmayılı müayinədən keçirəndən sonra həkim Musa Nağıyevə deyir ki, oğlanın halı çox ağırdır, tez tədbir görülməsə, tələf ola bilər. Əlli min manata qədər xərci var. Ağa İsmayılı özüm İsveçrəyə aparıb, bir il ərzində müalicə etdirib gətirrəm. Musa Nağıyev deyir ki, on min manat verərəm. Söhbət bununla bitir. Ağa İsmayılın halı doğrudan da gündən-günə ağırlaşır. Axırda Ağa Musa oğlunun müalicəsi üçün əlli min manat verməyə razı olur. Həkim xəstəni yoxlayandan sonra xəbər verir ki, iş-işdən keçib, indi heç onu yüz min manatla da xilas etmək mümkün deyil.

Doktor Məhəmməd Rza Vəkilov xəstə oğlanı İsveçrəyə aparır, müalicədən sonra halı yaxşılaşır. Lakin o, çox yaşamır.

Milyonçuların Novruz bayramı münasibətilə ziyafət məclislərinin birində söhbət əsnasında Ağa Musanın oğlu Ağa İsmayılın cavan yaşında vaxtsız vəfat etməsindən təəssüflə danışırlar. Ağa Musanın gözləri yaşarır. Milyonçulardan biri bu məqamdan istifadə edib soruşur: «Ağa Musa, oğlun

Ağa İsmayılın xatirəsini əbədiləşdirmək istəyirsən? Adı həmişə yad edilsin, unudulmasın?..» Ürəyi kövrəlmiş ata titrək bir səslə deyir: «Əlbəttə istərəm. Var-yox bir oğul idi...» sualı verən milyonçu məclisdə olan qaziyə göz vurur və deyir: «Qazi ağa, xeyir-dua ver, Ağa Musa oğlunun xatirəsini əbədiləşdirmək istəyir. Odur, qız məktəbindən aşağıdakı «Qapan dibi» boşdur. Orda «Cəmiyyəti-xeyriyyə» üçün Ağa İsmayıl adına bir bina tikdirər.»

Qazi o saat dua oxuyur... Məclisdə olanlar Ağa Musanı təbrik edirlər.

Səhəri gün Ağa Musa başılovlu gəlir dostunun evinə, başlayır giley-güzara: «Ay qardaş, bu nə işdir sən mənim başıma gətirdin... Məni müflis edib, boynuma torba taxıb, küçələrə salmaq istəyirsən? sınıq çıxartmaq istəyirsən!»

Dostu soruşur: «Nə olub axı, açıq danış».

«Atam, atam, daha nə olacaq, o bina bir neçə yüz min manata başa gələcək... Məndə o tanxa hardan?»

Dostu deyir: «Ağa Musa, varidatına iki milyon verirəm. Sat, alım».

Ağa Musa soşur: «Atam, atam, mənim əlli milyon manatlıq varidatımı iki milyona almaq istəyirsən?»

«Yox, almaq istəmirəm. Sən deyirsən ki, oğluvun yolunda, adını ucaltmaq üçün xərcin öhdəsindən gələ bilmirsən».

Sabahı gün dostu «Kaspi» qəzetində elan verdirir ki, Ağa Musa Nağıyevin gələcəkdə bankda pulu olmasa «İsmailiyyə» binasının xərcini ödəməyi boynuma alıram.

Layihəçilər binaya xərclənəcək vəsaitin miqdarını smetada qəsdən az göstərirlər ki, Ağa Musa fikrindən dönməsin.

Binanı tikmək üçün «Qapan dibi»ni münasib yer hesab edirlər. «Qapan dibi» gur bir meydan idi. Şamaxıdan, Ağdaşdan, Göyçaydan, Şəkidən, Qubadan və başqa qəza və kəndlərdən gələn kəndlilər buraya ərzaq, meyvə, xalça, palaz, mal-qara, qoyun-quzu və başqa şeylər gətirib satardılar. «Qapan dibi»nin xalis bir Şərq mənzərəsi vardı. Nə vaxt gəlsəydin görərdin ki, dəvələr gövdələrini yerə sərib, boyunlarını dik qaldıraraq gövşəyə-gövşəyə iri gözlərini uzaqlara dikib dincəlir. Başqa bir tərəfdə yan-yana bağlanmış kəhər, kürən, səmənd atlar boyunlarından asılmış torbalardan arpa-saman yeyə-yeyə fınxırır. Başqa bir yerdə isə iri buynuzlu, qızılı, qara, qaşqa-təpəl öküzlər ayaq üstə durub... Birdən uzaqda qopan zəng-zınqırov sədaları «Qapan dibi»nə dəvə karvanının yaxınlaşdığını xəbər verər, hər karvanda yüz, yüz əlli dövə bir-birinin dalınca yeriyər, keçmiş Şərq ehtişamını xatırladardı... Bir də görərdin, gəl arabaları bir-birinin dalınca «Qapan dibi»nə yaxınlaşır... Araba təkərlərinin cırıltısı ətrafa yayılır, toz göyə qalxırdı. Gecələr isə «Qapan dibi»nin qəribə mənzərəsi olardı. Kəndlilər dəvələrə, kəllərə, atlara yem tökər, yaxında tonqal qalayıb, dövrəsində yığışıb söhbət edərdilər. Ayrı-ayrı ləhcələr eşidilərdi. Qurban bayramı zamanı alverçilərin əlindən tərpənmək olmurdu; dükançılar müştəri çağırar, dərvişlər qəsidə oxuyardılar.

Novruz və qurban bayramı münasibətilə şəhərdə şənliklər başlardı.

Şəhər idarəsi «Qapan dibi»ni köhnə qəbiristanlıq əvəzinə, cümə məscidi tikmək üçün müsəlmanlara vermişdi. Milyonçular İstambulda, Təbrizdə, İsfahanda, Bağdadda, Qahirədə olduğu kimi Bakıda da bir dəbdəbəli, əzəmətli məscid tikdirmək fikrində idilər. Nəzərdə tutulduğuna görə bu məscidin bir neçə qübbəsi və qoşa eyvanlı altı minarəsi olmalı idi. Dövrəsində bağ salınacaqdı, hovuzlar gecə-gündüz fəvvarə vuracaqdı. Bu iş bir az təxirə düşür, Bələdiyyə idarəsi «Qapan dibi»ni müvəqqəti xırda alış-verişçilərə icarəyə verir. Böyük qapan isə yenə yerində qalırdı. Burada alverçilər birmərtəbəli dükanlar, taxtadan budkalar tikdirmişdilər. «Qapan dibi»nin adını dəyişdirib, eləyirlər «Şeytan bazar».

Xaçpərəst ruhanilər «Qızıllı» kilsənin yaxınlığında belə bir təmtəraqlı məscidin tikilməsinə mane olurlar. «Cəmiyyəti-xeyriyyə» binası tikdirmək istəyəndə isə şəhər Dumasında böyük mübahisə düşür. Dumanın bəzi üzvləri iddia edirlər ki, o yerdə şəhər bağı salınmalıdır. Doktor Məhəmməd Rza Vəkilov çıxış edib, elə bir nitq söyləyir ki, başqaları daha danışmağa cürət etmirlər və yeri müsəlman «Cəmiyyəti-xeyriyyəsinə» verirlər.

«İsmailiyyə»nin layihəsi 1907-ci ildə hazırlanmışdı. Bu yer planlaşdırma baxımından çox əlverişli idi. Polşalı memar Ploşko əlindən gələni edir, əsər üzərində xüsusi səylə çalışır, imkanlardan ustalıqla istifadə eləyir.

1908-ci ildə Mövludi Nəbi bayramı münasibətilə müsəlman qız məktəbinin «Ərəbkari» böyük salonunda, «Cəmiyyəti-xeyriyyə»nin düzəltdiyi məclisdə «Şeytan bazar»da cümə məscidi əvəzinə tikiləcək binanın nəqşələrinin hazır olduğunu xəbər verirlər və gətirib divardan asırlar.

Binanın müsəlman cəmiyyəti-xeyriyyəsi olduğunu gözə çarpdırmaq üçün əsas və yan fəsadlarının yuxarısındakı haşiyələrdə gözəl xətlə, iri, qızılı hərflərlə müdrik, dərin mənalı sözlər yazılmışdı: «İnsan yalnız zəhmətlə ucalıb istədiyinə nail ola bilər». Başqa birində: «İnsanı insan edən zəhmət olub». Üçüncüdə müraciət edilirdi: «Müsəlmanlar, əsriniz sizinlə ölür, övladlarınızı öz əsrləri üçün hazırlayın». Dördüncüdə: «İnsan beşik evindən qəbir evinə qədər oxumalıdır». Beşincidə: «Elm Çin ölkəsində olsa belə, dalınca gedin». Bu qiymətli kəlamları məşhur xəttat Mirzə Əsədulla Xiləli hüsn-xətlə yazıb hazırlamışdı. Xəttat Mirzə Əsədulla kasıb və böyük külfət sahibi idi. Xeyriyyəçi gənc ziyalılar ona kömək məqsədilə iki-üç aylıq xəttat kursu düzəldər, tez-tez sümük üzərində müxtəlif millətlərin aforizmlərini həkk etdirər və dövlətlilərə baha qiymətə satıb, xəttatın güzəranını asanlaşdırardılar.

Layihənin müəllifi arxitektor Ploşko «İsmailiyyə»nin nəqşlərini məclisdə olanlara göstərib izahat verir. Etirafına görə, onun ən böyük arzularından biri də Bakının mərkəzində, Azərbaycanın milli ornamentləri ilə bəzədilmiş əzəmətli bir imarətin layihəsini işləmək imiş.

Arzusuna çatdığına görə sevincini izah edə bilmirdi. Ağa Musa Nağıyevə öz minnətdarlığını bildirirdi.

Divarlara asılmış nəqşələr tamaşaçıları valeh etmişdi.

«Şeytan bazarı» hasara alıb, köhnə budkaları, bir mərtəbəli dükanları sökdülər. Torpaq işləri qurta-randan sonra özül qoymaq mərasimi başlandı və bu çox təntənəli keçdi. Şəhər camaatının əksəriyyəti burada idi. Şəhərin adlı-sanlı adamları, neftxudalar, bələdiyyə rəisi, Bakı qalabəyi, Bakı valisi, mülki və hərbi məmurlar, ruhanilər, ziyalılar mərasimdə iştirak edirdilər. Nitqlər söyləndi, təbriklər deyildi, arzular dinləndi. Bakı qazısı Ağa Mirməhəmməd Kərim ruhani ədası ilə bir Quran ayəsi oxudu, sonra imperator xanədanının sağ-salamətliyinə dua və Musa Nağıyevin ata-anasına rəhmət oxudu. Binanın tikildiyi tarix yazılmış sicili də polad qaba qoyub qapağı qaynaqladılar və onu bünövrəyə qoydular.

Dəvə karvanı, at arabaları sübh açılandan axşam qaralanadək «Qızıl qaya»dan daş daşıyırdı. Daş çapan kim, palçıq-sement qarışdıran kim, divar hörən kim... İstedadlı memarın kağız üzərində cızdığı bəzəkləri mahir ustalar divarlarda canlandırırdılar; sərt daşlar onların kələ-kötür barmaqlarının hərarətiylə sənət abidəsinə çevrilir, əsl memarlıq simfoniyasına dönürdü.

Binanın birinci mərtəbəsi hazır olanda onun üçün nəzərdə tutulmuş pul qurtarır, buna görə də Ağa Musaya müraciət edirlər. Deyir: «Atam, atam, mənə deyilən xərci ödəmişəm. Bir qəpik də artıq verə bilmərəm». Bir müddət bina yarımçıq qaldı. Axırda milyonçulardan biri Musanın baş işlər müdiri Fətullabəy Rüstəmbəyova tapşırır ki, məqama sal, xərcin qalan hissəsini də Musanın boynuna qoy. Musa işlər müdirinə çox inanırmış, hətta qara gün üçün onun adına bankda on min manat qoyubmuş. Deyirmiş ki, dünyanın işini bilmək olmaz, birdən var-yoxum əlimdən çıxar qalaram quru yurdda. Dar məqamda adama heç kəs əl uzatmır. Adamlar vara gəlir.

Günlərin birində Fətullabəy məqama salıb deyir ki, Ağa Musa, Ağa İsmayılın adına tikdirdiyimiz o gözəl bina qalıb yağışın, qarın altında, xarabaya dönür, hər halda onu başa çatdırmaq lazımdır, dost var, düşmən var... Ağa Musa əllərini havaya qaldırıb deyir: «Atam, atam, get, necə bilirsən, elə də elə. Amma mənə o barədə bir də söz demə...»

Fətullabəy əvvəldən hazırladığı bank sənədlərini imzalamaq üçün ona uzadır. Ağa Musa pulun miqdarını görməmək üçün gözlərini yumub bir neçə cızma-qaradan ibarət qolunu sənədlərə çəkir.

Bundan sonra binanın inşasını davam etdirirlər.

O zamanlar mahir barmaqlarının təmasından sərt daşlar gülə-çiçəyə, butaya, qəşəng bəzək və nəqşlərə çevrilən bənnalardan usta hənifə, usta Hacı Abbas, usta Hacı Xeyrulla, Kərbəlayı Mirzə soltan, Səlman Ata kimilərin adları dillər əzbəri idi.

***Milyonçuların bağları.*** Qara qızılın qüdrəti sayəsində dünənki arabaçı, meyxanaçı, arpa-saman satanlar, başında palçıq çanağı daşıyanlar Avropa paytaxtlarına səyahət edirdilər, dünyanın ən məşhur kurort və sanatoriyalarında müalicə olunurdular, ən bahalı mehmanxanalarda əylənirdilər. Kislovodsk - Yesentukini bəyənmirdilər. sərvətlərinə və imkanlarına uyğun bağ-bağat salmaq, Bakıda olduğu kimi, şəhərdən kənarda, dəniz qırağında da saraylar, fəvvarə vuran hovuzlar düzəltdirib şənlənirdilər. Mərdəkan və Şüvəlanda meyvə və bəzək ağacları, ətirli kollar əkdirib, çiçəkliklər saldırmışdılar, istirahət etmək və əylənmək üçün köşklər qurmuşdular.

Başdan-başa qayalıq, daş-kəsəkdən ibarət, susuz, dəmir yoldan uzaq, adi araba yolu olmayan bir ərazidə bu möcüzələri yaratmaq o qədər də asan iş deyildi. Bu işlər üçün gərək bir ətək qızıl pul xərclənəydi.

Belə ağır, ağıla sığmayan işin öhdəsindən yalnız və yalnız neftxudalar gələ bilərdilər.

Bağların məhz Mərdəkanda salınmasının əsas səbəblərindən biri də oranın qismən şəhərə yaxınlığı və havanın saf, şirin suların dayaz olması da, əlbəttə, şərt idi.

Darvazasının üstündəki mərmərdə: «1894 г. 27 сент-јабрја. В тсарствовании императора Александра III-го при министре земледелја и государственных имушеств была заложена школа садоводства при содејствии и участии Бэкинского губернатора В. П. Рогге, бакинским I-ој гилди куптсом Гаджи Зејналабдиным Тагијевым» sözləri yazılmış bağbanlıq məktəbinin qurulması da Abşeronda bağ-bağçanın gündən-günə artmasına böyük təkan verdi.

Bağçılıq məktəbinin, təcrübə bağının layihəsini Bakının baş arxitektoru Qoslavski tərtib etmişdi.

Başdan-başa qayalıq, daşlıq və kəsəklik olan sahədə bağ salmaq böyük əmək, çoxlu xərc və əzm tələb edirdi. Qayalıq və kəsəkləri qazıb hamarlamaq, yararlı hala salmaq lazım idi. Münbit torpaq daşınmalı idi. Ərazi hamarlanandan sonra oraya qara münbit torpaq gətirildi. Gecə-gündüz iş davam edirdi. Böyük zəhmət və xərcdən sonra məktəb binası, təcrübə bağı hazır oldu.

Hacı Zeynalabdin Tağıyevin təşəbbüsüylə təşkil olunan bağbanlıq məktəbi Abşeronda bağ salmağa böyük imkan yaratdı. Susuz, qumsal sahədə ağaclar əkildi, bağçalar yaşıl donları ilə gözləri oxşamağa başladı. Yovşanlıqlar üzümlüyə çevrildi. Bağlardakı uca ağacların qalın kölgələrində əzəmətli və yaraşıqlı binalar tikildi. Susuz, kəsəkli, daşlıq yerlər günəşin alovundan sanki xilas oldu.

Çiçəklik və güllüklər göz oxşayırdı. Çarhovuzlardakı büllur qədər saf, şəffaf sularda cürbəcür balıqlar üzürdü, qu quşları, ördək və qazlar nazlana-nazlana suya baş vururdular. Talvardakı tovuz quşları insanı valeh edirdi,

qəfəslərdə bülbüllər cəh-cəh vurur, qulaq asanların ruhunu oxşayırdı. Neftxudaların bağlarında marallar, ceyranlar mələşirdi.

İldən-ilə böyüyən, genişlənən, gündən-günə gözəlləşən bağça və bağlarda yeni-yeni meyvə və bəzək ağacları, təzə gül-çiçək növləri əkilirdi. Çarhovuzlarının ortasını, kənarlarını əsl sənət inciləri ilə bəzəyirdilər. Bu hovuzlarda bəzəkli, əlvan rəngli qayıqlarda üzən neftxudalar, zavod sahibləri, tacirlər, onların xanımları, uşaqları, əziz qonaqları və dostları əylənirdilər.

Hovuzlarda fontanlar gecə-gündüz fəvvarə vururdu.

Bağların içərisindəki yollar iki tərəfində əkilmiş ağacların adını daşıyırdı: «Çinarlı yol», «Baldırlı söyüd», «Məcnuni söyüd», «Şamlıq», «Sərvlik», «Palıdlıq» və s. Günəş, ağacların saldığı qalın kölgəliklərin arasından yerə şəfəq saça bilmirdi.

Bu bağlarda payız və qış aylarında da bahar təravəti, yaz havası duyulurdu.

Zənginlərin bağ və malikanələrinin darvazaları, hasarların daş, darvazaların dəmir dilləri bu aralarda adı məşhur adamların yaşadığından xəbər verirdi. Darvazaların üstündəki mərmərlərin və daşların üstündə bağ sahibinin adı, salındığı tarix həkk edilirdi.

Bağlarda ucaldılan binalar bir-birinə oxşamırdı, hərəsinin özünə xas hüsnü, gözəlliyi və memarlıq üslubu vardı.

Mərdəkanda salınan ilk bağlardan biri Muxtarovunku idi. Buraya minlərlə kubmetr münbit qara torpaq daşıyıb tökmüşdülər. Bağ 1890-cı ildə salınmışdı. Münbit torpağı barjlarla gətirib dəniz sahilinə tökmüşdülər və oradan da arabalar və dəvə karvanı ilə bağa daşımışdılar. Bağdakı ağacları, çiçəklik və güllükləri, hovuzları və fəvvarələri gecə-gündüz su ilə təmin etmək üçün beş yerdə sal daş təbəqəsini 40 metr dərinlikdə qazıb xüsusi anbarlar düzəltmişdilər. Bu anbarların hər birisinin eni beş, uzunluğu on metr idi. Buraya güclü su nasosları qoymuşdular, Nasoslar çirklənib xarab olmasın deyə süzgəclər qoyulmuşdu. Yay aylarının cəhənnəm istisində, boğanaqdan yaxa qurtarıb asudə dincəlmək xatirinə qırx metr dərinliyi olan balaca meydançaya pilləkənlə enərdilər, dondurma, meyvə yeyər, şərbət, qəhvə, şərab içərdilər, vaxtlarını xoş keçirərdilər.

Bağa qonaq gələn ailələr buradakı şəraitə məftun olardılar. Hovuzların gözəlliyinə heyran qalardılar. Dördkünc hovuzun eni otuz beş, uzunluğu əlli, dərinliyi isə otuz metr idi.

Bu hovuzda bəzəkli, naxışlı qayıqlarda seyrə çıxıb şənlənərdilər. Sazəndələr çalar, xanəndələr oxuyardılar.

Dördkünc böyük hovuzdan girdə hovuza gecə-gündüz şırıltı sala-sala su axardı. Hovuzların divarları bayır tərəfdən bağ səthindən üç-dörd metr ucalardı; onları sarmaşıq və ətirli bal çiçəyi bəzəyərdi,

Şəmsi Əsədullayevin beş il ərzində (1897-1901) saldığı on beş hektarlıq bağın gözəllikdə, bəzəkdə, əzəmətdə tayı-bərabəri yox idi.

Nobel qardaşlarının Ağşəhərdəki bağının sahəsi on, Muxtarov və Tağıyevinki səkkiz, Aşurbəyovlarınkı isə yeddi hektar idi.

***Şəmsi Əsədullayevin*** təkcə xidmət məqsədi üçün tikdirdiyi binaların uzunluğu dörd yüz metrə bərabər idi. İri darvazaların naxış və görkəmi, hasarların ucalığı insanı vahiməyə salırdı.

Bağın tən ortasında düzəltdirdiyi diametri otuz beş metr olan çarhovuzun hündür divarları ətrafında dövrələmə gilas, albalı, hulu, şaftalı, zoğal, gavalı, alça ağacları əkdirmişdi; min bir diyardan gətirilmiş alma, armud, heyva, nar ağacları bağı bəzəyər, bahar ətri isə insanı məst edərdi.

Bu geniş bağı təsvir etmək mümkün deyil. Bağdakı imarət xüsusi səliqə və zövqlə bəzədilmişdi. Bu dəb-dəbəli bağın tərifi dillər əzbəri idi.

Bakıda bələdiyyə idarəsi (doxsan il ərzində) on bir hektar ağaclıq, yaşıllıq saldığı halda, neftxudalar az müddətdə yetmiş hektardan çox bağ sahəsi salmışdılar.

***Dahi şairin sərvət sahiblərini qamçılaması.*** Mirzə Ələkbər Sabir Tahirzadə ədəbiyyatımızda fəhlə həyatının ağır güzəranını, Bakı proletariatının kapital istismarından xilas olmaq üçün mübarizəsini böyük ustalıqla təsvir etmişdir. Balaxanı kəndində müəllim işləyərkən neft fəhlələrinin ağır, acınacaqlı həyatını, məşəqqətli dolanacağını gözləri ilə görmüş şair bu mövzuda maraqlı şerlər yazmışdır. Onun o şerləri dillər əzbəri olmuş, füqəranı mübarizəyə çağırmış, ilhamlandırmışdır.

***Tətillər.*** Rusiyada çarizmin irticası başlandığı ilk günlərdə Bakı proletariatı mübarizəni davam etdirirdi. Çarizm terror üsulilə, tindən güllə atmaqla, gecə qaranlığında pusquda durub, xəlvəti və qəflətən fəal mübarizləri aradan çıxardırdılar.

Xanlar Səfərəliyev də mübariz fəhlə başçılarından biri kimi Bibiheybət mədənlərində ad çıxarmışdı. Onun işlədiyi mədənin müdirm Abuzərbəy jandarm və polisin razılığı ilə Xanlara qarşı sui-qəsd hazırlayır və 1907-ci il sentyabrın 19-da ikinci növbədən çıxıb evə qayıdanda Zəfər Rəcəbov adlı sanının açdığı atəşdən yaralanır. Xanların həmyerlisi Əsəd Qarayev onu xəstəxanaya çatdırır, lakin yara ağır olduğundan Xanları xilas etmək mümkün olmur, dörd gündən sonra vəfat edir.

Bu qara xəbər şəhərə, zavod və mədənlərə ildırım sürətilə yayılır, şiddətli hiddət, qəzəb və təəssüfə səbəb olur, dəfn mərasimi izdihamlı siyasi nümayişə çevrilir; 20.000 adam cənazəni son məkanına müşayiət edir, dəstələr şəhərin mərkəzindən Şıx kəndinə tərəf sel təkin axışır. Bu qeyri-adi izdihama 200 atlı kazak və güclü polis dəstəsi nəzarət edirdi.

Bibiheybətə çatanda zavod və mədənlərdən qalxan matəm fiti aləmə yayılır. Tərsanə və körpülərdəki gəmilər də onlara qoşulur, uzun-uzadı kədər fitləri verirlər.

Sərmayədarlar, hökumət məmurları, sahibkarlar lərzəyə gəlirlər. Matəm iştirakçılarından Xanların silahdaşı İvan Vastek yazırdı ki, «Proletariatın yekdil gur səsindən jandarmlar lərzəyə düşmüşdülər».

Qəbiristanda izdihamlı matəm mitinqi keçirilir. S. M. Əfəndiyev «Qudok» qəzetində yazırdı: «Xanlar ölmüşsə də onun kşi yaşayır, xatirəsi fəhlələr içərisində uzun müddət yaşayacaq, fəhlələrin parlaq idealı olan sosializmin əldə edilməsi və həyata keçirilməsi üçün müsəlmanlar içərisində yeni-yeni mübarizlər yetişməsinə səbəb olacaqdır».

1918-ci ildə kommunanın maarif komissarı N. Kolesnikova yazırdı: «Xanların dəfni mənə 1905-ci ilin oktyabrında Moskvada Baumanın dəfnini xatırlatdı; orada olduğu kimi, burada da nizamla addımlayan izdiham bütün nəqliyyatı dayandırmışdı... Polis səkilərin qarşısında düzülərək sakit və dinməzcə mərasimi müşayiət edirdi».

Bu qanlı divan proletariatı susdura bilmədi, əksinə mübarizəni daha da genişləndirdi.

1908-ci ildə Bakı fəhlələri tez-tez siyasi və iqtisadi tətil edirdilər. Onları bu mübarizəyə əsasən bolşeviklər sövq edir, ilhamlandırırdı. Onlar Bakı proletariatını səfərbər etmək üçün coşqun fəaliyyət göstərirdilər. Həmin ildə tətil dalğaları Nobel qardaşları, Adamov, Kokorev, Mirzəyev, Musa Nağıyev, Kukasov, Şəmsi Əsədullayev, Rotşild və başqa şirkətləri, şəxsi mədən və zavodları, başqa müəssisələri əhatə etmişdi. Bu tətillər neftxudalara və zavod sahiblərinə çox baha tamam olmuşdu. Ziyan milyonlarla manatı aşmış, yüz min saatlarla iş günü hədər getmişdi. Çıxarılan neftin miqdarı qat-qat azalaraq hasilat çox aşağı düşmüşdü. Tətilçi ordusunun sayı 47 minə çatmışdı.

1913-cü ilin yazında Bakı proletariatı çarizmə və kapitalizmə qarşı qəti mübarizəyə qalxır. Tətil mədən və zavodları, Xəzər dənizçilərini əhatə edir. Bolşeviklər Azərbaycan və rus dillərində intibahnamələr çap edərək, fəhlələrin mübarizəsinə rəhbərlik edir.

Bakı proletariatının 1914-cü ildə yay tətili bütün Rusiya proletariatının diqqətini özünə cəlb etmişdi. Ay yarım davam eləyən bu tətildə 50 min fəhlə iştirak etmişdi. Bu, Bakı proletariatının möhtəşəmliyindən xəbər verirdi.

May ayının 27-də bolşeviklər fəhlələrin tələblərini Azərbaycan və rus dilində çap etdirib camaata paylamışdı. Tətilin birinci günü təkcə Balaxanı - Sabunçu mədənlərində 12 mindən çox fəhlə işi dayandırmışdı.

Tətilin üçüncü günü (mayın 30-u) Bakı qalabəyinin müavini Qafqaz canişininə belə bir teleqram göndərir: «Demək olar ki, bütün mədənlər tətil edir. Tətil edən neft sənayesi fəhlələrinin sayı 26.000-ə çatır. Tətilçilərin zorakılığı da get-gedə artır...».

Tətil və nümayişlər zamanı polislə baş zerən toqquşmalarda ölən və yaralananlar da olur. Tətilçilər həbs edilirdi.

Peterburq, Moskva, Xarkov, Tiflis və sair şəhərlərin fəhlələri bakılılarla həmrəy oldular. «Pravda» qəzeti Bakı proletariatının qəhrəmanlıq çıxışını təbrik edirdi.

Birinci dünya müharibəsinin başlanması bütün ölkədə olduğu kimi, Bakıda da yüksələn inqilabi mübarizəni, tətili dayandırdı.

## BİRİNCİ DÜNYA MÜHARİBƏSİ

Balkanlarda balaca Sarayevo şəhərindəki Latın körpüsündə atılan iki güllə dünyanı neçə il sürən qanlı, alovlu, qovğalı faciələr və təxribat dolu müharibəyə sürükləmişdi.

1914-cü ilin ortalarında Avstriya-Macarıstan imperiyasının orduları, qırx il əvvəl işğal etdikləri Serbiyada hərbi manevr keçirməyə başlayırlar. Əməliyyata baxmaq üçün taxt-tac vəliəhdi Frans Ferdenand arvadı Sofi fon Qoqenberqlə Sarayevo şəhərinə gəlmişdi.

Bu şəhər gözəl iqlimi, saf, təmiz ab-havası, şairanə mənzərəsilə bütün Avropada məşhurdu. İlk adı Verxnobosna olan şəhəri türklər 1389-cu ildə saray ovası adlandırmışdılar. Məhəllələr mərkəzdəki «Baş çarşı» ətrafında yerləşir. «Baş çarşı»dan başqa, burda bir neçə qapalı və açıq çarşı və çoxlu sənətkar emalatxanası, tacir və sərraf dükanları vardı.

Türklər Sarayevoda bir neçə möhtəşəm saray və təmtəraqlı məscid ucaltmışdılar. Yüz illəri arxada qoymuş bu sənət əsərlərinin nəhəng firuzəyi qübbələri, göylərə baş qaldırmış eyvanlı minarələri uzaqlardan diqqəti cəlb edir və şəhərə şairanə görkəm verir. Bu saray və camelər üç yüz əllidən çox möhtəşəm saray, mədrəsə, çarşı, məbəd layihələşdirib tikdirmiş dahi memar Hoca Senanın əsərləridir. Senan 1535-ci ildə «Xosrovbəy» məscidini, 1561-ci ildə «Əlipaşa» məscidini, 1566-cı ildə «saray» məscidini layihələşdirib tikdirmişdi.

Türkiyə 1877-78-ci illərdə iki - Şərq və Qərb cəbhələrində apardıqları müharibədə məğlub oldu və 420 illik hakimiyyətdən sonra onların əlində olan bu torpaqlar Avstriya-Macarıstan imperatorluğu tərəfindən işğal edildi.

Serb xalqı ilk gündən yeni işğalçılara qarşı da əzmlə mübarizəyə qalxmışdı. Azadlıq hərəkatına tələbələrin yaratdığı «Gənc bosna» təşkilatı da qoşulmuşdu. Onun rəhbəri tələbə Qavrilo Prins adında gimnaziya şagirdi idi.

Serblər türk istilasına məruz qaldığı vaxtdan hər il iyun ayının 28-si gününü milli faciə, milli matəm günü kimi qeyd edirdilər.

1914-cü ildə, iyun ayının 28-də səhər, Frans Ferdenand arvadı Sofi fon Qoqenberqlə Sarayevodakı Latın körpüsündə, saat on tamamda Qavrilo Prinsin tapançasından açılan iki gülllədən öldülər.

Çoxlu tələbə həbsə alınır və məhkəmə qurulur. Qavrilo Prinsin müavini Danilo İliç silahdaşları ilə ölümə məhkum edilir. Qavrilo Prins həddi-büluğa çatmadığından məhkəmə ona 20 il kürək cəzası kəsir, həbsxanada vərəmdən vəfat edir.

Əhali güllə atılan gündən Latın körpüsünə Qavrilo Prins körpüsü adını qoyur.

Bir anda açılan iki güllə bütün dünyada, gözlənilməyən gurultulu, qovğalı əks-səda yaratdı. Dövlətlər bloklara ayrıldı: Rusiya - Fransa - İngiltərə düvəli müəzzəmə (böyük dövlətlər) təşkil etdilər; Almaniya – Avstriya – Macarıstan - İtaliya düvəli müsəlləsə (üç bucaq) yaratdılar. 1915-ci ildə Türkiyə də bu bloka qoşuldu.

Qoşa güllə açılandan 35 gün sonra, avqustun ilk günündən alman militarizminin təərüz, zorakılıq maşını hərəkətə gəldi. Günahsız insanların qanları sel kimi axmağa, şəhərlər, dinc kəndlər viranəyə dönməyə başladı. Avqustun axırında dünyanı öz müstəmləkəsilə döndərmək istəyən imperialistlər başda olmaqla otuza qədər dövlət gündən-günə şiddətlənən müharibənin məhvərində fırlanırdı.

Müharibə elan edilən gün Almaniyada olan bütün rus təbəələrini əsir tutub xüsusi düşərgələrə salırlar.

Hacı Zeynalabdin Tağıyev öz ailəsilə Almaniyada istirahət edirdi.

Tağıyevin qızı əhvalatı belə nəql edirdi: Atam, anam, bacılarım - Leyla və Sürəyya, qardaşlarım - Məmməd və İlyas, anamın ən yaxın qulluqçusu Raisa, bir də atamın köhnə tanışlarından qoca 90 yaşlı Məstanbala Almaniyaya getdik. Məstanbala söhbət vaxtı atama deyir ki, Hacı, varlı adamsan, pulun çoxdur, Firəngistana gedəndə, bir dəfə məni də apar; atam da onu götürmüşdü. Əvvəl Berlinə gəldik, ən məşhur «Ekspolenada» otelinə düşdük. Bir neçə gündən sonra Ems mədən sularına yollandıq. Bir ay orada qaldıq, Marenbadenə getdik. Atam bir ay da orada müalicə olundu, biz isə dincəldik. Axşamüstü bir rus ruhanisi atamın yanına gəlib xəbər verdi ki, məni rus səfiri göndərib, deyir ki, Hacı tez yola düşsün. Almanlar Rusiyaya müharibə elan edir. Xəbər qəzetlərdə dərc olunandan sonra rus təbəələrini vətənlərinə buraxmayacaq, əsir saxlayacaqlar. Biz Berlinə çatanda müharibənin elan xəbəri artıq yayılmışdı, Vağzalqabağı meydanda adam əlindən tərpənmək olmurdu. Kişilər əllərindəki ağacları havada hərlədib, hədələyə-hədələyə «Rus... rus... rus...» deyə qışqırırdılar. Keçmiş Qafqaz canişini qraf Voronsov-Daşkovun arvadı, milliyyətcə erməni olan Liza Kinikov qızını (Elizaveta Qriqoryevna) almanlar küçədə saçlarından yapışıb sürütləmişdilər. Vağzal binasından çıxa bilmirdik. İki saat keçdi, atam dedi: «Sandıqlar qalsın burada, hər kəs çamadanını götürsün, gəlsin dalımca». O, qabaqda, biz də onun dalınca çıxdıq meydana. Polis nəfərləri bizi o saat araya

aldılar. Mindirdilər bir maşına. Atam dedi: «Ekspolenada» mehmanxanasına sür». Bizi orda qəbul etmədilər. Şəhərin bütün mehmanxanalarına baş vurduq, nəticəsiz qaldı. Axırda, ucqar məhəllələrdən birində yerləşən mehmanxanada bizə yer verdilər. Atamın Berlin bankındakı 100.000 manat pulundan bir qəpik də verməK istəmirdilər. Atam Frank-furt Mayn şəhərinə zəng çaldı. Bakıda su kəməri çəkmək məsələsi üçün buraya gəlmiş Lindleyə əhvalatı başa saldı. Lindley Berlinə Qeviner adlı bir şəxs göndərdi. Qeviner bankla danışıq aparıb, atama xəbər verdi ki, sizin bütün xərclərinizi banka təqdim ediləcək sənəd əsasında ödəyəcək, amma sizə nəqd pul verməyəcəklər. Atam getdi Türkiyə səfarətxanasına, çıxılmaz vəziyyətə düşdüyünü xəbər verdi, yardım istədi. Türk səfiri birbaşa Almaniya kayzeri II Vilhelmə müraciət edir ki, müsəlman aləminin ən məşhur kübarı neft milyonçusuna kömək eləyin vətəninə, Bakıya qayıtsın.

Şübhəsiz ki, Vilhelm bütün dünyada tanınmış Nobel, Rotşild və digər neft maqnatları kimi Tağıyevi də tanımamış deyildi. Kiçik Qafqaz dağlarında, Gəncə quberniyasında, Kirakidzor və Gədəbəydə alman sənaye maqnatı simens qardaşları hələ on doqquzuncu əsrin ortalarından mis, sürmə, qızıl, gümüş və sairə zəngin filiz damarlarını istismar edib Azərbaycanın milli sərvətini öz ölkələrinə daşıyırdılar. Gədəbəydə meşənin içərisində yerləşən.; Qalakənddəki misəritmə zavodundan simenslər, habelə iki tona qədər qızıl, beş ton gümüş istehsal edib Almaniyaya aparmışdılar. Şübhəsiz, Hacının ailəsini buraxmaqda Bakı neftinə, tükənməz sərvətə çoxdan göz tikmiş olan Vilhelmin öz mülahizəsi, öz hesabı varmış. Neft maqnatı baron Bekendorf başda olmaqla Bakıda alman neft sənayeçiləri, ticarət işgüzarları və texniki-maliyyə mütəxəssisləri vardı.

Kayzer Vilhelmin şəxsi sərəncamı ilə bizə gəmi verib dənizdəki çoxlu mərmilərdən qorumaq üçün xüsusi kreyser də qoşdular.

Bizim əyan olduğumuzu polis bildikdə deyir ki, madam gedən adam kübardır, məşhur əyandır, onun məiyyəti olmalıdır, siyahı verin. Atam Berlində çarəsiz qalmış 35 nəfər rus, erməni, gürcü və yəhudi təbəələrini siyahıya daxil edib polisə göndərdi. Beləliklə, onları da əsirlikdən xilas etdi. Əvvəl bizi Kopenhagenə yola saldılar. Kreyser qabaqda, gəmi də onun dalınca üzürdü ki, minaya toxunmasın. Gəlib çıxdıq Finlandiyaya, oradan da Peterburqa.

Rusiyanın əsas duru yanacaq mənbəyi olan Bakı bu müharibədə diqqəti xüsusi cəlb edən şəhərlərdən biri idi. Alman imperializmi, eləcə də Rusiyanın müttəfiqi ingilis imperializmi qara qızıl xəzinəsinə yiyələnməyə var qüvvələrilə can atırdılar. Fikirləri gələcəkdə Bakının tükənməz neft sərvətinə və buradan da bütün Qafqaz mineral-filiz sərvətinə sahib olmaq, sonra da İran, Yaxın və Orta Şərq və Hindistana yol tapmaq idi.

## 1916-1920-ci İLLƏRDƏ BAKIDA BAŞ VERƏN HADİSƏLƏR

İbn pinəçi dəhrə olur gözb ilə Soltan,
Zühhakın edər mülkünü bir Gavə pərişan.

Birinci dünya müharibəsi uzandıqca bazarda mallar, xüsusilə ərzaq gündən-günə bahalanır, əmək haqqı isə əvvəldə olduğu kimi qalırdı. Çarizm müharibəyə qoşulmaqla fəhlə və qulluqçuları, bütün kasıb camaatı çıxılmaz məngənəyə salıb əzirdi; ümid yeri, aclıq dərdinə əlac edən də yox idi. Boş vədlər, mənasız təsəlli verən, Allahın ötəyindən yapış deyənlər çox idi; lakin bu sözlərlə nə ac uşaqların qarnı doyur, nə xəstəliyə əlac, nə də dərdlərə çarə tapılırdı. Yeganə çarəni əməkçi camaat mübarizədə görürdü.

Fəhlələrin çıxışları getdikcə güclənir, böyük miqyas alırdı, Xüsusilə 1916-cı ilin payızından inqilabi çıxışlar sürətlə artırdı. 1916-cı ildə bu və ya digər mədən və zavodlarda, tərsanə və emalatxanalarda, depoda tez-tez tətil elan edilirdi.

1916-cı ilin əvvəlində Bakıda ən vacib ərzaq mallarının qiyməti xeyli bahalanmışdı.

Altı nəfər möhtəkir ət ticarəti məqsədilə sindikat yaratmışdı. Bu sindikat Türkmənistandan qoyun gətirib, bazarlarda baha qiymətə satırdı. Həmin dəstə 1915-ci ilin dekabrında yüz əlli min baş qoyun alıb Hacı Dadaş Hüseynovun gəmilərində Bakıya daşıyır və Puta stansiyasındakı Baxça deyilən yerdə saxlayırdılar. Qoyunların hər birini əvvəllər 16-17 manata, 1916-cı ildə isə daha baha qiymətə satırdılar.

Un, düyü, çörək, ət, toyuq, yumurta, göyərti və başqa ərzaq malları bahalanırdı. Dükançılar malları gizlədir, müştəriləri incidir və soyurdular. Qiymət bahalandıqca, ərzaq azaldıqca kasıbların səbr kasası dolurdu.

1916-cı ildə, fevralın 14-də Bakıda aclıqdan cana gələn qadınların güclü çıxışı - məşhur «Babiy bunt» - arvadların qiyamı baş verdi. Bu, Zaqafqaziyada qadınların ilk çıxışı idi.

Üç gün davam edən və bütün şəhəri bürüyüb əhalini ayağa qaldıran iğtişaş və qarışıqlığa xırda bir əhvalat səbəb olmuşdu.

Bir qadın Aleksandro-Nevski bazarında kartof alarkən qiymət üstündə dükançı ilə höcət edir, qəzəblənib dolu torbanı yerə çırpıb, günəbaxan tumu olan qutunu da vurub dağıdır və başlayır tumu tapdalamağa. Elə buna bənd imiş kimi, qonşuluqdakı Bazar (Hüsü Hacıyev) küçəsindəki yüzlərlə arvad başlayırlar qarışıqlıq salmağa, hücum edib meyvə, tərəvəz, baqqal, bəzzaz, çörəkçi, qəssab dükanlarını talan etməyə. Qarışıqlıq Quba (Füzuli) meydanında və Balaxanı (Basin) küçəsindəki dükanlara da sirayət edir. Səbzəbazardakı qaxta budkaları dağıdıb yandırırlar. Arvadlar, yeni-yetmələr bazar-dükanı dağıdırlar.

Hadisə yerinə atlı polis və yanğın dəstələri göndərilirsə də izdihamın öhdəsindən gələ bilmirlər. Polis birinci gün atəş açmağa cəsarət etmir. Polismeyster və onların əlaltılarının bütün cəhdləri boşa çıxır. Arvadlar və uşaqlar su boçqalarını və yanğın maşınlarını araya alırlar. Yanğınsöndürən nasosu işə salmaq mümkün olmur. Həyəcana gəlmiş izdiham polis nəfərlərini daşa tutur.

Aleksandro-Nevski ticarət cərgələri və Bazar küçəsindəki mağazaları talan edib dağıdandan sonra izdiham ətraf küçələrə hücum edir və qabaqlarına çıxan ərzaq anbarlarını dağıtmağa başlayır; iki dəstəyə bölünüb şəhərin zəngin mağazalarına hücum edirlər. Bu neçə min nəfərlik arvad seli «Metropol» (Nizami muzeyi) mehmanxanası olan yerdə, polis və atlı kazak dəstələrinin gözü qabağındaca başlayırlar zəngin mağazaların vitrinlərini və qapılarını sındırmağa. Rəhimov və Fərhadovun mağazalarını bir anda talan edirlər. Sonra da başqa mağaza və anbarlara daraşırlar. Qadınların bu dəhşətli, əqlə sığmayan qiyamı gecəyarıya qədər davam edir.

İkinci günü, fevralın 15-də qadınlar böyük un, düyü və qənd mağazalarını, Skoblevin, Çolaq Ağabala Quliyevin və Qlazovun nəhəng dəyirmanlarını, un anbarlarını, «Rus» və «Samalyot» gəmiçilik şirkətlərinin müxtəlif çeşidli mal anbarlarını talan edirlər. Ac-yalavac qadınlar, qız və oğlanlar şəhərdə 116 ərzaq, 70-ə qədər parça, paltar, geyim mağazasına və anbarına basqın etmişdilər.

Gözlənilmədən belə bir məzəli əhvalat da baş vermişdi; bir dəstə qadın həyət tərəfdən «Metropol» mehmanxanasının restoranına girib yemək tələb etmişdi. İstədikləri o dəqiqə yerinə yetirilmişdi. Nahar edib bayıra çıxan tox qadınlar qapıda rast gəldikləri şişman pristavı qamarlayıb hırıldaya-hırıldaya o qədər atıb tutmuşdular ki, kişinin ürəyi getmişdi.

Ayın 16-da olan qarışıqlığı təsvir etmək mümkün deyil. İki gün əvvəl olub-keçənlər, bütün bunlarla müqayisədə heç nə idi. Çay təki axan, dəniz kimi dalğalanan arvadlar əllərinə keçənləri gecə yarıya qədər daşıyıb aparır, polisə və atlı kazaklara daş yağdırırdılar.

Qadınların qiyamı yalnız ayın 17-də yatırıldı. Cəza dəstələri amansızcasına hücuma keçmişdi. Polis və kazaklara əmr edilmişdi ki, patron əsirgəməsinlər.

Fevralın 14-də qarışıqlıq başlayanda qalabəyi Martınov şəhərdə yox imiş. Arvadları sakitləşdirmək əməliyyatına Qafqaz canişininin sərəncamı ilə Bakı general-qubernatoru rəhbərlik edir. O da şəhərdə hərbi qüvvənin azlığına görə (270 nəfər piyada, 160 nəfər isə atlı soldat varmış) heç nə edə bilməyib.

Bakıya təcili surətdə polis və əsgəri hissələr gətirilir; Tiflisdən, Petrovskdan (Mahaç-Qala), Dərbənddən, Yelizavetpoldan (Gəncədən), Teymurxanşuradan (Buynaksk) yüzlərlə polis və atlı kazak gətirilir. Əlahiddə Qafqaz ordusundan da güclü qoşun, top-topxana gətirilmişdi.

Bakıya qayıdıb əməliyyata şəxsən rəhbərlik etməyə başlayan Martınovu da arvadlar daşa basmışdılar, Onun əmrilə Skoblev dəyirmanını təzədən dağıtmaq istəyən arvadlara soldatlar 4 dəfə, Kaspi (l. Şmidt) küçəsindəki böyük şərab anbarına hücum edən arvadlara 2 dəfə yaylım atəşi açırlar. Atlı kazaklar Qaraşəhər körpüsünün yanında 1.000 nəfərlik arvad izdihamını pərən-pərən edib qovanda 4 adam öldürülür və atın ayaqları altında uşaq qalıb məhv olur. Merkuri (Şaumyan), Petrovsk (Neftçilər prospekti), Lebedinsk, Birjevoy (Üzeyir Hacıbəyov) və başqa küçələrdə kazaklar və polislər dəfələrlə yaylım atəşi açmışdılar. Əməliyyat Martınovun tərtib etdiyi plan üzrə aparılmışdı.

Bakı şəhər rəisliyinin təhrif edilmiş məlumatına görə 64 nəfər adam iğtişaş vaxtı ölüb və yaralanmışdı; onlardan 30 nəfəri fevralın 14-də (bir ölən, 29 yaralanan), 17 nəfəri fevralın 15-də (bir ölən, 16 yaralanan), 17 nəfəri ayın 16-da (7 ölən, 10 yaralanan).

Deyilənlərə görə, ölüb-yaralananların sayı çox imiş, hökumət məmurlarından polis və soldatlardan da xeyli ölən və yaralanan vardı.

Martınovun yazdığı raportda qadınlar qiyamı zamanı şəhərə 2 milyon 957 min manat ziyan dəydiyi göstərilirdi.

Neft sənayesi sahibkarları və bütün mürtəce əksinqilabi ünsürlərin əl-ələ verib polis və qoşun hissələrinin köməyilə qan bahasına yatırılan ac-yalavac qadın və yeniyetmələrin bu qeyri-mütəşəkkil çıxışı zəhmətkeşlərin gözünü daha da açdı.

Bakıda baş verən bu gözlənilməz, qeyri-adi hadisə bütün Qafqazda əks-səda yaratdı və tezliklə başqa şəhərlərdə də arvadların çıxışlarına şərait yaratdı.

Mübarizəyə qalxan qadınlar şallaq və güllələrdən qorxub tərksilah olmamışdılar. Onlar Bakı tacirlərinə, mağaza, anbar və dəyirman sahiblərinə ultimatum verib belə bir bəyannamə ilə müraciət etmişdilər: «Siz ey rəhmsiz qan içənlər, yaddan çıxarmayın ki, belə bir «qadın tufanı» bir də gələ bilər. O daha dəhşətli, daha amansız və qəzəbli olacaq. Heç bir qüvvə qabağımızı kəsə bilməyəcək. Bütün dükanlar və mağazalar, anbar və dəyirmanlar dağılıb yerlə yeksan olacaq. Qan içənləri öldürəcəyik. Hamınız məhv olacaqsız».

Arvadlar peyğəmbər kimi hər şeyi sanki əvvəlcədən duyublarmış. Düz bir il sonra daha böyük hadisələr baş verdi. Fevral inqilabı üç yüz illik Romanovlar xanədanını, çar mütləqiyyətini alt-üst elədi,

1917-ci il martın 2-də Bakı qəzetləri istibdadın devrildiyi şad xəbəri səhifələrində iri hərflərlə çap etdilər. Fevral burjua-demokratik inqilabı qalib gəlmişdi.

Balaxanı, Sabunçu, Bibiheybət, Ağşəhər və Qaraşəhər, depo və gəmi tərsanələrinin min bir ahənglə uğuldayan fit səsləri bu şad xəbəri bütün aləmə yaydı. Çox keçmədi ki, mədənlərdə, zavodların, tərsanələrin, emalatxanaların

həmişə bağlı, iri darvazaları qabağında adam əlindən tərpənmək olmurdu. İzdiham get-gedə artırdı; fəhlələr, ustalar bir-birini qucaqlayıb öpür, təbrik edir və qəzetlərdəki «Mütləqiyyət yıxılmışdır. Çar II Nikolay taxt-tacdan və hakimiyyətdən əl çəkmişdir» sözləri ağızdan-ağıza gəzirdi. Elə bil bütün çətinliklərin aradan qalxması bu cümləyə bənd idi, sabah ərzaq artacaq, ucuzlaşacaq, hər şey qaydaya düşəcəkdi.

Rusiyada 304 il hökmranlıq sürmüş Romanovlar sülaləsinin 18-ci və sonuncu nümayəndəsi II Nikolay 23 il hökmranlıqdan conra 49 yaşında taxtdan salındı və tacdan məhrum edildi. Bu xəbər ildırım sürətilə dünyaya yayılmışdı.

Bir qrup Bakı qaragüruhçusu, Nikolayın adı çəkiləndə səcdə edənlər - keşiş Ekzar Qruzi, maarif inspektoru Saxnovski, milyonçu Çolaq Ağabala Quliyev, qoluzorba Hacı Aslan Aşurov, Bakı texniki məktəbinin direktoru Bajenov toplanış məskənləri olan Aleksandro-Nevskidəki katedral «Qızıllı» kilsənin həyətinə yığışıb avara Qara Məmmədə bir qızıl onluq verərək faytona oturtdular və hündürlüyü iki arşın, eni bir arşın olan qızılı rəngli çərçivədəki II Nikolayın portretini qabağına qoyub küçələrdə, meydanlarda gəzdirtdilər.

Macəra axtaranlar, əyləncə həvəskarları, bekar adamlar faytonda oturmuş Qara Məmmədə və tutduğu portretə tamaşa edə-edə gülüb söz atırdılar.

Petroqradda fəhlə, əskər və matrosların üsyanı dünyanın ən böyük imperatorluğundan birini yıxdı. Ölkədə iki hakimiyyətlilik yarandı: Sovetlər və «Müvəqqəti hökumət». Qəzetlərdə, jurnal səhifələrində dəfələrlə Rodzyanko, Milyukov, Quçkov, Kerenski və bu silkdən olan adamların adları yazılır, yığıncaq, mitinq və məclislərdə təkrar olurdu.

Mart ayının 7-sinə keçən gecədə Bakı fəhlə-əskər deputatları Soveti quruldu. Şəhərdə bütün partiyalar fəaliyyətə başladı. Sovetdə eser-menşevik çoxluğunun sazişçi xəttindən istifadə edərək burjuaziya mart - aprel aylarında: «Bakı şəhərində və onun rayonlarındakı zavod və fabrikantların, texniki emalatxana sahiblərinin cəmiyyəti», «Ticarət-sənaye ittifaqı şurası», «Qazma podratçılarının ittifaqı», «Şaxta sahiblərinin cəmiyyəti» və Milli burjuaziya şuraları yaradıldı: Müsavat partiyası və başqa partiyalar yeni qüvvə ilə fəaliyyətə başladılar. Müsavatçılar kütlələri islam-türk bayrağı altında cəm olmağa çağırırdı.

«Hümmət» bolşevik təşkilatı da fəhlələr arasında ciddi iş aparır, bolşeviklər kütlələrə sosialist şüuru aşılayır, onları Lenin bayrağı altında birləşdirirdi. Leninin aprelin əvvəlində mühacirətdən Petroqrada qayıtması Bakı proletariatına ilham verdi. Mədən və zavodlarda canlanma yarandı. Doqquz il fasilədən conra «Бакински рабочи» qəzeti təzədən nəşrə başladı. İyun ayının üçündə bolşevik «Hümmət» qəzeti nəşr edildi. N. Nərimanov qəzetin baş məqaləsində bolşeviklərin proqramını və məramını izah edirdi.

İran fəhlələri içərisində iş aparan bolşevik «Ədalət» təşkilatı iyun ayının əvvəlindən Azərbaycan və fars dillərində «Bayraği ədalət» qəzetini nəşr edir.

Bakıda işləyən tatarlar «Birlik» adlı qəzetlərini çıxardırlar. Hənifə Terequlov qəzeti redaktə edir.

Ağla cığışmayan hadisələr bir-birini təqib edirdi.

Oktyabr ayında Petroqradda açılacaq II Ümumrusiya Sovetlər qurultayına S. K. Şaumyan, M. S. Semyonov, A. M. Raşkeviç və sol eser İ. A. Suxartsevi Bakı Soveti nümayəndə seçir.

Böyük Oktyabr Sosialist inqilabının qələbə xəbəri Bakıya oktyabrın 26-da çatmışdı. Noyabrın 2-də isə Bakıda Sovet hakimiyyəti elan olundu. N. Nərimanov Böyük Oktyabrın ümumdünya tarixi əhəmiyyətindən danışaraq noyabrın 21-də «Hümmət» qəzetində yazmışdı: «Həmin bu gün Rusiya inqilabı bütün cahan tarixinin təzə, mühüm və gözəl bir səhifəsinin açılmacına səbəb olur. Biz hamımız şəhadət verə bilərik ki, bu səhifə bizim hüzurumuzda açıldı. Bizim idealımız, sosializm idealı, daha bir xəyal deyildir. Bu gün imperializmə dərin quyu qazılır: sərmayədar və mülkədarların ümid ocağı dağılır, fəhlə və zəhmətkeş tarixində təzə bir səhifə açılır».

Bakıda İcraiyyə komitəsi təşkil edilir. Onun tərkibinə bolşeviklərdən S. Şaumyan, A. Caparidze, S. M. Əfəndiyev, İ. Fioletov, İ. Vatsek, M. Basin və başqaları seçildilər. Bakı Soveti İcraiyyə Komitəsinin sədri S. Şaumyan seçildi.

Lakin Duma hələ fəaliyyətdə idi. Noyabrın 10-da Dumaya yeni sədr seçmək üçün keçirilən yığıncaqda iki namizəd: kadetlər və müsavatçılar advokat Xan Xoyskini, menşeviklər isə doktor Okanşeviçi təklif edirlər. Bolşeviklər də Okanşeviçə tərəf çıxır, eserlər bitərəf qalırlar. Nəticədə Xan Xoyski Dumaya sədr seçilir. Lakin iki həftədən sonra Duma iflasa uğrayaraq etibarını itirir, onun bütün səlahiyyəti Bakı sovetinə keçir. Neçə ay sonra Duma rəsmən ləğv edilir. Kommunist A. Caparidze Bakı Soveti İcraiyyə Komitəsinin sədri seçilir.

Çar inzibati müəssisələri, o cümlədən jandarma idarəsi ləğv edilir. Bakı qubernatoru Batalov və qarnizonun rəisi vitse-admiral Klokfel vəzifələrindən kənar edilir. Jandarma idarəsi rəisi polkovnik Treskin həbsə alınır.

Başqa partiyaların başçıları kimi bolşevik rəhbərləri də şəhər və rayonlarda çıxış edib, camaata mövcud vəziyyət barədə danışırdılar. Caparidze Təzəpir məscidinin həyətindəki izdihamlı yığıncaqda atəşin bir nitq söyləyir, Haşım Əliyev dilmanclıq edib onun dediklərini camaata başa salır.

Bolşeviklər sovetdə məsələ qaldırır ki, Nargin adasında saxlanan əsirlərə kömək edilsin. Əsirlər xəstəlikdən, susuzluqdan qırılırdı. Neçə min Avstriya, alman və türk əsiri ağır şəraitdə yaşayırdı, Adadakı su təmizləyən

qurğu xarab olmuşdu. Oraya şəhərdən gəmiylə, barjlarla su daşıyırdılar, Gəmilər, barjlar tez-tez ləngiyir, beş gün və hətta bir həftə su apara bilmirdi.

Əsirlərin halını yoxlamaq və əməli tədbir görmək üçün komissiya yaradılır. Nəriman Nərimanov komissiyaya sədr seçilir. Nərimanov altı nəfərlik bir heyətlə Nargınə yollanır. Yoxlanış adada əsirlərin vəziyyətinin çox ağır, acınacaqlı olduğunu aşkara çıxarır. Baraklar yarımxaraba idi, əsirlərin çoxu əzab-əziyyətdən üzülüb əldən düşmüşdülər. Pəncərələrin şüşəsi yox, qapılar sınıq, ərzaq, su, dərman yox idi. Zabitlərlə əsgərlər ayrı-ayrı baraklarda yaşayırdılar. Əsgərlərin halı daha pis, daha ağır idi. Deyilənlərə görə komissiya adaya gələn günü bir neçə xəstə əskər elə göz qabağındaca can verirdi.

Komissiya üzvləri barakları bir-bir gəzib, əsirlərə təsəlli verə-verə vəziyyəti öyrənir. Şəhərə qayıdandan sonra N. Nərimanov Bakı sovetində atəşin bir çıxışla Nargindəki dəhşətli vəziyyəti danışır, təcili yardım göstərməyi təklif edir. Daşnak partiyasının üzvlərindən başqa bu təklifi hamı bəyənir, təcili yardım göstərməyi və əhalidən bu məqsəd üçün kömək yığmağı qərara alırlar. Sovet, əsirlərin vəziyyətini qismən yaxşılaşdırmaq üçün Nərimanovun sədrliyi altında yardım komitəsi yaradır. Xəstə əsirləri şəhərə daşıyırlar, sağalandan sonra daha Nargin adasına yox, Zığdakı pivə zavodunda yaradılmış düşərgəyə qaytarırdılar. Bir nəfər gürcü həkim bu nəcib işdə komitəyə çox kömək edirdi. Ərzaq tədarükü «Şəms» restoranının sahibi Hacı Aslan Məcidova tapşırılmışdı.

1917-ci il dekabrın 12-də Bakı sovetinə təzə seçilənlərin tərkibi bu qayda üzrə idi: 48 bolşevik, 85 eser (başlıca sol eserlər), 36 daşnak, 18 müsavatçı və 13 menşevik. İlk iclas dekabrın 17-də olur.

Bununla da sovet şəhərdə tam hakimiyyət sahibi deyildi; burjuaziyanın şəhər Duması, müsəlman milli şurası, erməni milli şurası və bunlar kimi orqanları vardı. Eser, daşnak, müsavat və menşeviklərin havadarlığı ilə burjuaziya bütün hakimiyyəti şəhər Dumasına verilməsi təklifini irəli sürürdü.

Bakıda hər yerindən duran bir partiya yaradır, stol qoyub siyahı tutur, adamları öz tərəfinə təşviq edir və hər biri də xalqa hürriyyət, əmin-amanlıq, firavan dolanacaq, çoxlu qazanc vəd edirdi və bu yolla əhalini tora salmağa cəhd edirdilər. Hətta burjuaziya məclis düzəldib əhaliyə pulsuz şirin çay «qonaqlığı» da verirdi. Adam vardı gündə bir «partiyaya» yazılırdı. Buna oxşar bir əhvalat da ingilislər ilk dəfə Bakıda olanda silah paylayıb yerli camaatdan dəstə düzəltmək istəyəndə olmuşdu. Məmiş adlı birisi deyirdi ki, ingilislərdən on bir tüfəng alıb aparıb Sabunçu və Suraxanıda satmışdım. On ikinci tüfəngi alanda məni tanıdılar, tutmaq istəyirdilər ki, birtəhər aradan çıxdım.

***Ruhanilər qurultayı.*** Bakıda müsəlmanların bir neçə ictimai yığıncaq yerləri vardı. Onlardan ikisi hər cəhətdən seçilirdi. Biri ziyalıların, müasir elm, mədəniyyət, ədəbiyyat və musiqiçilərin toplandığı İsabəy Aşurbəyovun Persidski (Poluxin) küçəsindəki, digəri Seyid Hüseyn ağanın İçəri şəhərdəki evi

idi. İsabəy Aşurbəyovun ikimərtəbəli mülkü iki küçənin kəsişdiyi tində idi. Bina memarlıq nöqteyi-nəzərindən diqqəti cəlb edirdi. İsabəy jurnalist idi, qəzet və kitablar nəşr edirdi. Evinin altındakı zirzəmidə mətbəə yerləşirdi. Üst mərtəbədəki böyük salonda mədəniyyət, elm, musiqi, ədəbiyyat, səhnə xadimləri yığışar, müzakirə, mübahisə edər, mədəni tədbirlər görərdilər. Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» operası ilk dəfə bu binanın böyük salonunda tamaşaya qoyulmuşdu.

İkinci yığıncaq yeri İçərişəhərdə ruhanilər «klubu» idi. Müctəhid, axund, molla, dövlətli, dindar müsəlmanlar «İsmailiyyə»nin arxa tərəfində, Mir Mövsümzadənin evində yığışardılar. Dini məsələlər Seyid Hüseyn ağanın rəhbərliyi ilə müzakirə və həll edilərdi. Seyid Hüseyn özü həm islam dini, şərqin tarix və mədəniyyəti, həm də müasir Avropa elmlərindən xəbərdar idi. Ruhanilər qurultayını keçirmək məsələsi övvəl burada müzakirə və həll edilib, sonra «Təzəpir»də təsdiq edilmişdi. 1917-ci ildə Bakıda Zaqafqaziya müsəlmanları ruhanilərinin qurultayı keçirildi. Azərbaycanın bütün qəzalarından, Dağıstan, Basarkeçərdən və Borçalıdan da ruhani nümayəndələri gəlmişdi. Məclis «İsmailiyyə» binasında toplanmışdı.

Qurultaya bir nəfər də olsa qadın çağırılmamışdı.

Müsəlman qız məktəbi Bakıdakı Marinski və müqəddəs Nina rus qız məktəbində təhsil almış müsəlman ailələrindən çıxmış xeyli qız və qadın vardı. Bunların qarşılıqlı ünsiyyəti yeni, ziyalı qadın təbəqəsi yaratmışdı. Rus və Avropa mədəniyyətinin neft şəhərinə nüfuzu teatr, kino, mətbuat və sairə vasitələrin inkişafına təkan verirdi. Müsəlman qadınlarının müəyyən dəstəsi əsrin tələbini, bu mərhələdə qadınların mövqeyini yaxşı dərk eləyirdilər. Qadınlar az da olsa mətbuatda çıxış edir, şer, nəsr, ictimai, siyasi, iqtisadi mövzularda yazırdılar. Yazılarında ailə-məişət məsələlərinə toxunurdular. Orta əsr zülm və əsarətini ifşa edir, səyyar həbsxananı -çadranı, əsarət zəncirini qırıb atmağı təbliğ eləyirdilər.

Zaqafqaziya müsəlman ruhanilərinin qurultayı belə bir şəraitdə açıldı.

Ziyalı qadınlar ruhanilər qurultayına nümayəndələr göndərməyi və hətta orada çıxış etməyi də qərara aldılar.

Salon ağzına qədər dolu idi. Foyedə çoxlu adam vardı. Qurultay iştirakçılarının əksəriyyəti ruhanilərdən ibarət idi. Qara ləbbadəli, mixəyi əbalı, ağ, qara əmmaməli, ağzı dualı, ağsaqqal, qarasaqqal şeyxülislamlar, çalmalı qazılar, əfəndilər, müftilər, qara qurşaqlı, əllərində təsbeh çevirən axundlar, mollalar, göy əmmaməli seyidlər, saqqalları hənalı, arxalıqlı, çuxalı, buxara papaqlı kərbəlayilər, məşədilər, avropasayağı kostyumlu, girdə buxara papaqlı, şələbığ tacirlər, brilyant, yaqut, zümrüd medalyonlu neftxudalar, tapançalı, xəncərli, şişpapaq qoçular, şlyapalı, tünd sumağı rəngli, uzun, qara qotazlı osmanlı fəci qoymuş, qalstuklu, fraklı, yarı Avropa, yarı Asiya libaslı ziyalılar

yerlərini tutmuşdular. Dindar cavanlar isə gah astadan arada hərlənir, özlərini gözə soxurdular ki, ruhanilərin bu və ya digər tapşırığını yerinə yetirsinlər.

Xristian ruhaniləri - ruslar, erməni, polşalı katolik keşişləri, yəhudilər də məclisə dəvət edilmişdi, onlar üçün fəxri yer ayrılmışdı.

Dövlət və hökumət məmurları da qurultaya gəlmişdilər.

Səhnədəki uzun stolun arxasında ən tanınmış ruhanilər və əyanlar əyləşmişdilər. Sədrlik edən qazi-müctəhid qurultayı açıq elan etdi, dua oxundu, qısa təşrifat nitqindən sonra məruzəçiyə söz verildi.

Birdən bayırda, foyedə və pilləkanlarda səs-küy qopdu. Salondakılar dönüb o səmtə baxdılar.

Gözlənilmədən müəllimə Şəfiqə Əfəndiyeva, Ədilə Şahtaxtinskaya, Ayna Sultanova başda olmaqla on nəfər çadrasız qadın salona girdilər.

Birdən qopan təəccüblü, qəzəbli və acıqlı «Oh» nidasından az qala pəncərələrin şüşələri cingildədi, elə bil ətrafda qəfildən bomba partlamışdı.

Yaranan qeyri-adi şaşqınlıqdan salona dərin sükut qondu.

Birdən hər yerdən: «Lənətulla şeytanül ləin!», «Allahu əkbər!», «Lailahə illəllah!» sədaları ucaldı.

Qadın nümayəndələri keçib salonda əyləşdilər.

Məruzəçi qısa çıxışını başa çatdırıb xitabət kürsüsündən düşdü. Üzü açıq, qara libaslı, başında şal olan müəllimə qalxıb səhnəyə yollandı və xitabət kürsüsünə çıxdı.

Mir Məhəmməd Kərim qazı qəzəblə yerindən durdu; ətrafındakı ruhani dəstəsi də ayağa qalxdı.

Mir Məhəmməd Kərimin rəqibləri acı istehza ilə qışqırdılar: «Ağa Mir Məhəmməd Kərim, «əl üznə, bil üznü, əl sinnə, bil sinnü, əl səruhə qisas». Bir başqası: «Nə tökərsən aşına, o çıxar qaşığına!». Üçüncüsü daha bərkdən: «Ağa Mir Məhəmməd Kərim, 17 il əvvəl əkdiyin toxumların meyvəsidir, dər bəhrəvi». Lojaların birindən: «Təzəpir məscidində Qurandan ayə gətirib, sübut edirdin ki, müslümə də, müslüm kimi bütün dərsləri oxuya bilər».

Bütün qaragüruhçular, mauzerli qoçular, saqqalı hənalı hacılar, çuxalı, xətt-saqqallı kərbəlayilər, məşədilər, arvadlarından narazı qoca tacirlər, yaşıl-qurşaq seyidlər, cəmiyyətin avara tör-töküntüləri düşmüşdülər küçələrə, «ismətsizləri» «tənbeh» etməyə başlamışdılar, qabaqlarına çıxan müasir libaslı müsəlman arvadlarının, qızlarının başına zorla qara çadra örtür, dikdaban ayaqqabıları çıxardıb, dabanlarını sındırır, doğrayır və sahibinin ayağına nəleyin, başmaq, ya da çust geyindirirdilər.

Qurultay üç gün davam etdi. Son iclas başa çatandan sonra nümayəndələr «İsmailiyyə»dən «Təzəpir» məscidinə yollandılar. Yolboyu ekzotik mənzərə hamının diqqətini cəlb edirdi, rəngarəng libaslara bürünmüş yüzlərlə ruhani, molla, axund, seyid, müfti, şeyxülislam, qazı məscidə camaat namazına gedirdi.

Məsciddə dəstəmaz tutub camaat namazı qıldılar.

## LƏNKƏRANDA AÇILAN BİR GÜLLƏNİN BAKIDAKI ƏKS-SƏDALARI

Keçmişdə zabitlər (əsasən cavanlar) tapançanın topunda bir güllə saxlayıb lüləni gicgahlarına tuşlayaraq topu fırladıb çaxmağı basmaqla bəxtlərini yoxlayırdılar. Lənkərandakı «Dikaya diviziya»nın qoşun hissəsində Hacı Zeynalabdin Tağıyevin xidmət edən zabit oğlu Məhəmməd də bu yolla bəxtini yoxlayanda tapança açılmış, onu öldürmüşdür. Alay yoldaşlarından bir dəstə zabit cənazəni Bakıya gətirirlər, dəfndən sonra zabitlər geriyə qayıdarkən İmamverdi körpüsündə bir dəstə Qızıl qvardiyaçı matros onları tərk-silah edir. Bu hadisədən «Dikaya diviziya»nın şəhərdəki başçıları bərk narazı qalırlar.

1918-ci ilin əvvəlində Bakıda bir neçə silahlı dəstə vardı: 1) Kommunistlər «Qızıl qvardiya» təşkil etmişdi, 3.500-ə qədər qvardiyaçı silah daşıyırdı. 2) Erməni milli daşnak qvardiyasının dörd min beş yüz piyada və atlı soldatı vardı. 3) Rus-slavyan tayfalarının silahlı dəstələri. 4) Menşevik və eser dəstələri, hərbi donanma matroslarının bir qismi bu dəstəyə daxil idi. Müsavatçılar isə könüllüləri yığıb Lənkəranda «Dikaya diviziya» yaratmışdılar.

«Cəmiyyəti-xeyriyyə»nin keçmiş katibi müəllim Rza Müslümov nəql edirdi ki, Novruz qabağı, bayrama bir neçə gün qalmış, gözəl yaz günlərindən birində «İsmailiyyə»nin qabağında Cəmiyyətin sədri Mirzə Əsədullayevi gözləyirdim. Birdən Bazar küçəsində səs-küy qopdu. Dönüb o səmtə baxanda gördüm ki, böyük bir izdiham «İsmailiyyə»yə tərəf gəlir. Bir anda məni araya alıb, binanın açarını tələb etdilər; dedim ki, sədrin icazəsi olmadan açarı verə bilmərəm. Açarları cibimdən zorla çıxartdılar. Hələ üstəlik pencəyimi də cırdılar, buxara papağım düşüb itdi. İzdiham anbaan artır, adamlar binaya soxulurdu. Baqqallar, göyərti satanlar, bazar adamları, avaralar, macəra axtaranlar pilləkanlara, foyelərə, eyvanlara, salona doldular. Səhnəyə stol qoydular. Başında yekə, yaşıl əmmamə, gözlərində qara eynək, çiynində əba Bakı qazisi Mirhüseyn Ağa başı əsə-əsə xitabət kürsüsünə qalxdı, ağlaya-ağlaya qışqırdı: «Vaveyla! Va müsibəta! Dinimiz getdi əldən, namusumuzu tapdaladılar. Ağ kəfənə bürünüb, cihad etməliyik».

Sağ əlini əbanın altına salıb çıxartdığı əfsər tapançasını havaya qaldıraraq bərkdən qışqırdı: «Əsabiqun, əsabiqun, ilahikə müqəribun!», «Kəfənpuş olub cihadə çıxın! Bu yolda qan axıdanlar şühada hesab olunacaq».

Ehtiraslar daha da coşdu. Əynində qara mahuddan kostyum, başında buxara papaq, milyonçu Çolaq Ağabala xitabət kürsüsünə qalxdı, yoğun səslə qışqırdı: «Camaat, papağı başınıza nə üçün qoymusuz? İsti-soyuq üçün, ya ki namus üçün! Millət əldən gedir. Bu saat dəyirmandan 4.000 kisə un buraxıram. Girin meydana». Onun dalınca kürsüyə qoçu Aşurbəyov qalxdı, bircə söz dedi:

«4.000 tüfəng, 200 qutu patron mən verirəm». Qaragüruhçulardan ibarət on iki nəfərlik bir heyət seçib Bakı sovetinin sədri A. Caparidzenin yanına göndərdilər. Bakı soveti Musa Nağıyevin «Kazino» olan binasında yerləşirdi.

Həmid Sultanov bu məsələ ilə əlaqədar 1924-cü ildə çap etdirdiyi məqalədə «Из прошлого» kitabında yazırdı: «...Nəriman Nərimanovun mənzilində iclas çağırıldı; müsavat partiyası lideri də iştirak edirdi. Bu ağır, gərgin vəziyyəti müzakirə üçün Stepan Şaumyan da dəvət edilmişdi ki, məsələni birtəhər həll edib, çarə tapaq, qan tökməkdən qaçaq.

İclasda silahları «hümmət» firqəsi vasitəsilə geri qaytarmaq qərara alındı. Bütün tərəflər bu qərardan razı qaldılar».*

Müslümov deyirdi ki, müsəlmanlar «İsmailiyyə»dən başqa «Təzəpir» məscidində də məsələni müzakirə edirdilər; məscidin içində, həyətində və ətraf küçələrdə adam əlindən tərpənmək olmurdu.

Nəriman Nərimanov, Şaumyanın iştirakı ilə keçirilən iclasdan sonra, əhalini sakitləşdirmək üçün «Təzəpir» məscidinə gedir və silahları geri qaytarmaq barədə olan qərarı bildirir. Doktor camaata sadə bir dildə deyirdi ki, «müsəlman qardaşlar, aldanmayın. Fitnə-fəsada inanmayın, qara-qışqırığa, mənəm-mənəm deyənlərə uymayın! Müsavatçıların, daşnakların fırıldaqlarına inanmayın. Onlar füqəra düşmənləridirlər. Ayaq altında tapdalanarsız. Sizdə nə var? Var-yox on dənə pas atmış dayandoldurum berdanka, otuz-qırx köhnə, sınıq əfsər tapançası. Nişan almağı, atmağı da əməlli-başlı bacarmırsız. Üzünüzü dala çevirib hara gəldi gülləni tolazlayırsız, kimə dəydi, dəydi. Nə nizam bilirsiz, nə intizam. Bir qədər səbr edin.

Caparidze də «İsmailiyyə»dən gələn qaragüruhçular heyətinə eyni cavabı vermişdi: «İyirmi-otuz tüfəngdən ötrü qalmaqal salmaq lazım deyil. Tüfəngləri indi qaytarsam, matroslar tutub yenə əlinizdən alar, sizi hörmətsiz edərlər. Axşamüstü bir-iki nəfər gəlsin, tüfəngləri qoyum maşına, gözətçi də qoşum, götürün aparın».

Heyət «İsmailiyyə»yə qayıdanda binada camaat bir qədər seyrəkləşmişdi.

Gedən heyətin əliboş qayıtdığını eşidəndə qaragüruhçular alovun üstünə yağ tökməyə başladılar.

Birdən şəhərin bir neçə yerindən - Şamaxı yolunda (C. Cabbarlı küçəsi), Balaxanı (Basin) küçəsində, Quru bağda güllə səsləri eşidildi.

Hadisənin şahidi müəllim Ağa Məmməd Səlimxanov nəql edirdi ki, «Şamaxı yolunda, Üçüncü paralel küçəsinin tinində dayanmışdıq. On-on bir nəfər idik. Yuxarıda bir dəstə daşnak süvarisi göründü, yaxınlaşanda qabaqdakı dəstəbaşı bizə acıqlanıb, bərkdən dedi ki, dağılın. Hərə bir tərəfə üz tutdu; mülk

---

* (H. Sultanovun xatirəsi). «Из прошлого», Баку, 1924, с.17-19.

sahibi qaldı darvazanın qabağında. Dəstəbaşı daşnak atı məhmizlədi. At çıxdı səkiyə və süvari bağırdı: «Köpək oğlu müsəlman, demirəm çıx get!». Kişi dedi: «Evimin qabağından hara gedim. Kəpək oğlu da sənsən, it oğlu da». Dəstəbaşı daşnak şallağı işə salanda, səkidəki adam özünü yana verib yerdən bir daş qapdı. Süvarilərdən biri cəld tüfəngi çiynindən götürüb atəş açdı, Kişi sərildi yerə... Elə bil hər şey tüfəng lüləsinin ucunda, ordan çıxan gülləyə bənd imiş, şəhəri atışma bürüdü».

Elə bir təsəvvür oyanırdı ki, şəhərin bütün binalarından güllə yağır. Bir az əvvəl əzəmətli binanı, Nikolayevski (Kommunist) küçəsini, «Kaspi» mətbəəsinin döngəsini, Bic Zeynalabdinin dalanını bürüyən adamlar başladılar qaçmağa.

Bir dəstə adam bel, külüng götürüb səngər qazırdı. Həm atışır, həm də işləyirdilər.

...Atışma anbaan şiddətlənirdi. Əsgərlər «Metropol» mehmanxanasının (Nizami muzeyi) damında pulemyot qurub «İsmailiyyə»yə atəş açdılar; «Qoşa qala» qapısı yaxınlığında Haşımov (Gənclər) meydanındakı mülkün də damından pulemyot səsləndi.

«Cəmiyyəti-xeyriyyə» binasında bir az əvvəl mənəm-mənəm deyib toplaşanların heç biri qalmamışdı.

Matroslarla əsgərlər üst məhəllələrə qalxmağa, küçələri tutmağa cəhd göstərirdilər...

Mürtəce ünsürlər şayiə yaymışdılar ki, guya müsəlmanlar şəhərdə olan bütün rusları qırırlar.

Gəmilərdən Bakının yuxarı, müsəlman məhəllələrinə bir neçə top atəşi açdılar. Çəmbərə kəndindəki məktəb binasında həm hərbi xəstəxana, həm də yetim uşaqlar yerləşirdi. Duma qərarından sonra Nargin adasındakı alman, türk və Avstriya şikəst və xəstə əsirləri gətirib şəhərdə müalicə edirdilər. Çəmbərə kəndindəki məktəb binasındakı lazaretdə də bir neçə xəstə türk çavuşu və əsgəri yatırdı.

Bir top mərmisi binanın qabağında yerə düşdü, ətrafa səpələnən qəlpələrdən pəncərə şüşələri tikə-tikə olub töküldü. Lazaretdə xidmət edən doktor dedi ki, üçüncü mərmi binaya düşəcək; görünür hədəfi sərrast nişan almaq üçün topu tuşlayırlar.

Müdir özünü itirməyib, telefonda dəniz hərbi qərargahına xəbər verir ki, lazaretdə yaralılar və yetimlər təhlükədədir. Qərargahdan danışan bir nəfər rus dənizçisi ünvanı soruşdu və tapşırdı ki, tez bir ağ parçanın ortasında qırmızı rəngdə xaç nişanı çəkin, binanın damına, hündür bir yerə sansın. Gəmilərə əmr veriləcək ki, oranı səmt götürməsinlər.

Şəfqət bacısı Sara xanım (Zülfüqar Hacıbəyovun baldızı) dörd döşəkağını cəld bir-birinə saladı. Müdir boşqabda xəmir hazırladı, qırmızı kağız gətirib, döşəkağının ortasına iri bir xaç yapışdırdı...

İkinci top mərmisi həyətə düşüb partladı. Çaxnaşma başlayanda doktor adamları sakitləşdirib, qırmızı xaç nişanı olan ağ bayrağı götürüb qapıya yönəldi ki, qaldırıb dama sancsın. Müdir bayrağı onun əlindən almağa cəhd edəndə doktor deyir ki, sən yetimlərə və xəstələrə baxırsan, olmaz. Bu qədər yazıq, ata-anasız cocuqların, xəstə, yaralı və əsir əsgərlərin məhv olmasındansa bir nəfərin ölməsi daha məsləhətdir. O, qapıya çatanda Nargində ağır xəstəliyə düşmüş və artıq sağalmaqda olan Hüseyn adlı əsir çavuş özünü çatdırıb, bayrağı, çəkic və mismarları doktorun əlindən alıb dedi: «Doktor əfəndi, siz hələ xəstə və yaralılara çox lazım olacaqsınız, şəhid olmaq şərəfini, lütfən, bana hədiyyə ediniz. Yalqızam, kimsəm yox; ölsəm də fərq etməz». Cavab gözləmədən dəhlizdən çıxdı, dama qalxdı. Bayrağı dama sancdı. Binanın ətrafına artıq top mərmisi düşmürdü...

Yetim uşaqlar dəhlizə girən əsir çavuş Hüseyni qucaqladılar. Xəstə və yaralı əsgərlər də ona təşəkkür edirdilər.

Çəmbərə kəndindəki lazaretin damına sancılan bayrağa bənd imiş kimi bütün binalarda ağ bayraqlar ucaldı... Kətan parçalar küləkdən dalğalanırdı. Elə bil saysız-hesabsız göyərçin qanadlanırdı.

Müslümov deyirdi ki, lazaretdən durbinlə baxırdıq. Şəhəri tüstü bürümüşdü.

Hərb gəmilərindən matroslar gəlib, şəhər məhəllələrini gəzib vəziyyəti yoxladılar, «rusları qırmaq» şayiəsinin daşnak fitnəsi olduğu təsdiq edildi.

Axşamın düşməsi vəziyyəti heç də dəyişdirmədi. Bütün gecə atışma davam etdi. Evlər yanır, hər tərəfdən alov ucalırdı.

İmkanı olanlar gecənin qara tüstülü pərdəsi altında faytonda, arabada, atda, eşşəkdə, piyada canlarını götürüb hara gəldi qaçırdılar. Əlsiz-ayaqsız kasıblar isə küçələrə, həyətlərə tökülüşüb nə edəcəklərini bilmirdilər, çaşıb qalmışdılar. Qayıqla, gəmiylə, barkazla da qaçanlar çox idi.

...Lazaretdə ərzaq qurtarmışdı. Xəstələr və yetim uşaqlar ac idi. Küçəyə çıxmaq qorxulu idi. Ağ xalat geyib, başıma həkim qalpağı qoydum, qoluma da qırmızı xaç nişanı bağladım, eynək də taxdım, balaca bir sanitar çamadanı da götürüb, küçəyə çıxdım. Çamadanda bint, yod, iynə, spirt, bir az da dərman vardı.

Küçələrdə silahlı növbətçilərdən başqa heç kəs görünmürdü. Nikolayevsk (Kommunist) küçəsilə üzü aşağı düşüb Bazar (Hüsü Hacıyev) küçəsinin tininə çatdım. Mağazalar qarət edilmişdi.

Divarlara iri hərflərlə yazılmış xəbərdarlıq elanları vurulmuşdu: «Axşam saat 8-dən sonra küçələrə çıxmaq qadağandır».

Çox çətinliklə özümü qərargaha çatdırdım. Xəstələrin və yetimlərin siyahısını bir rus matrosuna verdim. 250 yetim uşaq və 73 xəstə üçün anbardan çörək, ət konservi, yarma, duz və başqa ərzaq buraxmağı anbardara əmr etdi. Anbar, qərargah olan binanın zirzəmisində idi. Ərzağı aparmağa bir yük maşını

da verdilər. Qol çəkib malları alıb maşına yüklədik. Yola düşəndə qaranlıq çökürdü.

«Cəmiyyəti-xeyriyyə»nin tüstülənən binasının qabağından keçəndə sürüsü maşını küçənin ortasından sürdü. Maşının qabaq təkərləri bir gün əvvəl qazılmış səngərə düşdü. Sürüsüylə tutaşdım. Yanğın söndürənlər «Cəmiyyəti-xeyriyyə»dən avadanlığı, xalçaları, mebelləri maşınlara doldurub aparırdılar. Onlar maşınımızın təkərlərini səngərdən çıxartdılar. Dumanın qabağına çatanda sürüsü maşını saxladı, yuxarı məhəlləyə getməkdən boyun qaçırdı. Dedi ki, dağlılar məni öldürərlər. Məcbur olduq şeyləri «Müqəddqs Nina» məktəbinin üzbəüzündə, birinci mərtəbədə olan əczaxananın dəhlizinə yığaq. Əczaxana yiyəsi mənimlə dost idi. Özüm də orada gecələdim.

Səhər əczaxanadan çıxdım ki, gedim iri uşaqları gətirim, ərzağı daşıyaq. Birdən küçədə beş-altı uşağa rast gəldim. Məni axtarmağa çıxıblarmış. Bərk sevindilər. Səhərə qədər yatmayıblar. Fikirləşiblər ki, bu qatışıqlıqda yəqin məni öldürüblər. Ərzağı bir-təhər lazaretə daşıdıq... Səhərisi yetimlərin və xəstələrin ərzaq məsələsini həll etmək üçün şəhər təsərrüfatına baxan Nəriman Nərimanovun yanına getdim.

Dövlətlilərin çoxusu elə atışma başlayan kimi ailələriylə gəmiyə minib İrana - Ənzəliyə yollandılar, digərləri isə bağlarına qaçdılar.

Qocaman müəllim Məhərrəm Sultanov yadında qalanları belə söyləyirdi: «Çox dəhşətli, qanlı və vahiməli günlər idi; getsin o günlər, bir də gəlməsin, Dabbağ emalatxanasında muzdur idim. Dabbaqxana şəhərin lap qırağında, Salyan kazarmalarından bir qədər aşağıda idi.

Bir az kənarda, yolun yaxınlığında birmərtəbəli evlər, daxmalar, mal-qara tövlələri, samanlıq, qara damlar yerləşirdi.

Novruz bayramına dörd-beş gün qalmışdı. Dabbaqxanada işləyirdik. Birdən atışma başlandı, özü də bir neçə yerdə. Qaçıb çıxdıq dama. Güllələrin səsi Şamaxı yolundan, bir də şəhərin ortasından gəlirdi. Biz olan məhəllədə hələ sakitlik idi. Əhali tökülüşmüşdü həyət-bacaya, küçəyə... Arvadlar ağlaşırdı.

Bütün gecəni yatan olmadı.

Varlılar şey-şüylərini arabalara, qazalaqlara, faytonlara doldurub gecə qaranlığında külfətini də götürüb hara gəldi qaçırdılar. Səs-küydən, uşaqların ağlayıb-sızlamasından qulaq batırdı.

Andronik haqqında ən düzgün xasiyyətnaməni SSRİ xarici işlər komissarı Q. V. Çiçerin vermişdi. O, 1924-cü ildə, aprel ayının 28-də, Moskvada Zaqafqaziya tələbələrinin Azərbaycan KP Bakı təşkilatının 25 illiyinə və Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının 4-cü ildönümünə həsr edilmiş yığıncaqdakı məruzəsində Androniki Antantanın agenti adlandırıb belə demişdir: «Brest - Litovsk sülhündən sonra türk ordusu hücuma keçib, əvvəl Batumi, Kars, Ardahanı zəbt edib irəlilədikcə general Nazarbekov

türklərə müqavimət göstərdi, o, meydandan çıxandan sonra mübarizəni Antanta agenti Andronik davam etdirdi. Andronik cəhd edirdi ki, Qafqazdan keçib, özünü Urmiyaya çatdırsın, ingilislərin Denstervil ekspedisiyasının dəstələrilə birləşsin. Lakin türk əsgərləri Urmiyə və Təbrizi Denstervildən tez tutdular və onu geri çəkilməyə vadar etdilər».

Məruzənin digər yerində Q. V, Çiçerin sözünə belə davam edir: «Fransızların hərbi agentləri əksinqilabçı kazaklardan özlərinə qüvvə yaradırlar. Andronik Antantanın agentidir».*

Daşnakların və müsavatçıların camaat arasında qırğın salmaq cəhdləri zəhmətkeşlərə baha başa gəldi; onlar zəhmətkeşləri inqilabi mübarizədən yayındırmağa can atırdılar.

Kommunistlər bu avantüranın qarşısını almaq üçün «xilas komitəsi» yaratdılar. Bünyad Sərdarov komitənin sədr müavini təyin edildi. Komitə azərbaycanlı, rus, gürcü və yəhudilərdən ibarət dəstələri düzəltmişdi. Bu dəstələr şəhəri gəzib özbaşınalığı aradan qaldırırdı.

Həmid Sultanov («Из прошлого» kitabı, 1924, səh. 17-19.) o günləri xatırlayaraq yazır: «Burjuaziya məğlub oldu. Sosialist təşkilatlarda fövqəladə hakimiyyət yarandı. Müsəlman məhəllələri sosialist bürosuna tapşırıldı. Büro hümmətçilərdən və sol eserlərdən ibarət idi. Büroya Nəriman Nərimanov sədr, Mirhəsən Vəzirov müavin təyin edildi. Büronun tərkibindəki fövqəladə komissiyaya Həmid Sultanov başçılıq edirdi. Bu komissiya sovetin rəhbərliyi altındakı Bakı qəzasında kənd sovetləri yaradır. Və qəza qurultaya çağırılır. 15 nəfərdən ibarət icraiyyə komitəsi seçilir. Qəza icrakomu Sovet və Bakı icrakomu tərkibinə daxil edilir. Sosialist bürosu öz fəaliyyətini bitirib hakimiyyəti ispolkoma verir. 1918-ci ilin martında Bakıda əksinqilabi qiyamı, müsavat və daşnak avantürasını Sovet silahlı qüvvələri yatırdır. Həmin ilin aprel ayında Azərbaycanda və bütün Zaqafqaziyada ilk Sovet hakimiyyəti orqanı olan Bakı Xalq Komissarları Soveti təşkil edilir:

Stepan Şaumyan - Bakı XKS sədri və xarici işlər komissarı.
Alyoşa Caparidze - daxili işlər komissarı.
İvan Fioletov - xalq təsərrüfatı şurasının sədri.
Məşədi Əzizbəyov - quberniya komissarı.
Qriqori Korqanov - hərbi və dəniz komissarı.
Nəriman Nərimanov - şəhər təsərrüfatı komissarı.
Artaşes Kariniyan (Qabrielyan) - ədliyyə komissarı.
Nina Kolesnikova - maarif komissarı.
Yakov Zevin - əmək komissarı.
Saak Ter-Qabrielyan - fövqəladə komissiyanın sədri.

* Bax: «Бакински рабочи» qəzeti, 14 may, 1924-cü il.

Mirhəsən Vəzirov - torpaq komissarı və başqaları hökumət tərkibinə komissar kimi daxil edildilər.

Bakı Xalq Komissarları Soveti bir sıra sosialist tədbirləri həyata keçirməyə başladı.

1918-ci ilin yazında Azərbaycanın bir sıra qəzalarında da Sovet hakimiyyəti quruldu.

***Bakı Xalq Komissarları Soveti.*** Bakı Xalq Komissarları soveti təşkil olunduğu birinci gündən bir sıra sosialist islahatı keçirdi; hər şeydən əvvəl zəhmətkeşlərin ağır dolanacağını qismən də olsa yaxşılaşdırmağa cəhd etdi. Bakı Kommunası dövründə sovet Rusiyasına 1.500.000 ton neft göndərildi. Neft sənayesi, banklar, şəhər təsərrüfatı, su nəqliyyatı, dəmir yolu və sairə sahələrdə yeni qanun-qayda yaradıldı. Mülkədar torpaqlarının kəndlilərə paylanması haqqında dekret verildi, banklar, neft sənayesi, Xəzər ticarət gəmiçiliyi, balıq vətəgələri milliləşdirildi.

Bakının müdafiəsini möhkəmləndirmək məqsədilə gənc Sovet dövləti Petrovun başçılığı altında neft şəhərinə 8.720 süngüsü olan bir dəstə göndərdi; onlardan yalnız 780 nəfəri gəlib Bakıya çatdı; çoxunu Saritsində (Volqoqrad) saxlamışdılar.

1918-ci ilin ortalarında İrandakı Rus korpusunun bir hissəsi 1.500 süngülü Kazak dəstəsi Lazar Biçeraxovun başçılığı ilə, Korqanovla bağlanan müqavilə əsasında, türklərə qarşı vuruşmaq üçün Ənzəlidən Ələtə gəlir, oradan da cəbhəyə yollanır.

Lazar Biçeraxova çar ordusunda ləkəli və rəzil adam kimi baxırdılar. Hələ müharibədən əvvəl, ədəbsiz hərəkəti üçün zabitlərdən biri onu şillələyir. Hərbi ənənənin və qanun-qaydanın əleyhinə zabiti duelə çağırmır, buna görə də onu qorxaq adlandırıb ordudan qovurlar. O da İrana kedir və rus korpusunda xidmətə başlayır; polkovnik rütbəsinə qədər qalxa bilir, lakin hərbçilər ona heç vaxt hörmət etmirlər.

İnqilab komitəsi mart hadisələrindən sonra Qızıl qvardiya hissələrini möhkəmlətmək və əhaliyə yardım məqsədilə neft sənayeçilərindən, banklardan, ticarət-sənaye firmalarından, gəmi sahiblərindən, fabrik və zavod cəmiyyətlərindən, neft emalı zavodu, vətəgə sahiblərindən və s. 50.000.000 manat cərimə istəyir. Kapitalistlər bu məbləği verməkdən boyun qaçırdırlar. İnqilab komitəsi onları həbsxanaya salmaqla təhdid edir. Tələb olunan məbləği ödəyirlər.

Xarici silahlı müdaxiləçilərin Azərbaycana soxulduğu dövrdə - Bakıda, mədən və zavodlarda vəziyyət ağırlaşırdı, Əksinqilabçı partiyalar bundan öz xeyirlərinə istifadə edirdi; vəziyyəti ancaq xaricdən yardım almaqla düzəltmək şüarını irəli sürürlər; fikirləri - ingilisləri Bakıya gətirmək idi.

Neft sənayesini milliləşdirərkən «Sovet syezd» etiraz etdi. Eyni zamanda hər tərəfdən pozucu fəaliyyətə başladılar. Mədənlərdə avadanlığı

yaramaz hala salır, gizlədirdilər. Böyük bankir və neftxudalar İrana, Gürcüstana, Şimali Qafqaza qaçır, saxta sənədlə banklarda olan pulları alır, yaxın adamlarına verirdilər.

İngilislərlə yaxın olanlar hər yerdə Sovet hökumətinin əleyhinə qızğın təbliğat aparır və pozuculuq fəaliyyəti göstərirdilər. Təxribat, əksinqilabi fəaliyyət və təbliğat iyul ayının 24-də pis nəticə verdi. Keçirilən mitinqlərdə bolşevikləri sıxışdırdılar. N. N. Kolesnikova yuxarıda göstərdiyimiz kitabdakı xatirələrində yazır: «Mitinq Bayıldakı körpülərdən birində keçiriləcəkdi. Mən müəyyən edilmiş vaxtda gəldim. Heç kəs yox idi. Sonra yavaş-yavaş, bir-bir, iki-bir adamlar yığıldı. Mitinqi açdıq, elə ki, mən danışmağa başladım, hər tərəfdən zəhərli, acıqlı sual və replika yağdırdılar: «haçan çörək olacaq?», «Görünür komissarların kefləri kök, güzəranları çox yaxşıdır, camaat barədə heç fikirləşmirlər». Nə qədər cəhd etdim ki, məclisi ələ alım, adamları başa salım ki, çətinlik müvəqqətidir, keçib gedəcək, heç nə çıxmadı, zor-bəla ilə ancaq yarım saat danışa bildim.

Eser, menşevik və daşnaklar çıxışlarında bütün günahları bolşeviklərin boynuna yıxdılar, dedilər ki, camaatın çəkdiyi bütün iztirab, əziyyət və çətinliklər yalnız onların ucbatındandır. Axırda sürəkli alqışlarla ingilisləri Bakıya dəvət etməyi qərara aldılar.

Özümü itirmiş halda Bakı komitəsinə gəldim, öz-özümü bacarıqsızlıqda günahlandırırdım. Bu vaxt başqa yerlərdəki mitinqlərdə çıxış edən yoldaşlar da gəlib çıxdılar. Mən düşdüyüm biabırçı vəziyyəti nəql edəndə, sözümü kəsib dedilər ki, onların da başına eynilə mənim başıma gələnlər gəlib, hətta bəzi kişi natiqləri tribunadan sürüyüb yerə salıblar».

Mühasirədə qalmış Bakı əhalisi həddindən çox aclıq çəkirdi. Şimali Qafqazdan göndəriləcək taxıl gəlib çıxmırdı. Bakı fəhlələrinin çörək payı azaldılmışdı, gündə adambaşına yarım kirvəngə (200 qram) çörək verilirdi. Bu paya çox məhdud miqdarda fındıq və günəbaxan tumu əlavə edilirdi.

Mürtəce menşevik, daşnak, eser və xırda burjuaziya partiyaları əhalinin maddi vəziyyətini guya yaxşılaşdırmaq məqsədilə tezliklə İrandakı ingilis qoşunlarını Bakıya çağırmağı tələb edirdilər. Onlar ərzaq qıtlığı və hərbi uğursuzluqların günahını Xalq Komissarları Sovetinin boynuna yıxır və böhtanlar atırdılar.

Bütün bunlar Bakının müdafiəsinə ziyan vururdu. İyulun 25-də Bakı Sovetinin fövqəladə iclası keçirildi. Rayon Sovetlərinin üzvləri, gəmi komitələri və Qafqaz Ordusunun hərbi-inqilabi komitəsi də daxil olmaqla 500-ə qədər adam iştirak edirdi. Adətən, bu cür iclasları Caparidze aparırdı, bu gün isə onun müavini daşnak Arakelyan sədrlik edirdi.

Şaumyan gündəlikdəki hərbi və siyasi vəziyyət barədə məruzə etdi.

Çıxışlarda ingilisləri Bakıya dəvət etmək ətrafında söhbət gedirdi. Bolşeviklər bunun qəti əleyhinə çıxdılar. S. G. Şaumyan, A. Caparidze, M. Əzizbəyov və Y. Zevin bu təklifi pislədilər.

Menşeviklər, eserlər və daşnaklar isə ingilisləri Bakıya çağırmağı təkid edirdilər; onların daxili işlərə qarışmayacağını söyləyirdilər. Sağ partiyaların nümayəndələri Bakı Xalq Komissarları Sovetinə və Qızıl Orduya qarşı kinli hücum və məzəmmətlərlə iftiralar yağdırırdılar və bolşevikləri fərarilikdə, şəhəri çətin vaxtda qoyub qaçmaqda ittiham edirdilər.

Çox gərgin şəraitdə təkliflər səsə qoyulur. Nəticədə sağ partiyaların təklifi qəbul edilir.

N. N. Kolesnikova xatirələrində bu mənzərəni belə təsvir edir: «sağ tərəfdə əl çalıb alqışlar başladı, lakin tez də susdu. Şaumyan qabağa çıxıb araya çökən dərin sükutu pozaraq sağ oturacaqlarda olanlara müraciət etdi: «Siz hələ İngiltərəni tapmamış, Rusiya Mərkəzi hökumətini itirdiniz. Siz hələ ingilisləri tapmamış bizləri itirdiniz. Və Mərkəzi Rusiya nümayəndəsi kimi bu satqınlığa qarşı protest edirəm və gələcək siyasət üçün bütün məsuliyyəti üzərimdən götürürəm. Partiyamız adından mən deyirəm ki, bu satqınlıq üçün məsuliyəti biz üzərimizə götürməyəcəyik...»

Caparidze salonda səs-küy, qara-qışqırıq olmağına baxmayaraq çıxış etdi: «İngilisləri Bakıya gətirməklə siz üstündə oturduğunuz şaxəni kəsəcəksiz. Siz Bakı Sovetini dağıtmaqla İngiltərə kapitalı, ingilis təlimatçıları və ingilis avtomobillərindən savayı özgə bir şey görməyəcəksiz».

Esser Veluns və menşevik Ayollo çıxışlarında bolşeviklərə, xüsusən Şaumyana çirkablı böhtanlar ataraq, onu fərarilikdə günahlandırdılar.

N. N. Kolesnikova haman xatirələrdə yazır: «Elə ki, Sovetdə menşevik – daşnak - eser dəstəsi az üstünlüklə əksəriyyət səs qazandılar və Şaumyan belə şəraitdə Bakı Komissarları Soveti vəzifəsinin səlahiyyətindən əl çəkəcəyini söylədi, daşnak Arakelyan sədrlik stolunun arxasından qalxıb, Şaumyan oturan yerə yaxınlaşaraq, özünü itirmiş halda danışmağa başladı: «Yox, bu mümkün olan şey deyil ki, siz gedəsiz... Biz sizə həmişə etibar etmişik və inanırıq... Biz gələcəkdə da sizinlə bir, bərabər işləmək istəyirik...»

26 Bakı komissarının 1918-ci ilin sentyabrında Qızıl qum səhrasında güllələnməsi daşnak Arakelyanın sədrlik etdiyi bu iclasda çıxarılan qərarın əks-sədası idi.

Bakı sovetinin bu dramatik iclası gecə saat 2-yədək davam etdi.

Binanın qarşısında böyük izdiham vardı... Görünür iclasda olub-keçənləri artıq bilirdilər. Camaat səssiz aralanıb bizə yol verdi».

N. N. Kolesnikova sonrakı səhifələrdə hər iki uşağının ağır xəstə olduğunu və onları şəhərdən necə çıxartmaq barədə yazır: «Şaumyanla söhbət etdiyim günün sabahı, dalımca maşın gəldi, məni və uşaqları apardılar Bayıldakı körpülərdən birinə yan almış gəmiyə.

Gəminin göyərtəsindəki çamadan və dolu tayların üstündə arvadlar və uşaqlar oturmuşdu, tərpənmək olmurdu. Birtəhər bizi də yerbəyer etdilər. Get-gedə hava qızır, günəş amansızcasına yandırır, uşaqlar ağlayır, bürküdən az qalırdı boğulsunlar. Bir neçə arvadın ürəyi getdi. Xəstə oğlumun halı məni bərk qorxudurdu, onsuz da nəfəsi zorla gedib-gəlirdi. Mənə elə gəlirdi ki, bu saat yıxılacam.

Uşaqları götürüb gəmidən düşdüm...

Sabahı gün yoldaşlardan iki nəfər gəlib dedi ki, məni lap evimizin yaxınlığındakı körpüyə yan almış gəmiyə aparacaqlar. Getdik, gəmi balaca idi, elə katerə oxşayırdı, kayut da yox idi... Göyərtəyə o qədər adam və yük doldurmuşdular ki, tərpənmək olmurdu, mənə və uşaqlara yer eləyib getdilər.

Birdən adamların arasından, daşnak dəstələrinin rəsmi libasında olan bir zabit qabağa çıxdı, qəzəbli, acıqlı nəzərlərlə mənə baxıb qışqırdı:

- Vətəndaşlar, heç bilirsiz bizim gəmiyə kimi gətiriblər? Maarif komissarı Kolesnikovanı. O da mühakimə ediləcək şaykadandır. Bu canini qoymamalıyıq qaçsın...

Sonra da dişinin dibindən çıxan söyüş, böhtan qalmadı ki, bolşeviklərə, komissarlara, şəxsən mənə yağdırmasın.

Sərnişinlərin hamısı susurdu, bəziləri istehza ilə gülümsəyir, arvadlar oturub başlarını aşağı salmışdılar. Kapitanı əvəz edən matros görünür nə edəcəyini bilmirdi. Telefon aparatının dəstəyini götürüb «Sentrokaspiyə» raport verdi:

- Maarif komissarı Kolesnikova uşaqları ilə göyərtədədir. Əmriniz nədir?

Ona cavab verdilər, matros da bərkdən təkrar etdi:

- Qaçqın kimi qala bilər. Oldu! Vətəndaşlar, eşitdinizmi? - deyə sərnişinlərə baxdı.

Bu cavab daşnak zabitini təmin etmədi. Sərnişinləri təhrik və qızışdırmaq məqsədilə kinlə, qəzəblə məni təhqir etməkdə idi. Sahilə baxanda gördüm ki, girəcəkdə üç nəfər fəhlə dayanıb, işin nəynən qurtaracağını izləyir. Onları tanımırdım, özüm də bilmirəm kömək üçün onlara müraciət edim, ya yox. Onda ki, zabit həddini aşıb qışqırdı: «Niyə durmusuz? Özünü də, küçüklərini də götürüb, dənizə tullamaq lazımdır». Fəhlələr bir-birilə pıçıldaşıb harasa, dəniz qırağı ilə qaçdılar. Tərəddüddə idim, nə edəcəyimi bilmirdim. «Durum düşüm sahilə? Düşmənim arxadan məni vura bilər, böyründən nağan sallanırdı. İtələyib dənizə də sala bilərdi.

İmdad isə tamamilə başqa yerdən yetişdi. Onu gördüm ki, bir az əvvəl dəniz qırağında dayanmış fəhlələr iki nəfər əllərində tüfəng olan qırmızı qvardiyaçı ilə qaça-qaça gəlirlər. Gəmiyə yaxınlaşanda biri dedi:

- Yoldaş Kolesnikova, düşün aşağı, orada qalmayın.

Köməkləşib uşaqlarla məni gəmidən düşürdülər. Yenə qayıtdım mənzilə, daha gedəsi başqa yerim yox idi.

Sabahı gün səhər, Zevin Tatevos Əmirovla bərabər gəldi; o vaxta qədər onunla (Tatevosla - M. S.) tanış deyildim. Əmirov dedi ki, indi məni, dəstəsini yerləşdirmək üçün verilən gəmiyə aparacaq, orada hər şey qaydada olacaq. Əmirov Zevini xəbərdar etdi ki, yaxşı olardı körpüyə getməyib bizimlə buradaca vidalaşsın».

Əmirov Kolesnikovanı aparıb «Türkmən» gəmisində yerləşdirir; yemək-içməklərinə yaxşı baxır, iki gün dincələndən sonra üçüncü gün gəlib xəbər verir ki, gecə yarısında «Sentrokaspi»nin adamları bütün gəmiləri yoxlayacaqlar, burada qalmaq xatadır. Və onu öz evinə aparır.

Sonra tamamilə başqa bir gəmidə Həştərxana gedir, dənizdə çox iztirab və qorxu keçirir.

İyulun axırında erməni milli şurasının üzvləri Gülxəndanyan və polkovnik Qazarov başda olmaqla daşnak nümayəndələri ağ bayraq qaldırmağı qərara alırlar, eyni zamanda İrana xüsusi nümayəndə yollayırlar.

Doktor Araratyan ingilisləri Bakıya dəvət etmək üçün iki dəfə İrana, əvvəl Həmədana, sonra Ənzəliyə getmişdi. Hər dəfə ingilislər vəd verib, onu əmin etmişdilər ki, tezliklə gələcəklər; lakin vədləri boş çıxmışdı. Üzvü olduğu erməni milli şurasında, daşnak silahlı qüvvələri baş qərargahında, erməni burjuaziyası, xüsusən neft maqnatları dairələrində mənşələri əksərən zəngin, kübar ailələrindən olan, firavan həyat tərzini itirməmək üçün fəhlə sinfinin ətəyindən yapışıb, onların gücü hesabına hakimiyyətdə qalmaq istəyən və eyni zamanda proletariata xəyanət edən menşevik və eserlər ingilisləri Bakıya gətirə bilmədiyi üçün doktor Araratyanı burunlayır, istehza edir, açıqdan-açığa məsxərəyə qoyur və hətta təhqir də edirdilər. Odur ki, Araratyan üçüncü dəfə ingilislərin ayağına İrana gedir, qəşəng qızını da özü ilə aparır.

İyulun 30-da müntəzəm türk qoşunu hücuma keçir, sürətlə şəhərə yaxınlaşır. Cəbhəni tərk etməzdən əvvəl Biçeraxovun əlaltısı kapitan ona deyir ki, «cənab polkovnik, təzə xəbər var». Biçeraxov soruşur: «Na barədə? Gündə on min təzə xəbər çıxır, çoxusu da yalan».

«Petrovun dəstəsi şəhərə varid olub».

«Bilirəm», - deyə Biçeraxov dillənir, - neçə süngüdür?» Kapitan: «Yeddi yüz səksən iki, - tez də əlavə edir, - bəs deyirdilər, on min nəfərlik dəstə gəlir, bütün silahlarıyla...». Biçeraxov acı-acı gülür: «Səni qorxudub əldə saxlamaq üçün gopa basırdılar». Kapitan xəbər alır: «Məni niyə qorxutmaq istəsinlər?» Biçeraxov: «Səni, məni, hamımızı qorxutmaq üçün. Mən yeddi, səkkiz yüz nəfərdən artıq da güman etmirdim. Yarısından çoxu da, sözsüz, tör-töküntüdür... - deyə peysərini qaşıyır və əlavə edir, - Şamaxını türklər çox tez tutdular... Elə Salyanı da... Heç kəs gözləmirdi. İndi də Bakını mühasirəyə alıblar... Tezliklə tutacaqlar. Çıxıb getməliyik. Burada it yiyəsini tanımır,

Düşünürdüm ki, daşnaklarla bərabər Tiflisi də tutub diktatura yaradarıq. Alman - türk yürüşünü dayandırarıq, olmadı...»

Denstervilin xatirələrindən görünür ki, Lazar Biçeraxov onların qurduğu plan əsasında Bakıya gəlib. O yazır: «...Biz birgə fəaliyyət planlarımız barədə tam razılığa gəldik; burada qəsdən üstündən keçdiyim planlara böyük ümid bəsləyirdim. O, (Biçeraxov – M. S.) bolşeviklərə qoşulmaqla yerli rusların böyük heyrətinə səbəb oldu, lakin mən əminəm ki, o, tamamilə doğru hərəkət etdi. Bu, Qafqaza yeganə yol idi, o orada bərqərar olub kök salsa, deməli, hər şey yerli-yerində olacaqdı... Mən ona ürəkdən inanıram... Hazırkı məqamda o bizim yeganə ümidimizdir... Onun işləyib hazırladığı planlar bizim mənafeyimizə tamamilə uyğundur».*

«Bakı ilə əlaqə, demək olar ki, hər gün adi kuryerlər vasitəsilə yaradılmışdı və adama elə gəlirdi ki, sosial-inqilabçı dostlarımız tezliklə «soir d`etat», yəni bolşevikləri devirmək, Bakıda yeni idarə üsulu yaratmaq və ingilisləri köməyə çağırmaq iqtidarında idilər... Mən proqramları bizim məqsədlərimizə daha çox uyğun gələn s.i partiyasının nümayəndələri ilə danışıqlar aparmışam... Onlar bizdən kömək, xüsusilə maliyyə yardımı istəyirlər. Mən s.-larla dostluq münasibətləri saxlayıram və onlar bilirlər ki, hakimiyyəti öz əllərinə alsalar, bir çox məsələdə bizə bel bağlaya bilərlər».*

General Denstervilin bu dediklərini menşevik Roxlin general Tomsonun başçılığı altında Bakıya gələndə sübut və təsdiq etdi; Roxlin öyünür və fəxr edirdi ki, onu Tomson qəbul edib, onunla on dəqiqə danışıbdır...

General Denstervilin Bakı haqqındakı rəyi daha maraqlıdır: «Bakının olduqca böyük əhəmiyyəti vardı və onu ələ keçirmək üçün hər hansı riskli təşəbbüs şübhəsiz, özünü doğruldurdu».**

Lazar Biçeraxov istədiyi kimi öz 1.500 süngüsü olan kazak dəstəsi və 1.000-dən artıq silahlı daşnakla cəbhəni tərk etdi. Əvvəlcə Sumqayıta yollandılar, oradan da Şimala gedib öz köhnə silahdaşları, ağqvardiyaçılarla birləşdilər. Biçeraxov inqilabın düşməni idi və axıra qədər də düşmən olaraq qaldı.

Biçeraxovun, əksəriyyəti daşnaklardan ibarət olan neçə min silahlı dəstəsi Kizliyar yaxınlığında Qızıl Ordu tərəfindən darmadağın edildi, özü isə döyüşdə öldürüldü.

---

* Денстервил. Британский империализм в Баку и Персии, 1917-1918-го года. (Воспоминание) – Тифлис, 1925, стр.164.

* Денстервил. Британский империализм в Баку и Персии, 1917-1918-го года. (Воспоминание) – Тифлис, 1925, стр.123.

** Yenə orada.

Erməni Milli şurası iyulun 30-da cəbhəyə 1000 nəfərlik dəstə göndərəcəyini vəd edir. Cəbhəyə isə var-yox 21 adam gəlir. Erməni milli şurasının iki nümayəndəsi - daşnak Rostom və Gülxəndanyanı Xalq Komissarları Sovetinə çağırıb, vədlərində nə üçün dönüklük etdiklərini soruşanda, Gülxəndanyan cavab verir ki, «Niyə hakimiyyəti təslim etmirsiz? Sizsiz də özümüz işin öhdəsindən gələ bilərik».

Müsavatçılar və daşnaklar Sovet hakimiyyətini yıxmaq üçün 1918-ci ilin mart ayında birləşmişdilər. Daşnaklar müsavatçılara silah verməyi öhdələrinə götürmüşdülər. «Azərbaycan» qəzeti bir il sonra (17.111-1919-cu il, № 67) dərc etdiyi məlumatda yazırdı ki, «Martın 18-də keçmiş şəhər rəisi Qaik müsəlmanların iclası keçirilən «İsmailiyyə» binasına gələrək, erməni Milli şurası və Daşnaksütyun partiyası adından bildirmişdi ki, hərgah müsəlmanlar bolşeviklərin əleyhinə çıxsalar onda erməni qoşun hissələri müsəlmanlara qoşular və bolşevikləri Bakıdan qovub çıxarmaqda onlara kömək edər».

Erməni Milli şurasının üzvlərindən biri müsəlman Milli şurası və Müsavat partiyası yerləşən binaya gəlib xəbər vermişdi ki, daşnaklar müsavatçılarla bərabər bolşeviklərlə mübarizə etmək üçün məsləhət etmək istəyirlər, O, əlavə etmişdi ki, «bu mübarizə siyasi əqidələr üstündə gedən bir mübarizədir, müsəlman və erməni Milli şuraları birlikdə çıxış etmək üçün sazişə gələ bilərlər».

Müsəlman Milli şurası daşnaklara yardım göstərməyə razılaşır. Əlimərdan bəy Topçubaşovu bir heyətlə danışıq aparmaq üçün erməni Milli şurasına yollayır. Daşnaklar danışıq zamanı vəd edirlər ki, müsavatçılara silah verəcəklər.

Lakin saziş bağlamırlar. Görünür daşnaklar ətəyindən bərk yapışdıqları ingilis - Amerika imperialistlərinin, Antantanın gələcəkdə belə hərəkətdən narazı qala biləcəyini nəzərə alıblar. Söz verdikləri halda martdakı döyüşlərdə birinci gün neytralitet elan edirlər, ikinci gün dönüklük edib şəhərdə fitnə-fəsad, nizamsızlıq salır, milli qırğını qızışdırır, dinc azərbaycanlıları qırırlar. Türklər cəbhədə irəliləyirdilər. Erməni Milli şurası İsveçin Bakıdakı konsulundan xahiş edir ki, ağ bayraqla türk baş hərbi qərargahına danışıq aparmağa göndəriləcək heyətə başçılıq etməyi öhdəsinə alsın. Konsul razılıq verir. Türk qoşunları Biləcəriyə çatırdı. Yollarda fayton, araba, furqon, top-topxana, hərbi ləvazimat, qoşqu atları, səyyar mətbəxlər dolu idi, tərpənmək, yerimək mümkün deyildi.

Bir gün əvvəl, iyulun 29-da Ələt -Səngəçal stansiyasını müdafiə edən 1.600 nəfərdən yalnız 200 nəfər qalmışdı.

Şamaxı ətrafındakı məğlubiyyətdən sonra, hələ Mərəzədə ikən qərargah rəisi Avetisov hərbi komissarları güllələyəcəkləri ilə hədələyib, ağ bayraq qaldıraraq türk ordusu qərargahına gedib barışıq istəməyi tələb etmişdi.

Biləcəridəki Baş qərargah adlanan balaca otaqda oturan yox idi. Hamı ayaq üstündəydi, girir, çıxır, vurnuxur, qışqırır, söyüşür, bağırırdı. Heç kəs, heç kəsə qulaq asmırdı.

Sağ cəbhə tamamilə açıq və bomboş idi.

Alman - türk işğalçılarına qarşı qızıl əsgərlər və qvardiyaçılar axıra qədər qəhrəmancasına döyüşdülər.

Daşnak-menşevik və eserlər avqustun əvvəlində əksinqilabi «Sentrokaspi diktaturası» adlandırdıqları hökuməti qururlar. Bu yeni hakimiyyətin qərarları arasında üç maddə xüsusi yer tuturdu: 1) Bakı Soveti buraxılır, 2) «Известија» və «Бакински рабочи» bolşevik mətbuatı bağlanır, 3) Həştərxana neft göndərmək dayandırılır.

Bakı şəhəri üz-üzə duran iki düşmən cəbhəyə bölünmüşdü.

Komissarlar öz adamları, qoşunu, silahı, sursatı ilə «Petrov» meydanına toplaşmışdılar.

«Sentrokaspi diktaturası» hakimləri isə şəhərin qalan məhəllələrində ağalıq edirdilər.

«Petrov» meydanında toplaşan adamlardan hər kəs risk edib, kənara çıxsaydı, mütləq döyülə-döyülə həbs edilərdi. Bu meydan «dövlət» daxilində əsl dövlət idi. burada «Бакински рабочи» qəzetinin o zamankı son nömrələri nəşr edilmişdi.

Milli burjuaziyanın silahlı qüvvəsi və daşnakların satqınlığı Bakının inqilabi müdafiəsini pozdu.

Görək taleyin istehzası bundan sonra necə davam edəcək.

İyulun 31-dən avqustun 1-nə keçən gecə türk qoşunları Biləcəri tərəfdən şəhərə hücuma keçirlər. Şiddətli döyüşlər başlanır.

Çəmbərəkənd və qəbiristan tərəfdən şəhərə girən türk qoşunları Petrov dəstəsinin bulvardan açdıqları şiddətli top atəşi nəticəsində hücumu dayandırırlar. Xalq Komissarları Sovetinin üzvləri qızıl əsgərlərlə çiyin-çiyinə cəbhədə vuruşurlar. Petrovun topçuları böyük şücaət göstərir və sıralarından üç yüz nəfərdən çox soldat itirir. Petrovun özü də yaralanır. Çoxlu türk əsgəri də qırılır.

İngilis konsulu Mak Donellinin birbaşa rəhbərliyi altında qurulan «Sentrokaspi diktaturası»nın az müddətə də olsa, 44 günlük hakimiyyətdə qalmağına əlverişli imkanı bu vuruş yaratdı.

Hücumun ləngiməyinə və ingilislərin Bakıda qalacaqlarına ümid bəsləməyən erməni dövlətliləri öz işlərində - qaçmaqda idilər. Vəzndə yüngül, dəyərdə ağır, qiymətli əşyalarla doldurulmuş çamadanları gəmilərə yükləməyə tələsirdilər. Bilet almaq mümkün deyildi, hər bir biletə ağlasığmaz pul tələb edirdilər, bununla belə çox vaxt bilet tapmaq olmurdu. Zənginlər gəmilərin havasız, rütubətli, zülmət anbarlarında, ayaqüstə dayanmaq üçün min manat qızıl pul verməyə belə hazır idilər.

Körpülərdə dəhşətli mənzərə vardı. Minlərlə sərnişinlərin səs-küyü aləmi başına almışdı; qış-qıran, ağlayan, söyüş söyən, əşyasını, uşağını itirənlərin səsi bir-birinə qarışmışdı.

Oğru və cibkəsənlərin bayramı idi.

Hamı qabağa can atır, bir-birini sıxışdırır, yıxır, tapdalayır, irəli keçirdi. Bunların hamısı da adi insanlara çox hündürdən baxan, ömürləri naz-nemət içində keçən, başqalarına etina etməyən, ədəb-mərifət, nəzakətdən dəm vuran harın aristokratlar idi. Aralarında bir nəfər də olsa kasıb erməni yox idi. Uşaqların şivənindən, arvadların göz yaşlarından adamın tükləri biz-biz olurdu. Sübh qaranlığından başlayan bu səhnə bütün gecəni də davam edirdi. Qaranlıqda həyəcan, qorxu və vahimə birə-beş artmışdı, zülmətdən heç nəyi və heç kimi nə görmək, nə də tanımaq olurdu. Şiddətli xəzrinin qopartdığı tozanaq dumanı göy üzünü pərdə tək örtmüşdü, ulduzlar görünmürdü; elə bil insanların dəhşətli iztirabını, rəzalətini görməkdən xəcalət çəkirdi.

Avqustun 4-də Ənzəlidən ingilis qoşunlarını gətirən «Abo» gəmisi «Qafqaz -Merkuri» körpüsünə yaxınlaşırdı. Dəstəyə polkovnik Keyvort başçılıq edirdi.

Körpüyə onları qarşılamağa seçilmiş şəxslər toplaşmışdı. Böyük Britaniya əsgərləri daşnak, eser və menşevikləri həm türk ordusundan, həm də daxili düşmənlər hesab edilən bolşeviklərdən qoruyacaqdı. Burjuaziya xilaskarlarını həvəslə, sevinclə, səbirsizliklə gözləyirdi.

Bu münasibət üçün körpü xüsusi bəzədilmiş, xalılar döşənib, hər tərəfdən bayraqlar asılmışdı. Daşnaklar çox yerdə ingilis və erməni dillərində iri hərflərlə şüarlar yazmışdılar. «Erməni millətinin böyük hamisi Böyük Britaniya var olsun», «Erməni xalqının xilaskarı ingilislərə eşq olsun...».

«Abo» gəmisi körpüyə yan aldıqda pillələrdən «Kent» alayının bir bölük soldatı, sonra «Stafford» alayının 200 nəfərlik dəstəsi trapla düşdü, kral səhra topxanasından bir neçə yüngül top, 7 kiçik yük maşını, bir də patron qutuları və xırım-xırda hərb ləvazimatı boşaldıldı.

Pulemyotçu soldatların qucağında üç meymun da vardı. Vur-tut 400 nəfər əsgər, 7 yük maşını, 4 yüngül dağ topu, bir neçə qutu patron və 3 meymun. General Denstervil gələndə soldatların sayı 900 nəfərə çatmışdı.

İngilis silahlı qüvvələrinin qüdrətini yerli əhali qarşısında nümayiş etdirmək, əsgərlərin sayını çox göstərmək, üçün onları iki-iki və bir-birindən xeyli aralı düzərək, şəhər küçələrindən keçirdilər; arxadan da yük maşınları və top arabaları gedirdi.

Bu hal hamıdan çox erməni Milli şurasını və daşnak hərbçilərini məyus etmişdi. Menşevik və eser rəhbərləri daşnak dostlarından heç də az kədərlənib, qəzəblənməmişdilər. Onlar ən azı bir ordu və müvafiq hərbi sursat və ərzaq gözləyirdilər.

Polkovnik Keyvort körpüdən durbinlə dənizə baxarkən üfüqdə Almaniya bayrağı dalğalanan gəminin sürətlə yaxınlaşdığını gördükdə soruşdu: «Kapitan Stoks, sənin coğrafiyadan başın yaxşı çıxır. Xəzər dənizinin hələ alman dənizi olmadığını yaxşı bilirsən. Bəs o gəmiyə nə üçün alman bayrağı sancılıb?»

Stoks dinməyib təəccüb və maraqla yaxınlaşan gəmiyə baxmaqda davam edirdi. Gəminin göyərtəsində bir neçə adam dayanmışdı. Top və başqa silahlar görünmürdü.

Çox keçmir Almaniya bayrağı dalğalanan «Kursk» gəmisi körpüyə yan alır. Göyərtədə dayanmış alman generalı və bir neçə zabit gözləyir ki, şəhəri götürmüş türk müttəfiqləri onları ləyaqətlə qarşılayacaqlar.

İngilislər alman generalı və zabitlərini əsir tutub, «Kursk» gəmisini də öz donanmalarına qatırlar.

İngilis polkovniki Keyvort cəbhə ilə tanış olandan sonra onu belə təsvir edir: «Varid olduğumuz gün vaxt itirmədən cəbhəni dolaşdım. Vəziyyət qələbəyə heç bir ümid vermirdi. Səngərlər bərbad, kazarmalar onlardan daha pis lazım olsa geri çəkilmək üçün yolların heç biri yararlı deyildi. Qoşunların yerləşdikləri mövqelər çox əlverişsizdi. Bu mövqelərdən ən azı bir neçə kilometr irəliyə getmək vacibdi. Lakin bu əməliyyat üçün yerli qoşunlar hazır deyildi. Onlar qeyri mütəşəkkildirlər. Hərbi sursatı boş-boşuna zay edirdilər. Əsgərlərdən kim hara istəyir saatlarla atəş açırdı. Bu anarxiyanın səbəbini soruşanda cavab verdilər ki, düşməni qorxuduruq, qoy bilsinlər ki, biz hər zaman hazırıq. Şübhəsiz, türklər bu axmaq hərəkətə gülür və sevinirlər. Özləri isə bir gülləni belə hədər sərf etmirlər».

Avqustun 8-də «Sentrokaspi diktaturası» Bakını işğal etmiş ingilislər üçün rəsmi qəbul düzəldir. Bakı komissarlarının Qızıl qum səhrasındakı gələcək cəlladı kapitan Rocinald Tiqcons da bu qəbulda iştirak edir, hətta nitq də söyləyir.

Avqustun 13-də Xalq Komissarları və Petrovun dəstəsi 17 gəmidə Həştərxana yola düşürlər. Dənizdə şiddətli fırtına qopur, gəmilər Jiloy adasının qabağında lövbər salıb havanın açılmasını gözləməyə məcbur olurlar.

Avqustun 14-də «Sentrokaspi diktaturasının» göndərdiyi hərbi gəmilər: «Ərdəhan», «Kars» və «Göy Təpə» komissarların gəmilərinə yaxınlaşır və ultimatum verirlər ki, geri qayıtsınlar, əks təqdirdə top atəşinə tutmaqla təhdid edirlər.

Komissarlar ultimatumu, geri qayıtmaq tələbini rədd edirlər. Avqustun 14 və 15-də Jiloy adası yaxınlığında qalırlar. Avqustun 16-da hava düzələndə yollarına davam etmək istərkən «Sentrokaspi»nin hərb gəmilərindən birindən meqafonun metallik səsi gecə qaranlığını yara-yara təzədən ətrafa yayılır: «Sentrokaspi diktaturası» və İcraiyyə komitəsi adından əmr edirik ki, «istiqaməti dəyişdirib, Bakıya qayıdın!». «Ərdəhan», «Kars» və «Göy Təpə»

hərb gəmilərindəki projektorlar «komissarların» gəmilərinə güclü işıq saçır. Göyərtədəki topların lülələrindən o istiqamətə yönəldiyi aydın görünürdü.

Gəmilərdən birində uşaq ağlayır, hiss edilirdi ki, o, xəstədir. Meqafondakı səs təzədən ucalır: «İki saat möhlət verilir. Səmti dəyişdirməsəniz, lazımi tədbir görəcəyik!»

Komissarlar adından Caparidze cavab verdi ki, indi də, iki saatdan sonra da və heç zaman da Denstervil lakeylərinin hökumətini tanımayacaqlar və əmrinə tabe olmayacaqlar.

Dəniz guruldayır, dalğalar laqeyd-laqeyd oynayır, hər iki dəstənin gəmilərini eyni tərzdə yırğalayır, oxşayırdı.

İki saatdan sonra hərb gəmilərindən atılan top mərmiləri sükutu pozur. Projektorların işıq zolaqları komissarların olduğu - «İvan Kolesnikov» gəmisini aramsız axtarır. Mərmilər isə pərakəndə halda dənizə düşürdü. Projektorlar axtardıqları gəmini tapan kimi işıq zolağından, görmə dairəsindən itirməməyə səy edir. İki mərmi eyni vaxtda hədəf götürülmüş gəminin böyrünü deşir. Maşın hissəsinə su cızmağa başlayır.

Neft və benzin yüklənmiş gəmilərə top gülləsinin dəyməsi partlayış və yanğına, yüzlərlə qaçqının ölümünə səbəb olacaqdı.

Göyərtəsində top və atlar olan gəmi dalğalar oynadıqca ləngər vururdu. Hər dəfə top atəşi açıldıqca atlar instinktlə ölümü duyur, dəhşətə gələrək kişnəyir və qaçmağa yer axtarırmış kimi göyərtəni təpikləyirdilər.

Kayutalarda və anbardakı qaçqınlar ölüm, dənizdə batmaq qorxusundan göyərtələrə qalxırlar, dəhşətlə qışqırıb bağırmağa, ağlamağa başlayırlar.

İki qızıl əsgər həlak olmuşdu, səkkiz nəfər yaralanmışdı, gəmilərdən bir neçəsi zədələnmişdi.

Çaxnaşmada bir arvad qucağındakı uşaqla özünü dənizə atır; bir neçə nəfər də özünü dənizə tullayıb üzə-üzə Jiloy adasına pənah aparır. Oddan-alovdan xilas olmaq üçün suya, dənizə can atırdılar. Projektorların işıq zolağında üzənlərin başları aydın görünürdü.

Kimsə qışqırır: «Camaatı xilas etmək üçün, adaya yollanmaq lazımdır!»,

Kapitanlar özlərini itirmişdi. Belə vəziyyətdə adaya yanaşmaq o qədər də asan deyildi. Qoca bir kapitan qışqırdı: «Adanı top gülləsinə basmaq o qədər də çətin deyil. Güllə quş kimi hər yerə uçur, dənizə də, sahilə də».

«Ağ bayraq qaldırmaqdan başqa çarə yoxdur!» - deyə kim isə qışqırır. «Ağ bayraq!»

Qaranlıqdan qəhqəhə çəkə-çəkə, kölgə təki bir arvad projektor işığı düşən yerə çıxır, birdən bir ağ mələfə açır. Kimin isə möhkəm əlləri sülh carçısı olan ağ parçasını qadının əlindən alır və dırmaşıb dor ağacına bənd edir/ Külək elə bunu gözləyirmiş kimi ağ parça ilə «oynamağa» başlayır.

Arxaya qayıtmaqdan savayı başqa bir çarə yox idi.

Komissarların gəmi karvanı səmti yavaş-yavaş dəyişdirib Bakıya yollandı. Hərb gəmilərindəki projektorlar və topların lülələri o yan-bu yana yayınmamaq üçün komissarların karvanını gözdən qoymurdu.

Caparidzenin təklifilə Stepan Şaumyan, onun oğlu Suren, bir də Korqanov gecə qaranlığından istifadə edərək, ən tez üzən «Leyla» barkazına keçirlər ki, hərb gəmilərinin nəzərindən yayınsınlar, Həştərxana yollansınlar. Lakin barkazın komandası boyun qaçırır. Nə qədər dilə tuturlarsa, əvvəllər bolşeviklərə rəğbət bəsləyən sol eser kapitan Klevtsov razı olub, yola gəlmir.

General Denstervil Bakıdan aldığı teleqramda Petrov dəstəsinin tərksilah edilib, komissarların həbsə alındığı xəbərini oxuyan kimi «Prezident Kryuqer» gəmisinin kapitanına Bakıya yola düşməyi əmr edir.

Yeni inqilabi bayrağı gəmidən endirəndən sonra, sabiq üç rəngli çar bayrağını başaşağı, tərsinə çevirib qaldırırlar. General Denstervil bayrağa baxanda özünü gülməkdən saxlaya bilməyib deyir: «Bu ki, Serbiya bayrağıdır. Belə çıxır ki, biz, indiyə qədər ingilis gəmilərinin köpükləndirmədiyi bir dənizdə üzürük, Cənubi Afrika prezidenti adına olan gəmidə, İran limanından çıxıb, Serbistan bayrağı altında rus şəhərinə, türklər və bolşeviklərlə mübarizəyə gedirik».

Gəmi Bakıya yaxınlaşanda general Denstervil göyərtədə dayanıb həsrət, maraq və acgözlüklə odlar diyarının, şöhrəti bütün dünyaya yayılmış, tükənməz sərvəti, adı dillər əzbəri olmuş neft şəhərinə, onun binalarına, uzaqdan meşəni xatırladan buruqlara, qara qızıl ehramlarına, zavodların tüstüləyən bacalarına tamaşa edirdi.

«Prezident Kryuqer» gəmisi, «Abo» və «Kursk» gəmilərinin yan aldığı körpüyə yanaşır. Qabaqda polkovnik Keyvort, arxasınca «Sentrokaspi» hökumətinin beş diktatoru körpüyə yaxınlaşırlar.

Keyvort paqonlarında kral venzeli parıldayan rəsmi libasda əllərində ağ əlcək, raport vermək üçün trapla gəmiyə qalxır.

Gülünc vəziyyətdə qalmış diktatorlar körpüdə ayaqlarının birini götürüb o birini qoya-qoya gözləyirlər, lakin bir azdan onları başa salırlar ki, generalın onları qəbul etməyə imkanı yoxdur.

General Denstervil gəmidən düşüb şəhərə yollanır və ilk növbədə ingilis əsgərləri yerləşən qışlaları, aşxana və xəstəxananı yoxlayır, cəbhədəki əsgərlərinin mövqeyini və ümumi vəziyyəti gözdən keçirib, «Prezident Kryuqer» gəmisinə qayıdır. «Sentrokaspi» diktatorlarını qəbul edir. Danışığı, təxminən bu məzmunda olur: «Cəbhələrdə vəziyyət ümidsizdir. Bizim adamları lazım olan bütün əşya və vəsaitlə təmin etməlisiz. Sizin qoşunlarınız çox zəif və pərakəndə, özbaşınadır. Bu nizam-intizam və qüvvə ilə onlar türklərlə vuruşa bilməzlər. Görünür, üstünüzə gələn ordunun nizam-intizamından, müharibə etmək qüdrətindən, igidliyindən, hər birinin on adama bərabər

olmağından, ölümdən qorxmadıqlarından, ölümün özünü yaxalayıb məhv etmək cəhdlərindən zərrə qədər xəbəriniz yoxdur. Təkcə bizə, ingilislərə ümid bağlayırsınızsa böyük səhv edirsiniz. Doktor Araratyan üçüncü dəfə İrana gələndə Qazyanda mən ona açıq-aydın demişdim: Təkcə bizə arxayın olmayın! Biz Bakıya sizin istədiyiniz qədər hərbi qüvvə gətirə bilməyəcəyik, siz özünüz vuruşmalısız. O da and-aman edib, məni əmin etmişdi ki, ermənilərin güclü müsəlləh qoşunu var».

Bu qəbuldan sonra Denstervil «Köhnə Avropa» mehmanxanasında yerləşir. Əsas qərargahı isə çox da uzaqda olmayan, yüz-yüz əlli addımlıqda, İçərişəhərdə «Qoşa qala» qapısı ilə üzbəüz Hacı Məhəmməd Hüseynin «Zəncirli mülkü» adı ilə məşhur olan binada yerbəyer edirlər. İngiltərə konsulxanası da bu mülkdə yerləşirdi.

İngilislərin «Köhnə Avropa» və «Zəncirli» mülkdə yerləşdiklərindən az keçmişdi ki, türklər bu binaları top atəşinə tutur. Mehmanxananın bir neçə yerdən damı uçur, suvağı tökülür. «Zəncirli» mülkün damındakı üç qadın heykəlindən biri sınır.

Denstervil deyir: «Şübhəsiz, türklərin top mərmiləri kimi, kəşfiyyatçıları da dəqiq işləyir». Cəld şəxsi qərargahını təzədən «Prezident Kryuqer» gəmisinə köçürtdürür.

Gəminin maşınxanası, hər ehtimala qarşı, dayanmadan işləyir, istənilən dəqiqədə yola düşüb, istənilən səmtə üzə bilərdi. İngilislər hər ehtimala qarşı gəmini həmişə hazır saxlayırdılar.

Qərargahın təzədən «Prezident Kryuqer» gəmisinə köçürülməsi şəhərdə böyük söz-sova səbəb olur, ingilislərin çıxıb gedəcəkləri barədə ağızdan-ağıza danışıqlar gəzirdi. Bu əhvalatın qorxaqlıq əlaməti olduğunu və «Sentrokaspi» müttəfiqlərinin bərk təşvişə düşdükləri xəbərini generala çatdırırlar. Denstervil təxminən belə cavab verir: «Hər təhlükəyə qarşı ehtiyatlı olmaq heç də qorxaqlıq əlaməti deyil, əksinə, tərifəlayiqdir. «Sentrokaspi»nin silahlı qüvvələri cəbhədən şəhərə, evlərinə nahara gedəndə, hər ehtimala qarşı əl pulemyotunu götürürlər ki, bərk ayaqda mənzillərini qoruyub, özlərini müdafiə etsinlər. Onların daşnak dəstələri lovğa-lovğa öyünürlər ki, onlar açıq meydanda, üz-üzə vuruşmağa adət ediblər. Əslində isə, birinci qumbara, ya da top gülləsi düşəndən sonra tüstü təki yoxa çıxırdılar. Biz bura gələndə güman edirdik ki, burada mətanətli ordu var. Təəssüf ki, nizamsız, intizamsız, başıpozuq dəstədən başqa bir şey görmədik. Cəbhəni yoxlamağa yollananda birdən top-pulemyot, tüfənglərdən şiddətli atəş açmağa başladılar. Zənn etdim ki, düşmən hücuma keçib. Hərbi nazir mənə xəbər verib başa saldı ki, bu atışma, qoşun və əhalinin cəsarətini və vuruş iqtidarını artırmaq, şəhər camaatına ürək-dirək vermək üçün edilir. Bir neçə türk batalyonu isə Şubanı dağında çadır qurub, bir dənə də olsa gülləni hədər sərf etmirdi. Dostumuz daşnaklar başda olmaqla, müttəfiqlərimiz

«Sentrokaspi» qoşunları, gündə minlərlə gülləni, putlarla barıtı hədər yerə sərf edirlər ki, qorxaq, intizamsız başıpozuqları cəsarətləndirsinlər. Müvəffəqiyyətə heç bir ümid yoxdur».*

Bakıdakı hərc-mərclik, özbaşınalıq barədə Denstervil xatirələrinin başqa bir yerində təxminən belə yazır: «Metropol»da (Nizami muzeyi) hərbi nazir, generalla operativ planı müzakirə edəndə, qəbul otağından qışqırıq, söyüş səsləri eşidildi. Birdən qapı açıldı bir nəfər xorunjiy (köhnə çar ordusunda ən aşağı hərbi rütbə - M. S.) kabinetə girib, dişinin dibindən çıxanı generala yağdırdı, tapança ilə onu hədələyərək çıxıb getdi. General biabırçı vəziyyətdən çıxmaq üçün, burnunun altında mızıldandı: «Hamının əsəbləri korlanıb, camaat özünü apara bilmir». «Sentrokaspi» hərb gəmilərinin Jiloydan geri qaytardığı komissarlar karvanından olan «Leyla» barkazı Bakıya gecə yarısı gəlmişdi. Körpünü zabit və əsgərlər üzük qaşı təki mühasirəyə almışdılar. Bulvarda və ətraf küçələrdə də güclü əsgəri hissələr və polis qoyulmuşdu. Körpünün qabağında zirehli maşınlar durmuşdu. Körfəzdə hərbi barkaz və katerlər hərlənirdi. Varid olan «Leyla» barkazı onların müşayiətilə, körpüyə yan aldı.

Stepan Şaumyan, Suren Şaumyan və Karqanovu cəld barkazdan düşürdüb, zirehli maşına mindirib Şamaxı yolundakı sentralni qazamata apardılar. Küçələr boyu hərbi və polis dəstələri dayanmışdı. Qazamatın ağır darvazaları taybatay açıldı, zirehli maşın içəri girən kimi örtüldü. Yubanmadan hər üç məhbusu üst mərtəbəyə qaldırıb, ölümə və kürək cəzasına məhkum olanlar üçün ayrılmış xüsusi kameraya saldılar. Kameranın bir pəncərəsi günbatana, o birisi qibləyə (cənuba) baxırdı. İçəridə hava ağır idi, bürkü adamı boğurdu. Döşəmə sement idi. Nə stul-stol və nə də çarpayı vardı...

...Günortaya az qalırdı. Stepan Şaumyan bir yerdə qərar tuta bilmir, bir neçə adamlıq kamerada aramsız var-gəl edirdi. Qriqori Karqanov yerdə oturmuşdu, fikirli idi. Gənc Suren Şaumyan isə gah bir, gah da digər pəncərədən şəhərə baxırdı.

Bakı eksponatlardakı relyef xəritəsinə oxşayırdı. Neçə ay əvvəl kağız xəritə üstündə şəhər iki hissəyə bölünmüşdü. Sərhəd xətti darısqal küçələrdən keçirdi. Dağlıq hissə, əsasən müsəlman məhəllələrini əhatə edirdi. Şəhərin mərkəzi məhəllələri, dənizkənarı bulvar, Vağzal ətrafı, əzəmətli binalar, dəbdəbəli mağazalar, maliyyə, iqtisadi, ticarət müəssisələri, «İçərişəhər» və «Qız qalası», «Şirvanşahlar sarayı» Avropa hissəsinə daxil edilmişdi.

---

* Денстервил. Британский империализм в Баку и Персии, 1917-1918-го года. (Воспоминание) – Тифлис, 1925, стр.123.

Dağlıq məhəllələr yarım xaraba vəziyyətdə idi. Bir gün əvvəl komissarların mindiyi gəmini top atəşinə tutub, projektorların işığı və top lülələrinin nişanı altında geriyə qaytaran «Ərdəhan», «Kars» və «Göytəpə» hərb gəmiləri Novruz bayramında bu məhəllələri dənizdən, Salyan qışlalarındakı daşnak topları isə arxadan atəşə tutmuşdular.

İyulun 31-də Xalq Komissarları Sovetinin hakimiyyətdən məhrum etmək, avqustun ortasında komissarları Həştərxana aparan gəmi karvanını top lülələrinin təhdidi ilə Bakıya qaytarmaq, komissarları həbsə almaq, onları xəyanətdə günahlandırıb cinayət işi qaldırmaq, türk hərbi qüvvələrinin əlinə vermək niyyəti menşevik və eserləri, daşnakların qatı əks-inqilabçı və ingilis casusları olduğunu sübut etdi. «Qızılqum» səhrasında törədilən qanlı faciə bütün bunların nəticəsiydi.

Komissarları həbs edəndən sonra mətbuat səhifələrində, ağızdan-ağıza iftira yayırdılar ki, «Leyla» barkazında bolşeviklər xəzinədən, banklardan, milyonçulardan müsadirə edilmiş çoxlu qızıl, ləl-cəvahirat və milyonlarla valyutanı Həştərxana qaçırmaq istədikləri yerdə yaxalanmışlar.

Orduda nizamsızlıq, şəhərdə aclıq, qətl-qarət, türklərin hər an Bakıya girə biləcəyi bir vaxtda diktatorlar fövqəladə komissiya, qondarma istintaq düzəldib Xalq Komissarlarını fərarilikdə, xəzinə oğurlamaqda ittiham edərək, cəzalandırmağa hazırlaşırdılar.

***Türklər Bakıda.*** Avqust ayının axırına yaxın, türk qoşunları Lökbatan ətrafında ingilis əsgərlərinə hər tərəfdən hücum edir, eyni vaxtda Binəqədi cəbhəsinə də irəliləyirdilər.

İngilislər eser-daşnak hissələrinə yardım məqsədilə Şimali Stafford alayının bir bölüyünü Binəqədiyə göndərirlər. Lakin bu bölük cəbhədə bir nəfər də olsa eser-daşnak soldatı tapmır, təpələri tutmaqda olan iki yüz nəfərlik türk əsgərlərilə qanlı vuruşa başlayır və məğlub olur. Lökbatan ətrafındakı şiddətli, qanlı vuruşda türklər ingilislərə qalib gəlirlər. İngilis əsgərləri cəbhəni tərk edib zor-bəla ilə özlərini şəhər kənarına çatdırırlar, Məğlubiyyəti əhalidən gizlədib, ört-basdır etmək məqsədilə ehtiyatdakı bir dəstə ingilis əsgərini şəhər küçələrində qələbə şərqiləri oxutdura-oxutdura gəzdirirlər.

İngilislərin vuruşu uduzduqlarını, eser-daşnakların cəbhədən qaçdıqlarını türk qoşunlarının Bakının kənarına çatıb onu üzük qaşı təki mühasirəyə aldıqlarını şəhərdə bilməyən yox idi.

Təkcə hərbi mütəxəssislər yox, az-çox ağlı kəsən hər adam Osmanlı ordusunun artıq şəhəri tutduğunu başa düşür, «Sentrokaspi diktaturası»nın saatlarının sayıldığını anlayırdı.

Vəziyyəti müəyyənləşdirmək üçün ingilis generalı Lyu Bağdaddan təcili Bakıya gəlir. Deyilənlərə görə o, xəritədə bir yeri göstərib soruşur: «Bu məntəqə kimin əlindədir?» Qərargah zabiti göstərilən nöqtəyə baxıb deyir:

«Maştağa, cənab general, türklərin əlindədir»: «Müharibə uduzulub» deyə Lyu qaş-qabağını tökür.

Avqustun 31-də türklər təzədən hücuma keçib ingilis qoşunlarını darmadağın edirlər.

Birinci dünya müharibəsində fərqlənmiş hər iki ingilis generalı Denstervil və Lyu zabitlərlə bərabər toz, tüstü içərisində, türklərin atəşi altında şəhər kənarını bir də gəzib qərara gəldilər ki, döyüş uduzulub.

General Denstervilin süngüləri üzərində qurulmuş «Sentrokaspi diktaturası» qırx dörd gün və qırx beş gecə ömür sürəndən sonra siyasət səhnəsini biabırçılıqla tərk edir.

Nuru paşanın komandası altındakı Türk islam Qafqaz ordusu şəhəri bombardman edirdi.

İngilislər hələ neçə gün əvvəl bankları, şəhərin var-sərvətini qarət edib gəmilərə daşıyaraq İrana göndərmişdilər. İndi mədən, zavod cihazlarını və avadanlığı aparırdılar. Hündür, yekə şotland qatırlarını və atları yükləməyə gəmilərdə yer yox idi. Düşmənə qənimət qalmasın deyə İmamverdi körpüsünün yaxınlığında, Bəhriyyə məktəbi qabağındakı meydanda ingilis zabitləri heyvanları güllələməyə başlayırlar. Adamlar kənarda dayanıb, ürək ağrısı ilə bu vəhşiliyə baxırdı. Dəhşətə gəlib ağlayanlar da vardı. Ölümü sövqi-təbii duyan qatır və atların da gözlərindən yaş axırdı, aman, imdad istəyirmiş kimi elə kişnəyir, elə əsirdilər ki, adam dəhşətə gəlirdi. Atların arasında üç-dörd yaşar bir kürən diqqəti xüsusilə cəlb edirdi. Cavan bir oğlan qabağa cumub ingilis zabitinə yalvarmağa başladı ki, bu atı öldürmə, ver mənə. Zabit yanındakı daha yüksək rütbəli zabitlə öz dillərində xə danışdısa, ikisi də birdən güldü və yalınqat kürən atın yüyənini oğlana uzatdı. O da hoppanıb atın belinə mindi. At götürüldü. Zabitlər bir-birinə təəccüblə baxıb, nə isə danışdılar...

Oğlan atı hər gün dəniz kənarına aparıb yuyurdu. Türklər şəhəri tutandan sonra bir dəfə dənizdən qayıdanda, türk zabiti qabağını kəsib deyir: «Yavrum, en görəyim! Bakalım, şu yabı nə biçim şey. Yarın öylə vaxtı, babanla bərabər komendantlığa gələrsiz».

Nə komendantlığa getdilər, nə də oğlan o atı, sevdiyi kürəni bir daha görə bildi.

Nuru paşa və Mürsəl paşa son hücum planı əsasında qoşuna «irəli!» əmrini vermişdilər. Sentyabrın 14-də səhər toranlığında topların atəşindən bütün şəhər lərzəyə gəlmişdi.

İngilislərin Şimali Stafford bölmələri geri çəkilməyə məcbur olduğundan cəbhənin mərkəzi xətti də artıq türklərin əlində idi. Türklərin atdıqları top güllələrindən dəniz qaynayır, ləpələr şahə qalxırdı. «Prezident Kryuqer» gəmisi tez-tez yerini dəyişirdi.

Küçələrdə dolaşmaq xata idi. Heç kəs çölə çıxmırdı.

İrana və Türküstana qaçan dövlətli erməni ailələrinin sayı axırıncı həftədə qat-qat artmışdı, adambaşı biletin də dəyəri ağla gəlməyən dərəcədə bahalanmışdı.

«Sentrokaspi diktaturası»nın menşevik, eser, daşnak qüvvələri Qaraşəhər və Ağşəhər körpülərinə doluşub, canlarını götürüb qaçmaq üçün gəmilərə, barjlara, katerlərə, barkazlara və hətta xırda qayıqlara minməyə tələsirdilər.

Matroslar gəmilərin göyərtəsində pulemyot qurub, ancaq çoxlu qızıl pul verənləri gəmiyə buraxırdılar. İnad göstərənləri tüfəng qundağı ilə vurub dənizə salırdılar...

İngilislər gecə qaranlığında gəmilərdə işıqları söndürüb şəhərdən uzaqlaşmışdılar. Durbinlə baş verən hadisələrə tamaşa edirdilər. İxtiyarlarında olan iki hidroplanı hücuma göndərmişdilər.

Türklər hər iki təyyarəni (hidroplan) vurub şəhərin kənarına, qəbiristanlığa saldılar.

İngilis generalı Denstervilin sonralar xatirələrində yazdığına görə, üç minlik türk ordusu hücumə keçəndə, şəhərdə və cəbhədə 30 mindən çox menşevik, eser, daşnak əsgəri varmış.

Bu qoşunlar Bakını tərk edəndən əvvəl bankları, mağazaları, müsəlman dövlətlilərinin evlərini, anbarlarını qarət edib gəmilərə yükləmişdilər. Sentyabrın 14-də küçələrdə xüsusi silahlı gözətçilər qoymuşdular ki, «şübhəli» adamları güllələsinlər. Küçəyə, dama, balkona çıxmağı, pəncərələri açmağı qadağan etmişdilər.

Bir qrup silahlı fəhlə çətinliklə komissarları «Bayıl» həbsxanasından azad edir və şəhərdən köçürmək üçün əvvəldən hazırlanmış «Sevan» gəmisinə aparırlar.

«Sevan» gəmisi isə dayandığı yerdən yoxa çıxır; nə qədər axtarırlarsa o həndəvərdə tapa bilmirlər. Öyrənirlər ki, «Sentrokaspi» «Sevan»ı zəbt edib aparıb.

Yeganə ümid ona qalır ki, şəhərə gəlib hardasa gizlənsinlər.

Yola düşürlər. Türklər Bayıl küçələrində atışırdılar, pulemyotdan və tüfənglərdən açılan atəşdən qulaq batırdı. Güllələr qaçanların başları üstündə uçurdu; binaların, hasarların dalında gizlənə-gizlənə, yıxıla-yıxıla qorunub qaçırdılar. Şəhərin sahil küçəsinə çatanda gəmilərə tələsən bir dəstə adama rast gəlirlər. Tatevos Əmirov da atın üstündə onların arasında olur. O, Şaumyanı görəndə bərk sevinir və deyir: «Türkmən» gəmisi mənim sərəncamımdadır. Minin bizimlə gəmiyə.

Göydən yağan top, pulemyot gülləri və mərmilər dənizi hədəf götürür, barkaz və gəmilərdə yanğın başlayırdı. Bulvarda çoxlu qaçqın vardı...

Komissarlar qaçqın və soldatla dolu «Türkmən» gəmisinə minirlər. Əmirovun göstərişilə komissarları üst göyərtə və kayut kampaniyada yerləşdirirlər.

«Sevan» gəmisinin yoxa çıxmasında və «Türkmən» gəmisinin «təsadüfən xilas» kəmərinə dönməsində şübhəsiz ki, ingilis barmağı olmamış deyildi; bu barmaq da komissarları aparıb Qızılqum səhrasına çıxarmışdı. Bütün bunlar bir-birinə möhkəm bənd olmuş, uzun zəncirin ayrı-ayrı halqaları idi.

Bu nəticəni Anastas Mikoyan 1971-ci ildə Moskvada «Siyasi ədəbiyyat» nəşriyyatı tərəfindən buraxılan Xatirələrim» əsərində təsdiq edirdi: «Mindiyimiz «Türkmən» gəmisini Mahaç Qalaya gedən «Sentrokaspi» karvanından yayındırıb Həştərxan istiqamətinə yönəltdik; lakin nə soldatlar, nə gəminin matrosları və nə də qaçqınlar ora getmək istəmədilər, bəhanə gətirdilər ki, Həştərxanda bərk aclıqdır. Sonra bildik ki, gəlir Denstervil dəstəsindən gəmidə olan iki ingilis zabiti daşnak komandirlərlə dilbir olub samaatı bərk qorxudubdur. İngilis zabitlərindən başqa gəmidə döşünə «Georgi xaçı» taxmış bir erməni də vardı. Krasnovodskiyə çatanda yalnız iki ingilis zabiti (onların nə üçün gəmidə olmalarını başa düşə bilmədik) və bir də döşündə «Georgi xaçı» olan erməniyə gəmidən sahilə düşməyə icazə verildi; həmin erməni deyirdi ki, «Yerli hökumətə vasib məlumat çatdırmalıyam».

...Komissarları həbs edəndə həmən o iki nəfər ingilis zabiti və «Georgi xaçı» taxmış erməni yerli məmurlar arasında idilər.

Türklər günortaya qədər şəhəri top atəşinə tutub, bombardman etdilər. Küçələr artıq bomboş idi. Tək-tək adam görünür, divar dibi ilə qorxa-qorxa yeriyir, tez də yoxa çıxırdı. Yeri-göyü titrədən top gurultu-partıltıları şəhərin üstündən bir an belə əksilmirdi, əksinə get-gedə şiddətlənirdi.

Bir müəllim deyirdi ki, bu qanlı faciəyə baxmaq üçün üç yoldaş gedib İsabəy Hacınskinin dəniz kənarındakı uca mülkünün damına qalxdıq. Bura hər cəhətdən təhlükəsiz idi. Vuruşma gedən yer, bomba tökülən dəniz ovuc içi kimi görünürdü. Müharibə gözlərimizin qabağında gedirdi. «Sentrokaspi» əsgərləri əllərində tüfəng səngərləri bir-bir tərk edir, yeganə ümid yeri olan dəniz qırağına qaçırdılar. Gəmilərin çoxu tez-tələsik körpülərdən ayrılır, tüstü buraxa-buraxa uzaqlaşırdı.

Çox keçmədi ki, Çəmbərəkəndinin üstündəki qəbiristanlıqda olan səngərlər də boşaldı. Çaxnaşma düşdü. Hərə öz hayında idi.

...Bəkı tüstü və alov içindəydi. Durbinlə baxdıqda Qaraşəhər və Ağşəhərdəki körpülərdə adamlar qaynaşırdı. Dəhşətə gəlmiş adamların özlərini suya atıb üzə-üzə barjlara, qayıqlara çatmağa can atdıqları aydın görünürdü.

Dağın üstündən gələn mərmilər artıq körpülərə, gəmi, qayıq, barj və sahil küçəsinə düşürdü. Bir neçə gəmidə yanğın qopmuşdu, qara tüstü sütun təki ucalır, hər tərəfdən alov qalxırdı.

Sentyabrın 15-də səhər saat 9-da Nuru Paşanın Qafqaz islam ordusu şəhərə daxil oldu. Məscid minarələrindən azan səsi ucalırdı.

Nuru Paşa «İsmailiyyə» ilə üzbəüz iki mərtəbəli binaya, Mürsəl Paşa isə yenə həmən küçədə vaxtilə Müzəffərəddin şah qonaq qalmış mülkə düşmüşdülər.

Quba (Füzuli) meydanında, Quru bağda - Parapetdə, Vağzal qarşısındakı meydanda, bulvarda, Qaraşəhər körpüsü qabağında dar ağacları quruldu. Hərəsindən bir cənazə sallanırdı. Cənazənin taxsırını iri hərflərlə taxtada yazıb dar ağacına söykəmişdilər. Bir cənazənin boynuna qarət etdiyi şalı sarımışdılar. Başqa birisinin zorla aldığı şeyləri dar ağacının yanında yerə qoymuşdular. Hər kəsin cəzasını sübut edən əşyayi-dəlil gəz qabağında idi. Xəzri əsdikcə cənazələr yellənirdi. Dar ağacından asılanların arasında qanunu pozmuş türk əsgəri də vardı. Heç kəsə mərhəmət, aman yox idi.

Əzəmətli şəhər elə bil şahidi olduğu şiddətdən nəfəs almağa qorxurdu.

Dələduz adamlar, qoçular qaçıb gizlənmişdilər.

Çörək baha idi. İngilislər nə qədər əmr verib, qərar çıxardıb, hədə-qorxu gəldilərsə çörəyin kirvəngəsini 5 manata endirə bilmədilər...

Türklər ərzaq mallarına nırx qoydular. Nırxı pozanlara şiddətli cəza verilirdi. Divarlarda xüsusi elan - xəbərdarlıq asılmışdı. Qanunu pozanlar edamla hədələnirdi. Bir günlük ehtiyacından artıq evində ərzaq tapılan adamlar, özünə aid olmayan əşyanı yerdən götürənlər, qarət edənlər, zor işlədənlər dar ağacından asılacaqdı. Dükanlarda, həyət-bacada, küçələrdə bir kəsin malına, var-sərvətinə əyri baxan yox idi. Oğurluğun kökü kəsilmişdi. Əliəyrilər, peşəkar oğrular belə cürət edib başlı-başına qalmış qiymətli şeyləri götürmürdülər; gözucu belə baxmırdılar. İsabəy Hacınskinin evinin qabağında içi bahalı xəz palto, güzgülü, qədim bir şifoner, ipək və yun paltarla dolu, qapısı azca açıq, səkidə qalmışdı, qorxudan heç kəs cürət edib yaxınlaşmırdı, görünür qarətçilər macal tapıb apara bilməmişdilər. İki gündən sonra həmin şeyləri komendaturadan gəlib apardılar. Var-dövlətə gözucu belə baxmırdılar. Qonum-qonşu, ağsaqqallar gedib komendantlığa xəbər verirdilər ki, küçəmizdəki parça ilə dolu çamadan, qiymətli əşya olan sandıqça, xalça, gəbə, xalını gəlin aparın, düşmənçiliklə bizi şərə salarlar, Bir çörək satanın müştərilərdən bir şahı artıq aldığına görə qulağını dükan qapısına mıxlamışdılar. Şərab satmaq, içmək, tiryək çəkmək qadağan edildi, tiryəkxanaları bağladılar, sərxoş və tiryək çəkmiş adamı tutduqda zopalayırdılar. Ən yüngül cəza qırx zopa idi.

Əliabbas Müznib nəql edirdi ki, türklər Maştağaya daxil olan kimi, məni hərbi komendantlığa çağırdılar və minbaşı Tofiqbəyə katib təyin etdilər.

Mənə tapşırdı ki, ona xəbər verməmiş heç kimi kabinetə buraxmayam. Xunxar məhəlləli məşhur qoçu, başkəsən Malbaş Dadaş komendantlığa gəlib, birbaşa zabitin kabinetinə yönəldi. Mən qabağına yeriyib xahiş etdim ki, qoy özünə xəbər verim, sonra gir içəri. Malbaş qışqıra-qışqıra məni söydü: «Görçə... kəs səsini». Bu vaxt Tofiqbəy özü biz olan otağa keçdi: «Yahu, şu nə qeylü-qal?!» deyə Malbaşa acıqlandı. Mən fikirləşdim ki, türk zabiti gəldi-gedərdir, Malbaş isə kənddə qalacaq, sonra mənə divan tutar. Vəziyyəti yüngülləşdirmək məqsədilə astadan dedim: «Tofiqbəy, şu zat qoçudur». Tofiqbəy tünd-tünd ona baxdı, dönüb məndən təəccüblə xəbər aldı: «Qoçu? Yahu, o nə biçim şey?». Başa saldım ki, qoçu güclü, qolu zorba adama deyirlər, kimi istəsə, haqq-nahaq döyər, cəza verər... Tofiqbəy əlini döşünə vurub dedi: «O bən. Qoçu bən». Qapıdakı növbətçini çağırdı: «Çavuş əfəndi, ikişər subay səslə». Çavuş bir anda iki əsgər çağırdı. Tofiqbəy barmağı ilə Malbaşı onlara göstərib, əmr etdi: «Şu pəzəvəng hərifin sırtına hərəniz qırx zopa endirərsiniz, bən gediyorum, varmasam, bən qayıdana qədər davam edərsiz». Çavuş arxadan Malbaşı qucaqlayaraq quş kimi qaldırdı, otaqdan çıxardı. Malbaş ha vurnuxdu, ha qol-qıç atdı, heç nə hasil olmadı. Naxır bulağı meydanının ortasında Malbaşın paltarını soyundurub üzüqoylu yerə sərdilər, əsgərlər növbə ilə onu zopalamağa başladılar. Malbaşın bağırtısı, yalan olmasın, Nardaranda eşidilirdi. Huşunu itirdi, qanı axa-axa cecimə uzadıb evinə apardılar. Türklər Bakıdan gedəndən bir il sonra da yaralarına təpitmə, məlhəm qoyurdular, yenə sağalmırdı.

Olqa Şatunovskaya yazırdı: «Xəbər çıxanda ki, Bakı - Tiflis dəmir yolu qaydaya salınıb işə düşəcək. Lovan Qoqoberidze dedi ki, birinci qatarla Tiflisə yola düşməliyik, yoxsa burda qalmaq xatadır.

Getmək məgər asan idi?! Vağzalda jandarmlar və polis qarışqa kimi qaynaşırdı. Qoqoberidze sənəd düzəldib gürcü zabiti libası geydi, aradan çıxdı.

Suren Ağamirov, mən və Baranov bilet alıb, saxta sənəd düzəltdik ki, tələbəyik, gəldik vağzala; çuğullayıb bizi ələ verdilər. Jandarmlar bir anda araya alıb bizi tutdular və sabiq qubernator bağındakı jandarma idarəsinə gətirib zirzəmiyə saldılar. (İndiki həkimlər evi - M. S.) «Sarı türk» ləqəbi qoyulmuş Bəhayəddin bəy özü və adamları bizə olmazın işgəncə verib Şaumyanın yerini öyrənmək istəyirdilər. Nə qədər dedik ki, gəmiyə oturub gedib, inanmadılar. Bizə xəbər çatdı ki, bizi Parapetdə dar ağacından asıb edam edəcəklər, hökm hazırdır. Türk ordusu baş komandanı Nuru paşa hökmü imzalayıb təsdiq edib.

Gözlənilmədən kameraya bir neçə mühafiz girdi və bir nəfər mənə əmr etdi ki, dur gedək! Hara apardıqları məlum deyildi. Qubernator bağı ilə üzüyuxarı gedib Nikolayski küçəsindən keçdik və Quberniski küçəsinə çatdıq. Mahal məhkəməsi bu küçədə olduğundan elə bildim ki, məni mühakimə edəcəklər. Lakin belə olmadı. Məni məhkəmə binası ilə üzbəüz olan neft maqnatı Rotşildin əzəmətli mülkünə saldılar.

Böyük bir salona girəndə heç gözləmədiyim halda Beybut Cavanşiri gördüm. Təəccüb və heyrətdən özümü itirdim.

Bu adam Stepan Şaumyanın uşaqlıq və gənclik dostu idi. Bir yerdə böyüyüb, təlim-tərbiyə almışdılar. Təhsili davam etdirmək üçün bir yerdə Almaniyaya getmişdilər. Stepan fəlsəfə fakültəsini bitirib professional inqilabçı, Cavanşir isə mühəndis, sonra da zavod sahibi, kapitalist olmuşdu. Lakin yenə də dost idilər. Cavanşir dəfələrlə Stepanı həbsdən buraxdırmışdı, ehtiyac vaxtı maddi yardım göstərmişdi, inqilabçılara aid vacib sənədləri gizlətmişdi.

Cavanşiri birinci dəfə 1918-ci il mart hadisələri zamanı görmüşdüm. Bizim dəstələr Cavanşir yaşayan mülkü atəşə tutmuşdular. Cavanşir nə yollasa Stepana xəbər çatdırmışdı ki, ona kömək etsin. Şaumyan Suren Ağamirovu və öz oğlu Sureni köməyə göndərib Cavanşirlə arvadını öz evinə gətizdirmişdi və iki həftə mənzilində saxlamışdı. Mən və Suren Ağamirov o vaxtdan onu tanıyırdıq.

Türklər Azərbaycanda «hökumət» təşkil edəndə Beybut Cavanşiri daxili işlər naziri təyin etmişdilər. Sabah bizi - məni, Suren Ağamirovu və Aleksandr Baranovu dar ağacından asacaqlarını daxili işlər nazirinə xəbər vermişdilər. O da məni gətizdirmişdi.

Cavanşiri görəndə özümü itirib mat-məəttəl qalmışdım. Məni gətirən adamlar otaqdan çıxdılar, kabinetdə ikimiz qaldıq.

Cavanşir dedi: «Oliya, yaxın gəl. Mən daxili işlər naziriyəm. Mənə xəbər veriblər ki, Şaumyan şəhərdədir, siz yerini demək istəmirsiz. Mən səni gətizdirdim ki, onun adresini mənə deyəsən. Mən Stepanın dostuyam. O məni ölümdən xilas edibdir. İndi də mən əvəzini çıxmaq istəyirəm. Onu harda tapsalar elə oradaca öldürəcəklər. Ver onun adresini».

Dedim ki, Şaumyan şəhərdə yoxdur. Səhv eləyirlər. Cavanşir sözümə inanmadı, başladı xahiş etməyə, sonra da yalvarmağa, and içməyə ki, Stepanı ölümdən qurtarmaq istəyir. Mən nə qədər and içib, qəsəm elədimsə, inandırmağa cəhd etdimsə ki, doğrudan da Stepan gedib, Bakıda deyil, inanmadı.

İnad etdiyimi görəndə qəzəblə qışqırdı: «Siz allah lənətinə gəlmiş fanatiksiz. Stepanı məhv edəcəksiz...» Axırda əlacsız qalıb mühafizi çağırdı və qeyzlə bağırdı: «Aparın! Qaytarın həbsxanaya!»

Özümü elə itirmişdim ki, sabah Nuru paşanın hökmü ilə asılacağımızı da ona deyə bilməmişdim. Məni həbsxanaya qaytardılar.

Axşamüstü baş mühafiz kameraya girdi. Bakıdakı türk əsgərlərindən idi, azmaz rusca öyrənmişdi. Mənə baxıb təəssüflə dedi: «Yazıq qızcığaz, heç bilirsən ki, sabah...» əlinin işarəsi ilə boynunun dövrəsində ilmək cızdı. Dedim ki, bilirəm. Mənə bir salxım üzüm verib getdi.

Bir saatdan sonra qayıdıb dedi: «Ey-vah! Yazıq, sabah...» (yenə işarə ilə boynunun dövrəsində ilmək cızdı). «Al, bir stəkan şərab iç».

Üçüncü dəfə gələndə bir balınc da gətirdi: «Axırıncı gecədə heç olmasa başının altına balınc qoy, yat» - dedi.

Dedim ki, qardaşlarım aşağıdadırlar, onlarla vidalaşmaq istəyirəm, məni apar onların yanına.

Xahişimi rədd etdi. Görünür çox bərk qorxurdu. Mən də balınc və üzüm salxımını üstünə tullayıb qışqırdım: «Rədd ol, çıx get! Mən qardaşlarımı görmək istəyirəm!».

«Yumşaldı», dedi ki, «axşam rəis gedəndən sonra apararam».

Doğrudan da axşam məni həyətdən keçirib Suren və Saşanın olduğu zirzəmiyə apardı. Hər ikisi məni qucaqladı. Sabah asılacağımızı bilirdilər.

Baş mühafiz bərk qorxduğundan məni tez geri qaytardı. Yoldaşlarımla şərtləşdik ki, edama gedəndə «internasional» oxuyaq.

Kamerada oturub qapının şüşəsindən bayıra baxırdım ki, həyata vida edəcəyim, ömrümün son səhəri necə açılacaq.

Birdən səs-küy qopdu. Kameranın lap yaxınlığında jandarmların ayaq səsləri, qılınclarının taqqıltısı eşidildi. Düşündüm ki, yəqin edama aparmaq üçün dalımca gəliblər. Lakin hələ gecəyarısı idi. «Sarı türk», dilmanc və mühafizlər kameraya girdilər. Bəhaəddin bəy mənə fransızca müraciət etdi: «Daxili işlər naziri Cavanşirin sərəncamı ilə siz azad edilirsiz. Ölüm cəzası Azərbaycandan sürgün edilməklə əvəz olunub».

Əvvəl inanmadım. Güman etdim ki, məni aldadır, qorxur ki, müqavimət göstərib, inad edib edama getmərəm. Soruşdum ki, «niyə məni aldadırsız? Aparın, edam edin, mən hazıram».

Bəhaəddin bəy fransızca təkrar etdi: «Siz azadsız». Dilmanc da onun dediklərini rusca təsdiq etdi.

Birdən başa düşdüm; mənə çatdı ki, Cavanşir işə qarışıb. Bu əmrin tək mənə aid ola biləcəyini fikirləşəndə dəhşətə gəldim və qeyri-ixtiyari xəbər aldım ki, «Bəs mənim dostlarım?..»

Jandarm rəisi qəhqəhə ilə güldü: «İndi dost oldunuz? Sorğu zamanı hər dəfə ayağınızı yerə dirəyib demirdiniz ki, bir-birimizi tanımırıq?» - dedi və sakit bir tərzdə əlavə etdi: - «Onları da indi buraxacaqlar, Azad edəcəklər».

Kontorda iltizam aldılar ki, üç gündən sonra sürgün olunmaq üçün polis idarəsinə gələcəyik.

Həbsxanadan mən birinci çıxdım. On-on beş dəqiqədən sonra Surenlə Saşanı da darvazadan küçəyə buraxdılar.

Sabahı gün qərara gəldik ki, polis idarəsinə gəlməyək, bizi, şübhəsiz, Mahaç-Qalaya sürgün edəcəklər, orda isə hələ ağqvardiyaçılar ağalıq edirdilər, o dəqiqə bizi bolşevik deyə güllələyəcəklər. Gürcüstana yollandıq, Qoqoberidze ilə Rumyantsovu Tiflisdə tapdıq.

Qocaman əməkdar müəllim Mirzə Məmməd Zeynallı nəql edir: «Salyandan qaçırdıq... Daşnaklar təhdid etmişdilər ki, Salyanı tutub viranəyə döndərəcəklər, bir nəfər müsəlman sağ qalmayacaq. Qaçırdıq. Yolda, Kür çayı qırağında bir dəstə türk əsgərinə rast gəldik, su içir, əl-üzlərini yuyur, bir-birilə zarafatlaşırdılar. Ramazan paşanın qoşunundan idilər. Salyanlı bir ağsaqqal onlara dedi ki, siz burada zarafat edib gülürsüz, orda daşnaklar arvad-uşaqları qırmağa, şəhəri də, ətrafdakı kəndləri də yandırıb yerlə yeksan etməyə hazırlaşırlar. Çavuş dilləndi: «Bacarmazlar! Eləməzlər. Şimdi irəli qoşub həpsinin annasını yapaceyik».

Düşdülər yola. Adamlar dallarınca baxa-baxa qaldı.

İki gündən sonra xəbər gətirdilər ki, Ramazan paşa Salyandadır...

Başqa bir qəsəbəyə bir zabit, bir çavuş və beş nəfər türk əsgəri gəlir. Camaatı təngə gətirmiş, yaxın kənddə yaşayan çar dövrünün baş strajnikindən şikayət edirlər ki, adamları incidir, dükanlardan istədiyi şeyləri götürür, pul vermir, danışanı da döyür, tüfənglə hədələyir.

Türk zabiti soruşur: «Yahu, xırsız hərifin ismi nə?» Ağsaqqallardan biri cavab verir ki, «Telli Hüseyn...» Zabit təəccüblə xəbər alır: «Yahu, zina zadəmi?» Ağsaqqallar dinmir. Zabit onların sualı başa düşmədiyini anlayıb əlavə edir: «Haramzadəmi?» Ağsaqqallar birdən: «Bəli, bəli, Haramzadə, özü də lap yamanından. Sən allah, dərdimizə çarə elə».

Zabit deyir: «Pək eyi, nə zaman göyə varsa, bana haber verərsiz, xırsızı yakalatdırıb cəzalandıraram. Bir girvənkə də bal gətirərsiz!».

«Ağa, bir girvənkə balın maliyyəti nədir, lap bir pud (16 kiloqram) bal gətirərik, - deyə ağsaqqal balın nə üçün istənildiyini başa düşmür, - bir girvənkə...»

Zabit onu sözünü qurtarmağa qoymur: «Bir girvənkə kafi. İzafəyə hacət yox. Haydı bakalım!»

İki gündən sonra Telli Hüseyn gəlir, aşxanada oturur plov yeməyə. Bir nəfər özünü çatdırıb türk zabitinə xəbər verir ki, hərif qəsəbədədir. Zabit çavuşa tapşırır: «Yürü, pəzəvəng xırsızı yakala!». Çavuş bazara tərəf gedəndə xəbər gətirən adam deyir: «Silahsız hara gedirsiz, onun tüfəngi var, qılıncı var...» Çavuş əhəmiyyət vermir: «fərq etməz, yavrum, - deyə əlavə edir, -sən tək yürü. Bənimlə bərabər görsə hərif duyuq düşüb, fərar edər». Aşxanaya çatanda Telli Hüseyn naharı qurtarıb səkiyə çıxır. Çavuşa him edirlər. O da dal tərəfdən yaxınlaşıb, strajnikin əllərini qamarlayır, tüfəngli-şaşkalı yük təki qaldırıb yola düşür. Hərif ha əlləşir, ha vurnuxur, güc vurur, bir şey çıxmır. Tərksilah edib salırlar tövləyə. Zabit üç gündən sonra, meydanda adamboyu bir dirək basdırtdırıb altına bir qutu qoydurur, Telli Hüseyni gətirdib oturdur qutunun üstündə. Zabit ağsaqqallara əmr edir: «Yahu, bir bərbər səsləyin!». Dəllək çağırırlar. Hüseynin başını, saqqalını ülgüclə qırxdırır, qurşağa qədər

soyundururlar. Kəndirlə qollarını, əllərini və ayaqlarını kənara, özünü dirəyə bənd edirlər.

Çavuş qabdakı balı başlayır Telli Hüseynin bədəninə, belindən yuxarı, başına, boynuna, üzünə, qollarına sürtməyə, elə bil suvaq çəkirdi... Özləri gedib kölgədə, çinar ağacı altında oturub, başlayırlar nahar edib, çay içməyə,

Nə qədər ətrafda cücü, arı, mığmığa, milçək, it arısı, eşşək arısı varsa hamısı bal iyinə axışıb gəlir, daraşırlar Telli Hüseynin canına. Çox keçmir başlayır üzü, başı, qolları, kürəyi, döşü, qarnı, bir sözlə qurşaqdan yuxarı bütün əzaları şişməyə. Gözləri görünmür, burun pərələrindən, dodaqlarından qan sızılır. Axşam düşəndə kəndə adam göndərib araba gətizdirir, yarımcan Telli Hüseyni saman üstünə uzadıb, yola salırlar.

Bakının meydan və küçələrində üç nəfərdən ibarət çavuş və iki əsgər gəzirdi; şuluq salan, qayda-qanunu azca pozan adamı görəndə çavuş əsgərlərdən birinə əmr edirdi: «Al kafasın!» (Başından yapış - M. S). Əsgər cəld hoppanıb hərifin əllərindən yapışıb, peysərinə qoyar, başını əyərdi. Zabit ikinci əsgərə: «Zopala pəzəvəngi!» deyirdi. İkinci əsgər günahkarın şalvarını cəld aşağı salar, başlardı zopalamağa. Bu əməliyyatı o qədər tez icra edərdilər ki, adam məəttəl qalardı.

Əliabbas Müznib deyirdi ki, Tofiqbəy belə bir əhvalat nəql edirdi: «Kəndisini, özbaşına «Cümhuriyyət» elan etmiş bir ailayəti zəbt etdik. Vəzir-vükəla kəndi məiyyətilə hüzuruma varıb, vükəlanı birər-birər bana təqdim etməyə başladı: «Şu xariciyyə naziri, şu daxiliyyə naziri, digəri ticarət naziri və sairə...» tam on yeddi nazir. Abdal həriflərin ərazisi başdan-başa heyvərə dağlar, sıldırım qayalar, heç bir dəniz hüdudları olmadığı halda, hətta bəhriyyə naziri belə təyin etmişdilər. Qəzəblə sordum: «Yahu, şu nə?! Oturan yerim boyda bir məmləkətiniz var, şu kadar nazirə nə hacət?! Bir vali kifayətdir!» Hər gün səhər, öylə və şam süfrələri açıyordular, nərdə bir eybəcər, ifritə, kaftar karı var başlayırdı xidmətə. Nəhayət bıkdım, usandım və sordum: «Yahu, şu kaftar karılar nə?! Bakdıqda insanın mədəsi bulanıyor, əcəba daha müsaid xidmətçi kadınlar bulamadızmı?»

Türklər Bakıda başlayırlar dövlətlilərdən varına görə rüsum yığmağa. Rüsumun miqdarını türklər yox, məhəllə ağsaqqalları müəyyən edib, siyahını komandanlığa təqdim edirlər. Kim boyun qaçırdırdı, onlardan rüsumu güclə alırdılar. Rüsum vermək istəməyənlərdən biri də qoçu Teymurbəy olur; faytona minib gedir bağa. Türklər əsgər göndərib onu yenə gətizdirirlər Maştağada Naxır bulağı meydanına. Başa salırlar ki, müqavimət əbəsdir. Qoçu Teymurbəy inad göstərib, təklifdən boyun qaçırır. Zabit əmr edir: «Çavuş əfəndi, şu pəzəvəng hərifi üzüqoylu seri, sırtını zopalayın! Haydı bakalım». Əsgərlər əmri bir anda icraya başlayırlar.

İlk zopa zərbələrinə Teymurbəy dözə bilməyib canını dişinə yığıb fəryad edir: «Ya həzrət Abbas, kömək elə!»

Zabit təəccüblə soruşur: «Yahu, bu nə laf?! Bu nə laqqırtı?! Nə həzrət, nə də Abbas yardıma qoşamaz. Paranı ödə! Nə tohaf herif, nə əcayib məxluq, para ödəmək əvəzinə Abbasla həzrəti yardıma çağırıyor».

Beşinci zopadan sonra qoçu Teymurbəy dözə bilməyib aman istəyir və 20.000 manat gətizdirib rüsumu ödəyərək canını xilas edir.

Bakıda səfərbərlik elan edirlər. Bir zabit çağırılanların siyahısını tutur, adamlardan bir-bir «ismin ne?» soruşur. Hər kəs adını deyir: «Həsən», «Məmməd», «Hüseyn» və s. Bir nəfərdən yenə «İsmin nə?» xəbər alanda, o da «Soltan» deyə cavab verdikdə zabit tərs-tərs ona baxıb acıqla deyir: «Yava-yava laqqırtı vurma, Soltan bir tana, o da İstambulda. İsmin Məmməd, haydı bakalım...»

Məhərrəm ayı düşür. Müsəlmanlar küçələrdə dəstə ilə gəzir, sinələrinə döyə-döyə, zəncir vura-vura, baş yara-yara: «Şah Hüseyn, ya Hüseyn» çığıra-çığıra başlayırlar əzadarlığa.

Şəhərin polis rəisi bu əcayib, qeyri-adi səhnəni gördükdə məəttəl qalıb, yanındakı adamdan xəbər alır: «Yahu, şu nə vəhşət. Şu zavallılar neçin ulaşıyorlar. Kim onlara işgəncə yapmış? Neçin kəndiləri kəndilərinə şöylə işgəncə veriyorlar». Onu başa salırlar ki, imam Hüseynin qətli ilə əlaqədar matəm tuturlar. Polis rəisi içini çəkib, heyfsilənir: «Yahu! Şu havadis hicrətin ilk yüz illiyində, altmış-yetmişinci sənələrində vuqu bulmuş. O zamandan tam on üç yüz əlli il keçmiş. Şu habar, şu zavallılara nə gec gəlib çatmış».

Rəis əzadar dəstələrinin başçılarını polis müfəttişliyinə gətizdirir, sadə bir dillə onları başa salır ki, müharibə vəziyyətində olan şəhərdə yığıncaq və nümayiş qadağan edilib. Gedin, məscidə toplaşın, ədəb dairəsində həzrəti Hüseynə matəm saxlayın. Zaman keçib, əsr dəyişib...

Əzadarlar rəisin sözlərini qulaqardına vurub, sabahı gün yenə düşürlər küçələrə...

Polis rəisi dörd əsgər göndərib, dəstəni birbaşa apartdırır vağzala. Ağsaqqallar polis rəisinin yanına iltimaca gəlirlər. Cavab verir ki: «kavur ingilislər Kərbəlanı istila edib, həzrəti imam Hüseynin müqəddəs türbəsini murdarlayırlar. Şu əzadarları göndərəcəyəm Batuma, orda gəmilərə doldurub, birbaşa aparacaqlar Ərəbistana. Toy gedib, həzrəti Hüseynin türbəsini kafir ingilislərdən azad etsinlər, şəhid olanlar behiştə gedər. Şurda boş-boşuna bağırmakdan, kadın təki göz yaşı axıdıb, ağlamakdan fayda yok. Nə tühaf hərifləsiniz, yahu, kişi də ağlarmı? Göz yaşı axıdarmı?»

Camaatın arasına vəlvələ düşür, başlayırlar ağlaşmağa, yalvarmağa. Əzadarları bir gecə vağzalda saxlayırlar. Şəhərin bir neçə hörmətli şəxsi polis rəisinin yanına minnətə gedir. Nəhayət, polis rəisi deyir: «Pək eyi, Kərbəlaya, Ərəbistana yollamam, hala Dərbənddə kavur Denikinlə vuruşuruq, ora yollarım, qoy orda rəşadət göstərib, din, islam yolunda cihad etsinlər».

Çox yalvarışdan sonra dəstə gəzdirənləri azad edirlər. O adamlar, nəinki küçə-bazarda, türklər Bakıdan gedənə qədər heç məscidlərə də qədəm basmayıb, bir daha heç yerdə görünmədilər.

Dəllək qonşumuz Akopyan on səkkizinci ildə başına gələn qəzanı danışırdı: «İngilislər, daşnaklar gəmilərdə qaçdılar, pağır-püqaranı qoydular allah amanında. Dükanı bağlayıb, iki zənbilə yemək şeyləri doldurub, getdim çıxdım yeddi mərtəbənin damına. Gördüm məndən savay başqa adamlar da var. Üç gün-dörd gecə gözümüzü yummadıq. Dördüncü gün dözə bilmədim, fikrim qalmışdı dəlləkxananın yanında, allaha pənah deyib, düşdüm küçəyə, adam az idi, öz adamlarımız idi, türklər görünmürdü. Divar dibilə qorxa-qorxa, birtəhər özümü çatdırdım dükana. Qapıya əl vurmamışdılar. Açdım qapını, aralayıb girdim içəri, elektrik çırağını yandırdım, başladım şeyləri yerbəyer etməyə. Birdən ayaq səsləri eşitdim, mənə elə gəldi ki, aralı qapının qabağında kimsə dayandı, dönüb baxmaq istəyirdim ki, qapıda dayanan dedi: «Berber!» Cəld çevrildim. Bir türk çavuşu ilə iki əsgər dükana girdilər. Məni soyuq tər basdı, dilim söz tutmadı, yerimdən tərpənməyə taqətim qalmadı. Çavuş dedi: «Berber, hərif, haydı, hacatlarını topla, gedəlim! Paşanı təraş yapmağa!» İri əlini üzünə ülgüc sayağı çəkəndə əhvalatı başa düşdüm. Balaca çamadana lazımi şeyləri qoyub, əlimə alıb dükandan çıxdım. Qapını qıfıllamaq istəyəndə çavuş qoymadı; «Hacət yox, kimsə toxunmaz, haydı gedəlim». Düzəldik yola. Gətirib məni saldılar bağınan üzbəüz olan mülkə. Dəhlizdən iri, bəzəkli otağa keçdim. Baş qapıdan ucaboy, qəzəbli, zəhmli türk paşası girdi, keçib bədənnüma güzgünün qabağında, kresloda oturdu. Cəld xalatı geyib, işə girişdim, paşanın üzünü sabunladım, ülgücü yoxladım, ürəyimdə isə bütün cəddi-əqrabamı söyürdüm ki, niyə damdan düşüb, dükana gəldim. Paşanın üzünü qırxanda əlim əsir, qorxuram, birdən ülgüc cızıb qanadar... Boyum da balacadır, paşa isə hündür, zorla, ayaq barmaqlarım üstə boylanıb işləyirəm... Üz-gözümdən tər axır... Nə isə... Birtəhər üzünü qırxıb odekalonladım... Peysərini, gicgahlarını düzəldib, daradım... Paşa ayağa qalxdı. Mən də şeyləri çamadana yığıb cəld çıxdım dəhlizə, bayır qapını açmaq istədim, gördüm bağlıdır. O vaxtacan ingilis qıfılı görməmişdim. Qayıdıb, məsələni paşaya deməyə sürətim çatmır, qorxuram. Siçan tələyə düşən kimi qalmışam. Birdən laşa dəhlizə çıxdı, məni gördükdə təəccüblə soruşdu: «Şurda boş-boşuna nə yapıyorsan?». Qapıya işarə edib, dedim ki, ağa, qapını aça bilmirəm. «Ah! - deyə paşa səsini istehza ilə ucaltdı, - abdal kavur, tüfəng atıb, günahsız islam yavrularını qıra bilirsən. Dostlarınız ingilislərin qıfılını açamazsan, - yaxınlaşıb qapını açıb dedi, - haydı, pırlan dişarıya!»

Gəmi kapitanlarından biri - Fyodor Kiriloviç Lankov nəql edirdi ki, 1908-ci ildən Xəzər dənizində işləyirəm. Gəmilər körpüyə yan alıb dayananda, adətən, matroslar sahilə düşüb meyxanələrə gedib o ki var içər, sərxoş olardılar, sonra da tökülüşərdilər bulvara, başlayardılar adamlara sataşmağa, əziyyət

verməyə, dava salmağa. Mərəkə qopardı. Dükançılar qapıları bağlayıb, gizlənərdilər, hamı qaçardı. Qorodovoylar aradan çıxardılar... 1918-ci ildə türklər Bakıda ikən qəribə bir hadisənin şahidi oldum. Oktyabrın ortalarında Bakıya varid olmuş üç gəminin matrosları sahilə çıxıb, girirlər meyxanalara, restoranlara, qadağan edilmiş araq və şərabı zorla çıxartdırıb içirlər, lül-qənbər gəlirlər bulvara. Əvvəllər elədikləri sayaq başlayırlar şuluqluq salmağa, adamlara sataşmağa.

Türk səhra polis şöbəsi xəbər tutan təki hadisə yerinə əsgərlər göndərir.

Vuruşma başladı. Mən, dostum kapitan Əlibala Rəcəbovla bir kənarda dayanıb tamaşa edirdik. Əsgərlər ayıq, matroslar sərxoş. Əsgərlər matrosların biləklərindən necə qamarlayırdılarsa, o saat matros kəlləsi üstə gəlib sərilirdi yerə, əsgərlər başlayırdılar çəkmənin nal vurulmuş ucu və dabanı ilə matrosların lülə sümüklərinə döyməyə. Matros dönürdü meyitə, uzandığı yerdən tərpənə bilmirdi. Bulvarda yerə sərilmiş xeyli sərxoş matros vardı.

İki-üç saatdan sonra zor-bəla ilə birtəhər qalxıb yollandılar gəmilərə. Türklər gedənə qədər bir daha şəhərdə görünmədilər...

Müharibədən sonra, 1947-ci ildə Mərəzə ətrafında geoloji kəşfiyyat işləri apardıqda bir neçə günlüyə Cəmcəmli kəndində, Qadir dayı adlı kişinin evində qaldıq. O, həm də bələdçimiz idi. Türklərdən danışırdı: «Kəndimizə xəbər gəldi ki, türklər Mərəzədədir. Beş nəfər cavan oğlan getdik tamaşa etməyə. O vaxta qədər heç türk görməmişdik. Malağan Mərəzəsinə girən yerdə türk zabitləri və əsgərləri dayanmışdılar. Arabalar, top-topxana, atlar... Bizi gördükdə yanımıza əsgər göndərdilər. Yoldaşlarım qaçıb aradan çıxdılar, qabaqda idim, məni yaxalayıb apardılar. Bir əfsər başladı sorğu-suala; «kimsən, peşən nədir...» Yaxamı qurtarmaq üçün dedim ki, dəvəçiyəm. Əfsər sevindi: «Ah! - dedi. - Bizə elə dəvəçi lazımdır, dəvəçi bölüyü düzəldəcəyik». Sözümün heç dalına qulaq asmayıb məni ötürdülər qabağa. Qırx beş dəvəni tapşırdılar mənə. Allah şeytana lənət eləsin, yaman yerdə axşamladım. Vallah, bir qanun-qayda, bir nizam-intizam vardı ki, deməklə başa gələn deyil. Balaca səhv üçün elə cəza verirdilər ki, ömür uzunu yaddan çıxmazdı. Bir dəfə dəvələrdən biri yoxa çıxmışdı. Komandirim, gözləmədiyim halda sağ üzümə elə bir şillə vurdu ki, gözümdən od çıxdı, sol böyrüm üstünə yıxılanda, sol üzümə, sol əlilə vurduğu ikinci şillə məni yıxılmağa qoymadı, ayaq üstə saxladı, sol gözümdən qopan od parçası havaya qalxdı, elə bil sağ gözümdən azca əvvəl çıxmış od parçasına bitişib ulduza dönüb göyə uçdu. Üç saat keçmədi ki, dəvəni tapıb gətirdim. Komandirim dedi: «Qədir əfəndi, sən subay (əsgər), bənim əlimdə yabasan. Dikanı yalın əllə götürmək imkansız, yaba lazım. Mən də, kəndi növbəmdə, bəndən yüksəkdə olanın əlində yabayam. Unutma, yahu, get!»

Bir dəfə daha böyük komandirin acığı tutmuşdu, stolun dalından dikəlib üzbəüz oturmuş bizim komandirin iki tərəfdən bığlarından yapışaraq

göyə qaldırdı, zərblə yerə çırpdı: «Yahu, islam övladlarını kavura hədəfə çevirmək istəyirsənmi?» qışqırdı. Mənə elə gəlir ki, o əzazillik dünyada heç yerdə yoxdur. Gözünüzlə görməsəniz başa düşməzsiz». Qədir dayı başını bulayıb sözünə davam etdi: «Heç nəyə, böyüyə, bəyə, ağaya baxmırdılar. Kim mənəm-mənəm deyirdi, burnuna döyürdülər. Dikbaş, dələduzlara pəzəvəng deyib arabaya qoşurdular, bir gəl, ya da tay öküz, bir də cəzalandırdıqları adam arabanı çəkirdi. Balaca gecikdi, nəm-nüm etdi, o dəqiqə zopalayırdılar. Neçə nəfər boşboğazı arabaya qoşub muma döndərdiklərini özüm gördüm. Bir kənddə əsgər yığanda, molla minbaşıya rüşvət vermək istəyirdi ki, cavan oğlana güzəşt etsin. Minbaşı tüfəng qapıb mollanı atəşə tutmuşdu, molla üzüqoylu sərilməsəydi, birtəhər olacaqdı... Ayrı əzazil idilər... Rəhm deyilən şey yox idi ürəklərində».

## BAKI YENƏ DƏ ƏLDƏN-ƏLƏ KEÇİRDİ

Kayzer Vilhelm Danimarkaya qaçmışdı. Almaniya, türklər də Birinci dünya müharibəsində məğlub olmuşdular. Antantanın bütün şərtləri ona da aid idi. İngilislərin ümdə təkliflərindən biri də, türk əsgərlərinin Bakını tərk etmələri idi.

Hər təzə açılan səhər yeni bir hadisə ilə başlayırdı. Yuxarıda qeyd edilən səbəbdən Soltan Türkiyəsinin qaliblərlə imzaladıqları müqavilə əsasında Nuru paşanın Qafqaz islam ordusu 1918-ci il noyabr ayının 17-də Bakını tərk edir. Axırıncı əsgərlər axırıncı vaqonlarda Bakı vağzalından yola düşəndə ingilisləri, gəlir Tomsonun başçılığı ilə Ənzəlidən Bakıya gətirən «Prezident Kryuqer» gəmisi «Qafqaz - Merkuri» körpüsünə yanaşırdı.

Səkilərdə adamlar səf-səf dayanıb tamaşa edirdilər. Asayişi qorumaq üçün arada çoxlu polis və əsgər hərlənirdi. Avtomobillər gəlir, nazirlər, tacirlər, sənaye sahibləri maşından düşür, cəld körpüyə qalxırdılar... Hamı tələsirdi, ümumi bir həyəcan vardı.

Dənizdə çoxlu dor ağacı göründü, soyğunçu, ağqvardiyaçı başkəsənləri gətirən gəmilər körpülərə yaxınlaşanda, zavodların, fabriklərin, körpülərə yan almış yüzlərlə gəmilərin bacalarından, gəmi təmiri tərsanələrindən, emalatxanalardan, parovozlardan havaya sütunlarla qara tüstü qalxmağa başladı və az bir zamanda şəhərin üstünü qatı qara tüstü dumanı bürüdü, göydən lopa-lopa his yağırdı.

«Prezident Kryuqer» gəmisi körpüyə yan aldı. Orkestr çalmağa başladı.

General Tomson trapla düşən zaman bütün zavodların və fabriklərin, mədən və gəmilərin, dəmir yolu deposunun, vağzaldakı parovozların sirenaları səs-səsə verib ulamağa, matəm fiti çalmağa başladılar. Qara tüstüdən göz açmaq olmur, uğultudan, qarışıq səsdən ağız deyəni qulaq eşitmirdi. Körpüyə

toplaşan mənsəb sahibləri və neftxudalar, maliyyəçilərin liderləri tələsik nitq söyləyib, şəhərə varid olan ingilisləri təbrik etdilər, gəlir Tomsona «xoşamədi» dedilər. O tez avtomobilə minib Sadovı (Çkalov) küçəsində əvvəldən hazırlanmış iqamətgaha yollandı.

Çox keçmədi ki, ağqvardiyaçı zabit və soldatlarla dolu gəmilər də körpülərə yan aldılar. Göydən yağan his, ətrafı bürümüş tüstü kimi şəhərin siyasi havası da qaralırdı.

İngilislər təkrarən Bakıya girən gün qəzetlərdən biri Məhəmməd Hadinin bir kədərli şerini dərc etmişdi:

Başdan-başa bir kölgə bürünmüş kimi aləm,
Üzlərdə nümayiş oluyor sayeyi matəm.
Bir məqbəri barid gibi durmuş şu mühiqat,
Əhval həyatiyə bunu eyləyər isbat.
Əğyar həzin, yar həzin, hal qəm avar,
Hər yerdə görünməkdə qəm aludə nəzərlər.

Eyni zamanda Məhəmməd Hadi, Abbas Səhhətin Gəncədə vəfat etdiyi qara xəbəri ürək ağrısı, qanlı göz-yaşlarıyla xəbər verirdi. Yanıqlı bir dillə qələmə alınmış nekroloq başdan-başa nalə, şivən və təəssüflə dolu idi.

«Şu müdhiş, şu qorxunc, vəlvələyi hadisat içində şair, təbib Abbas Səhhət də sükunətgah əbədiyyətə çəkilib getdi. Həm maddi, həm mənəvi xadimi millət olan Səhhət qardaşımızın əful əbədisindən hənuz Qafqaz türklərinin xəbəri yoxdur. Onun vəfatı haqqında mətbuatımızda da vəfat Səhhətə dair heç bir şey yazılmadı. Onun milli xidmətlərinə dair bir sətir yazı belə görünmədi. Cühəla tərəfindən düçar təhqir və təkdir olan, fəqət əzm xruşan fikrindən geri dönməyən sevgili şairimiz Səhhət Gəncə məzarıstanında dəfn xas əbədiyyət buluyor. Zatən Şeyx Nizamiyə böyük bir hörməti vardı. Daima Nizaminin layəmot nəzmlərini kəmal fəsahətlə oxuyar, samilərini ləzzətyab ədəbiyyat eyləyərdi. Ən nəhayət (pənc gənc) şairi möhtərəmilə həmcəvar məzar oldu. Şirvanlı şair, Şirvan faciəsi əsnasında başqaları kimi şəhəri tərkə məcbur olmuş, yolda soyulmuş, var-yoxu əlindən alınmışdı. Bir qaç yerlərdə sərsəriyanə dolaşmış, ən sonunda Gəncəyə nəql məkan etmişdi. Orada xəstə oldu. Zalım və biaman ölümün pəncəsindən rəhayab olmayaraq tərk dəqdəqeyi həyat elədi. Səhhətin bu əfzul nabəhən-kami ədəbiyyatımız dünyasında böyük bir boşluq buraxdığından dolayı ciddi şayan təəssüfdür. Səhhət öldü. Lakin əsl düşünüləcək şurasıdır ki, şair mütəvəfatın qeyri-mətbu olan mütrükat qələmiyyəsi nasıl oldu. Yoxsa Şirvan faciəyi əziməsində yanıb yaxılan sərvətlər kimi Səhhətin də əsarin qələmiyyəsi, sərvət fikriyyəsi ehrac olub getdimi? Bencə şayan əndişə burasıdır. Dünyamız hal asayişə adət etdikdən sonra ehtimal ki, bu həqiqət anlaşıla biləcəkdir. Şimdilik təbib

ədibimiz olan cənab Səhhətin vəfatından dolayı ərbab şəbab naminə bağı matdələrinə təziyələr izharilə xətm kəlam elərəm». Bakı, Əbdül Səlimzadə Məhəmməd Hadi.

Hadinin təşvişi yerində imiş. Səhhətin dərc edilməmiş asari ədəbiyyasi tapılmadı. Yoxa çıxdı. İki roman yazıbmış, biri aşiqanə, digəri Volqa çayı boyu Tatarıstana və Başqırdıstana doktor İsmayıl Haqqı Veyisovla bərabər etdiyi səyahət barəsində imiş. Böyük şair Sabir ölümündən əvvəl, nəşr edilməmiş şerlərini və ədəbi mülahizələrini, bir də vəsiyyətnaməsini bir zərfə qoyub bağlamış və Səhhətə əmanət vermiş ki, yeganə etimad etdiyim şəxs sənsən, bu zərfi ölümümdən on il sonra açarsan və hamısını nəşr etdirərsən. O da yoxa çıxdı. Bunlardan böyük itki ola bilərmi?

Hadinin məqaləsindən bir neçə gün sonra ədəbiyyatşünas və şair Salman Mümtaz mərhum Səhhətin son məktubuna şerlə yazdığı cavabı qəzetdə dərc etdirmişdi:

Cahanda ilk çıxan təzə aya and olsun,
Cavanlığında dönən qəddi yaya and olsun.
Qəsəm o şəms münirə, o mahi tabana,
Şəhabə, Nirə, nuri-ziyaya and olsun.
Qəsəm nəsimi səbahə, stareyi sümrə,
Hilalə, bədrə, sühalə, səhayə and olsun.
Rəmuzi şeri bilən şairi şehirə qəsəm,
Nükati nəzmə bələd aşınayə and olsun.
Cahanda xəlqi edən doğru, düz yola dəvət,
Həqiqi rahibərə, rəhnümayə and olsun.
Gözəllərin o mübarək həyalı üzlərinə,
Yenə o çöhrələrə, ol həyayə and olsun.
Sənə birinci pərəstiş edən bənəm «Sihət»,
Rəvan pak «Bahara», «Səfayə» and olsun.
Neçünkü Qafqaz ara sən sevimli şairsən,
Sənin nəşidələrin, rayiqanə şerlərin,
Dəyər cəhanə, cəhanə, səmayə and olsun.
Məni çıxarma yadından, çıxarmaram mən həm,
Təbiətə, suyə, xakə, həvayə and olsun.

Abbas Səhhətdən söz düşəndə Salman Mümtaz Səhhətin hafizəsinə məftun olduğunu qibtə ilə söylərdi. Deyərdi ki, bir şair bir poema yazıb gətirir Səhhətə, oxuyur, qurtaranda Səhhət soruşur ki, bu şer əlinə hardan keçib, bu mənimkidir. Şair etiraz edir ki, öz şerimdir. Doktor, zarafatı buraxın. Səhhət deyir ki, qulaq as və o şeri əzbərdən oxuyur. Şair özünü itirir. Doktor gülür və zarafat etdiyini deyir, şairə bir sıra məsləhətlər verir. Abbas Səhhət rus, fars,

fransız, ərəb dillərini yaxşı bilirdi. Tərcümə də edirdi. Firdovsi, Nizami, Hafiz, Sədiq Xəyyamın əsərlərindən çoxlu şer əzbər bilirdi. Rus şairlərindən Lermontovu ürəkdən sevirdi. Krılovun təmsillərini əzbərdən bilirdi, tərcümə edərdi. Fransa ədib-mütəfəkkirlərindən Valteri, Hüqonu sevirdi. Əbu Əli İbn Sinanın əsərlərini dərindən öyrənmişdi. Həkimlik praktikasında istifadə edirdi, xeyirxah, üzügülər, əsl mənada şəxsiyyət idi.

İngilislərlə bir qrup ağqvardiyaçı başkəsənlərin şəhərə varid olmaları ilə bağlı əhalinin iztirabı, əziyyəti daha da artdı. Xalqın yaşayışını daha da ağırlaşdırdı, ölkənin var-sərvəti ingilislərin ixtiyarına keçdi. Fəhlə və kəndlilər ağır şəraitdə yaşayırdı, siyasi hüquqdan məhrum idilər. Bir tərəfdən də əhali arasında vahiməli xəbərlər gəzirdi: «Denikin deyib ki, səhər çayını Dağıstanda içib, naharı Bakıda edəcəyəm». Camaat daima qorxu içindəydi.

Şəhərdə tez-tez ağ zabit və soldatlara rast gəlmək olardı. Ağ gəlir və polkovniklərin biri gəlir, digəri gedirdi. Biçeraxovu Prijivalski, onu isə Baratov əvəz edirdi. Baratov gedir, Erdel gəlirdi. Uzun müddət, çar dövründə İran xalqına qanlı divan tutan, bir yürüşdə Cənubi Azərbaycanda müctəhid Məlikül Mütəkəlimeyni dar ağacından asdırıb çoxlu adam öldürən gəlir Liyaxov Bakıya gəlir. Rusiyada Qızıl Ordu tərəfindən əzişdirilən və darmadağın edilən ağqvardiyaçı zabitlər canlarını qurtarmaq və müsavat, daşnak və menşevik hökumətləri ilə əlaqəyə girmək üçün Zaqafqaziyaya gəlirdilər.

Ərzaq bahalanırdı. Çörək dükanlarının qabağında uzun növbələr düzülür, səhərdən axşama qədər soyuqda, küləkdə gözləyir, sonra da evlərinə ac qayıdırdılar.

Şəhərdə xəstələnənlərin sayı çoxalmışdı.

Qocaman kommunistlə müsahibə. Şəmsəddin Musaxanov 1918-1920-ci illərdəki hadisələr barədə nəql edirdi ki, 1918-ci ilin mart ayından sonra vəziyyət xeyli çətinləşdi. Nə şəhərdə, nə mədənlərdə, nə də fabrik-zavodda və ətraf kəndlərdə heç kəs bizə qulaq asmaq istəmirdi. Bəzən adamın salamını da almırdılar. Bizi yığıncaqlara buraxmır, içəri girəndə də, hamı durub çıxırdı bayıra, məclis dağılırdı. Elə ki, deyirdik: «ay yoldaş...» sözümüzü ağzımızda qoyurdular: «Sizdən bizə yoldaş olmaz. Gedin! sizin yoldaşlarınız bizə yad adamlardır, onların yanına gedin». Na-əlac qalmışdıq.

On doqquzuncu ilin əvvəlləri idi, İngilislər ağalıq edirdi. İki nəfər getdik mədəndə fəhlələrlə görüşməyə. Nədənsə acıqlanmadılar. Başladıq ingilisləri pisləməyə, azadlıq uğrunda bütün millətlərin fəhlələrilə əlbir mübarizə aparmaqdan danışmağa. On-on beş fəhlənin hamısı qalxdı ayağa, bir səsnən: «Gedin, bu nağılı uşaqlara danışın... Bizi bir də tora sala bilməzsiz... Siz dinsizlər Quranı danırsız, allaha inanmırsız...».

Eşitdik ki, Təzəpir məscidində yığıncaqdır. Getdik. Adam əlindən tərpənmək olmurdu. Bizi içəri girməyə qoymurdular, birtəhər içəri keçdik. Bir nəfər qışqırdı: «Ay camaat, bunlar dinsizdir... Moltanıdırlar, vurun!».

Dava düşdü. Gördük ki, dayansaq öldürəcəklər, ya da ayaq altına salıb tapdalayacaqlar, cəld aradan çıxdıq...

Naəlac qalmışdıq. Əlimizdən heç nə gəlmirdi, Mart qırğını əhalini bərk hürküdüb, qorxutmuşdu...

Bir gün getdik Sabunçuya. Gördük yığıncaqdır. Müsavatçıların adamı fəhlələrə islamdan, Qurandan, millətdən danışırdı. Yoldaşım İsmayılov qabağa keçib, ağzını açanda yenə şuluqluq düşdü, macal vermədilər sözünü desin... Mənim boyum balaca olduğundan kətilin üstünə qalxdım, qışqırdım: «Ay müsəlman qardaşlar, ay camaat, niyə çığırıb, şuluq salırsız, - yoldaşımı göstərdim, «bu adam dinsizdir, yəhudidir, O, deyir ki, Nikolay yıxılıb, gorbagor olub... Hər şey qalıb camaata. Qalaqapdır. İri bir qabda plov var, üstündə də toyuq, qaysı, kişmiş. Gəlin bir yerdə yeyək. Yeyirsiz yeyin... Yemirsiz cəhənnəmə yeyin... Daha yazığı gözümçıxdıya salmaq niyə? Olub keçəndən yox... Sabahdan danışaq».

Camaat birdən sakitləşdi. İsmayılov çıxış etdi. Birinci dəfə orda bizi qoydular danışaq axıracan... Bu qayda ilə gecə-gündüz mədənlərdə, zavodlarda müsəlmanlar arasında iş aparıb onları öz tərəfimizə cəlb edirdik.

Əlipaşa adlı bir kasıb vardı, heç cürə onu başa sala bilmirdik ki, bəy, xan olmayacaq. İnanmırdı.

«İndi görün hümmətçilər nə qədər əziyyət çəkiblər».

***Parlaman.*** Azərbaycan parlamanı açılmalı idi. General Tomson işi təxirə salırdı. Bakı Azərbaycanın paytaxtı olmağına baxmayaraq hakimiyyət ingilis işğalçılarının ixtiyarında idi. Tomson özünü general-qubernator elan etmişdi. İngilis zabitləri xoşları gəlməyən adamları, heç bir əsas olmadan tutur və istədikləri müddətə həbsə salır, Tiflisə, Ənzəliyə sürgün edirdilər. Sonralar həbs edilənlərin sənədlərini yoxlayanda hamısının günahsızlığı məlum olurdu.

Parlaman dekabr ayının üçündə açılmalı idi. Tomson razılıq vermədiyindən məsələ hələ qalırdı. Xeyli diplomatik danışıqdan sonra, onu başa saldılar ki, ingilis sərmayəsinin mənafeyi hər yerdə gözlənəcək, arada qorxulu heç bir şey yoxdur.

Gəlir Tomson bütün fraksiyaların nümayəndələrini hüzuruna çağırıb ayrı-ayrılıqda danışıb, vəd alandan sonra, dekabrın 7-də parlamanın açılmağına icazə verdi.

Parlamanın yerləşdiyi Nikolayevski (Kommunist) küçəsindəki Aleksandrovski müsəlman qız seminariyası binasının damında aypara və səkkiz guşəli ulduz olan üç rəngli bayraq dalğalanırdı, aşağıda iri metallik ərəb hərflərilə, hüsnxətlə «İstiqlal» sözü yazılmışdı. Küçənin adını dəyişdirib «Parlaman» küçəsi qoydular.

Parlamanın 120 üzvü vardı (bu rəqəm müxtəlif mənbələrdə müxtəlifdir - M. S). Parlamenda üzvlər milliyyət etibarı ilə belə bölünürdü: bütün müsəlman partiyaları və bitərəflər - 108 nəfər, daşnaklar - 7 nəfər,

slavyan - rus cəmiyyəti - 4 nəfər, alman ictimai - 1 nəfər. Üzvlərin sinfi tərkibi daha maraqlıdır: böyük mülkədar və sərmayədarlar - 85 faiz, ziyalılar - 10 faiz, ruhanilər - 5 faiz.

Parlaman haqqında qısa, tarixi bir haşiyə: imperator III Aleksandr taxta çıxandan sonra parlaman haqqında proqram düzəltməyi tapşırır. Proqram tərtib edilir və bəyənilir. Məşhur mürtəce missionerlərin başçısı, müqəddəs sinodun prokuroru, qaragüruhçu Pobedanosov imperatorun ayaqlarına düşüb səcdə edə-edə, ağlaya-ağlaya yalvarır və «dəlillərlə sübut edir» ki, parlaman müzür bir şeydir, parlaman sözü nə rus, nə də slavyan sözüdür, bu, fransız kral düşmənlərinin, avara allahsızların, kral qatillərinin uydurmasıdır, - istehza və zəhərli bir əda ilə əlavə edir, - parlaman sözünü rus dilinə tərcümə edəndə mənası «qavarilnaya», küftukuxana, laqqırtı evi, hərzəxanadır. Bununla da məramına nail olur, proqram yandırılır, onu tərtib edən məclis dağıdılır.

Parlamanın açılış mərasimini bir professor belə nəql edirdi: dekabrın 7-də bazar günü, baxmayaraq ki, cümə deyildi, parlaman açılışı münasibətilə bütün dükanları bağlamışdılar; məktəblərdə də dərs keçmirdilər. Bayram elan olunduğundan müəssisələr də işləmirdi.

Səhər-səhər parlaman olan küçəyə bir neçə zirehli avtomobil gəlir. Binanın qabağında, küçənin o tayında, qarşı səkilərdə çoxlu adam toplaşıb, hərə bir söz deyirdi. İstiqbaldan, hürriyyətdən dəm vururdular, keçmiş istibdaddan, gələcək istiqlaldan danışırdılar. Arabir belə atmacalar da eşidilirdi: «Bu hürriyyətin hamısı Oktyabr inqilabının bərəkətindəndir... Onun qələbəsinin nəticəsidir...». Başqası təsdiq edir: «Əlbəttə, Leninin zərbdəstindəndir, yoxsa müsəlman hara, parlaman hara...». Üçüncü adam: «Heç min ilə də belə şey, nəinki görə bilərdik, heç arzulaya da bilməzdik, sağ olsun Lenin...». «Bütün millətlər qardaş olacaq, müsəlman, urus...». Bir mollanüma xoruzlanır: «Ə... kəs səsini, matişkə-matişkə danışma, - istehza ilə, -yox a, millətlər qardaş olacaq, ərəseybaz»... Eyham və istehza ilə cavab qaytarılır: «Onda sən də arvad tumanı geymiş ingilisbaz...». Adamlar hırıldayır, höccətə, zarafata keçir. Birinci danışan təkrar edir: «Oktyabr inqilabı olmasaydı, boynumuzun ardını görəndə də parlaman görə bilməzdik».

Şlyapa qoymuş yaşlı bir adam: «Lenin əsrin ən dahi adamıdır... Ümumbəşəri kommuna qurmaq istəyir...».

Cavan bir usta: «Bakıda da kommuna qurulmuşdu, dağıtdılar, qoymadılar...». Onun sözünü başqa birisi kəsdi:

«Bakıda qurulan kommuna yaşaya bilərdi, bəzi səhvləri olmasaydı. Daşnaklar, eserlər və menşeviklər də böyük xəyanət etdilər. Bütün əksinqilabçı qüvvələr, o cümlədən müsavatçılar da xarici imperialistlərə satılıb, onları Azərbaycana, Qafqaza çağırmasaydılar, kommuna yaşaya bilər və qalib gələrdi. Lenin bütün cahangirlərə müharibə elan edir. Rusiya fəhlə və

kəndlilərini səfərbər edib rus mülkədar və sərmayədarları ilə ölüm-dirim mübarizəsi aparır».

Birdən gurultu sala-sala iki əlavə zirehli avtomobil gəlib parlaman binasının qabağında bir-birindən aralı, o tin, bu tində dayandı. Hərəsindən bir top lüləsi çıxmışdı.

Səkidə mübahisə, dedi-qodu davam edirdi. Fəhlə deyirdi: «Kommuna vaxtı dövlətlilərin, ağaların nəfəsini kəsmişdilər...».

Fəhlə astadan dedi: «Kəsmişdilər və kəsəcəklər də...».

Fəhlə ziyalı ilə nəzəri mübahisədə aciz olsa da daxili bir inamla dedi: «Hər halda axırda Lenin nə deyibsə olacaq, fəhlə-kəndli hökuməti».

«Əlbəttə, Lenin deyən olacaq», - ziyalı razılaşdı.

Yaşlı kişi söhbətə qarışdı: «Doğrudur. Axırda hamı Leninin dalınca gedəcək. Kommuna zamanı olan təki olmayacaq.»

Çox maraqlıdır ki, hadisələrin gələcək inkişafı ziyalının milli məsələ barədə sövqi-təbii ilə duyduğu həyatda doğuldu. 1920-ci il martın 17-də İ. T. Smilqaya və Q. K. Orconikidzeyə göndərdiyi teleqramda V. İ. Lenin yazmışdı: «Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün səyinizi buna verin, həm də bəyanatlarda son dərəcə diplomatik olmaq və möhkəm yerli Sovet hakimiyyəti hazırlandığını tamamilə yəqin etmək lazımdır. Qüvvələr yeridilməsi haqqında Baş komandanla şərtləşin».[*]

İki həftə sonra 1920-ci il aprelin 2-də «Q. K. Orconikidzeyə teleqram və L. D. Trotskiyə qısa məktub» teleqramında V. İ. Lenin yazmışdı: «Bir daha xahiş edirəm, ehtiyatla hərəkət edəsiniz və müsəlmanlara, xüsusən Dağıstana girəndə, ən böyük xeyirxahlıq göstərəsiniz. Müsəlmanlara, onların muxtariyyətinə, istiqlaliyyətinə və sairəyə hər vasitə ilə hüsn-rəğbət nümayiş etdirin, həm də ən təntənəli bir surətdə nümayiş etdirin. İşin gedişi haqqında daha dürüst və daha tez-tez məlumat verin».[**]

Dahi rəhbərin bu göstərişi 1918-ci ildə buraxılan səhvlərin, əyintilərin bir daha təkrar olmaması üçün xəbərdarlıq idi.

...Birdən səs-küy qopdu, camaat parlamana fəxri qaraula aparılan əsgərlərə baxmağa başladı.

Hadisənin şahidi professor deyirdi: «Bazar (Hüsü Hacıyev) küçəsindən Persidski (Poluxin) küçəsinə qədər ingilis və Azərbaycan əsgərlərindən, binanın qabağında isə ancaq Azərbaycan əsgərlərindən ibarət mühafizə dəstələri durmuşdular. Şəhadətnaməsi olmayanları içəri buraxmırdılar. Damda ucalan üç rəngli - al, yaşıl, firuzəyi, aypara və səkkiz guşə ulduzlu bayrağı külək oynadırdı. Dəvətnamə vərəqəsini göstərib içəri

---

[*] V.İ.Lenin. Əsərlərinin tam külliyyatı, 51-ci cild, səh. 192.

[**] Yenə orada. səh. 204.

girdim. Qapıdan salona qədər pillələrdə gözəl geyimli azərbaycanlı əsgərləri fəxri qaraulda durmuşdular. Lojalara xırda bayraqlar sancılmışdı.

İçəridə kübar xanımlar da vardı. Diplomatik elçilər üçün ayrılmış yerdə İran, Dağıstan və Gürcüstan nümayəndələri əyləşmişdilər.

Hümmət təşkilatından Səmədağa Ağamalı oğlu, Əliheydər Qarayev, Camalbəyov, Əbilov, Şeyxülislamov və başqaları sol tərəfdə oturmuşdular.

Saat ikinin yarısında Azərbaycan parlamanının ilk iclası açıldı; bu münasibətlə əfvi-ümumi elan edib siyasi məhbusları azad etmək təklif olundu.

Hamı əl çaldı, təklif qəbul edildi. Nümayəndələrdən bir nəfər təbrik teleqramlarını oxudu. Milli şuralar və təşkilatlar tərəfindən də bu tarixi günü qeyd edib sevinc duyğuları izhar olundu, parlamana xalq və millətlər mənafeyi naminə müvəffəqiyyətli fəaliyyət arzulandı. Çıxışlarda cari və vacib məsələlərdən danışıldı.

Saat beşdə parlamanın iclası qurtardı.

Mərkəzi fəhlə konfransı - fəhlə parlamanı. İngilislər Bakıya ikinci dəfə gələndə gəlir Tomson demokrat olduğunu söyləyib daxili işlərə qarışmayacağını vəd etmişdi. Lakin o özündən əvvəlki ingilis gəliri Denstervili kölgədə qoydu. Bakıda elan etdiyi ilk qərarda yazılırdı: «Bütün tətilçilər, bolşevikləri və fəhlələri tətilə təhrik edənlər, çaxnaşma salanlar cəzaya məhkum ediləcək. Mənim yazılı rüsxətim olmadan, nə məqsəd üçün olursa-olsun on nəfərdən artıq adamın bir yerdə yığılması qadağan olunur».

Bu sözlərdən belə çıxırdı ki, bolşeviklər heç yerdə gözə görünməməlidirlər.

Menşeviklərə fəhlə konfransı keçirməyə icazə verilmişdi.

Madam ki, konfrans fəhlələrindir, orada bolşeviklərin iştirakı zəruridir. Çünki fəhlələrin yeganə hamisi onlardı; baxmayaraq ki, onları Bakıda dörd tərəfdən, dörd gözlə - ingilislər, müsavatçılar, menşevik və eserlər izləyirdilər.

Bolşeviklər belə bir şəraitdə işləməli idilər.

Bütün mədən, zavod və fabriklərdən göndərilən nümayəndələr 1918-ci ilin dekabr ayında ilk konfransı keçirdilər. Üstünlük menşevik-eserlərin tərəfində idi. 1919-cu ilin mart ayında bolşeviklər təşəbbüsü öz əllərinə aldılar.

Mərkəzi fəhlə konfransı Haşımov (Gənclər) meydanındakı ikimərtəbəli binada olurdu. Azca yuxarıda Hacı Hacıağanın «Təbriz» mehmanxanası, bir qədər aralı «Kaspi» mətbəəsi, onunla yanaşı «İsmailiyyə» binası yerləşirdi. Çox vaxt fəhlə klubuna həm həqiqi, həm də məcazi mənada «fəhlə parlamanı» və «Sovdep» deyirdilər.

1918-ci il dekabrın 18-də keçirilən Fəhlə konfransı tətil elan etməklə aşağıdakı siyasi tələbləri irəli sürürdü:

1. Siyasi məhbuslar həbsxanadan azad edilsin. 2. Mətbuat azadlığı. 3. İclas keçirmək azadlığı. 4. Söz azadlığı və s.

Şəhər rəisliyinin binası qarşısında iki avtomobil dayanmışdı. Şoferlər ingilis hərbi libasında idilər. Girəcək qapının hər iki tərəfində əli silahlı əsgərlər durmuşdu.

Binadan çıxan ingilis zabitləri maşına minib Marinski qız gimnaziyasına yollandılar. Polkovnik Volton orda otururdu. Fəhlə və həmkarlar ittifaqı hərəkatına nəzarət ona tapşırılmışdı. Casuslardan aldığı məlumatları hökumətin daxili işlər nazirliyinə verirdi. Həmkarlar və fəhlə hərəkatı fəallarının evlərində axtarış apartdırıb, dörd nəfəri tutub sürgün etmişdilər. Bundan fəhlələr qəzəblənib, tətil elan etdilər. Günorta bütün mədən, zavod, fabrik, dəmir yolu və körpülərdə iş dayanmışdı.

Həbsdə olanlar azad edilib, sürgün edilənlər yarı yoldan qaytarılandan sonra həyat əvvəlki axarına düşür.

Tətil yeni il qabağı, dekabrın 29-da qələbə çalır. Lakin həmin gün, tətilə qoşulduqlarına görə Tağıyevin fabrikində 14 fəhlə işdən kənar edilir. İşdən çıxarılanları yerlərinə qaytarmaq üçün Mərkəzi fəhlə konfransının xitabət kürsüsündən ardıcıl çıxışlar edilir və mübarizə aparılır. Fəhlələr bir aydan sonra, 1919-cu il yanvarın 30-da işə qaytarılır. Bu qələbə hümmətçilərin nüfuzunu müsəlman fəhlələri arasında artırdı.

Bakı proletariatının güclü tətil hərəkatına aprel ayında hazırlıq görülürdü; tələblər həm iqtisadi, həm də kəskin siyasi xarakterdə idi.

Aprelin 30-da qərar çıxarılır və Mərkəzi tətil komitəsi yaradılır. Tətilçilərin başlıca tələbi Sovet Rusiyasına neft göndərmək idi.

Elə bu vaxt Denikin hücuma keçib, Dağıstanı işğal edir. İngilislər Denikinə Xəzər yolu ilə hərbi ləvazimat göndərmək üçün dəridən-qabıqdan çıxanda, dəniz nəqliyyatı işçiləri tətil edirlər. Gəmilərin uğuldayan fitləri şəhərə vəlvələ salır.

İngilislər hərbi ləvazimatı vaqonlara doldurub yola salmaq istəyəndə, bütün parovozların və dəmir yolu emalatxanalarının fitləri səs-səsə verib tətil elan etdiklərini aləmə xəbər verir.

May ayının 6-da mədənlərdə, zavod və fabriklərdə, elektrik stansiyalarında, ictimai müəssisələrdə fit səsləri ucalır... Hər yerdə hərəkət dayanır. Əlli minlik Bakı proletariatı ümumtətilə başlayır.

Fitnəkar ingilislər həmişə etdikləri kimi Müsavat hökuməti ilə birlikdə hiylə işlədirlər. May ayının 7-də dəniz qırağına qoşun töküb, bulvarı mühasirəyə alırlar. «Belaya» barjından körpüyə hərbi sursat -top, pulemyot, qutular dolusu tüfəng, patron, bomba, qumbara və barıt dolu qutuları boşaldırlar və elan edirlər ki, bütün bu silahları Həştərxandan üsyan hazırlayan bolşeviklər üçün göndəriblər. Guya bolşeviklər fəhlələri silahlandırıb «müsəlman hökumətini devirmək», «Azərbaycanın istiqlaliyyətini məhv etmək» istəyirlər.

Belə bir şəraitdə komitə mayın 12-də tətili dayandırmağı qərara alır. Tətil bolşeviklərin kütlələr içərisində böyük nüfuza malik olduğunu göstərdi.

Daxili İşlər Nazirliyi bolşevikləri həbsə almağa başlayır. Mədənlərdə və şəhərdə çoxlu adam, bəzən bütün ailəni tutub həbsxanaya salırlar. Tətil komitəsindən 43 nəfər həbsə alınır. 21 nəfərdən ibarət yeni tətil komitəsi yaradılır; onları da tuturlar. 64 nəfər fəal fəhlə nümayəndəsi iki həftədən çox mərkəzi həbsxanada saxlanır...

Mayın 13-də fəhlələr işə başlayırlar. Təkcə Tağıyev fabrikinin fəhlələri tətili davam etdirirlər, həbsxanaya salınmış yoldaşları buraxılmadıqca işə başlamayacaqlarını inadla söyləyir və istədiklərinə nail olurlar; fabrik fəhlələrini may ayının 16-da həbsdən azad edirlər.

Hümmətçilər may ayının 25-dən «Bakı fəhlə konfransının əxbarı»nı Azərbaycan dilində nəşr etməyə başlayırlar.

Müsavatçılar may ayının 28-də milli Azərbaycan; dövlətinin bir illiyini bayram etməyi qərara alırlar. (1918-ci ildə may ayının 25-də Tiflisdə Zaqafqaziya Seymi Gürcüstan, Azərbaycan və Ermənistan respublikalarının «azadlığını» elan etmişdi). Müsavat hökuməti bu bayrama böyük ümid bəsləyir və güman edirdi ki, bolşeviklər razılaşmayacaq, bayramı boykot edəcəklar, bu yolla da müsəlman əhalisi arasında özlərini ifşa edib, nüfuzdan düşəcəklər.

Lakin belə olmadı.

Bolşeviklərin hələ 1919-cu il may ayının əvvəllərində Bakıda keçirdikləri partiya konfransında «Biz müstəqil Sovet Azərbaycanı uğrunda» şüarını irəli sürmək qərara alınır.

***«İstitlal» şənlikləri.*** Bayram münasibətilə şəhər bəzədilmişdi. Hər yerdə aypara və səkkiz guşə ulduzlu üç rəngli - al, yaşıl və firuzəyi bayraqlar dalğalanırdı. Eyvanlarda xalı-xalçalar, əlvan qumaşlar, cecim, şal salınmışdı. Dükanlardakı əlvan fanarlar və çıraqlar diqqəti uzaqdan cəlb edirdi. Hələ mayın 27-dən faytonlara, avtomobil və arabalara üç rəngli xırda bayraqlar sancmışdılar. Meydanlarda, bulvarda yaşıl şax, budaq və gül-çiçəkdən, xalça və parçalardan ala qapılar düzəldilmişdi.

Səhər tezdən küçələr adamla dolu idi. Şəhər əhalisi - qulluqçular və müəllimlər, şagirdlər və sənətkarlar bayram şənliyinə qoşulmuşdular. Elə bil evlərdə adam qalmamışdı. Çalıb-oynayanlar aləmə səs salmışdılar. Hər tərəfdən şüar eşidilirdi: «Yaşasın Azərbaycan!», «Yaşasın istiqlal!».

Ədiblər, şair və bəstəkarlar, səhnə ustaları, incəsənət xadimləri də şənliklərdə iştirak edirdilər.

Bayraqlarla bəzədilmiş iki yük avtomobilinin birində zurna-balaban, digərində Qərb musiqisi çalınırdı.

Bütün firqələr məramnaməsinə, proqramına uyğun minlərlə müraciətnamə nəşr edib camaata paylayırdılar. Hümmətçilərin çağırışlarında

yadelli imperialistlərə lənət yağdırılırdı. Demokratiya pərdəsi altında kiçik xalqları əsarət zənciri ilə buxovlayanlara qarşı etiraz sədaları eşidilirdi.

«Metropoldan» (Nizami muzeyi) bələdiyyə idarəsinə keçmək mümkün deyildi. Damlar, eyvanlar, pəncərələr adamla dolu idi. Eyvanların birində Qurban Pirimov tar çalır, Cabbar Qaryağdı oğlu oxuyurdu.

Toxuculuq fabrikinin fəhlələri əllərində qırmızı bayraqlar və şüarlar «Hürriyyət» (26 komissar) meydanına girirlər... Əllərdə dalğalanan bayraqlarda «Füqərayi cahan kasibəsi, birləşin!», «Yaşasın sosial demokrat fəhlə firqəsi, hümmət!», «İmperializmə ölüm!» sözləri yazılmışdı.

Qara çadralı, ayaqyalın bir müsəlman arvadı ağlaya-ağlaya danışmağa başlayır: «Öz südümüzlə bəslədiyimiz, böyütdüyümüz kişilər, ərlər bizi zindana salmışlar. Yaşasın övrətlər inqilabı!».

Fəhlə dəstələri parlamana yollanır, ordan da Mərkəzi fəhlə klubuna gedirlər.

Bu dəstə səhər tezdən fabrikin həyətinə yığılmışdı. «Hümmət» təşkilatının nümayəndəsi qısa nitq söyləyib, fəhlələrə Bakı Komitəsinin bayrağını təqdim etmişdi. Onlar da musiqi təranələri altında Qaraşəhərə, ordan da pay-piyada şəhərə gəlmişdilər ki, öz hüquqlarını tələb etsinlər...

Çadralı müsəlman fəhlə arvadının bu çıxışı bütün Bakıya vəlvələ salmışdı, bütün ictimai təbəqələri həyəcana gətirmişdi, hamının «Hümmət»ə hörmətini artırmışdı.

Əliheydər Qarayev bu nümayişin Fransada Jonsen cənazəsinin müşayiət mərasimini xatırlatdığını yazıb əlavə edirdi ki, bizə tərəddüdlə yanaşan fəhlələr də bu nümayişdən sonra bizə qoşuldular və «Yaşasın Azərbaycan Sovet Sosialist Cümhuriyyəti!», «Yaşasın III internasional!» şüarlarını təkrar-təkrar qışqırdılar. Birdən hamı səs-səsə verib internasional oxumağa başlayır:

Qalx! Ey lənətlə damğalanmış,
ac və çılpaq, məzlum dünya!
Zülmə qarşı vicdanlar yanmış,
alovlanmış qanlı dava.
Yıkalım bu köhnə cahanı,
quralım bir yeni aləm.
Ərzin səfil, məhkum insanı
Ərzə hakim olur o dəm.

Bu qovqa son və ən qəti
Şanlı bir hərb olur,
İnternasionalla
İnsanlıq can bulur.

***Qəzetlərdən.*** Təəssüf ediləsi bir xəbər: 1918-ci il mart hadisələri əsnasında dağılmış «İsmailiyyə» sarayının gündən-günə xarab olmasını nəzərə alaraq, onu sökmək və zərərsiz hala salmaq qərara alınmışdır. Bu məsələyə Musa Nağıyevin varisləri də etiraz etmirlər. Bina taxta hasara alınıbdır. Qabil bənnalar axtarılır ki, «İsmailiyyə»ni söksünlər. Bünövrədən çıxarılacaq zəxirəni satmağa komisyon intixab edilmişdir.

## XƏSTƏ BİR MƏHƏLLƏNİN AZARI VƏ DƏRDLƏRİ

«Kübarlar, bankirlər, maliyyə, ticarət maqnatlarının və neftxudaların yaşadıqları məhəllələr istisna ediləndən sonra, qalan məhəllələr çox cəhətdən bir-birinə oxşayır. Haqqında söhbət gedən məhəllə şəhərin mərkəzindədir. Tatarski (Krupskaya), Gimnaziya (Lev Tolstoy), Karantini (Həzi Aslanov), Aziatski (Pyotr Montin), Kamenisti (Şors) küçələrini əhatə edən bu məhəllə və onun ətrafı şəhərdən tamamilə ayrılmışdır, bu aralar özgə bir aləmdir; bu məhəlləyə kimsə etina etməz, buralar kimsəni tanımaz. Burada adamlar anarxiya halında yaşayar, kim nə istəsə onu edər. Şikayətə qulaq asan yox, camaatın halına yanan yox. Hər addımda cavanların həyatını zəhərləyən bir görüş evi, onun yaxın səmtində bir şərabxana var... Axşam düşəndə, şəhərin başqa yerlərində görünməyən məxluqat burada peyda olar. Axşamdan bir qədər keçdikdən sonra hər tində bir neçə sərxoş, hər bucaqda iki-üç nəfər şübhəli şəxs görünər. Və səhərə qədər qovğa, qeylüqal ara verməz, heç kim evində istirahət edə bilməz. Bakının görkəmli cavanları bu qapıdan çıxıb, o birisinə girərlər. Az-çox huşyar gələnlər dəli-divanə olub gedərlər.

Şikayətə baxan yox. Polis tapılmaz. Tapılanda da hər dəqiqə ucalan nalə və qışqırığa qulaq verməz, baş verən hadisələrə gözucu belə baxmaz, hər şeyə laqeydlik, etinasızlıq...

Nikolay vaxtı şərabxana, məscid, kilsə və məktəbdən 50 sajen (təxminən 130 metr - M. S.) uzaqda olmalı idi, indisə şərabxana məktəblə, məscidlə yan-yanadır. Şərab satmaq mədaxil mənbəyinə çevrilib.

Şəhərin bu məhəlləsi Şerlok Holms hekayələrini və macəralarını xatırladır. Əski London və Nyu-York məhəllələri buranın yanında sönük bir şey... Canilər məskəni, meyxanələr məhəlləsi...

Təbibsizlikdən nəzafət, zibil, çirk, xəstəliklər bu məhəllədə tuğyan edir. Bunlar heç kəsi maraqlandırmır, narahat etmir. Üfunət məskəni və cəfalətlər məhəlləsi.

Polis caniləri, sərsəriləri tutub, cinayətin qarşısını almır, buralara qəti nəzər salmır. Cinayət şaxələri və rişələri buralardan bütün şəhərə yayılır.

Qaçqınlar və dilənçilər. Birinci dünya müharibəsinin dəhşətləri, 1918-ci il mart hadisələri, Denikin qaragüruhçularının şimaldan hücumu, aclıq,

cəfalət nəticəsində min bir xəstəliyə mübtəla olanlar hər tərəfdən - Şamaxıdan, Qarabağdan, Zəngəzurdan, Üçkilsədən, Dağıstandan, Həştərxandan, bir sözlə hər yerdən Bakıya qaçırdı. Bakı qaçqınlar və ac-yalavaclar şəhərinə çevrilmişdi. Küçə və meydanlarda, bazar və döngələrdə yetim uşaqların, xəstə adamların əlindən tərpənmək olmurdu, cındır, çirkli paltarlarının altında bədənləri görünür, xəstəlikdən saralmış sifətlər, çuxura düşmüş gözlər adamı dəhşətə gətirirdi.

Qaçqınları «Səfa» məktəbində və «Edison» kino binasında yerləşdirirdilər.

* * *

«Al bayraq» qəzeti tez-tez İran konsuluna müraciət edirdi: «Axşamlar Bakı küçələrindən keçmək mümkün deyil. Ac-yalavac, çılpaq iranlı balaları divarlar dibində, səki qırağında, xəstə-xəstə can verirlər. Bu zavallı uşaqlara heç yerdən kömək yoxdur. İnsaniyyət naminə qırğının qabağını alın!».

* * *

«İran tacirləri və konsulu! Nəzər-diqqətinizi Bakı küçələrindəki iranlı ac-yalavac və xəstələrə cəlb edirik. Bu barədə bir neçə dəfə yazıb göstərmişik. Heç bir nəticə yoxdur. Ta uşaqlar küçələrdən yığılana qədər hər gün, iri hərflərlə yazacağıq, Binəva uşaqları yığın!».

«Birdən İran tacirləri bir-iki yüz manatdan keçib, uşaqları küçələrdən yığdırıb dənizə tökdürərlər. Məsləhət görmürük. Uşaqların sayı məlumdur».

* * *

Başqa bir yerdə yazılırdı: «Şəhər əhalisinin 80 faizi kasıblardır. Aclıq qılıncını siyirib bu biçarələri amansızcasına qırır. Evlərdə satılası əşya qalmayıb. Xəstəlik bütün evlərə baş soxub, nə dərman var, nə çarə, həlak olurlar. Yatalaq, qoturluq hökmü-fərmadır; küçələr, darvazaların ağzı meyitlə doludur. Şəhərdə zibil aşıb-daşır».

* * *

Dövlətlilər isə başda on girvənkə (4 kiloqram) qoz sındırmaqdan, bir oturuma bir təşt halva, on çörək yeməkdən mərcləşirlər.

* * *

Belə qıtlıq, aclıq, dilənçilik hökm sürdüyü bir şəhərdə qəzetlərdə və afişalarda firavanlıqdan, naz-nemətdən xəbər verən çoxlu elan oxumaq olardı:

«Elbrus lokantası sizi təcrübəli, püxtə aşpazların hazırladığı Avropa və Asiya ləziz xörəkləri yeməyə dəvət edir. Nahar və şam vaxtı Rumıniya orkestri çalır, məşhur və mahir qaraçı qızlar oxuyur, rəqs edirlər. Əlahiddə kabinələr də var...».

* * *

«Nikolayevski (Kommunist) və Bazar (Hüsü Hacıyev) küçələrinin küncündə «Mübarək» lokantası açılıb. Məşhur aşpaz Kazım çox ləzzətli

yeməklər hazırlayır. Qiymət münasibdir. Təşrif buyurun, məmnun olarıq, razı qalarsız».

* * *

«Vaxtı xoş və təntənəli keçirmək üçün «Dardanel» lokantasında hər növ ləziz təamlar mövcuddur. Təşrif buyurun. Keçəçi Məmməd oxuyacaq, musiqi çalınacaq».

* * *

«Tamaşaya tələsin! hökumət teatrosunda (Sabiq Mailov) məşhur Hindistanlı Sahir (Qəzali Ərs) qədim şəhərlər nümayən edir, meyvə ilə dolu ağaclar görünür. Hünər və fənn nümayiş edilir. Ziyafət süfrəsi öz-özünə açılır. Hər cür xörəklər mövcud olur. Göz qabağında bir övrət yoxa çıxacaq. Sahiri Avropa və digər ölkələrdə təltif ediblər, çoxlu medalları var».

* * *

«Liza xanım Hacınskaya itirdiyi medalyonunu kamodun altından tapıb. Qiyməti 50.000 manatdır».

* * *

«Möhtəkirlərin allah ömürlərindən kəsib insaflarına calasın».

* * *

«Aclara - çörək, yersizlərə - torpaq, işçilərə - mükafat, müftəxorlara - cəza».

* * *

«Bağlı darvazaları axşam saat altıdan daldan qıfıllayın, bərkidin!».

* * *

«Şəhərin mərkəzində, Duma ilə yanaşı, sabiq realnı məktəbinin binasında yerləşən ingilis zabit və əsgərləri olmazın rəzalət və biabırçılıq edirlər, döngədə, bağça-bağda zabit və əsgərlər, yoldan keçənlərin gözü qarşısında pis əməllərlə məşğul olurlar. Bu da ingilis mədəniyyəti nümunəsi».

* * *

«Məşhur neftxudalardan biri olan Nəcəfqulu Məhəmmədovu gecə vaxtı Vrangelski (Qarayev) küçəsindəki evində öldürüblər. Mənzilin başqa bölmələrində ailəsi olurmuş. Gündüz kantorada deyibmiş ki, sentyabrda öldürülmüş dostu Teymurbəy Qulubəyovun naminə məscid və xəstəxana tikdirəcək, yarım milyon pul buraxacaq. Gecə yarısı qonşular səs eşidirlər. Sübh vaxtı Məhəmmədovun kəsilmiş başı otaqdan tapılır».

* * *

«57 dəvədən ibarət karvan oğurluq neft apararkən yolda tutulub».

* * *

«Bez baha olduğundan ölənləri öz cındır libasında basdırırlar».

* * *

«Fəhlələr əsgərlər təki Vətənin sütunudur, dayağıdır. Fəhlələrin hüququna təcavüz edən əllər kəsilməlidir. Cahana bərabərlik, qardaşlıq, ədalət şüarını atan fəhlələrdir. Cəfalət və aclıq bəlası fəhlələri məhv edir. Xəstələnir, müalicə yeri yoxdur. Dərmansız-davasız ölürlər. Çox yerdə 8 saat əvəzinə 14 saat işləyirlər. Elə şeylər var ki, adam eşidəndə tükləri biz-biz olur».

* * *

Müharibəni udmaq üçün həzrəti Əyyubun səbri, Rüstəm Zalın dəmir əsəbləri, bir də həzrət Süleymanın xəzinəsi lazımdır.

Gecələr polis paltarında evləri qarət edirlər. Üç nəfər tutulub, edam ediləcəkdir».

* * *

«Neft alış-verişi və bez alıb-satmaq tif xəstəliyi olub bütün Azərbaycanı bürümüşdür. Tacir, məşədi, həkim, vəkil, müəllim, xan, dəllək, seyid, kərbəlayı, baqqal, şair, dəllal, hacı, məmur, bəy, hamı və hər kəs ticarətə qoşulub».

* * *

«Şəriət müəlliminin savadı xarici dildədir, nə türkcə, nə farsca və nə də ərəb dili və hürufatı bilir, özü də kefli, görəsən şəriətdən nə dərs deyir?».

* * *

- «İngilis gəlir və polkovniklərinin, bağça-bağla üzbəüz atları saxlanan tövlələrdəki axurlardan ac uşaqlar şokolad və kişmiş götürmək istədikdə, soldatlar tutub bərk kötəkləyiblər».

* * *

«Yağış vaxtı küçələrdə palçıq xirtdəyəcən çıxır. Dörd at bir boş faytonu çəkə bilmir. Arvadları hamballar dallarında bir səkidən o biri səkiyə zorla, çətinliklə keçirdirlər».

* * *

«Yasovuldan valiyə, nazirə qədər hamı rüşvətxordur. Nazirin rüşvət aldığı əynindəki paltar bəxşişdir, cibindəki pul mükafatdır».

* * *

«Maaş müəllimə çatana qədər pul qiymətdən düşüb, zibilə dönür. Müəllimlər ziyadə acı və məşəqqətli həyat sürürlər».

* * *

«Qroznıdakı yanğından neft yanıb 10 milyon manat qızıl pulla xəsarət vermişdir».

* * *

«Xarici dil bilməyən müsəlman dövlətliləri saxladıqları xarici qadınlara (aşnalarına) görəsən eşqlərini necə əyan, izhar edirlər?».

* * *

«Ehtikar: valyuta, qızıl, gümüş, parça, ərzaq adi qiymətlərindən birə-yüz baha satılır. Mənzil kirayəsini evdarlar 10 dəfə, 20 dəfə artırıblar. Sərqıfıl dükanı kirayəyə götürəndə, əvvəldən verilən pul - M. S.) 10 min, 20 min manat. Dünən bir ayağında çust, bir ayağında başmaq, ya da qaloş olanlar, bu gün milyonçu olub mülk alırlar».

* * *

«İran şahı Bakıya gəlib Avropaya müalicəyə gedir. Hər növ çıxış qadağandır».

Şahın gəlməyini və getdiyini görən bir adam nəql edirdi ki, Ənzəlidən gələn gəmi Qafqaz - Merkuri körpüsünə yan aldı. Şah və məiyyəti düşdülər. Şaha baxanda adam dəhşətə gəlirdi. O cavanlıqda, o köklükdə kişiyə hələ rast gəlməmişdik. Elə bil ət və piydən kötük qayırıblar. İri, girdə sifətindən xəstəlik yağırdı. Başında iranlı papağı vardı; qara libas geymişdi. Pencəyin boyunluğundan qat-qat ət sallanırdı.

Şəhərdəki İran tacirləri dükanlarını şiri-xurşidli bayraqlarla bəzəmişdilər. Şahı qarşılamağa çoxlu tacir gəlmişdi.

İyirmiyə qədər adam əlahəzrəti müşayiət edirdi, kamerqer libasında idilər; üzdəniraq libaslarındakı baftalar yağlı, çirkli görünür, yəqin ki, əl ilə boz-baş, plov yedikcə üstlərinə tökülüb əllərilə siliblər. Körpüdən birbaşa vağzala yollandılar. Biz çatanda şah salon-vaqonda idi, o yoğunluğunda adamın vaqona necə girdiyini təsəvvür edə bilmədik. Məiyyəti şahın əşyasını salon-vaqona daşıdıqca elə səs-küy salırdılar ki, elə bil bazardadırlar.

Vaqon Batumiyə yollandı. Konsul gedəndən sonra adamlar başladılar şəbədə deməyə, gülməyə.

«Nırx qoyulan kimi ərzaq bazardan yoxa çıxır. Füqəranın halı daha da fənalaşır; dəyirman öz işində, çaxçax baş ağrıdır».

* * *

***Bir lövhə:*** «Ətraf xərabəlikdir. Binaların çoxu yandırılıb. Bu vəhşilik anarxiya vaxtı baş vermişdir. Yüz illik xərabələrə oxşayır. Kərpic yığınları, oyanmış dirəklər, kəsəklər... Palçıq dizə qalxır... Xərabələr aləmi... Yaxınlaşdıqda ətrafın görkəminə uyğun insan sifətindən çıxmış coluq-cocuqlar insanı sarsıdır. Üzlər qaralıb, dəri sümüyə yapışmışdır. Torpaq üstündə, rütubətdə yatdıqlarından rəngləri torpaq rənginə çalır. Elə bil insan sifəti deyil, yanıb ərimiş şamdır. Yırtıq paltarlardan əzalar görünür. bu ayaqyalın, başıaçıq, cır-cındır içində qaralan -məxluqlara baxanda göz yaşı axıtmamaq qeyri-mümkündür. Günlərlə ac qalıblar. Son günlərdə onlara bircə dəfə ət şorbası və əl boyda bir parça çörək verməyə başlayıblar. Yaşadıqları binalar bayquş yuvasından da pisdir. Nə qapı, nə də pəncərə var... Tavan uçmuş, döşəmə yaş torpaq... daş... Hər yer zibil və üfunət. Yağışlar və qar yağanda bu zavallıların halı necə olacaq? Bir kənarda da qaçqınlardan bir məzarıstan əmələ gəlmişdir...».

«Seyid Əzim dövri ədəbi-şer məktəbinin son nümayəndəsi Dərbəndli Mirzə Səməndər maşın altında qalıb vəfat etmişdir. Şiddətli şaxta, qar və çovğunlu bir gündə məruf, qocaman şairin cənazəsini son iqamətgahına yola salmağa çox adam gəlmişdi. Qəbiristanda, cənazə üstündə şair Salman Mümtaz atəşin lisanla danışdı, məşhur həcvnəvis şairin tam bir Şərq şairi həyatı keçirib, Suriyaya, İrana, Türküstana səyahət edib, yazıb-yaratmasını nəql etdi. Ədib Seyid Hüseyn də şairə vida sözləri dedi».

* * *

«Dolandırıcı bir dəstə, azyaşlı oğlanları dövlətlilərin evinə qulluqçuluğa düzəldirlər, sonra de gecə yarısında çapqına gəlirlər, uşaq qapını açır».

* * *

«Dövlətli balaları əsgər getmir, rüşvət verirlər. Əsgər gedən kasıblardır».

* * *

«Anbarlarda 250 milyon put neft aşıb-daşır...».

* * *

***Qəlp pul karxanaları, gecə oğruları və silah anbarları.*** Fevral inqilabından sonra, ta 1920-ci ilin ortalarına qədər hər ay Bakıda saxta pul karxanası kəşf edilirdi. Bayılda altı kişi qəlp pul kəsdikləri yerdə, cinayət üstündə yaxalanırlar. İki litoqraf daşı, birində 40 manatlıq Kerinski pulu dərc edilib. 3.000.000 manat hazırlanmış pul tutulub. Canilər 40 nəfərdən ibarətdir; aralarında bir dəstə Bakı əyanı da var.

Başqa yerdə 25 manatlıq kəsən digər «fabrika» kəşf edilib.

Parapet (Quru bağ) qarşısında olan erməni kilsəsi altındakı anbardan külli miqdarda hərbiyyə ləvazimatı - soldat libasları, xəstəxana avadanlığı gizlədildiyi kəşf edilmişdir. Axtarış zamanı çoxlu əsləhə, pulemyot, çoxlu patron və qeyri şeylər tapılmışdır. Həmən şeylər arabalardan, kilsədən başqa yerə aparıldıqda görülüb və lazımi yerə bildirilmişdir.

* * *

İlyazar adında həbs edilən bir şəxsin mənzilində, çarpayıda 100.000 manat pul, böyük brilyant qaşlı çoxlu üzük tapılmışdır.

Beş nəfər tutulub, 22 milyon köhnə Nikolay pulu üstlərində.

* * *

Bir evdə saxta pul kəsənlər tutulub. Təhqiqat vaxtı məlum olur ki, gündə yalnız yemək - içməklərinə lazım olan miqdarda pul hazırlaya bilirlərmiş.

* * *

Armiyanski (Qorki) və Kamenisti (Şors) küçələrinin tinindəki binada qəlp pul qayıranlar yaxalanıb.

* * *

Merkuri (Şaumyan) və Budaqov (l. Şmidt) küçələrinin tinində 400.000 manat pul aparan arabanı əli silahlı adamlar araya alıb, pulları tələb ediblər. Pul taxta qutuda imiş. Rabitə işçisi məktublarla dolu ağzıbağlı, surquclu çantanı canilərə göstərir. Onlar cəld torbanı götürüb, aradan çıxırlar. Pul qutuda salamat qalır.

* * *

Naberejnı (Neftçilər) küçəsində tərsanə ilə üzbəüz binada səkkiz nəfər naməlum şəxs, cinayət polisi məmuru libasında gəlib axtarış icra etmişlər; onlar gedəndən sonra ev xanımı kəşf etmişdir ki, həriflər cəvahirat və qızılı qarət edib aparmışlar,

* * *

Azərbaycan məhkəmə palatası prokuror həzrətlərinə.

Həmin 1919-cu il, iyun ayının 10-da, gecə, Bayıl küçəsində mənzilinə gələn iki nəfərdən biri özünü təhriri polis rəisi qələmə verib və pulemyot axtaracaqlarını söyləmişdir. Dediyini sübut etmək məqsədilə fotoşəkil yapışdırılmış vəsiqə təqdim etmişdir.

Axtarış vaxtı ev xanımını silahla təhdid edərək kassanı zorla açdırıb, qızıl pulla 2.000.000 manatlıq qiymətli əşya və qızıl pul götürüb aparıblar. Və tapşırıblar ki, şeylərin və pulun məsələsini ayırd etmək üçün səhər cinayət polis idarəsinə gəlsin.

İstintaq vaxtı müəyyən edilib ki, soyğunçuluğu Səid Baba Mir Dadaş oğlu təşkil edib. Çapqında aşağıdakı adamlar iştirak ediblər: Bağır Nəcəf oğlu, Nəriman Məşədi Rəhim oğlu, Əliyev Mir Əhmədəli Mir Kərim oğlu, Əli Muxtar Piri oğlu, İsgəndər Hacı Dəmir oğlu, İsmayıl Əlixan oğlu, Əliağa Ağamalı oğlu, bir də Mehdi Ramazan.

Qeyd etmək lazımdır ki, qarodovoy İsgəndər, soyğun olan vaxtı mülkün qabağında xidmət şöbəsində vəzifəsini yerinə yetirirmiş. İsa Mirzə Yəhya oğlu və Mir Əhmədəli Mir Kərim oğlu tərsanə qarşısında gecə gözətçisi imişlər.

Təhriri polis rəisi, çapqınçı Səid Baba Mir Dadaş oğlunun və aşna saxladığı Yelena Tamrişvilinin mənzillərində apardığı axtarış zamanı çoxlu qiymətli əşya və qızıl pul aşkara çıxardıb.

Ev sahibi şeylərini tanıyıb və evindən talan edildiyini təsdiq edib.

Bunlardan əlavə Səid Babanın mənzilində fotoşəkil yapışdırılmış iki vəsiqə tapılmışdır; sənədlərin birində ona silah daşımağa icazə verildiyi yazılıb. İkinci vəsiqəni Bakı polismeysterinin müavini 1919-cu ilin mart ayında verib.

Əşya sahibi sənədləri göstərib Səid Babanın axtarış zamanı özünü cinayət üzrə polis rəisi adlandırdığını təsdiq etmişdir.

İsmayıl, Əliağa və Mehdidən savayı yuxarıda adları çəkilənlər həbsə alınıb. Onların da evlərindən talan edilmiş qiymətli əşya və qızıl pul tapılmışdır.

Ələ keçən qiymətli əşya və qızıl pullar yiyəsinə qaytarılıb.

Bakı şəhərinin 1-ci polis şöbəsi istintaqı davam etdirir... 19/VI-19.

* * *

«Tiflis əsilzadələr bankı»nı yarmaq istəyənlər kassada yalnız 2.000 manat pul tapıblar. Xidmətçiləri tapança ilə təhdid edib, milyonların yerini soruşmuşlarsa da səyləri boşa çıxıb. Soyğunçular gedəndən 10 dəqiqə sonra banka 2-milyon manat pul gətirilib.

* * *

Çəmbərəkəndində, Vəkilov müalicəxanasının (11 poliklinika) yaxınlığındakı çəpərə alınmış balaca bağçadakı daxmada çoxlu tüfəng, patron dolu qutular, bomba və qumbara tapılıb.

Yük avtomobili dolusu silah tutulub. Dəniz kənarında bir evdə silah anbarı tapılmışdır; 1067 top gülləsi, çoxlu patron dolu qutular, bomba və mərmi.

* * *

Pul basdırılan mətbəədən pullar oğurlanır. Yenə 300.000 manat yoxa çıxıb, mühafizlər yatır, ya da üzbəüz meyxanada sərxoşluq edirlər.

* * *

Qurban bayramı yaxınlaşır. İki ay yarım bayrama qalmış yaxın qəzalardan, bir də Türkmənistandan Bakıya qoyun sürüləri gətirməyə başlayıblar. Sallaxana - Yasamal tərəflər böyük ağılı xatırladır. Çodarlar çəpər çəkib, heyvanları ora doldurub. Hər gün şəhər bazarlarına gətirib satırlar. Dövlətlilərin çoxu ucuz olsun deyə qurbanlığı bir neçə həftə qabaqcadan alıb, arpa, ot, ələflə, səliqəsinə uyğun bəsləyir, kökəldirlər. Kübarlardan iki, hətta üç qoyun alan da var.

Bayrama yaxın qoyunlara qənd verir, alnına, boynuna, belinə, böyürlərinə, quyruğunun üstünə həna yaxırlar, boyunlarına muncuq və mərcan boyunbağılar taxıb, balaca güzgü, həmail asırlar. Təzə gəlinlərə, nişanlı qızlara qurbanlıq aparılacaq qoç və toğluları xüsusi bəzəyib, zər-zibalı xonçalarla, qənd kəllələri, parça, paltar, şirniyyat qoşurlar.

Qurşaqlı, çuxalı hacılar, dövlətlilərin cavan oğlanları, ərköyün uşaqları qoyunları dallarınca yeriməyə öyrədiblər; tez-tez mübahisəyə qalxıb, hərə öz qoçunun üstün olduğunu iddia edir.

Qurban kəsəcək tacirlər, pullular, hacılar tay-tuşlarına, varlı qonşularına paylanacaq qurban payı, təşrif gətirəcək qonaqlar barədə danışırlar.

Bayram axşamı qoyunların gözünə sürmə çəkib, duz yedirdəcəklər, su içirdib, aparıb pirin üstündə hərlədəcəklər, hacılar qanovuz arxalıq geyib, üstündən tirmə qurşaq sarıyacaq, çuxanı əyinlərinə keçirəcəklər. Tacirlərin

naxışlı xara jileti, yük kostyumu, buxara papaqları, qızıl zəncirli qızıl saatı, yaqut, zümrüd medalyonları, jilet üstündən bağladıqları qızıl təkbəndləri diqqəti uzaqdan cəlb edəcək. Qurban günü doyunca kabab, ikinci gün plov, üçüncü gün qutab, sonra da baş-ayaq yeyəcəklər. Şəhəri kabab tüstüsü, kabab iyi bürüyəcək.

***El ordusu.*** Denikinin könüllü Ağ ordusu Dağıstanı işğal etdikdən sonra Bakıda vəziyyət çox gərginləşdi, Gündə min bir şayiələr, mülahizələr yayılır, ağızdan-ağıza keçdikcə şişirdilirdi: «Denikinin məqsədi Bakı neft mədənlərini, zavodları bolşeviklərdən qorumaqdır». «Könüllü ordu bütün hazırlıq görüb, cənuba hücuma bu gün keçə, sabah keçə». «Deyirlər ki, Denikin yarı yoldadır».

Belə sözlər şəhər əhlinin həyəcan və vahiməsini daha da artırır, taqətdən düşmüş camaatı qorxudurdu. Bilmirdilər aclığın, bahalığın, ərzaqsızlığın, ailə məşəqqətinin dərdini, ya da ki, göydən asılmış qəza qılıncının başlarına nə vaxt enəcəyinin intizarını çəksinlər.

Denikin ordusunun Bakıya gələcəyi ilə əksinqilabçı tör-töküntüləri daha da baş qaldıracaqdı.

Xalq diz çöküb yenidən Denikinlərə qul olmamaq üçün silaha sarılmağı qərara aldı və «hazır ol hərbə, əgər istərsən sülh, səlah» şüarını deyə-deyə var-yoxunu satıb, silah alır, hərbi məşq keçməyə başlayır.

Qədim zamanlardan bütün xalqlar özlərini qəsbkar və zalım-rəhmsiz düşməndən qorumaq üçün həmişə yardım alayları düzəldib, müdafiəyə hazırlaşırdılar. Xırda çaylar birləşib böyük nəhrlər əmələ gətirdiyi kimi yardım alayları da bir-birinə qoşulub «El ordusu» yaradır. Vətəni istila təhlükəsindən, əhalini qətli-qarət təhdidindən, köləlikdən xilas üçün hamı səfərbər olurdu.

İndi də Azərbaycanın şimal üfüqlərini qatı qara buludlar örtüb, cəllad, qan içən Denikin qan axtaran manavarlar kimi dişlərini qıcırdıb, əhalini qan dənizində qərq etmək istəyirdi.

Qəddar düşmənə qarşı durmaq üçün Bakıda «Yardım alayları» düzəltməyə başladılar.

Denikinçilər Şimali Qafqazda zəbt etdikləri bütün şəhər və kəndlərdə bolşevikləri və bolşeviklərə rəğbət bəsləyənləri, azadlıq sevənləri dar ağaclarından asırdılar.

«Hümmət» təşkilatı şura düzəldib Denikinlə mübarizə aparmaq məsələsini müzakirə edir və camaatı səfərbər etmək üçün minarələrdən bar-bar bağırırdılar.

Axır günlərdə şəhər küçələrində çoxlu ağ zabitlər görünür, sual olunurdu ki, bunlar bura niyə gəliblər? Paytaxtımızda işlərinin adı nədir? Zəhmətkeşlər bu yad adamları şəhərdən qovmağı tələb edirlər. General Voskresenski və bir neçə nəfər onun əlaltısı zabitlər həbs edilib, evlərini

axtardıqda çoxlu hərbi sursat: tüfəng, patron, pulemyot, un, şəkər, qənd, paltar və parça tapılmışdı.

Elə bu vaxt «Yardım alayı» da təşkil edildi.

Yardım alayı iştirakçılarından olan kommunist, əməkdar müəllim Məhərrəm Sultanov öz xatirəsində yazır: «Yardım alayı özünü müdafiə məqsədilə qurulmuş yarım hərbi dəstələr idi. Bu dəstələr bir yandan Bakını şimaldan təhdid edən Denikin təhlükəsinə qarşı mübarizə, digər tərəfdən 1918-ci il mart hadisələri təkrar olmamaq üçün yerli əhalinin ailəsini qorumaq məqsədilə yaradılmışdı».

«Mən özüm hadisələrin canlı şahidi olmuşam. İllər ötdüyünə baxmayaraq indi də yadıma düşəndə tüklərim biz-biz olur, gözlərim yaşarır...».

«Yardım alayları»-nın məqsədi silahla rəftar etməyi bacarmaq, özünü və millətini əldə silahla müdafiə etmək, lazım olanda sinfi düşmənlə də vuruşmaq idi».

«Silah almaq əvvəllər hamıya müyəssər deyildi, ancaq ötkəm adamlar tapança gəzdirirdilər. İndi isə silahlı olmaq əsas şərt idi».

Bakıda olan ağ ordunun tör-töküntü zabitləri, ingilis əsgərləri və zabitləri kazarmalardan silah oğurlayıb satır, restoranlarda, dükanlarda dəyər-dəyməzinə arağa dəyişdirirdilər.

«Bu və ya digər səbəblərə görə 1919-cu ilin yaz fəslində maariflənmiş, tədbirli ağsaqqallar camaatı yığıb iclas keçirdilər və müsəlmanlardan silahlı, könüllü, özünümüdafiə dəstələri düzəltməyi qərara aldılar və gəlir qubernatordan rəsmi icazə aldılar. Əlbəttə icazə verənlərin də öz hesabları vardı. Lakin unutmaq lazım deyil ki, «Sən saydığını say, bax gör fələk nə sayır».

«Yardım alayı»nın ilk dəstəsi Təzəpir məscidinin həyətində təşkil edildi, sonra başqa məscidlərin həyətində də belə dəstələr yaradıldı. Zaman bunu zəruriləşdirmişdi. Alayın tərkibi əsasən zəhmətkeşlərdən ibarət idi: fəhlələr, muzdurlar, əməkçi ziyalılar, müəllimlər, artistlər, sənətkarlar, xırda alış-verişçilər. «Yardım alayı»nın adı onun tərkibini uzaqdan xəbər verir və kimlərin iradəsini ifadə etdiyini göstərir».

«Şəxsən daxil olduğum «Təzəpir» məscidi həyətində toplaşan yardım alayı barədə bir qədər ətraflı nəql etmək istəyirəm. İlk gündən, yəni 1919-cu ilin baharından, ta 1920-ci ilin may ayının beşinə, yəni alayı rəsmən ləğv edib, üzvlərini qızıl ordu sırasına dəvət edənə qədər onun tərkibində olmuşam.

1919-cu ildə evlənmişdim. Tezliklə bildim ki, qaynım Əliabbas Məlik oğlu Ələsgərov Kommunist Partiyasının üzvüdür, gizli fəaliyyətlə məşğuldur. Məni də təşviq edirdi ki, partiyada üzv olum, hətta iki-üç dəfə məni Haşımov (Gənclər) meydanında olan fəhlə klubuna da aparmışdı. Klubda Nuru paşa gedəndən sonra Bakıda qalmış türk zabitlərindən bir neçə nəfərini görmüşdüm.

Bu zabitlər şəhərdə yaradılmış «Yardım alayı» dəstələrinə komandirlik edir, adamlara hərbi təlim verir, silahla rəftar etməyi öyrədirdilər»...

«Azərbaycanlı bolşevik rəhbərlərin çoxusunun fəhlə klubuna bağlı olduğunu qaynım mənə söyləmişdi və hətta başa salmışdı ki, sizin Təzəpir həyətindəki «Yardım alayı»na Əliheydər Qarayev və Həmid Sultanov şəxsən təhkim olunublar və rəhbərlik edirlər. «Yardım alayı»mızın komandirlərindən biri olan türk zabiti Müftizadə Səlahəddin, sonralar, mən fəhlə fakültəsində oxuyanda bizə dərs deyirdi. Özü də həqiqətən Kommunist Partiyasının üzvü idi. Uzun zaman respublikanın partiya məktəblərində siyasi fənlərdən dərs demişdi. Hətta 1924-cü ildə dahi Lenin vəfat edəndə dərsdə bizə gözlərində yaş oynadığı halda matəm nəğməsi öyrədirdi, bir beyti hətta indi də yadımdadır:

“Fağır xalqı sevdin də oldun fəda,
Şu insanlığı hürr yaşatmaq üçün...”

«Həftədə bir dəfə cümə günləri məscid həyətinə gəlib 4-5 saat hərbi təlim alırdıq. Çox vaxt həftəarası, bekar vaxtlarda da məşğul olurduq. Şirnikəndən sonra hər gün axşamüstü yığışırdıq. Bəzən şəhər küçələrindən dəstə ilə keçə-keçə səs-səsə verib «Biz qafqazlıyıq» şərqisini oxuyurduq.

Çox vaxt bir neçə nəfər cəm olan kimi zabiti çağırtdırıb hərbi sual-cavaba başlayırdılar. Məşğələmiz qurtaranda maddi imkanı olan yerlilərdən biri komandiri şam yeməyinə qonaq aparırdı. Bəziləri xəlvəti pul verir, kömək göstərir və zabitlə yaxın olmaqları ilə fəxr edirdilər. Onu da qeyd etməliyəm ki, hərbi məşğələ vaxtı türk komandirləri, vəzifəsinin öhdəsindən gələ bilməyən bacarıqsızları cəldliyə, hərbi işə alışdırmaq üçün amansız, çox sərt olurdular, elə bil əvvəlki mülayim, hörmətli adam deyildilər. Bərk söyürdülər, özü də çox qəliz, üçqat söyüş. Ata-babanı kordan çıxardır. Üst-başını, qafasını bulayırdılar. Söyülənlər qaba söyüşlərdən yaxa qurtarmaq üçün var qüvvələrilə səy göstərir, tez püxtələşirdilər».

«Bazar-dükanda, məhəllələrdə silah satan əlindən tərpənmək olmurdu. Hamı canının qorxusundan var-yoxdan çıxıb silahlanırdı. Necə deyərlər, «İlan vuran ala çatıdan qorxar». Silah - sağ qalmaq deməkdi. Tüfəng, patron, barıt, tapança istənilən miqdarda almaq mümkün idi. Silah gəzdirmək artıq bir növ adətə, ənənəyə çevrilmişdi. Görürdün əlinə bıçaq almayanlar, mauzer, naqan, şaşka, qılınc, xüsusən dövlətlilər qını nəqşli gümüşlə bəzənmiş xəncər bağlayırdılar».

«Yardım alayı»nda hərbi məsələlərdən başqa dindən, müsəlman tarixindən, hətta beynəlmiləlçilikdən, dolanacaqdan, oxumaqdan, geri qalmağın səbəblərindən, mədəni xalqlara çatmaq üçün savadlanmaqdan və sairədən danışırdılar. «Yardım alayı» hümmət təşkilatı üçün ən münasib təbliğat yeri

idi. Onlar silahlanmanı təşviq edirdilər. Məqsəd də məlum idi, məqam çatanda haman silahları istismarçılara qarşı çevirmək... Nəticədə elə də oldu».

Bu barədə bir az sonra.

«Birinci həftələrdə camaat çox çətinlik çəkir, tüfənglə rəftar etməyi bacarmır, sırada durmağı, yeriməyi, komandaya uyğun yox, gec yerinə yetirirdilər. Maraqlı bir əhvalat baş verdi. Cavadbəy adlı bir adam həmişə sağ ilə solu səhv salır dəstədə ümumi yeriş ahəngini pozur, tez-tez gülüşə səbəb olurdu. Komandir axırda təngə gəlib onu sıradan çıxartdı: «Farağat!» - deyə bərkdən qışqırdı. Cavadbəy əllərini yana salıb dik dayandı, şişman qarnını qabağa verib özünü dartdı. Zabit qışqırdı.

«Arş irəli, sol!».

Cavadbəy sağ ayağını qabağa qoyub yeridi. Adamlar özünü saxlaya bilməyib güldülər. Komandir səbrlə komandanı neçə dəfə təkrar etdi, lakin istənilən nəticə hasil olmadı. Komandir bağırdı: «Cavadbəy, babanın qafasını bulasınlar, sol!».

Cavadbəy yenə sağ ayağını qabağa atıb addımladı. Komandir yaxınlaşıb var gücü ilə Cavadbəyə bir şillə ilişdirib, qışqırdı: «Abdal hərif, səni görəyim şəhid olasan, anan sevinsin, sevinc yaşları axıtsın. Sol! Sol!».

Cavadbəy qəzəblə sol ayağını bərkdən yerə vurub, sakit bir tərzdə dedi: «Ala, bu da sol! İngilisləri qovduq Bakıdan, ya ki Denikin Dağıstandan çıxdı getdi...».

Bu cavabdan elə qeyri-adi vəziyyət yarandı ki, qaraqabaq, tündməcaz komandir qeyri-ixtiyari güldü, hirsi yoxa çıxdı. Hamı gülməkdən uğunub getdi.

Lakin türk zabitləri bu «xam» adamlardan az müddətdə elə çevik, cəsur, mətanətli döyüşçülər yaratdılar ki, adam məəttəl qalırdı. Hər məşğələ vaxtı beş-altı saat onları qaçırdır, yorur, taqətdən düşənə qədər əldən salır, polad nizam-intizam yaradırdılar; özləri də yorulmaq bilmir, istədiklərinə nail olmadıqca əl götürmürdülər. Bir məşqi kərratla təkrar etdirirdilər. Birdən komanda sədası şimşək təki guruldayırdı: «Nəfərat düzülün!» «Arş, irəli!», «Sol! Sol! İrəli! İrəli! Ar...ka...ya dön!» «Sağ, sol! Sola dön», «İrəli. Silahlar umuza!» «Olmadı! Təkrar!.. Silah umuza! silah dabana», «Yarım dönüş so...la!» «Sağa yarım dönüş!» «Farağat! Yerində say bərkdən!.. Geriyə dön!», «Hasarı aşmaq!» «Cəld! Cəld!..» Hədəfi nişan al!» «Olmadı! Təkrar hədəfə!» «Süngü axılsın! İrəli! Süngü çıxarılsın!» «Azad!».

Altı saat, bəzən on saat bu qayda ilə məşq keçərdilər. Hamısı tövşüyər, əldən-ayaqdan düşər, az qalardı ürəkləri ağızlarından çıxsın, tər yuyub aparar, zabitin isə heç veçinə olmazdı, o özü daha çox addımlayır, komanda verir, söyür, acıqlanırdı, qətiyyən usanmaq, yorulmaq nə olduğunu bilmir, elə bil sənətindən nəşə, həzz alırdı.

Üç həftədən sonra xalis əsgər idilər, ətalət, tənbəllik, ağır yerimək yoxa çıxmışdı.

Bu hal hamını sevindirirdi.

«Yardım alayı»nda komandirlik edən türkləri Kommunist Partiyasına hümmətçilər cəlb etmişdilər.

Məhəmməd Tahir bir dəfə məşğələdən əvvəl məs-çid həyətində yığılanlara müraciət edərək dedi ki, keçə məşğələləri hərbi təlimin zəruri hissəsidir. Şunu hərbi məramnamə tələb edir. Sizlər də şunu mütləqa yapmalısız. Vərdiş lazımdır. Şu hərbi əmrdir, varmıyanlar fərari sayılacaq, cəza veriləcək.

«Başladıq gecə məşğələlərinə gəlməyə.»

Obyektlərin əhəmiyyətindən asılı olaraq bəzən səkkiz və hətta on, on iki nəfər səhərə qədər ayrı-ayrı məhəllələrdə, hökumət idarəsi, milyonçuların mülkləri, bank yerləşən binaların ətrafında gözətçi dayanardı. Bizi tez-tez yoxlayırdılar...».

«Neçə ay idi ki, məşğul olurduq, hamımız əməlli-başlı əsgər olmuşduq. Yüyürməkdə, atəş açmaqda, hücum və ricət etməkdə bir-birimizlə yarışırdıq. «Al kafasını!» deyə bir-birinin əllərini qamarlayıb peysərinə keçirib başını əyməyə cəhd edir, ya da qapışır və hər kəs üstün gəlməyə çalışırdı. İlk günlərdəki ətalət, qorxu-hürkü yoxa çıxmışdı, silahla rəftarı əzbərdən bilirdik. Tüfəng və tapançanı söküb, təzədən yığmaqda, yağlamaqda hamı pərkar olmuşdu. Xüsusilə hədəfə atəş açmaqda tayımız, bərabərimiz yox idi. Gündə yüzlərlə atəş açıb, hədəfi dəlik-deşik edirdik. Axır vaxtlarda daha iri hədəfləri yox, xırda əşyaları nişan alırdıq. İpdən alma, ya da ki, soğan asıb atırdıq, son günlərdə almanı, soğanı yox, onların asıldığı ipi nişan alıb güllə atırdıq.

Komandirlər ürəkdən sevinirdilər, bizlər isə fərəhdən yerə-göyə sığışmırdıq, tez-tez təkrar edirdik:

Hazır ol hərbə!
Əgər istər isən sülh-salah».

***Fəhlələrin müraciəti:*** «Fəhlələrin top-tüfəngi yoxsa, tətili var. Bizi həbs etsələr də razı olmarıq ki, silah və maşınlarımızda bolşeviklərin üstünə getsinlər. Denikin onları əzəndən sonra üstümüzə gələcək. Donanmaçıları həmrəyliyə çağırırıq». «Cümlə cahan füqərayi kasibəsi, birləşin!», «Yoldaşlar! hürriyyət günəşinin qabağını qara buludlar örtməkdədir. Taci-taxtı sərnigün olmuş Nikolay Romanovun cəllad, xunxar yarananları əllərindən getmiş ağalıqlarını qaytarmaq, əsrlər boyu burda yaşayan xalqları təzədən əsarət zəncirilə buxovlamaq istəyirlər. Çarizmi bərpa etməyə çapalayırlar».

«Dağıstan xalqı qaragüruh generallarla vuruşur. Nikolay dövründə İranda olan bir yürüşdə neçə min adam qırmış, müstəhid Məlikül Mütəkəllümeyni dar ağacından asmış Lyaxov indi dağıstanlıları yer üzündən nabüd etmək istəyir. Mütləqiyyət və sərvətin, istibdad və zülmdən xilas olmağa

çalışanların hamısını «Hümmət» firqəsi dağıstanlılara yardıma çağırır. Dağıstandan sonra növbə bizə çatacaq. Zülmlə ədalət çarpışır. Bütün füqərayi kasibə bir ordunun əfradıdır».

«Silah başına! Denikin gəlir. Nikolay generalı gəlir. Boynumuzu yaralayıb qanatmış əsarət boyunduruğunu təkrar boynumuza salmaq üçün gəlir. Ayaqlarımızı və əllərimizi iflis edən qandalları və dəmir zəncirləri, dar ağacları və ölüm gətirir, Dağıstan istiqlalını məhv edib, süngülərini ürəyimizə dayayıb, xunxar hərif bizi məhv etmək istəyir. Gənclər! Silaha sarılın! Zavallı ana Vətən bunu tələb edir... Arxanızı təmin etməyi unutmayın! Daxili Denikin daha dəhşətlidir. Casuslar, sabiq Nikolay məmurları, Nikolaypərəstlər arxadan zərbəyə hazırlaşırlar».

«Ölmək qul olmaqdan şərəflidir. Dağıstan bizə ibrət dərsi olmalıdır. Yaşasın cahan inqilabı! Əsrdən 100 il dala qaldıq; tamaşaçı olduq. Qonşular çoxlu mütəxəssis hazırladı. Sevindik ki, naloq veririk, əsgər aparmırlar. Buna həm çar, həm yerli irticaçılar müqəssirdir. Hər şeyi indi iki daş arasında hazırlamalıyıq».

Denikin qorxusu qara həyula təki bütün şəhərdə, evlərdə, küçələrdə, çayxanalarda, restoranlarda, bazar-dükanda, meydanlarda, zavod və fabriklərdə, mədənlərdə və körpülərdə hərlənir, hamını və hər kəsi təhdid edirdi. Əhali silaha sarılırdı. «Yardım alayı» təlim keçirdi. Məşq edirdilər. Vətəni müdafiə etməyə hazırlaşırdılar. Bütün zəhmətkeşlər millət, din, məzhəb nəzərə almadan qara Denikindən vətəni qoruyacaqdılar.

Bir dəfə «Yardım alayı» və fəhlələr əllərində məşəllər gecə yarıya qədər küçələri gəzə-gəzə «Denikinə ölüm!» qışqırdılar.

Bunlara baxmayaraq gündüzlər narahat, gecələr vahiməli, qorxulu, yuxusuz keçirdi. Dinc həyat yox idi, azad nəfəs almaq olmurdu.

Bütün bu iztirab, dəhşət və qorxular iyirminci ilin yanvar ayının əvvəllərində bolşeviklər Saritsində Ağ ordunu - Denikini darmadağın edəndən sonra günəşin üzünü örtən qatı qara buludlar dağılmağa başlayanda sona çatdı.

***Nadanlıq qurbanı.*** Bazar (Hüsü Hacıyev) küçəsindən azca yuxarıda Serkov (Vidadi) küçəsində atılan güllə, böyük bir əks-səda yaratdı. Novruz bayramı ərəfəsində Azərbaycan səhnəsinin istedadlı aktyoru Hüseyn Ərəblinski namərd gülləsinin qurbanı oldu.

Mədəniyyətimizin salnaməsinə qara hərflərlə yazılacaq bu xəbər ildırım sürəti ilə şəhərə yayıldı. Azərbaycanlı, rus, yəhudi ziyalıları, incəsənət xadimləri, bütün əhali gözlənilməz qara xəbərdən sarsıldılar.

Mart ayının yeddisində, səhər saat ondan camaat mərhumun yaşadığı evin qabağına axışmağa başladı. Tezliklə ətraf küçələrdə adam əlindən tərpənmək olmurdu.

Yeganə qardaşını itirmiş ağı deyən bacının naləsindən, qəmli avazından təkcə müsəlmanlar yox, ruslar, yəhudilər, sözləri başa düşməsələr də, ifadə tərzindən, yanıqlı ahəngindən dərin faciənin mənasını duyurdular.

Cənazəni qaldırmamışdan əvvəl qısa mitinqdə mərhumun bacısı qara libasda hönkürtü ilə göz yaşları axıda-axıda, üzüntülü və ürəkyandırıcı bir dildə camaata xitab edir: «Tək qardaşımın ana və bacıdan başqa kimsəsi yoxdur... Yalvarırıq, qatilə ən ağır cəza verdirin, qoymayın Hüseynin nahaq axıdılmış qanı yerdə qalsın...».

Cənazəni Təzəpir məscidinə aparırlar. Meyit namazı qılınır, matəm mitinqi başlayır, natiqlər mərhumun bir sənətkar kimi xalqa göstərdiyi misilsiz xidmətindən danışırlar. Səhnəmizin mahir ustadının uzun illər əleyhinə mübarizə apardığı cəhalətin, nadanlığın qurbanı olduğunu söyləyirlər. Tabutu məsciddən qaldırıb, orkestrin çaldığı həzin matəm təranələri və nəğmələri altında Quberniski (Nizami) küçəsinə gətirib, Hacıbəyov qardaşları müdiriyyəti idarəsinin qarşısında saxlayırlar... Bəstəkar Üzeyir atəşin nitqində Ərəblinskinin fitrətən böyük aktyor və istedadlı rejissor olduğunu söyləyir. Müsəlman artistləri tərəfindən Məhəmmədəli Sidqi danışıb Hüseynin ömrünün bahar çağında amansız xəzana tutulduğunu, səhnəni tərk etdiyini, faciənə qətl edildiyini yanıqlı bir dillə, təəssüflə bəyan edir. Müsəlman şagirdləri adından Bakı texniki məktəbinin şagirdi, (gələcəyin məşhur dramaturqu) Cəfər Cabbarlı ağlaya-ağlaya danışır: «Bu təlatümlü, qeyri-sabit, ixtişaşlı dövrdə, dünyanın, xüsusən Bakının bu ağır günlərində, duman və tüstüyə bürünmüş mühitdə böyük sənətkarı qatil etdilər. Üfüqdə bahar havası duyulur, ana təbiət ayılır, qarlar əriyib çaylar daşır, təbiət oyanıb hər yeri yaşıl örtüyü ilə bəzəyir, çiçəklər yer-yerdən baş qaldırır, səhralarda və meşələrdəki yaz təravəti insanlara ümid verir, qışın tufanından, şaxta və soyuğundan sonra hər yerdə yeni həyat nəfəsi duyulur. İctimai, siyasi həyatda insan tarixi dəyişdiyi kimi, təbiətdə də dəyişmə gedir. Şaxtalı qışı gülərüz yaz, şən bahar əvəz edir. Yeni il bayramı, novruz şənlikləri yaxınlaşır, bütün insanlar bu şənliyə hazırlaşdığı bir vaxtda, gözlənilmədən şiddətli qara xəzan yeli, səmum küləyi əsib pak, günahsız, təmiz insanı, sənət aşiqini aramızdan aparır. Xalq sənətkarı, yüksək qayələr məftunu Hüseyn Ərəblinski bizi tərk edir... Əlvida, xalqının böyük sənətkar oğlu». Səfər özünü toxdada bilmir, yol boyu göz yaşı axıdır. Onun əynindəki texniki məktəbin qara rəngli, rəsmi paltarı bu qanlı qara matəmlə həmahəng idi. Tabutu qəbiristanlığa aparırlar.

İzdiham sel kimi axırdı. Tabut və mafə güllərlə bəzədilmişdi. Camaat böyük gül-çiçək əklilləri aparırdı. Mərhumun bir neçə portretini müəllimlər, artistlər əllərində aparırdılar, Yol uzunu musiqinin ürək yandıran təranələri və matəm nəğmələri susmurdu. Bələdiyyə idarəsi ilə üzbəüz olan «Müqəddəs Nina» məktəbinin qabağına çatanda cənazəni saxlayırlar.. Müəllimlərdən bir nəfər Ərəblinskinin səhnəyə göstərdiyi böyük xidmətlərindən danışır.

Müsəlman ziyalıları tərəfindən Xəlil İbrahim mərhumun səhnəyə göstərdiyi on yeddi illik fədakar xidmətini nəql edir. Şair Salman Mümtaz gözəl, dərin mənalı, kədərli, şairanə bir nitq söyləyir və mərhumun az vaxtda çox iş gördüyünü, onun məharətlə ifa etdiyi rolları görüb, Türküstan tamaşaçılarının qəlbdən alqışladıqlarını, indi onların da matəm tutduqlarını deyir.

Müsəlman tələbələri tərəfindən hənifi Zeynallı danışır.

Cənazəni qaldırıb, qəbiristana (indiki Dağüstü parka) qədər əl üstündə aparırlar. Meyiti qəbirə qoyandan əvvəl qocaman artist Mirzə Muxtar Məhəmmədov cənazə ilə vidalaşır: «Hüseyn, mən də tezliklə dalınca gələcəyəm... Tez... çox tez gələcəyəm. Səni qara torpaq altında tək qoya bilmərəm... Gərək sinin yerinə mən öləydim. Bu xalqa, bu millətə sən daha çox lazım idin. Cəhalətin, nadanlığın qalın, qara pərdəsini parçalamaq üçün sənin şimşək təki çaxan istedadın mənim kimilərinin minini əvəz edərdi... Əlvida... əzizim». Musiqi təranələri altında meyiti torpağa tapşırırlar.

Yaşlı adamlar deyirdilər ki, bu, şəhərdə (Həsənbəy Zərdabinin dəfn mərasimindən sonra) ikinci ən izdihamlı, ən kədərli matəm mərasimidir ki, milliyyətindən asılı olmayaraq bütün Bakı camaatı küçələrə tökülmüşdü.

Faciənin əsl səbəbi, deyilən mülahizələrdən birinə görə vəhşi, nadan qısqanclıq imiş. Tatyana Maslennikova adlı bir xanəndə qadın kazinoda, restoranlarda kitarada özü çalar, özü də oxuyardı, gözəl vz qəşəng olduğu qədər məlahətli səsi vardı. O, oxuyanda salonda adam əlindən tərpənmək olmurdu. Hüseyn bir sənətkar kimi Tatyananın həm səsini, həm də gözəlliyini qiymətləndirirdi. Tatyana isə Hüseynə məftun idi. Ailəvi gediş-gəlişləri vardı. Xudmani məclislər qurub öz dostları, yaxın adamları ilə bir yerdə çalıb-oxuyar, o qaranlıq mühitdə vaxtlarını xoş keçirməyə çalışar-dılar. hüseynin dayısı oğlu da demə Tatyanaya «vurulub-muş» və onu pul gücünə, ya da zorla ələ keçirməyə, ram etməyə cəhd edirmişsə də, cəhdləri boşa çıxır, hər dəfə oxu daşa dəyirmiş. «Bəxtinin» gətirmədiyinin günahını Hüseyndə görür, onu müqəssir hesab edir və bu maneəni aradan qaldırmağı, rəqibini yolundan çıxarmağı qərara alır və Hüseyni qətl edir.

Bakı deposunun fəhlələri nümayişə çıxıb Ərəblinskinin qatili üçün ölüm cəzası tələb edirlər. Uzaq Tiflis şəhərindən dram dərnəyi artistləri onların səsinə səs verirlər.

Mərhumun qətlindən on bir gün sonra Ərəblinskinin arvadı Asiya xanım Bakı qubernatoruna ərizə verib, məlum edir ki, Hüseyni öldürən cani Salam Zeynalovu həbsdən azad ediblər. Qatil Asiyanı da ölümlə təhdid edir. Asiya qubernatordan kömək istəyir.

Hüseynin dəfnindən iki ay yarım sonra Nəriman Nərimanovun «Nadir şah Əfşar» faciəsi tamaşaya qoyulur. Məqsəd Hüseyn Ərəblinskinin qəbiri üstünü götürmək, kimsəsiz qalmış qoca anasının məişətini qismən də olsa təmin etmək idi. «Nadir şah» əsəri həm maddi, həm də mənəvi cəhətdən ən

müvafiq əsər hesab edilirdi. Bütün aktyorlar küçələrdə bilet satırdılar. Teatr kassası səhərdən axşama qədər açıq idi... Bu məqsədlə ianə də qəbul edilirdi və ianə verib, kömək göstərən adamların adları qəzetdə elan edilirdi. Nadir şahın rolunu Abbas Mirzə Şərifzadə, mərhum Hüseynin öz zövq və səliqəsilə tikdirdiyi Nadir şah libasında çıxış edəcəkdi.

* * *

Elə bu zaman məşhur aktyor, «Ölülər» pyesində Şeyx Nəsrullah və Kefli İsgəndər obrazlarının ən məşhur ifaçısı, «Molla Nəsrəddin»çi mühərrir və şair Əliqulu Qəmküsarın da Tiflisdə qətl edildiyi qara xəbərini teleqrafla xəbər verirlər. Bakı ziyalıları onun üçün də matəm tutdular. Onun yaxın dostu, məşhur xalq artistimiz Mirzağa Əliyevə yadigar göndərdiyi əksinin arxasında yazdığı «Həsb-hal» şeri dərc edilir:

Təsviri pür məlalımı mütləq görən zəvat
Anlar keçirmişəm necə əfsürdə bir həyat,
Gəldim cahanə sanki həmişə bəla çəkəm,
Könlümdə vardı min əməlü, min təhəssürat,
Dünyada bir məram dilim hasil olmayır,
Yağı olub mənə bütün icrami kayinat.
Bəs kim düşünmüşəm qırışıbdır üzüm, gözüm,
Zaye edib vücudumu iş bir təfəkkürat.
Sinnim otuzda tüklərim iştə bəyaz olub.
Keçmək sifarişin yetirib qasidi məmat.
Qalmıb ümid, çünkü həyatın bəqasinə,
Əksim götürtmüşəm qala bəlkə xatirə.

Elə bil yaxın zamanda həyata vəda edəcəyini duyubmuş. Mirzağa «Həsb-hal» şerini qəzetdə bu qısa məktubla dərc etdirmişdir: «Əziz yoldaşım. Doğrudur, ölmək təbiidir. Amma bu tövr nahaq, xunxar qatil əlində ölmək ciyərimi parça-parça etdi. Artist yoldaş. Sənin o vəhşi qatilin nəinki tək şer aləminə, həm də bizim əlimizdən almaqla səhnəyə böyük zərbə vurdu. Sevgili yoldaşım. Bu axır vaxtlarda mənə yadigar olaraq göndərdiyin əksinin dalında yazdığın «Həsb-hal»dan görünürdü ki, həqiqətdə dünyadan o qədər incimisən ki, ölməyi istəyirmişsən. Qoy sənin bu küskün halını mən də, şer və səhnə dostlarına xəbər verim, qoy onlar da oxusunlar».

Ordu Bakıya gəlir. Çar dövründə müsəlmanlardan əsgər aparmayıb, bunun əvəzində vergi alırdılar.

Oktyabr inqilabından sonra üç burjuaziya partiyası: gürcü menşevikləri, daşnaklar və müsavatçılar Zaqafqaziya komissarlığı yaratdılar və 1917-ci ilin dekabr ayında gürcü, erməni, müsəlman və rus milli korpuslarının təşkilinə başladılar. Bu məsələdə müsəlmanların vəziyyəti çox ağır idi, çünki

onların heç bir silahlı dəstəsi yox idi. Qərb cəbhəsindən Zaqafqaziyaya gələn birinci «Tatar» süvari polkunu müsəlmanlar bu məqsəd üçün istifadə etməyi qərara aldılar, bu yeganə silahlı dəstə idi ki, az-çox kara gələ bilərdi. «Tatar» polku keçmişdə «Dikaya diviziya» tərkibindəki alaylardan biri idi.

Korpus düzəltməyə başladılar; kağız üzərində korpus və iki diviziya ştabları yaradıldı; nə zabit və nə də əsgər vardı. Azərbaycandan adam yığmaq nəzərdə tutulurdu. Bu məqsəd üçün 1918-ci ilin fevral ayında korpusa daxil ediləcək birinci piyada diviziyasının qərargahı Bakıya köçürülür ki, birinci atıcı polku və başqa hissələr yaradılsın. General Mehmandarovun başçılığı ilə qərargah üzvləri şəhərə varid olanda tutub dustaqxanaya salırlar. Həmid Sultanovun xatirələrində yazdığına görə, sonra da taktiki mülahizələrlə azad edilirlər.

Tiflisdə belə korpus yaratmağa başladılar. Lakin cəlb edilən adamlar təlim üçün aldıqları silahı, paltarı və çoxları atı da götürüb qaçırdılar evlərinə, tapıb qaytarmaq da olmurdu. Beləliklə vəziyyət çox ağır və acınacaqlı idi.

1918-ci ilin mart ayının əvvəlində, Trabzonda türklərlə Zaqafqaziya Seymi arasında danışıqlar başlayır. İlk iclasda türklər Zaqafqaziya komissarlığının dövlət və siyasi cəhətdən heç bir hüququ olmadığını iddia edirlər. Buna görə də komissarlıq tez Zaqafqaziyanın Rusiyadan ayrıldığını və sərbəst dövlət olduğunu elan edir, federativ respublika yaradır.

1918-ci il may ayının 25-də Seym öz-özünü buraxır və Zaqafqaziyə ərazisində üç milli: gürcü, erməni və Azərbaycan respublikası əmələ gəlir.

1918-ci il may ayının 28-də milli şura azad Azərbaycan yaradıldığını elan edir, əlbəttə, Gəncədə olan Türk İslam ordusunun baş komandanı Nuru paşanın razılığını alandan sonra.

Müsəlman korpusu Tiflisdən Gəncəyə gəlir və Azərbaycan korpusu adlandırılır. Onun varidatı və hərbi müxəlləfatı var-yox bir neçə topdan və bir də az miqdarda atlardan ibarət idi.

Çar ordusunun silah arsenalı bütünlükdə xristianların əlində idi.

1918-ci il iyulun 11-də türklər Azərbaycanda 1894 və 1899-cu ildə anadan olanları orduya çağırır.

1919-cu ilin sonunda toplanan əsgərlərin yaşadıqları bir neçə kazarmanı general Səmədbəy Mehmandarov yoxlayanda dəhşətə gəlir və yazır: «Hər yerdə bir-birindən pis, eyni acınacaqlı mənzərəyə rast gəlirdim. Adamların görkəmi miskin, qida olduqca pis; yoxlayanda qabdakı qaynar suda tək-tük kələm yarpağı üzürdü... Binalar rütubətli, nə çarpayı, nə taxt və nə də yorğan-döşək vardı. Əsgərlər yaş torpaq üstündə üstü-açıq yatırdılar; pəncərələrin çoxunda şüşə yox idi. Atlar bir dəri, bir sümük idi, atdan çox əcaib bir heyvana oxşayırdılar, yarıdan çoxunu qoturluq basmışdı.

Təəccüblü bir şey yoxdur. Madam ki, adamlar ac-yalavac, ayaqyalın, başıaçıq, özləri də nahaq yerə tez-tez kötəklənirdilər, ata kim baxacaq.., Belə vəziyyətdə hərbi xidmətə nifrətdən başqa heç nə gözləmək olmaz...».

Yuxarıdakı vəziyyət ömürlərində əsgərliyin nə olduğunu bilməyən kəndli balalarını hürküdüb-qorxudur və fərariliyə vadar edirdi.

1918-ci il noyabrın 6-da Müsavat hökumətinin hərbi nazirliyi yaradılır və onun portfelini hökumət başçısı götürür. Nazirliyi təşkil etmək general Səmədbəy Mehmandarova tapşırılır, özü də hərbi nazir müavini təyin edilir. Sonra da hərbi nazir olur.

Birinci növbədə baş qərargah və ordu polkları yaradılır.

Krımdan gəlmiş sabiq Krım hökuməti başçısı general Sulkeviç baş qərargah rəisi təyin edilir. Lakin Mehmandarovla aralarında münaqişə olduğundan o istefa verir.

Ordu isə hələ yox idi. Türklər Bakını alandan sonra Azərbaycan korpusu yaradılır və polkovnik Səlimov müvəqqəti komandir təyin edilir. O da yazdığı məxfi məlumatda qeyd edir ki, ordu kağız üzərindədir. Adı var, özü yox. Atlar acınacaqlı haldadır. Lazımi miqdarda top var, amma topxana qurmağa nə zabit, nə at, nə də müxəlləfat var. Əsgərlər cır-cındır içində, hamısı ayaqyalın, nə corab, nə çarıq... Kəndə göz dikib, məqam tapan kimi qaçırlar...

Zabitlərin də vəziyyəti o qədər yaxşı deyildi. Başqa idarə məmurlarının maaşları 100-150 faiz artırıldığı halda, zabitlər unudulmuşdu. Elə bil ögey uşaqdılar... Pul da gündən-günə qiymətdən düşürdü.

Boş, susuz səhrada məskən salmaq kimi hesab edilən ağır bir şəraitdə general Səmədbəy Mehmandarov ordu yaratmağa başlayır.

Bu fövqəladə istedad sahibi sərkərdənin tərcümeyi-halını qısa da olsa təsvir etmək vacibdir. 1856-cı ildə Lənkəranda doğulub. Atası zadəgan Sadıqbəy meşə idarəsində qulluq edirmiş; xasiyyəti cod, tündməcaz kişi imiş. Səmədbəy Bakıda gimnaziyanı əla qiymətlə bitirib Peterburqa gedir və 2-ci Konstantin topçu məktəbinə daxil olur. Zəka və qabiliyyətinə görə böyük hörmət qazanır. 1875-ci ildə təhsilini başa çatdırıb, topçu praporşik rütbəsi alır. Sibirə xidmətə göndərilir. İlk dəfə 1900-cü ildə hərbdə məharət və istedadını nümayiş etdirir. Həmin il avqustun üçündə çinlilərlə olacaq döyüşdə generaldan əmr alır ki, Tsitskar şəhərindən qaçmağa cəhd edəcək adamları top atəşinə tutsun və bununla çin əsgərlərinin aradan çıxmasına mane olsun.

Çinlilər şəhərdən əliboş çıxanda Mehmandarov silahsız adamları qırmaqdan boyun qaçırır, atəşə tutmur. Generalla mübahisə edir. Hədələnir və hərbi səhra məhkəməsinə verilməklə təhdid edilir. Vadar olub top atəşini çinlilərin başları üstündən uzağa yönəltdirir və qaçanların şəhərə qayıtmasına nail olub, qan axıtmadan şəhəri tuturlar.

Sonralar bir il Peterburqda topçu zabitlər məktəbində təkmilləşmə kursunda oxuyur.

1904-cü ilin yanvar ayında, rus-yapon müharibəsi başlayanda Port-Artur qalasına göndərilir. Qalanın müdafiəsi məşhur general-mayor Kondratenkoya tapşırılmışdı. Şücaətinə görə sonralar o, Port-Artur qəhrəmanı adı ilə məşhur olmuşdu.

Qalada ən mühüm obyekt hesab edilən Şərq cəbhəsinin topçu qüvvələrinin rəisliyi, ən igid zabitlərdən biri sayılan Mehmandarova həvalə edilir. Bura daima təhlükə altında idi, Şərq cəbhəsini düşmən zəbt edə bilsəydi, bütün qalaya asanlıqla yiyələnəcəkdi.

General Ə. A. Şıxlinski xatirələrində yazır ki, «Oktyabrın 14-də düşmən qalanı topa tutanda Səmədbəy mənim mövqemə gəldi. Yaponlar bura 11 düyməli topdan tutmuş, 27 millimetrlik xırda dəniz topuna qədər müxtəlif ölçülü qoplardan atəş açırdılar. Mövqeyimiz həm də tüfəng və pulemyot atəşi altında idi. Mehmandarovun lap yaxınlığında 6 düyməli qumbara partladı, ətrafa qəlpələr və qara palçıq sıçradı. Səmədbəyin üst-başını buladı, lakin yaralanmadı. Vecinə almadan çox soyuqqanlı halda cibindən çıxardığı ağ yaylıqla üst-başını bulamış palçığı təmizlədi.

Dekabrın 16-da çağırılan hərbi şurada qalanın müdafiəsini davam etdirməyi təkidlə təklif edir.

Yaponlar Şərq cəbhəsinin ən həssas məntəqəsi Drakon dağ silsiləsini tutandan sonra, general Stessel qalanı təslim edir.

1908-ci ildə Səmədbəy Mehmandarova general-leytenant rütbəsi verilir.

Mehmandarovun adı gələndə topçu akademiyasını bitirmiş və digər görkəmli qoşun hissələri generalları, bütün ərkan hərb zabitləri hörmətlə, iftixarla onu tərifləyirdilər, qibtə və həsəd çəkənlər də az deyildi.

Birinci dünya müharibəsi ərzində, 1914-1918-ci illərdə Mehmandarov 21-ci piyada diviziyasının rəisi olmuş, Avstriya-Almaniya cəbhələrində vuruşmuş, məşhur Lodz əməliyyatında misilsiz məharət və şəxsi igidlik göstərmişdi. Bu diviziyaya 81-ci Abşeron, 82-ci Dağıstan, 83-cü Samur və 84-cü Şirvan piyada polkları daxil edilmişdi. Sonra 2-ci Qafqaz ordusunda korpus rəisi təyin edilmişdi. Özünə və başqalarına qarşı tələbkar, əsgərə ata qayğısı bəsləyən, namuslu, düz danışan, adamlara sözlə və işlə kömək edən general Mehmandarovun yaltaqları, yalançı, oğru, əliəyri və rüşvətxorları görən gözü yox idi. İgidlik və mərdliyə görə neçə dəfə qızıl silahla, hərbi məharəti üçün Stanislav, Vladimir və Georgi ordenlərilə təltif edilmişdi. Eyni zamanda İranın «Şiri-Xurşid» və iki ingilis hərbi ordeninə, Fransa və Rumıniyanın. yüksək hərbi mükafatına layiq görülmüşdü.

General Mehmandarov 1919-cu ildə Vladiqafqazdakı kitabxanasını Bakıya gətirmək üçün üç nəfər adam göndərir. Ağ general Erdel əhvalatı eşidəndə, gələnləri hüzuruna çağırıb deyir: «Mən Mehmandarov adlı general tanımıram. Mən vahid Rusiyaya xəyanət etmiş Mehmandarovu tanıyıram və

Bakını zəbt edəndə onu xain kimi dar ağacından asacağam. Gedin, xəbəri özünə də çatdırın». Kitabları da verməmişdi.

Yüksək hərbi məharəti, istedadı və təşkilatçılıq bacarığı sayəsində, yuxarıda təsvir etdiyimiz ağır bir şəraitdə və acınacaqlı vəziyyətdə hərbi işə bələd olmayan dəstələrdən qüdrətli qoşun yarada bilmişdi. Denikin hücumu ehtimalına qarşı mükəmməl, operativ müdafiə planı qurub, dairələr yaratmışdı. 1. Yalama-Xaçmaz-Bakı. 2. Dilican-Qazax-Ağstafa. 3. Dilican-Gədəbəy-Gəncə. 4. Gorus-Şuşa-Yevlax. 5. Dənizdə Samur çayından Ələt stansiyasına qədər.

Ümumiyyətlə əvvəldən qarşıya qoyulan məqsəd 40.000-lik ordu yaratmaq idi. Şəraitin ağır olması, xarici və xüsusən daxili vəziyyət buna imkan vermirdi.

Qoşunların müəyyən hissəsi Bakıya gətirilirdi. On Doqquzuncu ilin aprel ayının ilk günlərində camaat arasında «ordumuz sabah paytaxta gəlir» xəbəri ağızdan-ağıza keçir, hamını sevindirirdi. Hərə bir söz deyir, hərənin bu barədə öz mülahizəsi vardı.

Çəmbərəkəndində mülk sahibi Ağa Məlik, dartayçı İbiş, xarrat Cəfər, bir də Zəhər Məmmədrzanın arasında mübahisə düşdü. Ağa Məlik dedikdə ki, sabah qoşunumuz Bakıya gəlir, dartayçı İbiş istehza ilə soruşdu: «Xozeyin, haçandan qoşun siz dövlətlilərinki oldu? Üç oğlun var, hamısı yanında, evdə; qardaşın balaları şəhərdə, özləri də alış-veriş edirlər. O biri xozeyinlərin də uşaqları elə».

«Başından yekə danışma, - deyə Ağa Məlik ona acıqlandı, - hökumət özü nə elədiyini yaxşı bilir».

«Hökumət başında oturanlara nə var, loxmanı verdin, sözün keçəcək, - deyə Zəhər Məmmədrza söhbətə qarışdı, - ay xozeyin, barı danışma. O əsgərlərin arasında bir nəfər də olsa varlı balası yoxdur. Hamısı fəhlə balaları, kəndli uşaqlarıdır, Bolşovoylar yerində deyirlər - fəhlə-kəndli əsgərləri...».

«Hə, Zəhər Məmmədrza yenə zəhərin atdı, - deyə xozeyin acıqla səsini ucaltdı, - bu gədə-güdələr yaman dil-ağız açıblar ha».

«Xozeyin, danışmağı da bizə çox görürsən? - Zəhər Məmmədrza soruşdu. - Hə. Ac-susuz dolanırıq, ürəyimizi boşaltmaq da bizə olmaz?..».

Cəfər kişi dilləndi: «O gün əsgərlikdə olan qardaşım oğlu evə gəlmişdi, güzəranları zülümdür, mahnı qoşublar:

Kazarmada idik, verildi azan,
Aldıq əlimizə, hərə bir qazan.
Şorbanı alıb, qayıdan zaman
Şorbadan çıxdı bir ölü siçan...

Gülüş qopdu. Zəhər Məmmədrza soruşdu: «Ağa Məlik xozeyin, buna sözün nədir? Nə deyirsən?».

«Haqq sözə nə deyə bilər? - dartayçı İbiş dilləndi, - odur ey, Gülzar qarının ərini, Şubanı mədənində işləyirdi, xozeyin Xudabaş diri-diri quyuya atdı, öldürdü. Gülzarın gözünün ağı-qarası bircə oğlu var, çak-çuk eləyib, külfəti dolandırırdı, tutub dövlətli oğlu əvəzinə əsgər apardılar. Əsgərlər, qoşun Gülzar qarınındır».

Ağa Məlik söhbəti uzatmayıb getdi. Bir az aşağıda, baqqal Məmməd Qulunun oğlu Dadaş dükanın üstünə bayraq sancırdı və astadan oxuyurdu:

Türküstan yelləri öpüb alnını,
Daha yüksəklərə ucal bayrağım...

Aprelin 5-də səhər tezdən, saat 7-dən paytaxtı bəzəyib qurtarmışdılar. Küçələrdə adam çox idi. Dükanların üstündə, böyründə, ala qapılara sancılmış üç rəngli - qırmızı, yaşıl və firuzəyi, aypara və səkkiz guşə ulduzlu bayraqları külək dalğalandırırdı. Kübarlar yaşayan məhəllələrdəki küçələrdə bayraqlardan əlavə, eyvanlardan xalılar, xalçalar sallanırdı. Başqa binalar da çox yaxşı bəzədilmişdi, çox yerdə xalı-xalça, cecim asılmışdı. Bir sözlə, əsgərlərin ötüb keçəcəyi bütün küçələrdə hər addımda bəzək diqqəti cəlb edirdi. Qırmızı və ağ parçalarda iri hərflərlə şüarlar yazılmışdı: «Yaşasın Azərbaycan!», «Yaşasın hürriyyət!», «Var olsun millət».

Saat 9-da küçələr məktəblilərlə doldu. Nəğmə sədaları eşidildi.

Stansiyadan başlamış, əsgərlərin keçəcəyi meydan və küçələrdə adam əlindən tərpənmək olmurdu.

Birdən, «Gəlirlər, qəhrəmanlar gəlirlər!» Sözləri ağızdan-ağıza keçdi. Musiqiçilər əsgəri təranələr çalmağa başladılar. «Yaşa! Var ol əsgər!» alqışları ucaldı. Əsgərlərin ilk sırası göründü. Çiyinlərdəki tüfənglərin süngüləri bərq vururdu. Yeknəsəq təpik səsləri ətrafa dolurdu. Öndə piyada, dalınca mitraliyoz və topçu hissələri, arxada isə süvarilər gəlirdi. Atların üstündəki qəhrəmanlar diqqəti daha çox cəlb edirdi. Nizələrindən asılmış xırda bayraqlar yellənirdi. Qədim Qafqaz adəti üzrə atlıları zurna-balaban çalanlar müşayiət edirdi.

Piyada əsgərlər səs-səsə verib hərbi şərqi oxuyurdular.

...Qoşun birdən dayanır. Generallardan biri uca səslə komanda verir. Zabitlər onun əmrini təkrar edirlər. Qoşun bütünlüklə hərəkətə gəlir.

Ordunu təbrikə gələnlər gömrükxana qarşısında yığılıblar. Parlaman üzvləri, Şeyxülislam, müfti, Bakı ünas «Cəmiyyəti-xeyriyyə» üzvləri, bələdiyyə idarə heyəti, Dağıstan, Gürcüstan və Lehstan heyətləri buradadır.

Bir azdan əyanlar və nazirlər gəlir. Bayraqları külək oynadır. Tez-tez «Yaşasın Azərbaycan!..» sözləri təkrar edilir.

İngiltərə qoşunları baş komandanı əlaltıları ilə at üstündə ordu qarşısından və bayraqların altından keçib, qoşunları salamlayır, «Xoş səfa» deyir, sonra da atdan düşüb, toplaşanların yanına gəlirlər.

Hərbi Nazir Səmədbəy Mehmandarov avtomobildə gəlir. Gurultulu alqışlarla və musiqi təranələrilə qarşılanır. Avtomobildən düşüb, əsgər sıralarının qarşısından keçərək «Mərhəba!» deyir. Əsgərlər: «Çox sağ ol!» cavab verirlər. Mehmandarov heyətlər yığılan yerə yaxınlaşır, sağ əlini öpüb gözləri üstünə qoyur.

Nitqlər söylənir, əsgərlər təbrik edilir. «Siz Azərbaycanın, müstəqil Vətənimizin paytaxtına xoş gəldiniz!».

Müfti və Şeyxülislam da əsgərlərə Qurandan ayələr deyib, Vətəni, xalqı müdafiəyə misallar gətirirlər.

«Hazır ol hərbə, əgər istərsən sülh-səlah!» sözləri eşidilir.

Əsgərləri qəbul edən general: «Bayraqçılar, irəli!» deyə komanda verir. Salam marşı çalınır. Onlar hərəkətə gəlib, hökumət binası (Azneft) qarşısından keçir. Sadovı (Çkalov) küçəsilə qalxırlar. Musiqi çalınır.

Camaat ordunun dalınca yeriyir.

Ordu parlaman binası (Əlyazmaları fondu) qarşısında gurultulu alqışlarla, təbriklərlə qarşılanır. Ətraf binaların eyvanlarından əsgərlərin üstünə güllər-çiçəklər səpələyirlər. Bu aradakı eyvanlar da bayraqlar və xalı-xalçalarla bəzənib. Lakin qonşuluqdakı yanıb, dağılmış, nəhəng skeletə oxşayan «İsmailiyyə» binasının xərabələri matəm təsiri buraxır, elə bil bina qara libasa bürünüb.

Rəsmi salamdan sonra ordu dəstələri bir-birinin dalınca Bazar (Hüsü Hacıyev) küçəsilə Salyan qışlalarına yollanır.

Damlar, küçələr adamlarla doludur. Xalq əsgərləri təbəssüm və məhəbbət dolu baxışlarla oxşayır, sevincindən ağlayır, bir-birini qucaqlayıb öpür, təbrik edir. «Yaşa ordu!» sədaları tez-tez təkrar edilir. Əsgərləri göz yaşı ilə yola sala-sala bəzi arvadlar dua oxuyur, xeyir səyləyirlər.

Çoxları əsgərləri yola salır, onlardan ayrılmaq istəmir.

* * *

Düz on beş gündən sonra hərbi nazirlik xüsusi, gizli məktub-təliqə ilə nazirlər sovetinə müraciət edir ki qoşun içində bolşevik təbliğat-təşviqatı gündən-günə artır və əsgərləri xüsusi özəklərə cəlb etməyə can-başla səy göstərilir. Həm də təəssüflə qeyd edilir ki, bolşevik azarı yayan təbliğat-təşviqatçılar müsəlmanlardır. Bunun da səbəbi məlumdur. Bakı şəhəri Zaqafqaziyada bolşevik fəaliyyətinin əsas mərkəzidir. Buna görə də polis idarəsinə xüsusi sərəncam verilsin ki, qarnizona ciddi nəzarət yetirsin. Bu və digər yollarla ordunu bolşevizm xəstəliyindən xilas etmək lazımdır.

May ayının 11-də hərbi nazirlik birbaşa daxili işlər nazirliyinə xəbər verir ki, «bolşeviklər, çox təəssüf ki, hamısı da müsəlmandır, müxtəlif bəhanə

və cürbəcür yollarla kazarmalara soxulub, əsgərlərə bolşevizm ideyasının məqsədini başa salmağa cəhd edirlər. Kazarmalara siyasi ədəbiyyat, intibahnamələr yol tapır. Zabit və əsgər paltarı geymiş bolşeviklər qoşun hissələri içərisində iş görürlər. Meyvə satanlar çap edilmiş intibahnamələrdən qovluq düzəldib, içinə meyvə doldurub əsgərlərə, kiçik zabitlərə, matroslara verirlər, açıq-açığına təbliğat aparıb cavanları yoldan çıxardırlar. Təcrübəsiz cavan əsgərlər də onların dediklərinə uyur və inanırlar.

Buna binaən kazarmalar ətrafında xüsusi polis növbətçiləri təyin edilsin».

Bütün bunlar təbii idi, çünki orduya səfərbər edilən fəqir-füqəra balalarına yerli-yersiz ağır cəza verilir, təhqir edilirdilər. Fərarilərin sayı get-gedə artırdı.

Dövlətlilər pul gücünə uşaqlarını orduya getməyə qoymurdular. Rüşvətxorluq həddini aşmışdı. Hərbi nazir hətta parlamanda xitabət kürsüsündən elan etmişdi ki, çoxları hərbi işdən həm rüşvətxorluq, həm də ərzaq, paltar, silah oğurlamaq, xəzinəni soymaq üçün istifadə etmək istəyirlər. Buna imkan daxilində yol verməyəcəyəm.

«Hümmət» bolşevik təşkilatı 1919-cü ilin yazından əsgərlər içərisində mütəşəkkil təbliğat işi aparır, pərbi təşkilat yaradır. Kommunist ideyasını təbliğ etmək üçün bütün şərait vardı. Bir yandan ağır həyat tərzi, digər tərəfdən heyvani rəftar. Bəy elə bəy idi. Rəiyyət isə kötəklənirdi. «Hümmət» hərbi təşkilatına Mirzə Davud Hüseynov, Əli Bayramov, Həbib Cəbiyev və başqaları daxil idi. Ordunun bütün hissələrində bolşevik partiya özəkləri yaradılmışdı. 1920-ci ilin fevral ayında çağırılmış Azərbaycan K(b)P-nin birinci qurultayında orduda təbliğat işi aparmaq siyasi şöbəyə həvalə olunur. Bu haqda Dadaş Bünyadzadə yazır ki, orduda olan xırda zabitləri partiyaya cəlb etməyə xüsusi fikir verilirdi. Təbliğat mövzusu əsasən imperializm əleyhinə mübarizə, Şərq xalqlarını əsarətdən xilas etmək, Ankara türklərinə Antantaya qarşı mübarizədə yardım göstərmək, milli-azadlıq mübarizəsini daha da genişləndirmək, Azərbaycan zəhmətkeşlərinin Sovet Rusiyası ilə dostluğunu möhkəmlətməklə silahlı üsyana hazırlaşmaq və s. ibarət idi.

Rusiya Kommunist (b) Partiyası Bakı Komitəsinin hərbi təşkilatı fəhlələri və donanmanı silahlandırmaqla məşğul idi. «Kars» və «Ərdəhan» hərb gəmilərində bolşevik partiya özəkləri vardı. Hərbi gəmilərdə, dənizçilər içərisində bolşeviklərin apardığı işə Çingiz İldırım, Yan Lukyanenko və başqaları rəhbərlik edirdi.

İngilislərin və Denikinçilərin özbaşınalıqları, yerli məmurların rüşvətxorluğu və satqınlığı da üsyana şərait yaradırdı.

Sovet Rusiyasında Qızıl Ordu tərəfindən məğlub edilmiş ağların Cənuba qaçmış zabit və əsgərləri şəhərdə köhnə çar hərbi libasında gəzirdilər. Azərbaycan ordusundakı zabitlər içərisində də köhnə çar zabitləri az deyildi.

Onlar əsgərlərin dilini - azərbaycanca bilmirdilər. Nahaq yerə əsgərləri kötəkləyirdilər, özləri də Denikinə rəğbət bəsləyir, həm də ona casusluq edirdilər. Ordunun bütün sirləri düşmənə məlum idi. Baş qərargahda general Jilyayev, 3-cü Gəncə polkunun rəis müavini polkovnik Qauzen və başqa zabitlər həm Denikinin, həm də ingilislərin casusları idi. Tez-tez tutulan casusları, hökuməti saya salmadan, ingilislər azad edir, burunlarını hər yerə soxurdular. İş o yerə çatır ki, ingilislərin ikiüzlü siyasətinə, özbaşınalığına qarşı hərbi nazir Mehmandarov protest edərək vaxtilə Birinci dünya müharibəsində təltif olunduğu ingilis ordenlərini geri qaytarır.

Sabiq hərbi nazir müavini Əliağa Şıxlinski maraqlı bir əhvalat yazır: «1920-ci ildə denikinçilər Azərbaycandan qaçanda gəmidən dənizə böyük bir qutu atırlar. Əsgərlər bu qutunu çıxardıb, nazirliyə gətirirlər. Qutu ağzına qədər casusluq materialları ilə dolu idi. Orduya aid xırda təfərrüata qədər məlumat vardı. Əsgəri hissələrin yerini dəyişməsi, zabitlərin siyahısı, ünvanları, ordu və hissələr üzrə bütün əmrlərin surəti... siyahıda elə adam vardı ki, həm ingilis, həm Denikin casusu, həm də cinayət polisi idarəsində görkəmli vəzifə sahibi idi».

Əsgərlərin halı həm fiziki, həm maddi, həm də mənəvi cəhətdən gündən-günə ağırlaşırdı.

Dekabr ayında «Azərbaycan füqərası» qəzeti məqaləni belə adlandırır: «Azəri əsgərlərinin halı». «Yeganə istinadgahımız əsgərlərdir. Onlar fəhlə-kəndli balalarıdır. Əllərində silah, çiyinlərində yük, Vətəni müdafiə edirlər. Çirkli kazarmalarda yaşayır, soyuq səngərlərdə yatırlar. Yeganə məqsəd zəhmətkeşlərin istiqlalını müdafiədir. Əsgərlər ac-yalavac, soyuqda və şaxtada güzəran keçirirlər.

Döyüşdə həlak olanları qəbiristanda elə əsgər paltarında basdırmaq istəyirdilər. Bundan həyəcana gələn camaat qəbiristana getdi və komandiri tələb etdilər.

Səbəb nədir ki, gündə neçə nəfər əsgər tələf olur.

Səbəb məlumdur - şaxta, qışlalar natəmiz, xəstəlik, paltarsızlıq. Komandirlər əcnəbi, ərzaq pis və köhnə.

Əsgərlər ayazda yatır, palçıq, yağış, qar içində durub bizi qoruyur. Hər şey onlara verilməli. Əsgərlərə ağ çərək və yaxşı ərzaq vermək lazımdır. Bayılda da çoxlu əsgər ölür. Əsgərlərin dərdinə dava tapmalıyıq. Ciddi çarə lazımdır».

***Dalğalanan çadralar.*** On doqquzuncu ilin mayında «Hümmət» təşkilatının təşəbbüsü ilə, Bakıda qadınların izdihamlı nümayişi olur. Belə bir nümayiş, belə qeyri-adi bir mənzərə şəhərdə heç vaxt görünməmişdi. Qabaqkı nümayişlər bundan tamamilə fərqlənirdi. Müsəlman arvadları sübh tezdən meydan və küçələrə çıxırlar. Başqa millətlərin qadınları da həmrəylik əlaməti olaraq onlara qoşulur. Mənzərəni görənlər, izdihamın vahiməsindən özlərini

itirir. Xəfif-xəfif əsən bahar mehi qadınların qara çadralarını dalğalandıra-dalğalandıra, sanki onları salamlayır, təbrik edir, dərdlərinə şərik olurdu.

Oktyabr inqilabından sonra doğmuş azadlıq günəşindən müsəlman arvadları hələ də məhrum idi. Halbuki Oktyabr inqilabı qadınlara hüquq vermişdi. Bugünkü izdihamlı çıxış iki il əvvəl ruhanilər qurultayında qaragüruhçuların azadlıq, sərbəstlik almaq istəyən arvadlara tutduqları divana, hörmətsizliyə qarşı intiqam sədası idi. Əsrlər boyu işığa, havaya, günəşə həsrət qalmış, uşaq böyütmək, mətbəx və evdə çapalamaqdan başqa heç nə görməyən, min bir məşəqqətə dözən, min bir cəza çəkən müsəlman arvadları dan söküləndən gecə yarıya qədər ayaq üstə, aclığa, susuzluğa, yorğunluğa dözənlər birinci dəfə idi ki, doğma küçə və meydanları sərbəst, azad dolaşırdılar.

Lakin qaragüruhçular yenə də baş qaldırdılar, axşamüstü qadınları bulvara girməyə qoymadılar, girəcəkləri əlisilahlı «qəhrəmanlar» tutdular. Hələ bu az imiş kimi qadınlara hücum etdilər. Polis nəfərləri də qaragüruhçulara havadar çıxdılar.

Hamı üçün taybatay açıq olan bulvarın darvazaları onların üzünə bağlandı. İlin 365 günündən bir neçə saat dəniz havası almağı, ləpələrin oynamasına tamaşa etməyi onlara qıymadılar. Dövlətlilərin arvadları gün uzunu bulvarda dincəlirdi.

Qadınlara qarşı bu cür münasibət şəhərdə əks-sədaya çevrildi.

***250 milyon pud neft.*** On doqquzuncu əsrin axırları və iyirminci əsrin ilk on ilində Bakıdan ildə yüz əlli milyon pud* neft ixrac edilirdi. Onun qırx milyon pudu sisternlərdə, əlli milyon pudu isə kəmərlə Batuma daşınırdı. Altmış milyon pud isə gəmi və tankerlərlə Rusiyaya, İrana və Türküstana göndərilirdi.

Birinci dünya müharibəsi dövründə nefti başqa yerlərə göndərmək çox çətinləşmişdi. Hasilatın çox azalmasına baxmayaraq yenə də iki yüz əlli milyon pud neft (beş milyon ton) anbarlarda və rezervuarlarda aşıb-daşırdı.

Şimali Qafqazda Denikinin ağ ordusu dəmir yolu ilə hərəkəti dayandırmışdı. Xəzərdə ağqvardiyaçı hərb gəmiləri ingilis ağalığı altında dənizi gecə-gündüz nəzarət altında saxlayırdı. Həştərxana nəinki tanker, gəmi, hətta barkazı belə buraxmırdı.

Türklərin ordusu Bakıda olanda, almanlar söz vermişdilər ki, Batumda olan nefti gəmilərlə Ukraynaya və sair yerlərə daşıyacaqlar. Hətta gəmi də hazırlamışdılar. Lakin vəziyyət dəyişdi, almanlar və türklər məğlub oldu. Amerika, Fransa və İngiltərənin neft daşıyan tankerləri və donanmaları Dardaneldən o tayda idi. Təmirə ehtiyacı olan Bakı - Batum neft kəmərilə çox

* Pud -16 kiloqramdır.

çətinliklə gündə 75.000 pud neft vurmaq olurdu ki, bu da ayda 2 milyon pud, ümumi miqdarın cüzi bir hissəsini təşkil edirdi.

Vaxtı ilə ingilislər də Bakıda olanda söz vermişdilər ki, nefti Ukraynaya göndərməyə kömək edəcəklər. Hətta bu məqsəd üçün gəmi və tanker də ayırmışdılar. Ukrayna ilə müqavilə də bağlanmışdı. Burada da vəziyyət dəyişdi.

Fransaya satılmış nefti Marsel şəhərinə çatdırmaq üçün onlarla hökumətə gömrük haqqı verilirdi ki, bu da malın qiymətini bahalaşdırırdı. Bir gündə görülə biləcək iş həftələrlə uzanırdı. Neft sindikatı yaratdılar. Nefti hamı oraya verməli idi. Xırda neft sahibkarları başqa yerə neft sata bilməzdi. Sindikat neft sahibkarlarının əlində artıq qazanc mənbəyinə dönmüşdü. Nə qədər ki, sindikat yox idi, neftin pudu 5 manata satılırdı. Elə ki, sindikat yaradıldı, neftin pudu qalxdı 10 manat 80 qəpiyə.

Rokfellerin «Standart oyl kompani» neft sindikatının Bakıdakı nümayəndəsi Tomas on iki milyon pud neft almağa müqavilə bağlamışdı. 7 ay ərzində hazırlanacaq altı milyon pud ağ neftin qiyməti müxtəlif aylarda müxtəlif - 33 dollardan 34 dollara qədər olacaqdı. Ağ neft gəmilərə yüklənəndən sonra pulu - Nyu-York, Roma, London və Paris valyutasıyla veriləcəkdi. Hər dəfə pulun 10 faizi girov saxlanacaq, müqaviləyə əməl olunmadıqda verilməyəcəkdi.

Baş nazir və xarici işlər naziri gəlib Tağıyevdən xahiş edir ki, icazə ver amerikalı qonaqları sizin mülkdə qəbul edək, şəhərdə sizin evinizdən münasib yer yoxdur. İki nəfər biz olacağıq, bir də qonaqlar. Hacı böyük qızı Sara və kürəkəni Zeynalbəylə qonaqları şərq salonunda qəbul edir. Məclisdə on nəfər adam iştirak edir.

Neftxuda Səlimxanovun arvadı ləl-cəvahirat içində üzürmüş.

Xəbər verəndə ki, şam yeməyi hazırdı, keçirlər nahar otağına.

Amerikalı qonaq yanında oturmuş Hacının sadə geyimli qızı Sara xanıma fransızca deyir ki, sizin Tağıyevin qızı necə də zəngin geyinib, əsl şərqli kimi, gözümlə görməsəydim, belə təmtəraqlı bəzəyi ağlıma cığışdıra bilməzdim. Sara gülümsəyib deyir ki, o qonaqdır, Tağıyevin qızı mənəm. Amerikalı təəccüblə soruşur: «Siz?!», «Bəli» deyə Sara təsdiq edir.

Neft mədənlərinin görkəmi son dərəcə acınacaqlı idi; daxmaların çoxunda pəncərədə şüşə yox idi. Xəstələr cındır, şəlpə üstündə çapalayırdı. Həkim yox, dava-dərman yox. Ağır xəstələri müalicəxanaya aparmağa araba da yox idi. Fəhlələr qızdırmalı yoldaşlarını dallarına alıb neçə kilometr uzaqda yerləşən azarxanaya aparırdılar. Dərman yox idi. Mədənlərdə su tapılmırdı. Addımbaşı neftlə dolu çalalardan, anbarlardan aşıb-daşan neft havanı daha da zəhərləyir, yanğın təhlükəsi törədirdi.

İyirminci ilin may ayından başlayaraq, rezervuar və anbarlardakı 250.000.000 pud xam neft və neft məhsullarını sistern və tankerlərlə Sovet Rusiyasına daşımağa başladılar. Təhlükə arxada qaldı.

İki yüz əlli milyon pud (beş milyon ton) neft və neft məhsulları 1920-ci il aprelin 29-dan iyunun ortalarına qədər, qırx gün ərzində dəniz və dəmir yolu ilə Rusiyaya göndərildi. Rusiyanın dağılıb bərbad olmuş sənayesi, nəqliyyatı və digər təsərrüfatını tədricən dirçəltməyə başladılar.

Bu miqdarda neft və onun məhsullarını belə gözlənilməz sürətlə daşımağı təşkil etdiyinə görə «Azneft»in rəisi Aleksandr Pavloviç Serebrovskini «Qırmızı döyüş bayrağı» ordeni ilə təltif etdilər.

***Xüsusi Dəniz ekspedisiyası.*** On dörd dövlətin dəmir və od mühasirəsində ölüm-dirim müharibəsi aparan və bütün məhrumiyyətlərə dözən Sovet Rusiyasına duru yanacaq hava kimi lazım idi. Bakı proletariatı belə ağır bir vaxtda Sovet Rusiyasına kömək əlini uzatmağı qərara aldı. Bakıda bolşeviklərin Xüsusi Dəniz ekspedisiyası yaradıldı.

İngilislər iri ticarət gəmilərini də səfərbər edib silahlandıraraq Xəzər sularında bolşeviklərə mane olmaq istəyirdilər.

Bakı körfəzinə lövbər atmış «Afrika» gözətçi gəmisi bütün ticarət və neft körpülərini nəzarət altında saxlamışdı.

Belə qorxulu və ağır bir şəraitdə bolşeviklərin Dəniz ekspedisiyası Həştərxana benzin və maşın yağı daşımağa başlamışdı.

Kapitan Dadaş Səlimov nəql edirdi ki, ekspedisiyanı hərbi donanmanın rəis müavini Çingiz İldırım, kapitan Əli Bayramov, Dövlətov və bekar dənizçiləri işə düzəldən Yan Lukyanenko idarə edirdilər. Əli Bayramovla çoxdan tanış idik, ikimiz də Bakı dənizçi məktəbini bitirmişdik, ikimiz də kasıb ailədən idik. Mən dülgər oğlu idim, atam gəmilərdə döşəmə təmir edirdi. Əlinin atası isə Lahıc misgərlərindən idi, çoxdan Bakıda yaşayırdılar.

Bir gün Əli Bayramov məni yanına çağırıb dedi ki, get Yan Lukyanenkonun yanına, səninlə işi var. Getdim. Onun işlədiyi idarə Qoşa qala qapısının yanındakı Haşımov (Gənclər) meydanında, ikimərtəbəli mülkdə idi. Yan dedi ki, get ticarət portunun rəisi Çingiz İldırıma ərizə ver ki, bolşeviklər motorlu qayığımı qaçırdıb aparıblar, indi Zirədə hökumət tapıb. Xahiş edirəm qaytarın. Qayığın sənədlərini də verdi mənə. Sən demə, qayığı köhnə tarixlə keçirdiblər mənim adıma. Çingiz İldırım əmr verdi, qayığı qaytardılar. Gəldim Yanın idarəsinə. O dedi ki, başqa bir motorlu qayıq da var. Hər ikisiylə Həştərxana benzin göndərməliyik. Əmələləri çıxardıb yerinə rus qoymuşuq. Al, bu on min manatı, get benzin al, vur qayıqlara. Qaraşəhərə gedib Şibayev körpüsündən benzin dolu bidonları alıb, yüklədik qayıqlara və kağız düzəldib Ənzəli adına yola saldım. Qayıqlar üçün bir neçə pasport olurdu; birini saxladım üzümdə, o biriləri qaldı kapitanda.

Qayıqlar Həştərxana getdi, mən sərnişin gəmisində yollandım Ənzəliyə, İrana. Sənədləri pul gücünə sahmana salıb qayıtdım geri. Elə ki, qayıqlar Həştərxandan döndü, İran möhürü vurulmuş sənədləri aparıb göstərdim Bakı gömrükxanasına.

Ağqvardiyaçıların və ingilislərin mühafizə gəmiləri, qayıqları Bakı – Mahaçqala - Həştərxan yollarına nəzarət edirdilər.

Ekspedisiya gəmilərində maşın yağı və benzin daşıyan başqa bir kapitan söhbət edirdi ki, on doqquzuncu ildə Kirovun tapşırığı ilə məni Həştərxandan Bakıya yolladılar. Aprelin birinci günlərində Pirallahı adasına gəldim. Ağzı lehimlənmiş qutularda çoxlu Nikolay pulu gətirmişdik. Rusiyanın banklarında qalmış, qiymətini itirib, xərclənməyən bu pullar Bakıda işə gedirdi. Məmurlara rüşvət verib iş aşırırdıq mal alırdıq. Gətirdiyim pulları Zirə kəndinin yaxınlığında gizlətdik, sonra da ekspedisiyaya təhvil verdik. Təzədən benzin, bir də maşın yağı alıb gəmiyə vurduq. Gəmi yelkənli idi, motoru da vardı. Axşamüstü yola düşdük. «Afrika» gözətçi gəmisi sənədlərə baxıb, bizi ləngitmədi. Çox çəkmədi, xəzri başladı. Gedib Zənbil (Bulla) adasına çıxdıq. Ərzaq və su götürmüşdük; quru şeylər idi. Ocaq qalayıb xörək bişirmək olmazdı. Benzin bir qığılcımdan alışa bilərdi. İkinci gün xəzri gilavarla əvəz oldu, yelkənləri açıb dənizə çıxdıq. Şərq sahilinə səmt götürdük. Külək birdən dəyişdi, təzədən xəzri başladı. Yelkənlər şişib, qayıq öz-özünə cənuba üzürdü. Ha əlləşdik bir şey çıxmadı, bizi gətirdi Xorbaşına. Bu arada vətəgə çoxdu. Girdik körfəzə. Durbinlə baxanda sahildə kazakların gəzişdiyini gördük. Əyinlərində hərbi libas, böyürlərində şaşka, tapança... pis yerdə axşamlamışdıq.

Çəlləklərdən şirin suyu boşaltdıq. Çox keçmədi kazaklar iki qayıqda bizə yaxınlaşdılar, gəmiyə qalxdılar. Başladılar axtarışa. Əvvəl qayığı, sonra da adamları yoxladılar. Sənədləri götürüb, məni apardılar qırağa.

Binanın qabağındakı meydanda dar ağacından iki cənazə asılmışdı. Külək əsdikcə yellənirdilər. Bir nəfəri boğazından, o birisini ayaqlarından asmışdılar. Boğazından asılan ölmüşdü, o birisi zəif-zəif xırıldayırdı. Birdən qapının ağzında ağzı bağlı, kəndirlə dörd çarpaz sarınmış çuvalın tərpəndiyini gördüm, zarıltı səsi eşidilirdi.

Birtəhər özümü ələ aldım. Otağa girdik. Sənədləri təzədən diqqətlə yoxladılar, bir zabit başladı sorğu-suala: «Hara gedirsiz?» «Kimsiz!», «Daşıdığınız mal kiminkidir? Mal sahibi nə çarədir?». Cavab verib dedim ki, hamısı sənədlərdə yazılıb. «Bolşeviksiz?», «Yox a! Nə danışırsız?», «Sizi külək gətirdi bura?», «Yox, dənizdə külək bizi çox hərlətmişdi, içməli su qurtarmışdı. Dənizdə balıqçılara rast gəldik. Onlardan xəbər aldıq ki, Xorbaşında kim var. Dedilər özümüzünkülərdir. Bolşevikləri qovublar. Kazaklar qayda-qanun düzəldiblər. Ürəkləndik. Gəldik ki, su götürək...»

«Bolşevik olan yerdə rahatlıq olmaz. Ölüləri dz xatalıdır» deyə zabit keçdi o biri otağa, telefonla Lənkərana xəbər verdi ki, yelkənli gəmi tutmuşuq,

benzin dolu bidonlar yüklənib. Guya Ənzəliyə gedirlər. Nə edək?». Bir azdan zabit qayıdıb xəbər verdi ki, sizi buraxırıq... Razılıq etdim: «Cənab zabit, sağ ol... Qurudan təzəcə yel əsir, icazə verin körfəzdən dənizə çıxalar. Mən burdayam... Kapitansız heç yerə gedə bilməzlər, sənədlər də sizdədir».

Zabit razılaşdı. Uşaqlara tez him elədim. Gəmi körfəzdən təzəcə dənizə çıxmışdı ki, başqa bir zabit otaqdan yüyürüb qışqırdı: «Yelkənli gəmini saxlayın! Lənkərandan əmr var ki, buraxmayın onları!».

Bir soldat sahilə qaçıb yoldaşlarıma qışqırdı: «Getməyin! Gözləyin!».

Zabit girdi otağa. Gördüm iş şuluqlaşır. Gəmidəkilər də məni dənizçi işarəsilə tələsdirirdilər. Şapkamı qaldırıb, işarə ilə başa saldım ki, azca gözləyin. Dönüb soruşdum: «Cənab soldat, burda su başına harda çıxmaq olar? Rahatxana hardadır?».

Soldat əlilə kolluğu göstərdi: «Odur ey, get ora».

Kolluğa girib, sürünə-sürünə özümü verdim dəniz qırağına, birtəhər ordakı xırda qayıqlardan birinə qalxdım, avarları tapıb üz tutdum dənizə. Qorxudan adamın gücü necə də birə min artarmış. Birtəhər özümü yelkənli gəmiyə çatdırdım. Düşdük yola...

Kazaklar qışqırıq sala-sala tüfəngi qapıb, tutdular bizi gülləyə. Gec idi. Güllə mənzilindən uzaqlaşmışdıq. Kapitan iri əlini saçlarına çəkib dərindən ah çəkdi: «Saçlarım onda ağardı. Üç saata. Peçin altında başqa sənəd vardı. Ehtiyat üçün həmişə bir neçə sənəd götürürdük. Başladıq sağ tərəfdə dəniz qırağı ilə üzü yuxarı üzməyə. Gilavar bərkiyirdi. Dedim ki, uşaqlar, bu külək bizi Həştərxana qədər qovacaq. Təkbəndin altını bərkidin. İri yelkəni endirdik ki, qayıq batmasın. Külək anbaan güclənirdi. Dəniz də şahə qalxırdı. Tamam su içində idik. Alt paltarımız da islanmışdı. Göz-gözü görmürdü. Fırtına yelkənini qaldırmışdıq, balacaydı deyə gəmini qoymurdu ləngər vursun. Yel gəmimizi elə qovurdu ki, güllə atsaydılar çatmazdı. Yeddinci gün külək sakitləşdi, gördüm su dayazlaşır, dəryanın dibi görünür. Lot atdım, sarı gil gəldi. Sükanı köməkçimə tapşırıb, özüm gedib yatdım. Ayılanda gördüm gəmi əyilib, böyrü üstə üzür. Keçdim sükanın dalına, birtəhər gəmini qaydada oturtdum. Lövbər atdım. Yelkənləri endirdik. Taqətdən düşmüşdük. Hamımız uzanıb yatdıq. Sabahı gün ayılanda gördük ki, sahildə bir neçə nəfər balıqçı dayanıb təəccüblə, qorxu ilə bizə baxırlar. Birtəhər, əl-qol işarəsilə, tütün, papiros, konserv göstərib yaxına çağırdıq. Haqlarını verdik, bizi yedəyə götürüb, kanala qədər sürüdülər. Ordan o yana hərbi limandan kater gəlib bizi apardı. Həştərxanda bizi sevinclə qarşıladılar.

Gətirdiyimiz benzindən təyyarələrə töküb sabahı gün başladılar ağqvardiyaçı və ingilis gəmilərini bombardman etməyə.

Bir həftə sonra gəmimizə çoxlu pul, silah və siyasi ədəbiyyat yükləyib yenidən Bakıya yola saldılar.

1919-cu ilin aprel ayında Dəniz ekspedisiyası Bünyad Sərdarovun başçılıq etdiyi dəstəni Bakıya gətirirdi. Mindikləri adi balıqçı qayığında, döşəmənin altında siyasi ədəbiyyat və pul gizlətmişdilər. Yolda ingilis və ağqvardiyaçılar qayığı yaxalayıb, içində olanların hamısını güllələmişdilər.

Qocaman kapitan Əlibala Rəcəbov nəql edirdi ki, 1919-cu ilin ortalarında İrandan Bakıya yük gətirirdim. Dəniz sakit idi. Uzaqda üç böyük gəmi göründü. Bizdən xeyli aralı bir yelkənli qayıq üzürdü. Çox keçmədi hərbiləşdirilmiş «Emanuel Nobel», «Elmar Nobel» bir də «Arşak» gəmilərini tanıdım. Göyərtələrindəki topların lüləsini qabağa tuşlamışdılar, bərk üzürdülər. Müavinim təəssüflə dedi; «Yelkənli qayığın qovaraqını götürüblər». Dedim: «Ola bilər». Müavinim əlavə etdi: «Bu gəmilər gecə-gündüz dənizi ələk-vələk edib bolşevik axtarırlar. Həştərxandan qayıdanları, ya da ora gedən adamları tutub öldürürlər...».

«Emanuel Nobel» xəbərdarlıq fiti verdi. Yelkənli qayığa üç səmtdən yaxınlaşırdılar. Biz də baxırdıq, görək iş nə ilə qurtaracaq. Hərb gəmiləri dənizçi «dililə», bayraqlarla, qayıqda olanlara «dayan» işarəsi verirdilər. Oradakılar isə veclərinə almırdılar. Hərb gəmiləri lap yaxınlaşıb, dənizə bir neçə qayıq saldılar, kəndir trapla hərbi matroslar qayıqlara düşüb, üz tutdular yelkənli qayığa tərəf. Elə ki, lap yaxınlaşdılar, birdən yelkənli qayıq başladı alışıb yanmağa və onu təqib edən qayıqlara hücum etdi. Hərbi matroslar dəhşətə gəldilər, üz tutdular qaçmağa. Yelkənli qayıq isə əl çəkmir, yana-yana sürətlə əvvəl bir qayığa, sonra da dönüb o birisinə özünü zərblə çırpdı.

Bu zaman hədəf müvazinətini itirib içindəki matroslar dənizə düşdülər. Qayıq alışdı, yelkənli qayığı isə alov bürüdü.

Sükançı Pojarov da dörd dəfə Həştərxana benzin alardıqlarını nəql edirdi: «Onlardan iki dəfəsini Roqovla bərabər aparmışdıq. Ekspedisiyada ən cəsur dənizçi Nikifor Roqov idi. Heç nəyinən hesablaşmazdı, özünü oda, suya vurardı. Qaranlıq, tufanlı, şaxtalı qış gecələrində, şiddətli xəzri əsəndə dənizə çıxardı. Bir addımlıqda göz-gözü görməyəndə, ləpələr şahə qalxanda qayığı qoşardı.

Reyddə ingilislərin hərbi gözətçi gəmiləri iz axtaran it kimi körfəzə gələn, limandan çıxmaq istəyən qayıq və barkazları axtarırdılar. Projektorlar ətrafa gur işıq zolaqları saçırdı. Hər an qayığı seçə bilərdilər.

Roqov isə öz işində idi, düşmənləri saymaz, tapşırığı canla-başla yerinə yetirərdi. İki dəfə Roqovun dəstəsilə Həştərxana yollanmışdım. Göy buludsuz olanda yolu, səmti ulduzlarla təyin edirdik, tapşırığı yerinə yetirirdik. Elə ki, biz çatırdıq, Sovet təyyarəçiləri benzin alıb başlayırdılar ağları, ingilisləri dənizdə və quruda bombalamağa. O gün olmurdu ki, düşmənin hərb gəmilərini, ticarət gəmilərini bombalamasınlar. Köpək uşaqları nəzarəti daha da artırdılar. Həştərxana neft, benzin və maşın yağı buraxmamaq üçün bir neçə əlavə ticarət gəmisini təzədən səfərbər edib silahlandırdılar. Roqov Həştərxana

doqquzuncu dəfə səfər edəndə ingilis hərb gəmiləri onları araya alıb tutmaq istəyirlər. Görəndə ki, xilas olmağa, aradan çıxmağa ümid yoxdur, benzin dolu gəmiyə od vurur. Özləri də yanır.

Bir dəfə də tapşırıq verdilər ki, «Ediçka» barkazı ilə Krasnovodskiyə üç nəfər adam aparmalısız. Hazırlaşın. «Ediçka» Nobel qardaşlarınınkı idi. Bibiheybətdən neft barjlarını yedəkdə Qaraşəhərə aparırdı. Altıncı körpüyə yan almışdıq, indiki «Azneft»in qabağında. Mən sükançı idim. Familim Pojarov olsa da sənədlərimdə Mironov yazılmışdı. Körpüdə kapitan müavini ilə hərlənib, məqam gözləyirdik. Aparacağımız üç nəfər də qıraqda himə bənd idilər. Bir əsgər də əlində tüfəng, növbədə dayanmışdı.

Naqan cibimdə, axşam saat on birdə keçdim barkaza, yaxınlaşıb qapını taqqıldadıb, girdim kapitanın kayutuna: «Cənab kapitan, olarmı?» dedim. Ucaboy, arıq adam idi. Uzandığı divandan tərpənməyib dedi: «Olar. Nə istəyirsən?!». «Cənab kapitan, - dedim, - tapşırıq veriblər ki, «Ediçka»nı Krasnovodskiyə aparaq». O təəccüblə soruşdu: «Nə? Necə yəni barkazı Krasnovodskiyə aparaq, - səsindən hiss etdim ki, mətləbi başa düşməyib, dikəldi. - Özüm gedib, bu saat danışaram ki, bu, mümkün olan iş deyil. Barkazda Krasnovodskiyə getmək mümkünmü?! Başları xarab olub...»

Naqanı çıxardıb ona tuşladım: «Yerindən tərpənsən özünü ölmüş bil, - dedim, - güllələrin hamısını çaxacağam başına!».

Kapitan özünü itirdi, tərpənmədi. Kapitan müavini içəri girdi, kəndir ilməyi saldı onun boynuna. Uzatdıq divana. Tərpənsəydi boğacaqdıq. Elə bu vaxt qulluqçu qız içəri girdi, əlimdə naqanı, kapitanın boynunda kəndir ilməyi, yan tərəfdə kapitan müavinini görəndə qorxusundan «ah!» deyib huşunu itirdi. Onu da götürüb kalitanın yanında uzatdıq.

Körpüyə qayıdıb əsgərə yaxınlaşdıq, tapançanı üstünə çəkəndə dedi: «Onu qoy cibinə. Butkanın yanında gözləyirlər, get, onları gətir». Sən deməginən əsgər də bizim adam imiş. Budkanın yanında gözləyənləri gətirib yerbəyer elədik.

Bir azdan yola düşdük. Üç nəfəri Moskvaya göndərirdilər. Krasnovodskidən Aşqaba, oradan Daşkəndə, sonra da Moskvaya yollanacaqdılar.

Jiloy adasına çatanda, endim kayuta, dedim: «Cənab kapitan, dur gedək yerinə, barkazı idarə elə, bizi «Kuli» mayakına çatdır!». O, burnu altında mızıldadı: «Mironov, nə danışırsan?! Dənizi barkazla aşmaq olar?! Dəlisiz, nəsiz?! Batarıq. Yaxşısı budur, gəlin qayıdaq dala. Bakıya. Mən heç kəsə heç nə demərəm».

«Dala qayıtmaq barədə söz ola bilməz» deyə mən təkid etdim, - «dur gedək, kapitan körpüsünə!». O, naçar qalıb durub düşdü qabağıma. Sükanı mən idarə edirdim.

İyirmi bir saata gedib çatdıq «Kuli» mayakına. Gecə idi. İşıqları keçirdik. Girdik körfəzə. Mayakın yanında iki düşmən gəmisi dayanmışdı. O həndəvərə getmək olmazdı. Vadar olub yolumuzu saldıq Bıkoviç körfəzinə. Səhər tezdən çatdıq Krasnovodskiyə.

«Ediçka»nı təmir edib qurtaranda patron dolu qutuları, çoxlu tüfəng, bomba yükləyib bizi geri yole saldılar və dedilər ki, birbaşa hərbi limana gedərsiz. Bakıya çatanda gördük ki, Çingiz İldırım bizi hərbi limanda gözləyir.

Bir dəfə yoldaşlarımızdan biri - Süleyman oğlu Baba Həştərxandan güclü pul gətirəndə ingilislər hiss edirlər. Baba görür ki, vəziyyət xarabdır, ələ keçsə güllələyəcəklər, özünü itirmir, qayığı sürür birbaşa hərbi limana. Körpüyə qalxanda əli silahlı jandarm zabiti qabağını kəsir. Baba nə olar-olar deyib qoltuq cibindən çıxartdığı pul bükümünü uzadır zabitə: «Tez ol, - deyir, - əsgərlərdən çağır, dəmir qutuları daşıtdır küçəyə!». Pul bükümünü görəndə, zabitin gözləri çıxır kəlləsinə, yəqin ki, ömründə o qədər pul görməyibmiş. Tez iki əsgər səsləyir, əmr edir ki, bağlı dəmir qutuları körpüdən küçəyə daşısınlar. Baba əsgərlərə də xərclik verir. Zabit cəld fayton saxlayıb, qutuları yüklədir. Babanı oturdur, özü də əlində silah ayaq qoyan dayanacaqda durub, şəhərə yollanır və Babanı aradan çıxardır.

Səhəri gün Süleyman oğlunu tutub gətirirlər əks-kəşfiyyat idarəsinə. Onu orada on gün saxlamışdılar. Soruşurlarmış: «Həştərxandan nə gətirmisən?» «İntibahnamələr hardadır?», «Pullar hardadır?», «Nə qədərdir?». Baba inkar edir, deyir ki, mən Bakıdan çıxmamışam. «Pul nədir?», «Həştərxan nədir?..». Qonşusu qoca rus arvadını çağırıb tuturlar sorğu-suala. Qoca arvad deyir ki, həzrət İsanın ruhuna and olsun, bu yazığı həmişə evdə görmüşəm.

O zaman Mirfəttah Musəvi «əkskəşfiyyat»da rəis müavini idi. O işi birtəhər ört-basdır etdirir. Babanı buraxırlar.

***Meyxanada qətl.*** Professor Hadı Əliyevdən bir dəfə bolşevik qardaşı Haşımın faciəsi barədə soruşdum. O kədərləndi: «Haşım məndən bir neçə yaş böyük idi. 1892-ci ildə doğulmuşdu. Realnı məktəbdə oxuyurdu, xəstələndiyindən 7-ci sinifdən çıxası oldu. Dövlətli uşaqlarına dərs deyib, pul qazanırdı.

Bizim təlim-tərbiyəmizə İbad dayım baxırdı. Maddi kömək edirdi. Dayım Orconikidze ilə dost idi. Haşım 1915-ci ildə bolşeviklər partiyasına daxil olmuşdu. Caparidze ilə də dost idi. Tez-tez evimizə gələrdi. Soltan Məcid Əfəndiyev də, Tağı Şahbazi də... Haşım dilmanclıq edib Caparidzenin müsəlmanların yığıncağında dediyi nitqləri azərbaycanca camaata başa salırdı. 1918-ci ildə Nərimanovla Narginə, əsirlərin vəziyyətini yoxlamağa o da getmişdi. Komissiyanın üzvü idi».

«Böyük tətil olanda Haşım komitənin sədr müavini idi. Başına köhnə panama qoymuşdu ki, tanımasınlar. Evə gəlmir, Maştağaya gedirdi, orada qalırdı. Fəhlə konfransında Qoqoberidze sədr, Haşım müavin idi.

Firqə tərəfindən Tağıyev fabrikasına təhkim olunmuşdu. Partiyanın pullarını ona etibar etmişdilər.

O da gətirib verirdi anama ki, saxlasın. Anam da gizlədirdi».

«Hacıbəy Seyidbəyov Haşımı və Mirfəttah Musəvini 1919-cu il, sentyabrın 5-də «Новы Свет» restoranında öldürmüşdü. Seyidbəyov dəmir yolu teleqrafxanasının rəisi idi. Qubernatora qohumluğu çatırdı, özü mühəndis idi. Mirfəttah Musəvi əksinqilabla mübarizə idarəsində rəis müavini işləyirdi. Vağzalda kommunist yoldaşlarını Tiflisə yola salıb gedirlər limana. Oradan Həştərxana benzin aparacaq barkazı yola salandan sonra üçlükdə «Новы Свет» restoranına gəlirlər. Qonşu stolda Seyidbəyov bir qadın və bir kişi ilə şam edib, şərab içirlərmiş».

«Aralarında mübahisə düşür. Seyidbəyov tapançanı çıxardıb onlara atəş açır. Haşımla Mirfəttahı öldürür. Qoqoberidze qarnından yaralanır. Dəfn mərasimi sentyabrın 7-də Qurban bayramı günü oldu. Küçə-bazarı qurban kababının iyi bürümüşdü. Üstünə qırmızı parça salınmış qoşa mafəni əllərdə aparırdılar. İki cavanın şəkillərinin çərçivələrinə qara parça sarınmışdı. Mədən və zavodlardan yüzlərlə fəhlə və işçi gəlmişdi. Mitinqdə danışanlar saniyə ağır cəza tələb etdilər. Mafələri parlaman binası qabağında saxladılar. Əliheydər Qarayev eyvanda olan müsavat nazirlərinə əlini uzadıb, qışqırdı: «Bu qurbanlar sizə baha tamam olacaq».

Dörd ay sonra Hacıbəy Seyidbəyovdan əlli min manat girov alıb, məhkəməyə qədər zaminə buraxdılar. Bu məsələ camaatın bərk narazılığına səbəb oldu. Parlamanda qatilin həbsdən nə üçün buraxıldığı barədə sorğu verildi. «Hümmət» təşkilatından parlaman üzvü tribunadan dedi: «Əksinqilab Dağıstanı işğal etdikdə, necə həyəcanlı günlər keçirdiyimizi yaxşı bilirsiz. Bilirsiniz ki, o vaxt qara qüvvələrlə mübarizə nə qədər çətin və qorxulu idi. Bu yolda çalışan gərək öz çanından keçəydi. Biz qorxmadıq, bunu bilirdik. Hökumətə köməkdən qaçmadıq, ən çalışqan yoldaşlarımızı əksinqilabla mübarizəyə səfərbər etdik. Mirfəttah Musəvi və Haşım Əliyev yoldaşlarımız bu işdə çoxlu düşmən qazandılar. Axırda onları qətl etdilər. Biz gözlədik ki, hökumət canini, qatili cəzalandırar. Qəzetlərə yazmağa qoymadılar, mitinq keçirməyə qoymadılar. Hökumət söz verdi ki, qatili cəzalandıracaq. İndi isə pul alıb, onu buraxıblar. Ağ terrora qırmızı terrorla cavab verə bilərik. - Böyük həyəcanla, - heç insafdır ki, iki gənc yoldaşımız öldürülsün, biri də yaralansın, özü də dörd aydan sonra cani həbsdən çıxsın. Şəhərdə gözümüzün qabağında gəzsin. Qan satılır. Biz bilmək istəyirik ki, hökumət bu xüsusda nə deyir? Biz bu tribunadan açıq deyirik ki, hərgah hökumətdən cavab çıxmazsa, bizi qane etməzlərsə, ağ terrorun qabağına qırmızı terror çıxardacayıq».

Parlaman sədri sorğuya cavab vermir, bahalıq və başqa məsələlərin müzakirəsinə keçir.

Qatil İrana qaçır.

***İngilislər Bakını tərk edirlər.*** Hadisələr bir-birini sürətlə əvəz edirdi. Heç kəs sabahkı günün necə qurtaracağını bilmirdi. Hamı intizarda, nə isə gözləyirdi. Hərə bir mülahizə yürüdürdü. On doqquzuncu ilin axırına yaxın ingilis qoşunları Bakıdan Tiflisə yola düşürdü. Zabitlər burada «evləndikləri» xanımları üçün qatarın arxasında xüsusi vaqon qoşdurmuşdular. Xanımların çoxu erməni dövlətlilərinin qızları idi. Əşyalarını - çamadan, boxça-torbalarını yerbəyer edib, yola düşməyə müntəzir idilər. Xanım-xatın gözəllər İngiltərədə necə yaşayacaqları barədə fikirləşirdilər.

Zabitlər qabaq tərəfdəki, komanda heyəti olan vaqonda idilər. Onlar söhbət edir, danışıb-gülürdülər. Belə zəngin, rəngarəng şəhərdən ayrılmağa təəssüf edirdilər.

Parovoz uzun, sürəkli fit çalır, astadan hərəkətə gəlib vaqonları arxasınca sürükləməyə başlayır. Xanımlar üçün qoşulmuş «xüsusi» vaqon isə tərpənməyib yerindəcə qalır. Xanımlar bunu gördükdə dəhşətə gəlir və başa düşürlər ki, burda da ingilislər hiylə işlədib, onları aldadıblar. İngilis zabitləri isə pəncərələrdən baxıb, istehza ilə gülə-gülə əlləri ilə xanımlara vida salamı yollayırdılar.

İngilis qoşunları Bakıdan tamamilə çıxıb gedəndən sonra fəhlə Bığlı Həsənəli bədiyə yazmışdı; fəhlələr ingilispərəstlərə sataşıb vedrənin altına döyəcləyib oxuyurdular:

Başlagınan nağaranı çalmağa,
Sözlərimi ta yadıma salmağa.
O, gəlmişdi Qafqazyada qalmağa,
Qalaydı mehman, hara çıxdı getdi?

Gül-çuvalın yığışdırıb bağladı,
Qonşumuzun ürəyini dağladı,
Onlar getdi, «arvadları» ağladı,
O mahi-taban hara qaçdı getdi?

Gələn kimi quyruğuvu buladın,
Sevincindən lap it kimi uladın.
Qarına-fətir* qatırların suladın,
Dərdüvə dərman hara çıxdı getdi?

Qoy getsinlər, daşlarını sən də at!
Min altı yüz biz almışıq qatır, at,

---

* Bir qarın çörəyə, pulsuz maaşsız işləyənlərə deyirdilər

Onlar getdi, dul qaldı çoxlu arvad,
Ol can alan, can hara çıxdı getdi?

Qonaq, qonaq, buydu sənin qonağın?!
İndi söylə kimə gəlir gümanın?
Sən allahın, sən məzhəbin, sən dinin,
Şapkası fincan hara çıxdı getdi?

Dilləri pis, danışırlar qart kimi,
Söz deyəndə, qalırdılar mat kimi.
Çoxlarının tumanı arvad kimi,
Bığın qırxdıran, hara çıxdı getdi?

Kəndlərdə yaxşı kənddür Bülbülə
Yalanı doldurmuşdulər zənbilə,
O Batuma, sən də ki, cəhənnəmə,
Podrati İran hara çıxdı getdi?

Gəlmiş idi, əsir edə bizləri,
Xırda-xuruş idi bütün sözləri.
Belə deyir əcnəbilər özləri,
Bir dəstə «reyhan» hara çıxdı, getdi?

O gündən ki, başladılar gəlməyə,
Cəhd etdilər hər bir işi bilməyə.
Neft aldılar, pulları yox verməyə,
Qatır satanlar hara çıxdı getdi?

Pencəkləri oxşayırdı lap dona,
Çətin işdir, yarı yoldan dönə,
Bir nəfəsə getdilər düz Londona,
Aləmə «Soltan» hara çıxdı getdi?

Bildir bu vaxt ürəyimi dağlardın,
Vedrə açıb, jalonkaya bağlardın.
O qaçanda, sən vağzalda ağlardın,
Söylə, o qağan hara çıxdı getdi?

Fikr eləmə, pencəyi satdırarsan,
Şapkanı da çevirtdirib qoyarsan.
Olmasa, verdirib boyatdırarsan,

O naxələflər hara çıxdı getdi?

* * *

Qocaman müəllim Ağabəy İsrafilbəyli deyirdi ki, «Şirvanşahlar» sarayını müəllimlər ittifaqına vermişdilər və mənə tapşırmışdılar ki, get bax, layihə tərtib elə, eyni zamanda tarixi əhəmiyyəti olan qala divarlarını, məscid, hamam, mədrəsə və yaşayış binalarını siyahıya alın. Sonra hamısı üçün bərpa planı duzəldəcəkdik. Əsas məqsəd xalqın keçmişini, mənəvi varlığını gələcək nəsillərə çatdırmaq idi.

Rəssam Yakov İosifoviç Çelxis İçərişəhər haqda deyirdi: «Baxın, yaxşı-yaxşı baxın! Bu darısqal küçələr, bu daxmalar, bu kəlləbənd, qapı, pəncərələr, şəbəkə və hətta navalçaların hər biri millətinizin tarixidir. Bu iyirmidən çox məscid-mədrəsə xalqınızda elmə, mədəniyyətə, incəsənətə, inkişafa olan həvəs və əzmi göstərir. On beş hamam, bir neçə ovdan çoxlu su quyuları bu xalqın paklığa, təmizliyə, suya aşiq olduğunu nümayiş etdirir, - gedə-gedə əlləri ilə ətrafı göstərib davam edirdi. - «Bu qala divarları, darvazalar, məhəccərlər böyük mədəniyyət nümunəsidir... «Şirvanşahlar sarayı», «Qız qalası», bürclər tükənməz milli sərvətdir».

Saraya çatanda rəssam darvazanı oxşayırmış kimi nəqşlərə toxunaraq əlavə etdi: «Xahiş edirəm, bu qapılardakı geometrik nəqşlərə diqqət yetirin... O minarə və o qübbə sənətkarı özünə tərəf çəkir. Bu kompleks memarlıq incisidir. Adam diz çöküb, səcdə etmək istəyir. Divanxana nə qədər yığcam, lakonikdir... Otaqlar... Salonlar... Həyət-baca».

Rəssam danışdıqca mən fikirləşirdim ki, vaxtı ilə buralar neçə bərq vururmuş... Nə təntənə, nə dəb-dəbələr varmış... Ey gidi dünya! İngilislər on səkkizinci ilin yayında Bakıya gələndə ilk növbədə Şirvanşahlar sarayında olan qiymətli sənət əsərlərini gəmilərə yükləyib, Ənzəliyə apardılar. Tarixi ziqiymət əsərlər... Bina qaldı başlı-başına... İndi də xarabazara dönməkdədir... Ah çəkdim, ağlamaqdan özümü zorla saxlayırdım. Üfunətdən baş gicəllənir, ürək bulanırdı.

Rəssam üzüntülü bir səslə şikayətləndi: «Sizin müsəlman ziyalıları, varlıları nə qədər kəmetina, nə qədər ruhən yorğundurlar. Heç güman etmək olmaz, inanmaq olmaz ki, belə sənət incisini yaradanların, belə laqeyd xələfləri var. Bu qiymətli incini bərpa etmək üçün neçə ildir qapı qalmayıb ki, açmayam, yer qalmayıb ki, getməyəm. Minlərlə adamdan xahiş etmişəm, yalvarmışam ki, qoymayın. Qoşa qala qapısı yanındakı Bakı xanının sarayı kimi Şirvanşahlar sarayı da yerlə yeksan olsun, itsin. Boş sözdən, uzun, mənasız danışıqdan savayı heç bir kömək görməmişəm. Mən rəssamam, həm də nəqqaşam, gözəl bir abidənin göz qabağında xərabə qalmağı gözlərimi ağrıdır, məni kor edir. Sarayda olan zibilləri daşıyıb, otaqları, həyət-bacanı təmizləyib, qaydaya salmaq lazımdır. Buranı muzeyə çevirmək olar, həyətdə

ağac, gül əkilər... Cavanlardan bir neçə nəfərə dərs verib, incəsənəti öyrətmək olar. Onlar da gəlib-gedənləri başa salar, millətin keçmişini öyrənər. Dərnək düzəldib uşaqlara rəsm çəkmək, heykəl düzəltmək təlim etmək vacibdir, müasir mədəni insanlar yaranar... İlk növbədə bu kompleksi bərpa edin, sonra yüzlərlə digər abidələri də...»

***Darülfünun açılması.*** Vaxtilə Zaqafqaziyada bir ali məktəb açmaq barədə Peterburqa, imperiya maarif nazirliyinə dəfələrlə müraciət etmişdilər, təəssüf ki, bütün cəhdlər boşa çıxmış, zəhmətlər hədər getmiş, heç bir nəticə hasil olmamışdı.

Birinci dünya müharibəsinin axırlarında Zaqafqaziya seymi bir ali məktəb açmaq istədi, amma təşəbbüs nəticəsiz qaldı, sözdən işə keçmədi. Məsələ döndü balıq, xərçəng və ördək əhvalatına. Gürcülər universitet üçün Tiflisi, ermənilər Yerevanı, müsəlmanlar isə hər cəhətdən Bakını ən münasib və məqsədəuyğun saydılar.

Nəhayət, 1919-cu ilin ikinci rübündə, Bakıda universitet açmaq barədə qərar çıxarılır və xüsusi komissiya heyəti qurulur. Professor Vasili İvanoviç Razumovski sədr, dörd qəti və üç müşavir səslə yeddi nəfərlik komissiya üzvləri təyin edilir. Təşkilat komissiyasına müəllimlikdə mahir, zəmanə tələbatını bilən yeni əsr ziyalılarının birincilərindən, rusca, azərbaycanca, farsca mükəmməl savadı olan Əli Cabbar Orucəliyev rəhbərlik edir və yükün ağırlığını çiyinlərində daşıyırdı. Professsor Razumovski başqa şəhərdə yaşayıb işlədiyindən, yalnız vaxtaşırı Bakıya gələ bilirdi. Universitetin heyətindəki 20 müəllimdən yalnız ikisi azərbaycanlı idi.

Universitet keçmiş Kamerçeski məktəbinin (Lenin adına Pedaqoji İnstitut) binasında yerləşdirildi. Dörd fakültəsi - tibb, hüquq, fizika-riyaziyyat və tarix-ədəbiyyat fakültələri açmağı məqsədə faydalı hesab etdilər. Balaxanı (Basin) küçəsindəki gimnaziya mülkünü də əlavə bina kimi universitetə verdilər. 1919-cu il sentyabrın 15-də tələbələr ilk məşğələyə başladılar.

***Qürbət ellərə səfər - əlvida Bakı.*** Rusiya və Avropa ali məktəblərində müxtəlif ixtisaslar üzrə oxumağa 100 nəfər azərbaycanlı tələbə göndərilirdi: 17 nəfər Rusiyaya, 3 nəfər İngiltərəyə, 11 nəfər Almaniyaya, 1 nəfər İtaliyaya, 13 nəfər Fransaya, 4 nəfər Türkiyəyə və 50 nəfər İsveçrəyə. O zamankı Azərbaycanda zor-bəla ilə 100 nəfər orta təhsilli gənc tapdılar, lakin bir nəfəri, Miryusif Seyid Cənab oğlu Mir Abdullazadə qəflətən vəfat etdiyindən və onun əvəzinə orta təhsilli bir gənc tapılmadığından 99 nəfər göndərildi.

1920-ci ilin yanvar ayında, tələbələr xarici ölkələrə yola düşürdülər. Gedənləri yola salmaq üçün stansiyaya çoxlu adam: qohum-əqraba, yoldaşlar və tanışlar, elm-mədəniyyət xadimləri, ədiblər, şairlər, müxtəlif partiyaların nümayəndələri gəlmişdi.

Onlar vağzalın böyük salonunda toplaşmışdılar. Balaxanı məktəbinin müəllimi Seyidbağır Axundzadə ayağa durub dedi: «Cavanlar, siz xaricə

oxumağa yüz nəfər yollanacaqdız, çox təəssüf ki, yoldaşınız Miryusif Mir Abdullazadə həyata vida etdi... Azərbaycan fəal bir tələbəsini itirdi. O, Şamaxı qəzasının Lahıc qəsəbəsində doğulmuşdu. Şuşa orta məktəbini qurtarmışdı. İnqilab ərəfəsində, Şuşada kommunistlər firqəsinə daxil olub? çalışmışdı. Ötən 1919-cu ilin yayında Bakıya gəlib, kommunist yoldaşları ilə bərabər çalışırdı. Müəllimlər kursuna girib qurtardı. Balaxanı zükür məktəbində müəllimliyə başladı. Vəzifəyə son dərəcə diqqətlə yanaşırdı, Məktəbin dörd şöbəsini öhdəsinə alıb gündə fəhlə balaları ilə 5-6 saat çalışırdı. Artıq vaxtını fəhlələrə qəzet-jurnal oxumaqla keçirirdi. Əcnəbi məmləkətə gedəcəyindən valideynləri və qohum-əqrabası ilə vidalaşmaq üçün Lahıc qəriyəsinə getmişdi; orda Aragird məhəlləsində yuxarı məscid meydanında hümmət təşkilatı adından izdihamlı mitinq keçirir, yüzlərlə zəhmətkeş - misgər, dəmirçi, kargər, muzdur, bənna, fəhlə, dülgər, dabbaq və digər sənətkar və füqəra kəndliləri kommunist bayrağı altına, istismarçılarla, dövlətlilər əleyhinə, azadlıq uğrunda mübarizəyə, xalq səadəti üçün vuruşa çağırmışdı. Bakıya qayıdanda azarlayıb xəstəxanada yatırdı. Üç gün orda qalandan sonra vəfat etdi. Yoldaşlarını yalnız buraxıb, əbədi getdi. Əziz Miryusif yoldaş, sənin müqəddəs fikirlərin, arzuların uğrunda yoldaşların çarpışacaqlar. Sən vaxtsız vəfat etdin. Allah sənə rəhmət eləsin, - tələbələrə müraciətlə əlavə etdi, - Allah sizə də yar olsun, Vətən övladları».

Səmədağa Ağamalıoğlu qalxdı. Hamı ayağa durdu. Miryusifin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Səmədağa Ağamalıoğlu ilə bərabər İbrahim Əbilov, Əhməd Pepinov və başqaları da məclisdə iştirak edib tələbələrə nəsihət, məsləhət verdilər.

Məclisə tar və kamança çalan, bir də xanəndə Cabbar Qaryağdıoğlu dəvət olunmuşdu. Böyük salon musiqi təranələrinə, Cabbarın ecazkar, əfsanəvi ahənginə darısqallıq edirdi.

Ədəbiyyatşünas Salman Mümtaz qürbətə gedənlərin şərəfinə çay-şirniyyat-meyvə süfrəsi açdı.

Səmədağa Ağamalıoğlu gedənlərə nəsihət etdi, bol-bol elm, mədəniyyət, texniki fənn ləvazimatı gətirməyi tapşırdı.

Nitqlər söyləndi, xoş arzular diləndi. Qurban Pirimov tar, Saşa Oqonozaşvili kamança çalır, Cabbar Qaryağdıoğlu vaxtaşırı oxuyurdu.

Məclisdə çox xoş bir əhvali-ruhiyyə vardı. Lakin dünyanın bu qarmaqarışıq vaxtında Vətəndən, qohum-əqrəba və dostlardan ayrılmaq, övladı uzaq, qürbət ellərə yola salmaq intizarı üzlərdə oxunurdu.

Vida məclisində Səmədağa Ağamalıoğlu maraqla danışırdı: «Tiflisdə seym iclasında məndən soruşdular ki, bu inqilabın axırı nə olacaq. Hərçənd ki, gələcək barədə söz deyənlərin çoxunun yalanı çıxıb, amma indi deyirəm ki: «hərdən qaz yumurtalarını bir toyuğun altına qoyurdular. Gələcəkdə o

yumurtalardan qaz cücələri çıxırdı, su görən kimi yüyürüb özlərini tullayırdılar suya, qırt toyuq özünü itirirdi, o yan-bu yana qaçıb bərkdən qaqqıldayırdı...».

Məclisdə olanlar güldülər.

Səmədağa Ağamalıoğlu sözünə davam etdi: «Baxın, indi biz də bu hürriyyət yumurtalarını qoymuşuq burjuyların altına və bunlar da çırtlayıb çıxanda qırt... qırt... qartıldayacaq, ördək təki qaçıb özlərini atacaq bizim hürriyyət nohuruna. Qırt toyuqlar - burjuylar nə qədər qırt-qırt edib qanad çalacaqsa, heç bir şey çıxmayacaq... Bu azərbaycanlı cavanlar gedir oxumağa, təhsil alıb qayıdanda bizə, xalqa qulluq edəcəklər...».

Stansiyada zəng çalındı. Parovoz uzun, sürəkli xəbərdarlıq fiti verdi.

Həyəcan daha da artdı, gedənlər də, qalanlar da üzüntülü dəqiqələr keçirirdilər, gözlərdə yaş, dodaqlarda həzin bir təbəssüm vardı. Astadan səslər eşidilirdi: «Tezliklə məktub yaz!», «Özündən muğayat ol!», «Dərslərində diqqətli ol!», «Qürbət eldə xoş rəftar ol!», «Həftədə çox yox, heç olmasa bir sətir yaz!».

Tarzən birdən «Orta Mahur» çalmağa başladı, gözəl xanəndənin ilhamı coşqun dəniz təki təlatümə gəldi.

Şəbi hicran yanar canım,
Tökər qan çeşmi kiryanım...
Oyadar xəlqi əfqanım,
Qara bəxtim oyanmazmı...

Hamı ayağa qalxdı...

Tələbələr, qohum-əqraba, valideynlərilə vidalaşıb vaqonlara doluşdular.

Musiqi təranələri altında qatar stansiyadan yavaş-yavaş ayrıldı. Pəncərələrdən yaylıqlar göyərçin qanadları təki yellənirdi. Göz yaşları ilə əzizlərini yad diyarlara yola salanlar da əlləri ilə, yellədikləri yaylıqlarla vida salamı göndərir, onlara uğurlu yol diləyirdilər.

***Hərbi nazirin evinin girəcəyində bomba partlayışı.*** Don, Terek və Kuban baş dairəsi nümayəndələri Mixail Zazuliya, Nikolay Baqiyev və Pyotr Kovalyov Azərbaycan Cümhuriyyətinin hökumət başçıları ilə görüşmək üçün Tiflisdən Bakıya gəlmişdilər.

Onlar Azərbaycanın hərbi naziri tam topçu generalı Səmədbəy Mehmandarovu ziyarət məqsədilə Sahil (Neftçilər) küçəsində yaşadığı 51 nömrəli evə gəlirlər.

Bir saatlıq söhbətdən sonra binadan çıxıb, faytona əyləşəndə gözlənilmədən faytonun arxasında çox güclü bomba partlayır. Zazuliya özünü kənara birinci tullayır, onun dalınca Kovalyov düşəndə faytonun kənarına ilişib yıxılır, Baqiyev sıçrayanda ikinci bomba eyni şiddətlə partlayır. Yan-yörəyə

səpələnən qəlpələrdən Kovalyovun sol əli, hərbi nazirin qapısı ağzında növbədə olan Qulu Məmməd oğlunun üzü yaralanır. İkinci növbətçi Rəsul Mikayıl oğlu bombanı atıb qaçan üç nəfər sui-qəsdçiyə tapançadan atəş açır, lakin güllələr hədəfə dəymir.

Hərbi nazir Mehmandarov partlayış səsinə küçəyə, hadisə yerinə gəlir, tələsdiyindən papağını da qoymağı unudur.

Tezliklə hər şey aydınlaşır.

İçərişəhərdə bir dükanda naməlum bir şəxs yaxalanır - qara paltoda, başında kepka, cibindən çıxan iki pasportdan onun şəxsiyyəti müəyyənləşir: Filipp Fenoqenoviç Novıkov. Onun üstündə 2 bomba, tapança, 9 dənə patron, 275 manat Azərbaycan pulu varmış.

Novikovu liman polis şöbəsinə gətirirlər. Daxili işlər naziri və onun iki müavini, ədliyyə nazirinin müavini, general qubernator Tlexas, qalabəyi Yusifov, şəhər komendantı general-mayor Firidunbəy Vəzirov, polismeyster Mirzəyev və məhkəmə palatası prokuroru Nəzərov hadisə yerinə gəlirlər.

Polis şöbəsinə dəvət edilmiş nümayəndələri sorğu-sual etdikdə, yağış olduğundan sui-qəsdçiləri görmədiklərini, tanıya bilmədiklərini söyləyirlər.

Hərbi nazirin mühafizəçiləri üç nəfər bomba atanın birisi Novikovun olduğunu təsdiq edir. Təsadüfən, yoldan keçən 14 yaşlı gimnaziya şagirdi Baraşvili də Novikovu geyimindən tanıyır və deyir ki, bomba atanlardandır.

Novikov sərxoş olduğundan əvvəl diş texniki olduğunu, Bakıda işlədiyini, hadisə yerinə təsadüfən gəlib çıxdığını, bomba tullamadığını söyləyir. Üstündə tapılan bombaları ona tanımadığı, naməlum gürcünün verdiyini deyir.

Novikovu polismeyster Rüstəmbəy Mirzəyevin iştirakilə təkrar dindirəndə deyir ki, Batumda «Amur» gəmisində ocaqçı işləyib, içki məclisində gürcü yoldaşları onu şirnikdirib Bakıya gətiriblər, «Astrabad» hərb gəmisinə işə düzəldəcəklər. Onun üçün təfavütü yoxdur, hara olursa-olsun, təki araq, şərab olsun. Bu ilin (1920) fevral ayının 7-də Bakıya gəlib. Hər iki pasportu da gürcülər ona verib, saxta pasportları da ona gürcülər düzəldib.

Novikov əvvəlcə Nobel qardaşlarının 172-ci mədənində işə düzəlir, amma bir həftədən sonra oradan çıxır. Balaxanı küçəsində Yakov, ya da ki, Əli adlı tatarın otağında yaşayıb. Bekar-bekar veyillənirmiş. Bakıda Qriqori adlı bir gürcü ilə tanış olur. Axır günlərdə Parapetin yaxınlığında, zirzəmidəki meyxanada gürcülərlə içib kef eləyirmiş. Martın 11-də səhər saat 8-dən 11-ə qədər onu bərk içirdiblər; meyxana yiyəsi də onlarla içirmiş. Gürcülərdən biri bomba doldurulmuş bir karzinka gətirir; ona iki dənə bomba, bir də «Parabellyum» markalı tapança verirlər. Bulvara göndərirlər. Gürcülər özləri isə, içərisində 12 bomba olan karzinka ilə «Metropol» mehmanxanasına gedirlər; dediklərinə görə orda tanışları var imiş. Novikov bulvara gedəndə yolüstü İçərişəhərdəki örtülü bazara girib, orada da onu tutublar.

Prokuror, polismeyster və digər vəzifə sahibləri Parapetin yaxınlığındakı şərab anbarı və «Qruziya» meyxanası olan zirzəmiyə yollanırlar. Axtarış zamanı heç nə tapa bilməyirlər. «Qruziya» meyxanasının sahibi Qriqori Davidoviç Paridzeni çəkməçi dükanında tapırlar. Çəkməçi emalatxanasının yiyəsi Lavrenti Stepanoviç Sikulyadır. Bunlar Novikovun dediyi gürcülər idi. Onların yanındakı ucaboy, cüssəli naməlum gürcü Novikova iki bomba və bir tapança verib. Gürcülər həbsə alınır, evləri axtarılır, heç nə tapılmır,

Təzədən istintaqa başlayanda Novikov deyir ki, 8-ci polis şöbəsinin əməkdaşı Tatarenko da zirzəmidə idi. Yoxlayış nəticəsində məlum olmuşdur ki, Tatarenko martın 12-də səhərdən polis şöbəsində növbətçi olub, heç yerə getməyib, verilən telefonoqramları qeyd dəftərinə yazıb, 8-ci şöbənin pristavına xidmət raportu verib.

Mixaylovsk xəstəxanasının aşpazı Ağa Hacı oğlunu gətirib sorğu-suala başlayıblar. O, valideynləri getdiyinə görə elan yazıb pəncərəyə asıbmış ki, tək, subay adama otaq kirayəyə verir. Novikov gəlib otağı kirayələyib, dostunu da yanına gətirib. Sakit dolanırdılar, tez-tez harasa gedirdilər. Novikov arabir içib sərxoş olurdu. Yanlarına şübhəli adamlar gəlmirdi.

20 gündən sonra kirayə pulunu vermədiyinə görə Ağa Hacı oğlu onları qovur. Ondan sonra rastlaşmayıblar.

Hər ikisi ev dəftərinə qeyd edilib, sonra da pozulub.

Hərbi nazirin yaşadığı ikimərtəbəli mülkün üst mərtəbəsindəki pəncərələrin şüşələri sınıb. Növbətçilərin hər iki budkası zədələnib, sağ tərəfdəki isə yerindən tərpənib, taxtalar çatdayıb. Partlayış yerində girdə çuqun və qurğuşun qəlpələr səpələnib, hər bombanın ağırlığı 5-6 girvənkəyə bərabərdir. Bombalar əldə qayrılmadır. Forma və görkəmləri yarım silindrikdi.

İş hərbi səhra məhkəməsinə verilir. Mart ayının 19-da Novikov əlavə məlumat verir: «28 yaşım var. Orlov quberniyasındanam. Baltik donanmasında «Amur» kreyserində matros olmuşam. Axır vaxtlarda Tiflisdə və Bakıda yaşayırdım.

Mən, İvan Levin və Razin tapşırığa görə Don, Terek və Kuban baş dairələrinin nümayəndələrini öldürməli idik. Dallarınca Aleksandropol şəhərinə getmişdik. Fikrimizdən daşınıb Tiflisə qayıtmalı olduq. Sonra həmin nümayəndələrlə bir qatarda Bakıya gəldik. İstəyirdik stansiyada onlara bomba ataq, adam çox idi. Günahsız adamların yersiz ölümünə səbəb olmaq istəmədik, həm də polis məmurlarının orada hərlənməsi mane oldu.

Nümayəndələrin «Metropol»da yerləşdiklərini bizə bildirdilər. Marşrutları öyrənib izləməyə başladıq. «Metropol»dan çıxanda istədik bomba ataq, yenə qələbəlik mane oldu. Faytonda hərbi nazirin evi olan yerə gəldik.

Münasib yerdə dayanıb, nümayəndələrin çıxmağını gözləyirdik. Şəxsən mən mühafizlərdən birinə (üzündən yaralanana) yaxınlaşıb, rus dilində xəbərdar etdim ki, uzaqlaş, indi burada partlayış olacaq, buradan çıx get.

Dediyimi başa düşmədi, başının hərəkətilə mənə işarə elədi ki, öt burdan. Mən də uzaqlaşdım.

Nümayəndələr hərbi nazirin evindən çıxıb faytona minəndə yoldaşlarım Levin və Razin hərəsi bir bomba tulladılar. Mənə elə gəldi ki, nümayəndələr öldü. Yoldaşlarım qaçdılar, mən də götürüldüm, özümü verdim, İçərişəhərə. Liman pristavı «dayan!» deyə qışqırdı. Ayaq saxlayıb, pristava təslim oldum. Başqalarını öldürmək məramım yox idi. Üstümdə iki bomba və tapança vardı.

Özüm Denikinlə vuruşlarda neçə dəfə yaralanmışam, bədənimdə yara yerləri də var. Mən Denikinin amansız əleyhdarıyam.

Bakıya tez-tez gəlib fəhlələrin mənzilində qalırdıq.

Hacıyev müttəhim Novikovun dediklərini və onunla Petrovgildə tez-tez görüşdüyünü təsdiq etdi. Rusiyadan 17.000.000 manat gətirildiyini deyirdilər. Siyasi mövzularda və Denikinin əleyhinə danışırdılar. Petrov onlara rəğbət bəsləyirdi.

Petrov Hacıyevdən xahiş edir ki, iki nəfərə otağında yer versin. Hacıyev razılaşır. Novikovla Levinə yer verir. Bir dəfə onu Sabunçuya fəhlə klubuna aparırlar. Petrov da orada olub. Hacıyev qorxub, daha onları evinə qoymayıb. Çıxıb gediblər və 1.800 manat ona borclu qalıblar. Hacıyev qorxusundan heç yerə şikayət etməyib, hökumətə deməyib. Dediklərindən savayı heç nə bilmir, onların işlərindən xəbərdar deyil.

Petrov ev kirayəsi barədə Hacıyevə söz verib ki, haqqını alacaqsan. Dostlarım harasa gediblər, tezliklə qayıdacaqlar, pulunu verəcəklər.

A. A. Petrov ifadəsində göstərir ki, dülgər işləyirmiş, işdən çıxardıblar. Birtəhər düzəlib Mixaylovski xəstəxanasına, ehtiyacdan otağına kirayənişin buraxıb.

Hacıyevlə üzləşəndə Petrov hər şeyi boynuna alır.

Novikovun hərbi səhra məhkəməsində aparılan istintaqı mart ayının 19-da qurtarır və martın 21-də bu işə polkovnik Nəbibəyovun sədrliyi altında keçirilən iclasda baxılır. F. F. Novikov dar ağacından asılmaqla ölüm cəzasına məhkum edilir.

Hökm mart ayının 23-də, səhər saat 5-də Bayıl qazamatında yerinə yetirilmişdir.

Bakı general qubernatorluğunun məlumatı. 1920-ci il fevral ayının əvvəllərində burjua qəzetləri yazırdılar ki, son günlərdə şəhərdə şayiə yayılmışdır ki, guya camaat hökumətdən narazıdır, çıxış edib, bazar, dükanı talan edəcəklər. Əhali də bundan həyəcana gəlmişdir.

Şəhərə girməyə heç kəsə ixtiyar verilmir. Körpülərə yanaşan gəmilərdəki sərnişinlərin yalnız bəzilərinə düşməyə icazə verilir. Üç gün ərzində şəhərə Ənzəli, Şamil qala (Mahaç-Qala) və Təzə şəhərdən

(Krasnovodsk) 7 gəmidə 500 nəfər gəlmişdir. Gələnlərin bəziləri Tiflisə gedir. İranlılar İrana qaytarılır, ləzgilər Dağıstana yollanır.

Gəmilərdə səpmə yatalaq və başqa xəstəliklər müşahidə olunur. Radio ilə gəmilərə bildirilib ki, hər kəs Bakıya gəlsə geri qaytarılacaq. Əcnəbi heyətlərə, siyasi nümayəndələrə və dövlət işləri üçün gələn adamlara gəmidən düşməyə izin veriləcək...

Belə məlumatların yazılmasına baxmayaraq şayiələr artır, həm də şişirdilir, ətraf qəsəbə və kəndlərə yayılır, həyəcan və narahatlığı daha da artırırdı.

Qızıl Ordu Denikin dəstələrini darmadağın edərək Cənuba Azərbaycan sərhədlərinə yaxınlaşırdı. Qızıl Ordunun polad pəncəsində qıvrılmaqda olan ağ ordunun nümayəndəsi general Baratov Bakıya varid olub, hökumətə təklif edir ki, qırmızılar yürüşü davam etdirib, şəhərə girsələr əl-ələ verək, bütün neft mədənlərinə və zavodlara od vuraq, bolşeviklərə qalmasın.

Belə qorxulu xəbərlərdən camaat zara gəlmişdi. Nə gecəsi gecə idi, nə gündüzü gündüz, aclıq, ehtiyac və xəstəlik də əhalini əldən salmışdı.

Bolşeviklər Bakıda orduda, hərbi, mülki və ticarət donanmasında, fabrik və zavodlarda, mədənlərdə siyasi iş aparırdılar, xalqı silahlı üsyana hazırlayırdılar.

Hökumətin yarım rəsmi orqanı «Azərbaycan» qəzetində bolşeviklərin süni niyyəti barədə xəbərlər dərc edildi. Hazırkı hökuməti yıxmaq və şura hökuməti qurmaq üçün üsyan hazırlanırdı. Bu məqsədlə kəndlərdə, fəhlə və əsgərlər arasında gizli şöbələr və hər yerdə hərbi təşkilat yaradılırdı. İşin üstü açılır, dövlət üçün təhlükəli cani kimi Əli Bayramovun axtarıldığı elan olunur. Vətəndaşlardan xahiş edilir ki, Əli Bayramovun yerini bilən varsa mütləq polisə xəbər versin.

Qəzetdə üsyan barəsində uzun-uzadı izahat verilirdi. Bu sənədlər Həbib Cəbiyevin mənzilində axtarış aparılanda polisin əlinə keçmişdi.

Bundan sonra hökumət bolşevikləri təqibə başlayır, ələ keçənləri zindana salır.

Xəfiyyə idarəsi Əli Bayramov və Həbib Cəbiyevin parlaman üzvü Əliheydər Qarayevin mənzilində gizləndiklərini öyrənir. Həmin bina mühasirəyə alınır. Bakının general qubernatoru Gəray Murad Tlexas əməliyyatı şəxsən idarə edir. Lakin parlaman üzvünün toxunulmazlığına görə mənzilinə girə bilmirlər. Bu barədə parlaman rəyasət heyətinin rəsmi qərarı olmalı idi.

Əli Bayramov və Həbib Cəbiyev çıxılmaz vəziyyətə düşdüklərini hiss edib qonşu binanın damına keçirlər, dolambac dalan və döngələrlə aradan çıxırlar.

General qubernator və polis rəisinə parlaman üzvünün mənzilinə daxil olmağa icazə verilir; o şərtlə ki, yalnız otaqlara və mətbəxə baxa bilərlər, axtarış aparmaq olmaz.

Onlar mənzildə Əlini və Həbibi tapa bilmirlər.

Əli Bayramov şəhərin kənarında, Məhəmmədəli məhəlləsinin ucqar evlərinin birində gizlənir.

Şəhər polismeysteri Mirzəyev casus və agentləri, məhəllə qoçularını səfərbər edir ki, Həbib Cəbiyevin və Əli Bayramovun gizləndikləri evi axtarıb tapsınlar, onları tutub hökumətə versinlər.

Hadisələri izləmək üçün söhbət elədiyim adamların dediklərini oxuculara çatdırmaq istəyirəm.

Ceyran Bayramova: 1918-ci il, mart hadisələri vaxtı Lahic bağlarına qaçdıq, oradan da Qasım İsmayılovla bərabər Corata piyada getdik. Araba tutduq, əvvəl Ağcaqabula, sonra da Salyana yollandıq. Əli Salyanda idi. Kür qırağında mənzili vardı. Anam, qayınatam Bayram kişi, qaynım Oruc da orada idilər.

Avqust ayında Ramazan paşanın əsgərləri Salyanı tutub Bakıya irəliləyirdilər.

Çar hökuməti dövründə uzun müddət pristav olmuş Əliheydər Yusifovu Salyana qəza rəisi təyin etmişdilər. Türklər Əlinin kapitan olduğu «Demosfen» gəmisini tutub, komanda heyətini əsir aparmışdılar. Yusifovun fitvası ilə bircə Əlini tək saxlamışdılar ki, bolşevik kimi camaatın gözü qabağında dar ağacından assınlar. Əli türk zabitini başa salır ki, mən füqərayi kasib tərəfdarıyam, heç yerə qaçan deyiləm. Zabit də onu evə buraxır. Qəza rəisi Əliheydər Yusifov bu əhvalatdan xəbər tutur və gecə yarısı evimizə gələrək Əlini başladı hədələməyə: «Sən bolşeviksən, səni dar ağacından asacayıq. Muğana silah daşımağın yadından çıxıb? Lap məğamında düşmüsən tələyə. Qaçan yerin yoxdur».

O gedən kimi Əli bizi - atasını, anamı, qardaşı Orucu qayığa mindirib Ərəbuşağı kəndinə qaçırtdı. Oradan da 12 kilometr yolu Ağcaqabula piyada gəldik. Atasını, anamı, qaynım Orucu Bakıya yola saldı. Özümüz ikilikdə getdik Gəncəyə. Gəncədə Əli kommunist İbrahim Əminbəylini tapıb başladılar gizli fəaliyyətə. Kəndlilər, dəmir yolu fəhlələri və əsgərlər arasında təbliğat aparırdılar. Türklər Azərbaycandan gedəndən sonra qayıtdıq Bakıya. Az sonra Əlini tutub saldılar həbsxanaya. Bir azdan azad etdilər.

Məni parlamanda Mirzəsamalovun yanında, qanun-layihə şöbəsində balaca bir işə düzəltdilər. Məktubları, təliqələri, sənədləri kitablara qeyd edirdim.

Evimizdə təşkilatın gizli telefonu saxlanırdı. Telefon stansiyasında da mötəbər adamlar vardı ki, nazirlər, prokuror, polisiya bir-birilə danışanda bizim gizli telefona calayırdılar, evimizdəki növbətçi onların söhbət və danışıqlarının hamısını yazır, təşkilata çatdırır, onlar da əvvəldən tədbir görürdülər. Kimi tutub həbsə salacaqlar, harda axtarış aparılacaq, mitinqə necə mane olmaq

istəyirlər... Gizli telefon böyük otaqda, küncdəki stolun altında, məxfi saxlanırdı.

Ruhulla Axundov, Həbib Cəbiyev, Ağababa Yusifzadə və başqaları tez-tez bizə gəlib-gedərdilər. Əli on doqquzuncu ildə Ruhullanı və Həbibi Moskvaya yola saldı və qardaşı Orucu da qoşdu onlara.

Evimizdə adi telefon da vardı.

İyirminci ilin əvvəllərində Əlini bərk axtarırdılar ki, tutsunlar. O da yerini tez-tez dəyişdirirdi, evə gəlmir, başqa yerdə qalırdı. Mart ayının 19-u, gecə yarısında mənzilimizdə qalabəyi Əliheydər Yusifov polislərlə gəlib başladılar axtarış aparmağa. Otaqları ələk-vələk elədilər, hər iki telefon aparatını çıxarıb apardılar. Martın 20-də anam Bibixanımı və evimizdə yaşayan qohumumuz gimnaziya şagirdi Ağarəhim Nəzərovu polis tutur, anamı 2-ci polis şöbəsində, Ağarəhimi liman polis şöbəsində saxlayırlar, tələb edirlər ki, Əli Bayramovun gizləndiyi yeri desinlər. Eyni zamanda, dayım Həsən Əli oğlunu da tutub, 4-cü polis şöbəsinə aparırlar.

Əsassız və qanunsuz tutulanları azad etdirmək üçün ora-bura qaçırdım. Başım bərk qarışmışdı. Qalmışdım polismeyster, qalabəyi, qubernator idarələrinin və parlamanın arasında. Əhvalatı «Hümmət» təşkilatı üzvlərinə xəbər verib, kömək istədim.

Neçə gün idi ki, Əlinin bizdən xəbəri yox idi. Nigaran qalıb, mart ayının 20-də, Novruz bayramı axşamı, çıraqlar yananda, gizləndiyi evdən çıxıb, çox da uzaqda olmayan nənəm səadətin evinə yollanır. Məhəmmədlilər məscidinin yanından keçəndə qoçu Əjdər və Hüseyn Qədir oğlu onu görür, qabağını kəsirlər, tapançasını alırlar.

Qonşu Sərdar Babayev qaçıb nənəmə xəbər verir ki, qoçu Əjdər Əlini tutub divanxanaya aparır, çıx, yalvar, buraxdır.

Səadət nənəm qaçır, başlayır qoçuya yalvarmağa ki, bayram axşamına səni and verirəm... Əjdər qoca arvadı söyüb, elə itələyir ki, arvad yıxılır...

Əlini aparıb verirlər polismeysterə. İki gün idi ki, mənim başım anamla Ağarəhimə qarışıq idi. Çapalayırdım. Əlini qoçu Əjdərin tutub polisə verdiyini eşidəndə getdim Qasım İsmayılovu tapdım. Martın 21-i idi. Yollandıq Əliheydər Qarayevin mənzilinə ki, Əli barədə nə bilir, nə eşidib. Novruz bayramının sabahı martın 22-si Qasım İsmayılovla düşdük idarələrə. 4-cü polis şöbəsinin rəisi dedi ki, Əli Bayramovun tutulmağından xəbərim var. Onda xahiş etdim ki, kağız verin aparaq, anamla, günahsız oğlanı buraxdıraq. Cavab verdi ki, polismeyster Mirzəyev özü hər şeyi yaxşı bilir, kağız lazım deyil. Məni ələ salıb istehza ilə dedi: «bolşevikə qoşuldun, cəzandır çək, evdə gizli telefon aparatı saxlayırsız, sizə nə etsələr azdır...».

Oradan yollandıq polismeyster idarəsinə. Növbətçi dustaqların adları qeyd olunan dəftərləri yoxlayıb dedi ki, burda Əli Bayramov yazılmayıb. Mən inanmadım. Dadaş Bünyadzadə dustaqların arasında idi, təsdiq etdi ki, Əli

burada, bizim yanımızda yoxdur. Getdik Mirzəyevin evinə, dedik ki, Əli tutulub, əmr verin, girov saxlanan arvadla oğlanı buraxsınlar. Əlinin də yerini soruşduq ki, xörək aparaq, pulu yoxdur üstündə. Polismeyster söz verdi ki, tutulanları buraxdırar. Əlinin də yerini öyrənib sabah xəbər verər bizə. Sabah, sabah gəlin. Olur ki, qubernatorun əmrilə məhbus saxlayırıq, dəftərə adı yazılmır. Üstüörtülü bildirdi ki, sabaha qədər gözləmək vacibdir.

Getdik qalabəyi idarəsinə. Yusifov yox idi. Yollandıq evinə. Yusifov dedi: «Əli Bayramovun tutulmağından xəbərim yoxdur. Amma Əli də, onuk bütün yoldaşları da, hamısı çoxdan tutulmalıdırlar. Hökuməti devirmək istəyirlər. Muğan əhvalatı, Salyandakı həngamə yadınızdan çıxıb?». Bizi göndərdi idarəyə, informasiya şöbəsinin rəisi Şahsuvarovun yanına. Qalabəyi və qubernatorluğun idarələri bir binada yerləşirdi.

Şahsuvarovla küçədə rastlaşdıq, qalxdıq yuxarı. Başladı sorğu-suala: «Əli neynəyirdi? Kimlər yanına gəlib-gedirdi?» Və sairə. Oturduq Qasımla qubernatoru gözlədik. Dal qapıdan Yusifov gəldi.

Düz üç saat, axşam 7-dən 11-ə qədər gözlədik, general-qubernator Tlexas gəldi. Yarım saatdan sonra bizi çağırdılar kabinetə. Qubernator soruşdu: «Nə istəyirsiz?» Dedim: «Əli Bayramovu tutublar, xahiş edirik, əmr verin anamı və oğlanı buraxsınlar». «Əli Bayramov nəyinizdir?», «Ərimdir...», «Harda işləyirsiz?», «Parlamanda, qanun şöbəsində». Sonra Qasımı dindirdi, Dedi ki, bayırda gözləyin. Qapının ağzında dayanmışdıq. Yusifov dal qapıdan girdi qubernatorun kabinetinə. Bir azdan qubernator çıxdı. Ona yaxınlaşıb danışmaq istəyəndə, Şahsuvarov mənə dedi ki: «Nə lazımdır biz öyrənmişik. Sizin sözünüzə ehtiyac yoxdur».

Qubernator getdi. Şahsuvarov bizi bir az yubandırdı. İki qaradovoy gəlib çıxdı (görünür telefonla çağırıblar), bizi onlara qoşub, polismeysterliyə göndərdi.

Polismeysterlikdə baş qaradovoy Babayev tez-tez içəri girib çıxırdı, qaradovoylarla danışırdı. Pəncərədən görünürdü ki, qaranlıq həyətdə qaradovoylar dayanıb. Ümumi bir narahatlıq var.

Səhər polis agenti Cəbrayıl Ayvazov növbətçi Abdullayevə dedi ki, arvadı burax getsin. Gündüz saat 2-ya qədər məni yubandırdılar.

Başımıza gələnləri parlamanda əli altında işlədiyim Mirzəsamalova danışdım, xahiş etdim ki, kömək eləsin, kimə lazımca dil çatdırsın. O da telefonla daxili işlər nazirinin müavini Şəfibəy Rüstəmbəyovla danışdı. Xeyli qulaq asandan sonra dedi: «Əli Bayramovu demirəm, məktəb şagirdi, 13 yaşlı Ağarəhimi, bir də qoca arvadı, Bibixanımı buraxdırmanızı xahiş edirəm». Bu söhbətdən başa düşdüm ki, Əlinin tutulmağından nazir müavininin xəbəri var.

Parlaman üzvü, sosialist partiyası liderlərindən Əhməd Pepinovun da yanına getdim. O da, oğlanla anam barədə telefonla danışıb xahiş etdi ki, buraxsınlar.

Bir nəfər tanımadığım kişi Əlidən mənə məktub gətirdi. Məzmunu belə idi; 1) Firqə özəklərinin yerini dəyişsinlər. 2) Telefon aparatlarının necə və kimdən alındığını deməyin. 3) Mənə pul çatdırın. Qasım İsmayılovun vasitəsilə. 4) Əliheydər Qarayevə deyin ki, Yusifova inanmasın. O, satqındır; özünü tülkülüyə vurur ki, guya bolşeviklərə kömək edir. 5) Yusifova deyin ki, məndən əl götürsün. 6) Özüm polismeysterlikdə qaradovoyların otağındayam. 7) Ceyran, sən və Bibixanım dalımca gəlməyin! Qoy yoldaşlar mənim üçün əlləşsinlər.

Vərəqəni aparıb verdim Əliheydər Qarayevə, Qulu Hüseynov, Musaxanov və başqa yoldaşlar da o kağızı oxudular. Başladılar Əlini axtarmağa. Qarayev parlamanda kəskin, gurultulu çıxış etdi, yoldaşlarımızı həm açıq, həm də gizli yollarla aradan çıxartdıqlarına görə hökuməti günahlandırdı. Musəvi və Haşım Əliyevin öldürülməsindən heç altı ay ötməmiş, indi də Əli Bayramovu oğurlayırsız.

Müsavatçılar da iddia etdilər ki, bu provakasiyaçı bolşeviklər hökumət böhranını sürətləndirmək üçün özləri quraşdırıb, çox güman ki, Əli Bayramovu gizlədib, hökumətə şər atırlar. Əli Bayramov günahkardır, üsyançıdır. Hökuməti devirmək istəyib. Taxsırı olan adam cəzalanmalıdır.

Əliheydər Qarayev ikinci dəfə daha kəskin çıxış etdi. «Biz Qırmızı Ordu ilə ciddi danışığa girməliyik. Bu hökumət isə bunu bacarmayacaqdır. Sovet Rusiyası ilə danışığa girmək lazımdır».

Daxili işlər naziri müavini Şəfibəy Rüstəmbəyov izahat verir: «Daxiliyyə naziri burada yox ikən Qarayev Əli Bayramov haqqında danışdı. Bu xüsusda bir neçə söz deyəcəyəm. Bir neçə gün bundan əvvəl polis dövlət çevrilişi və üsyan qaldırmaq planı kəşf etdi. Burada hökuməti yıxmaq, parlamanı dağıtmaq və Şura hökuməti qurmaq istəyirlər.

Əli Bayramov da bu çevrilişin iştirakçılarından biridir. Parlaman üzvü Əliheydərin də orda imzası var.

Polisə əmr olunmuşdu ki, o adamları tutsun. Polis axtarır, tapa bilmirdi. Bu aralıq xəbər çıxdı ki, Əli Bayramov yoxa çıxıb. Bu barədə hələ rəsmi bir məlumat da yoxdur. Ancaq şayiələr var ki, onu bir qoçu tutub polisə verib. Polis isə onu boğmuşdur. Bu xəbəri eşidəndə nazir qaradonaçalnikə əmr verdi ki, xəbəri rəsmi şəklə salsın, tapıb açsın. Keçən gün, mən Əli Bayramovun qaynanasını, arvadını öz kabinetimə çağırdım. Orada general qubernator və parlaman üzvlərindən bir neçə nəfər də vardı. Əli Bayramovun arvadı və qaynanasından Əlini harda və kimlərin tutduğunu soruşdum. Kənarda gəzən şayiələrdən başqa heç nə demədilər. Qoçulardan qorxduqlarını söylədilər. Deyilənlər doğru çıxsa kim müqəssir olsa məhkəməyə veriləcək və cəzalanacaq. Hökumətə iftira, böhtanlar yağdırılır, buna ciddi etiraz edirəm».

Bu əhvalatdan sonra Bakı məhkəmə prokurorluğu qəzetlərdə elan etdi ki, Əli Bayramovun işi ilə əlaqədar xüsusi istintaq başlanır. Kim nə bilir (adsız

da olar) xəbər versin. İstintaqı mühüm işlər müstəntiqi S. N. Kovalenko aparır. O adamları hər gün səhər saat 10-dan 4-ə qədər qəbul edir.

***Əliheydər Yusifov:*** Əli Bayramov bolşevikdir. Bakıda nəzərdə tutulan silahlı üsyanla hökuməti, dövləti yıxmağa çalışanlardan biridir. General-qubernatorun əmriylə tutulmalı idi. Mənzilində axtarış aparılmışdı. Evdə yox idi. Bir neçə nəfər başqa bolşevik tutuldu və xüsusi siyahıya salındı. Əli Bayramovu bu siyahıya yazmadıq. Belə adamları həbsə alanda mənə xəbər verirlər, lakin bu hadisədən xəbərim yoxdur. Mart ayının 30-da bolşevik Bağı Cəfəri daxili işlər naziri müavini Şəfibəy Rüstəmbəyova və əmək naziri Əhməd Pepinova dedi ki, Əli Bayramovu tutub və öldürüblər. Belə bir şayiə gəzir. Cəfəri eyhamla polismeysterin bu işdə barmağı olduğunu başa saldı. Nazir müavini mənə dedi ki, əhvalatı prokurora xəbər ver.

Əjdər və Mirrəhimi belə tanıyıram: Mirrəhimin qardaşı Ələkbər dustaqxanadan qaçmışdı. Əjdəri və Mirrəhimi qalabəyi idarəsinə çağırmışdıq ki, Ələkbəri gətirib təhvil versinlər.

Daxili işlər nazirliyindən Cəfəri ilə bərabər prokurorun yanına getdik və Əli Bayramovun öldürüldüyü barədəki şayiəni Cəfəri ona xəbər verdi.

***Alı Əkbərxan Şahsuvarov:*** Qubernatorluqda istixbarat şöbə rəisiyəm. Terek vilayətinin Kizlər şəhərindən gəlmişəm. «Metropol» mehmanxanasında yaşayıram.

General-qubernatorun əmri ilə martın 19-da Əli Bayramovun mənzilində axtarış aparılmışdı. Hələ 1920-ci il, mərt ayının 10-da general-qubernator və qalabəyi mənə tapşırıq verdilər ki, hazırkı Azərbaycan Cümhuriyyətindəki dövlət quruluşunu devirmək istəyən silahlı qiyamçılardan Əli Bayramovu tap. Mən də onun evində nəzarətçi qoydum. Son həftələr o, evdə yaşamırdı. Öyrəndim ki, Sabunçuya, Balaxanıya gedir, bir də Melniçnı küçəsindəki 29 nömrəli evdə, arvadının qohumları yanında olur. Həmin evdə tez-tez iclas keçirirlər. Mart ayının 19-dakı axtarış cənab qalabəyi Yusifovun başçılığı ilə pristav müavini Süleymanbəy Sübhanverdixanovun iştirakı ilə aparılmışdı.

Qasım İsmayılov bir neçə dəfə o evə gəlmişdi. Ağarəhim Nəzərov, Bibixanım və Ceyran Əli Bayramovun pusquçuları idi. Ağarəhim poçtalyondan aldığı məktubu aparıb kiməsə verirdi. Oğlan tutulanda ona qoşulub gəlmiş Bibixanımdan nə xəbər alırdıq çalpaşıq, şübhəli cavablar verirdilər, hiss olunurdu ki, izi itirməyə çalışırlar. Qubernatorun əmri ilə hər ikisi tutuldu. Ayın 21-də Bibixanım buraxıldı. Ceyranla Qasım gəlib oğlanı buraxmağı tələb etdilər. Ceyran və Qasım İsmayılov suallarıma qeyri-müəyyən cavablar verdilər. General-qubernator idarədə olmadığına görə, məsələni qalabəyi Yusifova dedim. O da əmr etdi ki, şəxsən general qubernatora xəbər ver, həm də tapşırdı ki, Əli Bayramovun tutulmağı barədə heç kimə heç nə deмə, heç yerə də xəbər vermə. Axşam saat 11-də əhvalatı general-qubernatora

nəql elədim. O da hər ikisini - Ceyranı da, Qasımı da üsyan iştirakçısı kimi tutmağı əmr etdi, Etiraz etdilər. Ceyranı ayın 22-də buraxdılar. Neçə gündən sonra gəlib mənə xəbər verdi ki, Əli Bayramov heç yerdə yoxdur; tələb etdi ki, harda saxlayırsız yerini göstərin. General-qubernator onu qəbul etdi, nə cavab verdiyindən xəbərim yoxdur.

***Ceyran Bayramova:*** Mart ayının 27-də məni daxili işlər nazirinin müavini Şəfibəy Rüstəmbəyovun yanına çağırdılar. Anam Bibixanımla bərabər oraya yollandıq. Tlexas, Əliheydər Yusifov, Muxtar Əfəndizadə də orda idilər. Rüstəmbəyov mənə kağız verib dedi ki, Əli Bayramovun necə tutulduğunu yaz, ver bizə. Ətraflı yaz! Mən imtina etdim. Dedim ki, iş məhkəmə orqanlarındadır. Burada ifadə verməyə ehtiyac yoxdur. Muxtar Əfəndizadədən başqa hamınız yaxşı bilirsiniz ki, Əlinin başına nə gəlib. Əliheydər Yusifov isə Əliylə qərəzlik eləyir; odur ki, Əli düşüb dərin quyunun dibinə, heç sədası da gəlmir. Yusifov dedi: «Get, nə bilirsən onu da elə».

***Ömər Faiq Nemanzadə:*** Mart ayının ikinci yarısında idarədə yanıma tanımadığım bir arvad gəlib dedi ki, mən Ceyran Bayramovayam, ərimi tutublar, amma harada olduğunu öyrənə bilmirəm. O saat Mirzəyevə, zəng çalıb soruşdum. O dedi ki, məndə belə dustaq yoxdur, telefonu qoydu yerinə. Mən təkrar zəng çaldım: «Bəs deyirlər ki, Əjdər Əminov tutub Əlini gətirib sizə...» O səsini ucaltdı: «A!.. Onu deyirsiz? hə, Əli Bayramovu Əjdər götürüb dala apardı». «Necə yəni, dala apardı?! Dustağı bir yerdə saxlamaq lazım idi». Mirzəyev dedi: «Əjdər ondan, Əli Bayramovdan iltizam alıb buraxıb».

Mən Ceyran xanıma dedim ki, şikayət yaz ver mənə, isti-isti işin izini axtarıb tapaq. Hadisəni olduğu kimi yazıb verdi və Roman Şalvaşvilinin sözlərini də əlavə etdi. Tapşırdım ki, söhbəti məxfi saxla. Sabah şahidlərlə gəlin yanıma. Sabahı gün bircə gürcünü gətirdi və sualıma cavab verdi ki, başqaları qorxudan gölməyiblər. Əjdər hədələyib ki, hər kəs bu işə qarışsa öldürəcəyik. Romanı dindirdim, tapşırdım ki, söhbəti gizlin saxlasın. Mollazadədən xahiş etdim ki, gizlicə qaradovoy Həmzə Mirzə oğlunu bir bəhanə ilə mənim yanıma gətirsin. Elə olsun ki, nəzərə çarpmasın. Həmzə gəldi. Hadisəni ətraflı mənə nəql etdi. İşi verdik prokurora.

4-cü polis şöbəsinin rəis müavini Süleymanbəy Sübhanverdixanov dedi ki, qalabəyi Əliheydər Yusifova tapşırılmışdı ki, necə olur-olsun bolşevik Əli Bayramovu tutun. Polismeyster Mirzəyev məşhur məhəllə qoçusu Əjdər Əminovu çağırıb tapşırdı ki, yerin altında da olsa Əli Bayramovu tap gətir yanıma. O da tutub apardı, polismeysterə təhvil verdi.

Mollazadə də təsdiq etdi ki, Mirzəyev qalabəyi Yusifov adından 4-cü polis şöbəsinə bir neçə nəfər qoçu çağırıb tapşırdı ki, Əli Bayramovu axtarın, hətta Əjdərə dedi ki, bu işi eləsən, sənin köhnə günahlarının da üstündən qələm çəkib bağışlayarıq. Köhnə iş də o imiş ki, qoçu Əjdər, qoçu Mirrəhim Mirmövsümovun bacanağı idi, bir gecədə 15 adam öldürmüşdülər.

Aradan bir-iki gün ötdü. Qaradovoy Məşədibrahim Məşədabas oğlunu çağırdım. O bərk qorxurdu ki, qaradovoylar və Mirzəyev onun özünü öldürə bilərlər. Əli Bayramovun gecə vaxtı aparıldığını nəql etdi. Baş qaradovoy Babayev əvvəl Mirzəyevin evinə gedib, sonra gəlib Əli Bayramovu apardı. Dedi ki, Mirzəyev əmr edib ki, Bayramovu 10-cu polis şöbəsinə aparmaq lazımdır.

Qaradovoylardan Həbib, Vəli və Əbdülrəhman Əli Bayramovu faytonda apardılar. Babayev qaldı.

Şəxsən nazir müavini Şəfibəy Rüstəmbəyova müraciət etdim ki, istintaqa mane olduğuna görə Mirzəyevi tutmaq lazımdır. Rüstəmbəyov mənə acıqlanıb töhmət etdi ki, sən daxili işlər nazirliyinə qarşı iş açırsan. Əmr etdi ki, bu işə burnumu soxmayım! Məsələ prokurorluğa verilibdir. İki gündən sonra Vəkilov, nazir gələndə yanına, kabinetə getdim. Hadisəni ona danışdım və Mirzəyevi tutmağı xahiş etdim. Bu vaxt, Rüstəmbəyov nazirin yanına gəldi və işi başa düşəndə, acıqlı-acıqlı söhbətə qarışıb dedi: «Heç belə şey yoxdur. Bunlar hamısı sənin şəxsi fantaziyandır».

Mən tutuldum. Vəkilovdan xahiş etdim ki, mənə təklikdə danışmağa imkan yaratsın. Rüstəmbəyov çıxıb getdi. Vəkilov məni dinlədi. Sözümü axıra kimi dedim və bütün sübutları söylədim və xahiş etdim ki, özümlə gətirdiyim qaradovoy Məşədibrahim Məşədabas oğlunu şəxsən dindirsin. Vəkilov Məşədibrahimi təklikdə dindirdi. Mirzəyevi tutmaq barədə əmr verdi. Şəhər polismeysteri təyin olunmuş Kabulov əmri sabahı gün saat 12-də yerinə yetirdi. Mirzəyevi kaupvaxta*, İçərişəhərə gətirdilər. Mən Bayıl qazamatına salmağı əmr etdim. Şəfibəy Rüstəmbəyov mane oldu.

General-qubernator Tlexasın yanına getdim, işin gedişini, Əli Bayramovun tələf edildiyini ona da danışdım. Mirzəyevi zorla tutublar. Əjdəri və Qədir oğlunu tutmurlar. Cinayətin əsl isracıları şəhərdə gəzir.

Qubernator mənə dedi: «Əli Bayramovun ölümü haqqında mənə heç kim şikayət etməyibdir», Və həmin günün səhərisi qəzetdə əmr dərs etdirdi ki, bu barədə heç kəsi tutmaq olmaz. Bunu da mənə mane olmaq məqsədilə etmişdi ki, Əjdər Əminov və Hüseyn Qədir oğlu tutulmasın, cinayətin əsl izi aşkara çıxmasın».

Bayram oğlu!
Məhbus hanədəyəm,
Məhbus hanədə qəlbimin

---

* Kaupvaxt - İçərişəhərdə Qoşa qala qapısının girəcəyində məsul məmurların dustaq saxlandığı səkili bina.

qanıyan çılpaq ayaqları
nə zaman çox uzun bulsa yolunu,
xatırladım bilməm nədən
Azəri yoldaşım Bayram oğlunu.

***Nazim Hikmət***

Məşədibrahim Məşədabas oğlu: (qaradovoy) Baş qaradovoy Babayev məni budkanın yanına aparıb dedi ki, «Burdakı ermənini möhkəm saxla, qaçmasın (şəkildə göstərdiyiniz adam idi). Bir az keçdi dustaqla söhbət etdim. Dedi ki, evində telefon tapıldığına görə onu tutublar, özü də müsəlmandır. Mən inanmadım, dedim ki, «fındıq»da görüm. Düz dedi. İnandım ki, müsəlmandır.

Gecə yarıya az qalmışdı, saat 11-12-də növbədə idim, Babayev gəldi, yanında da üç qaradovoy: Vəli, Həbib, bir də Əbdülrəhman, dedi ki, dustağı polismeyster Mirzəyev yanına çağırır, mənzilinə aparacayıq.

Qaradovoylar dustağı apardılar küçəyə, fayton çağırıb oturtdular, özləri də əyləşib, yollandılar Qaraşəhər tərəfə. Babayev gedib uzanıb yatdı.

Dustağı aparan qaradovoylar üç-dörd saatdan sonra gəlib çıxdılar. Həbibin xəncərində, Vəlinin isə patrondaşında qan ləkələri vardı. Səhərisi öyünürdülər ki, o adamı necə öldürüblər.

«Bəs bunların hamısını prokurora niyə deməmisən?».

«Ona görə ki, prokuror sorğu-sualı polismeyster idarəsində aparırdı. Qapının dalındakı qaradovoylar polismeysterin adamıdır, qulaq asırdılar. Çox güman ki, Mirzəyev özü də orada idi. Addımbaşı məni güdürdülər. Eşitmişəm ki, məni öldürəcəklər.»

***Yaremçuk Nikolayeviç Yakov*** (9-cu polis şöbəsinin okolodoçnisi): 1920-ci il mart ayının 23-də iki nəfər süd satan malakan arvadı səhər tezdən şəhərə gedəndə yolun kənarında çuxurda başsız bir meyit görürlər, səs-küy salıb adamları yığırlar. Hadisə yerinə getdim. 9-cu Zavağzal ilə 11-ci Zavağzal küçələrinin arasında, yerdə bir adam başı gördüm. Tatara da oxşayırdı, yəhudiya də. Olardı 25-30 yaşlarında, üzü qırxılmamış; yeddi-səkkiz addımlıqdakı çuxurda ayaqları yamacda başsız bədən uzanırdı. Əynində üst köynək, göy mahud şalvar, ağ corab, bir də jilet vardı. Jilet və şalvarın cibləri boş idi. Palto, pencək və papaq yox idi. Cənazədən azca aralı yerdə qan izi görünürdü. Torpaq tapdanmışdı. Belə təsəvvür oyanırdı ki, cəsədi sürükləyiblər. Qan ləkələri olan yerdə torpağa sancılmış xəncər və ya da digər iti silahın izi aydın görünürdü. Yerdə iki parça kəndir də vardı. Cənazə soyuq olsa da təzə idi. Yaxınlıqdakı daxmalarda fəqir-füqəra ermənilər yaşayır, qorxularından gündüzlər də qapını daldan bağlayıb bərkidirdilər. Sorğu-sual apardım, heç nə deyə bilmədilər.

Xatisovun mərmi zavodundakı (indiki l. Şmidt) gözətçini də dindirdim, o da heç nə görmədiyini və eşitmədiyini söylədi. Cənazə tapılan cinayət yeri zavoddan min addımlıqdadır.

Mən bir köhnə palaz və kisə tapıb cənazənin üstünə sərdim. Yoldan ötən arabanı saxladım, meyiti qoyub polis şöbəsinə gətirdim. Pristavın əmri ilə cəsədi aparıb universitetin anatomiya teatrına təhvil verdim, ordan da müstəntiqin yanına yollandım.

***Kabulov*** (sabiq şəhər polismeysteri): Aprel ayının 7-də məni Balaxanı-Sabunçu polismeysterliyindən şəhərə köçürdülər. General-qubernator əmr vermişdi. Ayın 9-da, ya da 10-da məni Tiflis vağzalına, daxili işlər naziri Vəkilov olan vaqona çağırdılar. Qalabəyi Yusifov və general-qubernator Tlexas da yanında idilər. Hər ikisini vaqondan çıxartdı. Qaldıq ikimiz. Nazir mənə tapşırdı ki, Ömər Faiqin verəcəyi siyahıda olan adamları tutub həbsə salarsan. Heç kəsin sözünə qulaq asmazsan, heç kimin əmrini yerinə yetirməzsən, heç bir təzyiqə, hədə-hərbəyə baxmazsan. İş son dərəcə vacib və mürəkkəbdir. Qarabağa gedirəm, mən qayıdana qədər heç birini həbsdən buraxmazsan.

Ömər Faiqdən siyahını alan kimi Mirzəyevi tutub saldım kauptvaxta. Üç qaradovoyu da silahlı gözətçilər Bayıl dustaqxanasına apardılar. Dördüncü qaradovoyu tapa bilmədim, qaçmışdı Gəncəyə, Qoçu Əjdəri tutmaq mümkün olmadı. 4-cü polis şöbəsinin pristavı (Mirzəyevin yaxın qohumu) Seyidov və onun müavini Süleymanbəy mane oldular. Hər ikisini işdən xaric etmək barədə binagüzarlıqda oldum, qalabəyi Yusifov yol vermədi, ancaq yerlərini dəyişdirib Balaxanıya göndərdi.

Aprelin ortalarında Roman Şalvaşvili mənə müraciət etdi ki, onu öldürmək istəyirlər, təqibçilərdən xilas edim. Ona lazımi təlimat verib yola saldım.

Əli Bayramovun ölümü haqqında, hamıya məlum olanlardan başqa heç nə bilmirəm.

Belə vəhşiçəsinə öldürülmənin səbəbi, məncə, siyasi məqsəd üçün müəyyən planla olmuşdur.

***Ceyran Bayramova:*** Əlini tapmaq üçün daha açmadığım qapı, baş salmadığım idarə, güman gələn yer qalmamışdı. Axır getdim «Müsavat» firqəsinin yerləşdiyi Haşımovun evinə. Girdim müsavatın lideri Məhəmməd Əmin Rəsulzadənin kabinetinə, ikinci mərtəbədə, qapı ilə üz-üzə oturmuşdu. Otaq iri idi. Orta boylu, dolu, enlikürək kişi idi.

Məni hörmətlə qəbul etdi, oturmağa yer göstərdi; parlamandan tanıyırdı. Onda azərbaycanlı qızlarının idarədə işləməyi nadir hadisə idi. Nəql etdim ki, Əli Bayramovu hökumət tutub, yerini bilmək istəyirəm, xörək aparmalıyam. Üstündə pul yoxdur. hökumət tutub, taxsırı nədir qanunla cəza

verərlər. Yerini mənə söyləsinlər. Cavab verdi ki, Ceyran xanım, Əlinin tutulmağından mənim xəbərim yoxdur.

Aprelin 5-də axşam saat 9-a yaxın evdə idim. Ömər Faiq gəldi bizə, soruşdu ki, «Əlini tanıya bilərsən?», «Bəli, tanıyaram, - dedim, - niyə tanımıram?!». «Onda dur gedək mənimlə».

Qapıda fayton dayanmışdı. Minib getdim Çəmbərə kənd qəbristanlığına. Küçələr bərbad, atlar faytonu zorla çəkirdilər, tez-tez büdrəyirdilər, yoxuşu qalxdıqca tövşüyür, fınxırırdılar. Faytonçu tez-tez atlara acıqlanırdı: «Ay çər dəysin sizə!.. Hə, kürən! Tərpən!».

Hər yer bomboş idi. Əhali qorxu və ehtiyatdan gün batanda, hələ qaranlıq düşməmişdən ev-eşiyinə çəkilib, darvazaları arxadan lomlamışdılar. Az evdə, qırılmaqda, üzülməkdə olan ümidi xatırladan zəif işıq görünürdü, elə bir təsəvvür oyanırdı ki, indi, bir azdan sönəcək. Hər addımda küçə uzunu o tay-bu tayda xaraba daxmalar, evlər, viranə məhəllələrin acınacaqlı görkəmi göz ağrıdır, ürək yandırırdı. Qəbiristanlığın ətrafında əsl mənada məzar, ölüm sükutu vardı.

Ürəyimdən qara qanlar axırdı.

Fayton dayandı. Düşdük. Milyonçu Şəmsi Əsədullayevin təmtəraqlı qəbirindən xeyli aralı olan daxmaya tərəf getdik. Küçələrdən yığılıb gətirilən sahibsiz meyitlər bu xaraba daxmada saxlanılırdı.

Ömər Faiq əlində fanar qabaqda, mən də onun dalıyca xaraba daxmaya girdim. Brezent parçasını qaldırdı, fanarı yaxınlaşdırıb cənazəni mənə göstərdi. Tez əyilib üzünə baxmağa cəhd etdim. Başı yox idi, başsız bədən. Qırmızı uzun boyun çıxıb dəridən. Diksindim. Dedim: «Mən başsız adamı necə tanıya bilərəm...». Az qaldı qəşş edim. O yazıq da meyitin başsız olduğunu yəqin ki, bilmirmiş (bəlkə də bilirmiş). Meyitin əynindəki ağ tuman-köynəyində qan quruyub qalmışdı.

«Tanımıram, Ömər Faiq əfəndi», təkrar etdim. Gəzlərim qalmışdı başsız, yarım üryan meyitdə.

Birdən yadıma düşdü, dedim: «Dayanın, onun sağ əlində nişan var». Aldım əlini ovsuma. Əl parça-parça, xəncər yarası, sağ əlinin baş barmağında tikiş yeri vardı, dırnağı da haça bitirdi. Kapitan olan zaman tufana düşür. Maşınxanaya enəndə baş barmağı zədələnir. Xeyli vaxt sarıqlı qalmışdı. O da yadıma düşdü ki, boyunlu idi, boyunla bədən birləşən yerdə iri bir qara xal da vardı... Onu da tapdım... Özü idi...

Ömər Faiq meyitin üstünü brezentlə örtdü, fanarı yuxarıya qaldıranda gördüm ki, kənarda bir baş var. Dəhşətə gəldim: «A!.. - dedim, - Odur, baş orda...». Gedib başı gətirdim qoydum cəsədin yanına, üstünü örtdüm...».

Evimizdə məhşər qopmuşdu. Anam özünü öldürürdü.

Səhərisi Əliheydər Qarayev başda olmaqla yoldaşları gəldilər.

Həyətdə pərdə asıldı, meyit yuyuldu. Yuyanda Səadət nənəm pərdəni aralayır ki, baxsın, birdən tək başı Həsənbala dayımın yuduğunu görəndə yıxılıb özündən gedir. Nənəm tezliklə öldü.

Yas quruldu. Aprelin 7-də dəfn mərasimi oldu.

Çox adam gəlmişdi. Mədənlərdən, zavodlardan, fabriklərdən fəhlələr, qulluqçular axışıb gəlirdilər. Dənizçilər daha çox idi. Səhərdən gəlmişdilər. Kəmilərdə, mədənlərdə, dəmir yolunda, depolarda, tərsanələrdə, zavodlarda matəm fiti bir-birinə qarışmışdı.

İki orkestr qəmli, yanıqlı matəm havası çalırdı. Dənizçilər səs-səsə verib mübariz inqilab şərqiləri oxuyurdular.

Tabutu qaldırıb Spaski (Qasım İsmayılov) küçəsi ilə qəbiristana yollandılar. Bu küçə düz gedib parlamanın qabağına çıxırdı. Camaat tabutu çiyinlərində aparırdı.

Parlamanın qabağına çatanda ayaq saxladılar. Matəm mitinqini Əliheydər Qarayev açdı. Dənizçilərdən iki kapitan, firqəçilərdən qocaman kommunist Şəmsəddin Musaxanov danışdı. Əliheydər Qarayev öz atəşin çıxışında qəzəblə dedi: «Ey cəlladlar, insan başı kəsənlər, siz elə bildiniz ki, Əli Bayramovun başını kəsməklə hakimiyyəti əlinizdə saxlaya biləcəksiniz, tarixin çərxini geri çevirib çəkəcəksiniz, bu mümkün olmayacaq».

Tabutu qaldırıb dəfn namazını qılmaq üçün Təzəpir məscidinə apardılar. İnsan sel təki axırdı, küçələr darısqallıq edirdi. Məscid həyətində də mitinq oldu. Bir nəfər fəhlə neftə bulaşmış qara libasda qışqıra-qışqıra izdihama müraciətlə, əlilə tabutu göstərərək xitab etdi: «Camaat, görürsüz də! Pullular, dövlətlilər füqəra kasibənin adamlarına nə divan tuturlar. Bu gün füqərayi kasibənin matəmidir. Qanundan, ədalətdən danışanlar haqq yolunda çalışanların başını kəsib qana qərq edirlər...».

Birdən minarənin eyvanından başdan-ayağa matəm libası geymiş, qara əmmaməli bir molla sözləri uzada-uzada kədərli fəryad qopartdı: «Qətlil Hüseyn...»

# BİR NEÇƏ MƏLUMAT

Nəriman Nərimanov 1919-cu ilin iyulunda Həştərxandan əksinqilabçı Müsavat hökumətinin baş naziri Nəsibbəy Yusifbəyova yazır: «Bütün siyasətiniz üçün Zaqafqaziya müsəlman fəhlə və kəndlilərinin məhkəməsi qarşısında cavab verməli olacağınız müdhiş saat yaxınlaşır...».

* * *

***Bazarda qiymətlər*** - Ağ çörəyin girvənkəsi (400 qram) - 30 manat, qarışıq çörək - 23 manat, kəpəkli çörək - 18 manat, arpa çörəyi - 8 manat,

qoyun əti - 36 manat, pendir - 80 manat, yağ - 140 manat, qənd və şəkər - 110 manat, manpası - 130 manat, soğan - 16 manat, kartof - 15 manat, süd - 15 manat, səbzə-kişmiş - 30 manat, düyü – 20-25 manat, yumurta - 10 manat. Fəhlənin gündəlik əmək haqqı isə 35 manatdır. İndi kasıb, gəl külfət saxla.

* * *

***Mədənlərdə.*** Bibiheybətdə bir neçə fəhlənin söhbəti: «İki gündür evə getməmişəm, balalarım yalvarıb ət istəyirlər». «Bizimkilər çörəyə həsrətdirlər, ətin dadı çoxdan yaddan çıxıb. Özüm azarlı; işə çıxmasam olmur». «Əh, mən özüm acından ölürəm, o ki, arvad-uşaq ola? Sahibkarlar günümüzə 30 manat verirlər. Onun da beşini mirzə çıxır, üçünü podratçı kəsir, ələ gələni də kara gəlmir», «A kişi, pulu o qədər gec verirlər ki, qiymətdən düşür olur zibil».

* * *

Bir nəfər Bibiheybətə nəzir aparırdı. Fəhlələr onu dayandırıb yalvarırlar ki, sən allah, sən peyğəmbər, bizim adımızdan da Bibini ziyarət elə və xahiş elə ki, bu qarnıyoğun xozeyinlərin ürəyinə rəhm salsın, olmasa neft quyularına od salsın.

***Suraxanıda.*** Gündüzlər də bayıra çıxmaq olmur. Hərc-mərclik hökm sürür. Evləri qarət edirlər; qışqır-bağır, yalvarmaq kömək etmir. Polis məmurları özü qarət edənlərdir.

* * *

Dağıstan neçə aydır ki, od içində yanır, məmləkət puç olur.

* * *

Şibayevin Ağ şəhərdəki zavodundan domna sobasındakı platin kasa oğurlanıb. Əhvalat belə baş verib: gecə saat 3-də bir dəstə adam zorla həyətə soxulub, silah gücünə növbədə olan gözətçilərin hamısının əl-qollarını sarıyıb, sexə keçib ocağı (farsunkanı) söndürüb, platin kasanı çıxarmışlar. Küçədə də üç nəfərin əl-qolu sarınıbmış. Qapıçını qarnından 2 güllə ilə yaralayıblar. Yaralı, telefonla çapqın barədə polisə xəbər verməyə macal tapıb, sonra ölüb. Mütəxəssislərin fikrinə görə platin kasanın dəyəri ağlasığmaz dərəcədə bahadır. Hazırkı qiymətlərlə hesaba gələn deyil; əgər zavodda ehtiyat platin kasa yoxsa iş dayanacaq.

* * *

Fatmayıda kəndxuda kor Rəhman bir «malades» üçün Dadaş Bünyadzadəni tutub pristava vermişdir.

İngilislər iyirmiyə qədər adamı, günahsız olduqları halda, əsassız, bir ildən beş ilə qədər həbsə məhkum edib dustaqxanalarda saxlayırdılar. Ortada heç bir sənəd-sübut yoxdur.

* * *

Nikolay və Kerenski pullarının qiyməti gündən-günə aşağı düşür. Birjada çaxnaşma, maliyyəçilər, dəllallar, alverçilər başlarını itirib.

* * *

Quba (Füzuli) meydanında və Şamaxı yolunda (Cəfər Cabbarlı küçəsi) qoçular bəhsə-bəhslə at çapanda atların ayaqları altında bir arvad və üç uşaq qalıb, bir uşaq ölüb, ikisi yaralanıb, arvad da yarımcandır.

Üç dövlətli bəhsə-bəhs fayton çapanda qabağa ötən faytona dalda qalanlar güllə atıblar, atışma düşüb, ölən və yaralananlar var, yoldan ötən iki nəfər cavan da ölüb.

* * *

Ey gül bədənim, sən nə üçün böylə mükəddər,
Halada tulu etmədimi fəsli baharın?
Ey canlı çiçək, örtülü qalsınmı üzarın?
Aç çöhrəni! Ey çöhrayi məstur və füsunkar.

***Məhəmməd Hadi***

* * *

Bir tabor əsgər hərbi musiqi təranələri altında təlimdən Salyan qışlalarına qayıdanda, bir qoçu onları Quba (Füzuli) meydanında dayandırıb, musiqiçilərə «Azərbaycan» havası çaldırtdırıb, özü oynayıb; əsgərlər və meydanda olan adamlar əl çalıblar. Sonra da qoçu əsgərləri pitiyə qonaq edib, hər əsgərə 50 manat bağışlayıb.

## SABAHA AÇILAN PƏNCƏRƏ

Hava korpusu - Bakı sahil radio stansiyası. Bolşeviklərdən bir radist 1919-cu ilin axırlarından başlayaraq Bayıldakı stansiyadan gizli surətdə əvvəl Həştarxan, sonrada Moskva ilə necə əlaqə yaradıldığından danışırdı: «Rabitə çox zəif idi, lakin təşkilat Moskvaya ardıcıl məlumat verib, tapşırıq almalı idi. Həştərxana bolşeviklərin xüsusi ekspedisiyası vasitəsilə göndərilən xəbərlər çox vaxt gecikir, əhəmiyyətini itirir, həm də gündən-günə çətinləşirdi. Bütün yolları ağlar mühasirəyə almışdılar, ekspedisiyanın qayıqlarını tutur, komandaya olmazın işgəncə verib, axırda da güllələyir, ya da ki, diri-diri çuvala salıb dənizə atırdılar. Bünyad Sərdarov, F. Qubanov, Səməd Cəfəroğlu, Kuznetsov, İvan Saraykin, Roqov və başqalarını bu yolla öldürmüşdülər.

Mərkəz xeyli götür-qoy edəndən sonra qət etdi ki, radio ilə rabitə yaratmaq lazımdır: başqa çarə yox idi.

Bu çətin, ağır və çox qorxulu iş idi. İlk günlərdə heç nə çıxmadı. Axırda birtəhər Həştərxan radio stansiyasına salandıq. Birinci radioqramı gecə saat 4-də verdik və cavab da aldıq. İnanılmış matroslardan biri aparatlara, birisi də radistə baxırdı, həm də əhvalatdan xəbərdar olmayan qulluqçuları gözdən qoymurdular.

Rəhbərlik mənə göstəriş verdi ki, radio ilə, aldığımız cavabı Persidski (Poluxin) küçəsindəki Çolax Ağabala Quliyevin mülkünə aparım. Binanı tapıb zəngi çaldım. Qapıda bir arvad göründü və nəzakətlə soruşdu: «Kimi istəyirsiz? Sizə nə lazımdır?». Mən də nəzakətlə xəbər aldım: «Mariya İvanovna evdədir?» Qadın qapını aralayıb məni təmtəraqlı geniş bir dəhlizə buraxdı: «Buyurunuz salona!», - dedi.

Salon şərq üslubunda bəzənmişdi. Tavan döşəmədən gözəl, döşəmə divarlardan. Divarlar isə əfsanəvi bir aləm idi. Nəqşlər, qızıl təki par-par bərq vurur. Adam özünü itirir. Həqiqətdən çox əfsanəyə oxşayan bir aləm... Görməsən təsəvvür edə bilməzsən. Büllur çilçırağın hər biri elə bil iri brilyant parçasıdır. Çox güman ki, çilçırağın nəqşli metal hissələri gümüşdən idi. Küçəyə baxan pəncərələrin arasında tavana çatan əzəmətli daş güzgünün həşiyələri inkrustatsiyalı, naxışlı-bəzəkli gümüşdən idi. Hər şey həqiqətdən çox xəyala oxşayırdı. Mat-məəttəl salonun qeyri-adi zəngin bəzək-düzəyinə tamaşa edirdim ki, baş qapının məxmər pərdələri aralandı, qırx yaşlarında, sarışın bir kişi çıxdı. Əynində türk xalatı, ayaqlarında ev çustu, başında qara qotazlı, tünd sumağı fəs. Siması sərt, hərəkətləri cəld və çevik. Gözlərindən zəka yağırdı, tünd-kəskin baxışı, burma, qəşəng bığı, üst-başı, duruşu-oturuşu, hərəkət tərzi, üzündəki cizgilər, hər şey, hər şey onun türk olduğunu göstərirdi. Xalis türk paşası idi. Yaxınlaşıb əlini uzatdı, mən də əl verdim; barmaqlarım elə bil məngənəyə girdi. «Siz radio stansiyasındansınız?» deyə soruşdu. Başımı təsdiq işarəsi ilə tərpədib dedim: «Bəli!» Paşa oturmağa yer göstərdi. Taxtın arxa və baş tərəflərində xara üzlü mütəkkələr vardı.

Paşa da əyləşdi. Mən Həştərxandan aldığım radioqramı qoltuq cibimdən götürüb ona uzatdım. Paşa sevindi və lütfkar bir təbəssümlə, xoş baxışla mənə nəzər saldı, təşəkkür edib durdu ayağa. Mən də durdum. Əlini mənə uzatdı. Ehtiyatla əl verdim. Vidalaşdıq.

Arvad məni yola salıb qapını bağladı.

Bu minvalla efirin elektromaqnit dalğaları Bakıya yeni-yeni xəbərlər, əmrlər, göstərişlər və məsləhətlər gətirir, Bakıdan isə görülən işlər barədə raportlar aparırdı.

Bu aylarda fəhlə-kəndli Qızıl Ordusu Denikinin ordusu ilə vuruşa-vuruşa cənuba tərəf irəliləyirdi.

Radio stansiyası işçiləri canlarını əsirgəmədən, ölüm təhlükəsindən belə qorxmayaraq Müsavat hökumətindən məvacib alıb başlarının üstündən Moskvaya xidmət edirdilər. Bəzən gecələr radioqram vermək mümkün olmayanda, risk edib, gündüzlər rəqəm şrifti ilə məlumat verirdilər. Bir dəfə gündüz günorta çağı qəfildən poçt-teleqraf kantorunun rəisi gəlib girir içəri və soruşur ki, radioqramı hansı şriftlə verirsiz. Radist özünü itirmir, cavab verir ki, Yerevanı çağırıram. Xoşbəxtlikdən onda Yerevanla əlaqə rəqəm şrifti ilə saxlanırdı. Yenə xoşbəxtlikdən o zamanlar ağqvardiyaçı könüllü donanmada

işləyən radistlərin çoxu sovetlərə hüsn-rəğbət bəsləyirdilər. Bakıdan tutduqları radioqramları denikinçilərdən gizlədirdilər. Onlar hətta Bakı ilə əlaqəyə girib xəbərdar edirdilər.

İş o yerə çatmışdı ki, Bakı hər an, istədiyi vaxt Həştərxan və Moskva ilə əlaqə saxlaya bilirdi.

Birdən hökumətin yarım rəsmi orqanı «Azərbaycan» qəzeti öz səhifələrində elan etdi ki, Türkmənistandan gələnlər xəbər verirlər ki, Bakı radiostansiyası hər gecə Həştərxandakı bolşeviklərlə calanır, məlumat verir, göstəriş alır. Radiostansiya bolşeviklərin casusluq ocağıdır.

Görünür Xəzərin o tayında denikinçilərin radiostansiyası Bakıdan verilən radioqramları tuturmuş. Hər an intizarla gözləyirdik ki, gəlib bizi tutub həbs edəcəklər, ağır cəza verəcəklər.

Həftənin axırında tezə əngəl çıxdı. Gecə saat 12-də radiostansiyaya iki nəfər türk radioteleqrafçısı təyin etdilər. Birinin adı Vəli, o birisininki Əziz Xəlil. Rusca pis danışırdılar. Əziz əsasən telefon olan yerdə otururdu.

Rəisimizə dedilər ki, poçt-teleqraf naziri səni telefona çağırır. İşin nə yerdə olduğunu başa düşür, gecənin bu aləmində, şübhəsiz ki, söhbətin ancaq gizli verilişlər barədə olacağını duyur. Həyəcanla, əli əsə-əsə telefon dəstəyini götürür, rəsmi bir dildə deyir: «Cənab nazir, qulaq asıram». Nazir bərkdən qışqıra-qışqıra düşür onun üstünə: «O nədir, orda casus ocağı açmısız? Bu dəqiqə qaç şöbə müdirinin yanına, de ki, radiostansiyanı bağlayıb möhürləsin. Gözətçi qoysun. Heç kəsi stansiyaya yaxın buraxmasın».

Qapı şarappıltı ilə açıldı, şöbə rəisi kandarda göründü. Qəm dəryasına batmışdı. Yaxınlaşıb telefon dəstəyini yoldaşımızın əlindən alıb, özünü o yerə qoymayaraq başladı nazirlə danışmağa: «Heç ola bilməz ki, bizim işçilərimiz casusluq eləsin. Özüm hər şeyi yoxlayıb, günahkarları verərəm məhkəməyə...». Radist pəncərə qabağında dayanıb, dənizə baxır, özü isə qəm dəryasındadır, işin nə ilə qurtaracağını götür-qoy edir. Fikrindən bir-birindən qorxulu min bir ehtimal keçir. Nə etmək? Nə qədər ki, tutub həbs etməyiblər qaçıb aradan çıxmaqmı? Yoxsa qalıb gözləməkmi?

Şöbə rəisi nazirlə danışıb qurtardı, dəstəyi yerinə qoydu, dönüb pəncərə qabağındakı radistə dedi: «Gedək, radio stansiyasını bağlayıb möhürləyək. Əsgərlər də, gözətçilər də şahid kimi akta qol çəkərlər».

Elə də elədilər. Bütün gecəni gözlədilər ki, gəlib onları həbsxanaya aparacaqlar.

Sabahı gün radiostansiyaya dörd nəfər poçt-teleqraf işçilərindən nəzarətçi təyin etdilər. Yoxlama aparmağı nazirliyin işlər müdiri sol eserə tapşırdılar. O da Müsavat hökumətinin son günləri olduğunu, onun tezliklə yıxılacağını güman edib, işi təxirə saldı. Nazirin özü də, çox güman ki, o fikirdə imiş.

Görünür radiostansiyanın öz qulluqçularından kim isə intiqam almaq məqsədilə nazirə şeytanlıq etmişdi. Qızıl Ordu Petrovskini (Mahaç-Qala) azad edib Azərbaycan sərhədlərinə yaxınlaşırdı.

Mərkəz bizə tapşırmışdı ki, üsyan vaxtı birdən hökumət Tiflisə, gürcü menşeviklərinə müraciət edib yardım istəsə radiostansiyanı xarab edin. Müsavatçılarla gürcü menşevikləri arasında qarşılıqlı hərbi yardım müqaviləsi vardı.

Üsyan vaxtı Moskvadan radio ilə kömək istəməyi həyata keçirə bilmək üçün türk radistlərini, Vəli və Əziz Xəlili Bakıdakı Mustafa Kamal tərəfdarları olan mərkəzə aparıb başa saldılar ki, Sovet Rusiyası ilə Türkiyə azadlıq hərəkatı rəhbərləri arasında dostluq münasibətləri var. Zaqafqaziyada Sovet hakimiyyəti qurmağı Mustafa Kamalın başçılıq etdiyi yeni Türkiyə hökuməti də istəyir. Kamalçıların Antantaya qarşı mübarizəsini davam etdirmək üçün yardımı ancaq Zaqafqaziya vasitəsilə göndərmək mümkündür. Fransız və ingilis qoşunlarını Türkiyədən ancaq bu yolla qovmaq olar. Kamalçılar Əziz Xəlilə və Vəliyə lazımi təlimat vermişdilər.

Aprelin 26-dan 27-sinə keçən gecə radio ilə Moskvaya xəbər verməli idik ki, Bakıda silahlı üsyan olacaq. Xahiş olunur Qızıl Ordu köməyə gəlsin.

Xəlil araq alıb, hökumət nəzarətçilərini yataqxanaya apardı. Vəli isə Xəlili əvəz etməyə getdi; onlar bir-birinə yaman inanırdılar.

1920-ci il aprelin 27-də Azərbaycan İnqilab Komitəsi dərhal kömək üçün radio ilə Moskvaya - V. İ. Leninə müraciət etdi. Müraciətnamədə deyilirdi ki, Bakı proletariatı üsyan edərək Müsavat hökumətini yıxmışdır. İnqilab Komitəsi Gəns Rusiya Sovet Respublikası hökumətinə qardaşlıq ittifaqı bağlamağı təklif edir. Xarici və daxili əksinqilabın birləşmiş qüvvələrinə qarşı öz gücü ilə müqavimət göstərməyə imkanı olmayan İnqilab Komitəsi kömək üçün dərhal Qızıl Ordu hissələrinin göndərilməsini xahiş edir.

Qızıl Ordunun Qafqaz cəbhəsinin sərkərdəsi M. N. Tuxaçevskinin əsgərləri Denikinin könüllü ağqvardiyaçı dəstələrini tar-mar edib Zaqafqaziyaya yaxınlaşmışdı. XI Qızıl Ordu artıq Dağıstanı təmizləyib Azərbaycan sərhədlərində idi.

Bakı proletariatı var qüvvəsilə silahlı üsyana hazırlaşırdı. Mədən və zavodlarda, fabrik və emalatxanalarda, dəmir yolunda və donanmada, xüsusən hərbi gəmilərdə və əsgərlər arasında əlahiddə dəstələr yaradılmışdı; təbliğatçılar əhali arasında qızğın fəaliyyət göstərirdilər.

Milyonçular - Bakının neft sahibkarları, böyük tacirlər, sərmayə sahibləri Novruz bayramı şənlikləri tamam olan kimi dəstələrlə vəzndən yüngül, qiymətdən ağır var-yoxlarını götürüb Batuma, ya da Ənzəliyə qaçırdılar. Biletin qiyməti çox baha idi. Dəmir yolu vağzalında adam əlindən tərpənmək olmurdu. Körpülərdə basabas idi. Varlılar artıq anbarlara da doluşurdular. Göyərtələrdə ayaq qoymağa yer yox idi.

Ayaq altında qalanlar da az deyildi.

Proletariat cəbhəsində sinfi həmrəylik tam qüvvəsilə özünü göstərir, hamı silahlı üsyana hazırlaşırdı.

Hərbi İnqilab qərargahı xaricdə və daxildə lazımi yerlərlə əlaqə yaratmışdı.

Hadisələr ildırım sürətilə bir-birini əvəz edirdi.

Hələ 1920-ci il mart ayının 15-də Zaqafqaziya zəhmətkeşləri gənc Sovet Rusiyasına, Leninə müraciət edir.

Martın 17-də, Zaqafqaziya xalqlarının bu müraciətini alandan iki gün sonra V. İ. Lenin Qafqaz Cəbhəsi İnqilabi hərbi şurası İ. T. Smilqaya və Q. K. Orconikidzeyə teleqram göndərir. «Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün səylərinizi buna verin...»*

Qafqaz cəbhəsinin komandanı M. N. Tuxaçevski operativ əməliyyat planı tərtib edir. Aprelin 25-də M. Q. Yefremov Qızıl Ordunun İnqilab Şurasına çağırılır. Ona Bakıya hərəkət etmək əmri verilir.

Aprelin 26-da Azərbaycan Kommunist (bolşevik) Partiyasının və RK(b)P-nin Qafqaz Ölkə Komitəsinin Bakı bürosu ilə birgə təcili iclasında əksinqilabçı Müsavat hökumətini silahlı üsyan yolu ilə yıxmaq üçün operativ plan tərtib edilir. Qaraşəhər və Bayıldakı gizli anbarlardan fəhlələrə silah paylanır, Çingiz İldırım, Mirzə Davud Hüseynov, Həmid Sultanov və başqa bolşeviklərin topladıqları silahlar proletar inqilabına xidmət edəcəkdi.

Eynilə Balaxanı, Sabunçu, Ramana, Binəqədi və sair mədənlərdə, Ağşəhər və Qaraşəhərdəki zavodlarda, dəmir yolu deposu və emalatxanalarında əhaliyə silah paylanır. Gəmilərdə, körpülərdə və tərsanələrdəki fəhlələrə isə Çingiz İldırımın göstərişilə silah verilir.

Mədən və zavodlarda törədilə biləcək təxribat və yanğının qabağını almaq məqsədiylə xüsusi silahlı gözətçilər təyin edilir.

Aprelin 26-da Azərbaycan Kommunist (b) Partiyası MK nümayəndələri Q. Musabəyov, H. Cəbiyev və sairələri Dağıstan - Azərbaycan sərhədinə gəlirlər.

Aprelin 27-si səhər AK(b)P MK Müvəqqəti İnqilab Komitəsi yaradır və Nəriman Nərimanov Komitəyə sədr seçilir.

Hərbi donanmanı üsyana hazırlamaq Çingiz İldırıma tapşırılır. Donanmada 7 hərb gəmisi vardı. Onlara güclü toplar qoyulmuşdu.

Hərb gəmilərinin heyəti bütünlüklə kommunistlərdən və onların tərəfində olan adamlardan ibarət idi. Aprelin 26-dan 27-nə keçən gecədə, Çingiz İldırım gəmilərə top gülləri yollayır.

Bayılda, ən hündür yerdə uzaqvuran sahil topları qoyulmuşdu.

---

* V. İ. Lenin. Əsərlərinin tam külliyyatı, 51-ci cild, səh. 191.

Aprelin 27-də səhər tezdən, Çingiz İldırım bir dəstə dənizçi ilə gözlənilmədən Bakı hərbi yunker məktəbinə daxil olub, bütün kursantları tərksilah etmişdilər. Bir az sonra fəhlələrlə bərabər birinci şəhər polis şöbəsini tutub və hökumətin Bayıldakı silah anbarını zəbt edirlər. Limanı tutandan sonra Bayıl həbsxanasındakı siyasi məhbusları azad edirlər. Dadaş Bünyadzadə, Rəhim Hüseynov, Qasım İsmayılov və digər bolşeviklər həbsdən xilas olurlar.

Azərbaycan K(b)P MK-nın sərəncamı ilə Xəzər hərbi donanması əmrə hazır idi. Bütün gəmilərdən aypara və səkkiz guşəli ulduz və üç (qırmızı, abı və yaşıl) rəngli müsavat bayraqları çıxardılıb əvəzinə Sovet Azərbaycanının çəkic-oraqlı, ay-ulduzlu qırmızı bayraqları sancılır.

Aprelin 27-də səhər saat 10-da Çingiz İldırımın komandası altında limandakı hərb gəmiləri top lülələrini Parlamentin binasına tuşlamışdı.

Bakıda çox gərgin, qeyri-adi, təhlükəli vəziyyət yaranmışdı, hərbi donanma bütünlükdə, ordunun bir hissəsi, dəmir yolu, poçt, teleqraf, radio artıq bolşeviklərin əlində idi. Müsavat hökumətinin başçısı Nəsibbəy Yusifbəyov, hərbiyyə naziri Mehmandarovdan soruşur: «Müsavat ordusu düşmənin qarşısını saxlaya bilərmi?» Hərbi nazir Səmədbəy suala sualla cavab verir: «Siz hansı düşməndən danışırsız?» - Və özü də cavab verir. - «Əgər daşnakları və menşevikləri deyirsinizsə, buna ümid etmək olar, lakin Qızıl Ordunu nəzərdə tutursunuzsa, bu mənasızdır, cənab baş nazir. Onlara qarşı bir an belə gücümüz çatmaz! Biz bolşeviklərlə döyüşməyəcəyik!»

Hərbiyyə naziri Səmədbəy Mehmandarovun oğlu şahidi olduğu son günü belə təsvir edir: «On iki yaşım var idi. Atam aprelin 27-də parlaman iclasından qayıdıb özümüzlə aparmaq üçün anamın hazırladığı çamadanları gördükdə dedi ki, bunları boşalt, heç yerə gedəsi deyilik. Anam: «Nə danışırsan? Necə gedəsi deyilik? Bilmirsən ki, səni güllələyəcəklər?».

Atam cavab verdi ki, «Parlamanın son iclası qurtaranda «Hümmət» fraksiyası lideri Əliheydər Qarayev mənə yaxınlaşıb əmin etdi ki, «Səmədbəy, getmə, qal! Heç yerə getmə. Söz verirəm ki, başınızdan bir dənə də tük əskik olmayacaq. Qal bizimlə işlə...».

Anam dilləndi: «Ola bilər ki, sənə heç nə eləməzlər, amma oğlunun taleyi, gələcəyi, mənim vəziyyətim?;.» Atam qəti səslə: «Heç yerə getməyəcəyik», dedi. Anam mızıldadı: «Axı qatar Biləcəridə gözləyir...». Atam: «Bizsiz də gedərlər. Vətəndən ayrılmağa heç bir əsasım, haqqım yoxdur».

Doğrudan da Biləcəridə Müsavat hökumətinin başçılarını Tiflisə aparacaq qatar atama görə saat yarım gözləmişdi.

Aprelin 28-i səhər Hər günkü təki yuxudan qalxdıq. Çay içdik, çörək yedik. Atam general libasını geydi, başladı maşını gözləməyə. Şoferdən xəbər yox idi. Telefonda zəng çaldı, cavab verən olmadı. Məni göndərdi ki, get gör

Əşrəf niyə maşını gətirmir. De bir az tələssin, gedib nazirliyi təhvil verməliyəm».

Qaraj indiki «Azneft» binasının arxasındakı birmərtəbəli binaların birində idi. Müsavat hökumətinin baş nazirliyi də indiki «Azneft» binasında yerləşirdi.

Mirbabayev o binanın yarısını hökumətə verib kirayə də almırdı.

«Getdim gördüm ki, qarajı, o ətrafda olan mülkləri silahlı adamlar araya alıblar, heç kəsi girib çıxmağa qoymurlar. Şofer də uzaqda dayanıb. Dedim ki, Əşrəf, atam maşını gözləyir, niyə gəlmirsən?» Silahlı adamları göstərib dedi ki, «bunlar məni qaraja yaxın qoymurlar».

Qayıdıb əhvalatı atama xəbər verdim. Çıxdım küçə tərəfdəki eyvana. Dor ağacında oraq-çəkic ulduzlu bayraq yellənən bir barkaz sahilə yaxınlaşırdı. Otağa girib gördüyümü atama xəbər verdim. O dedi: «Bilirəm, məlum məsələdir...». Anama baxıb əlavə etdi: «Gedib nazirliyi təhvil verməliyəm».

Anam mənə baxdı: «Sən də geyin, atanla get, - dedi. - Bu qarışıqlıqda, allah bilir, nə baş verə bilər...»

Geyindim. Düşdük küçəyə, yollandıq nazirliyə. «Qafqaz-Merkuri» körpüsünün (indiki Kukla Teatrının) qabağında adamlar əllərində Qırmızı bayraq nümayişə çıxmışdılar. Atam general libasında onların yanından keçdi. Heç kəs dinmədi».

«Nazirliyə (Maliyyə nazirliyi olan bina) çatanda gördük ki, tünlükdür, çoxlu silahlı adam var. Atamı uzaqdan görəndə bir neçə nəfər yaxınlaşıb hörmətlə görüşdülər. Sovet Azərbaycanının hərbi Dəniz İşləri komissarı Çingiz İldırım qolundan yapışıb içəriyə aparanda, atam dönüb mənə dedi ki, get anana çatdır ki, hər şey qaydasındadır».

Sonralar general Səmədbəy Mehmandarov Sovet hökumətinin Bakıda açdığı hərbi məktəbdə dərs demiş, Moskvada Qızıl Ordu komandiri olmuşdur.

Vəziyyəti müzakirə etmək üçün aprelin 27-də səhər saat 10-da parlamanın fövqəladə iclası çağırılır. Hamı toplanır. Birdən salona başda Həmid Sultanov olmaqla üç nəfər daxil olur. Həmid Sultanov cəld addımlarla yaxınlaşıb içində ultimatum olan zərfi parlamanın sədrinə verir.

Salonda hamı özünü itirir, hamı susur.

Parlamanın sədri ultimatumu oxuyur: «Azərbaycan İnqilab Komitəsi parlamanı buraxıb Müsavat hökumətinin dərhal inqilabi komitəyə təslim olmağını tələb edir!»

Səmədağa Ağamalı oğlu yerindən qalxıb bərkdən deyir: «Vəssalam! Bazar bağlandı»

Elə bu vaxt, Çingiz İldırımın hərbi Qızıl Donanma adından Müsavat hökumətinə və parlamana göndərdiyi ultimatumu gətirdilər.

Parlaman sədri ultimatum gətirənlərə müraciət edərək dedi: «Quracağınız hökumətin siyahısını verin, məsələni fraksiyalarda müzakirə edək!»

Həmid Sultanov Azərbaycan inqilabi komitəsinin siyahısını təqdim edir.

Müzakirə başlandı.

Şəhərdə dövlətlilər arasına neçə gün əvvəl çaxnaşma düşmüşdü. Dəmir yolu vağzalında, bina qarşısındakı meydanda, perronlarda adam əlindən tərpənmək olmurdu. Dəniz qırağında da körpülərdə eyni vəziyyət idi.

Bolşeviklərə «Yardım alayı» dəstələrində şəhərdəki idarə və dövlətlilərin imarətlərini, Bank və ticarət müəssisələrini, zəngin mağazaları qorumaq, yanğına, soyğunçuluğa yol verməmək tapşırılmışdı.

«Təzəpir» məscidindəki «Yardım alayı» dəstəsində məşq edən kommunist Məhərrəm Sultanov nəql edirdi ki, komandirimiz türk kommunisti Məmməd Tahir bizi «Tacirlər» bankı, «Volqa - Kama» bankı və «Şimal bankı» yerləşən binaların dövrəsində gözətçi qoydu və dedi: «Şurası müdafiə məntəqəsi. Sayıq bulunun!» Çox sərt və fikirli idi, adi vaxtlardakı mülayim rəftardan əsər-əlamət yox idi. Özü də silahlanmışdı. Danışanda səsi zəhmli, danışıq tərzi sərt idi.

Qonşuluqdakı damı uçmuş, divarları dağılmış müsəlman teatrının xarabalığı adamın ürəyini göynədirdi. Küçələrdə də, ətrafda da qeyri-adi bir səs-küy, bir qarışıqlıq başlayırdı. Silahlı fəhlələrlə dolu maşınlar sürətlə şütüyürdü... Birdən vağzal tərəfdən parovozun və yardıma gəlmiş «III İnternasional», «Ulyantsov» zirehli qatarlarının sürəkli, qorxulu fit səsləri ucaldı... Hərb gəmilərinin fit sədaları da onlara qoşuldu.

Aprelin hələ 27-də axşam qaranlığı düşəndə ultimatumu müzakirə etmiş fraksiyaların qərarını parlaman sədri elan etmişdi: «Azərbaycan parlamanı bu gündən öz fəaliyyətini dayandırır və müsavat hökuməti bütün hakimiyyəti doktor Nəriman Nərimanovun sədrliyi altında qurulmuş Azərbaycan inqilabi komitəsinə təslim edir».

Qaranlıq tündləşirdi. Minarələrdən ucalan azan səsləri qızıllı kilsədə çalınan boğuq zəng səslərinə qarışırdı.

* * *

Bu yaz səhərindən qoca Şərqin qapısı, Odlar yurdu Sovet Azərbaycanının paytaxtı, əfsanəvi, tükənməz sərvət xəzinəsi qədim Bakının tarixində yeni - xoşbəxt bir dövr başlanır.

Манаф Фарадж оглы Сулейманов

ДНИ МИНУВШИЕ

(на азербайджанском языке)

Redaktorları: Ayna Hüseynova, Telman Nəzərli

Rəssamı: F. Əfəndiyev

Bədii redaktoru: B. Xananyev

Texniki redaktoru: T. Əliyeva

Korrektorları: Z. Məmmədova, B. Ayvazlı

İB 3835

Yığılmağa verilmiş 14.07.86. Çapa imzalanmış 26.01.87. FQ 18549.

Formatı 84x108$^{1/}{}_{32}$. Mət. kağızı № 1. Jurnal qarnituru. Yüksək çap üsulu ilə.
Şərti çap vərəqi 17,43. Şərti rəngli surəti 17,75. Uçot nəşr vərəqi 18,2.

Tirajı 50.000. Sifariş 6980. Qiyməti 1 man. 30 qəp.

Azərbaycan SSR Dövlət Nəşriyyat, Poliqrafiya

və Kitab Ticarəti İşləri Komitəsi.

Xalqlar Dostluğu ordenli Azərbaycan Dövlət Nəşriyyatı,

Bakı - 370005, Hüsü Hacıyev küçəsi, № 4,

Azərbaycan KP MK-nın «Kommunist» nəşriyyatının mətbəəsi.

Государственный комитет Азербайджанской ССР по делам издательств, полиграфии и книжной торговли.

Азербайджанское ордена Дружбы народов государственное здательство «Азернешр». Баку — 370005, ул. Гуси Гаджиева, 4.

'ипография издательства «Коммунист» ЦК КП Азербайджана.



**Bakı qalası**



**Bakının mənzərəsi**



**Bakının köhnə tiplərindən**



**Bakının köhnə tiplərindən**



**Atəşgah**



**Sahil küçəsi**



**Qaraşəhər**



**Sahildə**



**Balaxanı**



**Buruqda**

# KITABIN İÇİNDƏKİLƏR

BİR NEÇƏ SÖZ ........................................................................................3

BAKININ KÖHNƏ MƏHƏLLƏLƏRİ..............................................................5

VƏ TİCARƏT MƏRKƏZLƏRİ ......................................................................5

NEFT SƏNAYESİNİN İNKİŞAFI ..................................................................49

QAFQAZ MÜSƏLMAN MÜƏLLİMLƏRİNİN 1-Cİ QURULTAYI ...........104

BİRİNCİ DÜNYA MÜHARİBƏSİ...............................................................124

1916-1920-ci İLLƏRDƏ BAKIDA BAŞ VERƏN HADİSƏLƏR ................127

LƏNKƏRANDA AÇILAN BİR GÜLLƏNİN BAKIDAKI..........................135
ƏKS-SƏDALARI.........................................................................................135

BAKI YENƏ DƏ ƏLDƏN-ƏLƏ KEÇİRDİ ..................................................168

XƏSTƏ BİR MƏHƏLLƏNİN AZARI VƏ DƏRDLƏRİ ...............................179

BİR NEÇƏ MƏLUMAT ...............................................................................233

SABAHA AÇILAN PƏNCƏRƏ...................................................................235